**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# MA G İ S T R A N T

dövri-elmi jurnal

**ISSN 2788-696**

**2022 №1(3)**

**B A K I -2022**

**Baş redaktor:**
**Asəf D.Zamanov**
fizika-riyaziyyat elmləri doktoru, professor
ADPU-nun elm və innovasiyalar üzrə prorektoru
(ADPU, Bakı, Azərbaycan)

**Redaksiya heyəti:**

**Arif Ş.Şəkərəliyev**
iqtisad elmlər doktoru, professor
(ADİU, Bakı, Azərbaycan)
**Bəhlul İ.Ağayev**
biologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Bəhram H.Əliyev**
riyaziyyat elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Əbülfət Q.Pələngov**
pedaqogika üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Əhməd Ş.Abdinov**
fizika-riyaziyyat elmləri doktoru, professor
(BDU, Azərbaycan)
**Ələkbər Ə.Əliyev**
texnika elmləri doktoru, professor
(BDU, Azərbaycan)
**Əli Z.Zalov**
kimya üzrə elmlər doktoru, dosent
(ADPU, Bakı, Azərbaycan)
**Əmir İ.Əliyev**
hüquq üzrə elmlər doktoru, professor
(BDU, Azərbaycan)
**Fərrux A.Rüstəmov**
pedaqoji elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Gülnaz A.Abdullazadə**
fəlsəfə elmlər doktoru, professor
(BMA, Azərbaycan)
**Hikmət Ə.Əlizadə**
pedaqoji elmlər doktoru, professor
(BDU, Azərbaycan)
**İbrahim M.Bayramov**
filologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**İlham Ə.Şahmuradov**
biologiya elmləri doktoru, professor
AMEA-nın müxbir üzvü
(AMEA, Bakı, Azərbaycan)
**İsa N.İsmayılov**
pedaqogika üzrə elmlər doktoru, dosent
(ADPU, Bakı, Azərbaycan)
**Mahirə N.Hüseynova**
filologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Məhəmməd A.Abduyev**
Coğrafiya üzrə elmlər doktoru
(ADPU, Bakı, Azərbaycan)
**Mübariz M.Əmirov**
pedaqogika üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Müsavər A.Musayev**
fizika üzrə elmlər doktoru, professor
(ADNSU, Bakı, Azərbaycan)
**Müseyib İ.İlyasov**
pedaqogika üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Namiq Q.Şıxalıyev**
kimya üzrə elmlər doktoru, professor
(BDU, Azərbaycan)
**Nazim Ə.İmamverdiyev**
geologiya-mineralogiya üzrə elmlər doktoru, professor, (BDU, Azərbaycan)
**Oqtay B.Sultanov**
tarix elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Ramiz İ.Əliyev**
psixologiya elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Sevinc B.Quliyeva**
filologiya üzrə fəlsəfə doktoru
(ADPU, Bakı, Azərbaycan)
**Surxay C.Əkbərov**
texnika elmləri doktoru, professor
AMEA-nın müxbir üzvü
(YTU, İstanbul, Türkiyə)
**Natəvan F.Həsənova** (Məsul katib)
(ADPU, Bakı, Azərbaycan)

**ADPU**-Azərbaycan Dövlət Pedaqoji Universiteti
**BDU**-Bakı Dövlət Universiteti
**ADNSU**-Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
**BMA**-Bakı Musiqi Akademiyası
**ADİU**-Azərbaycan Dövlət iqtisad Universiteti
**YTU**-Yıldız Teknik Universiteti. İstanbul, Türkiyə

**Təsisçi:** Azərbaycan Dövlət Pedaqoji Universiteti –ADPU (Bakı, Azərbaycan)

**Dövlət qeydiyyatı:**
«MAGİSTRANT» dövri-elmi jurnalı 29.01.2021-ci ildə Azərbaycan *Respublikası* Ədliyyə Nazirliyində Mətbu nəşrlərin dövlət qeydiyyatı reyestrinə daxil edimişdir.
Qeydiyyat: № 4328

# MÜNDƏRİCAT


## FİZİKA-RİYAZİYYAT VƏ TEXNİKA ELMLƏRİ

**Y.E.Qasımova**
*Optikadan bəzi fundamental təcrübələrin İKT-nin köməyi ilə virtual nümayişinə dair* ........ 5

**A.Q.Mirzəzadə**
*Orta ümumtəhsil məktəblərində şərt operatorunun tədrisi metodikası* ........ 14

**R.İ.Əsədova**
*Moodle platformasında tapşırıqların hazırlanması* ........ 19

**G.C.Rəcəbova**
*X sinifdə "Dinamikanın əsasları" fəslinə aid məsələ həllində İKT-dən istifadəyə dair* ........ 24

**M.M.Paşazadə**
*Orta məktəb riyaziyyatına elektron texnologiyaların inteqrasiyası* ........ 30

**A.C.Ədilova**
*Veb texnologiyalara əsaslanan informasiya sistemlərinin inkişaf dövrü haqqında* .... 33

**E.E.Allazova**
*Orta məktəblərdə informasiya təhlükəsizliyinin əsas komponentlərinin təmin olunması* ........ 38

**Q.R.Novruzova**
*Təlim prosesində multimedia texnologiyalarının rolu* ........ 44

**İ.K.Babazadə**
*İnnovasiyaların təsnifatı: növləri və tətbiqi prinsipləri* ........ 49

## TƏBİƏT ELMLƏRİ

**M.R.Həmidova**
*X-XI siniflərdə biologiyanın tədrisində məntiqi təfəkkürün inkişafına yönəlmiş metodlardan istifadənin imkan və yolları* ........ 54

**G.Hüseynova**
*Ümumtəhsil məktəblərində biologiya fənninin tədrisində İKT-nin imkanlarından istifadə etməklə əyaniliyin təşkili* ........ 59

**Ə.İ.Orucova**
*Biologiyanın tədrisində fənlərarası inteqrasiyanın yaradılması üzrə işin sistemi* ...... 63

**N.F.Rüstəmova**
*Biologiyanın tədrisində bioloji proseslər məzmun xətti üzrə fəndaxili inteqrasiyanın yaradılmasına müasir yanaşma* ........ 68

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

**G.A.Abdullayeva**
*Planlaşdırma və onun növləri* ........ 73

**A.Z.Koçak**
*Orta Asya'da minyatür sanati (16-18. asrlar)* ........................................................ 81
**J.Ç.Quluzadə**
*İslam şərqində bədii metal* ...................................................................................... 92
**S.İ.Novruzova**
*Azərbaycanda sosioloji fikrin inkişafında islami dəyərlər* .......................................... 96
**A.S.Rzayeva**
*Qloballaşma prosesinin milli dövlətlərin mənafeləri prosesinə təsiri* ...................... 102
**L.N.Miralayeva**
*Tolerantlıq – dini dözümlülük mədəniyyətinin formalaşması* .................................. 106
**E.E.Xudaverdiyev**
*Qafqazda multikulturalizm: Azərbaycan modeli* .................................................... 112
**G.N.Veysəlova**
*Rəsmi-işgüzar üslub bacarıqlarının orta məktəblərdə inkişaf etdirilməsi yolları* ..... 117
**N.F.Cəfərli**
*İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma və təhsil yönümlü inkişaf yolu* ....... 121
**D.M.Qədirova, N.N.Rzazadə**
*Təsviri sənətdə realizm ənənələri* ........................................................................... 127
**E.Y.Quliyeva**
*Ədəbiyyat dərslərində Mir Cəlalın "Açıq kitab" əsərinin öyrədilməsi imkanları* ..... 131
**S.Hüseynoğlu, N.Q.İsmayılova**
*Lirik şeirlərin təhlilinin əhəmiyyəti* ........................................................................ 137
**M.Q.Allahmanlı, L.Z.Həsənova**
*Qəhrəmanlıq dastanlarının tədrisi prosesində şagirdlərdə vətənpərvərlik hissinin inkişaf etdirilməsi* ......................................................................................................... 141

## PEDAQOJİ-PSİXOLOJİ ELMLƏR

**N.Q.Cümşüdova**
*Təbiətlə tanışlıq məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin vasitəsi kimi* ..... 146
**S.N.Qurbanova**
*Hüseyn Cavidin "ANA" mənzum dramının təhlilinə dair* ......................................... 151
**M.M.İskəndərov**
*Distant təhsilin təşkilində hibrid təhsil formasının tətbiqi* ....................................... 156
**M.R.Yunusova**
*Təlim texnologiyalarının dərsə tətbiqinin didaktik məsələləri* ................................ 161
**Ş.E.İsmayılzadə**
*VI sinifdə coğrafiyanın tədrisində şagird fəaliyyətinin təşkili* ................................. 169
**A.Q.Qurbanova**
*Müəllim və şagird arasında konfliktlər* ................................................................... 174
**H.F.Sərxanlı**
*Bədii təsvir vasitələri şagirdlərin intellektual-mənəvi inkişafında mühüm vasitə kimi* .............................................................................................................. 179
**Z.F.Abdullayeva**

*Menecmentin iş və fəaliyyətinin təşəkkül və əsasları* ............................................ 183
**N.H.Əbilova**
*Ədəbiyyat dərslərində nizami gəncəvinin "iskəndərnamə" əsərinin təhlili* ............. 190
**N.S.Əliyeva**
*Müasir təhsildə innovativ fəaliyyətin inkişaf perspektivləri* .................................... 197
**M.İ.Verdiyeva, S.S.Rafiqova**
*VIII siniflərdə ekoloji bilik və bacarıqların şagirdlərə öyrədilmə üsulları* ............... 203
**R.N.Hüseynova**
*Yeniyetmələrdə özünütərbiyə prosesini öyrənmənin mahiyyəti* ................................ 207
**H.N.Musayeva**
*İbtidai sinif şagirdlərinin tərbiyəsində qəhrəmanlıq yüksək əxlaqi hiss kimi* ........... 215
**A.E.Haqverdiyeva**
*Pedaqoji mədəniyyət anlayışının mahiyyəti* ........................................................... 221
**İ.F.Bayramova**
*KİV-in kiçikyaşlı məktəbli şəxsiyyətinin mənəvi dəyərlərinin*
*formalaşmasında rolu* ................................................................................................ 228
**F.V.Xəlilova**
*Müstəqil işin təşkilinin əhəmiyyəti* ............................................................................ 232
**M.E.Zamanova**
*Məktəbəqədər yaşlı uşaqlarda*
*mədəni davranışın formalaşdırılması yolları və vasitələri* ....................................... 236
**M.E.Xəlilova**
*Təhsilin modernləşdirilməsi şəraitində idarəetmədə keyfiyyət təminatı* .................. 240
**V.N.Ağayarlı**
*Psixoloji müdafiə mexanizlərinin tədqiqinin nəzəri əsasları* .................................... 246
**Z.Q.Hümbətova**
*I sinifdə informatika dərsində təlimin təşkili* ........................................................... 251
**M.Ə.Axundova**
*Mikayıl Müşfiqin poeziyasında heca vəzni və onun tədrisi yolları* ........................... 257
**D.M.Musayev, R.A.Bayramova**
*Azərbaycan tarixi dərslərində şagirdlərin tarixi şəxsiyyətlərin qəhrəmanlıq*
*nümunəsində tərbiyəsinin əsasları* ............................................................................ 263
**İ.Z.Orucova**
*Bədii əsərlərin məktəbdə təhlili* ................................................................................. 268
**A.Z.Fətullayev**
*Ali məktəblərdə Qafqaz xalqları tarixi kursu üzrə seminar məşğələlərində beyin*
*həmləsi metodundan istifadə* .................................................................................... 274
**A.Ə.Kazımova**
*Ali təhsil sisteminin sosiallaşdırma funksiyaları* ........................................................ 278
**A.Ə. Hüseynova**
*Məktəbəqədər yaşlı uşaqlarda sosial inkişafın başlıca xüsusiyyətləri* ...................... 283
**G.Ə.Şirinova**

*Şifahi xalq ədəbiyyatının tədrisi prosesində folklor nümunələrindən istifadənin imkanları* ........ 289
**B.Ə.Əlibabaoğlu**
*Bədii əsərlərin məzmununun öyrədilməsi məsələsinin proqram, dərslik və metodik vəsaitlərdə qoyuluşu* ........ 294
**S.S.Balaşov**
*Qəhrəmanlıq dastanlarının fəndaxili inteqrasiyası, 8-ci sinif materialı üzrə* ........ 300
**F.A.Ağayeva**
*Elmi-pedaqoji təcrübənin magistr hazırlığında yeri və rolu* ........ 306
**T.Ə.Mirzəyev**
*Coğrafiya dərslərində distant tədris texnologiyalarından istifadənin perspektivləri* ........ 313

**Y.E.Qasımova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gasimovaysmn0704@gmail.com***

# OPTİKADAN BƏZİ FUNDAMENTAL TƏCRÜBƏLƏRİN İKT-nin KÖMƏYİ İLƏ VİRTUAL NÜMAYİŞİNƏ DAİR

***Xülasə***

*Məqalədə ümumtəhsil məktəblərində fizika dərslərində təcrübə nümayişlərinin aparılması zamanı müasir texnologiyalardan istifadə tədqiq edilərək təhlil edilmiş, həmçinin fizika fənninə dair təcrübə nümayişlərinin səmərəli tədris istiqamətləri təqdim olunmuşdur.*

# НЕКОТОРЫЕ ФУНДАМЕНТАЛЬНЫЕ ОПЫТЫ ОПТИКИ ПО ВИРТУАЛЬНОЙ ДЕМОНСТРАЦИИ С ПОМОЩЬЮ ИКТ

***Резюме***

*В статье исследуется и анализируется использование современных технологий при проведении демонстрационных опытов на уроках физики в общеобразовательных школах, а также представлены эффективные методы обучения демонстрационным опытам по физике.*

# SOME FUNDAMENTAL EXPERIENCES FROM OPTICS ON VIRTUAL DEMONSTRATION WITH THE HELP OF ICT

***Summary***

*The article examines and analyzes the use of modern technologies in the conduct of demonstration experiments in physics lessons in general education schools, as well as presents effective methods of teaching demonstration experiments.*

***Açar sözlər:*** *müasir texnologiyalar, fiziki eksperiment, təcrübə nümayişləri, tədris prosesi.*

***Ключевые слова:*** *современные технологии, физический эксперимент, демонстрационый опыт, учебный процесс.*

***Key words:*** *modern technologies, physical experiment, demonstration experience, educational process.*

**Mövzunun aktuallığı.** Ümumtəhsil məktəblərində aparılan fiziki təcrübələr bilik mənbəyi hesab olunmaqla fənnin öyrənilməsində çox böyük əhəmiyyət kəsb etdiyi şübhəsizdir. Bu üsulla şagirdlərin ilk tanışlığı təcrübə

nümayişinin aparıldığı dərslərdən başlayır. Şagirdlərin bu üsul haqqında təsəvvürlərinin daha dərindən formalaşdırılması, onların eksperimental bacarıqlarının inkişaf etdirilməsi müəllimin təcrübə nümayişlərinin aparılması metodikası və texnologiyasını nə dərəcədə səriştəli bilməsindən çox asılıdır.

Son illərdən təcrübə nümayişlərinin texnika və texnologiyası əhəmiyyətli dərəcədə dəyişmişdir:

- təcrübə nümayişi üçün avadanlıqlar, xüsusən də texnika və texnologiya müasirləşərək daha da təkmilləşmiş;
- təcrübə nümayişi üçün alət və materialların tematik dəstləri elektron vasitələr bazasında meydana gəlmiş;
- təcrübə nümayişi avadanlığının bir hissəsi olaraq eksperimental məlumatların ölçülməsi, emalı və eksperimentin idarə edilməsi üçün kompüter sistemləri yaradılmışdır.

Tədris vasitələrinin hazırkı inkişaf mərhələsində təcrübə nümayişinin yaxşılaşdırılmasının əsas istiqamətlərindən biri kompüter texnologiyasından istifadədir. Müasir elmi fiziki eksperiment ilk növbədə müasir texnologiya, yəni İKT vasitələrinin fəal şəkildə istifadə olunduğu təcrübədir. Mövcud şəraitdən asılı olaraq tədris təcrübə nümayişlərinin modernləşdirilməsi onların virtual mühit alətlərinin köməyi ilə də nümayiş edilməsi zərurətini daha da aktuallaşdırmışdır. İKT-nin dəstəyi ilə nümayiş etdirilən eksperiment ənənəvi üsullar ilə müqayisədə daha geniş imkanlara (*instrumental və didaktik*) malikdir. Ona görə də fizika müəllimləri təcrübə nümayişlərinin müasir üsullarla aparılmasının metodologiyasına və texnikasına dərindən yiyələnməlidirlər. Bununla əlaqədar olaraq, onlar aşağıdakı sahələrdə əlavə peşəkar bilik və təcrübə əldə etməlidirlər:

***I. Fiziki nümayişlərin aparılması üçün yeni üsullar və texnologiyalar üzrə*:**

- müasir elmi təcrübə, kompüter texnikası və fiziki eksperiment üçün proqram təminatının inkişaf ənənələri haqqında geniş təsəvvürə malik olmalıdırlar;
- eksperimental məlumatların toplanması üçün nəzərdə tutulmuş sensor və telemetriya sistemlərinin tərkibini və təyinatını yaxşı bilməlidirlər;
- fiziki eksperiment üçün tipik aparat kompüter avadanlıqlarından istifadə etmək bacarığına malik olmalıdırlar;
- hesablamaların aparılması, funksional asılılıqların qrafiklərinin qurulması və öyrənilməsi üçün kompüter simulyasiyası üçün nəzərdə tutulmuş proqram təminatını (standart və xüsusi) bilməlidirlər;
- sensor və telemetriya sistemlərindən istifadə etməklə təcrübə nümayişinin layihələndirilməsi və aparılması metodologiyasına və texnikasına malik olmalıdırlar;

- eksperimental məlumatların emalı üçün standart və xüsusi proqram təminatından istifadə texnologiyalarını mənimsəməlidirlər;

***II. Fizikadan tədris resursları üzrə:***

- rəqəmsal təhsil resurslarının, habelə xüsusi hazırlanmış və ya təlimin müxtəlif mərhələlərində, o cümlədən təcrübə nümayişlərində istifadə oluna bilən internet resurslarının tərkibi, növ müxtəlifliyi və məzmunu haqqında geniş təsəvvürə malik olmalıdırlar;
- rəqəmsal resursların və tədris fəaliyyəti vasitələrinin didaktik xassələrini qiymətləndirmək, onların təcrübə nümayişinin müşaiyəti kimi istifadəsinin məqsədəuyğunluğunu müəyyən etməlidirlər;
- təcrübə nümayişinin müxtəlif mərhələlərində rəqəmsal resurslardan (rəsm, fotoşəkil, animasiya, maket, video və s.) istifadə metodologiyasına sahib olmalıdırlar;

***III. İKT vasitəsilə demonstrativ fiziki eksperimentlərin nümayişi şəraitində şagirdlərin eksperimental bacarıqlarının formalaşdırılması və inkişafı metodologiyası üzrə:***

- təcrübə nümayişinin aparılması prosesində şagirdlərin eksperimental bacarıqlarının (*müşahidə, nəticələrin müəyyənləşdirilməsi, eksperimental məlumatların təhlili, eləcə də şərhi* və s.) formalaşdırılması üzrə müxtəlif üsulları, o cümlədən ümumiləşdirilmiş təlim bacarıqlarını; bu bacarıqların formalaşdırılması üçün İKT vasitələrindən istifadə texnologiyasını bilməlidirlər;
- fərdi eksperimental bacarıqların, o cümlədən yeni təhsil vasitələrindən istifadə bacarıqlarının formalaşdırılması metodologiyasına sahib olmalıdırlar:

a) kompüter avadanlıqları üzrə: məlumatların toplanması üçün sensor və telemetriya sistemləri; müxtəlif formatlarda təqdim olunan məlumatların təhlilini (*video, cədvəl, qrafik, fotoşəkil* və s.);

b) verilənlərin emalı və eksperimental nəticələrin bu və ya digər formatda təqdim edilməsi üçün standart və xüsusi proqram təminatını;

- İKT vasitələrindən (*müxtəlif media formatlı virtual təlim obyektləri*) istifadə etməklə ümumiləşdirilmiş eksperimental səriştə və bacarıqların (məzmun, üsullar, təlim vasitələri, təlim mərhələləri) formalaşdırılması metodologiyasına sahib olmalıdırlar;
- eksperimental idrak metodunda şagirdlərin müstəqilliyinin formalaşdırılması metodikasını bilməli və mənimsəməlidirlər;

***IV. Təlim məşğələlərinin, o cümlədən təcrübə nümayişinin tərtibi və keçirilməsi üzrə:***

- İKT vasitələrindən istifadə etməklə təcrübə nümayişinin daxil olduğu dərslərin təşkili metodologiyasını bilməli, o cümlədən təcrübə nümayişinin dərsin strukturunda yerini nəzərə alaraq yeni tədris vəsaitlərindən seçmə və səmərəli istifadə etməyi bacarmalıdırlar;

- təcrübə nümayişi üçün rəqəmsal illüstrativ materiallardan(*fotoşəkillər, videolar, animasiyalar* və s.) ibarət distant təhsil kurslarını tərtib edə bilməlidirlər;

- təcrübə nümayişi üzrə rəqəmsal illüstrativ materiallardan istifadə etməklə distant təhsil sessiyaları keçirə bilməlidirlər;

***V. İKT mühitində təcrübə nümayişinin aparılmasının metodologiyası və texnikası üzrə:***

- İKT mühitində nümayiş etdirilən eksperiment üçün tələblər sistemini bilməlidir;

- müasir təcrübə nümayişinin tələblərinə riayət etməlidir;

- fiziki nümayişlərdə İKT vasitələrindən optimal istifadəni qiymətləndirmək və təmin etmək ("ekran" fizikası əsasında) bacarığına malik olmalıdır;

***VI. Tədris vəsaitlərinin dizaynı və işlənib hazırlanması üzrə***

- fiziki eksperimenti müşaiyət etmək üçün didaktik materiallar sistemi haqqında təsəvvürə malik olmalıdır;

- təcrübə nümayişi də daxil olmaqla dərslərin daha səmərəli keçirilməsi üçün müəllim rəqəmsal resursları və təqdimat materiallarını hazırlamağı bacarmalıdır:

a) illüstrativ rəqəmsal obyektləri: çertyoj, diaqram, cədvəl, animasiya, interaktivlik elementləri olan foto və video materialları;

b) virtual mühit vasitəsilə onların öyrənilməsi üçün tədris kompüter modellərini;

c) həm "hazır", həm də müəllifin rəqəmsal obyektləri əsasında tematik təqdimatları (*bütövlükdə eksperiment və ya onun ayrı-ayrı mərhələləri üçün*);

- fiziki demonstrasiya eksperimentinin məzmunu üzrə şagirdlərin müstəqil işi üçün müəllif rəqəmsal didaktik materialları hazırlamağı bacarmalı;

- didaktik materialların məzmununda şagirdlərin ümumiləşdirilmiş eksperimental bacarıqlarının, o cümlədən virtual informasiya mühitinin obyekt və vasitələrindən istifadə etmək bacarığının formalaşdırılması texnologiyasını həyata keçirə bilməlidir.

Fizika müəllimlərinin bu sahələr üzrə əldə etdikləri peşəkar bilik və təcrübə müasir fiziki eksperimentin metodikası və texnologiyası sahəsində onların xüsusi peşə səriştəsinin formalaşmasını müəyyən edir.

Fiziki nümayişlər apararkən İKT eyni vaxtda bir neçə mühüm metodoloji və didaktik funksiyaları yerinə yetirir.

Metodoloji funksiyalar təbiət hadisələrinin eksperimental tədqiqində kompüter texnologiyalarından istifadənin aşağıdakı sahələri vasitəsilə həyata keçirilir, yəni:

- fiziki eksperimentin avtomatlaşdırılması (*hadisənin diaqnostikası, eksperimentin idarə edilməsi, eksperimental məlumatların emalı*);

- fiziki hadisənin modelləşdirilməsi və hadisənin kompüter modelinin öyrənilməsi (*kompüter təcrübəsi*);

- eksperimental qurğunun və onun iş rejimlərinin modelləşdirilməsi və kompüter modelinin öyrənilməsi (kompüter təcrübəsi);

- eksperimentin kompüter verilənlər bazalarından (*məsafəli verilənlər bazaları daxil olmaqla*) istifadəsi [1].

Virtual mühitin didaktik funksiyaları adətən aşağıdakı məqsədlər üçün tədrisdə təcrübə nümayişləri zamanı müxtəlif media formatlarının rəqəmsal obyektlərindən istifadə etməklə həyata keçirilir:

- fiziki hadisənin mahiyyətinin illüstrasiyası;
- cihazın təsvirləri və iş prinsipi;
- fiziki obyektin və ya hadisənin kompüter modelinin tədqiqi;
- hadisənin kompüter modelində eksperimental qurğunun müxtəlif iş rejimlərinin öyrənilməsi;
- fərdi eksperimental bacarıqların formalaşdırılması (işlənməsi);
- təcrübənin məzmunu üzrə bilik və bacarıqlara nəzarət.

Təcrübə nümayişində İKT-nin didaktik və metodik funksiyalarının həyata keçirilməsi məktəb üzrə təcrübə nümayişlərinə olan tələblər sistemində dəyişikliklərə səbəb olur. Bu gün təcrübə nümayişinə dair artıq müəyyən edilmiş tələblər sistemi İKT alətlərinin istifadəsi nəzərə alınmaqla genişləndirilə bilər. Hər bir tələb İKT mühitində yeni şərh alır. Bu tələblərə təcrübənin aydınlığı, bütün şagirdlər tərəfindən görünə bilinməsi, etibarlılığı, inandırıcılığı, estetikası, optimallığı, didaktik uyğunluğu, təhlükəsizliyi aiddir. Didaktik uyğunluğu gözdən keçirək.

**Didaktik uyğunluq**. Təcrübənin məzmunu, nümayiş etdirmə üsulları müəyyən yaşda olan şagirlərə fiziki hadisənin mahiyyətini və onun gedişatının qanunlarını açmağa lazım olan və başa düşülən dərəcədə imkan verirsə, təcrübə nümayişi didaktik cəhətdən uyğundur.

Didaktik uyğunluğu təmin edən texnikalar aşağıdakılardır:

1. Eksperimentin məzmununun təhsil səviyyəsinə (*ibtidai məktəb, orta məktəb*) və kurikuluma uyğun seçilməsi.
2. Şagirdlərə fiziki hadisənin mahiyyətini tam açmağa imkan verən nümayiş üsullarından istifadə.

İndi qeyd edilən tələblər daxilində fizikadan bir neçə fundamental təcrübənin tədrisi nümunəsinə nəzər yetirək.

Aşağıda şəkil-1–də parametrləri dəyişməklə iki nöqtəvi mənbənin interferensiyası üzrə virtual demonstrasiya kadrları verilmişdir. Virtual model aşağıdakı parametrləri dəyişməyə imkan verir: işıq dalğası uzunluğu, mənbələr arasındakı məsafə, mənbə intensivliyi, ekrana qədər olan məsafə, ekranın oriyentasiya bucağı, ekranın ayırdetmə qabiliyyəti, mənbələrin faza fərqi.



a. b. c.

d. e. ə.

f. g. h.

**Şəkil 1. İki nöqtəvi mənbədən interferensiya üzrə virtual demonstrasiya eksperimenti kadrları:**
**a, b, c – işıq mənbələrinə nəzərən ekranın müxtəlif oriyentasiya bucaqlarında; d, e, ə – mənbə- lərdən ekrana qədər müxtəlif məsafələrdə; f, g, h – mənbələr arasında müxtəlif məsafələrdə alınan mənzərələr**

3. Prinsipləri şagirdlərə məlum olan və ya eksperimentin gedişində təsvir edilə bilən eksperimental qurğunun (cihaz və alətlərin) sadəliyi.

4. Real eksperimental qurğu sxeminin eksperimentin əsas sxemi ilə uyğunlaşdırılması.

5. Eksperimental quraşdırmanın sadəliyi, iş prinsipi keyfiyyəti azaldılmadan sadə avadanlıqdan istifadə.

6. Eyni təcrübənin səhnələşdirilməsi üçün müxtəlif variantların olması.

7. Tam miqyaslı nümayişi videoklip, animasiya, interaktiv, virtual modellə müşaiyət etmək (şəkil 2, 3).

Nümunə.

Dalğa prosesi difraksiya fenomeni ilə xarakterizə olunur. Difraksiya kəskin qeyri-bərabərliyi olan bir mühitdə işığın yayılması zamanı müşahidə olunan və həndəsi optika qanunlarından kənara çıxma ilə əlaqəli hadisələrin məcmusudur. Xüsusilə difraksiya işıq dalğaları ilə maneələrin yuvarlaqlaşdırılmasına və işığın həndəsi kölgə bölgəsinə nüfuz etməsinə səbəb olur. Əgər maneə

işığın dalğa uzunluğundan dəfələrlə böyükdürsə, işıq kölgə zonası əmələ gətirir. Lakin maneə ölçülərinin dalğa uzunluğuna uyğun olduğu hallarda difraksiya hadisəsi baş verir.

Şəkil 2, 3 -də Frenel və Fraunhofer difraksiya təcrübəsinin virtual nümayişinin kadrları göstərilir. Virtual model bir dəlikdən, bir və bir neçə yarıqdan difraksiya nümunəsini almağa və aşağıdakı parametrləri dəyişdirməyə imkan verir: düşən işığın dalğa uzunluğu, dəlik radiusu, yarığın eni, işıq mənbəyindən maneəyə qədər, eləcə də maneədən ekrana olan məsafəni, digər eksperimental parametrləri.




a. b.

**Şəkil 2. Frenel difraksiyası üzrə virtual demonstrasiya eksperimenti kadrları: a – işıq mənbəsinə qədər məsafə 0,5 m olduqda; b – işıq mənbəsinə qədər məsafə**




**1 m olduqda.**

a. b.




c. d.

**Şəkil 3. Fraunhofer difraksiyası üzrə virtual demonstrasiya eksperimenti kadrları: a – monoxromatik işıqda yarıq sayı 1 olduqda; b - monoxromatik işıqda yarıq sayı 3 olduqda; c – ağ işıqda yarıq sayı 2 olduqda; d - monoxromatik işıqda yarıq sayı 2 olduqda**

İşıq difraksiyası hadisəsinin müşahidəsi üzrə təbii nümayiş eksperimenti və virtual demonstrasiya aparılan zaman alınan təsvirlər gözdən keçirildikdə görmək olar ki, təbii eksperimentdə alınan təsvirin keyfiyyəti, nümayiş eksperimentinə qoyulan tələblərdəki aydınlıq prinsipinə uyğun deyil (şək. 4). Bu halda dərs zamanı virtual modeli əlavə olaraq nümayiş etdirmək məqsədəuyğundur.



a. b.

**Şəkil 4. İşıq difraksiyası hadisəsinin müşaidəsi üzrə təbii nümayiş eksperimenti kadrları (Frenel və Fraunhofer difraksiyası)**

Növbəti tələblərdən biri təcrübə nümayişi prosesində məlumatların nümayişi, qeydiyyatı və emalı üçün virtual obyektlərin, rəqəmsal avadanlıqların və yeni alətlərin istifadəsində optimallığın əldə edilməsidir.

Virtual təcrübələr canlı nümayişləri əvəz etməməlidir.Yəni

- təbii effektlə yanaşı rəqəmsal obyektlərdən (*rəsm, animasiyalar, modellər, konstruktorlar, simulyatorlar, video nümayişlər*) istifadə edilməli;
- quraşdırmanın veb və teleproyeksiyası, fərdi qurğular, təcrübə effekti tətbiq olunmalı;
- təbii təcrübənin veb proyeksiyası prosesində interaktiv lövhənin imkanlarından istifadə edilməli;
- təcrübənin nəticələrinin işlənməsi və təqdim edilməsi üçün standart və xüsusi alət proqramlarından istifadə edilməli;
- fiziki hadisələrin öyrənilməsinin telemetrik metodu tətbiq edilməli;
- avtomatlaşdırılmış fiziki eksperimentin aparılması yerinə yetirilməlidir.

Nümayişin effektivliyi onun aydınlığını, bütün şagirdlər tərəfindən görünə bilinməsini, etibarlılığını, inandırıcılığını, estetikasını, təhlükəsizliyini və digər tələbləri təmin edən texnikaların optimal kombinasiyası ilə müəyyən edilir.

Təcrübə nümayişində şagirdlərin İKT alətlərindən istifadə etmələrini daha yaxşı şəkildə yerinə yetirmək olar. Məsələn, veb-kamera və böyük ekranlı proyektordan istifadə edərkən eksperimental quraşdırma və eksperimental effektin görünməsi problemi asanlıqla həll olunur.

**Nəticə**

Beləliklə, hər bir fizika müəllimi təcrübə nümayişi zamanı aşağıda göstərilən fəaliyyət sistemlərini yerinə yetirməlidir:

- bütün şagirdlərin diqqətlərini cəmləyib motivasiyanı yaratmağı bacarmalı;
- təfəkkür məsələsinin formalaşdırılmasını nəzərdə saxlamalı;
- eksperimental qurğu və cihazların təsvir olumasını bacarmalı;
- təcrübə aparılan zaman müşahidə edilən əsas obyektləri ayıraraq, şagirdlərin diqqətinin ona yönəlməsini təmin etməli ;
- lazım olduqda frontal və fərdi formada fiziki eksperimentin hər hansı bir hissəsinin, yaxud tam şəkildə təkrarlanmasını təmin etməli;
- fiziki eksperimentin nəticələrinin qeyd olunaraq işlənməsini təşkil etməli;
- əldə edilmiş nəticələr təhlil olunaraq müzakirənin aparılması həyata keçirilməlidir.

**Ədəbiyyat:**

1. *İsmayılov İ.N. Ümumtəhsil məktəblərində fizikanın tədrisində yeni informasiya texnologiyalarından istifadənin nəzəri və praktik problemləri. Monoqrafiya, Bakı:Mütərcim,, 2013, 169 s.*

2. *İsmayılov İ.N. Fizikanın tədrisi metodikasının müasir problemləri (magistr hazırlığı üçün dərslik), Bakı 2019*

3. *Ümumtəhsil məktəblərinin 7-11-ci siniləri üçün fizika fənnindən metodik vəsaitlər.*

4. *Нельзин А.Е., Оспенников Н.А. Демонстрационный эксперимент в условиях ИКТ-насыщенной среды. Подготовка педагогических кадров к применению ИКТ в образовании// Вестник ПГПУ, Вып. 5. Пермь – 2015, стр. 129-145.*

5. *Исмаилов И.Н. Использование средств новых информационных технологий в эффективной организации демонстрационного эксперимента по физике // Новые технологии в образовании. Воронежский государственный педагогический университет, 2009, № 1, с.14-19*

6. *Оспенников Н.А. Лабораторный физический эксперимент в условиях применения компьютерных технологий обучения: учеб.-метод. пособия / Н.А.Оспенников. - Пермь: Перм. гос. пед. ун-т, 2007. - 263 с.*

7. *Текст: электронный // Лань: электронно-библиотечная система.*

1. *8.https://dspace.kpfu.ru/xmlui/viewer?file=168598;F_311_319.pdf&sequence=-1&isAllowed=y*

8. *http://zhurnal.lib.ru/img/s/sumarokow_s/vawe_theoretic/image002.gif*

9. *.http://ru.wikipedia.org/wiki/Файл:Diffraction2vs5.jpg*

10. *http://www.fizika.ru/theory/tema-09/09c-i5.gif*

11. *http://www.cadmaster.ru/view.html?http://csf.ru/img/10766/640x480/grafik.jpg*

**A.Q.Mirzəzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***a.mirzazade@arti.edu.az***

# ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ŞƏRT OPERATORUNUN TƏDRİSİ METODİKASI

***Xülasə***
*Şərt operatorunun orta məktəblərdə tədrisi nümunələri təqdim olunub.*

# УСЛОВНО-ОПЕРАТОРНАЯ МЕТОДИКА ОБУЧЕНИЯ В СРЕДНИХ ШКОЛАХ

***Резюме***
*Приведены примеры условной подготовки операторов в общеобразовательных школах.*

# CONDITIONAL OPERATOR TEACHING METHODOLOGY IN SECONDARY SCHOOLS

***Summary***
*Examples of conditional operator training in secondary schools are presente.*

***Açar sözlər:*** *şərt operatoru, məsələ, budaqlanma*
***Ключевые слова:*** *оператор условия, выдача, ветвление*
***Key words:*** *condition operator, issue, branching*

Bu günə qədər keçdiyimiz dərslərdə proqramlarda xətti alqoritmlərdən istifadə edilirdi. Proqramların həll olunma ardıcıllığı bir xətt üzrə həyata keçirilir. Alqoritmin digər növü olan budaqlanan alqoritmlərin icrası üçün Python proqramlaşdırma dilində şərt operatorundan istifadə edilir. Proqramın icra olunma istiqaməti şərtin yerinə yetirilib-yetirilməməsindən asılı olaraq dəyişilə bilər. Bunun üçün Python dilinin **if-else** operatorundan istifadə olunur. **İf** ingilis dilindən tərcümədə **əgər** deməkdir. Sözün mənasından da bilindiyi kimi şərt verilir, şərtə uyğun olaraq nəticə yoxlanılır. Şərt operatorunun ümumi yazılışı aşağıdakı kimidir.

```
if şərt:
       ifadə1
 else:
       ifadə2
```

Şərt operatorunun ümumi yazılışını belə izah edirik. Əvvəlcə şərt operatorunun adı, daha sonra məntiqi ifadə və yanında sintaksis baxımından iki nöqtə (:) işarəsindən istifadə olunur. Bu simvol eyni zamanda proqramda **else** ifadəsi istifadə olunarsa else-dən sonrada qoyulur. Buradakı **ifadə 1** və **ifadə 2** isə istənilən ifadə və ya ifadələr ardıcıllığı ola bilər. Ümumilikdə Python dilinin **if-els**e şərt konstruksiyası ilə bağlı 3 əsas hissəni qeyd edək.

1. Burada iki nöqtə (:) simvolunun yazılması vacibdir. Çünki bu simvol operator başlığı ilə icra olunan ifadə arasında məsafə yaradır.
2. İki nöqtədən sonra gələn sətir aralıqla yazılmalıdır. Skript tipli fayllarda bu məsafə avtomatik yaranır.
3. İki nöqtədən sonra eyni tipli verilmiş məntiqi ifadələr bir şərt daxilində icra olunur.

Orta ümumtəhsil dərsliklərinin informatika kursunda şərt operatoru haqqında birbaşa məlumat qeyd olunmuşdur. Əvvəlcə şərt daxilində istifadə olunan məntiqi və müqayisə operatorları barədə məlumat verilməsi daha məqsədə uyğun olardı.

**Müqayisə operatorları** – Biz artıq tam ədədlərin müqayisəsi haqqında riyaziyyat fənninin aşağı siniflərində öyrənmişik. Python proqramlaşdırma dilində də qiymətləri və dəyişənləri müqayisə etmək üçün müqayisə operatorlarından istifadə olunur. Müqayisə operatorları iki ədədin müqayisəsi üçün nəzərdə tutulmuşdur. Python dilində istifadə olunan müqayisə operatorları aşağıdakı cədvəldə öz əksini tapmışdır.

| | |
|---|---|
| **<** | **Kiçikdir (a<b)** |
| **>** | **Böyükdür (a>b)** |
| **==** | **Bərabərdir (a==b)** |
| **<=** | **Kiçikdir bərabərdir (a<=b)** |
| **>=** | **Böyükdür bərabərdir (a>=b)** |
| **!=** | **Bərabər deyil (a!=b)** |

Müqayisə operatorlarından istifadə edilərək hazırlanan proqramların nəticəsi iki dəyər alır: doğru (True) və ya yalan (False). Belə ifadələr məntiqi ifadələr hesab olunur. Məntiqi ifadələrin nəticəsi **bool**, yəni məntiq tipində verilir. Sadə məntiqi ifadələrdən xüsusi məntiqi birləşdiricilərin köməyi ilə mürəkkəb məntiqi ifadələr hazırlamaq olar. Həmin məntiqi birləşdiricilərə **məntiqi operatorlar** deyilir. Python dilinin məntiqi operatorları kimi **and (və), or (və ya) və not (deyil)** operatorlarından istifadə olunur. Sadə məntiqi ifadələrin nəticəsi sadə dildə olduğu kimi, mürəkkəb ifadələrin nəticəsi yenə sadə məntiqi ifadə ilə yekunlaşa bilir. Nəzərə almaq lazımdır ki, doğru (True) - 1 qiyməti alır, yalan (false) -0 qiymətini alır.

Məntiqi ifadələrin nəticəsini aşağıdakı cədvəldəki kimi göstərmək olar.

| **A** | **B** | **A and B** | **A or B** |
|---|---|---|---|
| False | False | False | False |
| False | True | False | True |
| True | False | False | True |

| **A** | **not A** |
|---|---|
| **False** | **True** |
| **True** | **False** |

Bu məlumatlar şərt operatoruna başlamaq üçün kifayət qədər əhəmiyyətlidir. Artıq şagird şərt qurarkən düzgün qaydalardan istifadə edərək ifadələrlə işləyə biləcək. Ən əsası qurduğu ifadənin məntiqini anlaya biləcək.

Budaqlanan alqoritmlər iki hissədən ibarətdir: tam və natamam budaqlanma. Tam budaqlanan alqoritmlərdə proqramlaşdırma dilinin **if-else** operatorundan, natamam budaqlanan alqoritmlərdə yalnızca **if** operatorundan istifadə olunur.

Natamam budaqlanma və ya tək seçimli struktur – şərtə uyğun olaraq yalnız bir ifadənin nəticəsini hesablayan alqoritmlər **natamam budaqlanan alqoritmlərdir**. Demək olar ki, bütün proqramlaşdırma dillərində bu ifadələrin icrası üçün if operatorundan istifadə olunur. Natamam budaqlanan alqoritmlərdə şərt doğru (**True**) olduqda alqoritm icra olunur. Əgər şərtin nəticəsi yalan (**False**) olarsa, bu zaman başqa addıma keçid edilir. Əgər şərt sətrində birdən çox ifadənin nəticəsi yoxlanacaqsa bu zaman məntiqi ifadələrdən istifadə olunur. Natamam budaqlanmaya aid bir məsələni həll edək. Ümumiyyətlə nəzərə almaq lazımdır ki, proqram kodu qurulmazdan əvvəl proqramın alqoritmi tərtib olunarsa, bu kodlaşdırma prosesini daha da sürətləndirəcək. Çünki şagird kodlaşdıracağı proqramın alqoritmini əyani olaraq gördükdə proses daha sürətli icra olunur.

**Məsələ**: Bir-birindən fərqli 3 ədəd içərisindən ən böyüyünü tapan proqram kodu yazın.

Əvvəlcə proqramın alqoritmini tərtib edək.

1. Başla
2. 3 ədəd daxil et (a,b,c)
3. Birincini ən böyük qəbul et (Enb=a)
4. əgər b>Enb-sə Enb=b-dir
5. əgər c>Enb-sə Enb=c-dir
6. ən böyük ədədi göstər (Enb)

7. Son

Python dilində məsələnin proqramı:

```
print("3 eded daxil et")
a=int(input("a: "))
b=int(input("b: "))
c=int(input("c: "))
Enb=a
if b>Enb:
    Enb=b
if c>Enb:
    Enb=c
print("En boyuk eded: ",Enb)
```

Şərtdən asılı olaraq 2 və ya daha çox istiqamət ola bilər. Əgər şərt ödənilirsə şərtin ödənildiyi istiqamətdə, şərt ödənmədikdə əks istiqamətdə gedir və uyğun proses icra olunur. Bu tam **budaqlanan alqoritm** hesab olunur. Python proqramlaşdırma dilində bu hesablama üçün **if/else** operatorundan istifadə olunur. Həm if, həm də else operatorundan sonra qoşa nöqtə işarəsi (:) qoyulmalıdır. Məsələ ilə ətraflı izah verək.

Məsələ: İstifadəçidən daxil edilmiş bal dəyərinə görə şagirdin həmin dərsdən keçib-keçmədiyini ekranda göstərən proqram kodlaşdırın.

Bunun üçün əvvəlcə proqramın alqoritmini qurmalıyıq.

1. Başla
2. Bal dəyərini daxil et
3. Əgər bala verilən qiymət 50-dən böyükdürsə ekranda "keçdi" çap et.
4. Əks halda "kəsildi" çap et
5. Son

Python dilində məsələnin proqramı:

```
bal=int(input("Bali daxil et: "))
if bal>=50:
    print ("kecdi")
else:
    print("kesildi")
```

**Çoxseçimli şərt operatoru:** Çoxseçimli şərt operatorları şərtlərin sayı 2-dən çox olduqda istifadə olunur. Python proqramlaşdırma dilində çoxseçimli şərt operatoru kimi **elif** operatorundan istifadə olunur. **Elif** şərt operatoru özündən əvvəlki şərt ifadələrinin ödənmədiyi hallarda yeni bir şərt vermək üçün istifadə olunur. **İf -elif-else** istifadə qaydasını məsələ üzərində izah edək.

Məsələ: Daxil edilən yaşa uyğun olaraq insanın içində olduğu yaşam müddətini ekranda göstərən proqram kod yazın.

Əvvəlcə proqramın alqoritmini yazırıq.

1. Başla
2. Yaşı daxil et (yas)
3. əgər daxil edilən yaş: 0-2 arasında olarsa “körpelik”
4. deyilsə-əgər 3-13 arasında isə yaz “uşaqlıq”
5. deyilsə- əgər 14-21 arasında isə yaz “yeniyetməlik”
6. deyilsə - əgər 22-63 arasında isə yaz “yetkinlik”
7. deyilsə -yaz “yaşlılıq”
8. son

Məsələnin Python proqramlaşdırma dilində kodunu yazaq.




```
yas=int(input("Yasi daxil et: "))
if yas<=2:
 print ("korpelik")
elif yas<=13:
 print ("usaqliq")
elif yas<=21:
 print ("yeniyetmelik")
elif yas<=63:
 print ("yetkinlik")
else:
 print ("yasliliq")
```

## Ədəbiyyat:

1. *Volkan taşçı -Python egitim kitabı*
2. *Kərim Tahiroğlu-Python ilə proqramlaşdırma*
3. *https://www.w3schools.com/python/*

**R.İ.Əsədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***rita_asadova_98@list.ru***

# MOODLE PLATFORMASINDA TAPŞIRIQLARIN HAZIRLANMASI

***Xülasə***

Moodle platformasında tapşırıqların hazırlanması mərhələləri ardıcıl izah olunub.

# ПОДГОТОВКА ЗАДАЧИ НА ПЛАТФОРМЕ MOODLE

***Резюме***

Последовательно объясняются этапы подготовки задания на платформе Moodle.

# PREPARATION TASKS ON MOODLE PLATFORM

***Summary***

The stages of preparing a task on the Moodle platform are explained sequentially.

***Açar sözlər:*** *moodle platforması, tapşırığın hazırlanması, mərhələlər*
***Ключевые слова:*** *платформа moodle, подготовка задачи, этапы*
***Key words:*** *moodle platform, task preparation, stages*

Hazırda ildən-ilə həcmi sürətlə artan elmi informasiya axını bizi tələbələrə eyni bölmə üzrə daha çox məlumat təqdim etməyə imkan verəcək yeni, daha effektiv tədris metod və vasitələri axtarmağa sövq edir. İnformasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə təlim prosesinin intensivliyini və keyfiyyətini artıran amillərdən biridir.

İnternet tələbələri təhsil prosesində birləşdirmək üçün əlverişli olan çoxlu sayda xidmətlərlə doludur - forumlar, söhbətlər, vikilər, bloklar, e-poçt, Skype, poçt siyahıları və s. Bütün bunlar müəllim və tələbələr arasında ünsiyyəti effektiv şəkildə artıraraq ənənəvi təhsil formalarına əlavə olaraq istifadə edilə bilər.

Onlayn təhsili həyata keçirməyə imkan verən platformalardan biri də Moodle platformasıdır. Moodle-Modular Object-Oriented Dynamic Learning Environment (modullu obyekt yönümlü dinamik öyrənmə mühiti)-kursu idarəetmə sistemi həmçinin öyrənməni idarəetmə sistemi və ya virtual öyrənmə mühiti kimi tanınır. Sistem tələbə üçün əlverişli vaxtda təhsil almağa, fənləri öz

sürətinizdə və əlverişli yerdə mənimsəməyə imkan verir. Tələbələrə tədris materiallarına, o cümlədən tam metodik dəstək kursu daxil olmaqla gecə-gündüz çıxışı təmin edir. Hər bir müəllim tədris olunan mövzuya uyğun olaraq tədris materialını strukturlaşdırır, onu öyrənmək və nəzarət etmək üçün əlverişli olan istənilən formada təqdim edir [1].

Moodle texnologiyanın imkanları:

- Bütün resurslar - bir bütöv şəklində toplanmışdır.
- Təhsil problemlərinin birgə həlli.
- Müəllim tələbələrlə əlaqə saxlayır.
- Təhsilin keyfiyyəti nəzarət altındadır.

Moodle platforması bir çox elementlərə malikdir. Bunlardan biri da tapşırıqlardır. Tapşırıq tələbədən yaradıcı cavab tələb edir. Tələbə cavabı dərhal saytda dərc edə, fayl və ya bir neçə fayl yükləyə bilər.

Tapşırığın aşağıdakı növləri var:

• Cavab - mətn kimi. Bu rejim tələbəyə yazmağa imkan verir və əgər təlimatçı çoxsaylı cavablara imkan verirsə, normal mətn redaktə alətlərindən istifadə edərək cavabın mətnini redaktə etməyə imkan verir. Müəllim şagirdin cavabına rəy yazıb qiymət qoya bilər. Mətn şəklində cavab növü olan tapşırığa baxarkən "Редактировать мой ответ" düyməsini sıxmaqla tələbə cavabını redaktə rejiminə keçir. Yazdıqdan sonra cavabınızı saxlamaq üçün Сохранить изменения" düyməsini klikləmək lazımdır.

• Cavab - fayl şəklində. Bu rejim ixtiyari faylı cavab olaraq göndərmək qabiliyyətini nəzərdə tutur. Məsələn, şəkil, Word sənədi, arxiv və ya başqa bir fayl. "Ответ в виде файла" və ya "Ответ в виде нескольких файлов" tipli tapşırıq faylın/faylların yüklənməsini əhatə edir.

• Cavab saytdan kənardır. Bu rejim tapşırıq Moodle xaricində tamamlanmalı olduqda faydalıdır. Tələbələr tapşırığın izahını oxuya bilər, lakin cavab olaraq nə mətni, nə də faylı göndərə bilmirlər. Müəllim öz rəyini və qiymətini yaza bilər. "Ответ вне сайта" tapşırığın özündə tələbədən cavab tələb etmir. Bu tip tapşırıqdan müəllim cavabı qiymətləndirmək üçün istifadə edə bilər. Məsələn, sinifdə müəllim "Просмотр/оценка всех ответов" linkinə klikləməklə, şagird tərəfindən verilən cavablara baxa bilər.

Tapşırığı yerinə yetirmək üçün qrup metodu üç səviyyədən birində müəyyən edilə bilər:

• qruplar yoxdur – heç bir qrup yoxdur, hamı böyük cəmiyyətin bir hissəsidir;

• ayrı-ayrı qruplar – hər bir qrup yalnız öz qrupunu görə bilər, digərləri isə görünməzdir;

• əlçatan qruplar - hər bir qrup digər qruplar kimi öz qrupunu da görə bilər.

Tapşırıq əlavə etmək üçün aşağıdakı addımları yerinə yetirməliyik:

Addım 1. Redaktə rejiminə keçin [3].

Addım 2. Müvafiq blokda " Добавить элемент или ресурс " düyməsini basın.




Addım 3. " Элементы курса " bölməsində " Задание " seçin. Sonra " Добавить " düyməsini basın.




Addım 4. Tapşırığın adını göstərin və tapşırıq fayllarını yükləyin. Bunun üçün fayl(lar)ı siçanla “Дополнительные файлы” yükləmə pəncərəsinə sürükləyin və ya mavi oxu klikləyin və sonra kompüterdə faylı seçin.




Addım 5. "Доступно " bölməsində tapşırığı yerinə yetirmək üçün son tarixləri göstərmək olur. Məsələn, şəkildəki son təqdimetmə tarixi 23 martdır. Martın 24-də tələbələr tapşırığın nəticələrini yükləyə bilməyəcəklər.




Addım 6. "Типы представления ответов" bölməsində "Ответ в виде текста" və ya "Ответ в виде файла" qutusu qeyd edilməlidir. "Ответ в виде текста" tələbəyə cavabı xüsusi sahəyə daxil etməyə imkan verir. Var sayılan olaraq, " Ответ в виде файла " qutusu işarələnir. Bu halda, tələbənin yükləyə biləcəyi maksimum fayl sayını və bir faylın maksimum ölçüsü təyin edilməlidir. Lazım gələrsə, "Выбрать" düyməsini sıxaraq icazə verilən fayl növlərini təyin etmək olar. (istəyə görə).



Addım 8. Lazım gələrsə, "Оценка " bölməsində dəyərləri dəyişə bilərsiniz. Varsayılan olaraq, qiymətləndirmə videosu tapşırığı yerinə yetirmək üçün 100 bal olaraq təyin olunur.




Addım 9. "Задания" elementini tam konfiqurasiya etdikdən sonra "Сохранить и вернуться к курсу" düyməsini sıxmaq lazımdır.




Tapşırıqlarda bəzi məhdudiyyətlər ola bilər: son tarixə görə, mümkün təkrarların (yükləmələrin) sayına görə, tapşırığın müddəti bitdikdən sonra cavabın göndərilməsini bloklayır. Müəllim “Просмотр/оценка всех ответов” linkinə klikləməklə tələbənin cavablarına baxa bilər.

**Ədəbiyyat:**

1. *Г.В.Кравченко. Использование дистанционной среды Moodle в образовательном процессе студентов дневной формы обучения.*
2. *А.М.Анисимов. Работа в системе дистанционного обучения Moodle.*
3. *https://webriz.ru/69-dobavlenie-zadanij-sistema-distancionnogo-obuchenija-moodle.html*

**G.C.Rəcəbova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*gunel_racabova@mail.ru*

# X SİNİFDƏ "DİNAMİKANIN ƏSASLARI" FƏSLİNƏ AİD MƏSƏLƏ HƏLLİNDƏ İKT-dən İSTİFADƏYƏ DAİR

***Xülasə***

Məqalədə fizikanın tədrisi prosesində məsələ həllində informasiya kommunikasiya texnologiyalarından istifadənin rolu əsaslandırılmış və bu məqsədlə ümumtəhsil məktəbin X sinfində "Dinamikanın əsasları" tədris vahidi üzrə şagirdlərin kompüterin tətbiqi ilə fizika məsələlərinin həlli bacarığını formalaşdırmaq, biliklərin mənimsənmə səviyyəsini yüksəltmək və idrak fəaliyyətini fəallaşdırmaq ön plana çəkilmişdir.

# ОБ ИСПОЛЬЗОВАНИИ ИКТ ПРИ РЕШЕНИИ ЗАДАЧИ ГЛАВЫ "ОСНОВЫ ДИНАМИКИ" В X КЛАССЕ

***Резюме***

В статье обосновывается роль использования информационных и коммуникационных технологий в решении задач в процессе обучения физике. С этой целью в 10 классе общеобразовательной школы «Основы динамики» в учебном блоке формирование у учащихся умения решать задачи по физике с применением ЭВМ, повышение уровня знаний и активизация познавательной деятельности.

# ON THE USE OF ICT IN SOLVING THE PROBLEM OF CHAPTER "FUNDAMENTALS OF DYNAMICS" IN X GRADE

***Summary***

The article substantiates the role of the use of information and communication technologies in solving problems in the process of teaching physics. For this purpose, in the 10th grade of the secondary school "Fundamentals of Dynamics" in the educational unit, the formation of students' ability to solve physics problems with the use of computers, increase the level of knowledge and activate cognitive activity.

***Açar sözlər:*** *tədris prosesi, məsələ həlli, İKT, kompüter, proqram*
***Ключевые слова:*** *учебный процесс, решение задач, ИКТ, компьютер, программное обеспечение*
***Key words:*** *educational process, problem solving, İKT, computer, program*

Fizika dərslərində məsələ həlli zamanı yaranan problemlərin həllini dörd istiqamətdə həyata keçirmək mümkündür:

- ✓ Məsələnin yaxşı başa düşülməsi üçün məzmunun əyani nümayişi;
- ✓ Məsələ həllində hazır modellərdən istifadə;
- ✓ Məsələdəki hesablamaların vaxt itirilmədən qısa müddətdə aparılması üçün kompüterin kalkulyator funksiyasından istifadə;
- ✓ Fizika məsələlərinin həllində xüsusi tərtib edilmiş alqoritm və proqramlardan istifadə. [1, s.301]

X sinifdə "Dinamikanın əsasları" tədris vahidində fizika məsələlərinin uğurlu həllinin reallaşdırılmasında məsələnin məzmun və mahiyyətinin yaxşı başa düşülərək dərk edilməsinin çox mühüm əhəmiyyəti vardır. Bu baxımdan məsələdə verilən fiziki hadisə və ya proseslərin əyani olaraq rəngli, dinamik şəkildə şagirdlər qarşısında təqdim edilməsində kompüterin rolu əvəzedilməzdir. Kompüterin köməyilə məsələlərin həllinə baxarkən birinci növbədə istifadə olunacaq proqram müəyyən edilməli və aşağıdakı mərhələlər nəzərə alınmalıdır:




***Şəkil.1***

İndi isə yuxarıda qeyd edilən mərhələləri nəzərə alaraq İKT-nin köməyi ilə "Dinamikanın əsasları" tədris vahidi üzrə məsələlərin həlli alqoritminə baxaq.

### *Məsələ.1*

Eyvandan sərbəst düşən birinci cismin uçuş müddəti ikinci cismin uçuş müddətindən 4 dəfə çox olmuşdur. Cisimlərin son sürətlərinin və icra etdikləri yerdəyişmələrinin nisbətini hesablamalı, alınan nəticəni müqayisə etməli.

| ***Verilir:*** | ***Həlli:*** |
|---|---|
| $t_1 = 4t_2$<br>$v_{01} = v_{02} = 0$<br>$g = 10\,\frac{m}{san^2}$ | Son sürətin və hündürlüyün zamandan asılılığını ifadə edən tənlikləri aşağıdakı kimi yazaq:<br>$\begin{cases} v_1 = v_{01} + gt \\ v_2 = v_{02} + gt \end{cases}$ |

| | |
|---|---|
| | $\begin{cases} h_1 = v_{01} \cdot t_1 + \frac{gt_1^2}{2} \\ h_2 = v_{02} \cdot t_2 + \frac{gt_2^2}{2} \end{cases} \rightarrow \dots$<br>... |
| $\frac{v_1}{v_2} - ?$ ; $\frac{h_1}{h_2} - ?$ | |

Uzun hesablamadan sonra yekun düstur alınır və verilən qiymətləri düsturda nəzərə almaqla cavab hesablanır. Göründüyü kimi, məsələnin həlli uzun vaxt itkisinə səbəb olaraq nə qədər əlavə əməliyyat və hesablamaların aparılmasını tələb edir. Buna görə də dərsin keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilər. Bu problemin aradan qaldırılmasına yalnız kompüterin köməyilə nail olmaq olar.

Məsələnin həlli üçün tərtib edilmiş kompüter proqramına nəzər yetirək:

| | |
|---|---|
| 1. **Program** | 10. h2:=V02*t2 + g:sqr(t2)/2 |
| 2. t1,t2, v01,v02, g, v1,v2, h1,h2,k1,h: real | 11.t:=(t1/t2) |
| 3. **begin** | 12.k1: = (V1/V2) |
| 4. t1:=4*t2 | 13. k1:= t |
| 5. t2:=0.2 | 14. h: = (h1/h2) |
| 6. V01=V02 | 15. h:sqr(t1)/sqr(t2) |
| 7. V02: = 0 | 16. writeln (k1:8:2:2) |
| 8. g:=10 | 17. writeln (h:8:2:2) |
| 9. h1:=V01*t1 + g:sqr(t1)/2 | 18. **end** |

### *Məsələ.2*

Hündürlüyü 3 m və uzunluğu 10 m olan mail müstəvinin üzərinə kütləsi 20 kq olan tircik qoyulmuşdur. Tirciyi yuxarı və aşağı istiqamətdə hərəkət etdirmək üçün müstəvi boyunca ona neçə nyuton qüvvə tətbiq etmək lazımdır? (sürtünmə əmsalı 0,5 -ə bərabərdir).

| ***Verilir:*** | ***Həlli:*** |
|---|---|
| $l = 10m$ , $\mu = 0{,}5$ | Həlli üçün tirciyin aşağı və yuxarı istiqamətdə hərəkət etdiyi hallara uyğun lövhədə şəkillər çəkilməli və bunlara müvafiq hesablamalar aparılmalıdır. |

| | |
|---|---|
| $h = 3m$ , $g = \dfrac{10m}{san^2}$ | |




$F_1 - ?$ ; $F_2 - ?$

Göründüyü kimi, lövhədə mail müstəvinin çəkilməsi, qüvvələrin istiqaməti və hesabi əməliyyatlar kifayət qədər vaxt itkisinə səbəb olduğundan, kompüter nümayişləri və hesablama proqramlarından istifadə daha əlverişli olur.



*Kompüter nümayişi ilə mail müstəvidə hərəkət edən tirciyi əyani olaraq dinamik və rəngli şəkildə şagirdlərə izah etmək olar. Beləliklə, öyrənənlər məsələnin məzmununu daha yaxşı başa düşə bilərlər. Sonrakı mərhələdə məsələnin həlli proqram əsasında həyata keçirilir.*

| | |
|---|---|
| **1. Program** | **7.**$\mu$: = 0.5 |
| **2. Var** l,h,m,g,F1,F2:real | **8.**g:=10 |
| **3. begin** | **9.**F1:=m*g*((h/1) + *(sqrt(sqr(1)-sqr(h)))/1 |
| **4.** l:=10 | **10.**F2:=m*g*(($\mu$ *sqrt(sqr(1)-sqr(h))/1)-(h/1)) |
| **5.** H:=3 | **11**. Writeln (F1:8:2,``,F2:8:2) |
| **6.** m:=20 | **12. end** |

***Məsələ.1***

Meyl bucağı $20^0$ olan estakada boyunca kütləsi 600 kq olan vaqonu qaldırmaq üçün nə qədər qüvvə tətbiq etmək lazımdır? (Sürtünmə əmsalı 0,5-ə bərabərdir).

| ***Verilir:*** | ***Həlli:*** |
|---|---|
| $m = 600\ kq$<br>$\mu = 0{,}5$<br>$\alpha = 20^0$<br>$g = 10\,\frac{m}{san^2}$ | Məsələnin həlli üçün lövhədə şəkil çəkib onun üzərində müvafiq qüvvə vektorlarının istiqamətini göstərmək və proyeksiyalar almaqla məsələnin həlli alqoritmindən son nəticəyə gəlmək olar. Verilən qiymətləri son düsturda nəzərə almaqla hesab əməliyyatları aparmaq olar. |
| ***F–?*** | |

Kompüterdə isə proqram vasitəsilə məsələnin həlli aşağıdakı şəkildə aparılır.

| | |
|---|---|
| **1. Program** | **6.**$\mu$ :=0.5 |
| **2. Var** m,$\alpha$,$\mu$ ,g,F:real | **7.**F:=m*g*(SIN ($\alpha$ ) + * COS ($\alpha$)) |
| **3. begin** | **8.**Writeln (F:8:2,``) |
| **4.** m:=600 | **9. end** |
| **5.** $\alpha$ :=20 | |

Beləliklə, aparılan iş təcrübəsi göstərir ki, kompüterlə məsələ həlli

zamanı şəkillərin çəkilməsi və uzun hesablamaların aparılmasına şagirdlər vaxt itirmədiklərindən dərs prosesində təlim materialına uyğun 5-6 məsələni həll edib ayrı-ayrı təhlil etmək mümkündür.

**Nəticə**

✓ Fizikadan məsələ həlli dərslərində İKT-dən istifadə şagirdlərin öyrənilən fənnə maraqlarını artıraraq yüksəldir, onlarda müstəqil tədqiqatçılıq qabiliyyətlərini formalaşdırır.

✓ Ümumtəhsil məktəbin X sinfində "Dinamikanın əsasları" fəslində kompüter proqramlarından istifadə dərsin keyfiyyətini yüksəltməklə, öyrənənləri məsələ həllinə sərf edilən vaxt itkisindən azad edir və müəllimin ən yaxın köməkçisinə çevrilir.

**Ədəbiyyat:**

*1. İsmayılov İ. Fizikanın tədrisi metodikasının müasir problemləri. Bakı-2019. 378 s.*

*2. İsmayılov İ.N., Abdullayev C.S. Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları. Tədrisdə onlardan istifadə metodikası (fizika materialları əsasında). Bakı:Təhsil, 2006.*

*3. R.Abdurazaqov, R.Əliyev, Q.Şərifov. Fizika.Ümumtəhsil məktəblərinin X sinfi üçün metodik vəsait. Bakı, 2018.*

*4. Рымкевич А.П. Fizika məsələləri. Bakı:Maarif, 1991.*

**M.M.Paşazadə**
**Azərbaycan Dövlət Pedeqoji Universiteti**
***mukhtarpashazade164@gmail.com***

# ORTA MƏKTƏB RİYAZİYYATINA ELEKTRON TEXNOLOGİYALARIN İNTEQRASİYASI

***Xülasə***

*SketchUp proqram paketində həndəsi modelin qurulması və python proqramlaşdırma dili vasitəsilə qurulmuş fiqurun həcminin hesablanması.*

# ИНТЕГРАЦИЯ ЭЛЕКТРОННЫХ ТЕХНОЛОГИЙ В ШКОЛЬНУЮ МАТЕМАТИКУ

***Резюме***

*Создание геометрической модели в программном комплексе SketchUp и расчет размера встроенной фигуры с использованием языка программирования python.*

# INTEGRATION OF ELECTRONIC TECHNOLOGIES TO SECONDARY SCHOOL MATHEMATICS

***Summary***

*Creating a geometric model in the SketchUp software package and calculating the size of a built-in figure using the python programming language.*

***Açar sözlər:*** *sketchUp, python, piramida, sahə, həcm, hündürlük*
***Ключевые слова****: sketchUp, python, пирамида, площадь, емкость, высота*
***Key word:*** *sketchUp, python, pyramid, area, capacity, height*

Müasir dövrdə elektron texnologiyaları biznes, marketing, iqtisadiyyat və s. kimi sahələrlə yanaşı təhsil sahəsinə də inteqrasiya etməkdədir. Bu cür texnologiyaların orta məktəb tədris prosesinə daxil edilməsi dərs mühitini həm interaktiv edir, həm də təhsil sahəsini müasir dövrün tələbləri ilə ayaqlaşmasında mühüm rol oynayır. Orta məktəbdə elektron texnologiyaların geniş istifadə olunduğu fənnlərdən biri də riyaziyyat fənnidir. Xüsusilə həndəsi fiqurların 2-3D vizual görünüşünü yaratmaqda bu tədris vasitələrinin istifadəsi böyük əhəmiyyət kəsb edir. Bu texnologiyalardan biri də SketchUp-dır.



Sketchup-da kəsik piramidanın həcminin hesablanmasına baxaq. Kəsik piramida yaratmaq üçün əvvəlcə alətlər panelində **shape** menyusundan **rectangle** seçilir. Sonra dördbucaqlı çəkilərək diaqonalları qeyd edilir.

Piramidanı formalaşdırmaq üçün isə alətlər panelindən **move** əmri seçilir. Bu əmr aktivləşdirildikdən sonra **move** əmrinin göstəricisi dördbucaqlının diaqonallarının kəsişmə nöqtəsinə gətirilir.






Ardınca Mouse-un sol düyməsi basılı saxlanılaraq yuxarı hərəkət etdiririk. Kəsik piramidanın vizual görünüşünü yaratmaq üçün isə əvvəlcə formalaşdırdığımız piramidanı bir düzbucaqlı ilə kəsirik.

Növbəti mərhələdə verilmiş kəsik konusun ölçülərini göstərməkdir. Bunu etmək üçün alətlər panelindən **Text** əmri seçilir.




Növbəti isə qurulmuş şəklə uyğun məsələnin riyazi həll prosesidir. Bunun üçün $V = \frac{1}{3} h \cdot \left( S1 + \sqrt{S1 + S2} + S2 \right)$ düsturundan istifadə edəcəyik. Həcmi tapmadan öncə isə əvvəlcə S1 və S2 və h-ın qiymətlərini verilənlərə uyğun hesablamaq lazımdır. Burada S1 kəsiyin S2 isə piramidanın oturacaqlarının sahəsi, h isə piramidanın oturacağından onu kəsən müstəviyə qədər olan məsafədir.

S1=16 $sm^2$, S2=196 $sm^2$, h=12 sm;

V=$4 * (16 + 56 + 196) = 1072\ sm^3$




İndi isə bu hesablamanın Pythonda kod formasını yazaq. Bunun üçün ediləcək addımlar aşağıdakı ardıcıllıqla hesablanmalıdır. Birinci hündürlük (h), kəsiyin sahəsi (S1) və piramidanın oturacağının sahəsi (S2) hesablandıqdan sonra həcm (V) hesablanır.

```
import math
h=math.sqrt(pow(13,2)-pow(5,2))
S1=pow(4,2)
S2=pow(14,2)
V=1/3*h*(S1+math.sqrt(S1*S2)+S2)
print(V)
Run:1072.0
```

SketchUp proqram paketinin orta məktəb tədris prosesinə daxil edilməsi ilə artıq 8-ci sinif şagirdləri istənilən həndəsi fiqurun vizual modelini qura bilirlər. Python proqramlaşdırma dilinin tədris edilməsi ilə isə şagirdlər istənilən riyazi misalın proqram kodunu yazıb icra edə bilirlər.

**Ədəbiyyat:**

*1) https://www.e-derslik.edu.az/player/index3.php?book_id=286*

*2) https://www.e-derslik.edu.az/player/index3.php?book_id=135#books/135/units/unit-1/page1.xhtml*

*3) https://www.e-derslik.edu.az/player/index3.php?book_id=367#books/367/units/unit-1/page1.xhtml*

**A.C.Ədilova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***arzuadilova0@gmail.com***

# VEB TEXNOLOGİYALARA ƏSASLANAN İNFORMASİYA SİSTEMLƏRİNİN İNKİŞAF DÖVRÜ HAQQINDA

***Xülasə***

*Məqalə veb texnologiyalara əsaslanan informasiya sisteminin tam inkişaf dövrünü əhatə edir. Burada əvvəlcə informasiya sisteminin yaradılması texniki şərtlərin işlənib hazırlanması ilə başlayır, daha sonra sistemin işə salınması və sonradan onun fasiləsiz işləməsi ilə sona çatır.*

# О ПЕРИОДЕ РАЗВИТИЯ ИНФОРМАЦИОННЫХ СИСТЕМ НА ОСНОВЕ ВЕБ-ТЕХНОЛОГИЙ

***Резюме***

*Статья охватывает полный период разработки информационной системы на основе веб-технологий. Начинается с разработки технических условий на создание информационной системы, затем заканчивается запуском системы и ее непрерывной эксплуатацией.*

# ABOUT THE DEVELOPMENT PERIOD OF WEB TECHNOLOGY BASED INFORMATION SYSTEMS

***Summary***

*The article covers the full development period of the information system based on web technologies. It begins with the development of technical conditions for the creation of an information system, then ends with the commissioning of the system and its continuous operation.*

***Açar sözlər:*** *informasiya, texnologiya, proqram, alqoritm, veb texnologiya, informasiya təhlükəsizliyi*

***Ключевые слова:*** *информация, технологии, программное обеспечение, алгоритм, веб-технологии, информационная безопасность*

***Key words:*** *information, technology, software, algorithm, web technology, information security*

İnformasiya texnologiyaları bu gün bütün elmi istiqamətlər üzrə geniş spektrli tədqiqatlar üçün əsasdır. Elmi tədqiqatlar zamanı hazırlanmış proqram təminatı həm informasiya proseslərinin həyata keçirilməsi üçün bir sıra ümumi əsas qanunlara, həm də bu proqram təminatının işlədiyi informasiya mühitlərinin fərqliliyinə görə spesifik fərqlərə malikdir. Müasir şəraitdə proqram təminatının inkişaf dövrü əhəmiyyətli dərəcədə azalır. Lakin proqram təminatı

müxtəlif aparat arxitekturalarında və proqram mühitlərində sabit işləməyi bacarmalıdır. Proqram kodunun açıqlığı şəraitində aşkar edilmiş səhvlər onun işini qəsdən pozmaq üçün istifadə edilə bilər. Müvafiq olaraq, ictimai kataloqların və standartlaşdırılmış proqram təminatı repozitoriyalarının yaradılması vəzifələri kritik əhəmiyyət kəsb edir və onların genişlənməsinə töhfə verir. Bununla belə proqram istifadəçilərinin dairəsini genişləndirir və onun yeni versiyalarının istifadəçilərə çatdırılma müddətini sürətləndirir.

Son iyirmi illikdə dünyada proqram təminatı repozitoriyalarının yaradılması və uzaq komanda proqram təminatının hazırlanması sahəsində geniş təcrübə toplanmışdır [1-3]. Proqram təminatının əhəmiyyətli bir hissəsi daha sonra pulsuz və açıq mənbə kimi paylanır. Tədqiqat mərkəzlərində və universitetlərdə tədqiqatlar zamanı geniş elmi profilli çoxlu sayda elm tutumlu və yüksək texnologiyalı proqram təminatı da hazırlanır [4-5].Təəssüf ki, bu sinfin işlənib hazırlanmış proqram təminatının əksəriyyəti sonradan yalnız tədqiqat mərkəzlərində, müəlliflərinin iş yerlərində və ya hətta ayrı-ayrı laboratoriyalarda istifadə olunur. Yüksək elm tutumlu proqram təminatının sonradan qlobal proqram təminatı repozitoriyalarına daxil edilməklə tamamlanan proqram məhsulları səviyyəsinə qədər təkmilləşdirilməsi onun potensial istifadəçilərinin sayını xeyli artırardı. Bu, həm də tədqiqatçıların onun işlənib hazırlanmasına sərf etdiyi maliyyə və vaxt xərclərinin gəlirliliyini artıracaq, üçüncü tərəf tərtibatçıları və istifadəçiləri tərəfindən belə proqram təminatının sınaqdan keçirilməsi və təkmilləşdirilməsi üçün əlavə imkanlar yaradacaq [6-7].

Bu problemi həll etmək üçün Rusiya Elmlər Akademiyasının Sibir Bölməsi SB RAS institutlarında hazırlanmış elm tutumlu proqram məhsullarının toplanması, sistemləşdirilməsi, saxlanması və istifadəsi üçün nəzərdə tutulmuş alqoritmlər və proqramlar Fondunu yaratmaq qərarına gəldi. Belə proqramlar və verilənlər bazaları kataloqunun yaradılmasının ilkin şərtləri alimlərin yeni proqram təminatı haqqında məlumatların demək olar ki, tam olmaması idi. Fondun yaradılması zamanı onun fəaliyyətinin aşağıdakı vəzifələri müəyyən edilmişdir:

- RAS SB-nin təşkilatlarında hazırlanmış və FAP SB RAS-a təqdim edilmiş proqram məhsullarının ekspertizası.
- Belə alqoritmlərin, proqram təminatının və informasiya resurslarının qeydiyyatı və kataloqlaşdırılması. Onlara girişin təmin edilməsi.
- Fondda qeydiyyatdan keçmiş proqram məhsullarının yayılmasına təşkilati və informasiya dəstəyi.

Bu problemlərin həlli üçün həm proqram təminatının təsnifatının artıq məlum olan üsullarından, həm də onun sifarişli saxlanmasının təşkili və ona daxil olmaq üsullarından istifadə edilmiş, yeni yanaşmalar hazırlanmışdır.

Məqalə müəllifləri tərəfindən əvvəllər hazırlanmış və dərc edilmiş açıq proqram sistemləri və platformalarının yaradılması üsulları təkmilləşdirilmiş və tətbiq edilmişdir. Alqoritmlər və proqramlar fondunun Rusiya Elmlər Akademiyasının Sibir bölməsi tərəfindən yaradılmasına baxmayaraq, Rusiyanın müxtəlif tədqiqat mərkəzləri və universitetlərinin tərtibatçıları öz proqramlarını və verilənlər bazalarını orada qeydiyyatdan keçirirlər. Fondun yaradılması zamanı proqram paketlərinin mövcud qlobal repozitoriyalarının təhlili aparılıb. Yüksək texnologiyalı proqram təminatının təsnifatı hazırlanmış və onun əsasında Sibir Superkompüter Mərkəzi əsasında açıq əməliyyat sistemi paketləri (deb, rpm) formatında yüksək texnologiyalı və elm tutumlu proqram təminatının repozitoriyası təşkil edilmişdir. Yaradılan repozitoriya elmi tədqiqatların aparılması prosesində əvvəllər hazırlanmış elmi tutumlu proqram təminatından təkrar istifadə etməyə imkan verib. Həmçinin, elmi tutumlu proqram təminatının sonradan qlobal repozitoriyalara daxil edilməklə hazır proqram məhsulları səviyyəsinə çatdırılması üçün metodologiya yaradılmışdır. Bu da öz növbəsində əldə edilmiş təcrübələrin elmi fəaliyyətinin nəticələrindən biri proqram təminatı olan müxtəlif profilli elmi qruplar arasında yayılmasına şərait yaratmışdır.

RAS SB-nin Alqoritmlər və Proqramlar Fondunun informasiya sisteminin inkişafı və istismarı bu məqalədə Veb texnologiyalarına əsaslanan informasiya sistemlərinin həyat dövrünün praktiki nümunəsi kimi təsvir edilmişdir. Məqalə həyat dövrünün əsas mərhələlərinə uyğun gələn bir neçə bölməyə bölünür. İkinci bölmə texnoloji inkişaf yığınını (proqramlaşdırma dili, DBMS) təsvir edir, inkişaf alətlərinin (açıq və pulsuz çərçivə) seçilməsi üçün əsasları təqdim edir. Üçüncü bölmədə informasiya sisteminin layihələndirilməsi mərhələləri və inkişafının özü verilmiş, xarici şəraitdən asılı olaraq bu mərhələlərin həyata keçirilmə vaxtının qiymətləndirilməsi verilmişdir. Dördüncü bölmə hazırlanmış informasiya sisteminin yerləşdiriləcəyi server aparat və proqram təminatı mühitinə olan tələbləri təsvir edir. Beşinci bölmə informasiya sisteminin ilkin sınaqdan keçirilməsi, aşkar edilmiş səhvlərin aradan qaldırılması və istifadəçi sənədlərinin yazılması mərhələsinə həsr edilmişdir. Altıncı və yeddinci bölmələr sistemin nasazlıqlara qarşı işləməsinə cavabdeh olan inzibatçıların nöqteyi-nəzərindən yazılmışdır. Bu iki bölmə həyat dövrünün ən uzun mərhələsinə - sistemin birbaşa işləməsinə həsr edilmişdir. Həmçinin, bu bölmələr sistemin informasiya təhlükəsizliyinin təmin edilməsi prosesini təsvir edir. Səkkizinci bölmədə istəyə bağlı həyat dövrü mərhələləri verilir. Bu mərhələlərin həyata keçirilməsi məcburi deyil, lakin informasiya sisteminin yaradılması məqsədlərinə çatmağı sürətləndirə bilər. Məqalənin nəticələri RAS SB-nin Alqoritmlər və Proqramlar Fondunun informasiya sisteminin işləməsi zamanı əldə edilmiş statistik məlumatları təqdim edir.

RAS SB-nin Alqoritmlər və Proqramlar Fondunun informasiya sistemi Drupal məzmunun idarə edilməsi çərçivəsi (CMF) əsasında hazırlanmışdır. Məzmun idarəçiliyi çərçivələri əldə edilən məlumat sisteminin məzmununun idarə edilməsi və idarə edilməsi üçün istifadə edilə bilən interfeyslər təqdim edir. Beləliklə, çərçivələr tez-tez Web vasitəsilə əldə edilə bilən informasiya sistemlərinin yaradılması üçün istifadə olunur. Bir sıra CMF və CMS həm pulsuz, həm də kommersiya olaraq tərtibatçılar üçün mövcuddur. Ən çox istifadə olunanlar arasında WordPress, Drupal, Joomla!, 1C-Bitrix kimiləri ayırd etmək olar.

Parametrlər toplusuna (kernel funksionallığı, xarici modullardan istifadə edərək genişləndirmə variantları, fərdi modulların yazılması imkanı, lisenziyanın növü) əsaslanaraq, FAP SB RAS-ın informasiya sistemini yaratmaq üçün CMF Drupal seçilmişdir. Drupal yaxşı miqyaslanma və çeviklik ilə pulsuz CMF (Məzmun İdarəetmə Çərçivəsi) dir. Bu CMF üçün üçüncü tərəf tərtibatçıları onun standart funksionallığını genişləndirən çoxlu sayda plaginlər yazıblar. CMS Drupal əsasında FAP SB RAS informasiya sisteminin inkişafı Fondun bütün informasiya resurslarını vahid platforma, sadələşdirilmiş məzmunun yerləşdirilməsi və informasiya sisteminin idarə edilməsi əsasında birləşdirməyə imkan verdi.

Çərçivənin texnoloji əsası:

• İnkişaf dili - PHP (5.x-dən sonrakı versiyaya qədər).
• Relational DBMS (MySQL, PostgreSQL və s.).
• Veb server (Apache, nginx, IIS və s.).
• Linux və ya Windows ailələrinin əməliyyat sistemi (ƏS)

və PHP tərcüməçisinin işləyə biləcəyi digərləri.

Belə texnoloji platformaların istifadəsi FAP SB RAS informasiya sisteminin yaradılması üçün vaxt və maliyyə xərclərini əhəmiyyətli dərəcədə azaltmağa imkan verdi. O, həmçinin informasiya sisteminin əsas funksionallığının yazılması və sınaqdan keçirilməsi ehtiyacını aradan qaldırdı.

CMF-nin 7-ci və 8-ci versiyaları bu gün aktualdır və buna görə də inkişaf üçün tövsiyə edilə bilər. Hər iki versiyanın öz üstünlükləri və mənfi cəhətləri var:

• 7-ci versiyanın istifadəsi məqsədəuyğundur, çünki o, bir neçə ildir ki, CMF-nin əsas versiyasıdır. Bu müddət ərzində üçüncü tərəf tərtibatçıları artıq işdə sınaqdan keçirilmiş, digər proqram təminatı ilə uyğunluğu yoxlanılmış və onlarda xətaların və zəifliklərin olması üçün informasiya sistemlərinin müəyyən funksiyalarını həyata keçirən minlərlə modul yazmışlar. Eyni zamanda, bu gün 7-ci versiya CMF əsas nöqteyi-nəzərdən tərtibatçılar tərəfindən köhnəlmişdir. Bu versiyaya uyğun gələn modulların əksəriyyəti üçün yalnız aşkar

edilmiş təhlükəsizlik problemlərinin düzəldilməsi ilə bağlı yeniləmələr verilir. Modulların funksionallığı nadir hallarda genişlənir.

- CMF-nin 8-ci versiyasının istifadəsi sistemin daha texnoloji versiyası ilə nəticələnəcək, çünki 8-ci versiya müasir Symfony2 və Twig çərçivələrinə və şablon mühərriklərinə əsaslanır. Ancaq eyni zamanda, mövcud modulların əhəmiyyətli bir hissəsi nüvənin 8-ci versiyasına idxal edilmədi və onun funksionallığını sıfırdan yazmaq lazım olacaq, bu da əlavə vaxt və maliyyə xərcləri tələb edəcəkdir.

Yuxarıda sadalanan səbəblərin birləşməsinə görə, məlumat sisteminin tətbiqi üçün nüvə olaraq CMS Drupal-ın 7-ci versiyası seçilmişdir.

**Nəticə**

Araşdırmalar göstərdi ki, informasiya texnologiyaları sahəsində aparılan hər bir elmi istiqamət və tədqiqatlar informasiya proseslərinin həyata keçirilməsi üçün olduqca vacibdir. Daha sonra açıq proqram sistemlərinin və platformalarının yaradılması üsulları müzakirə edilmişdir. Bundan əlavə informasiya sistemlərinin həyat dövrünün mərhələləri araşdırılmışdır.

**Ədəbiyyat:**

1. *Wu Y.H., Wang S.W., Bezemer C.P. and Inoue K 2019 How do developers utilize source code from Stack Overflow? Empirical Software Engineering 24(2) 637-73.*
2. *Gao Y.Q and Madey G 2007 Network analysis of the SourceForge.net community Open Source Development, Adoption and Innovation p.234-187*
3. *Voth D 2000 CodePlex: Microsoft's latest entry into code sharing IEEE Software 23(5) 96–8*
4. *Friedrichs M., Shoshi A., Chmura P.J, Ison.J, Schwammle V., Schreiber F., Hofestadt R. and Sommer B 2019 JIB.tools 2.0 - A Bioinformatics Registry for Journal Published Tools with Interoperability to bio.tools J. of Integrative Bioinformatics 16(4) 20190059*
5. *Li Q.L., Zhou Y.C., Jiao Y.M., Zhang Z., Bai L., Tong L., Yang X., Sommer B., Hofestadt R. and Chen M. 2016 DaTo: an atlas of biological databases and tools J. of Integrative Bioinformatics 13(4) 297*

**E.E.Allazova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***qasimovaelnare97@mail.ru***

# ORTA MƏKTƏBLƏRDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN ƏSAS KOMPONENTLƏRİNİN TƏMİN OLUNMASI

***Xülasə***

*Məqalədə orta məktəblərdə informasiya təhlükəsizliyinin əsas komponentləri, biometrik identifikasiya, biometrik identifikasiyanın üstünlükləri və çatışmazlıqları, əsas funksiyaları və üsullarının əsas təsnifatı qeyd olunmuşdur. Həmçinin informasiya təhlükəsizliyinin əsas komponentinin təmin olunmasına aid yeni yanaşmalar qeyd edilmişdir.*

# ОБЕСПЕЧЕНИЕ ОСНОВНЫХ КОМПОНЕНТОВ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Резюме***

*В статье выделены основные составляющие информационной безопасности в общеобразовательных школах, биометрическая идентификация, преимущества и недостатки биометрической идентификации, основная классификация основных функций и методов. Также были отмечены новые подходы к обеспечению ключевого компонента информационной безопасности.*

# ENSURING THE MAIN COMPONENTS OF INFORMATION SECURITY IN SECONDARY SCHOOLS

***Summary***

*The article highlights the main components of information security in secondary schools, biometric identification, advantages and disadvantages of biometric identification, the main classification of basic functions and methods. New approaches to ensuring a key component of information security were also noted.*

***Açar sözlər***: *informasiya təhlükəsizliyi, biometrik identifikasiya, identifikatorlar, xüsusiyyətlər*

***Ключевые слова***: *информационная безопасность, биометрическая идеентификация, идентификаторы, особенности*

***Key words***: *information security, biometric identification, identifiers, features*

Son illərdə məktəblərdə məlumatların, o cümlədən müəllimlərin və şagirdlərin şəxsi məlumatlarının icazəsiz əldə edilməsi cəhdləri daha tez-tez baş verir. Siz təhsil müəssisəsində informasiya təhlükəsizliyi sistemi yaratmaqla bu tendensiyanın qarşısını ala bilərsiniz.

Cari əsr sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçidin özəlliyi ilə xarakterizə olunur. Bu şəraitdə informasiyaya malik olan və ondan məharətlə istifadə edənlər qarşıya qoyulan vəzifələri tez həll etməyi, tabeliyində olanların işini təşkil etməyi, öz müəssisəsinin uğurlu inkişafını təmin etməyi bacarırlar.

İnformasiya təhlükəsizliyi dedikdə, əlçatanlığı, bütövlüyü və məxfiliyi təmin etmək üçün informasiyanın və informasiya sistemlərinin icazəsiz girişlərdən, istifadədən, açıqlanmaqdan, modifikasiyadan və ya məhv edilməkdən mühafizəsi başa düşülür. Başqa sözlə, informasiya təhlükəsizliyi – informasiya sferasında ölkənin milli maraqlarının (şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati vacib maraqlarının balanslaşdırılmış əsasda) daxili və xarici təhdidlərdən qorunma səviyyəsini əks etdirir.

Qeyd edək ki, “kompüter təhlükəsizliyi” termini (“informasiya təhlükəsizliyi” anlayışının ekvivalenti və ya əvəzi kimi) çox dar termindir. Kompüterlər informasiya sistemlərinin tərkib hissələrindən yalnız biridir və ilk növbədə diqqət kompüterlərdən istifadə etməklə saxlanılan, emal olunan və ötürülən informasiyaya yönəldilsə də, onun təhlükəsizliyi bütün komponentlər dəsti ilə müəyyən edilir və ilk növbədə, ən zəif halqa ilə, əksər hallarda, bir şəxs (məsələn, monitora yapışdırılmış bir kağız parçasına parolunu yazan) çıxır. [4, s.15-26]

İnformasiya təhlükəsizliyi - çoxşaxəli, hətta demək olar ki, çoxölçülü fəaliyyət sahəsidir ki, burada yalnız sistemli, inteqrasiya olunmuş yanaşma uğur gətirə bilər.İnformasiya sistemlərindən istifadə ilə bağlı subyektlərin maraq dairəsini aşağıdakı kateqoriyalara bölmək olar: informasiya ehtiyatlarının və dəstəkləyici infrastrukturun mövcudluğunun, bütövlüyünün və məxfiliyinin təmin edilməsi. Əlçatanlıq, bütövlük və məxfilik anlayışlarını aydınlaşdıraq. [3, s.20-23]

***Əlçatanlıq*** – tələb olunan məlumat xidmətini müəyyən müddətdə almaq imkanıdır.

***Bütövlük*** – məlumatın aktuallığı və ardıcıllığı, onun məhv edilmədən və icazəsiz dəyişikliklərdən qorunması deməkdir. Bütövlük - statik (informasiya obyektlərinin dəyişməzliyi kimi başa düşülür) və dinamik (mürəkkəb hərəkətlərin (əməliyyatların) düzgün icrası ilə əlaqədar) hissələrə bölünə bilər. Dinamik bütövlüyə nəzarət vasitələri, xüsusən, fərdi mesajların oğurlanmasını, sıralanmasını və ya təkrarlanmasını aşkar etmək üçün maliyyə mesajlarının axınının təhlili zamanı istifadə olunur. İnformasiya təhlükəsizliyində bütövlük əsas anlayış sayılır, harda ki, informasiya “fəaliyyət üçün bələdçi” rolunu

oynayır. Dərmanların tərtibi, təyin edilmiş tibbi prosedurlar, komponentlərin dəsti və xüsusiyyətləri, texnoloji prosesin gedişində bütövlüyün pozulması sözün əsl mənasında ölümcül ola bilən məlumat nümunələridir. Rəsmi məlumatların istər qanunun mətni, istərsə də hər hansı dövlət qurumunun veb-serverinin səhifəsi təhrif edilməsi də xoşagəlməz haldır.

***Məxfilik*** – informasiyaya icazəsiz daxil olmaqdan müdafiədir. Məxfilik - ölkəmizdə informasiya təhlükəsizliyinin ən inkişaf etmiş aspektidir. Təəssüf ki, müasir informasiya sistemlərinin məxfiliyini təmin edən tədbirlərin praktiki şəkildə həyata keçirilməsi üzrə ölkəmiz ciddi çətinliklərlə üzləşir. Birincisi, informasiya sızmasının texniki kanalları haqqında məlumatlar bağlanır ki, əksər istifadəçilər potensial risklər haqqında təsəvvür yaratmaq imkanından məhrum olsunlar. İkincisi, xüsusi kriptoqrafiyaya gedən yolda məxfiliyin təmin edilməsində əsas vasitə kimi çoxsaylı hüquqi və texniki problemlər mövcuddur. Nəhayət, bir çox təşkilatlarda konfidensial və ayrı-ayrı istifadəçilərin (məsələn, parol) problemləri də var.

İnformasiya sistemləri müəyyən informasiya xidmətlərini almaq üçün yaradılır (satın alınır). Əgər bu və ya digər səbəbdən bu xidmətlərin istifadəçilərə təqdim edilməsi qeyri-mümkün olarsa, bu, şübhəsiz ki, informasiya münasibətlərinin bütün subyektlərinə zərər vurur. Beləliklə, informasiya təhlükəsizliyi problemlərinə metodoloji cəhətdən düzgün yanaşma informasiya münasibətlərinin subyektlərinin və informasiya sistemlərindən istifadə ilə bağlı bu subyektlərin maraqlarının müəyyən edilməsindən başlayır.

İnformasiya təhlükəsizliyi təhdidləri - informasiya texnologiyalarından istifadənin əks tərəfidir. Bu ifadədən iki mühüm nəticə çıxarmaq olar:

1. Müxtəlif kateqoriyalı subyektlər üçün informasiya təhlükəsizliyi ilə bağlı problemlərin şərhi əhəmiyyətli dərəcədə fərqli ola bilər. Nümunə üçün dövlət təşkilatlarını və təhsil müəssisələrini müqayisə etmək kifayətdir. Birinci halda, "düşmənin heç olmasa bir sirri öyrənməsindən hər şey pozulduğu halda", ikincidə - "bəli, hər şey işlədiyi müddətdə bizim heç bir sirrimiz yoxdur".

2. İnformasiya təhlükəsizliyi təkcə informasiyaya icazəsiz daxil olmaqdan qorunmaqla məhdudlaşmır, o, prinsipcə daha geniş anlayışdır. İnformasiya münasibətlərinin subyekti təkcə icazəsiz girişdən deyil, həm də işdə fasiləyə səbəb olan sistemin nasazlığından əziyyət çəkə bilər (itki verə və/yaxud mənəvi ziyan görə bilər). Üstəlik, bir çox açıq təşkilatlar (məsələn, təhsil təşkilatları) üçün məlumatın icazəsiz əldə edilməsindən faktiki qorunma əhəmiyyəti baxımından heç də birinci yerdə deyil.

Bəs informasiya təhlükəsizliyini təmin etmək üçün təhsil müəssisəsi tərəfindən hansı işlərin görülməsinə ehtiyac var?

Birincisi, kompüterləri kənar icazəsiz təsirlərdən (kompüter virusları, məntiq bombaları, haker hücumları və s.) qorumaq məqsədəuyğundur. Bu

problemin həlli yalnız ƏS-nin yerli şəbəkələrinin İnternetə çıxışını və ya saytınızı uzaq bir provayderdən yerləşdirməyi istisna edərsə mümkündür.

İkincisi, ən azı iki serveriniz olmalıdır. Yaxşı serverlərin olması sizə yerli şəbəkənizdə ƏS işçilərinin istənilən hərəkətini qeyd etməyə imkan verəcək.

Üçüncüsü, elektron poçta ciddi nəzarət yaratmaq, daxil olan və gedən yazışmalara daimi nəzarəti təmin etmək lazımdır.

Dördüncüsü, fərdi kompüterlərdə müvafiq parolların təyin edilməsi, həmçinin çıxarıla bilən kompüter daşıyıcılarında (disketlər, disklər) informasiya ilə işləmə qaydalarını müəyyən etmək faydalı olardı. Ən əsası isə informatika sinfi ƏS-nin lokal şəbəkələrinə qoşulmamalıdır.

Müasir cəmiyyətin artan informasiyalaşdırılması və icazəsiz girişdən qorunmalı olan obyektlərin və məlumat axınlarının sayının artması ilə əlaqədar olaraq, informasiya ehtiyatlarına çıxışı differensiallaşdırmaq üçün biometrik identifikasiya texnologiyalarından istifadə problemləri getdikcə aktuallaşır. Bu gün biometrika informasiya texnologiyalarının sürətlə inkişaf edən sahələrindən biridir və burada yüzə yaxın özəl firma, dövlət təşkilatları və laboratoriyalar fəal işləyir. Onların fəaliyyəti Biometrik Konsorsium tərəfindən əlaqələndirilir.

*Biometrik identifikasiya* unikal fiziki və ya davranış parametrləri əsasında şəxsi avtomatik olaraq müəyyən etmək vasitəsidir. Bu texnikanın üstünlüklərinə görə tezliklə rəqəmsal sertifikatların və smart kartların əsas rəqibinə çevriləcəyi güman edilir [2, s.2]:

1. Biometrik identifikasiya üçün şəxsin fiziki parametrləri kifayətdir və heç bir fayla (kopyalana bilən) və ya parollara (sındırıla bilən) ehtiyac yoxdur. Yəni identifikasiya "mən nəyisə bilirəm" (parol) və "mən nəyəsə sahibəm" (elektron kart) prinsiplərinə görə deyil, "mən nəyəm" (fiziki parametrlər) prinsipinə əsasən baş verir.
2. Bənzərsiz insan keyfiyyətləri ona görə yaxşıdır ki, onları saxtalaşdırmaq çətindir,
3. Kağız identifikatorlardan (pasport, sürücülük vəsiqəsi, şəxsiyyət vəsiqəsi), parol və ya fərdi identifikasiya nömrəsindən (PİN) fərqli olaraq, biometrik xüsusiyyətlər unudula və ya itirilə bilməz, onları həmişə "göstərmək" asandır.

Fiziki xüsusiyyətlərə görə identifikasiyanın da *çatışmazlıqları* var:

1. ***İstifadəçilər tərəfindən inamsızlıq.*** Geniş istifadəçi kütləsi hələ bu identifikasiya növünə keçid üçün hazır deyil.
2. ***Dəqiqliyin olmaması.*** Biometrik yanaşmaların heç biri 100% dəqiq deyil.
3. ***Yüksək qiymət.*** Biometrik sistemin tətbiqi və saxlanması ilə bağlı xərclər parollarla müqayisədə daha yüksəkdir.

4. ***Şəxsi həyat üçün təhlükə.*** Biometrik texnologiyalar şəxsi məlumatların toplanmasını nəzərdə tutur. Bu cür məlumatların kopyalanmasının və ya sui-istifadə edilməsinin qarşısını almaq üçün gizli yerdə saxlanılmalıdır.

Əksər biometrik təhlükəsizlik sistemləri aşağıdakı kimi işləyir: rəqəmsal barmaq izi, gözün və ya səsin izi ilə sistemin məlumat bazasında saxlanılır. Kompüter şəbəkəsinə daxil olmaq üzrə olan şəxs mikrofon, barmaq izi skaneri və ya digər vasitələrdən istifadə edərək özü haqqında məlumatları sistemə daxil edir. Alınan məlumatlar verilənlər bazasında saxlanılan nümunə ilə müqayisə edilir. Bütün biometrik identifikasiya sistemləri iki əsas funksiyanı yerinə yetirir:

***Qeydiyyat.*** Biometrik oxuyucudan alınan bir neçə ölçmə əsasında qeydiyyatda olan şəxsə uyğun biometrik xarakteristikanın (metoddan asılı olaraq: barmaq izi, göz və s.) rəqəmsal təsviri (şablon və ya model) formalaşır.[1,s.10]

***İdentifikasiya.*** Bir və ya bir neçə biometrik ölçülmə qeydiyyat zamanı rəqəmsal formaya çevrilir, sonra yoxlanılan şəxsə uyğun tək və ya bütün qeydə alınmış şablonla müqayisə edilir.

*Birinci halda*, şablon əvvəlcədən daxil edilmiş nömrə və ya kodla seçilir. Müqayisənin nəticələri tətbiqə qaytarılır: bu prosedur yoxlama və ya bir-bir müqayisə adlanır. Müqayisə nəticəsində adətən bir rəqəm olur və ehtimal olunur ki, müqayisə edilən nümunələr eyni şəxsə aiddir. Sonra, bəzi riyazi meyarlardan istifadə edərək, şablonların şəxsiyyəti haqqında qərar verilir.

*İkinci halda*, nəticədə bir neçə oxşar nümunələrin siyahısı (müqayisə yolu ilə əldə edilən ən yüksək ehtimallarla) qaytarılır. Sonra, əvvəlki vəziyyətdə olduğu kimi, bəzi riyazi meyarlardan istifadə edərək, şablonların kimliyi haqqında qərar qəbul edilir. Bu prosedur autentifikasiya və ya birdən çox müqayisəsi adlanır.

İstifadə olunan məlumatın növünə görə biometrik identifikasiya üsullarının təsnifatı aşağıdakı şəkildədir:

- ✓ statik üsullar insanın fizioloji (statik) xüsusiyyətlərinə, yəni anadangəlmə ona verilmiş və ondan ayrılmaz olan unikal xassəsinə əsaslanır;
- ✓ dinamik metodlar insanın davranış (dinamik) xüsusiyyətlərinə əsaslanır - hər hansı bir hərəkətin təkrar istehsalı prosesində şüuraltı hərəkətlərə xas olan xüsusiyyətlər (imza, nitq, klaviatura ilə yazma dinamikası).

Biometrik identifikasiya cihazlarından biri bədən istiliyinin ölçülməsi funksiyasına malik Üz Tanıma Biometrik Terminaldır. Bu terminal tez bir zamanda insanı sifətinə görə müəyyən edir, bədən istiliyini ölçür, həmçinin qoruyucu maskanın olub olmadığını müəyyən edir. Tələbə və ya müəllimin giriş hüququ varsa, normal temperatura malikdirsə və maska ilə qorunursa, terminal keçid siqnalı verir.

Belə terminalların xüsusiyyətləri:
- üzün tanınması və temperaturun ölçülməsi sürəti - 1 saniyədən az;
- autentifikasiyanın dəqiqliyi – 99,78%;
- temperaturun ölçülməsi dəqiqliyi – ±0,3C°;
- İstənilən səviyyədə işıqlandırma olan otaqlarda terminaldan istifadə etmək imkanı;
- üz imitatorlarından qorunma (kağız və ya qadcet ekranındakı fotoşəkillər);

Hazırda COVID-19-un yayılması ilə əlaqədar təhsil müəssisələrinin sağlamlığının qorunması istiqamətində tədbirlər həyata keçirilib. Ona görə də məktəb və ya universitetin girişində virusun yayılma riskinin qarşısını almaq üçün maskanı yoxlamaq və temperaturun ölçülməsi mütləqdir. Bu ehtiyat tədbirləri təsirlidir, lakin hər bir insanın hərarətinin ölçülməsi prosesi uzun çəkir, ona görə də bütün təhsil müəssisələrinin girişində uzun növbələr yaranmağa başladı. Temperaturun ölçülməsini sürətləndirmək üçün pirometrdən istifadə etməyə başladılar (bu, insanın bədəninin temperaturunu uzaqdan təyin edə bilən infraqırmızı termometrdir), lakin bu da növbələri azaltmağa kömək etmədi.

İnanıram ki, bədən hərarətinin ölçülməsi ilə Biometrik Üz Tanıma Terminalından istifadə COVID-19 pandemiyasının hazırkı dövründə təhsil müəssisələri üçün əla həll olacaq. Belə terminalların istifadəsi bizə eyni anda iki problemi həll etməyə imkan verəcəkdi - həm yalnız səlahiyyətli şəxslərin qəbulu, həm də xəstələrin və maskasız şəxslərin tanınması vasitələri. Və o vaxtdan bu avtomatik olaraq baş verir, bu, girişdəki növbələri azaldacaq, bu da koronovirusun daha da sürətlə yayılmasına imkan verməyəcək.

## Nəticə

İnformasiya təhlükəsizliyinin əsas komponentləri günümüzdə ən aktual sahələrdən biridir. Məqalədə orta məktəblərdə informasiya təhlükəsizliyində istifadə olunan əsas komponentlər, biometrik identifikasiya, identifikasiyanın çatışmazlığı qeyd edilmişdir. Həmçinin məktəblərdə biometrik identifikasiya üsulunun təmin olunması istiqaməintdə müəyyən təkliflər irəli sürülmüşdür.

**Ədəbiyyat:**

*1.Fatih Projesi Uygulanan Okullardaki Öğretmenlerin Bilgi Güvenliği Farkındalık Düzeylerinin İncelenmesi* Araştırma Makalesi.*

*2.Biometric Student Identification: Practical Solutions for Accountability & Security in Schools.*

*3.Воронов Р.В., Гусев О.В., Поляков В.В. О проблеме обеспечения безопасного взаимодействия с сетевыми образовательными ресурсами // Открытое образование. — 2008.*

*4.Галатенко В.А. Основы информационной безопасности. М.:ИНТУИТ.РУ. – 2003*

**Q.R.Novruzova**
**Ukrayna Regionlararası Personal İdarəetmə Akademiyası**
***novruzova.q@mail.ru***

# TƏLİM PROSESİNDƏ MULTİMEDİA TEXNOLOGİYALARININ ROLU

***Xülasə***

*Təqdim olunan məqalədə multimedia texnologiyaları və onların təhsil prosesində informasiyalaşdırılmasının perspektivindən bəhs olunur.*

# РОЛЬ МУЛЬТИМЕДИЙНЫХ ТЕХНОЛОГИЙ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

***Резюме***

*В представленной статье рассматриваются мультимедийные технологии и перспективы их информатизации в образовательном процессе.*

# THE ROLE OF MULTIMEDIA TECHNOLOGIES IN THE TRAINING PROCESS

***Summary***

*The presented article discusses multimedia technologies and the prospects of their informatization in the educational process.*

***Açar sözlər:*** *multimedia texnologiyaları, hipermedia texnologiyaları, tədris, metodika.*

***Ключевые слова:*** *мультимедиа технологии, гипермедиа технологии, обучение, методика.*

***Key words:*** *multimedia technologies, hypermedia technologies,teaching, method.*

Multimedia texnologiyaları tədris prosesini zənginləşdirir, tədrisin daha səmərəli olmasını təmin edir, tədris informasiyasının qəbul prosesinə təlimin əksər hissəsini cəlb edir.

Bu gün multimedia texnologiyası tədris prosesinin informasiyalaşdırılmasının perspektivli istiqamətlərindən biridir. Proqram və metodiki təminatın, maddi bazanın təkmilləşdirilməsində, habelə müəllimlər heyətinin mütləq ixtisaslarının artırılmasında müasir informasiya texnologiyalarının təhsildə uğurla tətbiqi perspektivi görünür.

Multimedia və hipermedia texnologiyaları güclü paylanmış təhsil resurslarını inteqrasiya edir, onlar əsas səlahiyyətlərin formalaşması mühitini və təzahürlərini təmin edə bilər, bunlara ilk növbədə informasiya və kommunika-

tiv aiddir. Multimedia və telekommunikasiya texnologiyaları ümumi təhsil sistemində əsaslı yeni metodik yanaşmalar açır. Multimedia əsasında interaktiv texnologiyalar kənd məktəbinin «vilayətçilik» problemini həm Internet kommunikasiyası əsasında, həm də interaktiv CD-kurslar və məktəblərdə peyk Internetindən istifadə vasitəsilə həll etməyə imkan verəcəkdir.

Multimedia-müasir texniki və proqram vasitələrindən istifadə edərək interaktiv proqram təminatının idarə etdiyi vizual və audio effektlərin qarşılıqlı əlaqəsidir.

Hipermedia-multimedia arasında hərəkət etmək üçün hipertext əlaqələri vasitəsilə əlaqəli kompüter fayllarıdır.

Məktəblərdə kompüter siniflərinin təşkili üçün internet texnologiyası cəlbedicidir, lakin aktual məlumatların əldə edilməsi, demək olar ki, bütün dünya ilə dialoqun təşkili imkanları ilə bağlı üstünlüklərə malik olmaqla, onlar ciddi çatışmazlıqlara malikdirlər: zəif rabitə xətləri ilə böyük həcmdə informasiya ilə işləmək çətinlik olmadan işləmək mümkün deyil. Bu qüsurlar CD ROM və DVD diskli obyektlər adlanan optik CD-lərdən istifadə etməklə aradan qaldırılır.

Mövcud proqram məhsulları, o cümlədən hazır elektron dərsliklər və kitablar, həmçinin inkişafları müəllimə təhsilin səmərəliliyini artırmağa imkan verir. Müəllimin informasiya axtarışında və əldə etməsində əvəzsiz köməkçisi və həmkarları ilə ünsiyyət vasitəsi olaraq Internet olur.

## Multimedia texnologiyalarından istifadə

Müasir məktəblinin təhsilinin təşkili üçün aşağıdakı əsas metodiki xüsusiyyətləri tövsiyə etmək olar

1) multimedia təqdimatlarının tətbiqi ilə dərslər kompüter siniflərində proyektorların multimedia, rezident arayışlarından, avtomatlaşdırılmış təlim sistemlərindən, müxtəlif proqramların işləmə videolarından və s. istifadə edərək keçirilir;

2) praktik dərslərdə hər bir təhsil alanın arxasında ayrıca kompüterlə təmin edilməlidir ki, bu kompüterdə sinif şifrəsi və təlim alanın soyadı adlanan şəxsi qovluq yaradılsın;

3) fərdi tədris proqramlarından, çox səviyyəli tapşırıqlar bankından (praktiki dərslərə və laboratoriya işlərinə) istifadə edilməsini əhatə edən fərdi yanaşmadan istifadə edilməlidir;

4) dərslərin xeyli hissəsini işgüzar oyunlar formasında keçirmək məqsədəuyğundur; tapşırıq kimi real həyati çoxvariantlı və verilməmiş vəzifələr, xüsusən də məzunların peşəkar fəaliyyətdə görüşəcəyi vəzifələr verilməlidir;

5) layihələr üsulundan geniş istifadə olunmalıdır ki, onun çərçivəsində ardıcıllıq və davamlılıq prinsiplərinə əməl olunmalıdır; bu o deməkdir ki, bir

qlobal tapşırıq bütün praktiki (laboratoriya) və hesablama-qrafik işlərdə ardıcıl olaraq yerinə yetirilməli, tamamlanmalı və genişlənməlidir.

6) proqramın əsas bölmələrinin paralel və konsentrik öyrənilməsi imkanı nəzərdə tutulmalıdır; bu, tələbələrə kursu öyrəndikcə, bütün materialın bütövlüyünü itirmədən, bölmələrin hər biri üzrə getdikcə dərin bilik əldə etməyə imkan verir;

7) aşağıdakı qarşılıqlı əlaqəli prinsiplərə söykənmək lazımdır: biliyin motivasiyası; hər tərəfli qavrayış; «yaradan» sistem-informasiya təhlili;

8) problemli tədris metodundan daha geniş istifadə etmək, təhsil alanların təlim prosesində istifadə edilə biləcək real proqramların (sənədlər, cədvəllər, verilənlər bazaları) hazırlanmasını nəzərdə tutmaq lazımdır.

Təhsildə multimedia texnologiyalarının tətbiqi ənənəvi təlimlə müqayisədə aşağıdakı ləyaqətlərə malikdir:

rəngli qrafika, animasiya, səs müşayiəti, hipertekstdən istifadə etməyə imkan verir;

- daim yeniləməyə imkan verir;
- nəşr və çoxalma xərcləri azdır;
- onda interaktiv veb elementlərin, məsələn, testlərin və ya iş dəftərlərinin yerləşdirilməsinə imkan verir;
- sitat gətirmək üçün hissələrin köçürülməsinə və köçürülməsinə imkan verir;
- bir çox hipersiletkalar sayəsində materialın xəttsiz keçilməsinə imkan verir;
- elektron kitabxanalarda və ya təhsil saytlarında əlavə ədəbiyyat ilə hiper əlaqə qurur;

Multimedia verbal və açıq-duyğu məlumatlarını birləşdirməyə imkan verir ki, bu da şagirdlərin motivasiyasına, təlimin aktual quruluşuna kömək edir.

Multimedia texnologiyalarının tətbiqi ilə auditoriya dərslərinin təşkili zaman qənaətinə imkan verir, bununla da tədris materialının tərcüməsini intensivləşdirir, hər hansı bir şagird üçün çox sadə, əlçatan vəsaitlərdən istifadə edir. Dərs zamanı məktəblilərin özləri vizuallaşdırılmış rəngarəng tədris-oyun mühiti yarada bilərlər ki, bu da məktəblilərin «Informatika» fənninin qəbul edilməsində tam olaraq inqilabi effekt yaradır.

Multimedia kompüter texnologiyaları müəllimə öyrənilən materialın daha dərin və şüurlu şəkildə öyrənilməsinə kömək edən müxtəlif vasitələri operativ şəkildə birləşdirmək, dərs vaxtına qənaət etmək, onu məlumatlarla doydurmaq imkanı verir.

Multimedia texnologiyalarının müasir informatika kursunun tədrisində tətbiqi bir sıra müsbət tərəfləri və bir neçə çətin məqamları aşkar etmişdir.

Beləliklə, xüsusi proyektorun tətbiqi ilə multimedia texnologiyalarından istifadə etməklə dərslərin təşkili öyrənilən proqram təminatının imkanlarını açıq şəkildə nümayiş etdirməyə və vaxt qənaət etməyə imkan verir, bununla da tədris materialının ifadəsini intensivləşdirir. Eyni zamanda, multimedia materiallarının hazırlanması və dərsin təşkili üçün əlavə tələblər yaranır

İnformasiya multimedia texnologiyalarının daxil edilməsi təlim prosesini daha texnoloji və məhsuldar edir. Bəli, bu yolda çətinliklər var, səhvlər var, gələcəkdə də onlardan qaçmaq olmaz. Amma əsas müvəffəqiyyət var – şagirdlərin marağı, yaradıcılığa hazırlığı, yeni bilik almağa ehtiyac və müstəqillik hissi. Kompüter bir-birinə bənzəməyən dərslər verməyə imkan verir. Bu daimi yenilik hissi elmə, marağa kömək edir.

Belə ki, dərsdə multimedia istifadə edərkən informasiyanın interaktivliyi, strukturlaşdırılması və vizuallaşdırılması vasitəsilə təhsilin motivasiyasının gücləndirilməsi, həm şüur, həm də şüur səviyyəsində onun tanıma fəaliyyətinin aktivləşdirilməsi. Bütün informasiya kanallarının içərisində vizual ən güclüdür, buna görə də onun təhsil sahəsində multimedia vasitələri ilə istifadəsi daha çox işlənib hazırlanmışdır. Lakin bu digər mediaların əhəmiyyətini ləğv etmir. Məsələn, materialın öyrənilməsinin səmərəliliyi hər bir multimedia dərsliyi üçün musiqi dəstəyinin optimal seçimi ilə öz ritm dominantının yaradılmasını xeyli artırır.

Multimedia dərsliklərində klaviaturanın və siçanın düşünülmüş qarşılıqlı əlaqəsi digər medialarla birlikdə bu təhsil texnologiyasının daha bir üstünlüyünü əlavə edir. Manual məşqlərin yaddaşı xeyli inkişaf etdirdiyinə əsaslanır. Təsadüfi deyil ki, əvvəllər gimnaziyalarda kontur xəritələri çəkilirdi - əlini «doldurmaq» və daha yaxşı yadda saxlamaq üçün. Əgər bundan sonra istifadənin normallaşmasının artmasına nail olarsanız (klavişin təsadüfi basılmasını minimuma endirirsinizsə), siçan və klaviatura ilə bağlı məqamları formalaşdırmaq daha asan olacaq. Burada mühəndis psixologiyası və erqonomika sahəsində tədqiqatlara əsaslanmaq lazımdır.

Fərdi müəllif şüurunun ayrı-ayrı əsərləri (mətn, şəkil, səs sırası, video) yeni sistemə birləşdirilir. Ssenarinin hazırlanması mərhələsində bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla (məhsulun məqsədyönlü şəkildə məqsədinə uyğun olaraq gözlənilən bütün funksional imkanları hesablayır) müstəqilliyini itirirlər. Multimedia bu qarşılıqlı əlaqə nəticəsində ayrı-ayrı əsərlərdə olmayan keyfiyyətlər əldə edir. Fakt budur ki, elm (dilçilik, sənətşünaslıq və s.) informasiyanın bu ayrı-ayrı formaları haqqında bilik toplamışdır və multimedia mühitinin xüsusiyyətləri yeni öyrənilməyə başlayır.

Nəhayət, təhsildə multimedia o qədər effektivdir ki, onlardan istifadə edərkən konkret bir tədris vəzifəsi həll olunur - bir şeyi öyrətmək, bir şeylə işləmək bacarığını inkişaf etdirmək.

Şübhəsiz ki, multimedia texnologiyaları tədris prosesini zənginləşdirir, tədrisin daha səmərəli olmasını təmin edir, tədris informasiyasının qəbul prosesinə təlimin əksər hissəsini cəlb edir. Belə ki, H.Kirmayer [4] təlim prosesində interaktiv multimedia texnologiyalarından istifadə edərkən öyrənilmiş materialın payı 75%-ə qədər ola bilər. Çox güman ki, bu, optimist qiymətləndirmədir, lakin idrak prosesinə görmə və eşitmə komponentləri də cəlb olunduqda tədris materialının öyrənilməsinin səmərəliliyinin artması kompüterlərin yaranmasından çox əvvəl məlum idi. Multimedia texnologiyaları tədris görkəmini statik baxımdan dinamikaya çevirib, yəni öyrənilən prosesləri vaxtında izləmək imkanı yaradır. Əvvəllər yalnız tədris-təhsil televiziyası belə bir fürsətə malik idi, lakin bu görkəmli sahədə interaktivliklə bağlı bir cəhət yoxdur.

Zamanda inkişaf edən prosesləri modelləşdirmək, bu proseslərin parametrlərini interaktiv şəkildə dəyişmək, multimedia təlim sistemlərinin çox mühüm didaktik üstünlüyü. Üstəlik, öyrənilən hadisələrin nümayişinin tədris auditoriyasında aparıla bilməməsi ilə bağlı olduqca çox təhsil vəzifəsi var. Bu halda multimedia vasitələri bu gün yeganə mümkündür.

Multimedia texnologiyalarından istifadə təcrübəsi göstərir:

- şagirdlərin işə marağı və onların fəallığı kəskin artır;
- alqoritmik düşüncə tərzi inkişaf edir, optimal qərarlar vermək, variativ hərəkət etmək bacarığı formalaşır.

**Ədəbiyyat:**

1. *Bəşirova Q.İ. Multimediya tədris vasitələri və onlardan təlimdə istifadə.*
2. *azkurs.org,Təhsildə İkt (Mühazirələr)*
3. *https://az.wikipedia.org/wiki/Multimedia*

**İ.K.Babazadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***injibabazadeh94@gmail.com***

# İNNOVASİYALARIN TƏSNİFATI: NÖVLƏRİ VƏ TƏTBİQİ PRİNSİPLƏRİ

***Xülasə***

*İnnovasiyalar zamanın tələbidir və onlardan texnologiyaların, iqtisadiyyatın, təhsilin və başqa sahələrin inkişafında istifadə etmək lazımdır. İnnovasiyaların bir çox növləri vardır. Bu növlər yenilik dərəcəsinə, tətbiq obyektinə, səmərəliliyinə görə müxtəlif cür təsnif olunurlar. Eyni zamanda innovasiyaların tətbiqi prinsipləri də mövcuddur. Bu prinsiplər xüsusi pedaqoji tələblərə uyğun olaraq qurulmalıdır.*

# КЛАССИФИКАЦИЯ ИННОВАЦИЙ: ВИДЫ И ПРИНЦИПЫ ПРИМЕНЕНИЯ

***Резюме***

*Инновации - это потребность времени, и их следует использовать в развитии технологий, экономики, образования и других сферах. Есть много видов нововведений. Эти типы классифицируются по-разному в зависимости от ранга нововведения, объекта применения, эффективности. В то же время есть принципы применения нововведений. Эти принципы должны быть установлены в соответствии с особыми педагогическими требованиями.*

# CLASSİFİCATİON OF İNNOVATİONS: TYPES AND PRİNCİPLES OF APPLİCATİON

***Summary***

*Innovations are the need of the time and they must be used in the development of technology, economy, education and other areas. There are many types of innovations. These types are classified differently according to the rank of the innovation, object of application, efficiency. At the same time, there are principles of application of innovations. These principles should be established in accordance with special pedagogical requirements.*

***Açar sözlər:*** *innovasiyalar, təsnifat, növlər, prinsiplər, təhsil, idarəetmə*

***Ключевые слова:*** *инновации, классификация, типы, принципы, образование, менеджмент*

***Key words:*** *innovations, classification, types, principles, education, management*

"İnnovasiya" sözü latın dilindədir və sözün tərcüməsi «dəyişikliklər istiqamətində» deməkdir. Biz onun mənasını `yenilikçilik, yeniləşmə` kimi də

başa düşə bilərik. Çünki innovasiya elmi, təhsili, iqtisadiyyatı, texnikanı və onların idarə olunmasını birləşdirən, yeninin yaradılması və tətbiqi prosesidir. İnnovasiyalar demək olar ki, bütün növ elm sahələrini əhatə edir, daha geniş olaraq isə iqtisadiyyatda, texniki sahələrdə tətbiq olunurlar. İnnovativ fəaliyyət sayəsində bu sahələrdə praktiki işlərin səmərəliliyi artır, yeni elmi biliklər, xidmətlər, texnologiyalar, məhsullar və avadanlıqlar ortaya çıxır, fərqli üsul və metodlar yaranır, eyni zamanda da innovasiya fəaliyyəti kadrların ixtisaslaşdırılması, istehsalatın təşkili məsələlərini nəzərdə tutur.

Təhsildəki innovasiyalara isə təlim-tərbiyə prosesini həyata keçirərkən müxtəlif yeniliklərin tətbiqi, həmçinin pedaqoqlarda və təhsilalanlarda yeni pedaqoji təfəkkürün formalaşdırılması və inkişafı, təhsilin iqtisadiyyatı, təşkili və idarə edilməsi prosesinin innovativ təşkili aiddir. Azərbaycan Respublikasında da təhsilin keyfiyyətinin yüksəldilməsi, onun bazar iqtisadiyyatının ehtiyaclarına cavab verməsi və təhsil sektorunun inkişafının təmin edilməsi məqsədilə müxtəlif islahatlar həyata keçirilir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını bunlardan biri kimi misal göstərmək olar. Burada təhsilə ayrılan vəsaitin ilbəil artımı, təhsildə idarəetmənin təkmilləşdirilməsi, müasir texnologiyaların artırılması və potensialının gücləndirilməsi kimi islahatyönümlü tədbirlərin reallaşdırılması məsələsi öz əksini tapmışdır. Təhsildə innovasiyaların olması ölkənin müasir təhsilin tələblərinə cavab verməsinə gətirib çıxarır, təhsilin təkamülünə, təlimin bütün forma və vasitələrinin inkişafına təsir göstərməklə, milli təhsildə pozitiv yeniləşmə tendensiyası yaradır.

Dos. Nəzərov A.M. innovasiyalarla əlaqəli yazısında onların obyektinin hansı problemlər olduğunu qeyd etmişdir. Bunlara aşağıdakılar aiddir:

a. təlim-tərbiyə fəaliyyətinin motivasiyasını (öyrənməyə, oxumağa olan marağı) necə yüksəltmək;

b. dərsdə öyrənilən materialın həcmini necə artırmaq;

c. təlimin sürətini artırmaq;

d. vaxt itkisini necə aradan qaldırmaq və s. [2, 46]

İnnovasiyalar haqqında yığcam məlumat əldə etdikdən sonra, onun təsnifatını nəzərdən keçirmək lazım gəlir. Əslində innovasiyaların müxtəlif növləri vardır və hər bir alim, pedaqoq onları fərqli şəkildə öz kitabında vermişdir. Məsələn, alman professoru Gerard Mensch, əhəmiyyətlilik dərəcəsinə görə innovasiyaların üç növünü müəyyən etmişdir.

1. **Əsas innovasiyalar** - yeni elmi prinsiplərə əsaslanan, əvvəllər məlum olmayan məhsulların və ya proseslərin başlanğıcını göstərir. Bu cür innovasiyalar böyük ixtiralar əsasında yaranır, çox sərmayə tələb edir və onların inkişaf prosesi uzundur.

2. **Təkmilləşdirici innovasiyalar** - məhsulların, proseslərin, xidmətlərin kiçik, lakin əhəmiyyətli şəkildə təkmilləşdirilməsidir. Burada əsas tətbiqə davamlı şəkildə yeniliklər və texniki təkmilləşdirmələr tətbiq olunur.
3. **Saxta innovasiyalar** – bu zaman məhsul və ya proses xaricdən dəyişdirilir, yəni onun zahiri əvvəlkindən fərqli hala gətirilir, lakin istehlakçıya lazım olan xüsusiyyətləri, özəyi dəyişməz olaraq qalır. [3, 46]

Siyasi, beynəlxalq dairələrdə isə innovasiyalar daha fərqli kateqoriyalara ayrılır. İlkin olaraq yenilik dərəcəsinə görə, innovasiyalar – inqilabi, optimallaşdırılmış, modifikasiya edilmiş innovasiyalar olaraq növlərə bölünürlər.

*İnqilabi innovasiyaların* digər adı radikal innovasiyalardır. Bunlar yeni məhsullar, xidmətlər və ya proseslərdir ki, onlar tətbiq olunduqları sahələrə əhəmiyyətli dəyişiklik və yeniliklər gətirir və bunun nəticəsində yeni bazarlar yaradıla bilir. Bunlar cəmiyyəti, təhsil mühitini kökündən dəyişməyə qadir olan, iqtisadiyyat və texnologiya infrastrukturunda yeni sahələri yarada bilən yeniliklərdir.

*Optimallaşdırılmış innovasiyalar* mövcud məhsulların, xidmətlərin və ya proseslərin daha da inkişaf etdirilməsi, yəni yaxşılaşdırılmasıdır. Müştəri mənfəətinin optimallaşdırılması, xərclərin azaldılması, mənfəətin, faydanın artırılması, yeni qanunlar və standartlar kimi yeni şərtlərə uyğunlaşmadır.

*Modifikasiya edilmiş innovasiyalar* yeni texniki bir prosesin ixtira edilməsi ilə, mövcud olan məhsulların, xidmət və ya proseslərin effektivliyinin artırılması işini yerinə yetirir.

Növbəti olaraq \`tətbiq obyekti\` meyarı götürülür və bu da dörd yerə ayrılır: məhsul, proses, təşkilati, sosial.

Məhsul - bunlar həm maddi məhsullara, həm də müəyyən ehtiyacları ödəyən qeyri -maddi məhsullara (məs. xidmət) aiddir və məhsul yenilikləri ilə bir şirkət və ya müəssisə özünü digərləri ilə rəqabətdə fərqləndirməyə çalışır.

Proses - adından da göründüyü kimi, bunlar yeni məhsul və xidmətlərin yaradılmasını təmin edən texnoloji yeniliklərdir. Məsələn, buraya müxtəlif tətbiqlər üçün istifadə olunan İT texnologiyaları, proqram təminatı metodlarında dəyişmələr daxildir.

Təşkilati – biznes təcrübələrində iş axınının səmərəliliyini və mal və ya xidmətlərin keyfiyyətini yaxşılaşdırmaq üçün, firmanın xarici əlaqələrlə təşkilati münasibətlərində yeni metodların tətbiqini özündə ehtiva edir.

Sosial - sosial yenilik, fərdlərin və cəmiyyətin rifahını yaxşılaşdırmağı hədəfləyən konseptual, proses, məhsul və ya təşkilati dəyişikliklər deməkdir. Bu dəyişikliklərin həyata keçməsi üçün yeni həll yollarının düşünülməsini və tətbiqini nəzərdə tutur.

Professor Arzu Hüseynova öz kitabında innovasiyanın marketinq növünü də qeyd edərək demişdir: "Marketinq innovasiyası yeni marketinqin üsullarıdır

(məhsulun bazara çıxarılması). Bura məhsulun dizaynı və ya qablaşdırılması, irəliləyişi və ya qiymətqoymada dəyişikliklər aiddir.” [1, 51]

İnnovasiyaların təsnifatını aşağıdakı kimi təqdim edirik:

**Təlimlə bağlı innovasiyalar**

**Tərbiyə ilə bağlı innovasiyalar**

**İnkişaf prosesi ilə bağlı innovasiyalar**

**Diaqnostika innovasiyası**

**İdarəetmə innovasiyası**

Təlimlə bağlı innovasiyalar təlim prosesində istifadə olunan yeniliklərdir. Bunlara fəal və interaktiv təlim metodları, distant təhsil, kompüter texnologiyalarından istifadə daxildir.

Tərbiyə ilə bağlı innovasiyalar dedikdə sinifdənxaric və məktəbdənkənar işlərin təşkili və bu zaman innovasiyalardan və texniki təlim vasitələrindən istifadə bu növ innovasiyalara misaldır.

İnkişaf prosesi ilə bağlı innovasiyalar uşaqların həm əqli, həm fiziki, həm də intellektual cəhətdən inkişafını öyrənməkdir. Bu isə texniki yollarla həyata keçirilir. Elektron vəsaitlər, elektron kitabxanalar, kompüterlər inkişafdan xəbər verir.

Diaqnostika innovasiyaları pedaqoqların və ya psixoloqların uşağın məktəbə hazırlığını, istedad və qabiliyyətini, sağlamlığını, təlim nailiyyətlərini diaqnostlaşdırmasıdır.

İdarəetmə innovasiyaları təhsilin, məktəb daxilinin idarəedilməsi ilə bağlı innovasiyalardan, texniki vasitələrdən istifadə edilməsini nəzərdə tutur. Məktəblərdə və ya universitetlərdə mövcud olan video müşahidə, dərslərin kamera vasitəsilə izlənə bilməsi, universitetin öz televiziya kanalının mövcud olması və s. qəbildən olan yeniliklər buraya daxildir.

İnnovasiyaların tətbiqi xüsusi pedaqoji tələblərə uyğun olaraq qurulmalıdır. Əks təqdirdə innovasiyanın tətbiqi fayda əvəzinə zərər verə bilər. Bu cəhətdən innovasiyaların tətbiqi zamanı müəyyənləşdirdiyimiz pedaqoji prinsiplərə əməl edilməlidir.

1. İnnovasiyanın tətbiqində məqsədyönlülük prinsipi tələb edir ki, innovasiyadan istifadə müəyyən qarşıya qoyulmuş məqsədə xidmət etməlidir.

2. İnnovasiyanın tətbiqində tədris materialı ilə bağlılığı prinsipi tələb edir ki, innovasiya tədris materaialının məqsədi ilə, məzmunu ilə sıx bağlı olsun, səmərəli və keyfiyyətli öyrətməyə yönəlsin.

3. İnnovasiyanın tətbiqində fasiləsizlik, sistemlilik, ardıcıllıq və variativlik prinsipi tələb edir ki, innovativ metod və vasitələrin müxtəlif növlərindən istifadə edilə bilər. Belə metodlardan istifadə təsadüfi deyil ardıcıl olaraq həyata keçirilməlidir.

4. İnnovasiyaların tətbiqində elmilik, çoxnövlülük və texnolojilik prinsipi. İnnovasiya özü elmdən və texnologiyadan yaranmışdır. Bu cəhətdən innovasiyanın tətbiqi elmi-texnoloji əsaslar üzərində qurulmalı, öyrənilən fakt və hadisələr elmə əsaslanmalıdır.

5. İnnovasiyanın tətbiqində vaxtdan səmərəli və qənaətlə istifadə edilməlidir. Yəni innovasiyanın hazırlığı çox vaxt aparmamalıdır.

6. İnnovasiyanın tətbiqində səmərəlilik və keyfiyyətin təmin edilməsi onu tələb edir ki, innovasiyaların tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsinə istiqamətlənsin.

7. İnnovasiyanın tətbiqində şagirdlərin şüurluluğu və fəallığının təmin edilməsi o deməkdir ki, şagirdlər yeniliklərin tətbiq edilməsi zamanı yüksək fəallıq və şüurluluq nümayiş etdirməlidirlər.

8. İnnovasiyaların tətbiqində şagirdlərin sərbəst düşüncələri təmin edilməlidir. Bu prinsip tələb edir ki, şagirdlər müstəqil surətdə düşünsün və sərbəst fikir söyləsin. Onları dərsdə sıxmaq, üstlərinə qışqırmaq və s. hallar yolverilməzdir.

9. İnnovasiyaların tətbiqində dialoq və müzakirələrə üstünlük verilməlidir. Hər bir fikir, hətta səhv belə olsa, qəbul edilməli, sonra müzakirə edilərək doğrular söylənməlidir.

10. Kollektivin innovativ təlimə adaptə olunması prinsipi tələb edir ki, kollektiv innovasiyalara adət etsin və hər dəfə innovasiyalar tətbiq olunduqda onlara qeyri-adi gəlməsin.

Bütün sadalananlar müasir dövrümüzdə innovasiyaların nə qədər vacib və əhəmiyyətli olduğunu göz önünə gətirir. Əgər hər hansısa sektorun inkişaf etməsini, çağdaş dövrün tələbləri ilə səsləşməsini istəyiriksə? innovasiyalardan istifadə etməliyik və bu istifadə yerli-yerində, düzgün, fayda verəcək şəkildə tətbiq olunmalıdır.

**Ədəbiyyat:**

1. *Hüseynova A.A. Elm və innovasiya fəaliyyəti: ölçmə və qiymətləndirmə. Bakı, 2020, s.375*
2. *Nəzərov A.M. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. Bakı, 2012, s.105*
3. *G.Mensch. Stalemate in Technology: Innovation Overcome The Depression. Cambridge, 1979, p.280*
4. *T.Kogabayev, A.Maziliauskas. The definition and classification of innovation. Litva, 2017, s.14.*

**M.R.Həmidova**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***mehbube072@gmail.com***

# X-XI SİNİFLƏRDƏ BİOLOGİYANIN TƏDRİSİNDƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFINA YÖNƏLMİŞ METODLARDAN İSTİFADƏNİN İMKAN VƏ YOLLARI

***Xülasə***

*Bu məqalədə şagirdlərdə məntiqi təfəkkür prosesinin inkişafına yönəlmiş metodlardan istifadənin imkan və yollarından bəhs olunmuşdur. Məqalədə şagirdlərin şəxsiyyət kimi formalaşmasında təfəkkürün inkişafının çox mühüm amil olması əks olunmuşdur.Məntiqi təfəkkür sayəsində insan düzgün təhlil aparır, axtarış, müqayisə edir və sərbəst fikir ifadə edir. Təlim zamanı şagirdlər bilik əldə etməklə yanaşı, bu biliklər üzərində düşünür, axtarır, tapır. Deməli, öyrənmənin bilik əldə etmənin əsasında idrak prosesi durur. Bu da şagirdlərdə məntiqi təfəkkürü inkişaf etdirir. Fənnin tədrisi zamanı müxtəlif oyunlarla şagirdlərin idrakında, təfəkküründə oyanış etməklə, onların dərsə marağının artmasına, sual-cavab, təhlil zamanı aktivliyin, rəqabətin artmasına nail olmaq mümkündür.*

# ВОЗМОЖНОСТИ И СПОСОБЫ ИСПОЛЬЗОВАНИЯ МЕТОДИКИ РАЗВИТИЯ ЛОГИЧЕСКОГО МЫШЛЕНИЯ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ В X-XI КЛАССАХ

***Резюме***

*В статье рассматриваются возможности и способы использования методов, направленных на развитие процесса логического мышления у студентов. В статье отражено, что развитие мышления является очень важным фактором становления учащихся как личности. Благодаря логическому мышлению человек правильно анализирует, ищет, сравнивает и свободно выражает свои мысли. В процессе обучения студенты не только получают знания, также думают над этим, ищут и находят их. Следовательно, обучение основано на процессе познания. Он также развивает логическое мышление студентов. Пробуждая познание и мышление учащихся с помощью различных игр во время преподавания предмета, можно добиться повышения их интереса к уроку, повышения активности и конкуренции во время вопросов-ответов и анализа.*

# POSSIBILITIES AND WAYS OF USING METHODS FOR THE DEVELOPMENT OF LOGICAL THINKING IN THE TEACHING OF BIOLOGY IN X-XI GRADES

***Summary***

*The article discusses the possibilities and ways of using methods aimed at developing the process of logical thinking in students. The article reflects that the*

*development of thinking is a very important factor in the formation of students as a person. Thanks to logical thinking, a person correctly analyzes, searches, compares and freely expresses his thoughts. In the learning process, students not only gain knowledge, they also think about it, seek and find it. Therefore, learning is based on the process of cognition. It also develops the logical thinking of students. Awakening the cognition and thinking of students through various games during the teaching of the subject, you can increase their interest in the lesson, increase activity and competition during questions and answers and analysis.*

***Açar sözlər:*** *təfəkkür, məntiqi təfəkkür, idrak, məntiq, tədris metodları, təhlil, biologiya tədrisi*

***Ключевые слова*** *мышление, логические мышление, познание, логика, методы обучения, анализ, преподавание биологии*

***Key words:*** *thinking, logical thinking, cognition, logic, teaching methods, analysis, teaching biology*

Şagirdlərin şəxsiyyət kimi formalaşmasında təfəkkürün inkişafı çox mühüm amildir. Fəal təlimin əsas üstünlüyü ondan ibarətdir ki, şagirdlərin idrak fəallığını artırır, onları düşündürür, müstəqil qərarlar çıxarmağa yönəldir. İdrak – insana xas olan mühüm keyfiyyətdir. O, ilk növbədə şəxsiyyətin bütün parametrlərini əhatə edir, onun fəaliyyətini tənzimləyir. Təlim üsullarını seçərkən şagirdlərin yaşı, məzmun standartı, dərsdən gözlənilən nəticələr, resurslar, iş forması və s. nəzərə alınmalıdır. Dərsi səmərəli təşkil etmək üçün bir sıra metodlar vardır ki, bunlar müzakirə, əqli hücum, rollu oyunlar, tədqiqat, tənqidi, yaradıcı, məntiqi təfəkkürü inkişaf etdirən texnikalar və fəallaşdırma metodları kimi qruplara bölünür.

Məntiq – hər bir insanın düzgün düşünə bilməsidir. Düşünmək öz-özünə mübahisə etmək deməkdir. Seçilən cavabın niyə məhz həmin cavab olmasını yəqinləşdirən fikirlərin hamısı məntiqin özüdür. Məntiq şagirdlərin təfəkkürünü inkişaf etdirməyə, onların düşünmə qabiliyyətlərini və intellektual səviyyələrini yüksəltməyə, bilik, bacarıq və vərdişlərinin daha məzmunlu və ətraflı formalaşmasına xidmət edir. Şagirddə idrak fəallığı yaradacaq motivasiya, mövzuya uyğun düzgün seçilmiş təlim üsulları,iş formaları, fəal dərsin mərhələlər baxımından məqsədli strategiyanın özü də məntiqin, təfəkkürün inkişafına xidmət edir.

Son zamanlar məntiqlə düşünmə qabiliyyətinin inkişaf etdirilməsinə xüsusi fikir verilir. Bu gün orta məktəbdə təhsilə yanaşma dəyişir. Bugünkü təhsil, şagirdlərə təkcə bilik verməyi deyil, onlarda müəyyən bacarıq və vərdişlərin inkişaf etdirilməsini də tələb edir. Şagirdi müstəqil həyata hazırlamaq şəxsiyyətyönümlü təhsilin əsas məqsədidir.

Təfəkkürün 3 növü vardır.

- Məntiqi təfəkkür;

- Tənqidi təfəkkür;
- Yaradıcı təfəkkür.

İdrak fəaliyyətinin gedişində şagirdlərin məntiqi, tənqidi, yaradıcı təfəkkürü inkişaf edir. Məntiqi təfəkkür həyatın bütün sahələrində insana lazım olan vərdişdir. Təfəkkürün normal fəaliyyəti yalnız düşüncə aydın olduğu halda mümkündür. Düşüncənin bu və ya başqa dərəcədə pozulması təfəkkürün yeknəsəkliyinə, əlaqəsizliyinə, bəzən isə avtomatik fəaliyyət göstərməsinə səbəb olur.Təfəkkür insanın yaradıcı fəaliyyətinin əsasını təşkil edir. Ona əsaslanaraq biz maddi nemətlər istehsal edir, sənət əsərləri yaradır və fəaliyyətimizi idarə edirik. Təfəkkür prosesi zamanı biz faktları təhlil edir, ümumiləşdirir və yeni nəticələrə gəlirik. Təfəkkürün bu növlərinin inkişafı üçün ibtidai sinifdən başlayaraq bu istiqamətdə tapşırıqlarla şagirdləri işlətmək lazımdır. Təlimə maraq aşılamaq, həm də məntiqi təfəkkürü inkişaf etdirmək məqsədilə dərslərdə bəzi nümunələrdən istifadə etmək olar. Məntiqi təfəkkürü inkişaf etdirən metodlardan biri də əyləncəli oyunlardır. Məntiqi təfəkkürə əsaslanan əyləncəli oyunlara "alqoritmin çıxarılması – analizdən sintezə", "canlının adını tapın", "bioloji loto", "kim tez və çox", "oyun-tapmaca", "oyun-yarış", "dağılma (parçalanma)", "ən mühümü", "krossvord", "sözü tap" və s. aiddir. Əyləncəli oyunları elə təşkil etmək lazımdır ki, o şagirdlər üçün təkcə maraq kəsb etməsin, onların məntiqi düşünməsinə, şagirdlərdə idrak fəallığının artmasına səbəb olsun. Əyləncəli oyunların məntiqi təfəkkürü necə inkşaf etdirdiyini nümunələr əsasında müəyyənləşdirək.

"Analogiyalar zənciri" və yaxud da gölə atılan daş texnikasında bir söz deyilir, daha sonra ona uyğun digər bir söz deyilir və hər birinə özündən əvvəl işlənən sözə uyğun fikir bildirməsi üçün 5 saniyə vaxt verilir. Təlim prosesində bu texnikadan istifadə edilməsi şagirdləri fəallaşdırır, onların hazırcavab olmasını, intellekt səviyyəsinin yüksəlməsini tələb edir. Sözlərdən vaqonlar düzəlir, uzun bir zəncir qurulur. Vaqonlar, sözlər kimi, bir-biri ilə bağlı olmalı, hər bir söz arxasınca gələn sözü çəkməlidir. **Məsələn**: Anemiya xəstəlikdir, daha hansı xəstəlikləri tanıyırsız? Qurd xəstəlikləri. Xəstəlikləri nə yaradır? Mikroorqanizmlər. Xarici mühitdə və orqanizmdə fəaliyyətinə görə hansı mikroorqanizmlər vardır? Saprofitlər, mütləq patogenlər, şərti patogenlər. Mikroorqanizmlərin xəstəlik törətməsi nədən asılıdır? Sahib orqanizmin xüsusiyyətlərindən. İnfeksiyon prosesin baş verməsi üçün vacib şərtlərdən biri nədir? Patogen mikroorqanizmlərin olması. Orqanizmin xəstəliyə qarşı reaksiyası nədən asılıdır? Yaşdan, sinir sistemindən, irsi amillərdən və s. Sinir sisteminin hansı şöbələri vardır? Somatik və vegetativ sinir sistemi.

"Tapmaca metodu"- Tapmacalar induksiya, deduksiya qabiliyyətlərinin inkişafına səbəb olur. Tapmaca zamanı ümumi söylənənlərdən bir fikir formalaşdırmaq bacarığı tələb olunur, şagirdlər təkcə tapmacaların açmasını

deyil , tapmaca tərtib etməyi də bacarmalıdırlar, yəni xüsusidən ümumiyə keçid etmək qabiliyyəti şagirdlərdə formalaşmalıdır. Tapmacanı qurmaq üçün əşyanın əlamətlərinə görə təsvir etməyi, şüurda obyektin müxtəlif xüsusiyyətlərini cəmləşdirmək və onlardan ən mühüm olanları seçmək vacibdir. Bunun üçün obyektin nəyə oxşadığını, nə ilə fərqləndiyini bilməklə cavab tapılmalıdır. Tapmacaların qurulması üçün təsvir, metafor, sadə müqayisə, həmişə nə iləsə fərqləndirmək kimi 4 üsuldan istifadə edilir. Tapmacanın cavabının tapılmasının tərkib hissələrinə əşyanın təsviri, sirli və ya proza ilə ifadə edilməsi, cavabların düşünülməsi aiddir. **Məsələn**: Necə gəldi bölünür, gizli dövr ötürür, iki forması vardır, biri insan öldürür. Cavab: (orqanizmdə əmələ gələn şişlər). **Məsələn:** İlanla bir yaşayır, deyək ki, bir sinifdə, lakin uzun yaşayır, çanağı ilə birlikdə. Cavab: (tısbağa)

Birinci tapmaca nümunəsi metafora şəklində. İkinci nümunə isə müqayisə şəklindədir.

"Tapmacalar ölkəsi". Həzm sistemi orqanları haqqında xüsusiyyətlərin təyin edilməsi nümunəsinə nəzər salaq. 5 həzm orqanı "Şəhərci"yinə düşmək üçün "bağlı gözlər darvazası"ndan keçmək lazımdır. Bələdçi-şagird seçib, gözlərini bağlayırıq. Qutuda və ya səbətdə 5 həzm orqanının modelləri və ya şəkilləri qoyulur. Gözü bağlı şagird hansı vəzinin modelini əlinə götürsə, onun yerləşdiyi boşluqlar, anatomiyası və fiziologiyası haqqında məlumatları söyləyir və gözlərini açdıqdan sonra insan rəsminin üstündə onu yerləşdirir. Məntiqi təfəkkürü inkişaf etdirmək üçün oyun başqa bir tərzdə də keçirilir.

Məntiqi təfəkkürü inkişaf etdirən üsullar əsasən bu tip suallar ilə formalaşır: "Bu nə ola bilər?", "Sizcə bunun adı nədir?", "Bu niyə belədir?", "Əgər belə olmasaydı necə olardı?", "Sən necə edərdin?" və s.

Məntiqi təfəkkürü inkişaf etdirmək üçün qavrama bacarıqlarına yiyələnmək lazımdır. Məntiqi təfəkkürün inkişafını müəyyən etmək, qarşılaşdırmaq, fərqləndirmək, təyin etmək, dəyişmək, nümunə göstərmək, müzakirə, izahını vermək, təfsir və təsvir etmək fəaliyyət növləri ilə baş verir. Məntiqin əsas vəzifəsi bütün dövrlərdə eyni olubdur: nəticə çıxartmaq, mümkün olan hər şeyi təhlil və analiz etmək. Bununla belə hesab edilir ki, nəticə obyektin məzmunundan deyil, onun tətbiqi metodlarından birbaşa asılıdır. Ona görə də tədqiqat metodlarının rəngarəngliyi və subyektiv baxışların çoxluğu arzuolunandır.

"Fikirləşdiyimi kim tapar" əyləncəli oyunun X sinifdə "İnfeksiya mənbələri və yoluxma mexanizmi" mövzusunun tədrisində tətbiq edilməsi mümkündür. Müəllim: yoluxucu xəstəliklərin yoluxma üsuluna aid beynimdə bir fikir tutmuşam, fikirləşdiyimi kim tapar?

Kəmalə -Sinantrop gəmiricilər ilə yoluxma. Müəllim: düzgün cavabdır, amma bu fikrimdəki bu deyil. Nadir - bitlər vasitəsi ilə yoluxma. Müəllim: bu da düzdür, amma nəzərdə tutduğum deyil, beləcə müəllim bütün düzgün

cavablar bitənə kimi şagirdlərin cavablarını dinləyir, ən sondakına isə bəli, bu düzdür deyir. Beləcə, bütün yoluxma üsulları təkrarlanmış olur, həmçinin də şagirdlər düşünməyə vadar olur. Deməli, bu üsul həm hafizəyə, həm də məntiqi təfəkkürə əsaslanır. Bu zaman onlar öz fikirləri ilə müəllimin fikirlərini qarşılaşdıran zaman şagirdlərdə məntiqi təfəkkür inkişaf edir.

Təlim zamanı şagirdlər bilik əldə etməklə yanaşı, bu biliklər üzərində düşünür, axtarır, tapır. Deməli, öyrənmənin, bilik əldə etmənin əsasında idrak prosesi durur. Bu da şagirdlərdə məntiqi təfəkkürü inkişaf etdirir. Şagirdlər aldıqları məlumatları özləri araşdırmalı və onlara əlavələr etməlidirlər. Hər hansı məsələ, fakt və hadisə haqqında bir-biri ilə mübahisə etməli, öz fikirlərini və mülahizələrini bildirməli, fikirlərinə əsaslanmaqla yanaşı yoldaşlarının da fikirlərini dinləməli, onlara hörmətlə yanaşmalıdırlar. Bu şagirdlərdə məntiqi ardıcıllığı və təfəkkürü möhkəmləndirir. Məntiqi inkişaf etdirən belə əyləncəli oyunlar çoxdur. Bu müəllimin tətbiq etmək qabiliyyətindən asılıdır.

Qeyd etdiyimiz əyləncəli oyunlardan başqa məntiqi təfəkkürü inkişaf etdirən oyunlara "artıq olanı at", "bioloji labirintlər", "işıqfor", "biotir", "eşit amma görmə" , "bitkiləri bir yerə topla", "səhv et və tap", "maskalanma", "3 mənalı söz tərtib et" və s aiddir.

Əsas olan odur ki, müəllim bu oyunları əyləncəyə çevirib dərsdən kənarlaşmalarına yol verməməlidir. Əgər dərs düzgün təşkil olunmazsa, bu oyunların məntiqi təfəkkürün inkişafında heç bir rolu qalmaz. Ona görə də ilk öncə müəllim müvafiq qabiliyyətlərə malik olmalı, maddi texniki bazanın mövcudluq səviyyəsi, şagirdlərin yaş qrupu, bilik səviyyələri, dərsdən gözlənilən təlim nəticələri nəzərə alınmalıdır. Əks halda heç bir təfəkkür prosesindən söhbət gedə bilməz. Həmçinin, şagirdlərin maraq dairələri də nəzərə alınmalıdır, müəllim şagirdi oyunu təşkil etmək üçün məcbur edə bilməz. Məsələn, yeniyetmələrdə bu building ilə nəticələnə bilər. Ona görə də onlarda ilk öncə həvəs yaratmaq lazımdır.

**Ədəbiyyat:**

1. *Hüseynov Ə.M. Biologiya tədrisi metodikasının ümumi əsasları. Bakı, 2009.*
2. *İbrahimovaX.Q.Biologiyanın tədrisində fəal təlim metodlarının tətbiqi.Bakı 2008.*
3. *Veysova Z. Fəal- interaktiv təlim. 2007.*
4. *Изкнигиподредакцией А.Л. Коста (A.L.Costa) Развитиемышления (с. 47-53). Александрия, штат Вирджиния: ASCD.*
5. *İnternet resursları.*

**G.R.Hüseynova**
**Lənkəran Dövlət Universiteti**
***gulsum95.95@mail.ru***

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYA FƏNNİNİN TƏDRİSİNDƏ İKT-NİN İMKANLARINDAN İSTİFADƏ ETMƏKLƏ ƏYANİLİYİN TƏŞKİLİ

***Xülasə***

*Məqalədə ümumtəhsil məktəblərində biologiya fənninin tədrisində İKT-nin imkanlarından istifadə etməklə əyaniliyin təşkili sistemli şəkildə araşdırılaraq təhlil olunmuşdur. Materialın İKT vasitələrindən istifadə olunaraq tədrisinin üstünlükləri qeyd edilmişdir. Problemin həlli ilə bağlı müəllimlərə tövsiyyələr verilmişdir.*

# ОРГАНИЗАЦИЯ ПУБЛИЧНОСТИ С ИСПОЛЬЗОВАНИЕМ ВОЗМОЖНОСТЕЙ ИКТ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ В СРЕДНЕЙ ШКОЛЕ

***Резюме***

*В статье системно изучается и анализируется организация наглядности с использованием возможностей ИКТ в обучении биологии в общеобразовательной школе. Отмечены преимущества преподавания материала с использованием средств ИКТ. Даны рекомендации учителям по решению проблемы.*

# ORGANIZATION OF PUBLICITY BY USING ICT OPPORTUNITIES IN TEACHING BIOLOGY IN SECONDARY SCHOOLS

***Summary***

*The article systematically studies and analyzes the organization of visibility using the opportunities of ICT in the teaching of biology in secondary schools. The advantages of teaching the material using ICT tools were noted. Recommendations were given to teachers to solve the problem.*

***Açar sözlər:*** *İKT, proqram təminatı, elektron lövhə, virtual laboratoriya, məktəb, biologiya, tədris, dərs, əyanilik.*

***Ключевые слова:*** *ИКТ, программное обеспечение, электронная доска, виртуальная лаборатория, школа, биология, преподавание, уроки, наглядность.*

***Key words**: İKT, software, electronic board, virtual laboratory, school, biology, teaching, lessons, visibility.*

Təlimdə əyani vasitələrdən istifadə bir sıra tələblər nəzərə alınmaqla öyrənilən mövzunu asan və şüurlu mənimsəməyə, bütün şagirdləri fəallaşdırmağa

şərait yaradır. Tədris prosesində İKT-nin imkanlarından düzgün istifadə etmək və bu bacarıqların təhsil iştirakçılarında təkmilləşdirilməsi olduqca mühüm məsələdir. İKT vasitələrinin tədrisdə istifadəsi şagirdlərin idraki aktivliyinə müsbət təsir göstərərək onların müstəqil qavrama qabiliyyətini təmin etmək üçün geniş imkanlar açır, təhsilin keyfiyyətini və inkişafını artırır.

Ümumrespublika səviyyəsində təhsil sahəsinin İKT əsasında təkmilləşdirilməsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 avqust 2004-cü il tarixli sərəncamla təsdiq etdiyi Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı" (2005-2007-ci illər) əsas rol oynamışdır. 10 iyun 2008-ci il tarixdə ölkə başçısı tərəfindən təsdiq edilmiş 2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı bu sahənin inkişafına təkan vermişdir.

Biologiya fənninin tədrisində istifadəsi mümkün olan İKT vasitələri kompüter, proyektor, elektron lövhə, elektron resurslar, saytlar, multimediya vasitələri, web 2.0, kompüter tədris proqramları, animasiya, qrafika, rəngarəng illüstrasiyalar şagirdlərin idrak fəaliyyətini yüksəldən katalizator rolunu oynayır. Eletron lövhə - interaktiv ekran, video-proyektor, kompüter və xüsusi proqram təminatından ibarət olan qurğudur. Onun səthinə əl və ya xüsusi marker vasitəsilə toxunulduğu zaman həssas sensorlar kompüterin təmas nöqtəsinin koordinatlarını dəqiq müəyyənləşdirir və məlumatları ötürür. Daxil olan məlumatlar dərhal proqram təminatı vasitəsilə təsvir edilir və əldə olunan nəticə proyektordan ekrana əksi ötürülür. Elekton lövhənin proqram təminatı "ekran – kompüter – proyektor" linkində məlumatların dövr etməsini təmin edir. Müəllim və şagirdlər biologiya dərslərində elektron lövhədən istifadə etməklə öz elektron terminallarından olan məlumatları nümayiş etdirə bilərlər. Dərslərlə bağlı video filmlərə, interaktiv 3D modellərə, elektron dərsliklərə, təqdimatlara, rəsm və dərs üçün nəzərdə tutulmuş digər materiallara baxmaq olar. Elektron lövhənin üstünlüklərindən biri də onun üzərində aparılmış əməliyyatların, keçirilmiş dərslərin yaddaşa yazılaraq saxlanılması funksiyasıdır. Bu funksiya eyni materialdan dəfələrlə istifadə etməyə, dərsə gələ bilməyən şagirdlərin dərsi daha sonra izləyə bilməsinə şərait yaradır [1,2].

Virtual laboratoriya vasitəsilə şagirdlər müstəqil olaraq təcrübə və sınaq işlərini həll edərək, həmin anda cavabların düzgün olub-olmadığını özləri yoxlaya bilirlər. Virtual laboratoriya bilogiya dərslərində əlçatanlığı təmin etməklə bioloji prosesləri kompüterdə simulyasiya etməyə, tətbiqetmə şərtlərini və parametrlərini dəyişdirməyə imkan verən kompüter proqram təminatıdır. Hər hansı canlının daxili quruluşunun, bioloji proseslərin gedişatının tədrisizamanı şagirdlər virtual laboratoriyada sərbəst işləyərək məlumat əldə etmiş olurlar. Virtual laboratoriyanın bir sıra üstünlükləri vardır ki, bunlara ən birinci onun

təhlükəsiz olması, bahalı avadanlıq və maddələr almaq ehtiyacının yaranmaması, daha çox vizual görüntüyə malik olması, əlçatanlığı və s. aiddir.

Ümumtəhsil məktəblərində biologiya fənninin tədrisində əyaniliyin təşkili üçün Microsoft Office proqramlarından da istifadə olunur, onlara aşağıdakı proqramlar daxildir:

1. Microsoft Office Word- mətn redaktorudur. Yazı işlərinin icrası üçün nəzərdə tutulmuşdur. Günümüzdə bu proqramdan demək olar ki, bütün sahələrdə, eləcə də təhsildə geniş istifadə olunur. Müəllimlər və şagirdlər proqramdan istifadə edərək müxtəlif yazı işlərini qısa vaxt ərzində hazırlaya bilirlər. Yazılmış mətnə şəkil, cədvəl, diaqram, fiqur kimi təsvirləri əlavə etmək, yaddaşda saxlayaraq sonra redaktə etmək, çapa vermək kimi funksiyaları icra etmək mümkündür.
2. Microsoft Office Excel- hesablama işlərinin icrası və cədvəllərin tərtib olunması üçün istifadə edilən proqramdır. Biologiya dərslərində hesablama əməliyyatlarının, müxtəlif funksiyalı elektron cədvəllərin hazırlanması üçün istifadə olunur.
3. Microsoft Office PowerPoint- slaydların hazırlanması bu proqram vasitəsilə həyata keçirilir. Təqdimatlar, layihə işlərinin hazırlanması və nümayişi üçün əlverişli proqramdır. Proqram vasitəsilə hazırlanmış təqdimatlara şəkil, video, cədvəl, sxem, diaqram, fiqur, musiqi, səs əlavə oluna bilər. Proqramda mövcud olan hazır şablonlardan əlavə istifadəçinin özünün də müxtəlif dizaynlı slaydlar yaratması mümkündür.
4. Microsoft Office İnfoPath- blankların doldurulması üçün hazırlanmış proqramdır. Müxtəlif növ sənəd və ya blanklar dizayn etmək üçün də istifadə oluna bilər. Biologiya dərslərində istifadə etmək üçün xüsusi dizaynlı blanklar hazırlana bilər.
5. Microsoft Office Outlook- bu e-poçt proqramıdır. Bir neçə hesabı bu proqram vasitəsilə idarə etmək mümkündür. İstifadəsi asandır. Müəllim şagirdlərin hamısına eyni anda dərsdən əlavə əhəmiyyətli materiallar, test nümunələri, tapşırıqlar göndərə bilər.
6. Microsoft Office Publisher- bir növ dizayn proqramlarına bənzəyir, onun vasitəsilə plakatlar, broşürlar, həmçinin kiçik həcmli veb saytların hazırlanması da mümkündür. Biologiya dərslərində plakatlar xüsusi əhəmiyyət daşıyır. Müxtəlif məzmunlu plakatlar, broşürlar hazırlamaq üçün rahat şəkildə istifadə oluna bilər.
7. Microsoft Office Access- verilənlər bazasını yaratmaq və idarə etmək üçün istifadə olunur. Müxtəlif növ informasiyaları toplamaq, sistemləşdirmək, daxil edilən şərtlərə əsasən obyektlərin axtarışı və sıralanmasını təşkil etməyə və hesabatlar icra etməyə imkan verir [3,4].

Bunlardan başqa digər tətbiqi proqram növləri vardır ki onlardan da müxtəlif yaradıcı işlərin icra olunması üçün istifadə oluna bilər. Məsələn, qrafik proqramlar- Paint, Corel Draw, Photo Shop 3Dstidio MAX, Canva, bunlardan başqa SAPR (layihələşdirilmənin avtomatlaşdırılması) Auto Cad, PC oyunları, öyrədici proqramlar, şəkil və animasiya, şəbəkələri idarə etmək üçün istifadə olunan proqramlar biologiya dərslərini şagirdlər üçün cəlbedici, maraqlı və əyləncəli şəkildə təşkil etməkdə müəllimlərə yardımçı ola biləcək vasitələrdir. «Biologiya.az» və «Biologiya.org», «kayzen» məlumat axtarış saytları, «video.edu.az» biologiya dərslərinə aid videoların yer aldığı saytdır. «Kayzen» həm məlumat, həm testlər üçün istifadə edilə bilər.

Elə proqramlar var ki, istifadəsi sadə olmaqla yanaşı, dərsi şagirdlər üçün maraqlı və cəlbedici edir. Belə proqramlardan biridə telefon və planşetə asan yüklənə bilən "Quiver" proqramıdır. Bu proqram ödənişsizdir. Proqramın özündə kod yazılmış xüsusi vərəqlər vardır ki, onlarda müxtəlif canlıların daxili və ya xarici quruluşu, hüceyrə orqanoidlərinin şəkli təsvir olunmuşdur. Həmin vərəqlər printer vasitəsilə çap edilir. Vərəqlərdəki şəkillər ağ-qara eskiz formasında verilmişdir. Şagirdlər həmin kodlu vərəqlərdəki şəkli rənglədikdən sonra telefon və ya planşetdə proqramı aktiv edərək şəklin üzərinə yaxınlaşdırdıqda həmin şəkil canlanır. Bununla da şagird məlumatı göz önündə canlandırılmış şəkildə mənimsəyə bilir. Proqramın digər özəlliyi isə şəklin hissələrinin adını göstərməsidir.

"YouTube" proqramı ən çox istifadə olunan və geniş yayılmış proqramlardandır. Biologiyadan fəal dərsin motivasiya, ümumiləşdirmə mərhələlərində bu proqramdan istifadə edərək şagirdlərə müxtəlif cür videolar nümayiş etdirmək olar.

"Google" axtarış proqramı vasitəsilə dərslikdə təsvir olunmayan şəkilləri qısa zaman ərzində tapmaq, həmçinin müxtəlif məlumat və biologiya saytlarına da buradan daxil olmaq mümkündür.

İKT vasitələri şagirdlərin tədqiqatçılıq, yaradıcılıq, müstəqil düşünmək qabiliyyətlərinin inkişafını səmərəli təşkil etməyə imkan verir. VI sinifdə "Çiçək qrupları" mövzusunun tədrisi zamanı şagirdlərə qrafik redaktorlardan istifadə etməklə hər hansi bitkiyə aid çiçək qruplarını hazırlamaq tapşırıla bilər. Bu, şagirdlərin İKT vasitələrilə müstəqil işləmək və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir.

**Ədəbiyyat:**

*1.İbrahimov F., Hüseynzadə R. Pedaqogika. I cild. Bakı 2012*

*2.Hacıyeva G. Biologiyanın tədrisi metodikası (Ali məktəblər üçün dərslik). Bakı 2019.*

*3.İbrahimov X.Q. Mühazirə materialları.*

*4.Seyidli Y., Əhmədbəyli X., Əliyeva N. Ümumtəhsil məktəblərinin 6-cı sinif üçün Biologiya fənni üzrə dərslik. Bakı-2018.*

*5. İnternet araşdırmaları.*

**Ə.İ.Orucova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***azizaorujova911@gmail.com***

# BİOLOGİYANIN TƏDRİSİNDƏ FƏNLƏRARASI İNTEQRASİYANIN YARADILMASI ÜZRƏ İŞİN SİSTEMİ

**Xülasə**

*Məqalədə məktəblərdə biologiyanın tədrisində fənlərarası inteqrasiyanın yaradılmasının imkan və yolları göstərilir. Təlim prosesinin səmərəli təşkili xarakterizə olunur.*

# СИСТЕМА РАБОТЫ ПО СОЗДАНИЮ МЕЖДИСЦИПЛИНАРНОЙ ИНТЕГРАЦИИ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ

**Резюме**

*В статье показаны возможности и пути создания межпредметной интеграции в преподавании биологии в школе. Характеризуется эффективная организация тренировочного биологии в школе.*

# SYSTEM OF WORK ON THE CREATION OF INTERDISCIPLINE INTEGRATION IN BIOLOGY TEACHING

**Summary**

*The article shows the possibilities and ways of creating interdisciplinary integration in teaching biology at school. The effective organization of the training process is characterized.*

***Açar sözlər**: Təlim fəaliyyəti, təlimdə keys metodu, fənlərarası əlaqə, formalaşdırmaq, metodik priyomlar, inteqrasiya, tədrisi metodikası.*

***Ключевые слова**: учебная деятельность, образовательный кейс, значение межпредметные связи, формирования, методические приёмы, интеграция.*

***Key words:** educational activity, educational case, interdisciplinary connections, siqnifikance, teaching methods, inteqration, teaching methods.*

XX əsrin ikinci yarısından başlayaraq baş verən elmi-texniki inqilabların nəticəsi olaraq, bu gün yeni texnologiyaların meydana çıxmasının əsasında elmlərin inteqrasiyası dayanır. Elmin texnika və sənaye ilə qarşılıqlı əlaqədə öyrənilməsi, mürəkkəb problemlərin tədqiqinə kompleks yanaşma ilə xarakterizə olunur.

Tədqiqat obyekti canlı orqanizmlərin, maddələrin, müşahidə oluna bilən əlamətlərdən ibarət olan təbiət elmlərinin inkişafı, ümumi təbiət fəlsəfəsindən diferensasiya yolu ilə ayrılaraq baş vermişdir. İlk mərhələdə ayrılan elmlər biologiya, kimya, fizika və coğrafiya olmuşdur. Növbəti mərhələdə bu fənlərin inteqrasiyası ilə yeni elm sahələri biokimya, biofizika, biocoğrafiya və s. yaranmışdır. Sonralar isə biotexnologiya, atom fizikası, bioüzvi kimya, molekulyar biologiya və s. adi gözlə görünən böyük obyektlərin kiçik strukturlarının öyrənilməsi nəticəsində formalaşdı. Əldə edilən biliklər yeni texnologiyaların, sənaye sahələrinin inkişafına səbəb oldu. Hazırda elmin son nailiyyətlərinin tətbiqi ilə qida və gündəlik tələbat malları istehsal edilir, yeni silahlar yaradılır və kosmos mənimsənilir. Eyni zamanda fənlərarası inteqrasiyanın imkanlarından istifadə etməklə, tibbi və yeyinti sənayesini əhatə edən tədqiqatlar aparılır. Dövrümüz üçün akual olan gen mühəndisliyi, bionika, elm sahələri inkişaf edir. Sinir sisteminin funksional quruluş vahidi olan, neyronun xassələrinin öyrənilməsi ilə sinir sisteminin fəaliyyətinə müvafiq proqramlar tərtib edilir. Tədqiqatın nəticələri əsasında müxtəlif elm sahələrini və texnologiyaları özündə birləşdirən informasiya texnologiyaları daha da mükəmməlləşdirilir [4,5].

Məlumdur ki, biologiya elminin inkişafı ilə əlaqədar dövri olaraq, orta ümumtəhsil məktəblərində fənn proqramları və təlim materialının məzmunu yenilənmiş, onun tədrisi metodikası təkmilləşdirilmişdir. Elmi-metodiki ədəbiyyatların təhlilindən aydın olur ki, fənlərarası əlaqə ən məşhur pedaqoq, bioloq və metodistlərin diqqət mərkəzində olmuşdur. Metodist alimlər onun mahiyyətinə müxtəlif aspektdən yanaşmış və fərqli təsnifatlar vermişlər. Akademik M.Mehdizadə fənlərarası əlaqənin geniş bir didaktik prinsip olmaqla, heç bir təsnifat çərçivəsinə yerləşmədiyini irəli sürmüşdür. Bu fikri qəbul edən Ə.Hüseynov [1] öz monoqrafiyasında qeyd edir ki, fənlərarası inteqrasiyaya didaktik və dialektik baxımdan yanaşılmalıdır. Mahiyyət etibarı ilə fənlərarası əlaqə yardımçı biliyin tətbiqindən ibarətdir. Həmçinin, müəllif K.P.Korolyevanın və P.Paşayevin fənlərarası təsnifat sistemindən istifadə edərək, onu yenidən təsnifləşdirmişdir. O, təlimdə fənlərarası inteqrasiyanın funksiyalarını xarakterizə etmiş və biologiyanın tədrisində tətbiq edilən əsas komponentləri (təşkili forması, məzmunu, metodları) qruplaşdırmışdır.

Fənlərarası inteqrasiya iki və ya daha artıq fənnin əhatə etdiyi ortaq anlayış, bilik, bacarıq və prinsiplərin sintezidir. Bu inteqrasiya bir fənnə aid olan qanun, nəzəriyyə və metodların başqa bir fənnin öyrədilməsi zamanı istifadəsini nəzərdə tutur. Şagirdlərdə bilik və bacarıqların inkişaf etdirilməsində, idrak fəaliyyətinin intensivliyinin artırılmasında, onlarda dünyagörüşünün formalaşdırılmasında, təlim və tərbiyənin yüksəldilməsində, təlimin həyatla əlaqələndirilməsində mühüm əhəmiyyət kəsb edir. Dərsə marağı artıqmaqla, vaxtdan səmərəli istifadə etməyə imkan yaradır və inteqrativ bilik və bacarıqların mənim-

sədilməsini təmin edir [3]. Lakin biologiyanın tədrisi prosesində mövcud əlaqə imkanlarının müəyyənləşdirilməsi və şagirdlərdə bilik və bacarıqların formalaşdırılmasında fənlərarası əlaqədən istifadənin metodikası diferensiallaşmış proqramın tələblərinə əsasən işlənmişdir. Bu sahədə aparılan elmi-metodiki tədqiqatlar biologiya fənninin yeni məzmununu tam əhatə etmir. Ölkəmizdə həyata keçirilən təhsil islahatları nəticəsində inteqrallaşdırılmış proqrama-fənn kurikulumuna və yeni dərsliklərin təlimdə tətbiqinə keçid isə problemi daha da aktuallaşdırır.

Hazırda Respublikamızda orta ümumtəhsil məktəblərində tətbiq olunan biologiya fənn kurikulumunu reallaşdırmaq üçün təlim prosesində fənlərarası inteqrasiyanın yaradılmasına daha çox üstünlük verilməlidir. Çünki, gənclərin həyatı və özünü dərk edə bilən bir şəxsiyyət kimi yetişdirilməsi onlara canlılar aləminə dair zəruri olan biliklərin verilməsi, bacarıqların formalaşdırılması, inteqrasiyanın təşkilini tələb edir [2].

Fənlərarası inteqrasiyanın növləri və yaradılması yolları kurikulumda müxtəlif cür təsnif olunur. Əsasən iki növü mövcuddur: fənlərin əlaqələndirilərək inteqrasiyası, fənlərin birləşdirilərək inteqrasiyası. Hər bir növ üzrə inteqrasiyanın yaradılması yolları, məqsəd və vəzifələrindən asılı olaraq dəyişir. Bioloji anlayışların, qanun və nəzəriyyələrin, fizioloji proseslərin, ekoloji problemlərin standartlara görə mahiyyətini izah edərkən, inteqrasiyanın növlərinə uyğun tətbiqi yolları seçilir. Praktik tapşırıqların yerinə yetirilməsində də fənlərarası inteqrasiyanın tətbiqinə zərurət yaranır. Fənnə dair praktiki işlərin və laboratoriya məşğələlərinin icra edilməsində şagirdlərin inteqrativ bilik və bacarıqlara yiyələnməsi nəzarətdə saxlanılmalıdır. Hər bir hadisə və prosesin səbəb və nəticələri, oxşar və fərqli cəhətləri, alınan nəticələrin statistik işlənməsi fizika, kimya, coğrafiya, riyaziyyat, informatika və s. fənlərlə əlaqənin qurulmasını tələb edir. Fənlərarası inteqrasiyanın dərsdənkənar və sinifdən xaric məşğələlərdə yaradılması bioloji bilik və bacarıqların sistemli mənimsənilməsini təmin etməklə, şagirdlərdə canlılar aləminin quruluşu, həyat tərzi, təbiətlə qarşılıqlı əlaqələri, faydalı və zərərli xüsusiyyətləri və s. haqqında aydın təsəvvür yaranır, elmi dünyagörüşü formalaşır. Nəticə etibarı ilə şagirdlərin qazandıqları bilik və bacarıqlar öz fəaliyyətinin müxtəlif sahələrində inteqrativ məsələlərin həllinə obyektiv yanaşmağa imkan verir.

Fənn kurikulumları elə tərtib olunmuşdur ki, digər fənlərlə inteqrasiya yaratmaq üçün uyğun mövzular eyni zamanda tədris olunmur. Ona görə də, müəllim üçün metodik vəsaitlərdə tədris vahidləri üzrə fənlərarası inteqrasiya cədvəli verilmişdir. Lakin, göstərilən cədvəlin tərtibində buraxılan nöqsanlar fənn müəllimlərinin də öz işinə yaradıcı yanaşmasını tələb edir. Belə ki, fənn müəllimləri fənlərarası inteqrasiyanı illik və cari planlaşdırmanı apararkən nəzərə almalıdır. Dərsə hazırlıq mərhələsində müəllim təlim vahidinin məzmu-

nu ilə metodik vəsaitdə göstərilən inteqrasiya cədvəlini müqayisəli nəzərdən keçirsin, dəqiqləşdirsin və istifadə edəcəyi mənbələrdən lazım olan bilikləri, bacarıqları mənimsəmiş olsun. Dərsin məqsədinə müvafiq təlim strategiyaları seçərkən, fənlərarası inteqrasiyanın növlərə görə tətbiqi yollarını müəyyənləşdirsin. İnteqrasiyanın yaradılmasında istifadə edəcəyi vasitələri planlaşdırsın və metod seçimini təmin etsin. İKT vasitələrindən istifadəyə üstünlük versin.

Fəal dərsin hər bir mərhələsində fənlərarası inteqrasiya diqqət mərkəzində saxlanılmalıdır. Həmçinin, onun digər inteqrasiya növləri ilə əlaqəli tədrisi, sistemli şəkildə təmin olunmalıdır. Anlayışlar, qanunauyğunluqlar müqayisəli şəkildə öyrədilməlidir. Bu məqsədlə müxtəlif fənn müəllimləri ilə əlaqə yaradaraq seminarların keçirilməsi və fənlərarası inteqrasiyanın qurulmasında tələb edilən mövzular əsasında, vahid proqramın tərtib edilməsi daha faydalı ola bilər. Problemin həllinə öyrətmək-anlatmaq-tətbiq etmək prinsipi ilə yanaşdıqda, "Beyin həmləsi", "keys", "anlayışların çıxarılması", "BİBÖ", "klaster", "auksion", "Venn diaqramı", "karusel", "ziqzaq", "kublaşdırma", "lahiyələr metodu", "modelləşdirmə" və s. metodlarından məqsədə uyğun olanı seçilməlidir. Həmçinin fənlərarası inteqrasiyanı yaradarkən təlim materialı ilə sistemli şəkildə uzlaşdırılmalı və dərsin məzmununun aydın, sistemli öyrədilməsinə xidmət etməlidir. Təcrübə onu göstərir ki, müsbət nəticələr almaq üçün aşağıda göstərilən qaydalara riayət edilməlidir:

- biologiyanın öyrənilməsinin vacib olduğunu dəyərləndirmək;
- təbii obyektləri ətraflı xarakterizə etmək, təbiət hadisələrini və bioloji proseslərin qarşılıqlı əlaqələrini aydınlaşdırmaq;
- cəmiyyətin inkişafında onun maddi və mənəvi sərvətlərinin yüksəldilməsində bioloji biliklərin rolunu izah etmək;
- biologiya və təbiət elmlərinin ətraf mühitin mühafizəsi və bioloji müxtəlifliyin qorunmasında əhəmiyyətini cəmiyyətin qlobal problemləri (ekoloji, ərzaq, energetika, təbii ehtiyatlar və s.) ilə əlaqələndirmək;
- bioloji biliklərin insan sağlamlığının qorunmasında, təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətini əsaslandırmaq;
- biologiya elminin inkişaf tarixini, o cümlədən yeni kəşflərin xarakterik xüsusiyyətlərini təsvir etmək, bu sahədə fəaliyyət göstərən alimlərin həyatına nəzər yetirmək;

Belə hesab edirik ki, fənlərarası inteqrasiyanın yaradılması ilə bioloji biliklərin verilməsi, bacarıqların formalaşdırılması, vərdişlərin aşılanması elə təşkil olunmalıdır ki, fənnin növbəti siniflərdə müvəffəqiyyətlə tədrisinə zəmin yaransın.

**Ədəbiyyat:**

1. *Hüseynov Ə.M. Orta məktəbdə biologiyanın tədrisinin nəzəri və metodiki əsasları. Bakı: Çaşıoğlu, 2000, s.179-203.*

2. *İsmixanov M. Pedaqogikanın əsasları. Bakı, 2012, 303 s.*
3. *Верзилин Н.М. Общая методика преподавания биологии. М.: Просвещение, 1983, 384 с.*
4. *Интеграция предметов естественнонаучного цикла в формировании функциональной грамотности школьников в условиях 12-летного обучения. Методическое пособие. Астана, 2013. 72 с.*
5. *Ионина Н.Г. Использование принципы межпредметные связей при обучении биологии //Биология в школе. 2020. 1, с. 28-35.*
6. *VI-IX siniflər üçün dərslik komplektləri.*

**N.F.Rüstəmova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***rustemovanaze@gmail.com***

# BİOLOGİYANIN TƏDRİSİNDƏ BİOLOJİ PROSESLƏR MƏZMUN XƏTTİ ÜZRƏ FƏNDAXİLİ İNTEQRASİYANIN YARADILMASINA MÜASİR YANAŞMA

***Xülasə***

*Məqalədə fənn kurikulumu əsasında biologiyanın tədrisində fəndaxili əlaqənin yaradılmasının imkan və yolları xarakterizə edilmişdir. "Bioloji proseslər" məzmun xətti üzrə yenidən işlənmiş və yeni metodikası verilmişdir.*

# СОВРЕМЕННЫЙ ПОДХОД К СОЗДАНИЮ МЕЖДИСЦИПЛИННОЙ ИНТЕГРАЦИИ ПО ЛИНИИ БИОЛОГИЧЕСКИХ ПРОЦЕССОВ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ

***Резюме***

*В статье описываются возможности и пути установления межпредметных связей и возможности в преподавании биологии на основе предметной куррикулума. Были пересмотрены содержательной линии «Биологические процессы» и дана новая методика.*

# A MODERN APPROACH TO THE CREATION OF INTERDISCIPLINE INTEGRATION ON THE LINE OF BIOLOGICAL PROCESSES IN THE TEACHING OF BIOLOGY

***Summary***

*The article describes the possibilities and ways of establishing interdisciplinary connections and opportunities in tea ching biology on the basis of the subject curriculum. The content line "Biological processes" was revised and a new methodology was given.*

***Açar sözlər***: *inteqrativ əlaqə, fəndaxili, biologiya, kurikulum, standart, internet resursları.*

***Ключевые слова***: *интеграционные связи, внутри предметный, биология, куррикулум, стандарт, интернетные ресурсы.*

***Key words:*** *inteqration of communi, intra-subject, biology, curriculum, standart, internet-resources.*

Hazırda orta ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin yüksəldilməsi, təlim-tədris prosesinin fənn kurikulumlarının tələblərinə uyğun təşkilindən aslıdır. Fənnə dair biliklərin verilməsində, bacarıqların formalaşdırılmasında tətbiq edilən digər didaktik prinsiplərlə yanaşı inteqrasiyanın qurulmasına da diqqət yetirilməsi tələb olunur. Çünki fənnin məzmunu, təlimin təşkili və idarə olunması parametrlərində inteqrasiyanın nəzərə alınması mühüm əhəmiyyət kəsb edir.

Elmi pedaqoji ədəbiyyatlarda inteqrasiyanın mahiyyəti açıqlanır, səviyyələrə görə onun istiqamətləri göstərilir və növləri haqqında ətraflı məlumat verilir. Belə ki, inteqrasiya təlim materialının şüurlu surətdə mənimsənilməsini təmin etməklə şagirdlərdə dərsə marağı artırır, biliklər arasında qarşılıqlı əlaqəni başa düşməyə və həmin bilikləri şəxsi və ictimai problemlərin həllində istifadə etməyə imkan yaradır. İdrak, təfəkkürü inkişaf etdirir, proqram və dərsliklərin təkmilləşdirilməsində istiqamətverici rol oynayır [1, 2, 6].

Biologiyanın fənn kurikulumunda canlıların hüceyrədən biosferədək təşkili səviyyələri, canlılar aləminin kimyəvi və bioloji təkamülü, irsi dəyişkənliklərin qanununauyğunluqları, ekoloji problemlər, onun dərk edilməsi və həlli yolları sadədən mürəkkəbə doğru istər mərhələlər, istərsə də siniflər üzrə şaquli və üfüqi inteqrasiya nəzərə alınmaqla təqdim edilir. Fənnin tədrisində yeni təlim texnologiyalarını tətbiq etməklə şagirdlərin məntiqi təfəkkürünün, fənlə bağlı həyati bacarıqların inkişaf etdirilməsində məzmun və fəaliyyətin qarşılıqlı əlaqəsinin təşkili nəzərdə tutulur [3].

Hazırda qüvvədə olan yeni dərsliklərin siniflər üzrə məzmun və strukturu dəyişdirilmişdir. Vl sinifdə canlılar aləminin müxtəlif qruplarına dair ilkin biliklər dörd əsas məzmun xətlərində qruplaşdırılır. Hər bir məzmun xəttinə daxil edilən biliklər və bacarıqların inkişaf etdirilməsi biologiyanın yeni olan sahələrinin öyrədilməsinə zəmin yaradır. Bu o zaman mümkün olur ki, istər məzmun xətləri, istərsə də təhsil pillələri üzrə nəzərdə tutulan bilik, bacarıqların verilməsində ardıcıllıq gözlənilsin, konsentrik əlaqə qurulsun, şagirdlərin təfəkküründə canlılar aləmi haqqında vahid, sistemli dünyagörüşü formalaşsın. Ona görə də biologiya fənn müəllimlərinin dərsə hazırlıq mərhələsində təlim materialı analiz edilməli, fəndaxili inteqrasiya müəyyənləşdirilməlidir. Problemin digər bir cəhəti isə, mövzu ilə bağlı inteqrasiyanı qurmaq üçün istifadə edilən metodları seçmək və İKT-nin tətbiqinin imkan və yollarını dəqiqləşdirməkdir. Çünki müəllim üçün metodik vəsaitlərdə bu haqda göstəriş verilmir. Aydın olur ki öz işinin təşkilində fənn müəllimi sərbəstdir. O, fəndaxili inteqrasiyanın istiqamətlərini də məqsədə müvafiq seçməli, məzmun xətlərini əlaqələndirməklə standartlara uyğun gələn tədris vahidlərindən istifadə olunmasını təmin etməlidir [4].

Dünya təhsil sisteminin informasiya məkanına İKT-nin imkanlarından istifadə etməklə daxil olmaq, təlim prosesinin elmi, elmi-metodiki keyfiyyətinin dəyişməsinə yeni imkanlar açır. Nəticə etibarı ilə, zənginləşən yeni təlim texnologiyaları uyğun informasiya mənbələrindən bəhrələnmək üçün yeniləşən pedoqoji prosesin tərkib hissəsinə çevrilir. Ona görə də müəllim yeni biliklərin verilməsində,bacarıqların formalaşdırılmasında vahid mənbə rolunu oynamır. O, İKT vasitələrindən istifadə etmək qaydalarını öyrətməklə şagirdlərin elmi-tədqiqatçılıq qabiliyyətini formalaşdırır. Şagirdlər onlara verilən tapşırığı icra etmək üçün uyğun saytlara daxil olur, əldə etdikləri informasiyaları qruplaşdırır, sistemləşdirir və onlar arasında olan qarşılıqlı əlaqəni aşkar edirlər. Fəndaxili inteqrasiya yaradarkən mövzuların əlaqələndirilməsində İKT-dən istifadə əyaniliyi təmin edir, eyni zamandaarzu olunan nəticənin tez əldə olunmasına səbəb olur. Belə ki, müasir dövrümüzün uşaqları İKT vasitələrinə daha çox maraq göstərir, kompüter, proyektor, elektron lövhə, virtual laboratoriya vasitəsilə keçirilən dərs onlar üçün daha cəlbedici və yadda qalan olur. Mövzulararası əlaqənin uşaqlara şifahi çatdırılmasından əlavə, eyni zamanda əyani olaraq göstərilməsi onlar üçün dərsin daha aydın, anlaşılır olmasına səbəb olur, onların idrak aktivliyinə müsbət təsir göstərir. İKT-dən istifadə edərək fəndaxili inteqrasiyanın yaradılması uşaqların qavrama səviyyəsini yüksəldir və təhsilə marağını artırır [5,7].

Dərs misalında fəndaxili inteqrasiyanın tətbiqinin səmərəliliyində İKT-nin rolu.

X sinif biologiya fənni.

Mövzu: Canlılarda tənəffüs

Alt standart: 2.2.1. Bioloji proseslərin mexanizmini şərh edir, məruzə və təqdimatlar hazırlayır.

Məqsəd: Müxtəlif canlılarda tənəffüs prosesinin mexanizmini şərh edir, məruzə və təqdimatlar hazırlayır.

Fənlərarası inteqrasiya: F.t 4.1.1. Birgə fəaliyyət zamanı əməkdaşlıq nümayiş etdirir.

Fəndaxili inteqrasiya: Canlılarda tənəffüs (6-cı sinif) 2.1.1. Bioloji proseslərin xüsusiyyətini sadalayır. Tənəffüs sistemi (8-ci sinif) 2.1.1. İnsan orqanizmində baş verən bioloji prosesləri izah edir.

Resurs: İKT, iş vərəqləri

Motivasiya mərhələsi.

Biosferdə (canlıların yaşaya biləcəyi bütün sahələrdə) həyatlarını sürdürən bütün canlılar, böyüyüb inkişaf etmək və çoxalmaq üçün enerjiyə ehtiyac duyurlar. Bu enerjini üzvi qida maddələrindən əldə edirlər.

Qida maddələrinin, hüceyrədə oksigenli və ya oksigensiz olaraq parçalanması nəticəsində enerjinin meydana gəlməsi prosesinə daxili tənəffüs və ya hüceyrə tənəffüsü deyilir.

Orqanizmlərin böyük əksəriyyəti oksigenlə tənəffüs etdiklərindən, onun hüceyrəyə daxil olması və baş verən reaksiyaların yekununda ayrılan, $CO_2$ qazının xaric edilməsi baş verir.

Ümumiyyətlə, tənəffüs bir hüceyrə və ya orqanizmi ilə onun yaşadığı mühit arasındakı qaz mübadiləsidir. Bunu tənəffüs sistemlərinin müxtəlifliyi ilə əsaslandırmaq lazımdır. Tənəffüs sistemi ilə atmosferdən alınan qazlar hüceyrəyə qədər daşınır. Hüceyrə tənəffüsü ilə sitoplazmada olan üzvi birləşmələr parçalanaraq enerji əldə edilir və $CO_2$, $H_2O$, $H_2S$ və $NH_3$ və s. tullantılar əmələ gəlir. Bu parçalanma məhsullarından olan $CO_2$ və $H_2O$-nun bir qismi orqanizmdən tənəffüs sistemi ilə xaric edilir. $O_2$ hüceyrə membranından diffuziya yolu ilə daxil olur. $CO_2$ və $H_2O$ isə eyni qayda ilə orqanizmdən xaric edilir.

Canlılar aləminin tənəffüs sistemini xarakterizə edərkən vacib olan bir sıra müstəsna halları xüsusi olaraq qeyd etmək lazımdır.

- Həşəratlarda oksigeni ağciyər qəbul edir, onun toxumalara, hətta hüceyrələrə daşınması traxeya sistemi ilə həyata keçirilir.
- Məməlilər aldığı təmiz havanın 20-25% oksigenini mənimsəyə bilirlər. Quşlarda isə ikiqat tənəffüs olduğuna görə qəbul edilən oksigen 80-90% təşkil edir.
- Tənəffüs mərkəzinin fəaliyyətinin tənzimlənməsi qanda CO2 miqdarının artıb-azalması ilə realizə olunur. Belə ki, qanda $CO_2$ miqdarı artarkən turşuluq artır və ph düşür. Bu zaman tənəffüs mərkəzi oyanır, diafraqma və qabırğa əzələlərini fəaliyyətə gətirir, tənəffüs aktı baş verir, homeostaz təmin edilir. Qanda $O_2$ miqdarının artıb-azalmasının isə, tənəffüs tezliyinə heç bir təsiri yoxdur.

Motivasiya mərhələsi –bu mərhələdə müəllim beyin həmləsi üsulundan istifadə etməklə şagirdlərə müxtəlif tip tənəffüs orqanlarına aid müxtəlif slaydlar təqdim edir və aşağıdakı kimi suallar verir:

1. Şəkildə gördüyünüz orqanların adı nədir?
2. Bu orqanların funksiyası nədən ibarətdir?
3. Bu funksiya üçün vacib olan nədir?

Sualların cavabı məlum olduqdan sonra müəllim mövzunun adını elan edir. Motivasiya mərhələsində müəllim şaquli inteqrasiyadan istifadə edir, belə ki müxtəlif siniflərdə tədris olunan canlıların tənəffüs orqanını nümayiş etdirir.

Tədqiqat sualı: Müxtəlif canlılarda tənəffüs necə gedir?

Tədqiqat mərhələsi – Müəllim şagirdləri üç qrupa bölüb hər qrupa bir tapşırıq verir. İKT-nin imkanlarından istifadə etməkdən ötrü tapşırıqlar kompüter vasitəsilə qruplara təqdim olunur. Bunun üçün hər qrupa bir kompüter verilir.

Hər qrupun tapşırığı onlara verilən iş vərəqlərində əks olunur. Kompüterdə isə tapşırıqda sözü gedən canlıların tənəffüsü ilə bağlı videoçarxlar vardır. Şagirdlər həmin videolara baxıb keçmiş bilikləri xatırlama imkanlarına malik olacaqlar.

I qrupun tapşırığı: Quşların və məməlilərin tənəffüs sistemində nə kimi oxşar və fərqli cəhətləri var?

II qrupun tapşırığı: Buğumayaqlıların ayrı-ayrı sinif nümayəndələrində tənəffüs necə gedir? Oxşar və fərqli cəhətləri hansılardır?

III qrupun tapşırığı: Bəzi onurğalıların ağciyərlərinin quruluşu verilmiş videoya əsasən ağciyərlərində baş verən dəyişiklikləri və dəyişikliklərin tənəffüs prosesinə necə təsir etdiyini araşdırın.

İnformasiya mübadiləsi – Hər qrupdan bir nəfər nümayəndə qrupun işini təqdim edir. Təqdim olunan işlər lövhədən asılır. Şagirdlər öz fikirlərini əsaslandırır.

İnformasiya müzakirəsi – Yazılmış iş vərəqləri müzakirə edilir. Müzakirə müəllimin əlavəsi ilə yekunlaşdırılır.

Nəticə və ümumiləşdirmə - Bu mərhələdə müəllim bütün deyilənləri ümumiləşdirib cədvəl daxilində qeyd edir.

Yaradıcı tətbiqetmə mərhələsi – Bunun üçün müəllim şagirdlərə bitkilərdən başlayaraq məməlilər daxil olmaqla canlılar aləminin tənəffüs sistemi və mexanizmi barədə prezentasiya hazırlamalarını tapşırır.

Qiymətləndirmə mərhələsi –Bu mərhələdə isə müəllim şagirdləri şərhetmə və təqdimat hazırlama meyarlarına əsasən qiymətləndirir.

Ev tapşırığı olaraq canlılarda tənəffüs sisteminin oxşar və fərqli cəhətlərini özündə əks etdirən konseptual cədvəlin tərtibi daha məqsədəuyğun hesab edilir.

**Ədəbiyyat:**

1. *Hacıyeva G.N. Biologiyanın tədrisi metodikası. Ali məktəblər üçün dərslik. Bakı, 2019.*
2. *İsmixanov. Pedaqogikanın əsasları. Bakı, 2012, 303 s.*
3. *Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Biologiya üzrə Təhsil proqramı. (fənn kurikulumu VI-XI sinif). Bakı, 2013, 64 s.*
4. *Babayeva Z.Y. Biologiyanın tədrisində İKT-dən istifadə. Bakı, 2011, 166 s.*
5. *Mehdiyeva S. Biologiyanın tədrisində İKT-dən istifadə etməklə inteqrasiyanın yaradılması. ADPU xəbərləri, Riyaziyyat və təbiət elmləri seriyası. 2017, N1, 218-223 s.*
6. *Babayeva Z.Y. Biologiyanın tədrisində İKT-dən istifadə. Bakı, 2011, 166 s.*

**G.A.Abdullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aytekin.niftiyeva@gmail.com***

# PLANLAŞDIRMA VƏ ONUN NÖVLƏRİ

***Xülasə***

*Məqalədə idarəetmədə planlaşdırma, onun əhəmiyyəti və növləri araşdırılmışdır. Burada idarəetmənin bir proses kimi planlaşdırma, təşkiletmə, aparıcılıq, nəzarət, qiymətləndirmə, monitorinq kimi funksiyalarının olduğu sübuta yetirilərək həmin funksiyaların həyata keçirilmə istiqamətlərinə aydınlıq gətirilmişdir. Məktəb işinin planlaşdırılmasında üç növ plan-cari, illik və perspektiv planlar və onların mahiyyəti və məzmunu geniş şəkildə işıqlandırılmışdır. Əhatə etdikləri müddətə görə qısa, orta və uzun müddətli, eləcə də istifadə sıxlıqlarına görə istifadəli və davamlı planlara aydınlıq gətirilmişdir. Eləcə də əhatə etdikləri sahəyə görə strateji, təşkilati və əməliyyat planlarına aydınlıq gətirilmişdir. Araşdırma nəticəsində məlum olmuşdur ki, hər üç plan (strateji, taktiki və əməliyyat) bir-biri ilə əlaqəli şəkildə tərtib olunur. Nəzarət prosesinin həyata keçirilməsi yolları: standartların müəyyənləşdirilməsi, performansın ölçülməsi, performansların standartlarla müqayisəsi ortaya çıxarılmışdır*

# PLANNING AND ITS TYPES

***Summary***

*İn this scientific article examines planning in management, its importance and types. It proves that management has such functions as planning, organization, leadership, control, evaluation, monitoring as a process and clarifies the directions of implementation of these functions. In the planning of school work, three types of plans - current, annual and long-term plans and their essence and content are widely covered. Short-, medium-, and long-term plans for the period they cover, as well as plans for use and sustainability, have been clarified. The strategic, organizational and operational plans for the area they covered were also clarified. As a result of the study, it was found that all three plans (strategic, tactical and operational) are developed in relation to each other. Ways to implement the control process: setting standards, measuring performance, comparing performance with standards*

# PLANLAMA VE TÜRLERİ

***Özet***

*Makale yönetimde planlamayı, önemini ve türlerini incelemektedir. Yönetimin bir süreç olarak planlama, organizasyon, liderlik, kontrol, değerlendirme, izleme gibi işlevleri olduğunu kanıtlar ve bu işlevlerin uygulanma yönlerini netleştirir. Okul çalışmasının planlanmasında üç tür plan - mevcut, yıllık ve uzun vadeli planlar ve bunların özü ve içeriği geniş ölçüde ele alınmaktadır. Kapsadıkları dönem için kısa,*

*orta ve uzun vadeli planlar ile kullanım ve sürdürülebilirlik planları netleştirilmiştir. Kapsadıkları alana ilişkin stratejik, organizasyonel ve operasyonel planlar da netleştirildi.Çalışma, her üç planın da (stratejik, taktik ve operasyonel) birbiriyle bağlantılı olarak geliştirildiğini buldu. Kontrol sürecini uygulama yolları: standartlar belirlemek, performansı ölçmek, performansı standartlarla karşılaştırmak*

***Açar sözlər:*** *idarəetmə, planlaşdırma, strateji, illik, performans*
***Key words:*** *management, planning, strategic, annual, performance*
***Anahtar kelimeler:*** *yönetim, planlama, stratejik, yıllık, performans*

İdarəetmə proses kimi planlaşdırma, təşkiletmə, aparıcılıq, nəzarət, qiymətləndirmə və monitorinq kimi funksiyaları yerinə yetirir. Bu funksiyalar bir-biri ilə əlaqədə olsalar da, hər biri nisbi müstəqilliyə malik olub, əmək fəaliyyətinin konkret növü kimi özlərini biruzə verirlər. Bunların içərisində ən önəmlisi planlaşdırmadır. Planlaşdırma sözün geniş mənasında proqnozlaşdırma, proqramlaşdırma və işçi planının hazırlanmasından ibarətdir. Planlaşdırma işini Y.R.Talıbov, Ə.Ə.Ağayev və b. daha geniş götürürlər: Planlaşdırma ən mühüm amil olub məktəbi idarəetməyin və ona rəhbərliyin zəruri tərkib hissəsidir. Planlaşdırma və məktəbə rəhbərlik məsələləri məktəbin müəllimləri ilə razılaşdırılır. Xarici informasiyalara dövlətin direktiv sənədləri daxil edilir. Daxili informasiya isə məktəbin fəaliyyəti, əldə etdiyi nailiyyətlər, pedaqoji kollektivin işindəki çatışmazlıqlar və çətinliklər daxil edilir...”( 4, 273)

Əslində planlaşdırma aşağıdakı suallara cavab verməlidir:

-plandakı mərhələlər nə zaman yerinə yetirilməlidir?

-plan necə həyata keçiriləcək. Fəaliyyətin, layihənin və proqramın hazırlanması, sonra strategiyanın, siyasətin, metodun və büdcənin məqsədlərə uyğun təşkili nəzərdə tutulmalıdır.

-plan harada həyata keçirilməlidir?

-plan kim tərəfindən həyata keçirilməlidir?

-planlaşdırmanın həyata keçirilməsinin məqsədi nədən ibarətdir?

-planın həyata keçirilməsinə sərf ediləcək vəsait nə qədər olmalıdır?

-planlaşdırmanın həyata keçirilməsinin müddəti və s.

Ümumiyyətlə, məktəbin fəaliyyət planı, pedaqoji kollektivdə mövcud olan idarəedicilərin fəaliyyətlərini əhatə edir. Bəzi təhsil işçiləri planlaşdırmanın əhəmiyyətini düzgün qiymətləndirə bilmədiklərindən onu idarəedicilərə və ayrı-ayrı şəxslərə əlavə yük hesab edirlər, onların fəaliyyətlərinin ritmini pozacaqlarını zənn edirlər, əsas fəaliyyətlərinin bir qisminin həyata keçirilməsinə mane olacağını güman edirlər. Bu inamsızlıq planlaşdırmanın səhv başa düşülməsi ilə əlaqədardır. Planlaşdırma zamanı idarəedicilərə aydın tapşırıqlar verilirsə, hər mərhələdə onların faydalı fikirləri nəzərə alınarsa, qeyd edilən çətinliklər aradan qalxar. Planlaşdırmada həm də məqsədin əldə edilməsinin vasitə və üsulları da açıqlanmalıdır. Başqa sözlə, üsul və vasitələrin strukturu, tərkibi,

vasitələri, fəaliyyətin ardıcıllığı, imkanları (kadr təminatı, elmi-metodik, maliyyə, maddi-texniki, normativ-hüquqi və s.) nəzərə alınmalı və tədbirlərin başlanma və qurtarma müddəti müəyyənləşdirilməlidir.

Plan imkan yaradır ki, qarşıya qoyulmuş məqsəd uğrunda standartlar, göstəricilər müəyyənləşdirilsin. Planın göstəriciləri nəzarətin həyata keçirilməsinə imkan yaradır. Plansız hər hansı bir fəaliyyətin uğuru yoxdur. Plan-məqsədə çatmaq üçün gedilən yol və fəaliyyətdir. Başqa sözlə, plan gələcəkdə nəyə nail olmaq istədiyinin qərarlaşdırılmasıdır. Deməli, buradan belə çıxır ki, plan qərarların cəmidir. Planlaşdırma müəssisənin gələcək inkişafını müəyyən edir. N.M.Kazımov, Ə.Ş.Həşimov isə təlim-tərbiyə işinin planlaşdırılmasında aşağıdakıları tövsiyə edir: "Sinfin tərbiyə işləri üzrə iş planı adətən "sinfin pasportu" ilə başlanır. Burada sinfin qısa xarakteristikası (şagirdlərin tərkibi, fəalları, əlaçıları, təlimdə xüsusi köməyə ehtiyacı olanları, ikinci isə qalanları və s.) ilə yanaşı, qarşıda duran və xüsusi diqqət edən əsas vəzifələr qeyd edilir. Bundan sonra plan sıra nömrəsi, görüləcək işlər, əsas icraçı, icra vaxtı və qeyd qrafaları üzrə yazılır..." (3, 363)

Müəssisələrin qarşısında qoyulmuş tədbirlərin həyata keçirilməsinin nəticələrini əvvəlcədən qiymətləndirməyə imkan verir. Yəni, planlaşdırma nə ediləcəyini, necə ediləcəyini, nə vaxt ediləcəyini və bu məsuliyyəti kimin üzərinə götürəcəyini ifadə etmək və təyin etməlidir. Planlaşdırma qərarlaşdırılmış hərəkət tərzinin ifadəsidir. Məktəbdə aparılan təlim-tərbiyə işinin planlaşdırılmasında şagirdlərin psixoloji xüsusiyyətlərinin öyrənilməsinin əhəmiyyətini xüsusi vurğulayan professorlar A.N.Abbasov və H.Ə.Əlizadə yazırlar: "Sinif rəhbəri... şagirdlərlə aparılacaq işləri, o cümlədən, tərbiyə işini planlaşdırır, hər bir şagirdi diqqətlə öyrənir, onların fərdi xüsusiyyətlərinə, temperament tiplərinə bələd olur.“ (1, s. 168)

Unutmaq olmaz ki, planlaşdırma düzgün həyata keçirilibsə, idarəetmə fəaliyyəti düzgün istiqamətlənir, yaxşı nəticələr əldə edilir və vaxta qənaət olunur. Mark Tven insanların öz işlərini necə planlaşdırdıqlarını müşahidə edir və bu haqda öz fikrini zarafatla belə ifadə edir: "Biz məqsədimizi itirməyimizə tam əmin olduqdan sonra, səylərimizi ikiqat artırırıq". Çox incə qiymətləndirmədir. Məhz belə də baş verir. Əgər insanlar öz işlərini planlaşdırmırsa, o zaman onlar ən sadə məsələlərin həllinə həddən çox səy edirlər və əgər bu insanlar-rəhbər işçilərdisə, onlar öz əməkdaşlarının enerji və qiymətli vaxtını boş yerə sərf edirlər. P.Əliyev belə hesab edir ki, "Planlaşdırma-hər hansı təhsil müəssisəsinin uğurunun əsas şərtidir və təhlil, proqnozlaşdırma, məqsədəuyğunluq, planların hazırlanması sistemlərini əhatə edir." (2, s. 117)

Uğurlu planın hazırlanması üçün aşağıdakı şərtlər nəzərə alınmalıdır;

1.Plan real, açıq və həyata keçirilə biləcək səviyyədə olmalıdır;

2.Müəssisənin planı daxili və xarici mühitə uyğun və çevik olmalıdır;

3.Planın hazırlanmasına və həyata keçirilməsinə çox vaxt və əmək sərf olunmamalıdır;

4.Plan müəssisənin prinsip və standartlarına uyğun olmalıdır.

Planlaşdırma hansı xüsusiyyətləri özündə birləşdirə bilər?

İlk növbədə planlaşdırma gələcəyə istiqamətləndirilməli, qiymətləndirmə və araşdırmalar aparılmalıdır. Planlaşdırmanın məqsəd, risk və fərziyyələrlə əlaqəsi olmalıdır. İdarəedici verəcəyi qərarda məqsədə çatmağı görməli, bəzi hipotezlərə (fərziyələrə) söykənməli və müəyyən riskləri nəzərə almalıdır. O, çevik olmalıdır.

Planlaşdırma hansı mərhələlərdən ibarətdir? Baxaq:

1. Məqsəddən;
2. İmkanların aşkar olunmasından;
3. Uyğun variantların müəyyən olunaraq, qarşılıqlı müqayisəsi və əlaqələndirilməsindən;
4. Uyğun variantın seçilməsindən;
5. Planın həyata keçirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi və icrasının yoxlanılmasından;
6. Planın yoxlanılması və qiymətləndirilməsindən.

Planlaşdırma məktəbdə kollegial orqanların (məktəb şurası, pedaqoji şura, metodik şura, direktoryanı müşavirə, fənn metodbirləşmələri, azad həmkarlar təşkilatı, şagird özünüidarə orqanları və s.a.) və onların fəaliyyətini əlaqələndirir. Planlaşdırma ən mühüm amil olub məktəbi idarə etməyin və ona rəhbərliyin əsas tərkib hissəsidir. Planlaşdırma və məktəbə rəhbərlik məsələləri məktəbin müəllim kollektivi ilə razılaşdırılır. Planlaşdırmanın əsasını da əldə olan daxili və xarici informasiyalar təşkil edir. Məktəb işinin planlaşdırılmasında üç növ plan-cari, illik və perspektiv plan nəzərdə tutulur.

Cari planda ayrı-ayrı bölmələrin fəaliyyət proqramları qeyd edilir və yeri gəldikcə illik planda müəyyən düzəlişlər aparılır. Cari planlaşdırmaya müəllimin tematik və dərs üzrə planları, sinif rəhbərlərinin rüblük və illik, məktəb direktoru və onun müavinlərinin həftəlik və aylıq planları daxildir. Məktəbdə təlim-tərbiyə keyfiyyətinin yüksəldilməsində ən zəruri şərt həmin planların əlaqəli şəkildə həyata keçirilməsidir.

İllik plan məktəbin həyatını özündə əks etdirir və daha çox konkret olur. İllik plan aşağıdakı bölmələrdən ibarət olur:

1. Əvvəlki tədris ilində məktəb işinin təhlili;
2. Yeni tədris ilində məktəbin vəzifələri;
3. Ümumi icbari təhsilin həyata keçirilməsi;
4. Təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi;
5. Şagirdlərlə sinifdənxaric və məktəbdənkənar işlərin təşkili;
6. Şagirdlərin təlim-tərbiyəsində məktəb, ailə və ictimaiyyətin əlbir işi;
7. Pedaqoji şuranın işi;

8. Metodiki işlər, ixtisasartırma və attestasiya;
9. Elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqi;
10. Məktəbi idarə və məktəbdaxili nəzarət;
11. Səhiyyə-sağlamlıq işləri;
12. Təşkilati-təsərrüfat işləri;
13. Məktəbin maddi bazası.

Təcrübə göstərir ki, məktəb işinin illik planı ən məqbuludur. Belə plan göstərilən amillərin, qoyulmuş məqsədlərin operativ nailiyyəti, yaxın və daha uzaq fəaliyyət perspektivini əlaqələndirmək, perspektiv və təqvim planlaşdırmanı uyğunlaşdırmaq, ay ərzində icra olunan iş həcmini paylaşdırmaq, müxtəlif ehtiyat növlərinin tətbiqini tənzimləmək, nəzərdə tutulan işlərin reallaşması üçün qabaqlayıcı şərtlər yaratmaq, bütün məktəb birliyi iştirakçılarının səylərini əlaqələndirməyə imkan verir. İllik fəaliyyəti planlaşdırılarkən aşağıdakı prinsiplərin nəzərə alınması tövsiyə olunur:

Nəticəyönümlülük-bu, qarşıda duran vəzifələrin aydın təsəvvür edilməsi ilə bağlıdır. Yəni, hər hansı bir tədbir planlaşdırılarkən onun yerinə yetirilməsindən alınacaq nəticə əvvəlcədən müəyyən olunmalıdır. Belə olan halda, həmin tədbirin nə dərəcədə əhəmiyyətli xarakter daşıdığı, nəzərdə tutulan hədəfə hansı səviyyədə yönəlməsi aşkar görünür.

İnkişafyönümlülük tələb edir ki, ümumi təhsil sisteminin bir subyekti olaraq, hər bir məktəb mövcud tələblər baxımından inkişafın hansı mərhələsində olduğunu dəqiq müəyyən etməli, fəaliyyət planına daxil olan tədbirlər mövcud mərhələdən ayrılaraq davamlı irəliləyişləri təmin etməlidir.

Məqsədlərin dəqiqliyi- planlaşdırma prosesində ən vacib məsələlərdən biridir. Məqsəd aydınlığı həmin tələblərin hansı dərəcədə nəzərə alınması ilə ehtiva olunur. Məqsədlərin dəqiq müəyyən edilməsi inkişafyönümlülüyü şərtləndirən amil kimi meydana çıxır.

Optimallıq-planlaşdırmanın səmərəliliyini təmin edən amillərdən biri olmaqla nəticə etibarilə müəssisədə məqsədyönlü və keyfiyyətli fəaliyyət sisteminin təşəkkül tapmasına xidmət edir. Bu, dərs ili ərzində yerinə yetiriləcək ən zəruri işlərin müəyyənləşdirilməsi, tədbirlərin aylar, həftələr üzrə dəqiq bölüşdürülməsi baxımından faydalıdır.

Əhatəlilik-məktəbin fəaliyyəti planlaşdırılarkən hər bir iş sahəsinin nəzərə alınması çox vacibdir. Belə olan halda, müəssisənin ümumi fəaliyyətində tamlıq yaranır və qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində məsuliyyətin bölüşdürülməsi, bu və ya digər iş sahəsinin öhdəlikləri aydın təsəvvür edilir.

İcraya nəzarət-məktəbin Fəaliyyət planına daxil edilmiş tədbirlərin vaxtında yerinə yetirilməsinə nəzarət sistemi yaradılmazsa, iş prosesində səmərəliliyin, məktəbin ümumi fəaliyyət ahənginin pozulması ilə nəticələnir ki, bu da formalizm hallarının yaranmasına gətirib çıxarır.

Fikrimizcə, təlim-tərbiyə prosesi haqqında yaranmış nümunəvi təsəvvürlərin əsası qoyulmuş ideya və qaydalar sırasına-sistemlilik, dəqiqlik, optimallıq, dialoq, fərdilik, elmilik, fasiləsizlik prinsiplərini aid etmək olar. Bu prinsipləri nəzərdən keçirək.

Sistemlilik prinsipi təlim-tərbiyə prosesinə bir neçə qarşılıqlı komponentlərin cəmindən təşkilolunmuş çətin bir sistem kimi baxmağı tövsiyə edir. Məlumdur ki, sinfin təlim-tərbiyə sisteminin tərkibinə bu komponentlər: insanlar (sinif rəhbəri, sinif şagirdləri, onların valideynləri, məktəbin müəllimləri və b.); onların fərdi və kollektiv maraqları, tələbatı, dəyərləri, birgə fəaliyyətin ünsiyyət və münasibəti, məqsədi, prinsipi, məzmunu, forması və təşkili üsulları; cəmiyyətin daxili və xarici əlaqələri; meyarları, göstəriciləri, təlim-tərbiyə prosesinin vəziyyətinin və nəticələrinin öyrənilməsi, təhlili və qiymətləndirilməsinin qayda və metodları daxildir.

Planlaşdırma işinin gedişində adı çəkilən heç bir komponenti unutmaq olmaz, çalışmaq lazımdır ki, onlar nəinki təlim-tərbiyə işinin planında öz əksini tapsın, həm də bu planda bir-biri ilə əlaqəli olsun. Sistemli planlaşdırma xüsusiyyəti təşkilatçıların və iştirakçıların zehni əməliyyatlarına və təcrübi hərəkətlərinə aid olmalıdır.

Konkretlilik prinsipi plan tərtib edənlərə başqa tədris kollektivlərində görülən işləri təkrar etməməyi tövsiyə edir. Planlaşdırmada sinfin inkişafında iştirak etmiş kollektiv üzvlərinin maraq və tələblərini nəzərə almaq vacibdir. Təlim-tərbiyə işində bu və ya digər forma və metodların düzgün seçimi pedaqoji situasiyaların səciyyəvi xüsusiyyətlərinin konkret tədris qrupunda necə dərk edilməsindən asılıdır. Bu prinsipə riayət olunması planauyğun işlərin, onların keçirilməsinin dəqiq vaxtının və ona cavabdeh olanların təyin edilməsini nəzərdə tutur.

Optimallıq prinsipi məktəbin idarəetmə işinin planlaşdırılmasının üç vacib halı ilə bağlıdır.

Fikrimizcə, təlim-tərbiyə prosesi haqqında yaranmış nümunəvi təsəvvürlərin əsası qoyulmuş ideya və qaydaları sırasına-sistemlilik, dəqiqlik, optimallıq, dialoq, fərdilik, elmilik, fasiləsizlik prinsiplərini aidetmək olar. Bu prinsipləri nəzərdən keçirək.

Sistemlilik prinsipi təlim-tərbiyə prosesinə birneçə qarşılıqlı komponentlərin cəmindən təşkil olunmuş çətin bir sistem kimi baxmağı tövsiyə edir. Məlumdur ki, sinfin təlim-tərbiyə sisteminin tərkibinə bu komponentlər: insanlar (sinif rəhbəri, sinif şagirdləri, onların valideynləri, məktəbin müəllimləri və b.); onların fərdi və kollektiv maraqları, tələbatı, dəyərləri, birgə fəaliyyətin ünsiyyət və münasibəti, məqsədi, prinsipi, məzmunu, forması və təşkili üsulları; cəmiyyətin daxili və xarici əlaqələri; meyarları, göstəriciləri, təlim-tərbiyə prosesinin vəziyyətinin və nəticələrinin öyrənilməsi, təhlili və qiymətləndirilməsinin qayda və metodları daxildir.

Planlaşdırma işinin gedişində adı çəkilən heç bir komponenti unutmaq olmaz, çalışmaq lazımdır ki, onlar nəinki təlim-tərbiyə işinin planında öz əksini tapsın, həm də bu planda bir-biri ilə əlaqəli olsun. Sistemli planlaşdırma xüsusiyyəti təşkilatçıların və iştirakçıların zehni əməliyyatlarına və təcrübi hərəkətlərinə aid olmalıdır.

Konkretlilik prinsipi plan tərtib edənlərə başqa tədris kollektivlərində görülən işləri təkrar etməməyi tövsiyə edir. Planlaşdırmada sinfin inkişafında iştirak etmiş kollektiv üzvlərinin maraq və tələblərini nəzərə almaq vacibdir. Təlim-tərbiyə işində bu və ya digər forma və metodların düzgün seçimi pedaqoji situasiyaların səciyyəvi xüsusiyyətlərinin konkret tədris qrupunda necə dərk edilməsindən asılıdır. Bu prinsipə riayət olunması planauyğun işlərin, onların keçirilməsinin dəqiq vaxtının və ona cavabdeh olanların təyin edilməsini nəzərdə tutur.

Optimallıq prinsipi məktəbin idarəetmə işinin planlaşdırılmasının üç vacib halı ilə bağlıdır.

Birincisi, planlaşdırma yolu ilə müəllim-şagird və valideynlərin kollektiv aparılan işdə ən fəal iştirakının yolunu tapmalıdır. İkincisi, bu birgə fəaliyyətin nəticəsi məktəbdə həyat fəaliyyətini və oradakı təlim-tərbiyə prosesinin optimal variantını yaratmalıdır.

Üçüncüsü, məktəb rəhbəri fəaliyyət planının forma və quruluşunun elə optimal variantını seçməlidir ki, tərtib olunmuş sənəd gündəlik işdə istifadə üçün yararlı olsun.

Dialoq prinsipi aydınlaşdırır ki, planlaşdırma iştirakçıların hərəkət və fikirlərinin dialoqu-plan hazırlığının əsas şərtidir. Kollektivin hər bir üzvünün fikirlərinə diqqətli münasibət, müxtəlif nöqteyi-nəzərlərin hesaba alınması, sinifdə həyat fəaliyyətinin və orada təlim-tərbiyə prosesinin yaranmasının düzgün təyin edilməsində böyük məna kəsb edir.

Planlaşdırma prosesində müəllim, şagird və valideynlərin dialoqu sonralar bu işin uğurla həyata keçməsinə şans yaradır.

Fərdilik prinsipi planlaşdırma iştirakçılarına məktəbdə aparılan iş sistemi haqqında təsəvvür yaratmağa istiqamət verir. Burada hər bir şagirdin fərdiliyinin nəzərə alınmasını tələb edir.

Elmilik prinsipi məktəb rəhbərinin plan işi hazırlığında təlim, tərbiyə və inkişafın mahiyyəti və qanunauyğunluqları, müasir pedaqoji konsepsiyaları, gənclərin təlim-tərbiyəsi haqqındakı nəzəriyyələri, milli və xarici ölkə alimlərinin şagirdlərlə aparılan təlim-tərbiyə işinin təşkili və planlaşdırılması haqqındakı fikirlərinə arxalanmasının elmi ifadəsidir.

Fasiləsizlik prinsipi planlaşdırma prosesində fasiləsizliyin əsas xüsusiyyətlərindən biri olduğunu plan tərtibçilərinin nəzərinə çatdırır. Məktəbin fəaliyyət planının mükəmməlliyi, bu işin hələ tam başa çatmamasıdır. Hətta təcrübəli məktəb direktorları planın tərtibindən sonra, onda yeni düzəlişlər edir, çünki

məktəbin təlim-tərbiyə işinin sistemi canlı orqanizmdir. Burada uşaq və böyüklərin maraqları, istəkləri mahiyyətcə dəyişir, şəxsi psixi-emosional və iş münasibətlərində düzəlişlər edilir, onları əhatə edən sosial və canlı mühitlə yeni əlaqələr yaranır. Bütün bunlar fəaliyyət planında dəyişikliklər etməyə məcbur edir. Perspektiv plan bir neçə il üçün tərtib olunur. Burada nələr öz əksini tapır? İlk növbədə əvvəlki illərdə görülən işlərin təhlili, yeni illər üçün məktəbin ən zəruri vəzifələrinin müəyyən edilməsi, şagird kontingentindəki və sinif komplekslərində dəyişiklik, məktəbin inkişafının təşkilati pedaqoji problemi, təlim-tərbiyə işlərini təkmilləşdirmənin əsas istiqamətləri, pedaqoji kadrlarla iş, inzibati təsərrüfat işləri və məktəbin maddi-texniki bazasının gücləndirilməsi. Planlar əhatə etdikləri sahəyə görə strateji, təşkilati və əməliyyat. Əhatə etdikləri müddətə görə qısa, orta və uzun müddətli. İstifadə sıxlıqlarına görə tək istifadəli və davamlı, xüsusiyyətlərinə görə ümümi və xüsusi planlar kimi növlərə bölünür. Strateji planlar bütün təşkilatı əhatə edən, təşkilatın əsas hədəflərini ortaya qoyan, təşkilatın sektordakı yerini müəyyən edən uzunmüddətli plandır. Bu plan müəssisə rəhbərliyi (üst rəhbərlik) tərəfindən hazırlanır. Məktəbin fəaliyyət planı, o cümlədən illik iş planı pedaqoji kollektivin fəaliyyətini göstərən plandır. Təşkilati planlara müəssisə bölmələrinin (ümumtəhsil məktəblərində məktəb şurası, pedaqoji şura, fənn metodbirləşmələri, sinif rəhbərləri, məktəb psixoloqu, kitabxanaçı və digər qurumlar) iş planları daxildir. Əməliyyat planları təşkilatın strateji planlarında müəyyən edilmiş məqsədə necə çata biləcəyini göstərən planlardır. Bu planlar alt rəhbərlik tərəfindən hazırlanır və istifadə edilir. Strateji planlar uzunmüddətli (5 ildən çox), taktiki (təşkilati) planlar 1-5 illik, əməliyyat planları isə aylıq, həftəlik və gündəlik olur. Hər üç plan (strateji, taktiki və əməliyyat) bir-biri ilə əlaqəli şəkildə tərtib olunur.

**Ədəbiyyat:**

1. *Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika: pedaqoji ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı: Renessans, 2000, 245 səh.*
2. *Əliyev P. Ümumtəhsil məktəblərinin idarəedilməsi işinin planlaşdırılması. Bakı: Şahin-MB, MMC, 2016, 252 səh.*
3. *Kazımov N.M., Həşimov Ə.Ş. Pedaqogika. Bakı: Maarif, 1996, 345 səh.*
4. *Talıbov Y.R., Ağayev Ə.Ə., İsayev İ.H., Eminov A.İ. Pedaqogika: ali məktəb üçün dərs vəsaiti. Bakı:Maarif, 1993, 404 səh.*

**A.Z.Koçak**
**İstanbul Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Türkiyat Araştırmaları Anabilim Dalı**
**Seyyid Hasan Paşa Medresesi**
**Balabanağa Mah. Kimyager Derviş Paşa Sok. No:6 Beyazıt/Fatih**
***aygun_haciyeva_87@mail.ru***

# ORTA ASYA'DA MİNYATÜR SANATI (16-18. ASRLAR)

***Özet***

*Minyatür çok ince işlenmiş, küçük boyutlu, kendine has boyama tekniği ve anlatım dili olan geleneksel bir resim sanatıdır. El yazması eserlerde konuya açıklık getirmek amacıyla metni desteklemek için uygulanır. Bu sanatı yapan kişilere nakkaş denir.*

*Makalede Orta Asya'da el yazması kitabının meydana gelmesi, minyatür ressamlığın inkişafı hakkında bilgi verilmiş, 16-18. asrlara ait el yazması eserlerine çekilmiş minyatürler ve devrin nakkaşlarından bahsedilmiştir.*

# ИСКУССТВО МИНИАТЮРЫ В ЦЕНТРАЛЬНОЙ АЗИИ (16-18 вв.)

***Резюме***

*Миниатюра - это очень тонко выполненное традиционное искусство живописи небольшого размера со своей собственной техникой рисования и языком выражения. Он применяется для поддержки текста, чтобы прояснить тему в рукописях. Людей, создающих это искусство, называют наккаш.*

*В статье дается информация о возникновении рукописной книги в Средней Азии и развитии миниатюрной живописи, упоминаются миниатюры, нарисованные на рукописях, относящихся 16-18. векам, и миниатюры того периода.*

# MINIATURE ART IN CENTRAL ASIA (16-18th Centuries)

***Summary***

*Miniature is a very finely crafted, small size, traditional painting art with its own painting technique and language of expression. It is applied to support the text in order to clarify the subject in manuscripts. People who make this art are called painter.*

*In the article, given information about the emergence of a manuscript book in Central Asia and the development of miniature painting, Miniatures drawn on manuscripts belonging in 16-18. centuries and miniatures of the period are mentioned.*

***Anahtar kelimeler:*** *el yazması, orta asrlar, Orta Asya, minyatür, nakkaş, ressam*
***Ключевые слова:*** *рукопись, средние века, Центральная Азия, миниатюра, живописец, художник*
***Key words:*** *manuscript, middle-age century, Central Asia, miniature, painter, artist*

## Giriş

Kültür değerlerimiz arasında önemli bir yer tutan minyatür, el yazması kitapları süslemek için sulu boya ile çok ince işlenmiş, küçük boyutlu resimler ve bu türdeki resim sanatlarına denir. Minyatür, Latince "miniare" kökünden, İtalyanca'ya "miniatura" ve Fransızca'ya "miniature" diye geçmiş olan sözcüğün Türkçe halidir. Miniare "kırmızıya boyamak" anlamındadır. Osmanlı dönemi kaynaklarına baktığımızda, bu terimin yerine "tasvir" veya "nakış" sözcüklerinin tercih edildiği görülmektedir. Minyatür alanında çalışanlara ise "nakkaş" denirdi [4].

Minyatür sanatına bazen saray sanatı da denir. Çünkü el yazmalarının minyatürlerle süslenmesi için en büyük talep, feodal toplumun üst tabakaları olan krallar, prensler, padişahlar arasındaydı. Onlar usta ressamlar, hattatlar ve ciltçiler tarafından uzun süre tamamlanan bu değerli el yazmalarının ana müşterileri ve sahipleriydi. Minyatürün yaratılmasındaki asıl görev sanatçı hattatlara düşmüştü. Hat sanatı çok hassas ve zor bir sanattır. Hattat, eseri sanatsal bir çizgiyle kağıda kopyalıyordu [2].

El yazması kitabı müslüman Doğu'sunun kültürünün en büyük uğurlarından biridir. O, orta asr Avrupa'sında da mevcut idi. Lakin 15. asrda Gutenberg tarafından hazırlanmış çap makinasının geniş yayılması el yazmaları becerisini geçersiz etti. Doğu yalnız 19. asrda litografiye, ardından dizgi bakılarına hakim oldu. Ama bugüne kadar orada renk zenginliğinin ana hatlarının ilginç bağ ile içerik bakımından kombine edildiği klasik el yazısı örneklerinde kaligrafi becerisini yetişdiriyorlar. Doğu el yazması içerik bakımından olağanüstü çokçeşitlidir.

İlahiyat, kesin ve doğa bilimleri, şiir ve felsefe, el sanatları kılavuzları ve eğitim incelemeleri, tarihi kronikler ve edebi anlatılar hükümdar ve sanat hamileri, medreseler ve sivil kurumların kütüphanelerini dolduruyordu. 10. asrda Buhara Samanidleri hükümdarlarının kütüphanesi ünlüydü. Büyük bilim adamı Abu Ali ibn Sina'ya göre orada çoğunlukla şimdiye kadar hiç bir yerde görmediği, tıp ve felsefeye dair bilgiler olan çok sayıda el yazması ile dolu odalar vardı. 13. asrın başlarında arap coğrafyacı Yakut el Hamevi Horasan'ın en önemli şehirlerinden olan Merv'de olmuşdur. O, burada 10 kitap deposu bulmuşdur. Onun sözlerine göre kitabındaki (klasik eseri olan "Mucemu'l-Buldan") faydalı büyük hisse bu kütüphanelerdendir [6, s.5].

Doğu kitabı kendisinin en iyi örneklerinde bütün bir uzman grubu tarafından hazırlanmış sanat eseri gösteriyor. Alıcılar onu Semerkand'tan alarak

hatta Adriyatik sahili ülkelerine kadar götürüyordu. İlk olarak işe kalligraf – yazma ustası, farklı el yazıları ustası başlıyordu. 16. yüzyıla kadar artık 8 temel stil ve birkaç versiyon işlenmişti.

Başlık yaprağına veya 2 karışık yaprağa özel dikkat ayrılıyordu. Bu genellikle ortak desenli bir çerçeve ile olan parlak süslü ünvan idi. Dekorasyonun özel türü – "Sarlauh"dur. Bu yazıtlarla zengin süslü dairedir. Son yaprakta kural olarak el yazmasının bitme tarihi ve kalligrafın adı belirleniyordu. Son aşama ise eserin ciltlenmesidir.

**Ana Metin**

El yazmasında süs türlerinden biri de minyatür boyacılığıdır. O, yüksek içtimai makamlara ait kitapseverlerin talepleri, istekleri üzerine hazırlanmış daha kıymetli el yazmalarında kullanılıyordu. En iyi minyatürcü ressamlar saray kitap atölyelerinde – kütüphanelerde çalışıyordu. Açıklayıcı resimler astroloji, tıp ve ilahiyat ile ilgili bazı ilmi eserlerde veriliyordu. Bağdat'dan Semerkand'e, sonralar Dehli'ye kadar minyatürlerin işlenmesi ve boyanmasının üsulları hazırlanıyor. Tanımlanmış kompozisyon sahnelerin döngüsü pilanlanıyor.

Minyatür yapılacak kâğıdı hem pürüzsüzleştirmek hem de daha dayanıklı hale getirmek için üzerine çeşitli maddelerden (örneğin nişasta, yumurta akı, Arap zamkı, üstübeç) yapılan ve ahar olarak isimlendirilen bir karışım sürülürdü. Renklere saydamlık kazandırmak için bu yüzeyin üzerine bir kat da altın tozu sürülürdü.

El yazması eserlerde minyatürlerin etrafına halkâr ya da zerefşân ismi verilen süslemeler yapılırdı. Halkâr; tezhip, minyatür ve hat eserlerinin etrafını çevreleyen, genellikle altınla yapılan, daha büyük motiflerin kullanıldığı ve motiflerin görece daha seyrek yerleştirildiği, uygulaması görece kolay olan bir süsleme türüdür. Zerefşân ise altın serpilerek yapılan süsleme tekniğindir. Bu süsleme teknikleri daha sade bir görünüme sahiptir, böylece eserin kendisi ön planda yer alırken etrafındaki süsleme ikinci planda kalır [5].

Müslüman dünyasının resimli sanatının inkişafında Hz.Muhammed'in kendisine atfedilen hedislerin büyü rolü olmuştur. Canlı varlıkların, özellikle insanın resimlendirilmesi, onların görüntüsünün oluşturulması, ressamın ona ruh vermesi yasaktı. Bu yalnız Allah'ın gücü ile mümkündü. Buna tepki ise bu ülkelerde matematik yönümlü ilimlerin uğurları ile daha çok ilgili olan doğu süsünün inkişafı oldu. Çeşitli hendesi yapıların hazırlanması yollarının öğrenilmesi farklı kombinasyonların tanımlanmasına sebep oldu. Epigrafi süslemenin de büyük rolü vardı [6, s.7].

Orta Asya'da minyatür ressamlığın inkişafı bu tarihi yönde idi. 14. asrın sonu 15. asrın başı Emir Timur'un fasilesiz yürüyüş ve fetihleri, büyük imperya kurması ile geçiyor. Timur ve Timuriler Devri farklı alanlarda kültürün yükselişi ile meşhurdur. Bu medeniyetin bir parçasını minyatür sanatı teşkil ediyor [6, s.10].

Onun hazırlanmasının merkez şehirleri İran'da Şiraz, İsfahan, Gazvin, Tebriz, Horasan'da Herat, Maveraünnehir'de Semerkand, Buhara olmuştur. Bu tarihi şehirlerde özel ressamlık mektepleri kuruluyor. Bu mekteplerin (araştırmacılar onu Orta Asya, Maveraünnehir ve Buhara olmakla 3 yere ayırıyorlar) kurulması 14. asrın sonlarında, Timur'un merkezi Semerkand olan bütün imperya kurması devrinde yükselişini yaşıyor. Buraya o, fethedilmiş ülkelerden yalnız maddi varlıklar değil, aynı zamanda alimler, ustalar, kaligraflar, ressamlar getirmiştir. Bunlardan biri Timur tarafından Semerkand atölyesinin başına getirilmiş Bağdatlı minyatürcü Abd-al-Hayya idi. Onun öğrencileri arasında Muhammed al-Hayyam vardı. Sonralar o, Herat'a Baysungur Saray kütüphanesine gitti. Ustanın öğrencileri arasında Pir Ahmed Bagi Şamali de vardı.

Minyatürcüler Semerkand'da bilim adamı Ulugbey'in idaresi altında çalışmayı devam ettiriyordular. O devrin birkaç ayrıca kompozisyonlu minyatürü, aynı zamanda 1437. yılın "Yıldız Cetvelleri" listesine olan illüstrasyonlar korunmuştur [6, s.11].

15. asrın ikinci yarısında ise Herat minyatür ressamlığın esas merkezlerinden birine dönüşmüştür. Burada Mirek Nakkaş, Kemaleddin Behzad, Kasem Ali gibi dehalar çalışıyordu.

15. asr minyatürlerinin bir küçük grubunu araştırmacılar Semerkand mektebine ait etseler de Orta Asya minyatürlerinin çoğu 16-17. asrlara denk geliyor. Onların çoğu Özbekistan Bilimler Akademisi'nin Şarkiyat Enstitüsü'ndedir.

Maveraünnehir mektebine ve onun ustalarına ait birkaç minyatüre bakalım.

"Fethname" – "Zaferler Kitabı"nın (N 5369) müellifi özbek şair Molla Muhammed Şadi'dir. Eser Şeybani Han'ın medhine hasredilmiştir. Liste 1507'de Semerkand'da hazırlanmıştır. Eserde 7 minyatür vardır. Süjetler Şeybani Han'ın siyasete atılması olayları ile ilgilidir. 3 final minyatürü onun harbi cesaretini, son minyatür ise Semerkand'in alınmasını canlandırıyor.



*Şeybanî Han tarafından Semerkand'in alınması*
*Molla Muhammed Şadi. "Fethname" (16. asrın evveli)*

İkinci el yazması Mes'ud ibn Usman Kuhistani'nin “Tarih-i Ebu'l Hayr Han” (N 9989) adlı eseridir. Semerkand’da Abdüllatif Han (1540-1551) adına hazırlanan Tarih-i Ebu’l Hayr Han, bazı özellikleriyle İslam dünyasındaki tarih yazımıyla benzer anlayışı sürdürürken, Özbeklerin (1428-1599) sınırlı sayıdaki tarihî konulu resimli yazmaları içinde ise tek kalır.

Kuhistânî (ö. 1540 sonrası), iki bölümden oluşan bu dünya tarihini kendinden önceki tarihçilerin dilinden, dünyanın yaratılışıyla başlatır ve Timurlularla (1370-1507) bitirir. İkinci bölüm Özbek Hanlığı’nın kurucusu Ebu’l Hayr Han’ın (sal. 1428-1470) ve ardıllarının tarihine ayrılmıştır. Tamamen özgün olan bu kısım Ebul Hayr Han ve Uluğ Bey’in (1409-1449) kızı Rabia Sultan’ın oğlu Süyünçhoca Han (ve ya Sevinc Muhammad Hoca ö. 1525) ile yakınlarının anlattıkları esasında yazılmıştır.

Baş ve son kısmı eksik olan yazma, boyutları birbirinden farklı ve aynı elden çıkma 28 resim içerir. Tasvirlerin bir kısmı neredeyse tüm sayfayı kaplarken, bazısı 8-9 cm’dir. Tüm resimler çerçeve içine alınmıştır ve tasvirler çerçevenin dışına taşmazlar [3].



*Çayırda bayram*
*Mes'ud ibn Usman Kuhistani. “Tarih-i Abulhayr”. 1541.*



*Celalettin'in yiğitliği*
*Mes'ud ibn Usman Kuhistani. “Tarih-i Abulhayr”. 1541.*

Orta Asya minyatür ressamlığın en güzeli Firdevsi'nin “Şahname”'sinin listesine çekilmiş illüstrasyonlardır (N 1811). Eser 1556 yılında Harezm hükümdarı İş – Muhammed için yeniden yazılmıştır. Buradaki 5 minyatürde ressam Muhammed Murad Semerkandi'nin imzası vardır.

“Şahname” fars dilli ülke ressamları tarafından defalarca canlandırılmıştır (Maveraünnehir'de o devirde iran-türk iki dili hakim idi).



*Siyâvûş ateşde sınavdan geçiyor*
*Firdevsi. “Şehnâme”. Liste 1556. yıla, minyatür 16. asrın sonuna aittir.*
*Ressam: Muhammed Murad Semerkandi.*



*Hürmüz'ün oğlu Şapur'un dünyaya gelişi*
*Firdevsi. “Şehnâme”.*



*Siyavuş ateşde sınavdan geçiyor*
*Firdevsi. "Şehnâme". Liste 1664. yıla aittir. Ressam: Muhammed Mukim*



*Rüstem Bahman tarafından atılmış taşı itiyor*
*Firdevsi. "Şehnâme". 1664.*

Orta Asya minyatürlerinin inkişafı 17. yüzyılda da devam ediyordu. Tarihi kaynaklara göre Büyük Moğol Hindistanı'nın imparatoru Akbar'ın döneminde, 16-17. asrlarda Dehli'ye Semerkand ressamları Muhammed Murad ve Muhammed Nadir gelmiştir.

Yusuf ve Züleyha'nın tarihi de orta asr Doğu'sunda şairlerin sıkca müracaat ettiği konulardan idi. Özellikle Cami'nin poeması çok meşhur olmuştur.

Minyatürlerde bu tarihle ilgili olayları sık sık canlandırıyordular. Bunlardan en meşhurları Yusuf'un kardeşleri tarafından kuyuda bırakılarak ölüme terk edilmesi, onun yoldan geçen kervanda olan tüccarlar tarafından kurtarılması, Yusuf'un Züleyha'nın evinde olması, Züleyha'nın Yusuf'a olan sevgisinin genç tarafından reddedilmesi sahneleri idi.

Durbek'in listesinde ise (N 1433) 5 minyatür vardır (1615). Altın Orda edebiyatının çok önemli temsilcilerinden biri Durbek şairdir. Şairin hayatı ve eserleri hakkında elde yeterli bilgi yoktur. Hatta onun künyesini de bilinmemektedir. Durbek onun edebi müstear ismidir. Şair XIV. yüzyılın ikinci yarısı ile XV. yüzyılın başlarında yaşamıştır. Yusuf ile Züleyha hakkındaki ilginç hikâye ve efsaneler Durbek eserini yazdığı dönemde yaygındı. Bu konuda Firdevsi, Belhi, Şirazi ve Ensari gibi ünlü şairler eserler vermişti. Ancak onların hepsi Farsça yazılmıştı. Durbek bu konuda ilk defa Orta Asya Türklerinin eski Özbek dilinde destan yazan şairdir.



*Yusuf'un kölelik için satılması*
*Durbek. "Yusuf ile Züleyha". Liste 1615.*

Diğer bir liste Şerafeddin Ali Yezdi'nin "Zafername" (N 4472) eserinin listesidir. 1628'de Semerkand'da hazırlanmıştır. Emir Timur'un ölümünden sonra Şiraz Şahruh'un (1405-1447) yönetimine geçince şehrin idaresi oğullarından İbrahim Mirza'ya verilir. Şehzade bu sırada Şerafeddin Ali Yezdî'nin Zafernâme'yi yazmasına önayak olur. Eser, Çağatay soyundan gelen uluslardan söz eden Târih-i Cihangir adında bir girişle, İbrahim Mirza'nın son zamanlarına kadar Timurluların tarihinden oluşur. Şerafeddin Ali Yezdî kitabına Türklerin efsanevi köklerinden başlar ve Emir Timur dönemine kadar gelerek eserin asıl konusu olan Emir Timur'un tarihindeki büyük askerî başarıları anlatır [1, s.156]. Zafernâme'nin konusu da daha çok tek bir yönetici olarak Emir Timur'un ve yakın çevresindekilerin hayatlarının önemli anlarına yönelik olmuştur.



*Timur ve Toktamış'ın ordusunun savaşı*
*"Zafername". Şerafeddin Ali Yezdi. 1628.*

Abdullah Hatefi bir Fars şairi (1454–1521) ve Abdul Rahman Cami'nin yeğeniydi. Hatefi birkaç türde şiir yazmış, ancak her şeyden önce "Hamsa" ile tanınmıştır.



*Timur'un yanında kabul zamanı*
*Abdullah Hatefi. "Timurname". 1568.*

Kemaleddin Gazurgani'nin "Meclis ul-uşşak" adlı eseri XVII. asrın sonu yazılmıştır. "Aşıkların Buluşması" anlamına gelir, ancak anlamı gündelik aşk değil, Sufizm tarafından vaaz edilen ilahi ilkeye yönelik yüce manevi sevgidir. Eser, ruhani bir lider olarak göründükleri seçkin şeyhler ve tarihi figürlerle ilgili çeşitli benzetmeler içeriyor.



*Hamamda tartışma*
*Kemaleddin Gazurgani. "Meclis ul-uşşâk". 17. asrın sonu.*

**Sonuç**

Minyatürlerdeki tarihi kaynakları ve imzaları günümüze kadar Semerkand'da, özellikle Buhara'da çalışmış ressamlar getirmiştir. 16. asrın sonu 17. asrın ortaları bunlar Muhammed Murad Semerkandi adıyla tanınan Muhammed Şerif, Muhammed Derviş Semerkandi idi. 17. asrın ikinci yarısında ise ikinci Abdalaziz Han devrinde Muhammed Muim, Avaz – Muhammed, Muhammed Amin, Molla Behzad meşhur idi.

17. asrın sonlarında Subhankuli Han devrinde ise Hoca Heday meşhur idi. Bunlardan Muhammed Amin yalnız minyatürcü değildi, anıtsal boyacılık ile de meşkul idi.

Adlarını çekdiğimiz bu ressamların imzalı minyatürleri bir birinden sanatsal tarzları ile ayrılıyor. Burada birkaç tarz istikametlerini ayırmak mümkündür. Bunlardan bazıları klasik, diğerleri romantik, üçüncüsü hint minyatürünün etkisi ile ilgilidir, dördüncüsü ise halk ressamlığının özelliklerini taşır.

Geçmişte kitap süsleme sanatı olarak uygulanan minyatür, günümüzde bağımsız bir sanat dalı olarak varlığını sürdürüyor. Aynı zamanda tezhip ve ebru gibi farklı süsleme sanatları ile birlikte de uygulanabiliyor.

**Edebiyat:**

1. *Akbıyık, A.H. Timurluların Bilim ve Sanata Yaklaşımları ve Bazı Son Dönem Sanatkârları. Bilig, 2004, s. 151-171.*
2. *Allahverdiyeva Rübab. Azərbaycan Miniatür Sənətinin Tarixi. URL: http://www.faktxeber.com/News_h41749.html*

3. *Altıer, Semiha. Semerkand Sarayı'ndan Tarihe Bir Bakış: Mes'ud bin Usman Kuhistânî'nin "Tarih-i Ebu'l Hayr Han"indaki Minyatürler. URL: https://dergipark.org.tr/en/download/article-file/620277*
4. *Doğu ve Batı'nın Ortak Sanatı Minyatür. URL: https://bilimdili.com/arkeotarih/tarih-tarih/dogu-ve-batinin-ortak-sanati-minyatur/*
5. *Mercin, Levent. Minyatür Sanatı. URL: https://bilimgenc.tubitak.gov.tr/makale/minyatur-sanati*
6. *Пугаченкова, Г.А. Среднеазиатские миниатюры 16-18 веков в избранных образцах. Ред. А.И.Кременцова. Ташкент: Главная редакция энциклопедии, (199-?), 47 с.*

**J.Ç.Quluzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***jale.quluzade1994@gmail.com***

# İSLAM ŞƏRQİNDƏ BƏDİİ METAL

***Xülasə***

Metalın tədqiqi onun əmələ gəlmə səbəbləri və istehsalının ilkin mərhələləri kimi bir sıra məsələləri əhatə edir; metalın filiz yataqlarının yoxsul ərazilərinə daşınması üçün yollar; metalın sosial proseslərin göstəricisi kimi rolu ən qədim dünya sivilizasiyalarının mənşəyi bölgəsi kimi Yaxın Şərq bu problemlərin nəzərdən keçirilməsində əsas rol oynayır, çünki metalla erkən tanışlıq və onun əsasında ərinti istehsalı qədim Yaxın Şərq sivilizasiyasının şərtlərindən və fərqləndirici cəhətlərindən biri idi. Antik dövrlərdə metalın dəyəri son dərəcə yüksək idi. Qədim dövrlərdə metal ən qiymətli materiallardan biri idi. Daxili istehlak və mübadilə üçün əhəmiyyətli əmək xərcləri ilə hasil edilir, dəyər ekvivalenti rolunu oynayır və simvolik əhəmiyyətli əşyaların hazırlanmasında istifadə olunurdu. Yaxın Şərqdə metaldan istifadənin ən mühüm xüsusiyyəti onun qədimliyidir.

# ХУДОЖЕСТВЕННЫЙ МЕТАЛЛ НА ИСЛАМСКОМ ВОСТОКЕ

***Резюме***

Изучение металла охватывает ряд вопросов, таких как причины его образования и начальные этапы производства; дороги для транспортировки месторождений металлических руд в бедные районы; роль металла как индикатора социальных процессов. Ближний Восток как регион зарождения древнейших мировых цивилизаций играет ключевую роль в решении этих вопросов, так как раннее знакомство с производством металла и сплавов на его основе было одним из условий и отличительных черт древней ближневосточной цивилизации. В древние времена ценность металла была чрезвычайно высока. В древности металл был одним из самых ценных материалов. Он производится со значительными затратами труда на внутреннее потребление и обмен, играет роль эквивалента стоимости, использовался при изготовлении символически значимых предметов. Важнейшей особенностью использования металла на Ближнем Востоке является его древность.

# ARTISTIC METAL IN THE ISLAMIC EAST

***Summary***

The study of metal covers a number of issues, such as the causes of its formation and the initial stages of production; roads for the transportation of metal ore deposits to poor areas; the role of metal as an indicator of social processes. As the region of origin of the most ancient world civilizations, the Middle East plays a key

role in addressing these issues, as early acquaintance with metal and alloying based on it was one of the conditions and distinguishing features of ancient Middle Eastern civilization. In ancient times, the value of metal was extremely high. In ancient times, metal was one of the most valuable materials. It is produced with significant labor costs for domestic consumption and exchange, plays the role of value equivalent, and was used in the manufacture of symbolically significant items. The most important feature of the use of metal in the Middle East is its antiquity.

***Açar sözlər:*** *metal, metal əritmə, polad, gümüş, qızıl, qılınc, silah*
***Ключевые слова:*** *металл, металлический сплав, сталь, серебро, золото, меч, оружие.*
***Key words:*** *metal, metal alloy, steel, silver, gold, sword, weapon*

Ərəblər gəlməmişdən əvvəl Yaxın Şərqdə metal emal olunurdu. Lakin müsəlman fəthlərinin başlaması ilə silah emalatxanaları geniş vüsət aldı, çünki onlar uclu silahlar və odlu silahlar düzəldirdilər.

XII əsrin coğrafiyaçısı Əbu Abdullah Məhəmməd əl-İdrisi yazırdı ki, ərəblərin o dövrdə ən yaxşısı sayılan məşhur hind poladı var idi. Hollandiyanın Leiden Kitabxanasında saxlanılan XIII əsrə aid ərəb əlyazmasında bıçaqların bir hissəsinin Seylondan və XVII əsrdə gətirilən metaldan hazırlandığını bildirir, ərəb ağaları artıq hinduları üstələyiblər. O vaxtdan Qahirə Şərqi Aralıq dənizinin əsas silah bazarına çevrilib.

Dəməşqdə, daha sonra Əndəlüsdə məşhur Dəməşq və Toledo bıçaqları hazırlanmağa başladı, istehsalın sirri ən ciddi şəkildə qorunurdu. Dəməşq və ya Toledo damask poladının yüksək keyfiyyəti hazırlanma üsuluna ciddi riayət etməklə əldə edilmişdir: dəmir və polad zolaqları (ucuz çeşidlərdə) və ya müxtəlif dərəcəli polad zolaqları (ən yaxşı siniflərdə) müəyyən bir temperaturda qaynaq edilmişdir. Toledo bıçaqlarına Avropa ölkələrində böyük tələbat var idi. İspaniyanın son ərəb hökmdarlarından birinə yaxın olan (XIV əsr) Abdullah əs-Sahirin Madriddəki Eskurial Muzeyində saxlanılan qılıncının zərli qopçası füsunkar fil sümüyü ilə işlənmişdir.

Türkiyənin orta əsr silahları heç də az dekorativ deyil. Ov tüfəngləri adətən sədəflə bəzədilirdi. Qılınclara və palalara isə qızıl çentiklər vurulurdu. Efes taxıl və qiymətli daşlar, mərcan, firuzə ilə bəzədilib. Pudra qabları da eyni şəkildə bəzədilmişdir. Onlar metaldan, dəridən, ağacdan, qabıqlardan və heyvan buynuzlarından hazırlanırdı.

Tanınmış rus şərqşünası, akademik V.V.Bartold yazırdı ki, avropalılar məhz ərəblərlə təmas sayəsində 1147-ci ildən sonra müxtəlif silahlar əldə etmişdilər. Müəyyən silah növlərinin artıq İspanlara məlum olmasına baxmayaraq, Şərqdə hazırlanmış və ərəblər tərəfindən daha da təkmilləşdirilmişdir.

Şəhərlərin böyüməsi və inkişafı ilə əl sənayesi istehsalı praktik olaraq şəhər əhalisinin əsas məşğuliyyətinə çevrildi. Silah ustaları lonca icmaları öz

qanunlarına uyğun yaşayırdılar. Hər yeni gələn şəxsin peşəkarlığı ciddi şəkildə sınaqlara tabe edilir və çox saylı müraciətlər arasından diqqətlə seçilirdi. Silah sənətkarlığı birbaşa hərbi rəhbərliyin və silah ticarətinin vəziyyətinə və sənətkarların keyfiyyətlərinə nəzarət etməyi əmr edən baş şeyxin (şeyx ash-shuyukh - Ərəb.) nəzarəti altında idi. İndiyə qədər bir çox Dəməşq qılıncını silah ustaları "sülalələri"nin qurucularının öz adları ilə adlandırırlar - Suyufi, Saikali, Sakakin, Cahar, Bulad.

İran istehsalı olan qızıl, gümüş və qiymətli daşlarla bəzədilmiş silahlar Səfəvi zadəganları üçün dəyərli və qiymətli hesab edilirdi. Bundan əlavə, burada çentik, fon zolaqları və ya tor ilə oyma texnikasından istifadə edilmişdir.

Bəzi bıçaqlarda epiqrafik yazılar, bir qayda olaraq, qılınc daşıyıcısını daha cəsur və toxunulmaz hala gətirməli olan Qurandan kəlamlar yazılmışdır. Adətən, yazılar qızıl və gümüşlə döymə və ya həkketmə üsulu ilə hazırlanırdı. Bunun üçün əvvəllər bıçağın səthində çentiklər oyulur, içərisinə qızıl və gümüş saplar salınırdı.

Metaldan hazırlanmış dekorativ və məişət əşyaları çox məşhur idi. Hökmdarlar ən yaxşı dəmirçilərdən qab-qacaq sifariş edirdilər, ona görə də onların çoxunda müştərinin adı yazılmış kartuş və ya qurşaq var idi. Lakin tədricən bu cür məhsullar kütləvi alıcı üçün hazırlanmağa başlandı. Həmin dövrdə yeməklər odda hazırlandığından qab-qacaqlar da istehlaka uyğunlaşdırılırdı.

Məmlüklərin Misirdə və Suriyada hökmranlığı dövründə mis sacdan küplər, çanaqlar, tabutlar düzəldilir, həkk olunur və gümüşlə bəzədilirdi. Dövrün əsas dekorativ elementi olan yazılar həm də tarixi informasiya əhəmiyyəti daşıyırdı. Yazının bərabər paylanması üçün medalyon şəklində - dairəvi və ya üçbucaqlı bir kartuşla kəsilirdi. Eyni zamanda ustalar qalan boşluğu doldurmaq üçün həndəsi və nəbati naxışlardan da istifadə edirdi. Məmlük aristokratiyası üçün xüsusi olaraq sifariş edilən əşyalarda, bir qayda olaraq, sifarişçinin bütün epitetlərinin siyahısı, eləcə də ona ünvanlanan təriflər yazılmış yazılar olurdu. Bəzən rəsmə sahibinin xidmətini göstərən elementlər daxil edilirdi. Məsələn, buna misal olaraq XIV əsrə aid İran mis qabının üzərindəki kartuşlar. Dovşan qovan itlərin təsviri ilə qab sahibinin şahin və ya ovçu olduğu bildirilmişdi. Fonu həndəsi və nəbati təsvirlər olan oxşar qablar İranda çoxlu sayda istehsal edilmişdir, və əsasən çiçək ornamenti ilə bəzədilirdi.

Metal məmulatların bəzədilməsi üçün demək olar ki, hər yerdə qovalama, oyma, mis, qızıl və gümüş naxışlardan istifadə olunurdu. Ustalar bütün səthi mürəkkəb naxışlarla doldurulmuş şamdanlar, küpələr, güldanlar, yazı alətləri, Quran saxlamaq üçün qutular, buxur yandırıcılar yaratmışlar.

XIII-XV əsrlərdə Yaxın Şərqin dəmirçiləri yüksək ustalıq səviyyəsinə çatmışdılar. Onlar tuncdan hazırlanmış əşyaları ən yaxşı oyma, qabartma, niello, gümüş və qızıl, rəngli mina və qiymətli daşlar daxil edilmiş kartuşlarla

bəzəyirdilər. İran, Orta Asiya, Azərbaycan metal məmulatlarının dekorasiyası təsvirlərin planar təfsirini, səthin ornamental doldurulması istəyini ortaya qoyur. Metal əşyaların hazırlanmasında istifadə olunan üsullar müxtəlif idi. Bu, həm tökmə, həm də toreutics: oyma, kovalama, əlvan metallarla naxış.

Dünya muzeylərindəki bədii metal nümunələrinin mənşə coğrafiyası göstərir ki, Şərq ustaları öz texnikalarını, ornamentasiya üsullarını, xüsusən də qravüraları, hətta qabların formasını daim yeniləmişlər.

**Məqalənin aktuallığı**: məqalədə Yaxın Şərq ölkələrində metal sənətinin bədii xüsusiyyətlərindən bəhs edilir.

**Məqalənin elmi yeniliyi**: Ərəb şərqində orta əsrlərdə müsəlman xalqlarının estetik zövqlərini daha aydın şəkildə nümayiş etdirən metal sənətinin bədii estetik mahiyyəti və kompozisiya xüsusiyyətləridir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**: Yaxın Şərq ölkələrində tətbiqi sənət xüsusilə də metal sənətinin öyrənilməsi sahəsində müvafiq tarixi dövrə aid əlavə material kimi istifadə etmək olar.

**Ədəbiyyat:**

*1. Б.В.Веймарна и Ю.Д.Колпинского - Москва: Государственное издательство 'Искусство', 1961 'Всеобщая история искусств. Том 2, книга вторая' \\Под общей редакцией*

*2. Половникова Н.А., Николихина С.А. Архитектура и градостроительство. Конспект лекций. - СПб.: СПбГИЭУ. - 2010. - .*

*3. Зеленцова О.В., Кузина И.Н. Некоторые итоги раскопок в квартале 13 города Владимира в 2007 году // Археология Владимиро-Суздальской земли: Материалы научного семинара. Вып. 2. М., 2008. -*

*4. Лавыш К.А. Художественные традиции восточной и византийской культуры в искусстве средневековых городов Беларуси (X-XIV вв.). Минск, Белорусская наука, 2008.*

*5. Стародуб Т.Х. Исламский мир: художественная культура, архитектура, описание, орнамент, каллиграфия XII-XVII веков. М.: Восточная литература, 2010. – 255 с.*

*6. Пиотровский М.Б. Мусульманское искусство. Санкт-Петербург между Китаем и Европой: Гос. Эрмитаж, 2008. - 24 с.*

**S.İ.Novruzova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sima-novruzova@mail.ru***

# AZƏRBAYCANDA SOSİOLOJİ FİKRİN İNKİŞAFINDA İSLAMİ DƏYƏRLƏR

***Xülasə***

*Məqalədə Azərbaycanda sosioloji fikrin inkişafında İslami dəyərlər araşdırılmışdır. Mövzunun aktuallığı uşaq tərbiyəsində düzgün metodologiyanın seçilməsi ilə bağlıdır. İslamda ən mühüm vəzifələrdən biri də övladları İslami qayda-qanunlara uyğun böyütməkdir. Düzgün tərbiyə insani dəyərlərin formalaşmasında mühüm amildir. Əksinə, uşağın ümumiyyətlə tərbiyə olunmaması, düzgün tərbiyə edilməməsi onu günaha, azğınlığa sürükləyir. Adi qaydada övladın tərbiyəsi beş yaşından tövsiyə edilir, amma İslamda bu, doğuşdan əvvəl, ana bətninə düşən andan başlayır və hətta ondan əvvəl valideynlərə uşaq tərbiyəsi üçün faydalı məsləhətlər verilir. Doğmamış uşağın xoşbəxtliyi, ideal ailənin əhəmiyyətini irəli sürür. Hamiləlik dövründə qida, haram və hətta şübhəli qidalar haqqında hələ də dəyərli tövsiyələr var.İslamda uşaq bu ailəyə Allah tərəfindən verilən əmanət kimi qəbul olunur və bu səbəbdən xüsusi qayğı ilə bəslənməli və qorunmalıdır.*

# ИСЛАМСКИЕ ЦЕННОСТИ В РАЗВИТИИ СОЦИОЛОГИЧЕСКОЙ МЫСЛИ В АЗЕРБАЙДЖАНЕ

***Резюме***

*В статье рассматриваются исламские ценности в развитии социологической мысли в Азербайджане. Исламская методология воспитания детей не имеет себе равных. Одна из важнейших обязанностей в исламе – воспитывать детей в соответствии с исламскими правилами. Правильное воспитание является важным фактором формирования ценностей человека. Наоборот, то, что ребенок совсем невоспитан, что он воспитанне правильно, вед етего к греху и разврату. Обычно рекомендуется воспитывать ребенка с пятилетнего возраста, но в исламе оно начинается еще до рождения, с момента его попадания в утро буматери, а еще до этого родителям даются полезные советы по воспитанию ребенка. Счастье будущего ребенка подчеркивает важность идеальной семьи. Есть еще ценные рекомендации о еде, хараме и даже сомнительных продуктах во время беременности. В исламе ребенок принимается как да рот Бога этой семье, и поэтому его нужно взращивать и оберегать с особой заботой.*

# ISLAMIC VALUES IN THE DEVELOPMENT OF SOCIOLOGICAL THINKING IN AZERBAIJAN

***Summary***

The article examines Islamic values in the development of sociological thought in Azerbaijan. Islam's methodology of child rearing is unparalleled. One of the most

important dutiesin Islam istoraise children in accordance with Islamic rules. Proper up bringingis an important factor in the formation of human values. On the contrary, the fact that a childis not brought up at all, that he is not brought up properly, leads him to sin and de bauchery. It is usually recommended to raise a child from the age of five, but in Islam, it begins before birth, from the moment it enters the mother's womb, and even before that, parents are given useful advice on raising a child. The happiness of the unborn child under scores the importance of an ideal family. There are still valuable recommendations about food, haraam and even question able foods during pregnancy. In Islam, a child is accepted as a gift from God tot his family, and there fore must be nurtured and protected with special care.

***Açar sözlər:*** *Azərbaycan, sosioloji fikir, İslam, dəyər, inkişaf*
***Ключевые слова:*** *Азербайджан, социологическая мысль, ислам, ценность, развитие.*
***Key words:*** *Azerbaijan, sociologicalthought, Islam, value, development*

Pedaqoji fikir tarixi sosiol ideyalarla zəngindir. Azərbaycanda sosioloji fikrin tarixi qədim dövrlərə kimi gedib çıxır. Sosioloji fikir tarixinin inkişafı yolunda İslam dininin rolu danılmazdır. İslam dini yarandığı gündən insanları əxlaqa, mənəviyyata və kamilliyə çağırırdı. İslamın özü elm sistemi ilə müəyyən edilmiş kamil əxlaq və mənəviyyata malik sonuncu səmavi dindir. İslam dini bu illər ərzində nəsillərin təhsil və tərbiyəsində mühüm rol oynamış və bu gün də oynamaqdadır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev demişdir: “Biz dinə, mənəvi dəyərlərimizə hörmət edirik. Biz ümumbəşəri dəyərləri xalqımıza aşılamalı, onları milli-mənəvi dəyərlərimizdən ayırmamalıyıq” [1, s.195]. İslam dini əsrlər boyu mənəviyyatımızın bünövrəsi olub və müsəlmanlara dünyada öz layiqli yerini verib.

İslam tərbiyəsinin məqsədi insanı kamilliyə doğru yönəltməkdir. Kamil və mükəmməl insan Allaha yaxın sayılır. İslam insanı bütöv, maddə və məna, bədən və ruh tərəfindən təşkil edilmiş bütöv hesab edir, insanı bütün meyl və davranışları ilə öyrənir. O, ilk növbədə insan davranışına nəzarət edən mərkəzləri qidalandırır. Buna görə də İslam qəlbin tərbiyəsinə böyük əhəmiyyət verir. Çünki, davranış ürəkdən asılıdır. İnsanın yaxşı və ya pis, zalım və ya mərhəmətli olması onun qəlbindən asılıdır. Bu baxımdan qəlbin düzgün tərbiyəsi özünü tanıma yoluna dəlalət edir. İslamda təhsil və elm insanların özünü tanımasına kömək etməlidir. İslama görə, özünü tanıyan insan Allahı tanıyar, başqalarını da tanıyar, harada və necə davranacağını bilir. İslam tərbiyəsi insanda İslam əxlaqının, İslam şərtlərinə uyğun davranış normalarının formalaşmasını nəzərdə tutur. İslam tərbiyəsi insandan həm dini, həm də dünyəvi elmlərə dərindən bələd olmağı, yüksək əxlaqi keyfiyyətlərin olmasını tələb edir. İslam tərbiyəsi insanın ağlının, ruhunun və bədəninin bərabər inkişafını nəzərdə tutur. İslamda tərbiyə olunan insanın həm bədəni, həm də ruhu sağlamdır. Bədənin

sağlamlığı ruhdan, ruhun sağlamlığı isə bədəndən asılıdır. Bütün ilahi dinlər insanı ən yaxşıya, ən gözələ və ən ucaya aparır. Bu o deməkdir ki, Allah insanlardan yaxşılıq, həqiqət, gözəllik və daha yüksək əxlaqa malik olmasını istəyir.

İslamda tərbiyənin vəzifəsi sadəcə olaraq uşağa gözəl əxlaq və faydalı bilik vermək deyil. İnsan yaşadığı cəmiyyətin inkişafına öz töhfəsini verdiyindən, xalqın adət-ənənələrini, dil və dinini qoruyub saxladığından, ona hörmətlə yanaşdığından, iqtisadiyyatının, mədəniyyətinin yüksəldilməsinə daim səy göstərdiyindən təhsil məsələsi daha geniş başa düşülür. Bu, təbii ki, ümumbəşəri mədəniyyətin, əxlaqın tərbiyəsi, daim yeni biliklərə yiyələnmək və özünü təkmilləşdirmək yolu ilə mümkündür. İslam bəşər tarixinin minillik təcrübəsinin və məktəblərin nəticələrinə istinad edərək, insanın və nümunəvi cəmiyyətin tərbiyəsi üçün zəruri olan qayda və istiqamətləri müəyyən edir və insanlara təqdim edir. İslamda uşağın tərbiyəsi baxımından onun inkişafı iki dövrə bölünür:

1) Tədbiri dövr;
2) Tətbiqi dövr [3, s.62].

Tədbiri dövr uşağın ana bətnində qaldığı dövr, doğuşa qədər olan dövrü əhatə edir. İslamda gələcək nəslin tərbiyəsi anadan olanda deyil, kişi və qadının evlənmək qərarı ilə başlayır. Belə ki, evlənəcəklər öz dini inanclarına uyğun olaraq möminlə evlənməli, zinadan çəkinməlidirlər. Körpə ana bətnində olarkən ona qarşı münasibəti hiss edir. Bu dövrdə uşaq - ona zərər verə biləcək şeylərdən - siqaretdən, spirtli içkilərdən çəkinməlidir. Bu mənada uşaq böyütmək ana bətnində başlayan və ömür boyu davam edən uzun və mürəkkəb prosesdir.

Tətbiqi dövr doğumdan ölümə qədər olan müddətdir. Tətbiq dövründə insanın yaşına, gücünə, fərdi, psixoloji xüsusiyyətlərinə, fiziki vəziyyətinə və qabiliyyətinə uyğun olaraq şüuruna, hisslərinə və davranışına təsir göstərir. Bu, ciddi hazırlıq dövrüdür. Tərbiyəvi təsirlər onu dəyişdirir, formalaşdırır və yaxşılığa, gözəlliyə, həqiqətə, yüksək əxlaqa aparır. Bu müddətdə də yerinə yetirilməli olan bir çox vacib və zəruri şərtlər var. Deməli, övlad dünyaya gələndə ilk növbədə ona gözəl ad seçmək lazımdır ki, böyüyüb ləyaqətli işlər görsün və ata-anasının ona qoyduğu addan peşman olmasın. Uşağın qidalanmasına, geyiminə, ünsiyyətinə və davranışına lazımi diqqət yetirilməlidir. Əks halda, mənəvi sərvət əldə etmək çox çətin ola bilər. Uşağın sağlamlığı həmişə diqqət mərkəzində olmalıdır. Tərbiyənin təməli sağlamlıqdan başlayır. Bu baxımdan onların səhhəti nəzərə alınmalıdır. İslam tərbiyəsi hər şeydən əvvəl İslam əxlaqının tərbiyəsi deməkdir. Bu, təkcə islami dəyərlərə, dini şüura və İslam əxlaqına malik insanda təhsillə məhdudlaşmır. Bura dini və dünyəvi elmlərin tədrisi, etik, estetik və əxlaqi tərbiyənin formalaşdırılması, vətənpərvərlik hisslərinin formalaşdırılması daxildir.

Böyük İslam alimi İmam Qəzzalinin fikrincə, insan iki yolla tərbiyə olunar və gözəl əxlaqa malik olar:

1) İnsan doğuşdan gözəl əxlaq qazanır, yəni heç bir təlim və tərbiyə almadan irsi xüsusiyyətlərə malik gözəl əxlaqa yiyələnir;

2) Yaxud daha sonra təhsil alıb işləyə və öz-özünə tərbiyə ilə məşğul ola bilərsiniz[3, s.66].

İslam tərbiyəsi insanın ağlının, ruhunun və bədəninin bərabər inkişafını nəzərdə tutur. İslama görə bədən ruhun axdığı formadır. Ağıl bədəni və ruhu idarə edir. İslamın müqəddəs kitabı "QuraniKərim"də deyildiyi kimi, Allah ağıldan qiymətli heç nə yaratmayıb və insanlara deyir: "Allah ağıldan daha dəyərli bir şey yaratmamış və insanlara - mən sənə ağıl verdim, ağlını işlət". İslam tərbiyəsinin xüsusiyyətlərindən irəli gələn İslam tərbiyəsinin prinsiplərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1) İslamda tərbiyənin ilahi mahiyyəti. Yəni İslamda əxlaq qaydaları Allah tərəfindən bildirilmişdir, insan öz işini və həyat tərzini Allahın tələblərinə uyğun qurmalıdır;

2) İslamda təhsilin insan fitrəti ilə əlaqəsi. İnsanın mahiyyəti doğulduğu zaman onun fitrətində potensial imkan kimi mövcuddur və o, bu insanı ən yüksək mənəvi keyfiyyətlərə, təkamülün ən yüksək dərəcəsinə çatdıra bilir. Əgər insandakı bu potensial düzgün istiqamətə yönəldilsə, onun tərbiyəsi zamanı əsl təkamül baş verəcək. İnsan ilk yaradılışdan kamil insan kimi formalaşana qədər müəyyən inkişaf yolu keçir. Mənəvi element insanın əbədi təbiətidir. Ona görə də İslam tərbiyəsində mənəvi tərbiyə üstün olmalıdır;

3) İslamda tərbiyənin ümumi mahiyyəti. İslam tərbiyəsi milliyyətindən, sosial statusundan, irqindən və cinsindən asılı olmayaraq bütün müsəlmanlara şamil edilir;

4) İslamda tərbiyənin bütün mahiyyəti. İslam insanın həyat tərzini, düşüncə və davranışını bir-birindən ayrı götürmür, onları birləşdirib sıx əlaqədə həyata keçirir;

5) İslamda tərbiyənin üsul və vasitələrinin, məzmun və formalarının vəhdəti. İslam tərbiyəsi insanın əqli, fiziki, əxlaqi və estetik tərbiyəsini özündə cəmləşdirir, insanları kamilliyə, əməksevərliyə, israrla halal-haram axtarışına, böyüklərə hörmətə, kiçiklərə qayğıkeşliyə, təfəkkürə və danışmağa, pis əməllərdən çəkinməyə sövq edir;

6) İslamda tərbiyəyə yanaşma həm fərdi, həm də ictimai məsuliyyətdir. Hər bir insan nəfsinin paklanmasına, özünü tərbiyə etməsinə cavabdehdir. Buna görə də müsəlman Uca Allahın göstərdiyi Quran yolu ilə getməlidir. Təhsili ictimai məsuliyyət kimi qiymətləndirmək o deməkdir ki, hər bir müsəlman öz müsəlman qardaşının təhsil və tərbiyəsinə cavabdehdir, mənim din qardaşımın daim doğru yolda olmasını istəyir [3, s.67].

İslam tərbiyəsinin ən güclü və əsas üsullarından biri Məhəmməd peyğəmbərin (s.ə.s.) nümunəsidir. Peyğəmbərimizin həyatı və fəaliyyəti ən gözəl əxlaq nümunəsi və ən gözəl tərbiyədir: "...Peyğəmbər sizə nə verirsə, onu

götürün, nəyi qadağan edirsə, ondan əl çəkin" [4, s.564]. Quranın bütün ayələri tərbiyəvi xarakter daşıyır. Qurana görə, müsəlmanın məsuliyyət hissi İslam əxlaqının vacib şərtlərindəndir: Allahdan qorxmaq, Onun əmrlərinə hörmət etmək, onlara itaət etmək və qadağan etdiklərindən uzaq olmaqdır. Başqa bir vacib şərt də budur ki, müsəlman başqa varlıqlara qarşı son dərəcə mərhəmətli, ədalətli və şəfqətli olmalı, acizlərə, ehtiyacsızlara kömək etməli, ana və atasına diqqətli və qayğıkeş olmalı, hər zaman onların könlünü almalıdır. Böyük İslam alimi Hacı Sabir Həsənli "İslam mədəniyyətində elm" adlı əsərində elmin İslamda böyük dəyəri və tanınması ilə bağlı geniş araşdırma aparmış və bunları söyləmişdir:"Qurani-Kərimdə və hədislərdə "əl-elm" istilahatında daha çox iman, təqva və salehlik nəzərdə tutulsa da, bu istilah dünyəvi mənaları da qoruyub saxlayır. İslamın bu mənbələri elə bir psixoloji, mənəvi və intellektual ab-hava təlqin edir ki, burada həm dini, həm də dünyəvi elmlərə təhrik vardır" [2, s.51]. Elmin kamilləşməsinin əsas şərti əməlin insanla uyğunluğudur. Fəaliyyətsiz elm və ya elmsiz əməl faydasızdır. Elmin məqsədi faydalı, səmərəli iş görmək, insanların rifahını yüksəltməkdir. Peyğəmbər (s.ə.s.) buyurmuşdur ki, elm əldə edən, onu Allah yolunda axtaran, Allaha ibadət edən, onu öyrədənlərə sədəqə verən, haqlı və başqalarına bildirilən, yaxşı işlər görən kəs hər şeyə nail olacaqdır. Quran bütün gücü ilə biliksizliyə qarşı çıxır və bunun ilkin yolunu oxuyub-yazmaqda öyrənməkdə görür. Elm insanlara gözəl əxlaq və mənəvi dəyərlərin nə olduğunu və onları necə əldə etməli olduğunu göstərir. Bu elm sahəsində insanların maddi və mənəvi həyatını təhlükələrdən qorumaq, hər cür günahlardan, xətalardan və xəstəliklərdən uzaq olmaq olar.

Dahi şair Nizami Gəncəvi də "Qurani-Kərim"də hədisdən bəhrələnərək oğlu Məhəmmədə 7, 14, 21 yaşlarında nəsihətamiz şeirlər yazmışdır:

*Biliyə rağib ol, dünyanı qazan,*
*Sən əsmanı oxu məna alarsan*
*Vaxtı boş keçirmə, qələm al ələ*
*Allahın əmri ilə bilik kəsb elə.*
*Sən ey 14 yaşlım hər elmə yetkin*
*Gözündə əksi var iki aləmin*
*7 yaşar oldun o zaman ki, sən*
*Açıldı gül kimi güləndə çəmən*
*İndi ki, çatmışdır yaşın 14-ə*
*Başın sərv kimi durur göylərdə*
*Qəflətdə oynama qeyrət vaxtıdır*
*İndi hünər vaxtı, şöhrət vaxtıdır.*
*Ucalmaq istəsən bir kamala çat*
*Kamala ehtiram göstərir həyat*
*Böyük şöhrət qazan, göylərə ucal*
*Yaxşı ad qazanmış gözəl dost ara*

*Onda yetişərsən ağ günə, vara*
*Hünər arxasınca qoş, xalqa hünər saç*
*Qapılar bağlama ər ol, qapı aç [5, s.61].*

Elmi pedaqogikada mühüm rol oynayan tərbiyə prinsiplərinin əksəriyyətini İslam tərbiyəsi prinsiplərinə aid etmək olar. Quranda yaş, fərdilik və cinsi nəzərə almaq, sözdə və əməldə birlik gözləmək, ardıcıllığa riayət etmək, hörmət və tələbkarlıq göstərmək, hər bir uşağın gələcəyinə nikbin baxmaq haqqında çoxlu ayələr var. Beləliklə, müqəddəs kitabımız Quran insanları elmə, biliyə, maarifə, tərəqqiyə səsləmiş, "beşikdən qəbrədək" öyrənmyəi təbliğ və təlqin etmişdir.

**Ədəbiyyat:**

1. *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 2005. 520 s.*
2. *Həsənli H. İslam mədəniyyətində elm. Bakı: Elm və həyat, 1998. №5. s.51-55.*
3. *Hüseynzadə R. Azərbaycanda təhsil, tərbiyə və pedaqoji fikir. Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007, 336 s.*
4. *Quran-i Kərim. Bakı, 2004, 914 s.*
5. *Nizami Gəncəvi: biblioqrafiya /tərt. ed.: M.İbrahimova, G.Misirova. Bakı, 2012, 632 s.*

**A.S.Rzayeva**
**Azərbaycan Turizm və Menecment Universiteti**
***aliyeva.a91@bk.ru***

# QLOBALLAŞMA PROSESİNİN MİLLİ DÖVLƏTLƏRİN MƏNAFELƏRİ PROSESİNƏ TƏSİRİ

***Xülasə***

*Qloballaşma sivilizasiyaya da təsir edərək onu dəyişdirir, yeni ideyalar gətirir, köhnə ideyaları həyatdan və yaddaşdan silir. Hər bir dövlət öz ərazisində məskunlaşan insanların əsrlər boyu yaratdıqları qayda-qanunlar və milli-mənəvi dəyərlərlə yaşayır. Bu dövlətin, onun cəmiyyətinin, tarixinin, adət-ənənələri və dininin yaşarlığı həmin insanların baxışlarından, ideyalarından və atdıqları addımlardan asılıdır. Qloballaşma prosesinin özü ilə xeyir və yaxud şər gətirməsi barədə suala birmənalı cavab olmasa da, bir məsələ aydındır ki, əgər dövləti ənənəvi milli dəyərləri modernist dəyərlərlə birləşdirməyə qadir olmayan adamlar idarə edirsə, əgər dövlət öz inkişafının perspektivlərini aydın görə bilmirsə, o zaman qloballaşma o ölkəni uğursuz transformasiya edir.*

# ВЛИЯНИЕ ГЛОБАЛИЗАЦИИ НА ИНТЕРЕСЫ НАЦИОНАЛЬНЫХ ГОСУДАРСТВ

***Резюме***

*Глобализация влияет и на цивилизацию, изменяет ее, приносит новые идеи, стирает из жизни и памяти старые идеи. Каждое государство живет по правилам и национально-нравственным ценностям, созданным веками проживающим на его территории народом. Жизнеспособность этого государства, его общества, истории, традиций и религии зависит от взглядов, идей и шагов, предпринятых этими людьми. Пока нет четкого ответа на вопрос, приносит ли процесс глобализации добро или зло, ясно, что если государством управляют люди, неспособные сочетать традиционные национальные ценности с модернистскими ценностями, то глобализация терпит неудачу.*

# THE IMPACT OF GLOBALIZATION ON THE INTERESTS OF NATION-STATES

***Summary***

*Globalization also affects civilization, changes it, brings new ideas, erases old ideas from life and memory. Each state lives by the rules and national-moral values created by the people living in its territory for centuries. The vitality of this state, its society, history, traditions and religion depends on the views, ideas and steps taken by these people. While there is no clear answer to the question of whether the process of globalization brings good or evil, it is clear that if a state is ruled by people who are*

*unable to combine traditional national values with modernist values, then globalization fails. transforms.*

***Açar sözlər:*** *qloballaşma, mədəniyyət, strategiya, dövlət*
***Ключевые слова:*** *глобализация, культура, стратегия, государство.*
***Key words:*** *globalization, culture, strategy, state*

Qloballaşma proseslərinin dövlətin inkişafına təsiri özünü müxtəlif ölkələrdə müxtəlif dərəcədə göstərir. Çünki milli dövlətlər qloballaşma proseslərini müxtəlif dərəcədə həll ediblər, müxtəlif "çəkiyə" malikdirlər, qlobal bazarlardan müxtəlif dərəcədə "fayda" və ya "zərər" əldə edirlər. Bütün bunlar isə mənafelər arasında ziddiyyətin yaranmasını labüd edir. Çünki xarici satış bazarlarından, xarici maliyyə ehtiyatlarından, texnoloji və idarəçilik təcrübəsindən güclülər daha çox istifadə edə bilirlər. Ona görə də əsas makroiqtisadi göstəricilər arasında fərq bir çox hallarda artmaqda davam edir. (3, s.156)

Ona görə də qloballaşmanın ümumbəşəri əhəmiyyət kəsb edən problemlərindən biri bu prosesin ölkələr arasında inkişaf səviyyəsi baxımından olan kəskin fərqə necə təsir etməsi, qloballaşmanın faydalarının ölkələr arasında necə bölünməsi problemidir.

Müasir mərhələdə heç bir dövlət həmin proseslərdən kənarda qala bilməz. Lakin getdikcə daha çox dərk edilir ki, bəşəriyyətin inkişafı üçün həyati əhəmiyyət kəsb edən qloballaşmanın faydaları qeyri-bərabər bölüşdürülür. Müasir beynəlxaq siyasi-iqtisadi sistemdə azsaylı inkişaf etmiş sənaye ölkələri aparıcı rol oynayır. Texnoloji və informasiya inqilabları iqtisadi inkişafın xarakterini dəyişmişdir. Qabaqcıl sənaye ölkələri və müəyyən dərəcədə orta inkişaf səviyyəsinə malik olan ölkələr üçün rifah səviyyəsinin artırılmasında yeni imkanlar daha çox yaranmışdır. (6, s.116)

Nəticədə bu ölkələr arasında da təbəqələşmə sürətlənir. Onların arasında texnoloji inqilabların və yeni beynəlxalq iqtisadi-maliyyə mühitinin verdiyi üstünlüklərdən səmərəli istifadə edən ölkələr öz inkişaf səviyyələrinə görə sənaye ölkələri ilə aralarında olan fərqi aradan qaldırırlar. Lakin təbii istehsal amillərindən istifadəyə əsaslanan ölkələrdə vəziyyət ağır olaraq qalmaqda davam edir, onların dövlət borcları sürətlə artır, istehsalın strukturunda hasilat sənayesinin payı yüksək səviyyədə qalır. (13, s.103)

Keçid iqtisadiyyatı ölkələrində mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan azad bazar iqtisadiyyatına transformasiya prosesinin tarixdə analoqu yoxdur və qloballaşma dövrünə təsadüf etdiyi üçün olduqca mürəkkəbdir. Bu ölkələrdə gedən proseslər iqtisadi münasibətlərin qloballaşmasının ayrılmaz tərkib hissəsidir. Qloballaşma dövründə isə dünyanın iqtisadi inkişafında ciddi dəyişikliklər baş vermişdir. İnformasiya inqilabı, kapital axınının beynəlmiləlləşməsi iqtisadi inkişaf modelində dərin keyfiyyət dəyişiklikləri yaratmışdır. Ticarətin və maliyyə bazarlarının liberallaşması bu ölkələr qarşısında yeni

perspektivlər açmaqla yanaşı, yeni problemlər də yaradır. Bu ölkələrdə ticarətin liberallaşması və maliyyə vəziyyətinin sabitləşdirilməsi qapalı olan iqtisadiyyatın açıq iqtisadiyyatla əvəz olunması prosesi ilə paralel gedir. Bunun nəticəsində həmin ölkələr beynəlxalq əmək bölgüsünə daha çox cəlb edilir və onlarda xarici ticarət dövriyyəsi sənaye istehsalına nisbətən çox sürətlə artır.

Qloballaşma prosesləri dərinləşdikcə inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasındakı münasibətlər "Vaşinqton konsensusu" adlanan sənəddə cəmləşmiş tövsiyələr (BVF, Dünya Bankı və digər beynəlxalq təşkilatların) əsasında formalaşmağa başlamışdır. Həmin sənəddə adı çəkilən ölkələrə tövsiyə edilir ki, onlar bank, xarici ticarət, xarici investisiyalar haqqında qanunvericiliyi daha da liberallaşdırsınlar, vergiləri və büdcə xərclərini ixtisar etsinlər, genişmiqyaslı özəlləşdirmə tədbirlərini həyata keçirsinlər, inflyasiyanın qarşısını qətiyyətlə alsınlar və maliyyə vəziyyətlərini sabitləşdirsinlər, xarici borcları restruksizasiya etsinlər. Bu tövsiyələr C.Stinqlisin göstərdiyi kimi, standart xarakter daşıyır və heç də istənilən müsbət nəticəni vermir: "BVF-nin bazarların özü-özlüyündə kənar müdaxilə olmadan səmərəli fəaliyyət göstərməsi kimi köhnəlmiş fikirlərə əsaslanan siyasi kursu bazar iqtisadiyyatının düzgün istiqamətləndirilməsinə və əhalinin maddi rifah halının yüksəldilməsinə səbəb ola biləcək arzu olunan dövlət müdaxiləsinə imkan yarada bilməmişdir." (3, s.217)

Beləliklə, qloballaşma istər dünya miqyasında, istərsə də ölkə daxilində keyfiyyətcə yeni iqtisadi və maliyyə mühitinin formalaşmasına yol açmışdır. Mütəxəssislərin əksəriyyəti hesab edir ki, beynəlxalq iqtisadi münasibətlərin liberallaşması eyni tipli qanunlarla idarə olunan, vahid və yaxud yüksəkdönərli ödəmə vasitələrindən istifadə edilən vahid və yekcins qlobal bazar məkanının yaranmasını sürətləndirir. İqtisadiyyatın dövlət tənzimlənməsi nəticəsində ölkələrarası mövcud maneələr getdikcə aradan qaldırılacaqdır. Bu isə rəqabətin qlobal xarakter almasını təmin edəcək, dünya ehtiyatlarından daha səmərəli istifadə edilməsinə səbəb olacaqdır. (5, s.106 )

Qloballaşma proseslərinin həm ölkələr, həm də fəaliyyət sahələri baxımından qeyri-bərabər nəticələri təsirli milli dövlət modelinin formalaşdırılmasını və inkişaf etdirilməsini tələb edir. Bu baxımdan dövlətin 3 mühüm funksiyasının təkmilləşdirilməsi vacibdir:

1. Dövlətin texnoloji infrastruktur və insan kapitalının formalaşdırılması sahəsindəki strateji funksiyası. Qloballaşma prosesində ölkələrin texnologiya və insan kapitalı sahəsində infrastrukturunun yenilənməsi və inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

2. Dövlətin bazarları və rəqabət tənzimləyici funksiyası – dövlətin bazarları, xüsusən bank sistemini və maliyyə strukturunu tənzimləyən funksiyasının əhəmiyyəti son dərəcə artmışdır. Son dövrlərdə maliyyə sahəsində özünü göstərən dərin dünya böhranları (1998-2008) onu göstərdi ki, maliyyə sektorunda

dövlətin tənzimləyici rolu zəif olan ölkələr həmin böhranlardan daha çox itki ilə çıxırlar.

3. Dövlətin bölgü sahəsindəki funksiyaları – qloballaşma prosesinin qeyri-bərabər gedişi istər ölkələr arasında, istərsə də ölkə daxilində gəlir bölgüsünün tənzimlənməsini tələb edir. (1, s.147)

**Ədəbiyyat:**

1. *A.M.Şükürov.“Qloballaşmış cəmiyyətlər: dünən, bu gün və sabah”, Bakı, 2006, s.359.*
2. *A.N.Abbasbəyli. “Müasir beynəlxalq münasibətlər və Qloballaşma” Bakı, 2007 s.256.*
3. *Əli Həsənov. Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005 s.459.*
4. *Əliyev İham. Azərbaycanda demokratiyanın inkişaf yolu dönməzdir. Dirçəliş-XXI əsr, Bakı 2003 s.489.*
5. *Elşən Nəsibov. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası. Bakı, 2006 s.458.*
6. *Qloballaşma və xarici invastisiyalar N.Sabiroğlu “Qloballaşan Azərbaycan” Sivil İnkişaf Mərkəzinin Kitabxanası , Bakı, 2006, s.247*
7. *Vəliyev D.Ə. İqtisadiyyat sahəsində qloballaşmanın milli sərhədlər daxilində idarə olunması problemləri. İqtisadi İslahatlar Mərkəzi: «Qloballaşma və regional iqtisadi inkişaf» mövzusunda keçirilən beynəlxalq konfransın məqalələr toplusu. Bakı:Nurlan, 2004. səh. 122-125*

**L.N.Miralayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***miralayeva99@bk.ru***

# TOLERANTLIQ – DİNİ DÖZÜMLÜLÜK MƏDƏNİYYƏTİNİN FORMALAŞMASI

***Xülasə***

*Mədəniyyət kontekstində dini tolerantlığın formalaşması probleminin tədqiqinin aktuallığı və cəlb edilməsi təkcə tarixi keçmişdə xalqların mədəniyyətində, həyatında dinin yeri və rolunu müəyyən etmək üçün deyil, həm də tarixi keçmişdə dinin rolunu müəyyən etmək üçün vacibdir. Dini tolerantlıq ideyasının formalaşması konkret tarixi sosial-mədəni, o cümlədən dini səbəblərlə bağlıdır. Tolerantlıq ideyasının formalaşmasında qədim fəlsəfi fikir mühüm rol oynamışdır. Məqalədə ilkin şərtlərdən biri kimi dini tolerantlıq ideyasının formalaşmasına qədim və müasir düşüncənin təsiri açıqlanır.*

# ТОЛЕРАНТНОСТЬ - ФОРМИРОВАНИЕ КУЛЬТУРЫ РЕЛИГИОЗНОЙ ВЫНОСЛИВОСТИ

***Резюме***

*Актуальность и вовлеченность исследования проблемы формирования религиозной толерантности в контексте культуры важны не только для определения места и роли религии в культуре и жизни народов в историческом прошлом, но и для определения роли религии в историческом прошлом. Формирование идеи религиозной толерантности связано с конкретными историческими, социокультурными, а также религиозными причинами. Античная философская мысль сыграла важную роль в формировании идеи толерантности. В статье объясняется влияние античной и современной мысли на формирование идеи религиозной толерантности как одной из предпосылок.*

# TOLERANCE - FORMATION OF A CULTURE OF RELIGIOUS ENDURANCE

***Summary***

*The relevance and involvement of the study of the problem of formation of religious tolerance in the context of culture is important not only to determine the place and role of religion in the culture and life of peoples in the historical past, but also to determine the role of religion in the historical past. The formation of the idea of religious tolerance is associated with specific historical, socio-cultural, as well as religious reasons. Ancient philosophical thought played an important role in the formation of the idea of tolerance. The article explains the influence of ancient and*

*modern thought on the formation of the idea of religious tolerance as one of the preconditions.*

***Açar sözlər:*** *dini tolerantlıq, dözümlülük, mədəniyyət, mədəniyyətlərarası ünsiyyət, dini ünsiyyət.*

***Ключевые слова:*** *религиозная толерантность, толерантность, культура, межкультурное общение, религиозное общение.*

***Key words:*** *religious tolerance, tolerance, culture, intercultural communication, religious communication.*

Bu gün mədəniyyətlərarası ünsiyyət, millətlərarası münasibətlər kontekstində dini tolerantlıq modelinin formalaşdırılması başlıca nəzəri və praktiki problemlərdən biridir. Bu baxımdan, bu məsələnin tədqiqi, ilk növbədə, onun həyata keçirilməsinin sosial-mədəni əsaslarını təhlilə cəlb etməyi tələb edir. Mədəniyyət kontekstində, həmçinin pedaqoji aspektdə dini tolerantlıq və dözümlülüyün formalaşmasının tədqiqinə həsr olunmuş ayrı-ayrı məqalələr istisna olunmaqla,xüsusi əsərlər olmadığından problem bu gün daha aktual görünür. Ona görə də tolerantlığın mahiyyətini aydınlaşdırmaq baxımından bu məqalədə məsələni sosial-mədəni əsaslar kontekstində araşdırmağı məqsədəuyğun hesab etdik.

Dini tolerantlıq ideyasının formalaşması konkret tarixi sosial-mədəni və dini səbəblərlə bağlıdır. Antik dövrün fəlsəfi fikri tolerantlıq ideyasının formalaşmasında mühüm rol oynamışdır. Qədim filosoflar həll olunmayan konfliktli situasiyalardan çıxış yollarını sübut etməyin, şəxsiyyətlərarası və sosial münasibətlərdə gərginliyi aradan qaldırmağın məntiqi cəhətdən əsaslandırılmış yollarını tapmağa çalışırdılar. Antik dövrdə tolerantlıq ideyası ilə uzlaşan mülahizələrə Homerin "Odissey" əsərində rast gəlinən "haqsızlığı yaşamaq onu törətməkdən yaxşıdır" ifadəsini aid etmək olar [7, s.188]. Antik dövrün filosofları hesab edirdilər ki, tolerantlıq çətin vəziyyətlərdə təmkinini saxlamaq bacarığıdır. Platonun təlimlərində bu fikir mötədillik ideyası ilə əlaqələndirilmiş, insanların mənəvi və sosial birləşməsi üçün ilkin şərt kimi müəyyən edilmişdir, tolerantlıq elementləri sofistlər və stoiklər arasında təbii hüquq doktrinasında qeyd oluna bilər [11, s.29]. Aristotel fəlsəfəsində tolerantlıq əsas fəzilət kimi, etik fəzilətlərdə ifratları - artıqlıq və çatışmazlıqları tarazlaşdırmaq kimi görünür. Onların arasında tolerantlığa ən mənalı yaxınlıq kimi həlimlik, mülayimlik, alicənablıq, bərabərlik, dostluq nə nəzərdə tutulur [5, s.186]. Qədim mütəfəkkirlərin başqa insana, başqa bir şəhərin nümayəndəsinə, mədəniyyətə və inanca qarşı dözümlülük ideyasını dərk etmələri müxtəlif xalqlar arasında dialoqun qurulması ilə bağlı problemləri həll etməyə imkan verdi. Qədim mədəniyyətdə formalaşmış dini dözümlülük haqqında bir çox fikirlər orta əsrlərdə dini tolerantlıq ideyasının bərqərar olmasına təsir göstərmişdir.

Orta əsrlərdə işlədilən "tolerantlıq" termini "əzab", "səbr" mənasını verirdi. Latın dilində "tolerantlıq" termini "dözmək", "dayanmaq" deməkdir. Dini

tolerantlığın bərqərar olmasının ilk ictimai-tarixi mərhələsi imperator Konstantinin xristian kilsəsinə legitimlik verən və Roma imperiyası ərazisində xristianların təqib edilməsini qadağan edən qanunvericilik aktı hesab edilməlidir [6, s.12]. Belə aktın yaradılması, ilk növbədə, cəmiyyət daxilində, müxtəlif sosial qruplar, etnik cəhətdən fərqli cəmiyyətlər arasında sosial tolerantlığın formalaşmasına, imperiya daxilində sabitliyin möhkəmləndirilməsinə yönəlmişdi. U.Ekonun qeyd etdiyi kimi, böyük çaşqınlıq dövründə əhalinin daha yaxşı həyat axtarışında şəhər yerlərinə miqrasiyası, ideoloji, mənəvi xaos şəraitində yeni şəhərlərin formalaşması və böyüməsi, inancların, xalqların, dillərin müxtəlifliyi, ən çox tələb olunan belə bir mədəni reallığın axtarışı idi ki, onun köməyi ilə yeni mədəni dünya, keçmişin nümunələrini qoruyub saxlamağın yeni üsulu, yeni forma yaratmaq mümkün idi [9, s.141].

Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi bu ərazidə müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Müxtəlif dövrlərdə ölkədə bütpərəstlik, zərdüştilik, yəhudilik, xristianlıq, islam və bir çox başqa dini cərəyanlar yayılaraq bir-birinə qarşılıqlı təsir göstərmişlər. Azərbaycan Respublikasında müxtəlif dini konfessiyalar mövcuddur, lakin onların arasında əsas yeri İslam dini tutur. VII əsrin əvvəllərində Ərəbistan yarımadasında yaranan İslam dini tezliklə dünyanın əksər ölkələrində, o cümlədən Azərbaycanda yayıldı. Azərbaycan əhalisinin 95 faizindən çoxu müsəlmandır. Azərbaycanda xristianlığın tarixi praktiki olaraq Alban kilsəsinin yaranması ilə başlayır. Ümumiyyətlə, bu kilsə xristian dininin tarixində xüsusi yer tutur. Qafqaz Albaniyasının ərazisi ilk xristian icmalarının doğulduğu yerlərdən biri hesab olunur. Alban-udi xristian dini icmasının qeydiyyata alınması öz mahiyyətinə, məzmununa, dini və siyasi əhəmiyyətinə görə əlamətdar hadisədir. Azərbaycanda xristianlıq pravoslavlıq, katoliklik və protestantlıq, eləcə də müxtəlif məzhəb icmaları ilə təmsil olunur. XIX əsrin əvvəllərindən Çar Rusiyasının bu bölgədə apardığı "köçürmə siyasəti" nəticəsində Azərbaycanda pravoslavlıq yayılmağa başladı. Bakıda ilk Roma-katolik kilsəsi 1850-ci illərdə Çar Rusiyası tərəfindən hərbi katoliklərin Qafqaza sürgün edilməsi ilə əlaqədar yaranmışdır. Azərbaycanda geniş yayılmış ilk protestant təriqəti lüteranlıq olmuşdur. Ölkəmizdə lüteranlığın yaranması XIX əsrin birinci yarısında almanların və polyakların Cənubi Qafqaza köçürülməsi ilə bağlıdır [3, s.6].

Azərbaycan ilk insan məskənlərindən biri olmaqla, həm də tolerantlıq mədəniyyətinin formalaşdığı ərazi və tolerantlıq beşiyidir. Bu fakt deməyə əsas verir ki, Azərbaycanda minilliklər boyu formalaşmış tolerantlıq ənənələri zaman keçdikcə yeni xüsusiyyətlər qazanaraq bu coğrafi məkanda yaşayan insanların əsas keyfiyyətinə çevrilib. Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, dövlət səviyyəsində konfessiyalar arasında tolerantlıq mühitinin qorunub saxlanması Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. O, ikinci dəfə hakimiyyətə gəldikdən sonra dövlət-din

münasibətləri konsepsiyasına uyğun olaraq ölkədə tolerantlıq mühitinin daha da möhkəmləndirilməsini təmin etdi. Ümummilli liderimiz milli-mənəvi dəyərlərin qorunub saxlanılması, mədəniyyətlərarası dialoqun, millətlərarası münasibətlərin möhkəmlənməsi sahəsində misilsiz xidmətlər göstərmişdir. Müxtəlif dinlərin, mədəniyyətlərin qovuşduğu məkana, tolerantlığın ünvanına çevrilmiş Azərbaycanda bu gün də həmin funksiyalar uğurla yerinə yetirlir. Son illərdə prezident İ.Əliyevin rəhbərliyilə Azərbaycanda islam dini ilə yanaşı digər dinlərə də hörmət və ehtiram göstərilməsi sahəsində önəmli tədbirlər həyata keçirilir. 2019-cu ildə Bakıda keçirilən Humanitar Forum paytaxtımızın müxtəlif mədəniyyətlərin, qədimliyin və müasirliyin qovuşduğu bir şəhər olduğunu sübut etdi. Azərbaycan xalqı tarix boyu öz qonaqpərvərliyi, sülhsevərliyi, tolerantlığı ilə şöhrət tapıb. Bu torpaqlarda insan amili, humanizm, dostluq münasibətləri ən böyük dəyər hesab edilir. Bu baxımdan H.Əliyev fondunun, Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın xidmətləri əvəzsizdir. Belə ki, beynəlxalq səviyyədə çoxsaylı layihələr həyata keçirən fond Azərbaycan multikulturalizmini bütün dünyaya nümayiş etdirir. Müxtəlif dinlərə məxsus abidələrin, müqəddəs məkanların bərpası, konfrans və sərgilərin təşkili bu qəbildən olan tədbirlərdir.

Hazırda Azərbaycan əhalisinin tərkibi istər etnik, istərsə də dini və konfessiya baxımından zənginliyi ilə seçilir. Amma xoşbəxtlikdən, müxtəlif dinlərin, dini-fəlsəfi cərəyanların geniş yayıldığı Azərbaycanda bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm tolerantlıq əlaqələri formalaşmış, milli, irqi və dini zəmində ayrı-seçkilik faktı belə olmamışdır. Tarixin müxtəlif dövrlərində Azərbaycan ərazisində məskunlaşan dini və etnik qruplar burada nəinki özlərini yad hesab etməmiş, hətta yerli əhali ilə sıx birləşmiş, onlarla qohumluq əlaqələri yaratmışlar. Müxtəlif dini konfessiyaların nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirmiş, vahid Vətənimizin azadlığı və rifahı uğrunda mübarizə aparmışlar.

Bu gün Azərbaycan gəncliyi də bu ruhda formalaşır. İrqindən, dinindən, millətindən asılı olmayaraq bütün insanlara humanist münasibət bəsləmək, mültikultural mədəniyyət gənclərə təhsil illərindən aşılanır. Dərsliklərimizdə müxtəlif səmavi dinlər, onların müqəddəs şəxsiyyətləri haqqında ehtiramla bəhs edilir. Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə aparmış, bu yolda canlarından keçmiş Azərbaycan oğul və qızlarının, o cümlədən müxtəlif dini konfessiyaya mənsub vətəndaşlarımızın əbədi məkanı - Şəhidlər xiyabanı bu gün nəinki and yeri kimi, həm də qardaşlığımızın və tolerantlığımızın simvolu kimi əbədi ziyarət məkanına çevrilib. Müxtəlif etnik qruplara, dinlərə mənsub olan Azərbaycan vətəndaşları yaşadıqları torpağa məhəbbətini istər birinci Qarabağ müharibəsində, istərsə də 44 günlük Vətən müharibəsində öz qəhrəmanlıqları ilə nümayiş etdirdi. Qarabağın işğaldan azad edilməsi uğrunda Azərbaycanda yaşayan bütün etnik qrupların nümayəndələri eyni sevgi

ilə vuruşdular, şəhidlik zirvəsinə ucaldılar. Vətənimizdə belə mükəmməl tolerantlıq mühitinin yaradılması ondan xəbər verir ki, dini tolerantlıq Azərbaycan xalqının ən gözəl keyfiyyəti, milli-mənəvi sərvətidir.

Ulu öndər Heydər Əliyev İslam dininin və Azərbaycan xalqının bu xarakterik keyfiyyətlərini mükəmməl şəkildə ifadə etmişdir: "Mən hesab edirəm ki, Azərbaycan xalqı öz təbiətinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan əhalisinin əksəriyyətinin etiqad etdiyi müsəlman dininin kökündə tolerantlıq dayanır" [4, s.10].

Ölkədə xalqımıza xas olan tolerantlığın daha da inkişafı üçün möhkəm hüquqi baza yaradılmışdır. Vətəndaşlarımızın vicdan azadlığı hüququ birbaşa Konstitusiyada təsbit olunub, "Dini etiqad azadlığı haqqında" qanunda daha geniş əksini tapıb. Konstitusiyanın 48-ci maddəsinə əsasən, hər bir vətəndaşın vicdan azadlığı, dinə münasibətini sərbəst müəyyənləşdirmək, dinə münasibəti ilə bağlı əqidəsini sərbəst ifadə etmək və yaymaq, dini ayinləri sərbəst icra etmək hüququ vardır. Ölkədə tolerantlığın və dini dözümlülüyün gücləndirilməsi, insan hüquq və azadlıqları, o cümlədən vicdan və dini etiqad azadlığı ilə bağlı qanunvericilik beynəlxalq hüquq normalarına uyğunlaşdırılıb. Hər il noyabrın 16-da Azərbaycanda 1995-ci ildə YUNESKO-nun 50 illik yubileyi münasibətilə təsis edilmiş Beynəlxalq Tolerantlıq Günü qeyd olunur. Bu gün təkcə kilsə və sinaqoqlar deyil, həm də çoxsaylı xristian və yəhudi dini təhsil müəssisələri sərbəst fəaliyyət göstərir. Azərbaycan xalqı təkcə Şərqdə deyil, bütün dünyada bu gün də müxtəlif dinlərə, dini-fəlsəfi cərəyanlara qarşı özünəməxsus tolerant münasibəti ilə seçilir [2, s.13]. Azərbaycanda tarixən inkişaf etmiş mütərəqqi ənənələrə uyğun olaraq, müxtəlif dini konfessiyalar tərəfindən ibadət evlərinin tikintisi və bərpası müxtəlif dini icmaların nümayəndələrinin maddi və mənəvi dəstəyi ilə həyata keçirilir, bu məqsədlər üçün ianələr toplanır. Tolerantlıq Azərbaycan xalqının özünəməxsus keyfiyyətidir. Bu gün demək olar ki, bütün dünyada bu həqiqət məmnunluqla qəbul edilir. Azərbaycan hökumətinin dinlə bağlı siyasətinin prioritet istiqamətlərindən biri məhz tolerantlıqla bağlıdır. Belə ki, Azərbaycan dövlətinin din siyasətinin əsas məqsədi xalqımıza xas olan minilliklər boyu formalaşmış tolerantlıq ənənələrini qoruyub saxlamaq, inkişaf etdirmək, stimullaşdırmaq və yerli və beynəlxalq səviyyədə təbliğ etməkdir. Azərbaycan dövlətinin tolerantlıq prinsiplərinə münasibəti həm müxtəlif dinlərin nümayəndələrinə münasibətdə, dini-tarixi abidələrin bərpasında, bu məsələlərlə bağlı beynəlxalq konfransların təşkilində, həm də milli qanunvericiliyin mahiyyətində özünü aydın şəkildə büruzə verir [1, 10]. Bu gün Qərbdə tolerantlıq ənənələrinin təbliğini və yayılmasını əhəmiyyətsiz hesab edənlər var. Amma tolerantlıq hüquqi dövlətin deyil, mədəni və mənəvi cəhətdən inkişaf etmiş cəmiyyətin məhsuludur. Bugünkü Azərbaycanı və azərbaycanlıları fərqləndirən cəhət məhz budur.

**Ədəbiyyat:**

*1.Cəfərov V. Dini tolerantlıq nümunəsi // Ekspress, 2016. 14 iyul. S.10.*

*2.Əliyev E. Dini tolerantlıq qloballaşan dünyada stabilliyin əsas şərtlərindəndir // Zaman, 2015. 30 yanvar. S.13.*

*3.Həsənov İ. Azərbaycanın dini tolerantlıq mühiti dünyaya nümunə kimi // 525-ci qəzet, 2015. 1 iyul. S.6.*

*4.Zaman E. Azərbaycan dünyaya dini tolerantlıq nümunəsi göstərir: Ölkəmiz müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu bir məkandır // İki sahil, 2011. 1 iyul. S. 10.*

*5.Аристотель. Большая этика Текст // Собр. соч.: В 4 т. М., Мысль, 2003. Т. 4. С. 104-375.*

*6.Алексеев Д.В. Плюрализм и толерантность как социально-деструктивный феномен. Автореферат на соискание уч. ст. канд. филос. наук. Екатеринбург, 2014. 35 с.*

*7.Гомер. Одиссея / пер. Жуковской. М.: Азбука, 2014. 416 с.*

*8.Нидерман Кэри Дж. Толерантность в новом ключе: историческая и глобальная перспективы // Сборник методических материалов «Толерантность в современной цивилизации». Екатеринбург, 2007. С. 26-34.*

*9.Саид Э. Ориентализм. Западные концепции Востока. Изд. 2-е, испр. и доп. СПб.: Русский Мир, 2016. 672 с.*

*10. Хилленбранд К. Крестовые походы. Взгляд с Востока. Мусульманская перспектива. М.: Диля, 2006. 672 с.*

11. *Хомяков М.Б. Толерантность и ее границы // Национальный психологический журнал. 2011. №2 (6). С. 25- 33.*

**E.E.Xudaverdiyev**
**Azərbaycan Turizm və Menecment Universiteti**
***elvinxudaverdiyev87@gmail.com***

# QAFQAZDA MULTİKULTURALİZM: AZƏRBAYCAN MODELİ

***Xülasə***

*XX əsrin sonlarında məlum siyasi hadisələr postsovet məkanında o cümlədən, Cənubi Qafqaz respublikalarında multikulturalizmin yeni modellərinin formalaşmasına gətirib çıxardı. Lakin bir sıra hərbi-siyasi və iqtisadi xarakterli hadisələr Gürcüstanda millətlərarası münasibətlərin mövcud tarazlığını deformasiyaya uğratdı. Azərbaycanlıların, etnik azlıqların Ermənistandan kütləvi deportasiyası bu respublikanı faktiki, olaraq monoetnik dövlətə çevirdi. Öz növbəsində, Azərbaycan Respublikası ölkənin dağılma tendensiyasının qarşısını almağa, müxtəlif mədəniyyətləri və dinləri birləşdirən dövlət olaraq qalmağa nail oldu.*

# МУЛЬТИКУЛЬТУРАЛИЗМ НА КАВКАЗЕ: АЗЕРБАЙДЖАНСКАЯ МОДЕЛЬ

***Резюме***

*Известные политические события конца XX века привели к формированию новых моделей мультикультурализма на постсоветском пространстве, в том числе в республиках Южного Кавказа. Однако ряд военно-политических и экономических событий нарушил сложившийся баланс международных отношений в Грузии. Массовая депортация азербайджанцев и национальных меньшинств из Армении превратила эту республику де-факто в моноэтническое государство. В свою очередь, Азербайджанской Республике удалось предотвратить распад страны и остаться государством, объединяющим различные культуры и религии.*

# MULTICULTURALISM IN THE CAUCASUS: THE AZERBAIJANI MODEL

***Summary***

*Known political events in the late twentieth century led to the formation of new models of multiculturalism in the post-Soviet space, including the republics of the South Caucasus. However, a number of military-political and economic events have distorted the existing balance of international relations in Georgia. The mass deportation of Azerbaijanis and ethnic minorities from Armenia turned this republic into a de facto, mono-ethnic state. In turn, the Republic of Azerbaijan managed to*

*prevent the country's disintegration and remain a state uniting different cultures and religions.*

***Açar sözlər:*** *Qafaz, multikulturalizm, mədəniyyət, strategiya*
***Ключевые слова****: Кавказ, мультикультурализм, культура, стратегия.*
***Key words:*** *Caucasus, multiculturalism, culture, strategy*

Multikulturalizm nədir? Bu ilk növbədə, bir ölkədə mədəniyyətlərin qarşılıqlı təsirində müəyyən “keyfiyyət”ə nail olunmasına yönəlmiş demokratik dövlət strategiyasıdır. Multikulturalizm hamı tərəfindən tanınan, müxtəlif mədəniyyətlərə tolerant münasibətə əsaslanan dinc, yanaşı yaşama prinsipidir. Azərbaycan üçün fərqli baxışlara, adətlərə, vərdişlərə dözümlülük mövqeyi bəsləmək əlbəttə ki, təbiidir. Müxtəlif xalqların, millətlərin, dinlərin xüsusiyyətlərinə tolerant münasibət azərbaycanlıların mentalitetinə xasdır.

Azərbaycan Respublikası polietnik dövlətdir. Xalq dövləti təşkil edən etnosdan – Azərbaycan türklərindən və avtoxton milli azlıqlardan – udinlərdən, ingiloylardan, qrızlardan, xınalıqlardan, buduqlardan, tatlardan, talışlardan, ləzgilərdən və b. təşkil olunmuşdur. Bu millətlərin tarixən Azərbaycandan başqa vətənləri olmamışdır və buna görə də Azərbaycan türkləri ilə birlikdə vahid polietnik Azərbaycan millətinin nümayəndələri hesab olunmaqda haqlıdırlar. Onlardan başqa respublikada ruslar, ukraynalılar, belaruslar, kürdlər, yəhudilər, yunanlar, almanlar və tatarlar yaşayırlar. Bu milli azlıqların hər birinin muvafiq olaraq tarixi vətəni vardır və Azərbaycan ərazisində yaşayan alloxton milli azlıqlara aid edilirlər. Təkcə Bakıda iyirmidən yuxarı müxtəlif mədəni icmalar fəaliyyət göstərir. Bunların arasında: rusların, ukrainlərin, kürdlərin, lakların, ləzgilərin, slavyanların, tatların, tatarların, gürcülərin, ingilayların, talışların, avarların, axıska türklərinin, Avropa və dağ yəhudilərinin, gürcü yəhudilərinin, alman və yunanların cəmiyyətləri vardır. Ümumiyyətlə, etnik azlıqların kompakt şəkildə yaşadıqları bütün rayonlarda belə icmalar mövcuddur.(2)

Azərbaycan Respublikasında kompakt şəkildə müxtəlif etnosların nümayəndələri yaşayır və onların hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini, etnik özünüdərketmə və etnopsixologiyasını qoruyub saxlayan unikal xüsusiyyətlərin daşıyıcılarıdır (4, s.5). Məhz Azərbaycanda dağ yəhudilərinin məskəni – Qırmızı Sloboda, Molokan kəndi İvanovka, udin kəndi Nic, öz dili, özünəməxsus adət və ənənələri ilə məşhur olan Xınalıq kəndi və başqa milli azlıqların yaşadığı onlarla belə məskənlər mövcuddur və onların hamısı Azərbaycan ictimaiyyətinin ayrılmaz hissəsidir.Etnik azlıqlara yerli əhali ilə bərabər mədəni hüquqlar və ölkənin mədəni irsindən istifadə hüququ verilmişdir.

Etnik azlıqların kompakt yaşadığı yerlərdə ümumtəhsil məktəblərinin ibtidai siniflərində doğma dil tədris olunur: müvafiq dillərdə tədris proqramları

və dərs vəsaitləri, folklor və şeir məcmuələri, bədii ədəbiyyat nəşr olunur; qəzet və jurnallar çıxır, dövlət milli teatrları və bədii özfəaliyyət kollektivləri fəaliyyət göstərir.

Azərbaycanda mövcud olan mədəni simbioz (müştərək yaşama) və müxtəlif ənənələr maddi və mənəvi mədəniyyətin tarixi abidələrində həkk olunmuşdur. Belə ki, maddi mədəniyyət abidələrinin qorunması çərçivəsində Astara, Qax, Quba, Zaqatala və digər rayonların tarix-ölkəşünaslıq muzeylərində, həmin ərazilərdə yaşayan etnik azlıqların irsini və ənənələrini əks etdirən ekspozisiyalar təşkil olunur. Bu sahədə kitabxanalar da səmərəli fəaliyyət göstərir; burada milli azlıq nümayəndələrinin kitablarının təqdimatı keçirilir və bu kitablar kitabxananın fonduna daxil olur.

Ölkə daxilində, eləcə də beynəlxalq arenada mədəniyyətlərarası ünsiyyətin tarazlı şəkildə qurulmasında, üç dini dövrdən – zərdüştlük, xristianlıq və islamdan keçən və öz şüuruna bunları həkk etdirən Azərbaycan xalqının tarixi yaddaşı vacib rol oynayır. Azərbaycanda dinlərarası dialoq və tolerantlığın dünyanın bir çox polietnik regionları üçün nümunə olan xüsusi modeli qurulmuşdur. Dövlət-din münasibətlərinin müasir Azərbaycan modeli çərçivəsində, bütün dinlər qanun qarşısında bərabər status almışlar. Ölkə vətəndaşlarının böyük əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarını təmin etməklə yanaşı, dövlət respublika ərazisində yayılan bütün ənənəvi dinlərə qayğı göstərir.

Öz tarixi ənənələrinə söykənən Azərbaycanda vətəndaşların mədəni, o cümlədən dini tələbatlarının təmin edilməsinə aşağıdakılar nümunədir: sovet ateizmində boşluq dövründən sonra Bakıda “Müqəddəs qadınlar ” kilsəsi açıldı. Qeyd edək ki, bu kilsə XX əsrin əvvəllərində məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin fəal dəstəyi ilə tikilmiş, XXI əsrin əvvəllərində isə digər azərbaycanlı xeyriyyəçinin səyləri nəticəsində yenidən bərpa olunmuşdur; (3)

– pontifik II İohann Pavelin Azərbaycana səfəri zamanı tikintisinə xeyir-dua verdiyi yeni katolik kostyolu (polyak kilsəsi) açılmışdır. Bu kilsə 1930-cu illərdə dağıdılmış əvvəlki məbədin ənənələrini davam etdirəcək;

– Bakıda, hətta sovet dövründə belə dağıdılmaqdan xilas olan sinaqoq yenidən bərpa edilmiş və genişləndirilmişdir.

Respublikada millətlərarası münasibətlərdən danışarkən aşağıdakıları qeyd etmək istərdim.

Etnik dinindən və mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların bərabərliyini təmin edən milli siyasətin əsas müddəaları Azərbaycan konstitusiyasında göstərilmişdir. Azərbaycan Respublikasının milli siyasət konsepsiyası həmçinin aşağıdakı beynəlxalq sənədlərə əsaslanır: BMT-nin “İnsan haqları ümumi deklarasiyası”, Avropa Şurasının “Əsas azadlıqların və hüquqların qorunmasına dair konvensiyası”, BMT-nin “İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktı”, “Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə İc-

lasın Yekun Aktı", "ATƏT-in insan meyarları üzrə Konfransının Kopenhagen sənədi", Avropa Şurasının "Milli azlıqların müdafiəsi üzrə Çərçivə Kon-vensiyası", Müstəqil Dövlətlər Birliyinin üzvləri tərəfindən qəbul edilmiş "Milli azlıqlara mənsub olan şəxslərin hüquqlarının təmin edilməsi üzrə konvensiya". Həmçinin Azərbaycan Respublikasının milli siyasətinə həsr olunmuş dövlət sənədi – "Azərbaycan Respublikasında yaşayan milli azlıqların, azsaylı xalqların və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dilinin və mədəniyyətinin inkişafına dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı qəbul edilmişdir. Başqa sözlə, milli azlıqların qorunması Azərbaycan rəhbərliyinin apardığı siyasətin əsas istiqamətlərindən biridir. Belə ki, Prezident aparatında milli siyasət üzrə dövlət məsləhətçisinin başçılıq etdiyi xüsusi struktur yaradılmışdır. Analoji struktur Milli Məclisdə də mövcuddur. Konstitusiya və qanunların verdiyi bərabər hüquqlar və imkanlardan istifadə edərək, müxtəlif millətlərin nümayəndələri cəmiyyətin ayrı-ayrı sahələrində məhsuldar işləyərək ölkənin inkişafına layiqli töhvələr verirlər. Belə ki, milli azlıqlar Azərbaycan Respublikasının hökumətində və digər dövlət strukturlarında təmsil olunmuşlar. Respublikanın milli parlamenti – Milli Məclisdə ölkənin bir sıra etnik azlıqları o cümlədən, rus, ləzgi, tat, talış və b. öz nümayəndələri ilə təmsil olunmuşdur. 2010-cu il parlament seçkiləri zamanı ATƏT-in demokratik institutlar və insan haqları üzrə bürosu və müşahidə komissiyası göstərdi ki, Azərbaycanda, dövlət ərazisində yaşayan etnik azlıqların seçkilərdə iştirakı məsələsində heç bir problem yoxdur.(2)

Beləliklə, respublikada müxtəlif etnik qrupların mövcudluğu üçün bütün mümkün şərait yaradılmışdır. Lakin burada, bir daha qeyd etmək lazımdır ki, bizim ölkəmizdə mədəni müxtəliflik etnik azıqların sadəcə cəmlənməsi kimi başa düşülmür, Azərbaycan ümummilli həmrəyliyin inkişafı üçün əlverişli mühitdir. Başqa sözlə, etnik, dini və digər mənsubiyyətindən asılı olmayaraq ərazisində məskunlaşan hər bir vətəndaş Azərbaycanın sərvətidir.

**Ədəbiyyat:**

1. *"2016-cı ilin Azərbaycanda Multikulturalizm ili elan edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 12.01.16-cı il tarixli Sərəncamı // https://www. prezident azsitiles/ furure /ru/ pdf 11.01.2016 (giriş tarixi 28.05.2017)*
2. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında. Bakı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, 2017.524 s.*
3. *Hasanov S.L., Hasanov E.L. Applied features of comparative technical, sociological investigation of historical and contemporary heritage of Azerbaijan // International Scientific Journal Theoretical & Applied Science, Issue 1, vol. 57, part 1, 2018. p. 9-16.*

4. *Гасанов Э.Л. "Об изучении историко-религиозных памятников Гянджи как хранителей толерантных ценностей и мультикультурализма" / Gənc tədqiqatçıların III Respublika elmi-praktik konfransının materialları. Bakı, Azərbaycan universiteti.2020. s. 119-121.*
5. *Джаббарова Ш. Политика мультикультурализма как основа устойчивого развития Азербайджана / Материалы Международной научной конференции «Мультикультурализм является государственной политикой и образом жизни в Азербайджане». Баку.2016. с. 497-498.*

**G.N.Veysəlova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gunayveyselova9@gmail.com***

# RƏSMİ-İŞGÜZAR ÜSLUB BACARIQLARININ ORTA MƏKTƏBLƏRDƏ İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

***Xülasə***

Məqalədə nitq üslublarından, xüsusilə, rəsmi-işgüzar üslubun linqvo-didaktik mahiyyətindən danışılaraq belə bir nəticəyə gəlinir ki, rəsmi fəaliyyətdəki uğur bəzən insanın nitq mədəniyyətindən də asılıdır. Bu cəhətdən təhsil sisteminin yeniləşdiyi dövrdə məktəbin qarşısında duran ən mühüm vəzifələrdən biri də şagirdlərin rəsmi-işgüzar nitqini təkmilləşdirmək, onlarda rəsmi-işgüzar nitq bacarıqları formalaşdırmaqdır. Şagirdlərin peşəkar ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün yazı məzmun xətti üzrə işlərdə rəsmi-işgüzar üsluba aid əməli yazılara (elan, məktub, akt, teleqram, əmr, ərizə, tərcümeyi-hal, arayış, protokol, referat və s.) geniş yer verilməli və onlarda işgüzar sənədləri hazırlamaq bacarıqları yaradılmalıdır.

# СПОСОБЫ РАЗВИТИЯ НАВЫКОВ ФОРМАЛЬНО-ДЕЛОВОГО СТИЛЯ В СРЕДНИХ ШКОЛАХ

***Резюме***

В статье говорится о речевом стиле, в особенности о лингво-дидактической сущности официально-делового стиля, приходят к такому выводу, что успех в официальной деятельности порою зависит от культуры речи. В этойсвязи в период модернизации образовательной системы одной из основных задач, стоящих перед школой, являются совершенствование официально-деловой речи учащихся, формирование у них официально-деловых навыков речи. Для развития профессиональных навыков общения учащихся в работах по содержательной линии письменности необходимо широкое использование относящихся к официально-деловому стилю деловой письменности (объявление, письмо, акт, телеграмма, приказ, заявление, автобиография, справка, протокол, реферат и т.д.) и выработка у них навыков подготовки деловых документов.

# WAYS TO DEVELOP FORMAL-BUSINESS STYLES IN SECONDARY SCHOOLS

***Summary***

The article talks about the speech style, in particular about the linguo-didactic essence of the official business style, they come tot he conclusion that success in official activities sometimes depends on the culture of speech. In this regard, during the period of modernization of the educational system, one of the main tasks facing the school is the improvement of the official business speech of students, the formation of

their official business speech skills. For the development of professional communication skills of students in works on the content line of writing, it is necessary to widely use those related to the official business style of business writing (advertisement, letter, act, telegram, order, statement, autobiography, reference, protocol, abstract, etc.) and developing their skills in preparing business documents.

***Açar sözlər***: *nitqin üslubları, rəsmi-işgüzar nitq, rəsmi xarakter, obyektiv və standart şərhetmə, sosial ünsiyyət*
***Ключевые слова***: *стиль речи, официально-деловая речь, официальный характер, предметно-нормативная интерпретация, социальная коммуникация.*
***Key words:*** *style of speech, official business speech, official character, subject-normative interpretation, social communication.*

Müasir dünyada ana dilinin dərindən öyrənilməsinə milli təfəkkürü formalaşdırma vasitəsi kimi baxıldığına görə, ona münasibət də dövlətçilik, milli maraqlar baxımından həmişə diqqət mərkəzində dayanır. Milli Kurikulumun ana dili ilə başlaması, beynəlxalq qiymətləndirmələrdə ana dili standartlarının reallaşdırılması səviyyəsinə ilk sırada yer verilməsi doğma dilə böyük dəyər vermənin nəticəsidir.

Biz yaxşı bilirik ki, ətraf aləmin dərki, dünya, cəmiyyət haqqında ilkin təsəvvürlər məhz ana dilini öyrənmə vasitəsilə formalaşır, dinləyib-anlama, danışma bacarıqları yarandıqdan sonra dil düşünmə, öyrənmə və danışma vasitəsinə çevrilir. Şagirdlər Azərbaycan dili fənni vasitəsilə dili milli mədəniyyət nümunəsi, dövlət atributu kimi qavrayır, onun səs sisteminə, lüğət ehtiyatına, üslubi-qrammatik xüsusiyyətlərinə bələd olmaqla müxtəlif üslublarda yaradılan elm, texnika, ədəbiyyat nümunələri ilə tanış olurlar. Doğma dili dərindən mənimsəmək şagirdlərin digər fənləri öyrənmə potensialını da gücləndirir, dünyəvi elmlərə marağını artırır. Ən əsası da o olur ki, dili mükəmməl bilmə, onun alt qatlarına bələdlik davamlı təhsil prosesini təmin edir, təhsil müəssisələrini bitirən məzunlar nitq mədəniyyətinə, mükəmməl ünsiyyətə sahiblənməklə cəmiyyətə rahatlıqla adaptasiya olunurlar. Zəngin lüğət ehtiyatı, düzgün ədəbi tələffüz və yazı vərdişləri, cümlə qurmaq və sözlərdən üslubi imkanlara görə istifadə etmə bacarıqları bütövlükdə nitq mədəniyyətini formalaşdırır, təlimdə şəxsiyyətyönümlülüyü təmin edir.

"Lüğət ehtiyatına sahib olmaq, ədəbi tələffüz normalarını gözləmək, qrammatik qaydalara müvafiq cümlələr qura bilmək hələ kamil nitqə,qarşı tərəfə fikri dəqiq çatdırmaq qabiliyyətinə malik olmaq demək deyildir. Deyəcəyin fikrin məzmununu hansı çalarda, hansı üslubda çatdırmaq da nitqin mahiyyətinə daxil olan məsələlərdəndir" (4, 267). Fonetik, leksik, qrammatik normaları, tərif və qaydaları bilməklə mədəni nitqə sahib olmaq kifayət etmədiyinə görə onların nəticələrinə əsaslanan üslubiyyat məsələləri (üslubi fonetika, üslubi qrammatika, funksional üslublar və s.) nitq inkişafı üzrə işlərlə paralel öyrənil-

məlidir. “Natiq Azərbaycan dilinin fonetik, leksik və qrammatik imkanlarını həm nəzəri, həm də praktik cəhətdən öyrənməli, nitqin dəqiqliyi, yığcamlığı, ahəngdarlığı, bədiiliyi üçün üslubi imkanlardan yerində, ünsiyyətin tələblərinə uyğun istifadə etməyi, ədəbi dilimizin ifadə vasitələrindən konkret şəraitlə bağlı yararlanmağı bacarmalıdır” (3,187).

Üslubiyyatdilin ifadəlilik vasitələrinin sistemindən bəhs edən müstəqil dilçilik sahəsidir və ümumi nitq inkişafı üzrəaparılan işlərin əsas istiqamətlərindən birini də ona aid məsələlər təşkil edir. Nitq üslubu dedikdə biz danışanın (həm də yazanın) fonetik, leksik, qrammatik imkanlardan məqsədə və məqama görə istifadə edə bilmə tərzini, sistemini başa düşürük. “Dilçilik üslubiyyatının əsas vəzifələrindən biri ədəbi dilin funksional üslubları, onlar arasındakı əlaqələr, funksional üslubların nitq növlərini öyrənməkdir” (5, 206). Dilin funksiyaları (anlaşma, məlumatvermə, təsirgöstərmə) dildən məqsədəuyğun istifadəni tələb edir və bu tələbatın nəticəsi olaraq müəyyən üslubi keyfiyyətlər yaradır. Professor M.İsmayılova “Azərbaycan dili və nitq mədəniyyəti” adlı dərs vəsaitində dilin bu funksiyalarından çıxış edərək üslubun təsnifatını aşağıdakı kimi təqdim edir:

1) Dil – ünsiyyət funksiyalı məişət-danışıq üslubu;
2) Dil – məlumatvermə funksiyalı elmi üslub, rəsmi-işgüzar üslub;
3) Dil – təsiretmə funksiyalı bədii üslub, publisistik-qəzet üslubu (5,207).

Orta ümumtəhsil məktəblərində də elmi, bədii, rəsmi-işgüzar, publisistik və danışıq üslubu olmaqla beş nitq üslubunun elementlərini praktik öyrətmək nəzərdə tutulur. Bu üslublar içərisində bizi daha çox maraqlandıran rəsmi-işgüzar üslubla bağlı məsələlərdir. Çünki cəmiyyətdaxili rəsmi münasibətlər və onların düzgün tənzimlənməsi bizim hüquq və vəzifələrimizlə, cəmiyyətdəki statusumuzla, yaşayışımızı təmin edən effektiv idarəetmə sistemi ilə bilavasitə bağlı məsələlərdir. Yaxşı bilirik ki, rəsmi fəaliyyətdə qazanılan uğur insanın nitq mədəniyyətindən çox asılıdır. Buna görə də təhsil sisteminin müasirləşdirilməsi şəraitində məktəbin qarşısında duran başlıca vəzifələrdən biri də şagirdlərin rəsmi-işgüzar nitq mədəniyyətinin formalaşmasına və təkmilləşdirilməsinə diqqət yetirməkdir.

Təbii ki, V sinifdən başlayaraq yazı məzmun xətti üzrə aparılan işlərdə əməli yazılara 3.1.4. standartına müvafiq olaraq yer verilir, uşaqlar bəzi rəsmi sənədlərin yazılması prinsipləri, qaydaları ilə qismən tanış olurlar. Lakin nitqin funksional üslubları ilə bağlı əsas məlumatlar onlara X sinifdə verilir. “Tarixi və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunu” mətni üzrə işdə isə konkret olaraq rəsmi-işgüzar üslubun xüsusiyyətlərindən bəhs edilir. Göstərilir ki: “Rəsmi-işgüzar üslubun lüğət tərkibi nə qədər yığcam, sintaksisi nə qədər məhduddursa, normalılığı o qədər möhkəmdir” (1, 142). Məhz burada şagirdlər rəsmi-işgüzar üsluba daxil olan materialları

rəsmi və işgüzar olmaqla iki yerə bölür, onları bir-birindən fərqləndirməyi öyrənirlər.

Aparılan müşahidələr göstərir ki, müasir məktəbdə şagirdlər əməli yazılarla məşğul olub müəyyən sənəd hazırlama vərdişləri qazansalar da, təhsil praktiki olaraq məzunun işgüzar ünsiyyətə hazırlanmasını təmin edə bilmir. Məktəblərimizdə rəsmi-işgüzar üslub deyəndə bəzi əməli yazıları öyrətmək, bir-iki elan, ərizə, əmr, akt və s. yazmağı mənimsətmək nəzərdə tutulur. Konkret rəsmi-işgüzar nitq formalaşdıran, işgüzar münasibətlərin psixo-linqvistik tərəflərini araşdıran, işgüzar ünsiyyəti təkmilləşdirən əlverişli metodik sistem, yox dərəcəsindədir. Halbuki, xarici münasibətlər, şəxsi əmlakın möhkəmləndirilməsi, ticarət əlaqələrivə s. kimi məsələlərin inzibati-hüquqi bazası rəsmi-işgüzar nitq üslubunun sayəsində yaradılır. Qanunverici orqanlar, hüquq-mühafizə strukturları, inzibati-təsərrüfat sahələri, diplomatik korpuslar rəsmi-işgüzar üslubun istifadə olunduğu vacib sahələrdir.

V sinifdə *elan, məktub*, VI sinifdə *ərizə, tərcümeyi-hal*, VII sinifdə *teleqram, izahat*, VIII sinifdə *arayış və protokol*, IX sinifdə *hesabat və akt*, X sinifdə *rəy və məruzə*, XI sinifdə *referat və təqdimat* öyrətməklə (təəssüf ki, bunlar da bəzən bacarıqlara çevrilmir) şagirdləri rəsmi-işgüzar ünsiyyətə hazırlamaq olmaz. İşgüzar nitq üslubunun tədrisi prosesində orta məktəb şagirdlərinin linqvistik-kommunikativ səriştəsini təkmilləşdirmək üçün linqvistik, psixoloji, pedaqoji və metodiki şərtlər müəyyənləşdirilməli, təhsil pillələrinə uyğun didaktik materiallar tərtib edilməklə işgüzar ünsiyyəti formalaşdıran debatlar, yarışlar, işgüzar münasibətlərə aydınlıq gətirən tədbirlər keçirilməlidir. Müəllim bilməlidir ki, rəsmi iş üslubu rəsmi-işgüzar münasibətlər sahəsinə xidmət edir və buraya dövlət orqanları, təşkilatlar, fiziki şəxslər arasında olan, istehsal prosesində, hüquqi fəaliyyətdə yaranan münasibətlər daxildir. Özünəməxsus leksik, qrammatik və üslubi xarakteri olan bu üslub, dəqiqlik, obyektiv və standart şərhetmə, hüquqi, diplomatik, idarəetmə sahələrinə aid terminləri bilmə, bütövlükdə peşəkar bir nitqə sahib olma tələb edir. Ən əsası da odur ki, bu üslub müəyyən qayda və məhdudiyyətlərə tabe olmaqla tənzimlənir.

**Ədəbiyyat:**

1. *Azərbaycan dili – 10. Dərslik. Bakı, 2017, 208 s.*
2. *Azərbaycan dili – 10. Metodik vəsait. Bakı, 2017, 208 s.*
3. *Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2017, 316 s.*
4. *Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2014, 380 s.*
5. *İsmayılova M. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2016, 307 s.*

**N.F.Cəfərli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***jafarlingr@gmail.com***

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ YENİDƏNQURMA VƏ TƏHSİL YÖNÜMLÜ İNKİŞAF YOLU

***Xülasə***

*Məqalədə Azərbaycanın ərazi bütövlüyü təmin edildikdən sonra regionda görülən yenidənqurma və inkişaf yönümlü tədbirlərin bir qismi qeyd olunmuş, dövlətin ölkə iqtisadiyyatına, aqrar və kənd təsərrüfatı sahələrinə, eləcə də, təhsilə ayırdığı xüsusi diqqətdən bəhs olunur. Eyni zamanda, həmin ərazilərdəki təhsilin inkişafına nəzarətin davam etdiyi də nəzərə çatdırılır. İşğaldan azad edilmiş ərazilərdə təməli qoyulan yeni təhsil müəssisələrinin böyük qayıdışın sürətlənməsi yolunda atılan ümdə addımlardan biri olduğu qeyd edilir. Şuşa şəhərindəki məskunlaşmadan da bəzi məlumatlar çatdırılıb.*

# ПУТЬ РЕКОНСТРУКЦИИ И РАЗВИТИЕ ОБРАЗОВАНИЯ НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ

***Резюме***

*В статье освещаются некоторые меры реконструкции и развития, предпринятые в регионе после обеспечения территориальной целостности Азербайджана, и особое внимание государства к экономике страны, аграрному и сельскохозяйственному секторам, а также образованию. В то же время отмечается, что развитие образования в этих сферах продолжает находиться под наблюдением. Отмечается, что создание новых учебных заведений на освобожденных территориях является одним из крупных шагов, предпринятых для ускорения великого возвращения. Некоторая информация также была предоставлена из города Шуша.*

# RECONSTRUCTION AND WAY OF EDUCATIONAL DEVELOPMENT IN THE LIBERATED TERRITORIES

***Summary***

*The article notes some of the reconstruction and development measures taken in the region after ensuring the territorial integrity of Azerbaijan, and the state's special attention to the country's economy, agrarian and agricultural sectors, as well as education. At the same time, it is noted that the development of education in these areas continues to be monitored. It is noted that the establishment of new educational institutions in the liberated territories is one of the major steps taken to accelerate the great return. Some information was also provided from the sity Shusha.*

***Açar sözlər:*** *iqtisadi rayonlar, infrastruktur, quruculuq işləri, yenidən qurma tədbirləri, məskunlaşma, aqrar sahə, kənd təsərrüfatı, təhsil, təhsil müəssisələri.*

***Ключевые слова:*** *экономические районы, инфраструктура, строительные работы, мероприятия по реконструкции, поселение, аграрный сектор, сельское хозяйство, образование, образовательные учреждения.*

***Key words:*** *economic regions, infrastructure, construction works, reconstruction measures, settlement, agrarian sector, agriculture, education, educational institutions.*

Ərazi bütövlüyümüz təmin edildikdən sonra işğaldan azad edilmiş bölgələrdə sürətli şəkildə yenidən qurma tədbirləri həyata keçirilməyə başlandı. İstiqamətlənmiş plana əsasən, ilkin olaraq, yolların və infrastrukturun yaxşılaşdırılması, daha sonra isə xarici ölkələrlə birgə əməkdaşlıq şəraitində regionun hərtərəfli inkişafını təmin etmək üçün işlər görüldü və hələ də bu istiqamətdə müəyyən addımlar atılmağa davam edir.

Coğrafi mövqe baxımından məxsusi üstünlüklərə sahib ölkəmizdə, ərazilərimizin azad edilib Ermənistanla sərhəd xətlərimizin dəqiqləşdirilməsi prosesinin başlaması, yəni "delimitasiya" və "demarkasiya" məsələlərinin həlli davam edərkən 7 iyul 2021-ci il tarixindən etibarən mövcud olan iqtisadi rayonların siyahısı yeniləndi [1]. İşğaldan azad edilmiş ərazilərimizin "Qarabağ" iqtisadi rayonuna Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları və "Şərqi Zəngəzur" iqtisadi rayonuna isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları aid edilir [2].

İqtisadi rayonların belə qruplaşdırılması regionda aparılan quruculuq işlərinin düzgün planlaşdırılmasına və hədəflərə daha tez bir zamanda çatmağa xidmət etməklə yanaşı, buraya köçürülməsi nəzərdə tutulan əhalinin rifah səviyyəsinin həm maddi, həm sosial yönümlü inkişafına, həm də digər təsiri ola biləcək sahələrdən kənar, stabil inkişafının təminatına nəticə etibarilə nail olmaq deməkdir.

30 illik erməni işğalı müddətində fərqli dərəcədə dağıntılara məruz qalan rayonlarımızın dirçəliş yolu da buna müvafiq olaraq həyata keçirilir. Əvvəla 10 noyabr 2021-ci il tarixli qərara əsasən Ermənistan tərəfi işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinə başlamamız üçün minalanmış ərazilərin faktiki xəritəsini təqdim etməli idilər. Lakin gərək müharibə dövründə, gərəksə də sarsıdıcı qələbəmiz qarşısında böyük itkilərlə məğlub olduqdan sonra da ermənilər, xəritəni əvvəlcə uzun illər öncəyə aid formatda, daha sonra isə saxtalaşdırılmış şəkildə təqdim etdilər. Göründüyü kimi, öz doğma xislətindən və mənfur düşüncələrindən hələ də əl çəkməyən düşmən, bizi atdığı bu addımlarla əfsuslar olsun ki, heç təəccübləndirmir. Yenə də böyük əksəriyyəti dağılmış, sökülmüş, yağmalanmış vəziyyətdə olsa da, Qarabağımıza keçmiş görkəmini yenidən qazandırmaq üçün hər gün görülən işlərin sayı

artmaqda davam edir. İnfrastrukturu dağıtmaqla yanaşı, həm də ekoloji terrora səbəb olmuş Ermənistan, təkcə yollara və ya evlərə zərər verməklə deyil, maddi-mənəvi irsimiz olan tarixi mədəniyyət abidələrinə, dini əhəmiyyətli tikililərə, təbii qaynaqlara da xeyli ziyan vurmuşdur.

Bugünkü gündə Qarabağımızın dirçəldilməsi məsələsi böyük önəm və aktuallıq daşımaqdadır. Məlum olduğu kimi infrastrukturun bərpası və quruculuq işlərinin görülməsinə müharibənin başa çatdığı ilk gündən etibarən başlanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ilin yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə dediyi kimi: "Bizim planlarımız böyükdür. Müharibə başa çatıb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad edildikdən sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin. Bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir. Keçmiş köçkünlərə tezliklə öz doğma torpaqlarına qayıtmağı arzulayıram. Hər halda Azərbaycan dövləti əlindən gələni edəcək ki, bu gün daha da yaxınlaşsın. Vahid Azərbaycan dövləti bundan sonra uğurla, inamla inkişaf edəcəkdir" [3].

Regionun inkişafının sevindirici xəbərlərini tez-tez duyan qaçqın və məcburi köçkünlər də yenidən öz ata-baba yurdlarına qayıdacaqları günün səbirsizliyini yaşayırlar. "Lakin məcburi köçkünlərin geri dönüşü və bölgədə dayanıqlı məskunlaşmanın reallaşması həllini gözləyən bir sıra problemlərdən əhəmiyyətli dərəcə asılıdır" [4, s. 215].

Bildiyimiz kimi, cənab prezidentimizin sərəncamına əsasən işğaldan azad edilmiş ərazilərimizdə məskunlaşacaq əhalinin dəqiq sayının müəyyənləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı" daxilində fəaliyyət göstərən İdarələrarası Mərkəzin xüsusi işçi qrupu öz araşdırmalarını aparıb sorğular təşkil edir. Ötən ilin əvvəlindən insanların bu yöndə düşüncələriylə yaxından tanış olan qrupun hələlik gəldiyi nəticə ondan ibarətdir ki, əhalinin böyük əksəriyyəti həmin ərazilərdə məskunlaşmağa maraqlıdırlar.

İdarələrarası Mərkəzin iclaslarının birində qeyd olunub ki: "İşğaldan azad edilmiş ərazilərdə hərbi-siyasi, hüquqi, sosial-iqtisadi, minalardan təmizləmə, şəhərsalma, enerji, humanitar, beynəlxalq əməkdaşlıq, təşkilati və digər məsələlər üzrə işlərə cavabdeh olan müvafiq dövlət qurumlarının səlahiyyətli şəxsləri tərəfindən müvafiq işlər görülür.

Həyata keçirilmiş və icraatda olan işlərin ilkin nəticələri, təxirəsalınmaz və uzunmüddətli planlaşdırma, bu proseslərdə mövcud olan qabaqcıl üsul və

metodologiyaların tətbiqi ilə bağlı fikir mübadiləsi aparılır, aidiyyəti dövlət qurumlarının təklifləri əsasında qarşıda duran vəzifələr nəzərdən keçirilir" [5].

"Artıq Qarabağda quruculuq işləri sahəsində xarici ölkələrin şirkətləri ilə konkret əməkdaşlığa başlanılıb. Belə ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində elektroenergetika infrastrukturunun yaradılması məqsədilə "Azərenerji" ASC ilə İtaliyanın "Ansaldo Energia" şirkəti arasında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunacaq 4 ədəd 110 kilovoltluq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz İtaliya şirkəti həyata keçirəcək.

Türkiyədə fəaliyyət göstərən, 130 texnologiya şirkətinə dəstək verən "GOSB" texnoparkı ilə Azərbaycan İnnovasiyalar Agentliyi arasında imzalanmış "Mədəni və Elmi Əməkdaşlıq" memorandumuna əsasən Qarabağda Yüksək Texnologiyalar Parkı yaradılacaq. Parkda ən son "soft" və "hard" elmi araşdırmaların aparılması, eyni zamanda yüksək texnoloji cihazların istehsalı planlaşdırılır" [3].

Daha çox aqrar sahənin inkişafına münasib torpaqlara malik olan bölgələrimizdə əhalinin nisbətən sürətlə köçürülməsi nəzərdə tutulub. Bu o deməkdir ki, xarici investor şirkətlərdən də gələn büdcə bu istiqamətdə paylanmalıdır.

"Əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu, stimullar əsasında və dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməlidir. Yalnız belə şəraitdə işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək mümkündür. Bu prioritetin uğurla reallaşdırılması üçün aşağıdakı iki məqsədə nail olunmalıdır:

- dayanıqlı məskunlaşma;
- iqtisadi fəaliyyətə reinteqrasiya" [3].

Yenidən diqqətinizə çatdırmaq istəyirəm ki, regionda aqrar sahənin inkişafına xüsusi maraq vardır. Ümumiyyətlə, ölkənin bütün bölgələrində bu sahənin inkişaf etdirilməsi yönündə aparılan danışıqlar və müzakirələr çox öncədən başlamışdır. Hələ Azərbaycan Respublikası prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanına əsasən "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" sənədində də qeyd edilmişdir ki, aqrar sahəyə əhalinin maraq, təklif və tələbatlarının yüksəldilməsi ilə bağlı işlər görülməlidir.

Əhaliyə bu sahələrlə bağlı informasiyanı planlı şəkildə çatdırmaq üçün aqrar sahəni təhsilə inteqrasiya etmək fikri ən optimal seçimdir. Təhsil sahəsində aqrar sahənin və kənd təsərrüfatı sahələrinin daha çox ön plana çəkilməsi

üçün sənəddə də vacib məsələlərə toxunulub. Həmin sahələrdə inkişaf və keyfiyyətin yüksəldilməsinə nail olmaq məqsədilə bir neçə prioritet hədəflər qərarlaşdırılıb.“Kənd təsərrüfatı sahəsində elm, təhsil və informasiya-məsləhət xidmətləri sisteminin inkişaf etdirilməsinə çatmaq üçün üç prioritet istiqamət seçilmişdir. Birinci prioritet kimi aqrar təhsilin keyfiyyətinin artırılması məsələsi nəzərə alınacaqdır. Bu məqsədlə, aqrar sahədə təhsilin cəlbediciliyini artıracaq layihələrin icrası, aqrar təhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, beynəlxalq təcrübəyə əsaslanan kurikulumların hazırlanması istiqamətində işlər görüləcəkdir” [6, s. 97-98].

Qarabağın da digər bölgələrimiz kimi iqtisadi və turizm yönümlü inkişafı üçün aqrar sahəyə marağın artırılması düşünürəm ki, keyfiyyətli və səmərəli nəticələr əldə etməmizə səbəb olacaqdır.

“İkinci prioritet kimi kənd təsərrüfatında elmi-tədqiqatların aparılması və nəticələrinin tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi məsələsi nəzərə alınacaqdır. Bu məqsədlə, elmi tədqiqat institutlarının maliyyələşmə mənbələrinin diversifikasiyası, aqrar sahə üzrə intellektual mülkiyyət hüquqları ilə bağlı qanunvericilik bazasının hazırlanması, elmi tədqiqat institutlarının maddi-texniki bazasının yaxşılaşdırılması və eləcə də beynəlxalq elmi tədqiqat institutları ilə yerli elmi tədqiqat institutlarının əlaqələrinin dərinləşdirilməsi istiqamətində tədbirlər görüləcəkdir” [6, s. 97-98].

“Sonuncu prioritet kimi, aqrar sahənin ehtiyaclarına cavab verən informasiya-məsləhət xidməti şəbəkəsinin formalaşdırılması və yeniliklərin istehsalçılara ötürülməsi məsələlərinə diqqət yetiriləcəkdir. Bu istiqamətdə, ilkin olaraq, aqrar sahədə informasiya-məsləhət xidmətlərini tənzimləyən qanun layihəsinin hazırlanması, bu sahədə fəaliyyət göstərən dövlət qurumlarının maddi-texniki bazasının yaxşılaşdırılması, elektron məsləhət xidmətinin yaradılması istiqamətində işlər yerinə yetiriləcəkdir” [6, s. 97-98].

Əgər biz təhsildə aqrar sahənin inkişaf etdirilməsindən bəhs ediriksə, bu o deməkdir ki, bölgədə quruculuq işləri və aqrar sahənin inkişafı ilə yanaşı təhsil sahəsi də artıq öz inkişaf yoluna başlamışdır. Təhsil naziri Emin Əmrullayev 2021-ci ilin yekununa dair verdiyi müsahibələrin birində qeyd edir ki: “Cənab prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən Şuşa şəhərində 1 nömrəli tam orta məktəbin tikilməsini planlaşdırırıq. Ağdam şəhərində məktəb tikintisinə başlayırıq. Cəbrayılda da ümumtəhsil müəssisəsinin tikintisinin planlaşdırılması işləri gedir. O cümlədən digər şəhər və kəndlərdə də yeni təhsil müəssisələrinin tikilməsi nəzərdə tutulur. Bilirsiniz ki, Zəngilanda Ağalı kəndinin təməl daşı qoyulub. Bu, böyük qayıdışın birinci addımıdır” [7].

Bununla yanaşı, xüsusilə nəzərinizə çatdırmaq istəyirəm ki, rayon və şəhərlərin içərisində Şuşa şəhərinin yenidənqurma tədbirlərinin bir qismi demək olar ki, tamamlanmışdır. Şuşa şəhəri Azərbaycan Respublikasının inzibati ərazi vahididir. Azad edilmiş ərazilərimizin içərisində cari vəziyyəti və

insanların yaşamaq üçün ehtiyacı olan bir çox imkana sahib şəhərdə artıq onlarla ailə məskunlaşıb yaşamaqdadırlar. "Azərbaycanın mədəniyyət paytaxtı Şuşada təmir-bərpa işləri aparılır. Bura nəhayət ki, dinc həyat qayıdıb, uşaqların gülüş səsləri eşidilir – onlar şəhərin ilk sakinləridir" [8].

Lakin bütün bu müsbət nəticələrin əldə olunması təkcə Şuşa şəhəri ilə məhdudlaşdırılmayacaqdır. Ümidvaram ki, ən qısa zamanda bizlər Şuşa şəhəri kimi digər rayon və şəhərlərimizin tam şəkildə inkişafının son nəticəsini görərik.

**Ədəbiyyat:**

1. *https://axar.az/news/toplum/562874.html*
2. *http://www.geostrategiya.az/news.php?id=187*
3. *https://science.gov.az/az/news/open/16136*
4. *A.Ş.Həsənov. İşğaldan azad olunmuş ərazilərdə məskunlaşma problemlər və həll yolları. Bakı, 2021, s. 215.*
5.*https://apa.az/az/xeber/daxili-siyaset/Idarlrarasi-Mrkzin-isci-qrup-rhbrlrinin-istiraki-il-iclasi-kecirilib-630571*
6. *Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Bakı, 2016, s. 97-98.*
7. *Təhsil naziri Emin Əmrullayevin çıxışı. AzTV "Hədəf" proqramı: 28 dekabr 2021-ci il.*
8. *https://aqreqator.az/az/cemiyyet/1574274*

**D.M.Qədirova, N.N.Rzazadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***nuna_fva@mail.com***

## TƏSVİRİ SƏNƏTDƏ REALİZM ƏNƏNƏLƏRİ

***Xülasə***

*Realizm üslubu – inkişafda olan, mədəni prosesləri özündə əks etdirən, real hadisələrə münasibəti və qavrayışı stilizə edən fenomen anlayışdır. Realizm yarandığı gündən bu günədək dahi dünya rəssamlarının realist sənət əsərlərində, muzey məkanlarında, mədəniyyət sənayesində aydın şəkildə əksini tapır. XIX – XX əsrlər incəsənətində - rəsm, heykəltaraşlıq, musiqi, fotoqrafiya, teatr, kino və digər incəsənət sahələrində yayılmış yaradıcılıq üslubu - realizm cərəyanı məqalənin əsasını təşkil edir. Mətndə realizm cərəyanının yaranma səbəbləri, ilkin dövrlərdə onun digər incəsənət nümayəndələri tərəfindən tənqid olunması və sonrakı dövrlərdə fantastik, verizm, fotorealizm, sosial realizm, hiperrealizm, neorealizm və digər əsas növlərə ayrılması haqqında məlumat verilir.*

## ТРАДИЦИИ РЕАЛИЗМА В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ

***Резюме***

*Стиль реализма – это понятие, которое эволюционирует, отражая культурные процессы, стилизуя отношение и восприятие реальных событий. С самого начала реализм ярко отразился в работах художников-реалистов, музеев, культурной индустрии. Основное направление статьи - направление реализма в искусстве XIX - XX веков - творческий стиль живописи, скульптуры, музыки, фотографии, театра, кино и других искусств. В тексте приведены сведения о причинах возникновения реализма, его критике в первые годы другими художниками, а позже разделенные на фэнтези, веризм, фотореализм, соцреализм, гиперреализм, неореализм и другие основные виды.*

## TRADİTİONS OF REALİSM İN FİNE ARTS

***Summary***

*The realism style is a concept that is evolving, reflecting cultural processes, stylizing the attitude and perception of real events. Realism has been clearly reflected in the realistic art works of genius world artists, museums, and the cultural industry since its inception. The essence of the article is the realism current-the creative style that is spreaded in the art of the XIX - XX centuries -in painting, sculpture, music, photography, theater, cinema and other fields of art. The article provides information about causes of realism, its criticism by other representatives of the art in the early days, and in later periods its division into fantastic, verism, photorealism, social realism, hyperrealism, neorealism and other main types.*

***Açar sözlər:*** *realizm, Qustave Courbet, hipperrealizm, üslub, incəsənət*
***Ключевые слова:*** *реализм, Кустав Курбет, гиперреализм, стиль, искусство*
***Key words:*** *realism, Gustave Courbet, hipperrealism, style, art*

Realizm – həyatın bütün təzahürlərində həqiqi təsvir sənəti sayılır. Realizm əsərlərdə gerçəkliyin ən etibarlı təsvir olunması ilə xarakterizə olunan XIX-XXI əsrlər incəsənətindəki bir cərəyandır. Realizm eyni zamanda rəsm, heykəltəraşlıq, fotoqrafiya, ədəbiyyat, musiqi, teatr, kino və digər incəsənət sahələrində yayılmış yaradıcılıq metodudur. Realizm müasir incəsənətin inkişafının başlanğıcı hesab olunur. Hərfi mənada "realizm" – bədii üslubu, bütün ətrafı həqiqi və obyektiv reallıqdan fərqli olmayaraq gözəl təsvir etmək deməkdir.

Realizm insan zehnindən asılı qalmayaraq, varlığı olduğu kimi qəbul edən fəlsəfi anlayışdır. Realizm varlığın var olduğunu və bizdən asılı olmadığını irəli sürərkən, bu düşüncəni qəbul edənləri isə realist hesab edirdi.

Realizm XIX əsrdə ortaya çıxan bir çox üslubdan fərqli olaraq incəsənətdə müvəqqəti bir fenomen halına gəlmədi. Əksinə, 200 ilə yaxındır ki, çox sayda sənətkar üçün axtarılan metod olaraq qalmaqdadır. Bu cərəyandan tez-tez məişət, tarixi və portret janrlarında istifadə edirlər. Bu yeni cərəyan XIX əsrdə ortaya çıxsa da Jan Vermeer və Diego Velazquez kimi rəssamlar, əlbəttə ki, realistlər sayılırdı, fərqli ölkələrdə yaşasalar da, fərqli şeylər təsvir edir və heç vaxt bu termini belə adlandırmırdılar. Sadəcə gözlərinin gördüklərini təməlindən dəyişmədən kətan üzərindən tamaşaçıya çatdıra bilird7ilər.

Yarandığı gündən bəri realizm digər incəsənət üslublarının nümayəndələri tərəfindən sərt şəkildə tənqid olunur və realist sənətkarlar seçdikləri yaradıcı yanaşma növünün mahiyyətini tez-tez müxtəlif cür şərh etməyə məcbur olurdular. Son iki əsrdə cəmiyyət və mədəniyyət çox böyük dəyişikliklərə məruz qalır və bu da yeni realizm növlərinin yaranmasına səbəb oldu. Realizmin əsas növlərinə fantastik, verizm, sosial realizm, fotorealizm, hiperrealizm, neorealizm və s. aid edilə bilər.

XIX əsrin ortalarında rəssamlığın akademik ənənələrinə əsaslanan romantizm Avropa incəsənətində hakim tendensiya idi. Romantik üslubunda sənətkarlar həyatı bəzədilmiş formada təsvir edir, insanı idealizə edir, rəsmlərindəki insanların mənəvi dünyasını, gücünü və emosiyalarını oxuya bilirdilər.

Realizm üslubunun əsl sahibi haqlı olaraq Courbert sayılır. Yeni üslub haqqında geniş ictimaiyyət ilk dəfə 1855-ci ildə, Courbert "Realizm Manifestosu"nu dərc etdikdə öyrəndi. Bu sənəddə akademik boyakarlıq sərt tənqid edilmiş və realizmin prinsipləri açıqlanmışdır. Onun nəhəng ölçülü "Ornansdakı Dəfn evi" (1849-50) əsəri, Avropa sənət səhnəsində yeni və əhəmiyyətli

bir qüvvə olaraq realizmin debütünü qeyd etdi. Qustave Courbert əmisinin cənazəsini təsvir etdiyi əsərdə romantizmi mənimsəyən rəssamlar kimi hadisəni daha da dramatikləşdirmək yerinə həqiqətən dəfnə qatılan ailə üzvləri və tanışlarını çəkməyi seçdi. Əlbəttə ki, bir kənd cənazəsinin naturalist təsviri olan rəsm, ənənəvi olaraq alleqorik və tarixi mövzulardakı əsərləri nümayiş etdirən salonda böyük bir qalmaqala səbəb oldu. Rəssamın səs-küylü əsəri ilə Romantizmin dəfninə, Realizmin doğulmasına səbəb oldu.

Paris Rəssamlıq Akademiyasının rəhbərliyi həmin il Curbertin əsərlərinin dünya sərgisində nümayiş etdirilməsini qəbul etmədi. Buna cavab olaraq sənətkar öz sərgisini xüsusi sərgilərin təçkili üçün nəzərdə tutulan kiçik tutumlu pavilyonda təşkil etdi. Geniş ictimaiyyət rəssamın əsərlərində nümayiş etdirilən reallığı qəbul etmədi, sevmədi və tənqidçilər məqalələrində müəllifə qarşı amansız yazılar yazmağa başladılar.

Lakin tədricən Fransada realizmə münasibət dəyişməyə başladı. Nəticə etibarı ilə Courbet bu üslubun tanınmış lideri oldu və fikirləri bütün Avropaya yayıldı. İtaliyada Coutbertin fikirlərinin təsiri altında Macchiacoli məktəbi meydana gəldi .Rusiyada isə bu üslubu sevən rəssamlar kiçik qruplar halında birləşməyə və 1870-1880-cı illərdə Realizmin inkişafında çiçəklənmə dövrünü yaşatmağa başladılar.

XIX və XX əsrin əvvələrində Modernizm və avanqardizmə marağın artması fonunda Realizm ictimaiyyət arasında populyarlığını bir qədər itirdi. Qısa zaman sonra növbəti partlayış – Sürrealizm trendə çevrildi. Əlavə olaraq, 50 il ərzində Avropa incəsənətində üç növ neorealizm və ABŞ-da Amerika realizmi adı altında dəqiqlik tələb edən cərəyanlar meydana gəldi. Eyni zamanda SSRİ-də ən bəyənilən yeganə üslub şübhəsiz ki realizm olmuşdur.

XX əsrin ikinci yarısı realizm üslubu üçün foto və hiperrealizmin meydana çıxması ilə yadda qaldı. Onların populyarlığının artmasına fotoqrafiya və kompüter avadanlığı üçün yeni inqilabi texnologiyaların inkişafının xeyli dərəcədə kömək olduğunu açıq aydın görə bilərik. Fotoqrafiya sənətinin ortaya çıxması ilə Realizmə daha da maraq artmağa başladı. Ancaq ənənəvi realizmə bu günə qədər geniş ictimaiyyət arasında olan tələb hələ də qalmaqdadır. Realizm haqlı olaraq təsviri sənətin əsas üslublarından biri hesab olunur. Bu tendensiya hər zaman böyük bir pərəstişkar ordusuna sahibdir. Ralizm normal yaşamın içərisindən bizə fraqmentləri, hadisələri ötürərkən, içərisinə hiss və duyğuları da əlavə etməyi unutmayan bir cərəyandır. Parlaq realistlərin rəsm əsərləri dünyanın ən yaxşı muzeylərinin kolleksiyalarını bəzəyir və sənət auksionlarında daim tələb olunmaqdadır. Fotoqrafiya isə öz növbəsində təsvirə tamamilə sadiq olduğunu iddia edən bir sənət növü kimi qaldı. Əsərlərini və ömürlərini bu üsluba həsr edən layiqli ustalar həqiqətən çoxdur. Ən məşhur Realizm üslubunun fırça ustadlarından Courbet, İlya Repin, Edvard Hopper və Tomas Viliyam Robertsin əsərləri diqqət çəkir.

Realizmin özəlliklərindən bəhs edərkən həm ədəbiyyat, həm təsviri sənət, həm də incəsənətin digər sahələrində spesifik qanunauyğunluqlara tabedir. Realist sənətkarlar həyatdan nümunələri mövzu kimi seçməklə, yaşadığı cəmiyyəti, özəlliklə günlük yaşamın içindən sərgilənən əsərləri ilə tanınırlar. Realizm duyğu və xəyala geniş yer verən romantizmə əks olan bir üslub kimi bilinmişdir. Bu üslubun yaranması ilə rəssamlar üçün müşahidə, baxmaqla görmək arasındakı incə fərq ön plana çıxmışdır.

**Məqalənin aktuallığı**: məqalədə Realizm üslubunun İncəsənətin Təsviri Sənətinə əks olunan xüsusiyətlərindən bəhs edilir.

**Məqalənin elmi yeniliyi:** Təsviri sənətdə Realizm üslubunu ilk istifadə edən rəssamların yaradıcılıqlarına və əsərlərinə baxış keçirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi:** Təhlil zamanı əldə etdiyimiz nəticələr ümumtəhsil və ali təhsil məktəblərində "Təsviri İncəsənət" kursunda tədris materialı kimi istifadə edilə bilər.

**Ədəbiyyat:**

1. *Ванслов В.В. Природа и виды искусства. Художественный процесс. Обращение с искусством. М.: Русь-Олимп: Рус.-Олимп, 2003, 829 səh.*
2. *В мире искусства. Эстетические и художественно-критические эссе. М.: Знание, 280 səh.*
3. *Витель Е.Б. (2009) Художественная культура XX века: от антропоцентризма к «новой художественной реальности». Кострома: КГУ, 295 səh.*
4. *Сарабьянов Д. В. (1998) Русская живопись. Пробуждение памяти. М.: Журнал «Искусствознание», 431 səh.*
5. *Чегодаев А. Д. (1974) Мои художники. Избранные статьи об искусстве от времени Древней Греции до двадцатого века. Художники Запада. Советские мастера. Из истории искусствознания. М.: Советский художник, 335 səh.*
6. *. Каган М. С. Искусство как феномен культуры / М.С.Каган // Искусство в системе культуры / сост. и отв. ред. М.С.Каган. – Л.:Наука, 1987. – səh. 6 -22.*

**E.Y.Quliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***elnare.quliyeva.2019@mail.ru***

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ MİR CƏLALIN "AÇIQ KİTAB" ƏSƏRİNİN ÖYRƏDİLMƏSİ İMKANLARI

***Xülasə***

*Mir Cəlal Paşayevin həyat və yaradıcılığı ümumtəhsil məktəblərinin 6, 7, 9 və 11-ci siniflərində öyrənilir. Ədəbiyyatın inkişafı baxımından Mir Cəlal Paşayevin yazmış olduğu istər elmi, istərsə də bədii yaradıcılıq nümunələri ilə şagirdlərin yaxından tanış olması, onun haqqında zəruri biliklərin öyrədilməsi, dolğun təsəvvürün yaradılması vacibdir. Mir Cəlal Paşayevin milli ideal, uğurlu təhsil, millətpərəst, çalışqan gənclik, mənəviyyatlı müəllim haqqında fikirləri təbliğ olunarkən əsərlərindən nümunələrin gətirilməsi, müəllifin şəxsiyyətini səciyyələndirən cəhətlərin, zəngin yaradıcılığının ideya-bədii xüsusiyyətlərinin dərindən mənimsədilməsi əsas istiqamətlərdən olmalıdır. Bu baxımdan sənətkarın orta məktəbdə tədris olunan "Açıq kitab" əsərinin tədrisinin xüsusi əhəmiyyəti vardır.*

# ВОЗМОЖНОСТИ ОБУЧЕНИЯ «ОТКРЫТАЯ КНИГА» МИР ДЖАЛАЛА НА УРОКЕ ЛИТЕРАТУРЫ

***Резюме***

*Жизнь и творчество Мир Джалала Пашаева изучаются в 6, 7, 9 и 11 классах общеобразовательных школ. С точки зрения развития литературы студентам важно познакомиться с образцами как научного, так и художественного творчества Мир Джалала Пашаева, научить необходимым знаниям о нем, создать целостную картину. Продвигая идеи Мир Джалала Пашаева о национальном идеале, успешном образовании, националистической, трудолюбивой молодежи, духовном учителе, основными направлениями должны быть приведение примеров из его произведений, глубокое освоение особенностей личности автора, богатого художественного творчества. идеи. С этой точки зрения особое значение имеет преподавание художником «Открытой книги» в старших классах школы.*

# OPPORTUNITIES TO TEACH MIR JALAL'S "OPEN BOOK" IN LITERATURE CLASSES

***Summary***

*The life and work of Mir Jalal Pashayev are studied in the 6th, 7th, 9th and 11th grades of secondary schools. From the point of view of the development of literature, it is important for students to get acquainted with the examples of both scientific and artistic creativity written by Mir Jalal Pashayev, to teach the necessary knowledge about him, to create a full picture. While promoting the ideas of Mir Jalal*

*Pashayev about the national ideal, successful education, nationalist, hard-working youth, spiritual teacher, the main directions should be to bring examples from his works, to deeply master the features of the author's personality, rich artistic ideas. From this point of view, the teaching of the "Open Book" by the artist in high school is of special importance.*

***Açar sözlər:*** *Mir Cəlal Paşayev, "Açıq kitab", əsərin oxusu, əsərin məzmunu, inteqrasiya*
***Ключевые слова****: Мир Джалал Пашаев, "Открытая книга", чтение произведения, содержание работы, интеграция*
***Key words:*** *Mir Jalal Pashayev, "Open book", reading the work, the content of the work, integration*

**Giriş:** Əbəs yerə Mir Cəlal Paşayevə üç zirvənin fatehi deyilməyibdir: Yazıçı, pedaqoq, alim. Ədib sadalanan bu üç istiqamətlərin hər birində özünün ən mükəmməl əsərlərini yaradaraq ədəbiyyatımızı, elmimizi öz dəyərli fikirləri, sanballı əsərləri ilə zənginləşdirmiş, yüksəklərə daşımış, yüksək mənəviyyatla həyata keçirmiş olduğu müəllimlik missiyası ilə neçə-neçə gəncin həyat yoluna bir çıraq tutmuşdur. Azərbaycan Respublikasının birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın dəyərli fikirlərində biz bunun bir daha təsdiqini görürük: "Onun əsərləri bütöv bir dövrün mənzərəsini yaradır. O, böyük pedaqoq kimi Azərbaycan cəmiyyəti üçün minlərlə açıq fikirli tələbə yetişdirmişdir." [6. 27 s.]

Nuru özündən doğan müəllif nurunu xoşbəxt xalq, məğrur millət, təhsilli gənclik, sevinc dolu uşaqlar uğrunda fəda etməkdən doymamışdır.

**Əsas hissə:** Mir Cəlal Paşayev yaradıcılığı ilə tanış olan şagird sadə həyat həqiqətlərindən doğan reallıqlarla, kənd içərisindən çıxmış əmək insanı, oxumaq həvəsi, elm öyrənmək eşqi ilə yaşayan gənclik, bir tikə çörək üçün həyatın keşməkeşli yollarında büdrəyən körpələr, vətən dərdi çəkən qadınlar və bu kimi böyük amallar uğrunda çarpışan qəhrəmanlarla tanış olur. Bu baxımdan qeyd edə bilərik ki, tək bir ana-atadan deyil, bütöv xalqdan doğan, əsl xalq yazıçısı olan Mir Cəlal sanki hər bir azərbaycanlının sirdaşı, dərd ortağı olmuş, onların real həyatını ədəbiyyata gətirmiş, əsərlərinin qəhrəmanı etmişdir. Gördüyü, müşahidə etdiyi insan talelərini məharətlə qələmə alaraq, dərin humanist duyğuların, ülvi hisslərin hər bir oxucu tərəfindən dərk olunmasına çalışmışdır. Cənubi Azərbaycan həyatı, Gəncə mühiti, Bakı, Moskva kimi mütərəqqi, mədəni şəhərlər, elm-təhsil ocaqları ilə həyat yolunun kəsişməsi onun tam bütöv bir şəxsiyyət, vətəndaş kimi yetişməsində, dəyərli, insansevər yazıçı, əsl maarifpərvər müəllim, yenilikçi alim kimi püxtələşməsində başlıca rol oynamışdır. Akademik Nərgiz Paşayeva ədibin yaradıcılığı haqqında dəyərli fikirlər söyləyərək belə qeyd etmişdir ki:"Mir Cəlal deyəndə, hər şeydən əvvəl gözəl romanlar və hekayələr müəllifi olan ədib təsəvvürümüzdə canlanmış olur. Çünki, o xalqımızın bədii yaddaşında ictimai tariximizin, xalq taleyinin mühüm problemlərini təhlil edən, həyat və tarix haqqında xalqı ilə ürəkdən, səmimi dərdləşə bilən, onunla sevinc və

dərd şəriki olan ustad sənətkar kimi silinməz izlər buraxmışdır. "Dirilən adam","Bir gəncin manifesti", "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər", "Yolumuz hayanadır" kimi romanları, 292 hekayəsi və başqa janrlarda yazılmış bir çox əsəri həqiqi sənətkarın öz xalqı ilə əsl həsb-halının, dərdləşməsinin bədii nümunələridir!" [6. 28 s].

"Mirzə Cəlil məzlum Şərqin böyük ədibidir, "Anamın kitabı həqiqət kitabıdır." - deyən müəllif özünün "Açıq kitab"ını yazdı. Həqiqətin, doğruluğun, elmin, sevginin, təmizliyin, ülviliyin, saflığın, müdrikliyin axtarışına çıxdı. Yalançılığı, riyakarlığı, ikiüzlülüyü, savadsızlığı insanlıqdan, insaniyyətlikdən, cəmiyyətdən silməyə çalışdı. Bütün bu xüsusiyyətlərə görə qeyd edə bilərik ki, ədibin 11-ci sinif orta məktəb ədəbiyyat dərsliyinə salınan "Açıq kitab" əsəri məzmun xəttinin ilkin tələbinin yerinə yetirilməsinə, əsərdəki obrazların, hadisələrin həyatla əlaqələndirilə bilməsinə xidmət göstərir. Əsərin məzmunu ilə tanış olan şagird "ədəbiyyat və həyat həqiqətləri" məzmun xəttinin tələblərini asanlıqla həyata keçirə bilir. Əsər tam həcmdə iki hissədən və 18 fəsildən ibarətdir. I hissəyə 8, II hissəyə isə 10 fəsil daxildir. İri həcmli bir romandır. Ədəbi təhsilin tələbləri nəzərə alınmaqla 11-ci sinfin ədəbiyyat dərsliyində romanın az bir hissəsi verilmişdir. Ümumilikdə Mir Cəlal yaradıcılığına, əsərin oxusu, məzmununun öyrənilməsi və təhlil üzrə işin təşkilinə 4 saat vaxt ayrılmışdır. Bədii əsərlərin məzmununun öyrədilməsi işində əsas qüsurlarından biri kimi ədəbiyyat dərslərinə ayrılan saat miqdarının az olmasını qeyd edə bilərik. Bu məsələ "Açıq kitab" əsərindən də yan ötmür. İri həcmli bir roman olan "Açıq kitab"ın dərslikdə az bir qisminin verilməsinə baxmayaraq əsərdə şagirdin tədqiqat nəticəsində toxunacağı istiqamətlər daha çoxdur. Müasir dərsdə müəllimin motivasiyası, qoyduğu tədqiqat sualının çoxşaxəli olması əsas götürülür ki, bu da şagirdin axtarıcılıq qabiliyyətinin artmasına gətirib çıxardır. Nəticədə şagird əsəri müstəqil şəkildə, dərs mühitindən kənarda tam həcmdə oxunmasına həvəs göstərir.Müəyyən standartlar əsasında tərtib olunan müasir ədəbiyyat dərsliklərində bədii əsərin həcmcə az bir hissəsinin verilməsi əsas götürülürsə də, bunun əvəzində əsər ətrafında şagirdin müəllimin bələdçiliyi ilə daha çox araşdırma aparmaq, tədqiq etmək, təhlil etmək, müqayisələr etmək, uyğunlaşdırmalar, ümumiləşdirmələr aparmaqla əsərin hərtərəfli öyrənilməsi, təhlilə cəlb olunması əsas sayılır.

"Açıq kitab" əsəri haqqında əlavə olaraq qeyd edə bilərik ki, yaş səviyyəsinə uyğunluq və psixoloji məqamlarına görə əsərin 16, 17 yaşlı bir yeniyetmə şagird tərəfindən tam həcmdə oxunması məqsədə uyğun hesab oluna bilər. Biz burada da ənənəvi təhsil ilə, hərtərəfli yeniliyi və üstünlüyü təmin edən təhsil arasındakı fərqi qeyd edə bilərik. Belə ki, bu əsəri ənənəvi dərs mühitində tədris etmək və əsərin tam həcmdə oxusunun həyata keçirilməsini təmin etmək psixoloji baxımdan düzgün deyildir. Belə ki, dərin həyat lövhələrini əks etdirən əsərdə ananın övladına biganə yanaşması, ögey atanın uşağa laqeyd münasibəti, qətlə təşəbbüs göstərmək kimi ağır psixoloji məqamlar vardır. Avtoritar təlimdə bu psixoloji məqamları açmaq, belə mövzular ətrafında şagirdin fikirlərini öyrənmək, onun hadisələrə necə münasibət bəslədiyini soruşmaq kimi üstünlüklər olmadığından əsərin ənənəvi təlim metodu ilə

tədrisi düzgün olmazdı. Lakin axtarıcılıq, yaradıcılıq tələb edən, hadisələrə doğru istiqamətdə baxmaq, araşdırma aparmaq, oxunulan mövzunun real həyatla əlaqələndirilməsini təmin edən müasir dərs modelində "Açıq kitab" əsərinin oxusunu tam versiyada həyata keçirmək psixoloji baxımdan çətinlik yaratmır. Belə ki, yeni təlim metodu müəllimə imkan yaradır ki, şagirdlə diskussiya aparsın, hadisələri müzakirə etsin, şagirdin daxili aləminə ensin, onun hadisələrə mənfi və ya müsbət münasibət bəslədiyini görə bilsin. Belə olduğu təqdirdə müəllim çətin psixoloji məqamları özündə əks etdirən əsərlərdəki hadisələrə şagirdin düzgün yanaşmasını təmin edə bilər.

"Gənclik həyat, yenilik, sağlam enerji deməkdir. Bu aləmdən kənarda qalmaq mənən ölmək deməkdir" - deyən yazıçı Vahid və Rübabə obrazlarını yaradaraq öz fikirlərinə dayaq vermişdir. Vahid və Rübabə obrazlarını təhlil edə bilən şagird əsəri oxuduğu zaman onların elm, bilik, təhsil həvəskarı, mütərəqqi, yenilikçi, azad ruhlu olmaq istəklərini duymuş olurlar və bu baxımdan özlərini onların həqiqi davamçısı hiss etməlidirlər. Əsərin müzakirəsi zamanı şagird əsl biliyin qarşısında nəinki, Kərim Gəldiyev kimi üzdəniraq, kəmsavad müəllimin, hətta qatı bir cinayətkarın belə heç bir maneəsinin dayana bilməyəcəyini anlayır. Qarağac koluna pənah aparan Kərim Gəldiyevin düşüncəsini, fikirlərini və əməllərini "kölgədə bitən ağacın kölgəsi olmaz " ifadəsi ilə izah edən müəllif bu obrazı sanki həmin ifadədə də bütün açıqlığı ilə göstərməyə çalışmışdır. Yazıçı romanda qəhrəmanların nitqinin fərdiləşdirilməsinə xüsusi diqqət yetirmişdir. Gəldiyevin nitqində işlənən varvarizmlər," əzməsən, əziləcəksən, ayaqlamasan, ayaqlanacaqsan", "mənsəb cəhənnəmin təkində də olsa, enməyi bacar" sözləri onun mənəviyyatsızlığını göstərir. Müəllim bu xüsusiyyətləri nəzərə alaraq əsərin mənfi baş qəhrəmanı haqqında tədqiqat sualını məhz bu aspektdə qura bilər. Məsələn: "Əsl müəllim şagirdin nəzərində həm pedaqoji, həm də insani keyfiyyətlərə görə necə olmalıdır?"

Əsərdə diqqəti çəkən xüsusi məsələlərdən biri şifahi xalq ədəbiyyatı nümunəsi olan atalar sözü və məsəllərə geniş şəkildə müraciət olunmasıdır. Məsələn:" Arxalı köpək qurd basar; Əbləh köpək qaysavadan pay umar; Toyuğun başı kəndə, quyruğu şəhərə sarı dursa quyruq başdan şərafətlidir." Bunun isə fənndaxili inteqrasiyanın gözəl nümunəsi olduğunu qeyd edə bilərik. Əsəri oxuduğumuz zaman atalar sözü və məsəllər bölməsi haqqında nəzəri, praktik biliklərin bir daha təkrarlanması zəruri hesab olunmalıdır. Əsərin bu xususiyyətindən istifadə edərək tədqiqat sualını da bu aspektdə qurmaq olar. Məsələn "yalan ilə dünyanı gəzmək olar, amma qayıtmaq olmaz" atalar sözünün mənasını necə başa düşürsünüz?

Müəllim motivasiya zamanı isə Vahidin təsirli monoloqundan istifadə edə bilər. Monoloqdan təsirlənmiş şagird bədii əsərin bütünlükdə oxusunu həyata keçirməyə hazırlaşa bilər, bu monoloq şagird üçün böyük marağa səbəb ola bilər. Eyni zamanda qeyd edə bilərik ki, artıq İblisin, İsgəndərin təsirli monoloqu ilə tanış olan şagird Vətən, ədalət uğrunda söylənən Vahidin bu monoloqunu da dəyərli fikirlər kimi qəbul edəcəkdir. Əsərdə digər fənlərarası inteqrasiya nümunəsi kimi dahi şair

Məhəmməd Füzuliyə müraciət olunmasını göstərə bilərik. Əsərdə iki məqamda Füzuli qəzəllərinə toxunulur. Biri Rübabənin daxili iztirabları təcəssüm edildiyi zaman Leylinin anasına xitabən dediyi qəzəldir. Füzulinin Leylisi günəş kimi fəzada görünür, Rübabənin yoluna işıq salırdı; sanki o, kədərləri, dərdləri, vahimələri, tərəddüdləri vurub əritmək üçün çıxmışdı. Onun şüaları yerlərə, küçələrə, kölgələrə, bağçalara, daşlara, göy qübbəsi kimi təmiz və qabarıq dayanan dəniz sularına yazırdı:

"Ey munisi-ruzigarım ana.
Qəmxarimü-ğəmgüsarım ana
Mən dari-bəqayə əzm edəndə,
Dünyayə vida edib gedəndə,
Mənsiz çəkib ahlar, fəğanlar
Səhralərə düşdüyün zamanlar,
Düşsə yolun ol olan diyarə,
Ərzi-qəmim eylə ol fikarə,
Zinhar ona olanda vasil,
Xoş kimsədir,ondan olma qafil,
Damanının tut, rizasın istə,
Mən mücrüm üçün duasın istə!..." [ 7, 270 s.]

Digəri isə Səttarzadənin Vahid və Rübabəyə yüksək dəyər verərək Füzulinin kitabını cehiz əvəzi verməsi məqamıdır ki, bu hissə orta məktəb dərsliyində öz əksini tapmışdır.

Məndə Məcnundan füzun aşiqlik istedadı var!
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.

Səttarzadə bu beytləri elə oxudu ki, hamı əl çalmaq, afərin demək istədi, ancaq bu ləzzətli musiqini bir də eşitmək arzusu hamını susdurdu. Səttarzadə kitabı qabağına qoydu, badəni qaldırıb dedi: - Qonaqlar, dostlar! Mən burda, sizin hüzurunuzda qızıma, oğluma - Rübabəyə, Vahidə bir hədiyyə verəcəyəm. Övladıma əqidəmi hədiyyə, cehiz verirəm! - Qoca xanəndə kitabı göyə qaldırdı. Ona baxan gözlərə sanki cavab olaraq daha da qaim səsləndi: - Bunun adı məhəbbətdir. Düzdür, əsl məhəbbət həyatdadır. Ancaq bu kitabda əbədi həyat olmuş bir məhəbbət oxunur. Balalarım! Füzuli kimi sevin!" [10, 125 s.]

Bu beytlər oxunduğu zaman Füzuli yaradıcılığına baş çəkmək, eyni zamanda bu beytlərin əksini tapdığı qəzəlin oxunması dərsin gedişinə rəng qatmış olar.

**Nəticə:** Ümumilikdə qeyd edə bilərik ki, "Açıq kitab" əsərinin orta məktəbdə tədris olunması şagirdin bilik, bacarıq və vərdişlərinin inkişaf etdirilməsində, tədris prosesinə yaradıcı yanaşılmasında müəllimə böyük üstünlüklər verir. Bu üstünlüklərdən yararlanaraq bədii əsərin incəliklərini düzgün istiqamətdə çatdırmaqla, şagirdlərdə yazıçıya, əsərə qarşı maraq yaratmaqla ümumilikdə ədəbiyyatı sevdirmək müəllimin ən ümdə qayəsi olmalıdır.

**Ədəbiyyat:**

1. *Aslanov Yusif. Ədəbi axtarışlar və tədris, Bakı:Elm və təhsil, 2013, 400 s.*
2. *Əlimirzəyev Xalid. Mənəvi borc (Mir Cəlal haqqında xatirələr) Bakı:Nurlan, 2006. 208 s.*
3. *Əhmədov Camal. Ədəbiyyat tədrisi metodikası, Bakı Universiteti Nəşriyyatı, Bakı, 2009, 239 s.*
4. *Mir Cəlal. Biblioqrafiya, Bakı, 2018.*
5. *Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Şərq-qərb, 2005, 383 s.*
6. *Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün ədəbiyyat fənni üzrə dərslik.*
7. *Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti, Bakı, 2018, 208 s.*
8. *Yusifov Fəxrəddin. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2017, 304 s.*

**S.Hüseynoğlu, N.Q.İsmayılova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ismayilovanurcahan65@gmail.com***

# LİRİK ŞEİRLƏRİN TƏHLİLİNİN ƏHƏMİYYƏTİ

***Xülasə***

*Lirik şeirlərin şagirdlər tərəfindən məqsədəuyğun şəkildə qavranılması üçün bədii nümunənin düzgün təhlil edilməsi əsas şərtlərdən biri hesab olunur. İstər ənənəvi, istərsə də müasir təhsildə lirik şeirlərin tədrisində mürəkkəblik həmişə özünü göstərmişdir. Müəllimin də bu mərhələdə əsas vəzifəsi təhlil prosesini səmərəli şəkildə qurmaq, şagirdin bədii parçanı aydın və düzgün istiqamətdə qavraması üçün yol göstərməkdir.*

## ЗНАЧЕНИЕ АНАЛИЗА ЛИРИЧЕСКИХ СТИХОТВОРЕНИЙ

***Резюме***

*Одним из основных условий целенаправленного понимания стихотворений учащимися является правильный анализ художественного образца. Сложность преподавания лирической поэзии всегда была очевидна как в традиционном, так и в современном образовании. Основная задача педагога на этом этапе – эффективно организовать процесс анализа, указать путь ученика к пониманию художественного произведения в четком и правильном направлении.*

## THE IMPORTANCE OF ANALYSIS OF LYRIC POEMS

***Summary***

*İn both traditional and modern education system, there is always some complications in teaching lyrics poems. One of the most specific thing to understand peoms is to analyze the artistic example correctly. In that case, the most important duties of the teachers are to establish the analyzing process correctly and to give the right directions to the students.*

***Açar sözlər:*** *ədəbiyyat, lirika, şagird, müəllim, şeir, lirik təhlil.*
***Ключевые слова:*** *литература, лирика, ученица, учитель, стих,*
***Key words:*** *literature, lyriks student, teacher, poem,*

Ənənəvi təlimi yanaşmaya məxsus proqramlara və ya müasir təlimə məxsus proqramlara nəzər yetirdikdə lirik şeirin tədrisinə xüsusi yer ayrıldığının şahidi oluruq. Səbəb isə hər iki təlim formasında ədəbiyyat fənninin qarşısına qoyulan tələblərin yerinə yetirilməsində, şagirdlərin ədəbi inkişafında lirikanın tədrisi böyük əhəmiyyət kəsb etməsidir.

Şagirdlərin lirik şeirləri digər ədəbi növlərlə müqayisədə çətinliklə qavradığı danılmaz faktdır. Bunun həm obyektiv, həm də subyektiv səbəblərdən irəli gəldiyini qeyd edə bilərik. Məsələn, ənənəvi təlimdə şagirdlər lirik nümunəni yalnız əzbərləməklə kifayyətlənirdilər və nəticə etibarı ilə şagird əsərin ideyasını tam duymamış olurdular. Təəssüf ki, müasir təlimdə bəzi müəllimlər hələ də bu ənənəni davam etdirir. Başqa bir çətinlik isə ədəbiyyatşünaslıqda, xüsusi ilə də, qədim və orta dövrdə yazılmış lirik parçaların tərkibində ərəb və fars sözlərinin üstünlük təşkil etməsidir. Bu problem poetik parçanın dilini şagirdlər üçün ağırlaşdır, əsərin məzmununu tam dərk etməyə mane olur; bir başqa problem isə bəzi poetik nümunələrdə işlənmiş bədii təsvir və ifadə vasitələrinin mürəkkəbliyinin parçanın başa düşülməsini ağırlaşdırmasıdır.

Düzdür, müasir təlimdə bu problemlər müəyyən qədər nəzərə alınmış, dərsliklərə daxil edilən əsərlərin şagirdlərin yaş və psixologiyasına uyğun olmasına diqqət yetirilmişdir. Əsərin təhlili zamanı rəngarəng iş növlərindən, çalışma və tapşırıqlardan istifadə etməklə şagirdin maraq və diqqəti təhlilin üzərinə cəmlənmişdir. Amma bu problemlərin tam həll olunduğu fikrini özündə əks etdirmir.

Ümumitəhsil orta məktəblərdə ədəbiyyat fənninin dərisində lirik parçanın təhlili zamanı şagird əsəri dərində duyub, əsərin ideyasının alt qatına enmə imkanlarına yiyələnirlər. Ədəbiyyat dərslərində bədii əsərin təhlilinə qədər mətnin məzmununun qavranılması üzrə xeyli iş aparılır. Bu işi bədii təhlilə hazırlıq kimi də qəbul edə bilərik. Məsələn, əgər mətnin məzmunu üzrə iş prosesi zamanı bədii təsvir və ifadə vasitələri aydınlaşdırılırsa, təhlil zamanı bədii təsvir və ifadə vasitələrinin rolu müəyyənləşdirilir. Ümumi olaraq təhlil prosesinin məqsədi şairin poetik parçada ifadə etdiyi ideya-bədii xüsusiyyətləri, obrazlar sistemini, bütün xırda incəliyi şagirdlərə mənimsətməkdən ibarətdir.

Yeni təlimi yanaşmada lirik şeirin təhlili prosesinə ənənəvi təlimdən fərqli olaraq nəzərdə tutulmuşdur ki, təhlil müəyyən qədər şagirdin öz ixtiyarına verilsin. Müasir metodik yanaşmanın tələbinə görə təhsil alan müstəqil mühakimə yürütmə bacarığına sahib olmalıdır. Bununla yanaşı, bəzi ədəbiyyat mövzularında "Əsərin təhlilinə hazırlaşın" adı altında başlıq verilmişdir və onlar iki istiqamətdə aydınlaşdırılmışdır. Birincidə (Araşdırın. Fikirləşin. Cavab verin) təhsilalanlara istiqamətlənmiş suallarla şagirdləri təhlilə hazırlamaq, onların müstəqil fikirləri ilə təhlil aparmaqdır. İkincidə (evdə iş) isə artıq şagird müəyyən tapşırıq çərçivəsində müstəqil yaradıcı təhlil işini ortaya qoyur.

Yeni təlimi yanaşmada dərsin mərkəzində şagirdin durduğu qeyd olunsa da, bu prosesdə müəllimin önəmi danılmazdır. Əsərin təhlili zamanı müəllimin rolunu xüsusi ilə qeyd etmək məqsədəuyğundur. Hər bir müəllim həm nəzəri biliyə malik olmalı, həm də əsərin təhlili barədə konkret məlumatlara sahib olmalıdır. Belə olan halda əsərin təhlilinin təşkili daha səmərəli şəkildə qurulur.

Lirik şeirlərin təhlilində mənimsənilməli olan bilik və bacarıqlar kurikulum sənədində konkret şəkildə əks edilmişdir. Məktəb dərsliklərində lirik şeirlərin təhlilinə nəzər yetirdikdə bizə məlum olur ki, əsərin təhlili üçün standartlar və alt standartlar müəyyənləşdirilmişdir. Nümunə üçün VIII sinif ədəbiyyat dərsliyinə nəzər yetirək. "Ədəbiyyat və həyat həqiqətləri" məzmun xəttində ikinci (1.2.Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir) əsas standart lirik şeirin təhlili ilə bağlı məsələlərdəndir.

İkinci əsas standarın birinci alt standartı (1.2.3) bədii nümunələri təsvir və ifadə vasitələrinin (metafora, bədii təzad, kinayə) rolunu aydınlaşdırmağa xidmət edir. Başqa bir alt standartı (1.2.4) bədii nümunələrin ideya-məzmunu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirməyi qarşıya tələb qoyur.

Fikrimizi biraz daha əsaslandırmaq üçün başqa bir məzmun xəttinə-yazılı nitq məzmun xəttinin əsas standartının (3.1.yazılı nitq bacarıqları nümayiş etdirir) alt standartlarına nəzər salaq. Məsələn, (3.1.1) ədəbi nümunələrlə bağlı fikrini müxtəlif üslubda bildirməyi nəzərdə tutulur və ya (3.2.1) əlavə məlumatlara və təəssüratlarına əsaslanmaqla mövzuya münasibəti bildirir.

Yuxarıda qeyd etdiyimiz məlumatlara əsaslanaraq deyə bilərik ki, kurikulumda lirikadan bəhs edərkən bədii parçanın təhlilinə kifayət qədər yer verilmişdir.

Ümumi orta təhsil məktəblərində kurikulum tələblərinə əsaslanaraq hazırlanan ədəbiyyat dərsliyində lirik təhlilə bağlı ümumi vəziyyəti əks etdirmək üçün bir nümunəyə diqqət edək. Dərslikdə tədrisinə üç saat ayrılmış "Dağlar"(A.Ələsgər) şeirinin təhlilinə ikinci saatda yer ayrılmışdır. Məzmun standartlarından ikisi (1.2.3) bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metafora, bədii təzad, kinayə) rolunu aydınlaşdır; (1.2.4) bədii nümunələrin ideya-məzmununu süjet kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirin tapşırıq formasında təhlilə başlamazdan əvvəl şagirdlərə təqdim olunur. Bu tapşırıq dərslikdə "Əsərin təhlilinə hazırlaşın" başlığında təqdim olunmuşdur. Burada şagirdin biliyinin dərinləşdirilməsi üçün mətn verilir və onu oxumaları tələbi qoyulur. Daha sonra "bədii təsvir və ifadə vasitələrinin rolunu aydınlaşdırın" tapşırığının icra olunması tələbi qoyulur.
Sonrakı mərhələdə şagirdlərə "Oxuyun, Fikirləşin, Cavab verin" başlığı altında tətqiqatla bağlı müxtəlif suallar təqdim olunur. Onların bir neçəsinə nəzər yetirək:

- Əsərin başlıca ideyası, sizcə, nədir?
- "Əsərdə müəllifin yurdumuza sonsuz məhəbbəti həsr olunmuşdur" fikri ilə razılaşmaq olarmı? Nə üçün?
- Şeirin bədii gözəlliyini təmin edən vasitələri müəyyənləşdirin. Onların rolunu nümunələrlə əsaslandırın.

Sonda isə şagirdin müstəqil təhlil qabiliyyətini formalaşdırmaq üçün “Evdə iş” başlığı altında tapşırıq verilir. Bu tapırıq üçün əsas tələblər öz əksini dərslikdə tapmışdır.

Dərslikdən gətirdiyimiz bu nümunəyə əsaslanaraq deyə bilərik ki, müasir təlimdə-kurikulumda əks olunmuş standartların yerinə yetirilməsi nəzərə alınmışdır.

*Nəticə* olaraq onu deyə bilərik ki, həm umumi təhsil pilləsində, həm də tam orta təhsil pilləsində ədəbiyyat fənninin tədrisinin mərkəzində bədii əsərin öyrənilməsi durur və bu məqsədin həyata keçirilməsində lirik şeirlərin təhlili xüsusi yer tutmaqdadır. Müasir təlim prinsiplərinə görə də lirik şeirlərin təhlili zamanı maraqlı iş növlərinin tətbiqinə lazımınca yer verilir.

**Ədəbiyyat:**

1. *Əliyev S., Həsənli B., Mustafayeva A., Verdiyeva N., Məmmədova.S. Ədəbiyyat dərsliyi. VIII sinif. Bakı, 2019.*
2. *Əliyev S., Həsənli B., Mustafayeva A., Verdiyeva N., Məmmədova S. Ədəbiyyat dərsliyi. Müəllim üçün metodik vəsait. VIII sinif. Bakı, 2019.*
3. *Hüseynoğlu S. Ədəbiyyatın metodikası. Bakı, 2020.*
4. *Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı,2014.*
5. *Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2007.*

**M.Q.Allahmanlı, L.Z.Həsənova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***leylamuzi@gmail.com***

# QƏHRƏMANLIQ DASTANLARININ TƏDRİSİ PROSESİNDƏ ŞAGİRDLƏRDƏ VƏTƏNPƏRVƏRLİK HİSSİNİN İNKİŞAF ETDİRİLMƏSİ

***Xülasə***

*Xalq ədəbiyyatı şagirdlərə cəsarət, qorxmazlıq, dürüstlük, vətən sevgisi, xalqın mənəvi dəyərlərinə hörmət, təbiəti sevmək və qorumaq kimi nəcib hissləri aşılamaq baxımından müstəsna imkanlara malikdir.Bunun əsas şərtlərindən biri və bəlkə də başlıcası müəllimin pedaqoji qabiliyyətləridir. Bütün bunlar onu deməyə əsas verir ki, şifahi xalq ədəbiyyatının tədrisi prosesində şagirdlərə əxlaqın bütövlüyünü təmin etməyə imkan verən etnopedaqoji nümunələrdən və düzgün iş metodlarından istifadə etmək lazımdır.*

# РАЗВИТИЕ ЧУВСТВА ПАТРИОТИЗМА У СТУДЕНТОВ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ ГЕРОИЧЕСКИХ ИСТОРИЙ

***Резюме***

*На примерах народной литературы можно привить учащимся такие благородные чувства, как мужество, бесстрашие, честность, патриотизм, уважение к нравственным ценностям народа, любовь и защита природы. Одно из главных условий для этого - педагогические способности учителя. Все это дает основание говорить о том, что в процессе обучения устной народной литературе необходимо использовать этнопедагогические примеры и правильные приемы работы, позволяющие студентам обеспечить целостность нравственности.*

# DEVELOPING A SENSE OF PATRIOTISM IN STUDENTS IN THE PROCESS OF TEACHING HEROIC STORIES

***Summary***

*Using examples of folk literature, it is possible to instill in students such noble feelings as courage, fearlessness, honesty, love of country, respect for the moral values of the people, love and protection of nature. One of the main conditions for this is the teacher's pedagogical skills. All this gives grounds to say that in the process of teaching oral folk literature it is necessary to use ethnopedagogical examples and correct methods of work that allow students to ensure the integrity of morality.*

***Açar sözlər:*** *qəhrəmanlıq, dastan, tədris, şagird, vətənpərvərlik, inkişaf*

***Ключевые слова:*** *героизм, дастан, обучение, ученик, патриотизм, разработка*
***Key words:*** *heroism, epic, teaching, student, patriotism, development*

Giriş: Bu gün təhsilin qarşısında duran ən vacib məsələlərsən biri, bəlkə də elə birincisi şagirdlərin hər birində vətənpərvərlik hissinin inkişaf etdirilməsidir. Bu məsələ hər dövrdə öz aktuallığını qoruyub saxlaya bilmişdir. Xalqımız yeni nəslin el-obasına, ulu babalarının adət-ənənələrinə, öz soykökünə və ən əsası da vətəninə sevgi, məhəbbət ruhunda tərbiyə olunmasına həmişə məsuliyyətlə yanaşmışdır. Bu işə həyati əhəmiyyətli məsələ kimi dəyər verilmişdir. Vətənpərvərlik şüuru bir millətin digər millətlərdən fərqlənməsində, onun digər dövlətlər tərəfindən tanınmasında ən əsası isə yaratdığı dövlətin suverenliyi, varlığı ilə ölçülür. Hər bir insan öz vətəndaşlıq borcunun müəyyən bir hissəsini öz vəzifəsini layiqincə yerinə yetirməklə ödəmiş olur. Müəllim isə vətənini, millətini, dövlətini və dinini düzgün anlayan və sevən, düzgün tərbiyədə olan vətənpərvər şagirdlər yetişdirməklə vətəndaşlıq borcunun bir hissəsini ödəmiş olur.

Əsas hissə: İbtidai siniflərdə vətənpərvərlik hisslərinin ilkin təməl daşları qoyulursa, yuxarı siniflərdə artıq şagirdlərə vətənpərvərlik haqqında mövzular faktlara uyğun, tarixdə iz qoymuş hadisələr keçirilir. Orta məktəbdə müəllim keçdiyi hər bir mövzu ilə bərabər şagirdlərə əlavə olaraq bu günümüzdə bütün dünyada baş verən hadisələri, onların səbəblərini (təbii ki, məktəblilərin yaşını və qavrama gücünü nəzərə alaraq) qismən izah etməyə çalışmalıdır. Bütün vətənə sevgi ilə bağlı dərslərdə müəllim şagirdlərin mövzunu tam dərk etməsi üçün yalnız bizim dövlətimizin azadlıq uğrunda çəkdiyi əzablı yollardan deyil, bütün dünya xalqlarının öz azadlıqları uğrunda verdikləri mübarizədən söz açmalıdır. Beləliklə də, şagirdlərdə vətənə sevgi hissi mükəmməl şəkildə inkişaf etmiş olur.

Ədəbiyyat həyatı əks etdirdiyi üçün həyatı anlamağın ən gözəl vasitələrindən biridir. Elm faktlar toplusu olduğu üçün onu yalnız alimlər anlayır. Lakin ədəbiyyat isə bütün cəmiyyətin anlayacağı dildə yazılır və öyrənilir. Ədəbiyyat ruhu bəsləməklə yetinmir, həmçinin onu oxuyanı düzgün istiqamətləndirir. Ədəbiyyat öz daxilində yaranma formasına görə iki yerə ayrılır. İlk olaraq xalq tərəfindən yaradılan, dildən-dilə gəzən şifahi yaradıcılıq nümunələri, daha sonra isə belə şifahi şəkildə yaranan nümunələrin qələmə alınması vasitəsilə yazılı nümunələr meydana gəldi.

Azərbaycan ədəbiyyatında folklorşünaslıq xeyli uğurlu yol qət etmişdir. Ümumtürk dünyasında folklorumuz əsaslı izlər qoymuşdur ki, günümüzdə folklorun öyrənilməsi də mühüm məsələlərdən biridir. Qəhrəmanlıq tarixi adətən vətənin bütövlüyünün pozulma təhlükəsi olduqda, xüsusən yadelli düşmənlərlə mübarizə aparan zaman formalaşır. Bu zaman döyüşçüləri mübarizənin sonunun gözəl olacağına inandırmaq və ruh yüksəkliyi yaratmaq üçün vətən-

pərvərlik ruhunda atalar sözləri, şeirlər, qəhrəmanlıq nəğmələri, qəhrəmanlıq dastanları yaradılmış və dildən-dilə düşmüşdür. Şifahi xalq ədəbiyyatının ən gözəl nümunələrindən olan dastanlar əslində ozan yaradıcılığı vasitəsilə ədəbiyyata gəlmişdir. Dastan yaradıcılığı ümumtürk xalqlarının vahid düşüncəsinin göstəricisidir. İlk yaranan dastanlarda, əsasən, dünyanın necə yaranmağı ilə bağlı fikirlər öz əksini tapmışdır. Daha sonralar yaranan dastanlarda dünyanın necə yaranması və xalqların necə formalaşmasından deyil, artıq mübarizələrdən söhbət gedir. Dost və düşmən münasibətləri, döyüşlər, onların yaranma səbəbləri, müsibət və qırğınlar haqqında məlumatlar verilir.

Azərbaycan ədəbiyyatında qəhrəmanlıq dastanlarının ən gözəl nümunələri sırasında "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm" və s. dastanları göstərə bilərik. Bu dastanların hər biri öz dövrünün aynasıdır. Qəhrəmanlıq dastanlarımızda göstərilən vətənə sevgi, qorxmazlıq, cəsurluq və haqq-ədalət uğrunda mübarizə bu günümüzə də aiddir. Bitən hər gün tarixə çevrilir. Bu dastanların tədrisi zamanı müəllimlər dastandakı hadisələrdən nümunələr gətirməklə, qəhrəmanların hansı məqsədləri qarşılarına qoyduqlarını izah etməklə qəhrəmanlıq dastanlarının tədrisi zamanı şagirdlərdə vətənpərvərlik hissini mükəmməl şəkildə inkişaf etdirə bilərlər.

Qəhrəmanlıq dastanlarımıza nümunə olaraq göstərə biləcəyimiz ən dəyərli abidə "Kitabi-Dədə Qorqud" (bütöv adı "Kitabi-Dədəm Qorqud əla lisani taifeyi-Oğuzhan) dastanıdır. Soykökümüzə qayıdışda, milli-mənəvi şüurun yüksəlişində "Kitabi-Dədə Qorqud" dastanının oyada biləcəyi təsiri başqa şifahi və yazılı abidələrdə görmək demək olar ki, mümkün deyil. "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan türklərinə öz milli mənşəyi, mənəvi dəyərləri, ədəbiyyatı, folkloru, həyat tərzi və dünyagörüşü baxımından məxsusluğunu hər cəhətdən sübut edir. Eposun milli tutumu onun özündən sonrakı dövrlərdə də, Azərbaycan xalqının düşüncə gücünün inkişafına, şifahi xalq ədəbiyyatının genişlənməsinə qüvvətli təsir göstərə bilib. Dastanda bir şəxsiyyətin fiziki, əqli, mənəvi və estetik cəhətdən formalaşmasına kömək edən bir çox dəyərli öyüd və nəsihətlər, aforizmlər vardır. "Kitabi-Dədə Qorqud" dastanı epos olmaq baxımından bu gün cəmiyyətimizdə güclü aktual mövqeyə malikdir. Abidə ümumi epos təfəkküründə yeni mərhələyə bir növ keçid sayılır. Belə demək olar ki, tarixi abidə ümumi türk xalqlarının əsas və ana kitabıdır. Dastanda zamanla real olmayan, xəyal gücünə uyğun yaradılmış nümunələri real həyat hadisələri və qəhrəmanları əvəz etmişdir. Hazırda qəhrəmanlıq dastanının Drezden kitabxanasındakı nüsxəsi bir müqəddimə və on iki boydan, Vatikan nüsxəsi isə bir müqəddimə və altı boydan ibarətdir. "Kitabi-Dədə-Qorqud" dastanı müəyyən tarixi dövrdə etnoslararası müharibələrin və münaqişələrin nəticəsi olaraq meydana gəldiyindən onun ən əsas məzmununu qoçaqlıq, qəhrəmanlıq, vətənpərvərlik kimi dəyərli mövzular təşkil edir. Dastanın tədrisinin ən əsas məqsədlərindən biri də şagirdlərin mənəvi cəhətdən güclənməsinə,

onun daxili dünyasının zənginləşməsinə kömək etməkdir. Müstəqilliyimizin, milli yaddaşımızın güclənməsində, böyüməkdə olan yeni nəslin milli və mənəvi dəyərlər əsasında yetişdirilməsində, tarixən formalaşmış bu dəyər və ənənələrin gələcək nəsillərə ötürülməsində "Kitabi-Dədə Qorqud" dastanının zəngin imkanları vardır. Dastandakı igidlərin vərənpərvərlik tərbiyəsi, vətən, el-obanın müdafiəsi yolunda əzabları müasir dövrümüz üçün əsl tərbiyə və nümunə məktəbidir. Hal-hazırda bu dastan haqqında məlumatı olmayan hər hansı bir alim türk xalqlarının tarixi, mədəniyyəti, psixologiyası, etnoqrafiyası, folkloru, mənəvi dünyası və ən əsası da qəhrəmanlığı, vətənpərvərliyi haqqında hər hansı bir tədqiqat işini, araşdırmanı apara bilməsi mümkün deyil.

Azərbaycan xalq yaradıcılığında "Koroğlu" dastanı böyük ədəbi-bədii dəyərə, dərin ideya məzmuna malik qiymətli incilərdəndir. Bədii sözün ecazkar gözəlliyi və qüdrətli təsirini yaşadan bu dastan gənc nəslə vətənpərvərlik, mərdlik, doğruluq, beynəlmiləlçilik, təbiət gözəlliklərinə məhəbbət kimi keyfiyyətlərin aşılanmasında qiymətli mənbə və təsirli vasitədir. Həm ədəbi, həm də bədii dəyərə malik bu sənət abidəsi 17 qoldan ibarətdir. Zamanında yaradılan və hazırda tədqiq olunan hər bir qol özü ayrılıqda müstəqil bir məna xüsusiyyətlərinə malikdir və ayrı-ayrılıqda hamısı müstəqil əsər təsiri bağışlayır. Hər qolda vətənpərvərlik, qəhrəmanlıq, mərdlik, mübarizlik kimi dəyərli keyfiyyətlər təsvir olunur. Orta məktəblərimizdə verilən proqrama uyğun olaraq, həmçinin ali məktəblərin filologiya fakültələrində "Koroğlu" dastanının tədrisinə ayrıca saat verilir. Bu əsər vasitəsilə şagirdlərdə vətənpərvərlik hissləri daha da inkişaf etdirimək, eləcə də öz soy-kökümüzə hörmət, məhəbbət kimi duyğular aşılamaq daha asandır. Bu cəhətdən müəllimlər bu əsərin tədrisinə xüsusi diqqət yetirməli və dastanın tədrisi zamanı vətənpərvərliklə bağlı olan məqamların üzərində daha çox dayanmalıdır.

Dövrünün ən məşhur qəhrəmanlıq dastanlarına "Qaçaq Nəbi", "Qaçaq Kərəm" və digərlərini aid etmək olar. Dastanların hər birinin fərqli məkanları, dostları var idi. Lakin hər birinin ortaq cəhəti vətən, millət uğrunda verdikləri mübarizələr idi. Bu qaçaqlar yalnız Azərbaycanda deyil, xarici ölkələrdə də tanınmış, məqsəd və arzularına görə böyük rəğbət qazanmışdır. Hal-hazırda bu dastanlar orta məktəbdə ayrıca müstəqil mövzu kimi tədris olunmasa da, müəllimlər sinifdənxaric oxu vasitəsi kimi şagirdləri bu dastanların mütaliəsinə cəlb edə və onlarda vətənə, millətə sevgi; haqsızlığa, zülmə qarşı mübarizə kimi hissləri inkişaf etdirə bilərlər.

Nəticə: Bütün qəhrəmanlıq dastanlarının vahid məqsədi vardır. Bu məqsəd şagirdlərdə hələ uşaqlıqdan haqsızlığa, zülmə, ədalətsizliyə kəskin etiraz; dövlətimizə, millətimizə, adətlərimizə, vətənimizə sevgi yaradır. Eyni zamanda onların bir şəxsiyyət kimi formalaşmalarına yardım edir. Tarixi faktların bəzilərində müəyyən dəyişikliklər ola bilər, lakin həm ədəbiyyat, həm də tarix birlikdə inteqrativ şəkildə öyrədildikdə hadisələr uşaqlar üçün daha

aydın olur. Məktəbdə təhsil alan uşaqlar dövlətin təməlinin əsas hissələrindən biridir. Ona görə də düzgün tərbiyə ən vacib amildir. Məhz bu məsələdə qəhrəmanlıq dastanlarının tədrisinin özünəməxsus yeri var. Qəhrəmanlıq dastanlarının tədrisi nəticəsində şagirdlərdə vətənpərvərlik hissinin inkişaf etdirilməsi günümüzün aktual məsələlərindən biridir və hər bir müəllim bu dastanların tədrisinə xüsusi qayğı və diqqətlə yanaşmalıdır.

**Ədəbiyyat:**

1. *Azərbaycan ədəbiyyatı tarixi. I cild. Bakı: Elm, 2004, 353 s.*
2. *Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, 477 s.*
3. *Hacıyev T. "Dədə Qorqud kitabı: tariximizin ilk yazılı dərsliyi. Bakı: Elm və təhsil, 2014, 344 s.*
4. *Həsənli B. Ədəbiyyatın tədrisi metodkası. Bakı: Müəllim, 2016, 208 s.*
5. *İsayev İ. Pedaqoji irsimizdən: Molla Vəli Vidadidən Hacı Kərim Sanılıyadək. Bakı: ADPU, 2014, 406 s.*
6. *İsmayılova M. XIX əsrin sonu, XX əsrin əvvəllərində Şamaxıda təhsil və pedaqoji fikrin inkişafı. Bakı: Elm və təhsil, 2019, 184 s.*
7. *Мордовченко Н. Белинский и русская литература его времени. Москва: Ленинград: Гос. изд-во художественной лит., 1990, 282 с.*
8. *Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün ədəbiyyat proqramı. 2012, 205 s.*
9. *Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı:ADPU, 2019, 349 s.*

**N.Q.Cümşüdova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ncumshudova@mail.ru***

# TƏBİƏTLƏ TANIŞLIQ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN MƏNƏVİ TƏRBİYƏSİNİN VASİTƏSİ KİMİ

***Xülasə***

*Məqalədə, məktəbəqədər yaşlı uşaqların təbiətə münasibəti, eyni zamanda müxtəlif yollarla təbiətlə tanışlıq üzrə aparılan işlərdə məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsini daha da inkişaf etdirmək məqsədilə hansı təsirli vasitələrdən istifadə edilməsindən danışılır.*

1. *Uşaqları daha çox heyrətləndirən, onların mənəvi hisslərini oyadıb heyrətə gətirən təbiət mənzərələri.*
2. *Təbiətdəki bitki və heyvanat aləminin ayrı-ayrı nümunələri.*
3. *Müxtəlif otlara, çiçəklərə, meyvələrə həsr olunan didaktik oyunlar.*
4. *Təbiət gözəlliklərini əks etdirən incəsənət əsərləri (müvafiq şeirlər, tapmacalar, nağıllar, mahnılar, mənzərə rəsmləri)*
5. *Texniki vasitələr.*

# ЗНАКОМСТВО С ПРИРОДОЙ КАК СРЕДСТВО ДУХОВНОГО ВОСПИТАНИЯ ДОШКОЛЬНИКОВ

***Резюме***

*В статье рассматривается отношение дошкольников к природе, а также использование эффективных средств дальнейшего развития духовного воспитания дошкольников в работе, проводимой разными способами по знакомству с природой.*

1. *Природные пейзажи, которые больше всего поражают детей, пробуждают их душевные чувства и восхищают.*
2. *Отдельные примеры животного и растительного мира в природе.*
3. *Дидактические игры, посвященные разным травам, цветам и фруктам.*
4. *Произведения искусства, отражающие красоты природы (актуальные стихи, загадки, сказки, песни, пейзажи).*
5. *Технические средства.*

# ACQUAINTANCE WITH NATURE AS A MEANS OF SPIRITUAL EDUCATION OF PRESCHOOL CHILDREN

***Summary***

*The article considers the attitude of preschoolers to nature, as well as the use of effective means of further development of spiritual education of preschoolers in the work, conducted by different methods of acquaintance with nature.*

1. *Natural landscapes, which most of all amaze children, awaken their soulful feelings and admire them.*
2. *Separate examples of animal and plant life in nature.*
3. *Didactic games dedicated to different herbs, flowers and fruits.*
4. *Works of art, reflecting the beauty of nature (actual poems, riddles, fairy tales, songs, landscapes).*
5. *Technical means.*

***Açar sözlər**: məktəbəqədər, uşaq, təbiət, tərbiyə*
***Ключевые слова**: дошкольное, ребенок, природа, воспитание*
***Key words**: preschool, child, nature, upbringing*

İnkaredilməz həqiqətdir ki, bəşər sivilizasiyasının ayrı-ayrı mərhələlərində peşəsindən, məşğuliyyət və təhsil səviyyəsindən asılı olmayaraq adamların, o cümlədən böyüməkdə olan nəslin ümumi tərəqqi, mədəni nailiyyətləri zəminində mənəvi tərbiyəsini ən təsirli vasitələrlə inkişaf etdirmək, elmi-pedaqoji əsaslarda formalaşdırmaq xüsusi aktuallıq kəsb etmişdir.

Məktəbəqədər yaşlı uşaqların təbiətə münasibəti anlayışında problem baxımından iki cəhətə xüsusi diqqət yetirilməlidir. Bunlardan birincisi uşaq həyatının 3-cü ilindən başlayaraq ayrı-ayrı uşaqların ətraf aləmə-təbiətdəki gözəlliyə göstərdiyi marağın istiqaməti, ikincisi isə təbiət haqqında qavrayışların təzahürüdür.

Məktəbəqədər dövrdə uşaqların təbiətə göstərdikləri maraq təbii sayılmalıdır. Çünki maraq, uşaqlıq çağlarından başlamış, yetkin yaşa qədər, şəxsiyyətin ümumi inkişafı ilə birlikdə, oyun, təlim və əmək fəaliyyəti prosesinə qədər mürəkkəb inkişaf yolu keçir.

Uşağın ilk maraqları maddi, həmçinin mənəvi tələbatının ödənilməsinə yönəlmiş olur. Uşaq böyüdükcə onda ətrafındakı mühitə bələdləşmə tələbatı doğur. Bu əsasda o, hələ ilk yaşından bilavasitə təsir edən cisimlərlə maraqlanmağa başlayır. Onun üçün yeni olan parlaq rəngli cisimlərə diqqət yetirir. Lakin bu ilk maraqlar davamsız və keçici olur. Bilavasitə təsir edən cəlbedici cisim başqası ilə əvəz edildikdə, əvvəlki maraq da asanlıqla dəyişir [3, s. 249].

Deməli, marağın səmtinə və obyektinə müvafiq olaraq təbiətlə tanışlıq zamanı estetik hiss, həyəcan oyadılmasının dinamikası da nəzərə alınmalıdır. Ümumi estetik hisslərin qüvvəsi, müxtəlifliyi və zənginliyi hər bir uşağın emosional yaddaşından, psixikasının estetik təəssüratlarını saxlayan xüsusi keyfiyyətdən və onu müəyyən vaxtlarda həyəcanlandıran anlardan asılıdır. Lakin məktəbəqədər yaşlı uşaqlarda müxtəlif səpgili estetik hisslər və estetik qavrama da təbiətlə tanışlıq prosesində daha da fəallaşır.

Psixoloq E.İ.Zalkindin tədqiqatlarına əsaslanaraq deyə bilərik ki, artıq orta qrupda təkcə ətraf təbiətin gözəlliyini müşahidə etmək qabiliyyəti tərbiyə

etmək azdır, həm də onu yaratmağa can atmaq, əsasən bitkilərə, çiçəklərə qulluq etmək üçün həvəs artırmaq, tərbiyə etmək lazımdır.

E.İ.Zalkind belə hesab edir ki, təbiətə müsbət münasibət tərbiyə etmək uşaqların aldıqları biliklərlə təbiəti mühafizə təcrübəsi qarşılıqlı əlaqə vasitəsilə olmalıdır.

"Uşaq həyatının ilk ilindən başlayaraq hisslərin tərbiyəsi mühüm pedaqoji vəzifə kimi çox vacib olmaqla uşağın əqlinin tərbiyəsində az rol oynamır. Çünki yeni biliklərin mənimsənilməsi və müvafiq bacarıqların aşılanması gələcəkdə məqsədindən asılı olmayaraq uşağın insanlara, ətraf aləmə münasibətinin (emosional-mənəvi yanaşmasının) xarakteri ilə şərtlənir". [4, s.16]

Əlbəttə, uşağın emosionallığı – emosional həssaslığı mənəvi hisslərlə sıx bağlıdır. Mənəvi hisslər uşaqlıq illərindən başlayaraq insanın ən ali hissləri sırasına daxil olmaqla onun həyatının əsas mahiyyətini, fəaliyyətini, ətraf aləmə münasibətini müəyyən edir.

Bütün təbiət hadisələri bir-biri ilə əlaqədardır və bir-biri ilə şərtlənirlər. Məktəbəqədər yaşlı uşaqlar bu əlaqələri başa düşə bilərlərmi? Psixoloqların çoxsaylı tədqiqatları inandırıcı surətdə göstərir ki, bu yaşda uşaqlarda məntiqi fikrin, düşüncənin elementar, sadə yorumları toplanmağa başlayır. Bir sıra psixoloq-alimlər belə hesab edirlər ki, uşaqlar hətta hadisələri yaradan səbəbləri də başa düşməyə qabildirlər. Ancaq bunun üçün aşağıdakı səbəblər vacibdir:

1. Uşaqların hadisəyə müvafiq münasibəti.
2. Hadisələrin bir-biri ilə əlaqə və münasibətləri ilə real tanışlıq.

Əlbəttə, təbiətlə tanışlıq prosesində uşaqların hər hansı təbiət hadisələrindən fərəhlənməsi, bitki və heyvanat aləmi haqqında daha çox öyrənməyə maraq göstərmələri təbii sayılmalıdır. Bu prosesdə yaranan hiss bu və ya başqa şəkildə həyəcan, həzzlə də bağlıdır. Çünki uşaq seyr etdiyi hər hansı təbiət mənzərəsindən həzz alır, təəccüblənir, fərəhlənir. Bu hisslərin mənbəyi isə bizi əhatə edən aləmdədir, təbiətdədir.

Təbiətdə gözəllik rənglərin uyarlığı, çalarları, təbiət hadisələri, heyvanlar, meşələr, çəmənlər, çöllər, dağlar, çaylar, göllər – onlara xas olan harmoniya, simmetriya, dinamika, ritm, səslərin ahəngi və s. bütün bunlar insana təsir edir və onda mənəvi aləmin zənginləşməsinə zəmin yaradır.

K.D.Uşinskinin təbirincə desək, təbiət öz növbəsində heyrət doğuran tərbiyəedici təsirə malikdir. Doğrudan da təbiətin təsir qüvvəsi çoxsahəli və dinamikdir. Uşağın məktəbəqədər dövrdə qazandığı bilik, bacarıq və vərdişlər müəyyən dərəcədə onun gələcəyini təyin edir. Şəxsiyyətini formalaşdırır. Maraqlıdır ki, psixoloqlar insanların müşahidə və təcrübədə qazandıqlarının çox hissəsini, erkən yaşlardan aldıqlarını və bunun onlarda bütün həyatı boyu mühafizə olunduğunu qeyd edirlər. Məktəbəqədər dövrdə uşaqların təbiətlə, təbiət gözəllikləri ilə ünsiyyətdən aldıqları təəssüratın zənginliyini ömrü boyu yaddan çıxarılmadığını da bildirirlər.

Aydın məsələdir ki, uşaqları əhatə edən təbiət Vətən təbiətidir. Bu cəhətdən onları təbiətlə bağlayan ilk ünsiyyət eyni zamanda Vətənlə olan ünsiyyət, Vətən təbiətinə olan məhəbbətdir. Təbiətlə ilk tanışlıq həm də vətənlə ilk tanışlıqdır". [2, s.36]

Çox gözəl, yerində deyilmişdir. Doğrudan da doğma təbiətin məktəbəqədər yaşlı uşaqlarda yaratdığı ülvi hisslər, emosional heyrət çoxmənalı, geniş və əhatəlidir. Təbiətlə ünsiyyətdən yaranan bu hisslər heç şübhəsiz, mahiyyətinə, xarakterinə görə əxlaqi, estetik, mənəvi səciyyə daşıyır.

Birinci, məktəbəqədər dövrdə əlvan təbiət lövhələri, təbiətin florası və faunası ilə tanışlıq zamanı uşaqlarda emosional həssaslıq imkanları qabaqcadan nəzərə alınmalıdır. Günün, ayın, ilin müxtəlif vaxtlarında ayrı-ayrı təbiət lövhələrinin necə görkəm almasını uşağa öz rəngində, öz təbiətində təqdim etmək bu baxımdan mühüm psixoloji-pedaqoji problem kimi diqqət mərkəzində saxlanılmalıdır. Hər bir valideyn, tərbiyəçi unutmamalıdır ki, təbiətin səsləri, mənzərələri, hadisələri müxtəlif olduğu kimi, onların doğurduğu hisslər, emosional vəziyyət də müxtəlif olur.

İkinci, məktəbəqədər dövrdə təbiət vasitəsilə uşaqların emosional-mənəvi inkişafı, yəni müxtəlif vaxtlarda, obyekt və hadisələrdən təsirlənmə, həyəcanlanma qabiliyyətinin inkişafı diqqət mərkəzində saxlanılmalıdır. Hər bir tərbiyəçi, valideyn bilməlidir ki, uşaq qoynuna ayaq açdığı doğma yurdun baharı, yayı, qızıl payızı, dumanlı, qarlı qışından necə təsirlənir? Həmin anda hansı emosiyalarla yaşayır? Hansı hisslər keçirir? Bu hisslər onun uşaqlıq həyatında, mənəvi aləmində özünü necə büruzə verir?

Üçüncü, təbiət və uşaq fantaziyası. Məlum olduğu kimi təbiətdəki hər çiçəyin, hər gülün, hər otun, yaşıllığın, hər günəşli, yağmurlu, qarlı günün, açıq səmanın uşaq qəlbinə göstərdiyi təsir nəhayətsizdir. Uşaqların təbiətin qoynunda olmaları bu təsirləri, bu hissləri bir qədər də qüvvətləndirir. Təbiəti müşahidədən aldıqları zəngin təəssürat hər bir uşağın qəlbinin diktəsi ilə şirlər, nağıllar, rəsm işləri yaratmağa və müxtəlif təbiət materiallarından (qoza, qurumuş bulaq, ağac kötüyü, müxtəlif formalı daş parçaları və s. müəyyən bir fiqur, maket düzəltməyə təhrik edir.

Təbiətlə tanışlıq üzrə aşağıda göstərilən iş formaları eyni zamanda uşaqların mənəvi tərbiyəsində çox böyük rol oynayır, daha effektli təsir gücünə malik olur:

1. Qrup otaqları daxilində aparılan təlim məşğələləri;
2. Canlı təbiət guşələrində aparılan işlər;
3. Bağçanın həyətində və digər təbiət obyektlərində gəzintilər;
4. Təbiət gözəllikləri daha çox nəzərə çarpan və təbiət gözəllikləri ilə zəngin olan yerlərə gəzintilər və ekskursiyalar.

Göstərilən iş formalarının hər birinin məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində özünəməxsus rolu, spesifik təsir imkanları var.

Problemin belə bir cəhətini də qeyd etmək zəruridir ki, müxtəlif formalarda başlıca yollarla təbiətlə tanışlıq üzrə aparılan işlərdə məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsini daha da inkişaf etdirmək məqsədilə ən təsirli vasitələri aşağıdakı şəkildə qruplaşdırmaq daha məqsədəmüvafiqdir:

1. Uşaqları daha çox heyrətləndirən, onların mənəvi hisslərini oyadıb heyrətə gətirən təbiət mənzərələri.
2. Təbiətdəki bitki və heyvanat aləminin ayrı-ayrı nümunələri.
3. Müxtəlif otlara, çiçəklərə, meyvələrə həsr olunan didaktik oyunlar.
4. Təbiət gözəlliklərini əks etdirən incəsənət əsərləri (müvafiq şeirlər, tapmacalar, nağıllar, mahnılar, mənzərə rəsmləri)
5. Texniki vasitələr.

Məktəbəqədər tərbiyə ocaqlarında təbiətlə tanışlıq üzrə ən əlverişli yollarla aparılan işlərdə istinad olunan formaların, vasitələrin hər biri mənəvi-emosional təsir qüvvəsinə malikdir. Ən böyük, ən qüdrətli varlıq olan təbiətə, ayrı-ayrı təbiət hadisələrinə onların mahiyyəti ilə yaxından tanış olmağa maraq və səy etməyə məhz məktəbəqədər dövrdən fikir verilməlidir. Hər gün gördüyümüz, lakin əhəmiyyət vermədiyimiz təbiət lövhələrinin mənəvi təsir xüsusiyyətləri gəzintilər, ekskursiyalar, müxtəlif xarakterli müşahidələr prosesində uşaqlara onların verdiyi suallar, gəldiyi qənaətlər əsasında çatdırılmalıdır.

Cəsarətlə deməliyik ki, görkəmli pedaqoq V.A.Suxomlinskinin vaxtilə apardığı həmin eksperimental təcrübələr bu gün də maraqlıdır, bu nəinki ibtidai sinif şagirdləri, eyni zamanda məktəbəqədər yaşlı uşaqlar üçün də xarakterikdir.

"Qoy uşaq gözəllikləri hiss etsin və ondan həyəcanlansın, qoy Vətənin təcəssümü olan obrazlar onun ürəyində və hafizəsində həmişəlik qalsın. Gözəllik – insaniyyətin, xeyirxah hisslərin, səmimi münasibətlərin canı və qanıdır" (3, s.40).

**Ədəbiyyat:**

1. *Azərbaycan Respublikasında təhsilin məktəbəqədər Dövlət standartı və proqramı. Bakı, 2010.*
2. *Əliyeva Ş. Məktəbəqədər aktual pedaqogikanın problemləri. Bakı, ADPU, 2010.*
3. *Mursaqulova R., Əliyeva Ş. Bağçayaşlı uşaqların təbiətlə tanış edilməsi metodikası. Dərs vəsaiti., Bakı, ADPU, 1993.*

**S.N.Qurbanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***qurbanovasebine518@gmail.com***

# HÜSEYN CAVİDİN "ANA" MƏNZUM DRAMININ TƏHLİLİNƏ DAİR

***Xülasə***

Ümumtəhsil məktəblərində dramatik əsərlərin tədrisinə xeyli yer verilmişdir. Bu ədəbi növə məxsus ilk əsərlərin tədrisi isə 8-ci sinifdə həyata keçirilir. Daha dəqiq deyilsə, 8-ci sinifdə H.Cavidin "Ana" mənzum dramının tədrisi ilə dramatik növə məxsus əsərlərin öyrənilməsinə başlanılır. Əsərin tədrisinə ayrılmış 4 saatın 2 saatı məzmunun öyrənilməsinə, 2 saatı isə təhlil üzrə işə həsr olunur.

Məqalədə "Ana" əsərinin təhlilinə həsr olunmuş dərsin təsviri verilmişdir.

# К АНАЛИЗУ ДРАМЫ ГУСЕЙНА ДЖАВИДА "МАТЬ"

***Резюме***

Большое внимание уделяется преподаванию драматических произведений в общеобразовательных школах. Обучение первым произведениям этого литературного жанра осуществляется в 8 классе. Если не точнее, в 8-м классе изучение драматических произведений начинается с преподавания стихотворной драмы Х.Джавида «Мать». Из 4 часов, отведенных на обучение работе, 2 часа отводится на изучение содержания, 2 часа – на анализ.

# ON THE ANALYSIS OF HUSSEIN JAVID'S "MOTHER" DRAMA

***Summary***

A lot of attention is paid to the teaching of dramatic works in secondary schools. The teaching of the first works of this literary genre is carried out in the 8th grade. If it is not more precise, in the 8th grade, the study of dramatic works begins with the teaching of H.Javid's verse drama "Mother". Of the 4 hours devoted to teaching the work, 2 hours are devoted to the study of the content, and 2 hours are devoted to analysis.

***Açar sözlər:*** *orta məktəb, dərslik, dramatik növ, təhlil xüsusiyyətləri*
***Ключевые слова:*** *средняя школа, учебник, драматический тип, особенности анализа*
***Key words:*** *high school, textbook, dramatic type, analysis features*

**Giriş.** Orta məktəbdə hər üç ədəbi növə məxsus əsərlərin tədrisinə geniş yer verilir. Lirik, epik əsərlərin tədrisi aşağı siniflərdən həyata keçirilsə də, dramatik əsərlərin öyrədilməsinə 8-ci sinifdən başlanılır. Elmi-metodik tədqiqat-

larda təhlil prosesində, ümumiyyətlə bədii əsərlərin öyrədilməsində növ və janr xüsusiyyətlərinin nəzərə alınmasının vacib olmasından az danışılmamışdır. Bu və ya digər janra məxsus əsərlərin təhlilində tətbiq olunan metod, priyom, iş növlərinin arasında fərqin olması təbiidir. Bunların müəyyənləşdirilməsi əsasında metodik tövsiyələrin hazırlanması, şübhəsiz, məktəb təcrübəsində ciddi praktik kömək olardı.

Etiraf edilməlidir ki, dramatik əsərlərin tədrisi epik, lirik əsərlərin öyrədilməsi yollarından mürəkkəbliyi ilə fərqlənir. Dram əsərlərinin tədrisi çətindir. Bu çətinlik ədəbi növün mahiyyətindən, özünəməxsusluğundan irəli gəlilir. Muasir tədris proqramında dramatik əsərlərin öyrədilməsi də üç mərhələdə reallaşır: oxu, məzmun üzrə iş, təhlil. Təhlil sonuncu və həlledici mərhələdir. O, müəllimdən və şagirddən gərgin iş, böyük zəhmət tələb edir.

**Əsas hissə**. Bədii əsərlərin, o cümlədən dramatik əsərlərin təhlilində əhatə olunan komponentlər həm çox, həm də mürəkkəbdir. Dramatik əsərlərin təhlilində əhatə olunan komponentlər aşağıdakılardır:

1. Əsərin mövzu və ideyası;
2. Obrazların təhlili;
3. Əsərin konflikti və problematikası;
4. Əsərin bədii xüsusiyyətləri (dil, üslub, obrazlılıq yaradan vasitələr, kompozisiya və s.)

Əsərin təhlilinə başlayarkən ilk növbədə əsərin yazıldığı tarix müəyyənləşdirilməlidir. Əsərin yazıldığı dövrdə sosial-siyasi həyat, dövrün ədəbi tələblərinin yazıçının qarşısında qoyduğu şərtlər təhlil prosesində aydınlaşdırılmalı olan məsələlərdəndir. Həmçinin əsəri təhlil edərkən yazıçının yaradıcılığında, eləcə də ədəbiyyat tarixində tutduğu yer də şərh edilməlidir.

Aşağıda "H.Cavidin "Ana" əsərinin təhlili" mövzusunda təşkil etdiyimiz eksperimentdən nümunəni təqdim edirik.

Dərs üçün aşağıdakı məzmun standartları seçilmişdir.

| Standart | Təlim nəticəsi |
|---|---|
| 1..2.2. Obrazların nitqinə, bağlı olduqları məişət təsvirlərinə əsaslanmaqla səciyyələndirir. | Fərqli vəziyyətlərdə nitqindən çıxış etməklə obrazı səciyyələndirir. |
| 1.2.4. Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir. | Dramın ideya-məzmununu şərh edir, əsaslandırılmış münasibət bildirir |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini müqayisələr aparmaqla şərh edir. | Dramla bağlı fikirlərini müqayisə əsasında şərh edir. |

| | |
|---|---|
| 2.2.1. Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir. | Dramla bağlı müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir. |

Dərsin gedişi

Dərsi ilk növbədə ev tapşırığının yoxlanması ilə başlayırıq. Təqdimatları dinləyir və müzakirəsini həyata keçiririk.

**Motivasiya, problemin qoyuluşu.**

Bu mərhələdə internetdən Azərbaycan Respublikasının xalq artisti Zeynəb Xanlarovanın ifasında "Ananın səsi" mahnısı şagirdlərə dinlədilir. Şagirdlər mahnını dinlədikdən sonra sual veririk. Mahnı sizdə hansı təəssüratları yaratdı? Şagirdlər öz düşüncələrini sərbəst şəkildə ifadə edirlər.

**Tədqiqat sualı.** "Ana" əsərində Səlma ana obrazını ideal saymaq olarmı?

**Tədqiqatın aparılması.** Bu mərhələdə şagirdləri kiçik qruplarda birləşdiririk. Hazırladığımız sualları şagirdlərə iş vərəqlərində təqdim edirik.

1- ci qrupun tapşırığı:

-Səlma ana obrazını səciyyələndirin. Sizcə, Səlma ananın, oğlunun qatilini bağışlamasına haqq qazandırmaq olarmı?

a) Xarakterindəki başlıca xüsusiyyətlər

b) Müəllifin ona münasibəti;

c) Sizin ona münasibətiniz.

2-ci qrupun tapşırığı:

-Qanpolad obrazını səciyyələndirin. Onun qan tökməmək, qatildən qisas almamaq fikrinə necə münasibət bəsləyirsiniz?

a) Xarakterindəki başlıca xüsusiyyətlər;

b) Müəllifin ona münasibəti;

c) Sizin ona münasibətiniz.

3-cü qrupun tapşırığı:

-İsmət obrazını səciyyələndirin.

a) Xarakterindəki başlıca xüsusiyyətlər;

b) Müəllifin ona münasibəti.

c) Sizin ona münasibətiniz;

4-cü qrupun tapşırığı:

-Orxan və Murad obrazları haqqında nə düşünürsünüz?

a) Xarakterlərindəki başlıca xüsusiyyətlər.

b) Müəllifin onlara münasibəti;

c) Sizin onlara münasibətiniz;

5- ci qrupun tapşırığı:

-Dramın mövzusunu və ideyasını müəyyənləşdirin.

a) Əsərdə qaldırılan başlıca problem nədir?

b) Problemin həllini yazıçı nədə görür?

c) Siz necə fikirləşirsiniz?

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplar apardıqları tədqiqatın nəticələrini təqdim edirlər. Müzakirə zamanı müəllim dialoji nitq bacarığının nümayişinə, fikirlərin sərbəst söylənməsinə diqqət yetirir.

**Nəticənin çıxarılması, ümumiləşdirilmənin aparılması**. Dramaturq xeyir və şəri təmsil edən qüvvələrin taleyini təsvir etməklə oxucunu xeyirxahlığa səsləyir, yer üzündə qan izini mərhəmətlə, humanizmlə kəsməyin mümkün olduğuna inamını ifadə edir. Çıxarılmış nəticə şagirdlərin fərziyyələri, tədqiqat sualı ilə müqayisə edilir.

**Qiymətləndirmə.**
Qiymətləndirmə meyarları:
Səciyyələndirmə
Şərhetmə, münasibətbildirmə
Müqayisəli şərhetmə
Nümayişetdirmə

| 1-ci səviyyə | 2-ci səviyyə | 3-cü səviyyə | 4-cü səviyyə |
|---|---|---|---|
| Nitqindən çıxış etməklə obrazı səciyyələndirməkdə çətinlik çəkir. | Nitqindən qismən çıxış etməklə obrazı səciyyələndirir. | Nitqindən əsasən çıxış etməklə obrazı səciyyələndirir. | Nitqindən çıxış etməklə obrazı dolğun səciyyələndirir. |
| Dramın ideya-məzmununu şərh etməkdə, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Dramın ideya-məzmununu şərh edir, əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkir. | Dramın ideya məzmununu şərh edir, əsaslandırılmış münasibət bildirməkdə bəzən çətinlik çəkir. | Dramın ideya-məzmununu şərh edir, əsaslandırılmış münasibət bildirir. |
| Dramla bağlı fikirlərini müqayisə əsasında şərh etməkdə çətinlik çəkir. | Dramla bağlı fikirlərini müqayisə əsasında qismən şərh edir. | Dramla bağlı fikirlərini əsasən müqayisə aparmaqla şərh edir. | Dramla bağlı fikirlərini müqayisə əsasında dolğun şərh edir. |
| Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirməkdə çətinlik çəkir | Müzakirələrdə dialoji nitq bacarığını qismən nümayiş etdirir. | Müzakirələrdə dialoji nitq bacarığını əsasən nümayiş etdirir | Müzakirələrdə dialoji nitq bacarığını ardıcıl nümayiş etdirir. |

**Evdə iş.** "Əgər Səlma ana olsaydım..." mövzusunda esse yazmağı şagirdlərə tapşırırıq.

**Ədəbiyyat:**

*1. Həsənli Bilal. Ədəbiyyatın tədrisi metodikası. Pedaqoji ali məktəblər üçün dərs vəsaiti. Bakı: Müəllim, 2012*

*2. Hüseynoğlu Soltan. Ədəbiyyatın metodikası: laboratoriya məşğələləri. Dərs vəsaiti. Bakı, 2020*

*3. Hüseynoğlu Soltan. Ədəbiyyatın məktəbdə öyrədilməsi. Metodik vəsait. Bakı, 2019*

*4. Qarayev Yaşar."Əli Sultanlı" məqaləsi . "Fikrin karvanı", Bakı:Yazıçı, 1984*

*5.Yusifoğlu Rafiq. Ədəbiyyatşünaslığın əsasları. Filologiya fakültəsinin tələbələri üçün dərslik. Təkmilləşdirilmiş 3-cü nəşri. Bakı, ADPU nəşriyyatı, 2009*

*6. Yusifov Fəxrəddin. Ədəbiyyatın tədrisi metodikası. Ali məktəblərin filologiya fakültəsi bakalavriat təhsil səviyyəsi tələbələri üçün dərslik, Bakı 2017*

**M.M.İskəndərov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***mahmudiskenderov99@gmail.com***

# DİSTANT TƏHSİLİN TƏŞKİLİNDƏ HİBRİD TƏHSİL FORMASININ TƏTBİQİ

***Xülasə***

*Məqalədə hazırda geniş istifadə olunan e-learning haqqında məlumat verilir. Elektron təhsilin müsbət və mənfi cəhətləri, müəllimin elektron təhsilin iştirakçıları ilə qarşılıqlı əlaqəsi və elektron təhsilin həyata keçirilməsi üçün bəzi mühüm platformalar təqdim olunur.*

# ELECTRONIC EDUCATION: PROBLEMS AND PERSPECTIVES

***Summary***

*The article provides information on e-learning, which is currently widely used. The positive and negative features of e-learning, the interaction of the teacher with the participants of e-learning and some important platforms for the implementation of e-learning are presented.*

# ЭЛЕКТРОННОЕ ОБРАЗОВАНИЕ: ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ

***Резюме***

*В статье представлена информация об электронном обучении, которое в настоящее время широко используется. Представлены положительные и отрицательные черты электронного обучения, взаимодействие учителя с участниками электронного обучения и некоторые важные платформы для реализации электронного обучения.*

***Açar sözlər:* m***onlayn təhsil, distant təhsil, elektron təhsil, hibrid təhsil*
***Ключевые слова:*** *онлайн-образование, дистанционное обучение, электронное обучение, гибридное образование*
***Key words:*** *online education, distance education, e-learning, hybrid education*

Təhsil texnologiyalarının inkişafı sayəsində təhsil müəssisələrində ənənəvi təhsil üsullarından əlavə başqa üsullardan istifadə etməyə başladılar. Təkcə 2020-ci ildə dünyada yüzlərlə təhsil müəssisəsi distant təhsilə keçmək məcburiyyətində qaldı və bu, bir çox müəllimi hibrid təlim modelini tətbiq etmək barədə düşünməyə vadar etdi. Lakin hibrid təhsil dərs planının yalnız auditoriyada keçirilməsindən ibarət deyil. Distant təhsildən fərqli olaraq, hibrid təhsil üz-üzə və onlayn öyrənmənin ən yaxşı üsullarının kompleks birləşməsidir. Bu

model qarşıya qoyulmuş bir məqsədə çatmaq üçün istifadə olunan ənənəvi auditoriya təcrübəsi, empirik təlim üsulunu və rəqəmsal kurs materiallarından istifadəni özündə birləşdirir. Hibrid siniflər tədris olunan fənn və qrupun fərdi xüsusiyyətləri nəzərə alınmaqla qurulur. Müəllim lazımi proqram təminatından istifadə edərək eyni vaxtda tam zamanlı və onlayn tələbələrə dərs deyə bilər: video konfrans, ekran sinxronizasiyası, interaktiv iş dəftərləri və dərsliklər, kompüter sinfi və ya laboratoriya.

Bu təlim modelini uğurla həyata keçirmək üçün sinxronlaşdırılmış materiallara sahib olmaq lazımdır: bu yanaşma üz-üzə (F2F) tədris modelini məsafə modeli ilə birləşdirməyə imkan verir. Müəllim hazırlığının səviyyəsi nə qədər yüksək olarsa, həm əyani, həm də uzaqdan təhsil alan tələbələr üçün dərs bir o qədər məhsuldar olar.

"Hibrid modeli"n üstünlükləri:

Tam və distant təhsilin müsbət və mənfi tərəfləri var. Hibrid modelin məqsədi hər iki təhsil növünün üstünlüklərini birləşdirmək və ən rahat, effektiv təlim modelini yaratmaqdır. Belə modellərin əsas üstünlüklərini nəzərdən keçirək:

- Hər şeydə çeviklik: cədvəldə, materiallarda, praktiki tapşırıqlarda, müəllimlə ünsiyyətdə. Məsafə və ya səhhət problemlərinə görə dərslərə şəxsən qatıla bilməyən tələbələr digər tələbələrlə bərabər əsaslarla distant şəkildə təhsillərini davam etdirirlər.
- Akademik cərəyandan müstəqillik: hibrid öyrənmə modelinin tətbiqi öz-özünə təhsil bacarıqlarının inkişafına kömək edir. Tələbələr materiallarla şəxsən işləməyi öyrənirlər və akademik prosesdən, cədvəldən və ya tələbə yoldaşlarının performansından asılı deyillər.
- Effektiv Resurs Bölgüsü: Bu öyrənmə modeli həm virtual, həm də şəxsi formatda görüşlər və praktiki fəaliyyətlər planlaşdırmaqla vaxtınızı planlaşdırmağa kömək edir. Əsas prinsip: vaxta, səyə və pula qənaət, lakin görüşdən maksimum səmərəlilik əldə etmək.




- Fərdi yanaşma: tələbələrin maraqlarından, məşğulluğundan, məqsədlərindən və qabiliyyətlərindən asılı olaraq, müəllim öyrənilən materialı dəyişə və öyrənmə sürətini tələbəyə uyğunlaşdıra bilər. Bundan əlavə, qarışıq öyrənmə tələbənin ən çox maraqlandığı sahələrdə əlavə öyrənmə imkanları

açır.

Hibrid öyrənmə modelləri:

Başa düşmək lazımdır ki, hibrid təlim modelinin forması və növü tədris olunan fənnin, qrupun xüsusiyyətləri və təlim məqsədləri nəzərə alınmaqla fərqlənəcəkdir. Aşağıda Kristensen İnstitutu tərəfindən hazırlanmış belə bir modeli yaratmaq üçün əsas prinsipləri nəzərdən keçiririk.

**Model № 1 : Station Rotation (Stansiya fırlanması)**

Bu model tələbələrə sabit qrafik üzrə stansiyalar arasında hərəkət etməyə imkan verir, burada stansiyalardan biri onlayn oyun meydançasıdır. Sinif 2 və ya 3 qrupa (stansiyaların sayından asılı olaraq) bölünür. Bir qrup müəllimlə F2F (Face 2 Face) işlədiyi halda, digər qrup tələbələr onlayn platformada müstəqil, üçüncü qrup isə praktiki tapşırıq üzərində birgə işləyirlər. Müəyyən edilmiş vaxtda qruplar dövrədə yerlərini dəyişirlər. Bu prinsip müəllimə F2F-də işləyərkən hər bir şagirdə fərdi diqqət yetirməyə, eləcə də tələbələrin öz işini və komandada işləmək bacarıqlarını inkişaf etdirməyə imkan verir.

**Model № 2: Lab Rotation (Laboratoriya rotasiyası)**

Laboratoriya rotasiyası, stansiya fırlanması kimi, tələbələrə sabit qrafik üzrə stansiyalar arasında hərəkət etməyə imkan verir. Lakin bu halda onlayn öyrənmə ixtisaslaşdırılmış kompüter laboratoriyasında baş verir ki, bu da məktəbin laboratoriyalarından mümkün qədər səmərəli istifadə etməyə imkan verir.




**Model № 3: Individual Rotation (Fərdi Rotasiya)**

Şagirdlər stansiyalar arasında müəllimin təyin etdiyi cədvələ və ya proqram təminatı alqoritminə uyğun hərəkət edirlər. Digər fırlanma modellərindən fərqli olaraq, tələbələr mütləq hər stansiyaya hərəkət etmirlər; onlar yalnız şəxsi cədvəllərində planlaşdırılan fəaliyyətlərə davam edirlər.




Bu model müəllimə məqsədlərindən və irəliləyişindən asılı olaraq hər bir şagirdin qabiliyyətinə və fəaliyyətinə fərdi yanaşmağa kömək edir.

**Model № 4: Flipped Classroom**

Bu model sinif vaxtı və ev tapşırıqlarından istifadə etmək üçün standart yanaşmanı tərsinə çevirir.Evdə tələbələr onlayn kurslar və mühazirələr oxuyur, materialın nəzəri hissəsini öyrənir və dərs vaxtı müəllimin rəhbərliyi altında təcrübə və ya layihələr üçün istifadə olunur.Bu model müəllimlərə dərs vaxtında ənənəvi mühazirələrdən daha çox istifadə etməyə imkan verir.

Bu üsuldan ali təhsil müəssisələrində çox tez-tez istifadə olunur: siz evdə öz-özünə təhsil almaq üçün tələbələrə bütün zəruri nəzəri materialı elektron formatda göndərə, dərsdə vaxtdan nümunələrin praktiki təhlili və müzakirələr üçün istifadə edə bilərsiniz.




**Məqalənin aktuallığı**: Müasir informasiya texnologiyalarının elektron təhsildə istifadəsidir .

**Məqalənin elmi yeniliyi**: Müasir dövrümüzdə distant təhsilin tətbiqi üçün bir forma da hibrid təhsil formasıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**: Məqalədə danışılan informasiya texnologiyalarının ümumtəhsil müəssisələrinin distant təhsilin tədrisi prosesində hibrid təhsil formasının tətbiqi zamanı istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. *İsmayılov İ., Abdullayev C. Təlimin texniki vasitələri və yeni informasiya texnologiyalarından tədrisdə istifadə metodikası, Bakı:Elm, 2006, 520 s.*

2. *https://zen.yandex.ru/media/digitalteacher/chto-takoe-gibridnoe-obuchenie-601912cd8d30cb1780282092*

3. *Б.И.Крук, О.Б.Журавлева, Е.Г.Стругова. Избранные главы теории и практики дистанционного обучения.*

4. *Фомичев Р.С. Использование современных информационных технологий в процессе дистанционного обучения школьников // Вестник КемГУ, 2013, № 2.*

5. *И.И.Боброва, Информационные технологии в реализации дистанционных образовательных программ в гуманитарном вузе, 2015 г.*

6. *Asəf Zamanov, Hikmət Əlizadə və b. Distant təhsilin pedaqogikası. Bakı, 2021, 154 c.*

**M.R.Yunusova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***medinayunusovaa@gmail.com***

# TƏLİM TEXNOLOGİYALARININ DƏRSƏ TƏTBİQİNİN DİDAKTİK MƏSƏLƏLƏRİ

***Xülasə***

*Didaktika elmi yanaşmaya və ya təhsil nəzəriyyələrinə nəyi, necə, hansı formada öyrətmək suallarını tədqiq edən təhsil və təlim nəzəriyəsinə riayət edən tədris metodudur. Tələbəni cəlb etmək və hər hansı bir təhsil sahəsində biliklərin ötürülməsini stimullaşdırmaq üçün yanaşma və ya metod tez-tez müəllim tərəfindən araşdırılır və ya öyrənilir, qəbul edilir. Təlim prosesində tələbələrin maksimum iştirakının təmin olunması, təlimin keyfiyyət göstəricilərinə təsir edən mühüm elementlərdəndir. Qeyd etmək lazımdır ki, bu məsələlər müasir dövrdə didaktika nəzəriyyələrində və elmi nəşrlərdə geniş müzakirə olunur. Didaktik vasitələrin seçilməsinin və onun tədrisin ixtisasından, elmi pedaqoji təcrübədən, yaşdan və peşəkar inkişafa bağlılıqdan asılılığı aşkar edilmişdir.*

# ДИДАКТИЧЕСКИЕ ВОПРОСЫ ОБУЧАЮЩИХ ТЕХНОЛОГИЙ В ПРЕПОДАВАНИЕ

***Резюме***

*Дидактика - это метод обучения, следующий теории образования и обучения, который изучает вопросы, что, как и в какой форме учить научному подходу или образовательным теориям. Подход или метод привлечения учащегося и стимулирования передачи знаний в любой области образования часто исследуется или изучается и принимается учителем. Обеспечение максимального участия студентов в учебном процессе является важным элементом, влияющим на качество обучения. Следует отметить, что эти вопросы широко обсуждаются в современных дидактических теориях и научных публикациях. Выявлены выбор дидактических средств и его зависимость от специальности преподавания, научно-педагогического опыта, возраста и стремления к профессиональному развитию.*

# DIDACTIC ISSUES OF EDUCATIONAL TECHNOLOGIES TO LESSON APPLICATION

***Summary***

*Didactics is a teaching method that follows the theory of education and training, which studies the questions of what, how, and in what form to teach a scientific approach or educational theories. An approach or method to engage a student and stimulate the transfer of knowledge in any field of education is often researched or studied and adopted by the teacher. Ensuring maximum student participation in the*

*learning process is an important element that affects the quality of training. It should be noted that these issues are widely discussed in modern didactic theories and scientific publications. The choice of didactic tools and its dependence on the specialty of teaching, scientific and pedagogical experience, age and commitment to professional development were found.*

***Açar sözlər:*** *didaktika, təlim metodları, təhsil nəzəriyyəsi.*
***Ключевые слова:*** *дидактика, методика обучения, теория образования.*
***Key words:*** *didactics, teaching methods, educational theory.*

XVII əsrdə pedaqogikaya daxil olmuş əhəmiyyətli anlayışlardan biri olan "didaktika" yunancada hərfi mənası "öyrədirəm" deməkdir. Pedaqogikada didaktikanın məzmununa aid müxtəlif yanaşmalar olmuşdur. Bu sahə ilə maraqlanan pedaqoqlar didaktikanın məzmununu müxtəlif mövqedən dəyərləndirmişlər.

V.Ratkenin yanaşmasına görə, didaktika müxtəlif elm sahələrinə məxsus məlumatların mənimsədilməsi kimi qiymətləndirilsə də, Y.A.Komenskinin fikirlərində isə didaktika geniş məna kəsb edərək, nəinki elmləri, hər şeyi, maddi və mənəvi dünyamız haqqında bütöv biliklər sisteminin ötürmə yolu kimi dəyərləndirilmişdir. Bu iki dahi mütəfəkkir didaktikanın məzmununu yaradan və ona müxtəlif mövqedən yanaşan pedaqoqlar olmuşdur. Eyni zamanda tanınmış pedaqoqlardan olan Y.A.Komenski şah əsərlərindən biri olan "Böyük didaktika"da didaktikanın məzmununun geniş şərhini vermişdir. Komenski "Böyük didaktika" əsərində ilk dəfə sinif-dərs sistemini irəli sürmüş, dərsin təşkili qaydasını, təlimin məzmununun aparılma qaydasını, müəssisənin idarəçilik məsələlərini, tədris müddətinin rüblərə bölünməsini, rüblər üzrə tətil vaxtlarının bölüşdürülməsini, təlim müddətini, həftəlik, illik planlaşdırılmanın aparılması, bir sözlə dərsin bütün əlamətləri öz əksini tapmışdır. Təhsil müəssisələrində dərslərin 45 dəqiqə davam etməsini, dərslərin sentyabrda başlamasını və iyunda başa çatmasını, bütün şagirdlərin eyni vaxtda təlimə cəlb olunması və eyni vaxtda tədris müddətini başa vurması kimi tələblər göründüyü kimi hal-hazırda müasir dövrümüzdə də qalmaqdadır. Eyni zamanda dahi mütəfəkkir yalnız sinif-dərs sisteminə toxunmaqla qane olmamış, eyni zamanda tərbiyənin məqsəd və formalarına aid öz ideyalarını irəli sürmüş və bu yanaşmalar uzun tarixi dövr keçərək müasir dövrümüzə qədər gəlib çıxmışdır. Digər pedaqoqlar tərəfindən didaktika müxtəlif dövrlərdə gah təhsil nəzəriyyəsi, gah da təlim nəzəriyyəsi kimi qiymətləndirilib nəzərdən keçirilmişdir. Lakin müasir dövrümüzdə didaktik əsas yanaşma onun həm təhsil nəzəriyyəsi, həm də təlim nəzəriyyəsi olması istiqamətindədir.

Rüfət Hüseynzadənin fikirlərinə görə, "Didaktika təlim nəzəriyyəsi kimi təlimin obyektiv qanunlarını, qanunauyğunluqlarını araşdırır, onlardan istifadə yollarını müəyyənləşdirir. Prinsip didaktikanın qanunlarına müvafiq olaraq tə-

lim fəaliyyətini təşkil etmək məqsədi daşıyır. Prinsip dedikdə həmçinin didaktikada mövcud olan qanunlardan istifadə etmək, fəaliyyəti həmin qanunların tələblərinə uyğun şəkildə təşkil etməkdir. Təlim prinsipləri didaktikanın mühüm vəzifələrinin həyata keçirilməsinə xidmət edir. Prinsiplər şagirdlərin yüksək nəticəyə nail olmasını müəllim qarşısına əsas vəzifə kimi qoyur". [4, səh. 627]

Ümumiyyətlə götürdükdə təlim tərbiyə prosesi mürəkkəb struktura malik olduğu üçün, didaktika təlim-tərbiyənin inkişaf mərhələlərini, nəzəri problemlərini və praktik məsələlərini, daima dəyişən təlim metodları vasitələrini, səmərə verən üsullarını, müəllim və pedaqoqların qabaqcıl pedaqoji təcrübələrini təhlil edərək ümumiləşdirir. Didaktikanı şərtləndirən ən əsas amil dövrün ictimai tələbatına cavab verən, səmərəli təlim-tərbiyə mühitini formalaşdırmaqdır. Didaktikanın əsas məqsədi ictimai-iqtisadi tərəqqi nəticəsində dəyişmiş maraq və tələbatları nəzərə alaraq təlim-tərbiyə prosesinin hər pillə və səviyyəsində uyğun dəyişikliklərin edilməsi dövrün təlabatlarına cavab verən sistemin qurulmasına əsaslanır.

Tədrisə, təlimə və tərbiyəyə tarix boyu müxtəlif yanaşmaların olmasına baxmayaraq bu üç proses bir-birilə sıx əlaqədə olan və birgə fəaliyyət nəticəsində səmərə verən proseslərdir. Bu proseslərin birini digərlərindən təcrid edilmiş şəkildə inkişaf etdirməyə çalışmaq, tam formalaşmamış şəxsiyyət yetişdirmək kimidir. Deyilənləri yekunlaşdıracaq olarsaq, təlimin əsas məqsədi şəxsiyyətin formalaşmasında tərbiyəni tamamlayaraq, onu inkişaf etdirməkdir. Təlim şəxsiyyətin dünyagörüşünü inkişaf edirir. Təlim şagirdlərin biliklərini inkişaf edirir, bacarıq və vərdişlərin yaradılmasında əsaslı rol oynayır, fərdi qabiliyyətlərin ortaya çıxmasında köməklik göstərir. Təlim vasitəsilə təhsilalan əvvəlki nəslin fərdi-psixoloji görüşlərini, adət-ənənələrini mənimsəyir, milli və ictimai görüşlərini qavrayır, milli və ümumbəşəri dəyərlər sisteminin incəliklərinə sahib olur. Tədris isə təlimin təşkili formasıdır. Tədis özündə təlimin məzmununu, forma və metodlarını, üsul və vasitələrini birləşdirir. Təlimin təşkili forması öz əksini tədris planı və proqramlarında tapır.

Təlim prosesinin təşklilində və təhsil müəssisəsində təlimin məzmununun şagirdə mənimsədilməsində bu iki sənəd xüsusi əhəmiyyətə malikdir. Bəs tədris planı və proqramı arasındakı fərq nədən ibarətdir? Hər bir fənn müəlliminin özünəməxsus tədris planı olduğu halda, tədris proqramı isə bütün müəllimlər üçün vahid və dəyişməzdir. Variativlik xüsusiyyətinə malik deyildir.

Didaktik məsələlərin həlli bir çox dövlət sənədlərində öz əksini tapır. Bunlara misal olaraq tədris proqramı və tədris planını göstərmək olar. Tədris proqramı tədris planı ilə müqayisədə məzmunca daha genişdir. Belə ki, tədris planı hər hansı bir fənn üçün təşkil edildiyi halda, tədris proqramı bütöv təlim prosesini, dərslərin təşkilini, həftəlik, aylıq və illik dərs planlarını, tətil günlərini, istifadə ediləcək dərsliklər, dərs vəsaitlərini və əlavə vasitələri özündə əks etdirən dövlət əhəmiyyətli sənəddir. Tədris planını öz metodlarına və təlim

texnikalarına uyğun olaraq müəllim təşkil etdiyi halda, tədris proqramı üst qurumlar, rəhbərlik, məktəb direktoru, müəsisəsə rəhbərləri tərəfindən hazırlanır.

Tədris planının məzmununda: dərs ilinin, semestrlərin və hər il üzrə ayrılan tətillərin ümumi müddəti, təhsil ocaqlarnda tədris ediləcək fənnlərin ümumi siyahısı, fənnlərin siniflər üzrə qruplaşdırılması, bütöv təlim müddəti ərzində fənnlərə ayrılan saat və hər bir sinif üzrə fənn üçün müəyyən olunmuş vaxt, həftəlik plan üzrə hər bir fənnin tədrisinə ayrılan vaxt, praktikumların təşkili forması, onlara ayrılan vaxt, onların strukuru öz əksini tapır.

Tədris proqramının məzmununda: istifadə ediləcək ədəbiyyat siyahısı, əyani vasitələr və köməkçi vasitələr, fənnin öyrədilməsinə qoyulan tələblər və istifadə olunacaq metodlar, fənnlərin məqsəd və vəzifələrinə məxsus izahat vərəqələri, öyrənənlərin bilik, bacarıq və vərdişlərinin inkişafına qoyulan tələblər, tədris materiallarında istifadə ediləcək mövzuların ümumi siyahısı, inteqrasiyaya verilən tələblər, tədris avadanlıqlarının tam siyahısı öz əksini tapır.

Mövcud iqtisadi şərait və ictimai münasibətlərin dəyişməsi təlim qarşısında yeni tələblər qoyur. Ənənəvi təlimdən müasir təlimə keçməyin də əsasında bu problem durur. Təlimin məzmunu yenilənməli, təlim metodları dəyişərək təlimin məzmununa uyğunlaşdırılmalı, öyrənənlərdə müasir dövrə uyğun keyfiyyətlər formalaşdırılmalı, eyni zamanda hazırkı kadrların yenidən təhsilinə və təkmilləşdirilməsinə diqqət yetirilməlidir.

Müasir dərsin təşkili ənənəvi dərsin təşkilindən fərqli olaraq bir sıra mərhələləri özündə birləşdirir. Bu mərhələlər sistemli şəkildə hər bir şagirdin məqsədyönlü şəkildə fəallaşdırılmasını əsas götürərək hazırlanmışdır. Belə ki, dərsin uğurlu təşkili üçün bu mərhələlər bir-birini izləməli, biri digərini əvəz etməlidir. Strukturun bu formada qurulması nəticəsində hər bir dərsin təşkilinə qoyulan tələblər yerinə yetirilir və son nəticə daha səmərəli olur. Müasir dərsin təşkili 7 mərhələdən ibarətdir:

1. Motivasiya. Fəal dərsin ilkin mərhələsi motivasiya mərhələsidir. Bu mərhələ dərs prosesinin gedişinə və onun nəticəsinə təsir göstərən vacib komponentdir. Motivasiya şagirdi həvəsləndirmək, şagirddə dərsə qarşı maraq oyatmaq, onları fəaliyyətə cəlb etmək məqsədi güdür. Motivasiyanı təşkil edərkən müəllimin nəzərə almalı olduğu ən asas məqam motivasiyanın davam etmə müddətinin nə 5 dəqiqədən az, nə 7 dəqiqədən çox olmasıdır. Motivasiyanı müəllim iki cür təşkil edə bilər:

1) Problemli şəraitin qurulması;
2) Motivasiyaedici danışıqların aparılması.

Dərsin keyfiyyəti və onun səmərəliliyi motivasiya və onun düzgün təşkil olunmasından əhəmiyyətli dərəcədə asılıdır. Motivasiya mərhələsi şagirdlərin diqqətini dərsə yönəltməyin və dərs müddətində diqqətin davamlılığını təmin edən əsas hissədir. Motivasiya şagirddə maraq oyatmalı, müstəqil düşüncə fəaliyyətini aktivləşdirməli, şagirdi yaradıcılığa sövq etdirməli və yaradıcılığa

istiqamətləndirməlidir. Təhsilverən təlim prosesinin təşkilində motivasiyanı iki yolla qura bilər. Birinci yol şagirdlərlə həvəsləndirici danışıqların aparılması və tədqiqat sualının qoyulması və ya tapşırığın verilməsidir. Tədqiqat sualının qoyulması və yaxud problemli şəraitin yaradılması müəllimlərin ən çox müraciət etdiyi yollardan biridir. Tədqiqat sualı bir sualdan da ibarət ola bilər. Bu sual şagirdi vahid məqsədə doğru istiqamətləndirmək məqsədi daşıyır. Müəllimin bu prosesdə əsas vəzifəsi tədqiqat sualını aydın şəkildə şagirdlərin nəzərinə çatdırmaqla onları son nəticəyə istiqamətləndirməkdir. Müəllim həmçinin tədqiqat sualını müəyyənləşdirərkən təlim məqsədlərini, dərsin sonunda şagirdin əldə edəcəyi son nəticəni nəzərə almalıdır. Tədqiqat sualı təlimin məqsədinə uyğun olmalıdır. Motivasiya mərhələsinin başlıq hissəsində motivasiyanın şagirdlərdə maraq yaratmaq məqsədilə müəllim tərəfindən təşkil olunduğunu qeyd etmişdik. Lakin motivasiyanın ilkin şərti şagirdlərdə maraq yaratmaqla onların idrak fəallığına nail olmaqdır. Yəni motivasiyanın ilkin şərti dərsin daha maraqlı keçməsindən daha çox, sonda əldə olunmalı nəticəyə istiqamətləndirməkdir.

Motivasiyanı təşkil etmək üçün müəllim bir çox əyani vasitələrdən istifadə edə bilər. Prosesin təşkili bir tədqiqat sualının seçilməsi ilə də əldə oluna bilər və yaxud müəllim foto, video, qrafik, sxem, atalar sözləri, məsəllər kimi vasitələrə də müraciət edə bilər. Əyani vasitələrin əsas məqsədi şagirdin təfəkkür prosesini hərəkətə gətirmək və onların idrak fəallığına təkan verməkdir.

Müəllim motivasiyanı qısamüddətli və mərhələli təşkil edə bilər. Qısamüddətli motivasiya zamanı müəllim bir ədəd açıq tipli suallardan isifadə edə bilər. Uzunmüddətli motivasiya isə dərsin böyük bir hissəsini əhatə edir və müəllim tərəfindən problemli şərait yaradılır. Bütün dərs problemin həlli üzərində çalışmağa və vahid nəticə almağa yönəlir.

2. Tədqiqatın aparılması. Fəal dərsin ikinci mərhələsi tədqiqatın aparılma mərhələsidir. Dərsin ilkin mərhələsində qoyulan tədqiqat sualı və ya tədqiqat tapşırığına müvafiq olaraq biliklərin toplanması, faktların nəzərdən keçirilməsi, yeni fərziyyələrin formalaşması bu mərhələnin əsas fəaliyyətinə çevrilir. Bu zaman şagirdlərin tədqiqat aparmaları, mövcud sual əsasında biliklərin müstəqil toplanması üçün əlverişli şərait yaradılmalıdır. Tədqiqat mərhələsində müəllim bir sıra nüansları nəzərə almalıdır. İlk növbədə əgər tədqiqat qrup işi şəklində təşkil ediləcəksə, qrup daxilində şagirdləri müvafiq tələblər əsasında qruplaşdırılmalıdır. Şagird qruplarının qurulması zamanı onların bilik səviyyələri nəzərə alınmalıdır. Qrup həm bilik səviyyəsi yüksək, həm də nisbətən zəif şagirdlərdən təşkil olunmalıdır. Qrupun tərkibi ilə yanaşı qrup daxilində vəzifə bölgüsünün də aparılması vacib şərtdir. Belə ki, qrup daxilində istedadlı şagirdlərin bütün öhdəliyi öz üzərinə götürməsi, digərlərinin fəaliyyətdən yayınması nəzərə alınmalı digər vacib məqamdır. Daha sonra tədqiqata qoyulan

vaxt məhdudiyyəti, tədqiqat prosesinə qoyulan tələblər şagirdlərə əvvəlcədən bildirilməlidir. Bununla yanaşı, şagirdlərin istifadə edəcəyi əyani vasitələr, iş vərəqləri, sxemlər və digər vasitələr tədqiqata başlamamışdan əvvəl şagirdlərə təqdim edilməlidir. İş vərəqləri şagirdlərin üstündə öz qeydlərini, apardığı tədqiqatın nəticələrini göstərəcəyi sənəddir. İş vərəqində tədqiqat sualı və onun əsasında əldə edilən məlumatlar öz əksini tapır. Tədqiqatın aparılması mərhələsində müəllimin rolu şagirdlərin suallarını cavablandırmaq, onları lazımi nəticəyə istiqamətləndirməkdir. Müəllim sualları cavablandırarkən hazır biliyin şagirdə verilməməsinə diqqət yetirməlidir. Cavablar istiqamətverici olmalıdır.

3. İnformasiya mübadiləsi. Təlim prosesində hər bir şagirdə şəxsiyyət kimi yanaşılmalı və onun fikirləri nəzərə alınmalıdır. Məlum olduğu kimi hər şagirdin özünəməxsus fikirləri ideyaları mövcuddur. İnformasiya mübadiləsi zamanı bu informasiya bazası paylaşılır və nəticədə fikirlər təzələnir. Eyni zamanda onu da qeyd etmək istəyirəm ki, şagirdlərin psixi inkişaf səviyyəsi müxtəlif olduğuna görə onların hadisələrə və proseslərə yanaşma tərzi, göstərdikləri münasibət də fərqli olur. Eyni informasiyaya hər şagirdin yanaşması fərqli olduğundan, informasiya mübadiləsi zamanı şagirdlər eyni bir problemi müxtəlif mövqelərdən dəyərləndirə bilmə şansına sahib olurlar. Tədqiqat mərhələsində şagirdlərin əldə etdiyi məlumatlar, informasiyalar və gəldiyi nəticələr bu mərhələdə bütün sinif qarşısında nümayiş etdirilir. Tədqiqat mərhələsi yalnız fikirlərin, ideyaların irəli sürüldüyü mərhələ olduğuna görə natamam səviyyə sayılır. Artıq bu mərhələdə fikirlər toplanaraq vahid nəticəyə gəlinir. Bütün şagirdlər öz ideyalarını və nəticələrini digər şagirdlərlə mübadilə edir və digərlərinin fikirlərini, ideyalarını dinləyirlər. Daha sonra bütün fikirlərin təqdimatı bitdikdən sonra əldə olan bütün qrupun fərziyələri toplanaraq sistemləşdirilir, vahid qaydaya salınır və ortaq nəticə çıxarılır. Bu mərhələni sistemləşdirmə mərhələsi kimi də düşünülə bilər.

4. İnformasiyanın müzakirəsi və təşkili. Bu mərhələ tədqiqat sualının və ya tədqiqat tapşırığının nəticələrinin üzə çıxdığı mərhələdir. Bu mərhələdə bütün qrupun əldə etdiyi nəticələr arasında müvafiq əlaqə yaradılır. Məlumatlar toplanır. Oxşar məlumatlar sistemləşdirilərək vahid nəticəyə gəlinir. Müəllimin əsas vəzifəsi şagirdlərin dağınıq fikirlər arasında uğurlu əlaqəni qurmasıdır. Bunun üçün müəllim nəzəri tədqiqat metodlarından induksiya, deduksiya, təhlil, tərkibdən istifadə edə bilər. Bununla yanaşı, digər şagirdlərin də bu metodlardan istifadəsinə şərait yarada bilər. Bu mərhələnin əsas vəzifəsi doğru və yalnış fikri müəyyənləşdirmək deyildir. Fəal təlimin də əsas ideyası budur. İnteraktiv təlimdə səhv fikir, ideya, mühakimə yoxdur. Hər bir yanaşma özündə doğrunu əks etdirir. Müəllim, özü də daxil olmaqla, bütün şagirdlər digər yoldaşlarının fikirlərinə hörmətlə yanaşmalı və qəbul etməlidir. Heç bir şagirdin fikirlərinə müdaxilə edilməməlidir. Həmçinin müəllim tədqiqat sualına ən yaxın ideyanı təqdir etməli və uğurlu ideyaları lövhədə qeyd etməlidir.

5. Ümumiləşdirmə və nəticə. Bu mərhələnin əsas məqsədi əldə edilmiş nəticələrdən müvafiq ideya formalaşdırmaqdan ibarətdir. Bəzən müəllimlər tədqiqat sualını, şagirdlərin ideyalarını düzgün hesab etməyərək öz fikirlərini irəli sürərək, onu düzgün qəbul edir və nəticə olaraq öz fikrini əsaslandırır. Bu mərhələdə əsas məqsəd şagirdlərin fikirlərini əsaslandırmaqdan ibarətdir. Onların fikirlərini ümumiləşdirməkdir.

6. Yaradıcı tətbiqetmə. Bu mərhələ şagirdlərin əldə etdiyi nəticələrlə tədqiqatın əvvəlində irəli sürülən fərziyələrin uyğunluğunu müəyyən edərək, tərəflərin müqayisəsinə əsaslanır. Eyni zamanda bu mərhələdə şagirdlər əldə etdiyi nəzəri məlumatları təcrübədə uğurlu şəkildə sınaqdan keçirirlər. Başqa sözlə desək, bu mərhələ şagirdlər üçün praktiki cəhətdən xüsusi əhəmiyyət kəsb edir.

7. Qiymətləndirmə və refleksiya. Qiymətləndirmə dərsin əks-əlaqə üsuludur. Şagird naliyyətlərinin nəzərə alınması prosesidir. Bu prosesi, mövcud vəziyyəti nəzərə alaraq inkişafa meyllləndirmə mərhələsi kimi də düşünmək olar. Qiymətləndirmə təhsilalanın bilik səviyyəsinə uyğun aparılmalıdır. Qiymətləndirmənin aparılması zamanı müxtəlif üsul və vasitələrdən isifadə edilə bilər. Təlim prosesində qiymətləndirmənin aparılması müvafiq meyarlara əsasən təşkil olunmalıdır. Və qeyd etdiyimiz kimi müəllim dərs prosesinin əvvəlində, tədqiqatın ilkin mərhələsində bu meyarları aydın şəkildə şagirdlərə izah etməyi bacarmalıdır.

Refleksiya dərs prosesində təlimin keyfiyyətinin əsas göstəricisidir. Refleksiya dərs prosesinin iştirakçılarına təlim prosesinin nə qədər uğurlu keçməsi haqqında ilkin məlumat verir. Adətən müəllim refleksiyanı dərsin sonunda, müxtəlif sorğulardan isifadə edərək həyata keçirir. Bu suallar vasitəsilə müəllim şagirdlərin dərs prosesində hansı məlumatları mənimsədiyini, hansı keyfiyyətləri inkişaf etdirdiyini, hansı hissədə zəifliklərinin olduğunu asan şəkildə üzə çıxara bilir. Həmçinin, refleksiya müəllimə sinifin diqqətinin hansı səviyyədə dərsdə olduğunu ölçməyə imkan verir.

Ümumi mənada götürdükdə isə təlim texnologiyalarının dərsə tətbiqində məktəb müəllimləri ilə yanaşı, məktəb psixoloq və pedaqoqlarının da fəal iştiraki vacib məsələdir. Müasir dövrümüzdə təlim texnologiyalarının sayı sonsuzdur. Və hamısının təlimdə tətbiqi imkansızdır. Eyni zamanda hər təlim texnologiyasının dərsə tətbiqi səmərə verməyə bilər. Buna görə də təlim texnologiyalarının seçimində şagirdlərin yaş və fərdi xüsusiyyətləri, dövrün tələbləri, ictimai münasibətlər, milli şüur, təlim-tərbiyənin məqsədi nəzərə alınmalı, ən müvafiq təlim texnologiyaları seçilərək dərsə tətbiq olunmalıdır. Bu prosesdə müəllim rolunun əhəmiyyəti qədər, psixoloq və pedaqoqların da xüsusi rolu vardır.

Bu tələbləri nəzərə alaraq müəllim-şagird, sagird-şagird münasibətləri qaydaya salınmalı, mövcud problemlərin aradan qaldırılmasında ictimai rəyi nəzərə alaraq qərar qəbul edilməli, təlim prosesi əməkdaşlıq prinsipi, qanunata-

belik prinsipinə müvafiq olmalı, əsaslanmalı, qarşılıqlı ünsiyyət və hörmət əsas vasitə olmalı, ikitərəfli maraq və tələbatlar nəzərə alınaraq təlim prosesi təşkil olunmalı, şəxsiyyətin inkişafında emosional və intellektual cəhətlərin inkişafı paralel aparılmalı, öyrənənlərin hərtərəfli psixi inkişafına nail olunmalıdır. Təlim prosesində müəllim daim şagirdlərlə məqsədyönlü münasibətdə olmalı, hər bir şagirdə diqqətini paylamağı bacarmalı, mümkün qədər dərs prosesində hər bir şagirdlə ünsiyyət qurmalıdır. Sorğu-sual müddətində müəllim hər bir şagirdin şəxsi rəyini dinləməli və nəzərə almalıdır. Təlim prosesində mümkün qədər öyrənənlərin maksimum iştirakını təmin etməlidir. Nəzərə alsaq ki, dərs saatı 45 dəqiqədən ibarətdir, buna nail olmaq üçün müəllimin dərs prosesində müxtəlif növ fəaliyyətlərdən istifadəsi zəruridir. Bu, sinif-dərs şəraitində müəllimin bir qrup şagirdlə məşğul olduğu zaman digərlərinin nəzarətdən kənarda qalmasının qarşısını alır.

**Ədəbiyyat:**

*1. A.M.Nəzərov. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU nəşriyyatı. Bakı-2012.*

*2. Abbasov A., Əlizadə H. Pedaqogika. Bakı, 2000.*

*3. A.Mehrabov, Ə.Abbasov, Z.Zeynalov, R.Həsənov. Pedaqoji Texnologiyalar. Bakı, 2006.*

*4. Firədun İbrahimov, Rüfət Hüseynzadə. Pedaqogika: 2 clddə. I cild. – Bakı: Mütərcim, 2012*

*5. Sadıqov F. Pedaqogika. Bakı, 2006.*

**Ş.E.İsmayılzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ismayilzade.seyla94@ mail.ru***

# VI SİNİFDƏ COĞRAFİYANIN TƏDRİSİNDƏ ŞAGİRD FƏALİYYƏTİNİN TƏŞKİLİ

***Xülasə***

*Məqalədə coğrafiya dərslərində və coğrafiya dərsliklərində iqtisadi biliklərlə bağlı məlumatların, praktik məşğələlərin verilməsinə dair məsələlərə toxunulmuşdur. İqtisadi bilik və bacarıqların şagirdlərdə formalaşdırılmasının əhəmiyyəti və vacibliyi qeyd olunmuşdur. Dərs nümunəsi əsasında şagirdlərdə iqtisadi biliklərin formalaşdırılması yolları öz əksini tapmışdı.*

# ОРГАНИЗАЦИЯ ДЕЯТЕЛЬНОСТИ УЧАЩИХСЯ ПО ОБУЧЕНИЮ ГЕОГРАФИИ В VI КЛАССЕ

***Резюме***

*В статье затрагиваются вопросы информационно-практического закрепления экономическихзнаний на уроках географии и в учебниках географии. Отмечена важность и значимость формирования экономических знаний и умений у студентов. Отражены способы формирования экономических знаний у учащихся на примерах урока.*

# ORGANIZATION OF STUDENT ACTIVITY IN TEACHING GEOGRAPHY IN VI GRADE

***Summary***

*Thes article touched upon the issues of providing information and practical training on economic knowledge in geography lessons and geography textbooks. The importance and significance of the formation of economic knowledge and skills in students was noted. Ways to form economic knowledge in students on the basis of lesson examples are reflected.*

***Açar sözlər:*** *tədris, coğrafiya, iqtisadi bilik və bacarıq*
***Ключевые слова:*** *преподавание, география, экономические знания и навыки*
***Key words:*** *teaching, geography, economic knowledge and skills*

Son dövrlərdə Azərbaycan Respublikasında davamlı inkişaf mərhələsinin başlanması, sosial-iqtisadi həyatda baş verən müsbət dəyişikliklər respublikamızın təhsil sisteminə də öz təsirini göstərmişdir. Azərbaycan Respublikasının təhsil sistemində aparılan islahatlar, təhsildə «kurikulum» proqramlarının tətbiqi, ölkədə ümumi təhsil məktəblərində coğrafiyanın tədrisinin müəyyən qədər dəyişməsinə səbəb olmuşdur. Digər fənlər kimi coğrafiya fən-

ninin tədris proqramları və dərslikləri yeni kurikulum proqramının tələblərinə uyğun qurulmuşdu.

Əvvəllər iqtisadi coğrafiya fənni VIII sinfin ikinci yarımilində «Azərbaycanın iqtisadi və sosial coğrafiyası» və IX sinifdə «Dünyanın iqtisadi və sosial coğrafiyası» şəklində tədris olunduğu halda, hazırda siniflər üzrə iqtisadi biliklər sadədən mürəkkəbə doğru fiziki biliklərlə vəhdət halında tədrisolunur.

Bugünkü təhsil sisteminin qarşında duran əsas məsələlərdən biri də müasir dövrün tələblərinə cavab verən, hətta nəinki bu günün, həmçinin gələcək dövrün tələblərinə cavab verən mütəxəssislər yetişdirməkdən ibarətdir.

Bu baxımdan keçmiş dövrdə təhsil sistemində şagirdlərin iqtisadi biliklərə sahib olması məsələsinə o dərəcə önəm verilmədiyi halda, son dövrlərdə bazar iqtisadiyyatının inkişafı ilə əlaqədar olaraq ölkədə iqtisadi bilik və bacarıqlara malik, ölkə iqtisadiyyatının müsbət inkişafını təmin edəcək səriştəli insan resurslarının yetişdirilməsi məsələsini ön plana çəkir. Təbii ki iqtisadi biliklərin və bacarıqların ümumi təhsil məktəblərindən başlayaraq aşılanması, təsəvvürlərin formalaşdırılması gələcəkdə iqtisadi biliklərə sahib fərdlərin yetişməsi üçün bir növ təməl rolu oynayır və cəmiyyətin tələblərinə uyğun olaraq insan kapitalının yetişməsində böyük əhəmiyyət kəsb edir.

Coğrafiya dərslərində iqtisadi biliklərin verilməsi nəticəsində şagirdlər rəqəm məlumatlarını təhlil etməyi, statistik – iqtisadi göstəriciləri müqayisə edərək müvafiq nəticələr əldə etməyi, bu nəticələr əsasinda qrafik, diaqram və sxemlər tərtib etməyi öyrənirlər.

İqtisadi biliklər şagirdlərin coğrafi mühitin, istehsalın yerləşməsini və iqtisadi inkişafın qanunauyğunluqlarını dərk etməyə, müxtəlif sənaye sahələrinin inkişaf səbəbləri, bu sahələrin ölkə üçün əhəmiyyəti, iqtisadi əlaqələr və sair bu kimi məsələləri öyrənməyə imkan verən biliklərdir. Bu biliklərə sahib olan, onları dərk edən şagirdlərdə ölkənin iqtisadi gücü, gələcəkdə inkişaf üçün hansı perspektivlərin olması, yeni hansı işlərin həyata keçirilməsi və ya hansi iqtisadi əlaqələrin qurulması barədə fikir və təkliflər irəli sürmək qabiliyyəti formalaşır.

İndi isə VI sinifdə şagirdlərdə iqtisadi bilik və bacarıqların formalaşdırılması ilə bağlı mövzuya diqqət yetirək.

Tədris olunacaq mövzu: VI sinif «Əhalinin artımı və məskunlaşması» olacaqdır. Bu mövzu şagirdlərdə iqtisadi biliklərlə bağlı təsəvvür yaratmaqla yanaşı həmçinin diaqram və qrafik əsasında hesablamalar aparmaq kimi bacarıqlar formalaşdırır. Bu mövzuda şagirdlərə təbii artım, yaşayış məskənlərini fərqləndirməyi, əhalinin kənd və ya şəhərlərdə yaşama səbəbləri öyrədilir.

- Dərsin ilk mərhələsində - **motivasiya** mərhələsində müəllim şagirdlərə bir neçə sual verməklə şagirdlərin fikrini dərsə cəlb edir:

Sizcə dünyada əhali daha çox hansı ərazilərdə məskunlaşmışdır? Azərbaycanda ilk yaşayış məskəni hansı rayonda yerləşir?

Kəndlərdə, yoxsa şəhərlərdə əhali daha çox məskunlaşmışdır? Məskunlaşmaya təsir edən amillər hansılardır? Daha sonra şagirdlərə dərslikdə verilən diaqram əsasında sualların cavablandırılması tapşırılır. Bunun nəticəsində şagirdlər əhali ilə bağlı diaqramları təhlil etməyi və onun əsasında fikir yürütməyi öyrənmiş olurlar.

- Qeyd olunan illər üzrə kənd və şəhər əhalisinin sayını müqayisə edin.
- Sizcə şəhər və kənd əhalisinin sayının dəyişməsinə təsir göstərən amillər hansılardır?




- 2012-ci ildə əhalinin sayında hansı dəyişikliklər baş vermişdir? Şəhər əhalisinin atmasına təsir edən amillər nələrdir? Şəhər əhalisinin sayının artması hansı problemlərin yaranmasına səbəb ola bilər?

Şagirdlərin cavabları:

1. 1917 ci ildə kənd əhalisinin sayının üstünlük təşkil etdiyini ( 75>25), 1945 ci ildə kənd əhalisinin sayının çox olduğunu, (60>40), 2012-ci ildə şəhər əhalisinin üstün olmasını (45<55) qeyd edir.

2. Göstərilən illərdə kənd və şəhər əhalisinin dəyişmə səbəbləri: kənd əhalisinin sayının çox olmasının səbəbi əsasən insanların kənd təsərrüfatında çalışması, sənayenin inkişafının zəif olması, sonrakı illərdə isə sənayenin inkişafı və iş yerlərinin şəhərlərdə cəmləşməsi.

3. 2012-ci ildə şəhər əhalisinin sayı artmışdır. Bunun səbəbi iş yerlərinin, sənaye obyektlərinin şəhərlərdə cəmləsməsi. Yaratdığı problemlərə: ekoloji çirklənmə məskunlaşma (ev) problemləri, tıxac və s.

Şagirdlər suallarla bağlı öz fikirlərini çatdırdıqdan sonra **tədqiqat sualı** qeyd olunur: Əhali necə yerləşib? Yaşayış məskənlərinin hansı formaları var?

Tədqiqatın aparılması mərhələsində şagirdlər 3 qrupa ayrılır. Suallar olan işçi vərəqləri qruplara paylanır:

**Birinci qrup**: Təbii artım nədir? Təbii artımın az və ya çox olmasının yaratdığı problemlər?

**İkinci qrup:** Əhalinin məskunlaşmasına təsir edən amillər nələrdir? Azərbaycanda əhali ən çox harada məskunlaşmışdır və bunun səbəbləri?

**Üçüncü qrup:** Kənd və şəhər anlayışları nədir? Kənd və şəhərlərdə əhalinin məşğuliyyətinin fərqli xüsusiyyətləri nələrdir?

Daha sonra qruplar tapşırıqları ilə bağlı məlumatı **məlumat mübadiləsi** mərhələsində təqdim edirlər:




**I qrup**: Təbii artım - əhalinin doğulanlar və ölənlər arasındakı say fərqinə deyilir. Təbii artımın çoxolması qida çatışmamazlığı, işsizlik, məskunlaşma problemlərinə təbii artımın az olması işçi qüvvəsi çatışmazlığına səbəb ola bilər.

**II qrup:** Əhalinin məskunlaşmasına təsir edən amillərə - iqlim, relyef, su mənbələrinə yaxınlıq, nəqliyyat və s. Son dövrlərdə Azərbaycanda şəhərdə məskunlaşma üstünlük təşkil edir. Bunun səbəbi iş yerlərinin şəhərlərdə cəmləşməsi, rahat həyat tərzi və s.

**III qrup**: Kənd -əhalisinin əsas hissəsinin kənd təsərrüfatı (əkinçilik, heyvandarlıq) sahəsində çalışan yaşayış məntəqəsidir. Şəhər - əhalisinin əsas hissəsi qeyri-kənd təsərrüfatı sahələrində, sənayedə, xidmət sahələrində çalışan yaşayış məntəqəsidir.

Daha sonra əldə olunan **məlumatlar müzakirə** olunur və sistemləşdirilir. Müzakirə edildikdən sonra şagirdlər **ümumiləşdirmə və nəticə çıxarma** mərhələsində əhalinin qeyri-bərabər yerləşməsinə təsir edən amilləri, təbii artımın yüksək və ya az olduğu əraziləri, yaşayış məskənlərinin növləri haqqında məlumatları öyrənmiş olurlar.

**Yaradıcı tətbiq etmə** mərhələsində şagirdlərə dərslikdə verilən tapşırığı xəritə-sxemdən istifadə etməklə yerinə yetirmək.

Xəritə-sxemdə göstərilən ərazilərdə kənd yaşayış məntəqələrinin müvafiq tiplərini müəyyən edin.

**Qiymətləndirmə və refleksiya** mərhələsində isə şagird fəaliyyətinin qeyd olunan meyar üzrə qiymətləndirməsi həyata keçirilir.

| **Qruplar** | Əməkdaşlıq | Dinləmə | Tapşırığı vaxtında yerinə yetirmə | Ümumi nəticə |
|---|---|---|---|---|
| I | | | | |
| II | | | | |
| III | | | | |

**Ədəbiyyat*:***

**1.** *N.Seyfullayeva. Coğrafiyanın tədrisi metodikası. Dərslik, Bakı, 2011.*

**2.** *N.Eldarov. Coğrafiyanın tədrisi metodikası. Bakı, 2008.*

**3.** *Gülər Hüseynova. Kurikulum. Bakı, 2008.*

**4.** *E.Əlizadə, N.Seyfullayeva, Y.Şabanova, I.Aptokrak. Ümumi təhsil məktəblərinin 6-cı sinif üçün Coğrafiya fənni üzrə dərslik. Bakı-2017*

**5.** *E.Əlizadə, N.Seyfullayeva, Y.Şabanova, I.Aptokrak. Ümumi təhsil məktəblərinin 6-cı sinif üçün Coğrafiya fənni üzrə metodik vəsait. Bakı -2017*

**A.Q.Qurbanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aydanqurbanova82@gmail.com***

# MÜƏLLİM VƏ ŞAGİRD ARASINDA KONFLİKTLƏR

***Xülasə***

*Məqalə təhsil müəssisəsində "şagird-müəllim" sistemində konflikt qarşılıqlı əlaqəsi məsələlərinə həsr edilmişdir. Məqalədə təkcə cəmiyyətin vəziyyətini deyil, həm də ailənin tərbiyə potensialını, eləcə də strukturunu nəzərə alaraq sosial-pedaqoji baxımdan sinif kollektivi və şagirdlərin fərdi yaş xüsusiyyətləri haqqında da məlumat verilib. Göstərilir ki, konflikt vəziyyətində müəllimin davranışı əksər hallarda belə növlərə aiddir. "Repressiv tədbirlər" və "münaqişəyə məhəl qoymamaq" kimi cavablar verilir. "Şagird-müəllim" sistemindəki konfliktlərə şagirdlərin yaş xüsusiyyətləri nöqteyi-nəzərindən baxılır.*

# КОНФЛИКТЫ МЕЖДУ УЧИТЕЛЕМ И УЧЕНИКОМ

**Резюме**

*Статья посвящена вопросам конфликтного взаимодействия в системе «ученик-преподаватель» в образовательном учреждении. В статье приведены сведения о социально-педагогических характеристиках коллектива класса и индивидуальном возрасте учащихся с учетом не только состояния общества, но и воспитательного потенциала семьи, а также структуры. конфликт." Конфликты в системе «ученик-учитель» рассматриваются с точки зрения возрастных особенностей учащихся.*

# CONFLİCTS BETWEEN TEACHER AND STUDENT

***Summary***

*The article is devoted to the issues of conflict interaction in the "student-teacher" system in the educational institution. The article provides information on the socio-pedagogical characteristics of the class staff and individual age of students, taking into account not only the state of society, but also the educational potential of the family, as well as the structure. Answers include "repressive measures" and "ignoring the conflict." Conflicts in the student-teacher system are considered from the point of view of students' age characteristics.*

***Açar sözlər:*** *konflikt, münasibətlər, pedaqoji fəaliyyət, İKT, avtoritarizm, münaqişə, şəxsiyyətlərarası qarşılıqlı əlaqə, davranış, əməkdaşlıq, akademik performans, şagird, müəllim, məktəb, emosional və şəxsi münasibətlər*

***Ключевые слова:*** *конфликт, отношения, педагогическая деятельность, ИКТ, авторитаризм, конфликт, личностные отношения, поведение, успеваемость, студент, учитель, школа, эмоционально-личностные отношения*

***Key words:*** *conflict, relationships, pedagogical activity, ICT, authoritarianism, conflict, interpersonal interaction, behavior, cooperation, academic performance, student, teacher, school, emotional and personal relationships*

Yetkin şəxslərin, şagirdlərin cəmiyyətdə şəxsiyyət olaraq yer tutmasına, müəyyən bilik və bacarıqlara sahib olmasına yönəlmiş fəaliyyət- pedaqoji fəaliyyət adlanır. Pedaqoji fəaliyyəti həyata keçirən isə müəllimdir. Müasir dövrdə böyüməkdə olan nəslə elmlər haqqında dərin biliklər vermək, və eyni zamanda bu biliklərdən istifadə edə bilmək, tədbiq etməyi öyrətmək qarşıda duran ən mühüm tələblərdən hesab olunur. Məktəblərin qarşısında duran əsas məsələlərdən biri böyüməkdə olan nəslin hərtərəfli tərbiyəsidir. Bu mühüm məsələ məktəblərimizdə çalışan pedaqoji kollektivlərin hər bir üzvünün ümumi hazırlığından, dünyagörüşündən, pedaqoji-psixoloji bilik, bacarıq və qabiliyyətlərindən asılıdır. Bildiyimiz kimi təlim-tərbiyə mürəkkəb bir prosesdir. Müəllim üzərinə düşən məsuliyyətli prosesi,vəzifəni daha uğurlu yerinə yetirmək üçün, hər bir şeydən əvvəl ilk öncə ayrı-ayrı şagirdləri, bütünlükdə sinif kollektivini yaxından duymalı, hiss etməli, başa düşməli, tanımalıdır. Və onu da qeyd edək ki, əgər müəllimlə şagird arasındakı əlaqə, münasibətlər obyektiv, həqiqi köklər üzərində yaradılmışsa, bu halda həm təsir etmək, həm də təsir olunma səmərəli nəticə verəcəkdir. Eyni zamanda məktəblərdə aparılan təlim-tərbiyə işlərinin müvəffiqiyyət və səmərəliliyi müəllim-şagird münasibətlərindən, psixoloji dildə desək, şəxsiyyətlərarası münasibətlərdən daha çox asılıdır. Bizə məlumdur ki, hər bir şagirdin ayrı-ayrı fənlərə müəllimlərə münasibəti fərdi xarakter daşıyır. Şagirdlərin müəllimə qarşı olan subyektiv münasibətləri nə qədər müxtəlif olsa da, bunlar tədricən sinif kollektivinin həmin müəllimə olan ümumi obyektiv münasibətinə çevrilir. Bu baxımdan müəllim-şagird münasibətlərinin düzgün qurulmasına xüsusi diqqət edilməlidir. Pedaqoji ünsiyyət problemlərinin öyrənilməsi göstərir ki, "müəllim-şagird(lər)" münasibətləri köklü təlim-tərbiyə məsələsidir. Elmi araşdırmaların nəticələri nə qədər əsaslı olsa da, məktəb təcrübəsində hələ, sözün əsl mənasında, əks səda doğurmayıb. Müəllimlərin və məktəb rəhbərlərinin bir çoxu hələ də vaxtı keçmiş avtoritar tərbiyə üsullarından sadəcə olaraq əl çəkmirlər [1, s. 250].

Müəllim-şagird münasibətlərində bəzən konfliktlər yaranır. Bəs bu konfliktlərin yaranmasına səbəb nədir? Bu konfliklər daha çox hansı tərəfdən qaynaqlanır? Bu konfliklərə müəllim və şagird gözü ilə baxsaq aşağıdakı səbəbləri göstərə bilərik.

Müəllimlərə görə, müəllim-şagird arasında baş verən konfliklərin əsas səbəbi bunlardır:

1. Dərs prosesi zamanı şagirdlər tərəfindən nizam-intizamın pozulması;
2. Müəllimin(lərin) verdiyi ev tapşırıqlarına məsuliyyətsiz yanaşmaq, dərsə hazırlıqsız ev tapşırıqlarını həll etmədən gəlmək;
3. Müəllimin(lərin) verdiyi ev tapşırıqlarının yaxşı yerinə yetirilməməsi;

4. Müəllimdən sonra, dərsdən keçmiş dərsə gəlmək, dərs zamanında iştirak etməmək.
5. Səbəbsiz yerə dərsləri ötürmək.

Şagirdlər isə düşünür ki yaranan konfliktlərin əsas səbəbi aşağıdakıları qeyd edə bilərik: 1. Müəllim tərəfindən kobudluq, təhqir olunma, şəxsiyyətin alçaldılması; 2. Şagirdləri qiymətləndirərkən obyektiv yanaşmamaq, sevdiyi uşaqları daha yüksək qiymətləndirir; 3. Dərs buraxmaq; 4. Müəllimin dərsə maraqla yanaşmaması, dərsi çox da önəmsəməməsi; 5. Müəllimin avtoritar üslubla yanaşması, ancaq öz dediyi olsun istəyi; 6. Müəllimin səriştəsizliyi, dərs prosesi zamanı sıxıcı olması, hər hansı metodlardan istifadə etməməsi, monoton dərs keçməsi.

Müəllim peşəkarlığının yeni müstəviyə çıxarılması, şagirdlərə yanaşmanın dəyişilməsi, müəllim-şagird münasibətində əməkdaşlıq, qarşılıqlı inam, birgə nəticə əldə olunmasına səy və s. bu kimi faktorlar tədris prosesinin, təhsilin keyfiyyətinin artmasına müsbət təsir göstərir. Bunları nəzərə alan hər bir müəllim öz fəaliyyətində müəllim-şagird münasibətlərinin düzgün qurulmasında uğur qazana bilər. Müəllim-şagird münasibətlərini düzgün qura bilmək üçün müəllim ilk növbədə şagirdləri yaxşı tanımalı, onların fərdi, psixoloji xüsusiyyətlərini bilməlidir. Bu məqsədlə ilk öncə sinif şagirdləri ilə tanışlıq zamanı onlarla diaqnostik iş aparmaq lazım gəlir. Bu zaman testlərdən, müşahibə, fərdi və kollektiv söhbətlər, oyunlardan istifadə etmək olar. Bu kimi işlərin aparılması müəllim-şagird münasibətlərinin düzgün qurulmasına, bu zaman şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınmasına imkan verir.

Müəllim bəzən şagirdlə ehtiyatsız davrandıqda, yaxud düzgün pedaqoji yanaşma seçmədikdə şagirddə özünə inam hissi azalır və müəllimlə şagird arasında münaqişə baş verir. Aqressiv davranışın gündəlik müşahidəsi zamanı ən çox diqqəti çəkən odur ki, aqressiv davranış yeniyetmələr arasında geniş yayılıb və get-gedə artmaqdadır. Belə yeniyetmələr cəmiyyətə olan dəyər və münasibətləri deformasiyaya uğradır. Eqoizm, ətrafdakıların hisslərinə laqeydlik, neqativ davranış belə yeniyetmələrin tipik xüsusiyyətlərindəndir. Hər gün valideyinlərin və müəllimlərin qarşılaşdığı iki tipik nümunəyə diqqət yetirək.

Birincisi - dərsdə(danışır, dərsdən yayınır, sinifdə gəzir, yoldaşlarına sataşır) və ya tənəffüsdə (dəhlizdə qacır, dalaşır) idarə olunmayan hiperaktiv, aqressiv, qərarsızdır.

İkincisi - uğurlu uşaqlarda aqressiv davranışın təzahürü (divarda və ya partalarda yazılar, yumşaq mebeldəki yırtıqlar, ədəbsiz sözlər ). Belə davranışla qarşılaşanda hamı təəccüblənir [4, s.207].

Son günlərdə ayrı-ayrı mətbuat orqanlarında və internet şəbəkəsində bir-iki məktəbdə müəllimlərin şagirdləri döyməsi, müəllim-şagird münasibətləri arasında yaranan konfliktlərlə bağlı video-süjetlər təqdim olunmaqdadır. Məsələnin birtərəfli təqdimatı əlbəttə ki, problemin həllinə yox, ayrı-ayrı yazarların

düşüncəsinə xidmət edir. İlk öncə onu qeyd etmək lazımdır ki, məktəblərdə zaman-zaman baş verən müəllim-şagird konfliktləri kütləvi informasiya vasitələrində yanlış təqdim olunur. Bu təqdimatlar zamanı cəmiyyətə əksər hallarda müəllimin özbaşınalığı, şagirdin hüquqları barədə uzun uzadı danışılır və cəmiyyətdə süni şəkildə "aqressiv müəllim" obrazı formalaşdırılır. Halbuki həqiqət bu deyil. Ümumiyyətlə, bu məsələdə həqiqət birtərəfli deyil. Şagirdlərin mobil telefondan məktəbdə istifadə etməsi məktəbdə tədris prosesinə böyük zərbə vurur. Və burada mobil telefon gətirən şagirdin valideynləri hər kəsdən çox günahkardır. Aydın məsələdir ki, valideyn övladına mobil telefonu yuxarıda söylənilən hərəkətləri etməsi məqsədilə almayıb. Mobil telefon şagirdə valideyni tərəfindən o səbəbdən alınır ki, şagirdin dərsdə olub-olmadığı, dərslərdən sonra evinə gedib-getmədiyi barədə valideynin narahatçılığı azalsın, bu, tamamilə başa düşüləndir. Amma valideyn bir çox hallarda bilmir ki, əvvəla, hələ fiziki cəhətdən püxtələşməmiş uşağına yüksək dalğalı mobil telefon verilməsi həmin uşağın gələcək inkişafına əngəl törədən ən böyük amillərdən biridir və onun bahalı mobil telefon alıb verdiyi uşaq məktəbdə, valideynin nəzarətindən kənarda həmin mobil telefonla nələr edir və edə bilər. Məhz yuxarıda qeyd etdiyimiz neqativ hallarla üzləşməmək üçün bir sıra məktəblərdə ümumiyyətlə, şagirdlərin məktəb binasına mobil telefonla daxil olması qadağan edilmişdir. Bəs konfliktləri həll etmək üçün müəllim nələr etməlidir? Bir necə həll yolunu belə qeyd edə bilərik ki, ilk öncə müəllim şagirdə şəxsiyyət olaraq yanaşıb, dialoq qurmağı bacarmalıdır. Dialoq üçün isə münasib vaxt ayırmalıdırlar. Şagirdə özünü ifadə etməsi üçün fürsət verməlidir. Beləliklə öz duyğularını ifadə edəcək, daha rahat danışacaqdır. Şagirdlərlə empatiya qurmalıdır. Günahlandırıcı mövqedə olmamalıdır. “Mən səndən üstünəm” mesajını verməməlidir. Hansısa səhvində sözlərini onun davranışlarına vurğulamalıdır, şəxsiyyətinə deyil. Məktəb psixoloqunu bu işə cəlb etməlidir. Hansısa yanaşma ilə qorxutmamalıdır. Qorxu ilə problem həll olunmaz, o yerdə sevgi olmaz. Müəllim-şagird arasında yaranan konfliktlərə yuxarıda qeyd etdiyimiz səbəblərdən əlavə bir neçə səbəb göstərmək olar. Şagirdlər və müəllimlər arasında münaqişənin səbəblərinə onu qeyd edə bilərik ki, hər şey mübahisə üçün səbəb ola bilər, lakin bir neçə vəziyyət var ki, digərlərinə nisbətən daha tez-tez mübahisəyə çevrilir. Bunları aşağıdakı kimi qeyd edə bilərik:

1. Aşağı performans. Müəllimə elə gəlirsə ki, sinif kifayət qədər səy göstərmir, o, söz seçmədən bunu ifadə edə bilər: "Axmaq, imtahanlardan necə keçəcəksən?!". Qeyri-dəqiq tənqid uşaqlar tərəfindən ağrılı şəkildə qəbul edilir.
2. İstedad. Uşaq dərsdə darıxanda diqqəti yayınır və başqalarının da diqqətini yayındırır, müəllimlə mübahisə edir, onun metodlarını tənqid edir. Bəzən müəllim cavab olaraq emosiyalarını saxlamır və qarşılıqlı narazılıq yaranır: “Əgər belə ağıllısansa, lövhəyə keç və dərsin mövzusunu özün danış”.

3. Qaydalara münasibət. Müəllimlər çox vaxt qaydalara məhəl qoymayan tələbələri sevmirlər. Azadlıqsevər yeniyetmələr isə nizam-intizam tələblərini öz hüquqlarının pozulması kimi qəbul edirlər.

4. Tədris proqramının tələbənin imkanlarına uyğun olmaması. Bəzi uşaqlar öyrənməyə xüsusi yanaşma tələb edir, lakin buna baxmayaraq, onlar adi məktəbdə oxuyurlar və müəllimlər onlara yerinə yetirə bilmədiyi tələblər qoymağa məcbur olurlar. Bu, gec-tez münaqişəyə gətirib çıxarır.

Münaqişənin səbəbi nə olursa olsun, mümkün qədər tez bir həll yolu tapılmalıdır. İstənilən şəxsiyyətlərarası problem kənar perspektiv tələb edir. Münaqişələri həll etmək üçün məktəb psixoloqundan, başqa pedaqoqdan və ya valideynlərdən kömək tələb oluna bilər. Təbii ki, onlar özləri də vəziyyətə emosional olaraq qarışa bilməzlər.

Son olaraq onu da qeyd edək ki, istənilən yaş dövründə "Müəllim-şagird" arasında olan konfliktin səbəbi düzgün balansın qurulmamasıdır. Unutmaq olmaz ki, şagirdlər sevdiyi müəllimə qarşı daha nəzakətli olurlar. Hansısa səhv edirlərsə, müəllimlər dostyana yanaşsalar, problem daha asan həll olunacaqdır. Əgər burda müəllimlər çətinlik çəkirsə, məktəb psixoloqları yardım etməlidirlər, müəllimlərdə məktəb psixoloqundan yardım almalıdır. Unutmaq olmaz ki, müəllimlər valideynlər qədər şagirdlərin həyatında iz qoyurlar.

**Məqalənin aktuallığı:** Kiçik yaşlı məktəblilərdə əxlaqi kefiyyətlərin formalaşdırılmasının hər bir dövr üçün zəruriliyi ilə əlaqədardır.

**Məqalənin elmi yeniliyi:** Kiçik yaşlı məktəblilərdə müsbət əxlaqi keyfiyyətlərin formalaşdırılmasının bir məqsəd kimi qarşıya qoyulmasına xüsusi diqqət yetirilməsi ilə əlaqədardır.

**Məqalənin praktik əhəmiyyəti:** Ondan ibarətdir ki, məqalədən ali məktəb və məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə işlərinin təşkili prosesində istifadə oluna bilər. Eyni zamanda məqalə təhsil təşkilatlarının əməkdaşları və münaqişə məsələləri ilə maraqlananlar üçün nəzərdə tutulub.

**Ədəbiyyat:**

*1. Əlizadə Əbdül Əli oğlu. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri./B:Pedaqokia, 2004, 432 s.*

*2.Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Dərs vəsaiti. Bakı, 2016, 331 s.*

*3.Zeynaloğlu Camal. Təlim fəaliyyətinin psixoloji prosesi.(metodik tövsiyələr)*

*4.Müasir təhsilin psixoloji problemləri. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu.*

*5.İnternet resursları (müxtəlif mənbələr)*

*6. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. B., 2002.*

**H.F.Sərxanlı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***hsrxanl@mail.ru***

# BƏDİİ TƏSVİR VASİTƏLƏRİ ŞAGİRDLƏRİN İNTELLEKTUAL-MƏNƏVİ İNKİŞAFINDA MÜHÜM VASİTƏ KİMİ

***Xülasə***

*Məqalədə ümumtəhsil məktəblərində ibtidai sinif şagirdlərinin əqli-mənəvi inkişafında bədii təsvir vasitələrinin əhəmiyyəti araşdırılır, onlar ətraflı öyrənilir və müxtəlif yanaşmalar qeyd olunur. Təlim prosesində bədii vasitələrdən istifadənin tədris prosesinə təsiri də öyrənilmiş və təhlil edilmişdir.*

# СРЕДСТВ ХУДОЖЕСТВЕННЫЕ ОПИСАНИЯ КАК ВАЖНОЕ В ИНТЕЛЛЕКТУАЛЬНО-ДУХОВНОМ РАЗВИТИИ УЧЕНИКОВ

***Резюме***

*В статье рассматривается значение средств художественных описаний в интеллектуальном и духовном развитии учащихся начальных классов в общеобразовательных школах, подробно изучается и отмечаются различные подходы. Также было изучено и проанализировано влияние использования средств художественных описаний на воспитательный процесс в процессе обучения.*

# ARTISTIC DESCRIPTIONS AS AN IMPORTANT TOOL IN INTELLECTUAL-SPIRITUAL DEVELOPMENT OF STUDENTS

***Summary***

*The article examines the importance of artistic means of description in the intellectual and spiritual development of primary school students in secondary schools, studies them in detail and notes different approaches. The impact of the use of artistic means on the educational process in the learning process was also studied and analyzed.*

***Açar sözlər:*** *təhsil sistemi, bədii təsvir vasitələri, intellektual inkişaf, mənəvi inkişaf, oxu mətnləri, təlim, tərbiyə*

***Ключевые слова:*** *система образования, средства художественного описания, интеллектуальной развитие, духовное развитие, чтение текстов, обучение, воспитание*

***Key words:*** *education system, means of artistic description, intellectual development, spiritual development, reading texts, teaching, nurture*

*Giriş:*İncəsənət əsərləri, o cümlədən bədii ədəbiyyat təkcə şagird psixikasının ayrı-ayrı cəhətlərinə - yaddaş, intellektual, mənəvi inkişafına deyil, bütövlükdə insan şəxsiyyətinə güclü təsir göstərir.

Bədii ədəbiyyat həyatın tipik hadisələrini sözün köməyi ilə yaradılmış obrazlarla əks etdirir. Uşaq və yeniyetmələrin şəxsiyyətinin formalaşdırılmasında bədii ədəbiyyatın rolu əvəzedilməzdir. Təhsil sahəsində İslahat Proqramı və ona müvafiq göstərişlər orta məktəbdə dil və ədəbiyyat, o cümlədən aşağı siniflərdə oxu dərslərinin tədrisi səviyyəsini yüksəltməyi tələb edir.

Şagirdlərə ifadəli oxu vərdişi aşılamaq üçün əsərin bədii təhlilini aparmaq son dərəcə vacibdir. Məzmunun şüurlu qavranılmasını təmin etmək məqsədilə bədii əsərlərin dili və kompozisiyası üzərində şagirdlərin müşahidələrinin təşkili böyük əhəmiyyətə malikdir. Uşaqların diqqətini əsərdə işlənmiş ifadələrə yönəltməklə onlarda intellektual-mənəvi inkişafı təkmilləşdirmək lazımdır. Həmçinin dərsliklərdə bədii əsərlərdə sadə dil vasitələrinin köməyi ilə doğma təbiətimizin son dərəcə gözəl mənzərələrinin təsviri verilmişdir. Bu da şagirdlərin estetik tərbiyəsinin inkişafına çox böyük əhəmiyyət kəsb edir. (1, s. 218)

*Əsas hissə:* İbtidai sinif şagirdləri dilin təsvir vasitələri ilə praktik şəkildə tanış olmalıdılar. Bu məqsədlə poetik dilin üzərində onların sadə müşahidələrini təşkil etmək lazımdır. Bu iş mətndən bədii təyinlərin, müqayisələrin seçilməsi şəklində getməli, əsərin məzmununun təhlili ilə əlaqələndirilməlidir, çünki bədii əsərlərdə forma və məzmun vəhdətdədir. Bədii əsərlər üzərində iş mürəkkəb və zərif işdir. Hər bir əsər oxunarkən müəllim hansı işin uşaqların gücünə müvafiq olması və onların estetik hisslərinə, intellektual-mənəvi inkişafına necə təsir göstərməsini müəyyənləşdirməlidir. Bəzi müəllimlər bədii əsərlərin təhlili üzərində, xüsusilə çətin söz və ifadələrin izahı üzərində dayanmır, sözlərin məcazi mənalarını açmırlar. Ona görə də şagirdlər şeirlərdə və ya nəsr əsərlərində tez-tez işlədilən *"Günəş gülür", "Torpaq nəfəs aldı", "Təbiət oyanır"* kimi ifadələrin həqiqi və məcazi mənalarını qarışdırırlar. Və nəticə etibarilə deyə bilərik ki, elə əsərlər vardır ki, onlarda adi fikirlər belə, obrazlı şəkildə ifadə olunur. Bu cür əsərlərin bədii təhlili zəruridir.

Bədii təhlil prosesində bədii mətnlər oxunduqdan və onun əsas ideyası izah edildikdən sonra müəllim şagirdlərin diqqətini müəllifin qəhrəmanının müsbət və ya mənfi hərəkətlərini hansı söz və ifadələrlə açıb göstərməsinə, bədii lövhəni hansı söz və ifadələrin köməyi ilə yaratmasına yönəltməklə şagirdlərin həm intellektual, həm də mənəvi inkişafına şərait yaradır.

İbtidai sinif şagirdləri "obraz" sözünü çox vaxt aydın əlvan boyalarla çəkilmiş lövhə, təbiət təsviri, təbiət obrazı, həmçinin əsərdə iştirak edən şəxslərin, onların hərəkətlərinin təsviri mənasında da işlədirlər. İbtidai siniflərdə şagirdlər, əsasən, iştirak edən şəxslərin hərəkətləri ilə tanış olur, onları qiymətləndirir və öz münasibətlərini bildirirlər. Ona görə də ibtidai siniflərdə "iştirak edən şəxs", "personaj" terminlərini işlətmək daha məqsədəuyğundur.

Bədii mətnlər üzərində iş zamanı ibtidai sinif şagirdlərinin əldə etdikləri praktik bacarıqlar onların bədii inkişafı üçün çox vacibdir. Bu bacarıqlar tədricən formalaşır. İkinci sinif şagirdləri əsərdə iştirak edən şəxsləri ayırır, onların hərəkətlərini qiymətləndirir. Eyni zamanda, dilin bədii təsvir vasitələri üzərində iş aparılır.

Üçüncü sinif şagirdləri tədricən bədii obrazın xarici, əyani elementlərinin qavranılmasından onun kontekstdə başa düşülməsinə keçir, personajların hərəkətlərini qiymətləndirir, bu və ya digər əsərdə iştirak edən şəxsləri müqayisə edir, qəhrəmanları və təbiət lövhələrini xarakterizə etmək üçün yazıçının istifadə etdiyi söz və ifadələri mətndən seçirlər.

Dördüncü sinif şagirdlərində bədii obraz haqqında təsəvvürlər ümumiləşir. Şagirdlər əsərdə iştirak edən şəxs haqqında kiçik hekayələr tərtib edirlər. Bu hekayə üçün onların seçdikləri nümunə və sitatlar müəllimin köməyi ilə təhlil edilir. Sonra uşaqlar iştirak edən şəxs haqqında hekayənin planını tutur, plan üzrə nağıl edir və işlərini personaja qiymət verməklə başa çatdırırlar.

Qeyd etdiyimiz kimi bədii mətnlər üzərində iş zamanı ibtidai sinif şagirdləri burada iştirak edən personajların bədii təsvir vasitələri ilə ifadə edilmiş hərəkətlərini qiymətləndirir, personajları müsbət və mənfi olmaqla 2 qrupa ayırırlar. Bununla da şagirdlərdə intellektual-mənəvi inkişaf baş verir.

IV sinifdə "Biz türkük" hekayəsində erməni əsgərləri beş oğlu müharibədə ermənilərlə vuruşan ağ saçlı laçınlı bir qocanı erməni zabitinin yanına gətirirlər. Erməni zabiti:

- Oğullarının yerini de, qoca, - deyə bağırırdı.

Qoca başını vüqarla qaldırdı. Zabitə baxıb gülümsündü. Zabit vəhşi kimi nərildədi, tapançasını çıxarıb qocanı qorxutdu. Lakin qoca yenə də cavab vermədi...

Şagirdlər müəllimin tələbi ilə verilmiş cümləni (zabit vəhşi kimi nərildədi, tapançanı qaldırıb qocanı qorxutdu) oxuyurlar. Müəllim şagirdlərə başa salır ki, hekayədə deyildiyi kimi, insan qışqırar, çığırar, danışar, deyər, lakin nərildəməz. Erməni zabiti insanla heyvan arasında heç bir fərq görmədiyi, günahsız qocaları, qadınları, uşaqları, qırdığı, güllələdiyi üçün müəllif onu vəhşi, çıxardığı səsi isə nərilti adlandırır. Burada da IV sinif şagirdlərinə bir daha çatdırılır ki, azğın, quduz erməni zabitinin bütün düşüncəsi, ideyası günahsız adamlara əzab vermək, öldürmək, məhv etmək, ölkəmizin var-dövlətini zəbt etmək olduğundan yazıçı onu yırtıcı canavarla müqayisə edir. Canavar isə hürmür, qışqırmır, çığırmır, ulayır. Ona görə də müəllif erməni zabitini canavara, səsini isə ulamağa bənzədir. (2, s. 64)

H.Razinin "Ana məhəbbəti" şeirinin birinci bəndini müəllimin tələbi ilə şagirdlərdən biri oxuyur.

O, günəş tək hərarətli,
Bahar kimi təravətli

Dağlar qədər möhtəşəmdir.

Sonra müəllim soruşur:

- Uşaqlar, birinci misrada ana məhəbbəti nəyə bənzədilir?
- Hərarətli günəşə.
- Nə üçün müəllif ananı hərarətli günəşə bənzədir?
- Çünki günəş həmişə özündən işıq saçdığı kimi, yandığı, istilik verdiyi kimi, ana da öz övladını sevir, onu isidir, ürəyi yanır.
- Bəs ikinci misrada nə üçün Bahar kimi təravətli deyilir?
- Bahar öz gəlişi ilə adamları sevindirdiyi, hər tərəfə ətir saçdığı kimi, ana da uşaqları üçün çalışır. Ana məhəbbəti, ana nəfəsi dünyada hamıdan əziz və istəklidir.
- Bəs şeirdə ana məhəbbəti nə üçün möhtəşəm dağlara bənzədilir?
- Dağ öz əzəmətini həmişə saxladığı kimi, ananın da məhəbbəti böyükdür, heç vaxt azalmır, daha da artır. (2, s. 78)

Dialoqdan gördüyümüz kimi şagirdlər burada işlənən bədii təsvir vasitələrini (metaforalar) müəyyən etməklə onların intellektual inkişafına şərait yaranır. Digər yandan isə, övladın anaya duyduğu sonsuz sevgini, hörməti şagirdlərin nəzərinə çatdıraraq onların mənəvi inkişafına şərait yaradılır.

İbtidai siniflərdə bədii obrazlar üzərində iş, xüsusilə də bədii təsvir vasitələri üzərində iş əsərin dərindən qavranılmasına, uşaqlarda müvafiq emosional hisslərin yaranmasına kömək edir, onlara oxumaq və düşünməyi, duymaq və hiss etməyi öyrədir.

*Nəticə:* Müasir təlim prosesinin tələblərindən irəli gələrək ibtidai sinif şagirdlərinin bədii təsvir vastilərilə intellektual-mənəvi inkişafının təşkili zamanı innovativ metodların tətbiq edilməsi və daha da təkmilləşdirilməsinə ehtiyac var.İbtidai siniflərdə Azərbaycan dili təlimi prosesində bədii təsvir vasitələrindən istifadə təhsilalanların intellektual və mənəvi inkişafı prosesinə olduqca böyük təsir göstərir.

**Ədəbiyyat:**

*1)“İbtidai siniflərdə ana dilinin tədrisi metodikası” fənnindən mühazirələr (Dərs vəsaiti). Bakı: Araz, 2016, 512 səh.*

*2) Ağarəhim. Əsərlər. 20 cilddə. XX cild (Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı, BQU nəşriyyatı, 2015, 470 s.*

*3) N.B.Cəfərova. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. (Dərslik). Bakı-2016, ADPU nəş. 403 s.*

*4) Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I-IV siniflər). Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, Bakı, 2008.*

**Z.F.Abdullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***zeynebabdullayeva7198@gmail.com***

# MENECMENTİN İŞ VƏ FƏALİYYƏTİNİN TƏŞƏKKÜL VƏ ƏSASLARI

***Xülasə***

*Məqalədə ilk olaraq "menecment" anlayışı haqqında məlumat verilmişdir. Belə ki, anlayış yarandığı zamandan bu günə qədər keçdiyi inkişaf mərhələləri, aspektləri haqqında danışılmışdır. Bundan əlavə antik dövrdə "menecment" anlayışına yanaşmaları qeyd edilmişdir. Hətta bu zaman bəzi mütəfəkkirlərin fikirlərinə toxunulmuşdur. Bununla kifayətlənilməmiş, "menecment bir elm kimi" elmi ədəbiyyatlara nə zaman gətirilməsi barədə də məlumat verilmişdir. Menecmentin müasir zəmanda qarşısına qoyduğu məqsəd və vəzifələrin hansılar olduğu öz əksini tapmışdır. Sonda menecment anlayışını daha dolğun şəkildə özündə əks etdirən kateqoriyalar anlayışına toxunulmuşdur.*

# ОСНОВЫ ДЕЯТЕЛЬНОСТЬ МЕНЕДЖМЕНТА И ОБРАЗОВАТИЯ

***Резюме***

*Как следует из названия статьи впервые ввели понятие «менеджмент». Итак, когда образовалось понятие об этапах и аспектах развития, прошедших с момента создания концепции до сегоднейщего дня. Кроме того быя отметили подход к понятию «менеджмент» в древности. Уже тогда я коснулся взглядов некоторых мыслителей. Не удовлетворившись этим информацию «менеджмент как наука» был введен в научную литературу. Наконец понятие более полно отражает понятие катнгорий управления.*

# FUNDAMENTALS AND FORMATION OF MANAGEMENT ACTIVITY

***Summary***

*As the name suggests, I first introduced the concept of "management" in the article. So, I talked about the stages and aspects of development that have taken place since the concept was created. In addition, I noted the approach to the concept of "management" in ancient times. Even then, I touched on the views of some thinkers. Not content with this, I also provided information on when "management as a science" was brought to the scientific literature. The goals and objectives of management in modern times are reflected in the article. Finally, I touched on the concept of categories, which more fully reflects the concept of management.*

***Açar sözlər:*** *menecment, kateqoriya, menecment elmi, məqsəd, vəzifə*
***Ключевые слова****: управление, категория, наука управления, цель, задача.*
***Key words:*** *management, category, managementscience, purpose, position*

**Giriş.** Bildiyimiz kimi iqtisadi sahədə menecment dedikdə, məqsədli şəkildə həyata keçirilən, proqramlaşdırılmış idarəetmə sistemi, perspektiv və cari planlaşdırılmanın həyata keçirilməsi, istehsalın təşkil edilməsi və bunun da əsasında məhsulların hazırlanaraq, reallaşdırılması başa düşülür. Belə ki, menecment istehsal məhsullarının və bu məhsulları hazırlayan işçi-kollektivin daha ağıllı, məqsədəuyğun təşkilini özündə əks etdirir. Ümumiyyətlə menecment sözü ingilis sözü olan management sözündən götürülmüş, təşkiletmə, idarəetmə mənasına gəlməkdədir.

Menecment qarşıya qoyulmuş məqsədə çatmaq üçün bu məqsədə uyğun olaraq planlaşdırılan vəzifələrin bir-biri ilə əlaqələndirilməsi və onların düzgün idarəedilməsi prosesidir. Qeyd etmək istərdim ki, vəzifələrin əlaqələndirilməsi dedikdə, bu vəzifələrin həyata keçirilməsində vacib rol oynayan işçilərin səylərinin əlaqəsi də nəzərdə tutulur.

Yarandığı zamanlardan bugünə kimi menecmentin özünəməxsus inkişaf tarixi olmuşdur. Bizlər indiki dövrümüzdə menecmentin mənasını idarəetmə anlayışı ilə sinonim olaraq götürür, onu təşkiletmə prosesi adlandırırıq. Lakin təşəkkül mərhələsində menecment anlayışı bir çox başqa mənaları ifadə etmişdir. Onları nəzərdən keçirək:

1. Doğrudur, antik dövrdə “menecment” anlayışı işlənməmişdir. Lakin, həmin zamanda da müasir dövrlə səsləşən bir idarəetmə sistemi olmuşdur. Məhz bu səbəbdəndir ki, antik dövrdə “menecment” anlayışı yunan dilində qəribə səslənsə də “demaqoq” sözü ilə ifadə edilmişdir.

2. Bundan əlavə “menecment” anlayışına yaxın olan daha bir yeni anlayışdan da istifadə edilmişdir. Bu isə “despot” ifadəsidir. Hansı ki, o bir çox mənaları ifadə edir: a) hər hansısa bir əşyanın sahibi olmaq (məsələn: ev), b) rəhbər şəxs, c) insanların ruhuna, ürəyinə təsir edən şəxs. Despotiya - hakimiyyət, amansız rəhbərlik tipi və s.

3. Alman tarixçisi İ.Şayd da “menecment” anlayışı ilə bağlı özünəməxsus fikrini ifadə etmişdir. Belə ki, o, bildirmişdir ki, menecment anlayışı müxtəlif dillərdə müxtəlif mənaları ifadə edir. Hətta bu dillərin bəzilərindəki mənaları da qeyd etmişdir. İ.Şaydın fikrincə “menecment” anlayışı italyanca-atları idarə edə bilmək bacarığı kimi səciyyələnir. İngilis dilində də idarəetmə bacarığı kimi vurğulanır. Lakin, alim bu dildəki ifadəni sadəcə idarəetmə kimi məhdudlaşdırmamış, eyni zamanda “ağıllı hərəkət etmə”, “uğur qazanma, uğurları tutma” ifadələrini də lüğətinə daxil etmişdir. Daha başqa bir dildə isə, “menecment” ifadəsini “insanları idarə edə bilmə” kimi qiymətləndirmişdir.

Ümumiyyətlə menecmentin istər təşəkkül, istərsə də təkamül prosesində bir çox fikir, yanaşmaların, elmi məktəblərin, nəzəriyyələrin böyük rolu

olmuşdur. Hətta, bu anlayış haqqında müxtəlif fikirləri özündə əks etdirən əsərlər yazılmışdır. Buna V.Peterson, E.Ploumen tərəfindən yazılmış "Biznesin təşkili və menecment" əsərlərini misal göstərə bilərik.[11, s.10]

Bir çox mütəxəssislərin, eyni zamanda Amerikan ensiklopediyasının müəlliflərinin fikrincə müasir dövrü əks etdirən menecmentin inkişafı 1886-cı ildən başlamışdır. Belə ki, həmin ildə Q.Taun çıxış etdiyi Amerikan cəmiyyətinin yığıncağında bu barədə fikrini açıqca bildirir. "Mühəndis iqtisadçı kimi" məruzəsi ilə çıxış edən Q.Taun ilk dəfə olaraq məruzəsində menecmentin bir elmi fənn olaraq vacib olduğu problemini qarşıya qoyur. Bununla da artıq bu barədə dolğun fikirlər söylənməyə başlayır. [3, s. 36]

Yuxarıda da qeyd etdiyim kimi, menecmentin bir elm kimi formalaşmasının vacibliyi fikri ilk olaraq XIX əsrə aid olmuşdur. Bu fikrin reallaşması isə XX əsrdə öz əksini tapmışdır. Belə ki, menecment bir elm kimi XX əsrin əvvəllərində formalaşmağa başlamışdır. Bu isə 1911-ci ildə sahibkar, eyni zamanda alim kimi fəaliyyət göstərən FridrixTeylorun adı ilə bağlı olmuşdur. Hətta o, bu barədə özünün "Elmi idarəetmənin prinsipləri" adlı kitabını da nəşr etdirmişdir. Belə ki, FridrixTeylor bu kitabında "menecmentin elmi əsasları", "menecmentin elmi prinsipləri", "idarəetmənin mahiyyəti" haqqında kifayət qədər fikirlər söyləmişdir. [2, s. 7]

Ayrı-ayrı ədəbiyyatların məlumatında əsasən menecment-fəaliyyətlərin kompleks birləşməsini özündə əks etdirir. Hansı ki, bu fəaliyyətlər bir-biri ilə daim qarşılıqlı əlaqədə olur. Bəs bu fəaliyyətlər hansılardır? Onların funksiyaları nədən ibarətdir?

1. Təşkiletmə və idarəetmə - buraya adından da göründüyü kimi, təşkilatların və onun tərkibində fəaliyyət göstərən işçi kollektivinin təşkili və idarəedilməsi daxildir.

2. Vəzifələrin qoyulması və korrektə edilməsi- buraya qarşıya qoyulmuş məqsədin düzgün həyata keçirilməsi üçün vəzifələrin seçilib, tənzimlənməsi və bu zaman qarşıya çıxan səhvlərin aşkarlanıb, aradan qaldırılması daxildir.

3. İşlərin mərhələlərinin işlənib-hazırlanması - yerinə yetiriləcək işlərin düzgün bölgüsünün aparılmasını özündə əks etdirir.

4. Kommunikasiyaların qurulması - adından da göründüyü kimi əldə edilmiş informasiyaların düzgün şəkildə ötürülməsini özündə əks etdirir. Hətta bunun üçün lazımi informasiya metod, forma və üsullarını təqdim edir.

5. İnformasiyaların yığılması və emalı.

6. İşlərin yekunlaşdırılması - yəni, son nəticənin əldə edilməsini əsaslandırır.

Yuxarıda menecmentin özünəməxsus məqsədləri və bu məqsədlərin həyata keçirilməsini özündə tənzimləyən vəzifələrin olduğunu qeyd etdik. İndi isə bu vəzifə və məqsədlərin hansılar olduğunu və onların nə kimi əhəmiyyətə malik olduğu haqqında məlumat verək.

Menecmentin qarşısına qoyduğu əsas məqsədlər bundan ibarətdir:

➢ Fayda-gəlirin, qısacası mənfəətin əldə edilməsi, yaxud əldə olan mövcud gəlirin artırılması;

➢ Təsərrüfatçılığın səmərəliliyinin daha da yüksəldilməsi. Burada təsərrüfatçılıq dedikdə təsərrüfatı yaxşı, qənaətlə idarə, istifadə edə bilmək bacarığı nəzərdə tutulur.

➢ Bazarın tələbatının daha dolğun, səmərəli şəkildə qane edilməsi.

➢ Sosial-iqtisadi və menecmentlə bağlı olan məsələlərin düzgün həll edilməsi.

Belə bir məqamı da vurğulamaq istərdim ki, son illərdə menecment sahəsində informasiya və informasiya resurslarının əhəmiyyəti daha da artmaqdadır. Buna görə də menecmentin qarşısında qeyd edilən məqsədlərdən danışan zaman resursların, xüsusilə informasiya resurslarının əhəmiyyəti vurğulanmalıdır.

Menecmentin məqsədlərinə uyğun olaraq müəyyənləşdirilən vəzifələr isə aşağıdakılardır:

➢ Rəqabətə davamlı, rəqabət qabiliyyəti olan və satış üçün nəzərdə tutulan məhsulların, qısacası əmtəələrin istehsalının təşkil edilməsi;

➢ İstehsal prosesinin daha da təkmilləşdirilib, inkişaf etdirilməsi;

➢ Müasir dövrün elmi tələblərinə cavab verən, elmtutumlu, hərtərəfli istehsal texnologiyasının tətbiqi;

➢ İstehsal nəticəsində əldə edilən məhsulların keyfiyyətinin daha da səmərəli şəkildə yüksəldilməsi;

➢ İstehsala, məhsula ayrılan xərclərin bir qədər minimuma endirilməsi və s; [1, s.11]

Bundan əlavə menecmentin özünəməxsus kateqoriyaları vardır. Hansı ki, biz menecment anlayışı və onun haqqında ətraflı məlumatı məhz bu kateqoriyalarla tanış olduqdan sonra öyrənirik. Kateqoriyalar aşağıdakılardır:

1. Menecment bir proses kimi
2. Menecment bir fəaliyyət kimi
3. Menecment bir intizam kimi
4. Menecment bir qrup kimi
5. Menecment bir incəsənət kimi
6. Menecment bir peşə kimi.

**Menecment bir proses kimi** – bir proses olaraq menecment bir-biri ilə qarşılıqlı surətdə əlaqəli olan bir sıra funksiyalara istinad edir. Corc R.Terryə görə menecment planlaşdırma, təşkiletmə, həyata keçirmə və nəzarət kimi funksiyaları özündə cəmləşdirən bir prosesdir. Onun fikrincə menecmentin əsas fəaliyyəti qarşıya qoyulmuş məqsədə çatmaq və bunun üçün insan-işçi əməyindən istifadə etməkdən ibarətdir. Bir proses olaraq menecment üç əsas aspektdən ibarətdir. Bunlar aşağıdakılardır:

A) **Menecment sosial bir prosesdir** – bizlər bilirik ki, bu və ya digər bir sahədə insanlar və insanlar arasındakı qarşılıqlı əlaqə əsas faktor kimi götürü-

lür. Buna görə də menecment, ümumiyyətlə idarəetmə insanlar arasındakı münasibətlərin düzgün qurulub, tənzimlənməsi üçün çalışır. Menecmentin əsas məqsədi və vəzifələrindən biri insanlar arasında qarşılıqlı əlaqə yaratmaqdan ibarətdir. əlbəttə ki, bu da məqsədli surətdə həyata keçirilir. Belə ki, bu münasibətlər məhsuldar qüvvələr üçün səmərəli və faydalıdır.

B) **Menecment inteqrasiya edən bir prosesdir** – menecment qarşısına qoyduğu təşkilati məqsədlərə çatmaq üçün müxtəlif amillər, resurslar arasında harmoniya yaratmaq vəzifəsini öz üzərinə götürmüşdür. Bu isə işin daha da səmərəli şəkildə qurulmasını təmin edir.

C) **Menecment daim davam edən bir prosesdir** – başlığından da göründüyü kimi menecment, idarəetmə prosesi heç vaxt sonlanmır. Qarşıya çıxan müxtəlif yönümlü problemləri də adekvat addımlar atmaqla həll edən bir prosesdir.

**Menecment bir fəaliyyət kimi** – Koontz'a görə "menecment, menecerin gördüyü işdir". Menecment bir fəaliyyətdir anlayışını belə izah edə bilərəm ki, biz insanlar yazmaq, oxumaq, yemək, gəzmək, yatmaq kimi müxtəlif fəaliyyətləri yerinə yetirdiyimiz kimi menecment də dayanmayan fəaliyyətdə olan bir prosesdir. Fəaliyyət kimi menecmentə daxildir:

**a)** İnformasiya fəaliyyəti – adından da göründüyü kimi burada informasiya alma, informasiya vermə əsas götürülür. Belə ki, müəssisədə fəaliyyət göstərən menecer daima həm şifahi, həm də yazılı surətdə olmaqla məlumat almalı və o məlumatları lazımi orqanlara ötürməlidir. Bununla da menecer müəssisənin səmərəli fəaliyyət göstərə bilməsi üçün həm onun tabeçiliyində olan işçi-kollektivi ilə, həm də rəhbər şəxslərlə daim əlaqədə olmalıdır.

**b)** Qərarvermə fəaliyyəti - ilk olaraq belə bir məqamı qeyd edim ki, menecment, idarəetmə fəaliyyətinə aid olan bu və ya digər növlər verilən münasib qərarlara əsaslanır. Hətta, bu səbəbdəndir ki, fəaliyyət göstərən bu və ya digər menecerlər müəyyən qərarların verilməsində iştirak edirlər. Burada bir menecerin verdiyi qərarın, atdığı addımın digər menecer üçün faydası çoxdur. Belə ki, bu qərar digər menecerin görəcəyi işin fəaliyyətinə çevrilir.

**c)** Şəxslərarası fəaliyyət - bizlərə artıq aydındır ki, menecment sahəsi qarşısına qoyduğu məqsədə insanlar arasındakı münasibəti tənzimləməklə çatır. Bu səbəbdəndir ki, menecer həm onun tabeçiliyində olan, həm də özünün tabe olduğu şəxslərlə, rəhbərlərlə daim qarşılıqlı əlaqədə olmalıdır. Həttə tabeçiliyində olan işçi-kollektiv heyətində əgər hər hansısa bir problem yaranarsa o, bu problemi tez həll etməlidir.

Menecment bir intizam kimi – bir intizam olaraq menecmentin əsasını əsas idarəetmə prinsipləri, metod-metodologiyası, həyata keçirilmə qaydaları təşkil edir. Həmçinin, burada menecerin riayət etməli olduğu qayda-qanunlar, intizam kodeksi, işçi qüvvələrini, insan resurslarını idarə etmək üçün əsas məsələlər öz əksini tapmaqdadır. Səmərəli idarəetmə formaları vurğulanır.

Belə bir məqamı da qeyd etmək istərdim ki, aşağıda qeyd edəcəyim iki tələbi yerinə yetirən hər hansısa bir bilik sahəsi intizam adlanır:

1. Alimlər və mütəfəkkirlər olmalıdır. Hansı ki müəyyən tədqiqat və nəşrlərdən istifadə edərək müvafiq bilikləri insanlara çatdıran mütəfəkkirlər.

2. Hazırki bilik, müasir dövrümüzdə rəsmi olaraq təhsil və təlim proqramlarına uyğun olaraq verilməlidir.

Müasir zəmanəmizdə də menecer, rəhbərlər hər iki problemlə bağlı məsələləri həll etdiyinə görə artıq nizam-intizamlı olmağa layiqdirlər.

Yuxarıdan da göründüyü kimi bu və bunun kimi kateqoriyalar menecment, ümumiyyətlə, idarəetmə haqqında daha ətraflı məlumat xarakteri daşıyır.

**Nəticə**

Verilən bütün məlumatlardan da göründüyü kimi menecment müasir zamanımızda vacib anlayış, elm sahələrindən biridir. O, çox universal və fenomen bir termindir. Bir çox təşkilatlar-biznes, müəssisə, siyasi, mədəni-sosial sahələr menecment, eləcə də idarəetməyə daxildir. Hətta bir çox mütəfəkkirlərin fikrinə görə menecment insanlarla işləyə bilmək sənətidir.

Menecment sisteminin düzgün qurulması mütəşəkkil bir istehsal sahəsi üçün olduqca vacib və əhəmiyyətlidir. Çünki sistemli, tam, professional şəkildə təşkil edilmiş bir idarəetmə, təşkilatçılıq prosesi uğurlu təşkilatın əsasını təşkil edir. Əlbəttə ki, burada işçi kollektivini təşkil edən insan əməyini də qeyd etmək vacib məsələlərdəndir. Çünki təşkilati sahədə idarəetmə dedikdə müəyyən məqsədlərə çata bilmək üçün insan əməyindən istifadə nəzərdə tutulur.

Ümumiyyətlə menecment anlayışı müasir zəmanəmizdə aktual, öyrənilməsi vacib olan bir elm sahəsidir və əvəzedilməzdir. Təşkilatın bütün aspektləri ilə sıx qarşılıqlı əlaqədədir.

Son olaraq belə bir məqamı qeyd edim ki, menecmentin bir elm sahəsi yoxsa sadəcə fəaliyyət göstərən bir fəaliyyət sahəsi olması müasir dövrümüzdə də bəzi mütəfəkkir, alimlər arasında maraq doğuran, mübahisələrə səbəb olan məsələlərdən olmuşdur. Hətta bu haqda müxtəlif fikirlər də söylənmişdir.

**Ədəbiyyat:**

1. *İ.B.Əmirov., Z.E.Hacıyeva. Menecment. Bakı, 2015, 10s*
2. *Frederick Winslow Taylor. The principles of scientific management. New and London, 1919*
3. *Səməd İsmayıl oğlu Seyidov. Menecment psixologiyası. Bakı, 2011, 12 s.*
4. *Yasəmən Əliyeva. Menecmentin əsasları. Bakı, 2017, 36 s.*
5. *Крыжко В.В., Павлютенков Е.М. Психология в практике менеджера образования. СПб., 2001. 304 с.*
6. *Quliyev T. Menecmentin (idarəetmənin) əsasları. Bakı, 2006, 589 s.*
7. *Ə.H.Ələkbərov., M.Ə.Əliyev., S.H.Pürhani. Menecment. Bakı, 2013, 12 s.*

8. *http://anucde.info/bba1a.pdf*
9. *İ. Abbasov. Menecment. Bakı, 2013, 20 s.*
10. *www.researchgaste.net/publication/326209797_The_Concept_of_Management_In_Search_of_a_New_Definition*
11. *K.A.Şahbazov., M.H.Məmmədov., H.S.Həsənov. Menecment. Bakı, 2007, 10 s.*

**N.H.Əbilova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***nerminebilova698@gmail.com***

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ NİZAMİ GƏNCƏVİNİN "İSKƏNDƏRNAMƏ" ƏSƏRİNİN TƏHLİLİ

***Xülasə***

*Görkəmli sənətkarımız Nizami Gəncəvi Azərbaycan ədəbiyyatında özünəməxsus bir mövqeyə malikdir. O, bütün zamanlar üçün öz bədii dəyərini qoruyub saxlayan ölməz əsərlər yaratmışdır. "İskəndərnamə" də belə qiymətli əsərlərdən biridir. Poema şairin zəngin yaradıcılığının, ideallarının möhtəşəm yekunudur. Şairi düşündürən bütün problemlər və onların həlli yolları barədə sənətkarın düşüncələri, idealları məhz bu əsərdə öz əksini daha qabarıq tapmışdır..*

*Orta məktəbdə ədəbiyyat dərslərində bu əsərin tədrisinin əhəmiyyəti olduqca böyükdür. Dərsdə poemanın öyrənilməsi zamanı müzakirə, diskussiya kimi interaktiv metodların tətbiqi şagirdlərdə mənəvi-əxlaqi keyfiyyətlərin inkişafına zəmin yaradır.*

# АНАЛИЗ ПРОИЗВЕДЕНИЯ НАЗАМИ ГЕНДЖАВИ "ИСКАНДЕРНАМА" НА ЗАНЯТИЯХ ЛИТЕРАТУРЫ

***Резюме***

*Наш выдающийся художник Низами Гянджеви занимает уникальное место в азербайджанской литературе. Он создал бессмертные произведения, сохранившие свою художественную ценность на все времена. Искендername является одним из таких ценных произведений. Стихотворение является великим результатом богатого творчества и идеалов поэта. В этом произведении более ярко отражены мысли и идеалы художника обо всех проблемах поэта и их решениях.*

*Значение преподавания этого произведения на уроках литературы в средней школе очень велико. Применение интерактивных методов, таких как дискуссия, дискуссия, при изучении стихотворения на уроке создает основу для развития нравственных качеств у учащихся.*

# ANALYSIS OF NAZAMI GANJAVI'S "ISKANDERNAMA" IN LITERATURE CLASSES

***Summary***

*Our outstanding artist Nizami Ganjavi occupies a unique place in Azerbaijani literature. He created immortal works that have retained their artistic value for all time. Iskendername is one of such valuable works. The poem is the great result of the rich creativity and ideals of the poet. This work more clearly reflects the thoughts and ideals of the artist about all the problems of the poet and their solutions.*

*The importance of teaching this work in literature classes in high school is very high. The use of interactive methods, such as discussion, discussion, when studying a poem in a lesson creates the basis for the development of moral qualities in students.*

***Açar sözlər:*** *"İskəndərnamə", poema, orta məktəb, dərslik, təhlil xüsusiyyətləri*
***Ключевые слова:*** *"Искендерназме", стихотворение средняя школа, учебник, особенности анализа*
***Key words:*** *"Iskendername", poem, high school, textbook, analysis features*

**Giriş.** Azərbaycan zaman-zaman dünyaya söz sənəti xəzinəsini nadir incilərlə zənginləşdirən böyük sənətkarlar bəxş etmişdir. Belə sənətkarlardan olan Nizami Gəncəvi dünya ədəbiyyatında dahi söz ustadı, mütəfəkkir kimi məşhurdur. Onun bir-birindən möhtəşəm poemaları, lirik əsərləri bu gün də öz ideya-bədii dəyərini qoruyub saxlamışdır. Məhz buna görə də Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilmişdir. Nizami ədəbi irsinin öyrənilməsinin mühüm mərhələsi orta məktəbdən başlayır. V sinif ədəbiyyat dərsliyində "Kərpickəsən kişinin dastanı", VI sinifdə "Yaralı uşağın dastanı"və "Ovçu ilə tülkünün hekayəti", VIII sinifdə "Sultan Səncər və qarı" əsərləri öz əksini tapmışdır. X sinifdə isə sənətkarın həyat və yaradıcılıq yolu və həcmcə ən böyük poeması "İskəndərnamə" poeması tədris olunur.

**Əsas hissə.** X sinifdə Nizami Gəncəvinin həyat və yaradıcılığının öyrənilməsinə 5 saat vaxt ayrılmışdır:

1. Nizami Gəncəvinin həyat və yaradıcılıq yolunun öyrənilməsi - 1 saat;
2. "İskəndərnamə" poemasının məzmunu üzrə iş - 2 saat;
3. "İskəndərnamə" poemasının təhlili üzrə iş - 2 saat.

Məlumdur ki, ədəbiyyat dərslərində bədii əsərin öyrədilməsində əsərin məzmununun mənimsədilməsi və əsərin təhlili vacibdir. "Əsərin mətni üzərində iş aparılmadan, məzmun mənimsədilmədən ondakı hiss və düşüncələri duymaq, dərk etmək mümkün deyil, təhlil olmadan isə etik, estetik, sosial problemləri başa düşmək, onlara münasibət bildirmək, nəticələr çıxarmaq çətindir. Məzmunun öyrədilməsi ilə təhlil, əslində, dialektik vəhdət təşkil edir. Məzmunu mənimsəmədən, əsl mənada, təhlil aparmaq olmaz. Təhlilsiz isə əsərin öyrədilməsi yarımçıq qalar." [2, s. 69]

Bədii əsərin təhlilində çoxlu komponentlər var, burada mövzu, obrazlar, süjet ayrı-ayrı nəzərdən keçirilir. Əsərin dərindən başa düşülməsi, qiymətləndirilməsi, yazıçının mövqeyinin müəyyənləşdirilməsi yalnız təhlil prosesində mümkündür. "Təhlil əsərin hisslərə təsirini nəinki məhdudlaşdırmır, əksinə, ona istiqamət verir, düzgün məcraya düşməsinə imkan yaradır. Xatırlamaq yerinə düşərdi ki, xüsusən yuxarı sinif şagirdlərində mütaliə etdikləri əsərdən aldıqları təəssüratı başqaları ilə bölüşdürmək meyli güclü olur və onlar fikir

mübadiləsi aparmağa, mübahisə etməyə daha çox səy göstərirlər. Bu,təhlilin ilk addımları, ilk mərhələsidir.” [2, s. 70]

Ədəbiyyat dərslərində əsərin mənimsədilməsində fəal /interaktiv metodların tətbiqinin də əhəmiyyəti böyükdür. “İnteraktiv metodların tətbiq olunduğu dərsdə şagird təlim prosesinin obyekti yox, subyekti, bərabərhüquqlu iştirakçısına çevrilir, bilikləri kəşf edən tədqiqatçı kimi çıxış edir.“[1, s.118]Fəal /interaktiv təlim şagirdlərdə əsərimüstəqil təhlil etmək bacarığı formalaşdırır. İnteraktiv dərsdə şagird müstəqillik, fəallıq göstərir, obrazları səciyyələndirir, bir-birindən fərqləndirir, əsərdəki problemi, başlıca fikri, ideyanı müəyyənləşdirir.

Hazırladığımız dərs nümunəsində “İskəndərnamə” əsərinin təhlilinin mənimsədilməsinin səmərəli yollarını aydınlaşdıracağıq.

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.2 Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | Davranış və əməllərindən başqaları ilə qarşılıqlı münasibətlərindən digər surətlərin mühakimələrindən çıxış etməklə qəhrəmanları təhlil edir. |
| 1.2.4. Bədii nümunələrinin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | “İskəndərnamə” əsərinin ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |
| 2.2.1 Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | Poema iləbağlı müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Dərsin tipi: induktiv, bədii əsərin öyrədilməsi
İnteqrasiya: tarix, təsviri incəsənət
İş forması: kiçik qruplarla iş, bütün siniflə birgə iş
İş üsulları: müsahibə, beyin həmləsi, müzakirə, təqdimat
Təchizat: X sinif ədəbiyyat dərsliyi və metodik vəsait, iş vərəqləri

**Dərsin gedişi**

Sinfin təşkili: Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla müəyyənləşdirilə bilər. Bu zaman müsahibədən istifadə etməklə yanaşı bir neçə təqdimatın dinlənilməsinə də ehtiyac var.

Motivasiya, problemin qoyuluşu: İskəndər və Nüşabənin rəsmi təqdim edilir və onların şərhi verilir.

Tədqiqat sualı: İskəndərin həyat yolunu təsvir etməkdə dahi şairimizin məqsədi nə idi?

Fərziyyələr dinlənilir. Şagirdlərin fikirlərindən məlum olur ki, şairin bu mövzuya müraciət etməsi təsadüfi deyildir. Ona görə ki, eramızdan 300 il əvvəl yaşamış makedoniyalı İskəndər haqqında istər XII əsrdə, istərsə də ondan sonrakı dövrlərdə böyük rəvayətlər, nağıllar, söhbətlər mövcud idi. Nizami isə bu böyük fateh haqqında araşdırmalarından sonra onu ideal bir qəhrəman kimi öz əsərində oxucusuna təqdim etmişdir.

Tədqiqatın aparılması: Kiçik qruplarda iş formasından istifadə etməklə şagirdlərə iş vərəqləri paylanır, hər qrup sualla tanış olur, öz fikirlərini qeyd edirlər

I qrup: Hökmdar İskəndərin mənfi və müsbət xüsusiyyətlərini müəyyənləşdirin.

II qrup:Nüşabə obrazının xarakterindəki başlıca cəhətlər, davranışı, əməlləri başqalarına münasibətini müəyyənləşdirin.

III qrup:Dara obrazını səciyyələndirin.

IV qrup: Poemadakı müharibə və sülh məsələlərinə şairin münasibətini aydınlaşdırın.

Məlumatın mübadiləsi və müzakirəsi:Kiçik qruplarda birləşən şagirdlər məlumat mübadiləsi və müzakirəsi aparırlar. Hər bir qrup təqdimatlarını nümayiş etdirirlər. Müəllim təqdimatların fəal şəkildə dinlənilməsini təşkil etməli, daha çox mübahisəli məsələlərə diqqəti yönəltməli, diskussiya səciyyəli müzakirəyə istiqamət verməlidir.

Ədəbiyyat dərsində əsərin baş qəhrəmanı İskəndər obrazının təhlili mühüm yer tutur. Müzakirə zamanı aydınlaşdırılır ki, Nizaminin yaratdığı bu qəhrəman tarixi şəxsiyyət olan Makedoniyalı İskəndərdən fərqlənir. Şair öz təxəyyülünün məhsulu olan İskəndərin qarşısında şərəfli, həmçinin çətin bir vəzifə qoymuşdur. Bu vəzifə xalqa ədalətlə başçılıq etməkdir. Nizami Gəncəvi İskəndəri əsər boyu inkişafda təqdim etmişdir. Sənətkar onun müsbət cəhətlərini qeyd etməklə yanaşı, qüsurlarını da göstərir. İskəndər Misir, İran, Çin, Bərdə səfərlərinin heç də hamısında ədalətli hökmdar kimi təqdim edilməmişdir. O, hind hökmdarları Keyd və Furu hədələyir, Çin xaqanından 7 ilin xəracını tələb edir. Bərdəyə səfəri zamanı Nüşabə onun qarşısına daş-qaş düzdürür. Bununla əməllərinin mahiyyətini açır.

*Nüşabə gülərək söylədi şaha:*
*"Daşın ki, boğaza yolu yox daha,*
*Faydasız, yaramaz belə daş üçün,*
*Bu qədər vuruşmaq, çarpışmaq neçin?*
*İndi ki, yeməyə yaramaz bu daş,*
*Dünyada onunla ucalarmı baş?"*

Beləliklə, İskəndər tədricən dəyişir, xalqın var-yoxunu talan edən şahlara qarşı çıxır, vergiləri azaldır. Tutduğu yerləri dağıtmır, əksinə həmin yerlərə abadlıq gətirir, xalqı qarət edənləri cəzalandırır, ölkəni ədalətlə idarə etməyə çalışır.

Şairin fikrincə, hökmdar xalqa zülm etməkdən uzaq olmalı, zülm edənin bir gün cəzalanacağını unutmamalıdır. Çünki cəmiyyətdə hökm sürən ədalətsizliklərin, haqsızlıqların səbəbkarı hökmdar və onun əmrlərini yerinə yetirən şəxslərdir. İskəndər həm də böyük qurucudur. O, dünyanın hansı ölkəsinə səfər edirsə, haqq-ədaləti bərpa edir. Əsərdə İskəndər təkcə filosofların deyil, həm də elmin himayəçisidir. O, elmin və sənətin dostudur. İskəndər həm də peyğəmbərlik səviyyəsinə yüksəlir, insanları doğru yola dəvət edir.

Dərsdə Bərdə hökmdarı Nüşabə obrazı da təhlil edilir. Şagirdlər müzakirə zamanı qeyd edir ki, onun ədalətli idarəçiliyi dillərə əzbər olmaqla yanaşı, həm də bu ədalətin bərəkətindən məhsullar bol olur. Nüşabənin açıq ürəyi müdrikanə fikirləri var. Nüşabə ilə maraqlanan İskəndərə onun haqqında belə deyirlər:

*Qadındır, erkəkdən ürəkli ,qoçaq,*
*Dəniz incisindən təmiz və parlaq.*
*Tayı yox şüurda, adda və sanda,*
*Rəiyyət becərir çətin zamanda.*

Nizami Nüşabəni yalnız hünərli, cəsur, ağıllı hökmdar kimi göstərmir, eyni zamanda onu qadın kimi nəcib, utancaq, abırlı bir xatun kimi də təqdim edir:

*Endirdi həyadan göz qapağını*
*Utandı, tər yudu al yanağını..*
*Əsərdə Nüşabə özünü belə təqdim edir:*
*Erkək tinətliyəm, olsam da qadın,*
*Hər işi bəllidir mənə dünyanın.*
*Mən də bir aslanam, düşünsəm bir az,*
*Aslanın erkəyi, dişisi olmaz.*

Dərsdə Dara obrazı da təhlil edilir. Müzakirə zamanı şagirdlər qeyd edirlər ki, Nizami Daranın simasında dövrünün despot şahlarının obrazını yaratmışdır. Daranın hər bir hərəkəti və sözü zülm və haqsızlıqlardan xəbər verir. Dara bir hökmdar kimi zalım, ədalətsizdir. O, öz əməlləri ilə ölkəsində dözülməz bir vəziyyət yaratmışdır. Yaxşılar pislərin, zəiflər güclülərin əllərində qalmışdı.Xalqı ədalətsiz müharibələrə cəlb etmək, onlarla məsləhətləşməmək Daranın qüsurlarından biri idi. Buna görədir ki, o, öz əməllərinin qurbanı olur. Məhz öz sərkərdələri tərəfindən öldürülür.

*İki sərxoş sərdar fil kimi coşdu,*
*Filbədən Daranın üstünə qoşdu,*
*Böyründən bir yara vurdular ona,*

| I Səviyyə | II Səviyyə | III Səviyyə | IV Səviyyə |
|---|---|---|---|
| Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil etməkdə çətinlik çəkir | Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə digər surətlərin mühakimələrinə əsaslanmaqla qismən təhlil edir | Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə digər surətlərin mühakimələrinə əsaslanmaqla əsasən təhlil edir | Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə digər surətlərin mühakimələrinə əsaslanmaqla təhil edir. |
| Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |
| Poema ilə bağlı müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir | Poema ilə bağlı müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir | Poema ilə bağlı müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Poema ilə bağlı müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Dərsdə "İskəndərnamə" poemasında müharibə və sülh məsələlərinə geniş yer verilməsinə də münasibət bildirilir. Qeyd edilir ki, şair müharibə və sülh, ordu quruculuğu, ordunun döyüş ruhunun yüksəldilməsi məsələlərindən də bəhs etmişdir. Nizami qeyd edir ki, dünya daim sülhlə, savaşla sınanmış, sülhdən xeyir görmüş, savaşdan ziyan çəkmişdir. İskəndər Daraya xərac verməmək barədə qərar qəbul edir, sərkərdələrini bir yerə yığır, onlarla məsləhətləşir:

*Şübhə yox , - dedi, - o adlı tacidar,*
*Bizimlə döyüşə vermişdir qərar.*
*Hərb üçün, sülh üçün fikriniz nədir?*
*Düşmən çox yaxındır, göstərin tədbir.*

Poemada Dara ilə İskəndər arasındakı müharibə də təsvir edilmişdir. Onun İskəndərə yazdığı məktub nə qədər hədələyici, təkəbbürlü olsa da, İskəndərin məktubu bir o qədər ağılla düşünülmüşdür. Onlar Musil adlı bir ölkədə qarşı-qarşıya gəlirlər:

*Musil adlı bir ölkədə toqquşdu iki tacidar*
*Dəhşətdən, vəhşətdən titrədi dağlar*

*Çarpışan şahlardan əsər axtarsan*
*İndi də o yerdə sümük taparsan*

**Dərsin nəticə çıxarılması və ümumiləşdirmə mərhələsində** çıxarılmış nəticə şagirdlərin dərsin əvvəlində tədqiqat sualı ilə bağlı söylədiyi fərziyyələrlə müqayisə edilir. Qeyd edilir ki, ədib Makedoniyalı İskəndər surətini özünün humanizm və ədalət ideyalarına uyğun bir şəxsiyyət kimi yaratmışdır. Bu obraz vasitəsilə hökmdar və xalq, dövlətin idarə olunması və digər ictimai problemləri bizlərə çatdırmaq istəmişdir.

Qiymətləndirmə: Qiymətləndirmə meyarları kimi təhliletmə, nəticəçıxarma, əsaslandırmadan istifadə edilir.

**Nəticə.** Müasir mərhələdə ədəbiyyatın tədrisi metodikasının aktual problemlərindən biri də irihəcmli nəzm əsərlərinin öyrədilməsidir. Məktəb təcrübəsinə əsasən demək olar ki, Nizami Gəncəvinin mürəkkəb əsər olan "İskəndərnamə" poemasının təhlili üzrə dərslərdə müəllimin yaradıcı, bələdçilik fəaliyyəti zəruridir. Buna görə də poemadan seçilmiş bitkin hissələr üzərində iş aparmaq daha məqsədəuyğundur. Bu əsərin təlim materialı kimi proqrama salınması gənc nəslin tərbiyəsi üçün nə qədər faydalıdırsa, onun tədrisi bir o qədər məsuliyyətlidir. Qeyd etmək lazımdır ki, əsər şagirdlər tərəfindən mütaliə olunmadıqda onun ideya-bədii xüsusiyyətləri tam şəkildə mənimsənilmir. Poemanın həcminə və genişliyinə baxmayaraq, fəal/interaktiv təlim metodlarının tətbiqi ilə əsərin ideya-məzmununun şagirdlərin mənimsəməsinə nail olmaq olar. Dərsin uğurlu alınması üçüntəlim prosesinin iştirakçıları arasında əməkdaşlıq gözlənilməlidir. Bu prosesin əsas təşkilatçısı isə müəllimdir. Şagirdlərin bədii mətnin təhlili zamanı əlavə mənbələrdən istifadə etməsi dərsdə təhlil zamanı fikirlərdəki qeyri-müəyyənliyi aradan qaldırır, səhvlərin qarşısını alır. Eyni zamanda şagirdlərdə tədqiqata maraq, müstəqillik və fəallıq yaradır, əsaslandırılmış təhlilə, dəyərləndirməyə sövq edir. Təhlil zamanı şagirdlərin yaş və bilik səviyyəsi də nəzərə alınmalıdır. Təhlil üçün müəyyənləşdirilmiş hər bir tapşırıq, iş növündə şagirdlərin yaş xüsusiyyətləri, qavrama imkanları, təhlil bacarıqları nəzərə alınmalıdır.

**Ədəbiyyat:**

1. *Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016, 455 s.*
2. *Hüseynoğlu S. Ədəbiyyatın məktəbdə öyrədilməsi. Bakı, 2019, 264 s.*
3. *Həsənli B., Hüseynoğlu S., A.Mustafayev. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakınəşr, 2017, 212 s.*
4. *Həsənli B., Hüseynoğlu S., A.Mustafayev. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti Bakınəşr, 2017, 208 s.*
5. *Nizami Gəncəvi. İskəndərnamə. Şərəfnamə . Bakı:Lidernəşriyyat, 2004, 432 s.*
6. *Nizami Gəncəvi. İskəndərnamə. İqbalnamə. Bakı: Lider nəşriyyat, 2004, 256 s.*

**N.S.Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***nuranaliyeva97@gmail.com***

# MÜASİR TƏHSİLDƏ İNNOVATİV FƏALİYYƏTİN İNKİŞAF PERSPEKTİVLƏRİ

***Xülasə***

*Bu məqalədə innovativ təhsil texnologiyalarının və pedaqoji prinsiplərin tədqiqi, tədris prosesində müasir interaktiv təlim metodlarından səmərəli istifadə haqqında məlumat verilir. Təhsil müəssisələrində təhsil alan tələbələrin biliklərinin möhkəmləndirilməsində innovativ texnologiyaların səmərəli üsulları təhlil edilir. Sabit nəzəri biliklərin və peşə bacarıqlarının formalaşması tədris prosesinin səmərəliliyini artırır. Bu məqsədlə tədris prosesində yeni pedaqoji texnologiyalarla bağlı təklif və tövsiyələr işlənib hazırlanmışdır.*

# ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ В СОВРЕМЕННОМ ОБРАЗОВАНИИ

***Резюме***

*В данной статье представлена информация по изучению инновационных образовательных технологий и педагогических принципов, эффективному использованию современных интерактивных методов обучения в учебном процессе. Анализируются эффективные методы инновационных технологий в укреплении знаний студентов, обучающихся в общеобразовательных учреждениях. Формирование устойчивых теоретических знаний и профессиональных навыков повышает эффективность учебного процесса. С этой целью разработаны предложения и рекомендации по новым педагогическим технологиям в учебном процессе.*

# DEVELOPMENT PERSPECTIVES OF INNOVATIVE ACTIVITY IN MODERN EDUCATION

***Summary***

*This article provides information on the study of innovative educational technologies and pedagogical principles, the effective use of modern interactive teaching methods in the teaching process. Effective methods of innovative technologies in strengthening the knowledge of students studying in educational institutions are analyzed. The formation of stable theoretical knowledge and professional skills increases the effectiveness of the teaching process. For this purpose, proposals and recommendations on new pedagogical technologies have been developed in the teaching process.*

***Açar sözlər:*** *inkişaf dinamikası, təlim prosesinin effektivliyi, innovasiya prosesi, fənlərarası yanaşma, motivasiya*

***Ключевые слова:*** *динамика развития, эффективность учебного процесса, инновационный процесс, междисциплинарный подход, оценка мотивации*

***Key words:*** *dynamics of development, the effectiveness of learning process, innovation process, interdisciplinary approach, motivation*

Təhsil müəssisələrinin və peşə təhsilinin inkişafı onların məqsəd və vəzifələrini bir-birinə daha da yaxınlaşdırır və birləşdirir. Təhsilin idarə olunmasında müasir innovativ texnologiyaların tətbiqi ilə tədris və tərbiyənin ahəngdar şəkildə həyata keçirilməsində vahid dövlət siyasəti həyata keçirilir, inkişaf etmiş nəsil öz bəhrəsini verir. Bütün dövlət və ictimai təşkilatların vəzifəsi, ilk növbədə, davamlı təhsil müəssisələrinin məzmununa köklü, yenidən baxılmasını tələb edən mürəkkəb prosesdir. İctimai təcrübə, ictimai təhsil, aydın məqsəd daşıyan təhsil və tərbiyə azad şəxsiyyətin formalaşmasının əsasını təşkil edir. Təhsil prosesinin müasirləşdirilməsi və maddi-texniki bazanın təkmilləşdirilməsi, cəmiyyətin mənəvi yenilənməsi, ilk növbədə, gənc nəslin ənənələrinə humanist və demokratik dəyərlərin aşılanması yolu ilə təmin ediləcəkdir. Bütün bunlar gənc mütəxəssislərin yetişdirilməsində və inkişafında xüsusi əhəmiyyət kəsb edir.

**Materiallar və metodlar:** Müasir qloballaşma prosesində təhsilə innovativ yanaşmanın sosial-pedaqoji zərurəti aşağıdakılarla ölçülür:

1. Fasiləsiz təhsil sisteminin elmi-texniki tərəqqi və sosial-iqtisadi yenilənməsi, xüsusən də qabaqcıl xarici təcrübənin öyrənilməsi, təhsilə innovativ yanaşmalar və informasiya texnologiyalarından istifadə yolu ilə ali təhsil müəssisələrində tədris prosesinin təkmilləşdirilməsi;
2. Şagirdlərin təhsil səviyyəsinin, intellektual potensialının, ictimai fəallığının, yaradıcılıq bacarıqlarının inkişafına xidmət edən şəxsiyyətyönümlü tədrisin səmərəli təşkilati formalarının, texnologiyalarının işlənib hazırlanması və həyata keçirilməsi;
3. Pedaqoji innovasiyaların inkişafı və tətbiqi ilə bağlı müəllimin peşəkar və innovativ səriştəsinin inkişaf etdirilməsi zərurəti.

Tədris prosesinə innovativ texnologiyanın düzgün tətbiqi müəllimin bu prosesdə əsas təşkilatçı və ya məsləhətçi kimi çıxış etməsinə səbəb olur. Bu, şagirdlərdən daha müstəqil olmağı, yaradıcılıq və iradi keyfiyyətlərini inkişaf etdirməyi tələb edir və keçirilən dərslər gənclərin mühüm həyat nailiyyətləri və problemləri ilə bağlı fikirlərini ifadə etməyə, müstəqil düşünməyə imkan verir. İnnovativ texnologiyalar pedaqoji proses, o cümlədən müəllim və şagird arasında yaradıcılıq fəaliyyətində yeniliklər, dəyişikliklərdir ki, onların həyata keçirilməsində əsasən interaktiv metodlardan istifadə olunur, çünki təhsildə idarəetmə rolunu müəllim oynayır.

İnteraktiv təlim texnologiyaları bu formalarda həyata keçirilir: fərdi, cütlük, qrup və komanda işi. Müəllim interaktiv təlim texnologiyaları vasitəsilə şagirdlərin bacarıqlarını inkişaf etdirir, özünənəzarət və idarəetmə, səmərəli ünsiyyət, həmyaşıdları ilə işləmək, onların fikirlərini dinləmək və anlamaq, müstəqil, yaradıcı, tənqidi düşünmə, alternativ ideyaları təbliğ etmək, sərbəst düşünmə bacarıqlarını inkişaf etdirir. Ən əsası isə interaktiv təlim texnologiyalarından istifadə etməklə müəllim təhsil prosesində konkret məqsədə çatmaq üçün şagirdlərin qarşılıqlı əlaqəyə əsaslanan hərəkətlərini təşkil edir. O, həmçinin tələbələrə müəyyən bilik sahəsini istiqamətləndirmək, idarə etmək, monitorinq etmək və təhlil etməklə öz bilik və bacarıqlarını obyektiv qiymətləndirməyə imkan verir. Buna görə də tədris prosesində interaktiv təlim texnologiyalarından istifadə nəticəsində:

- Şagirdlərin öyrənməyə marağını stimullaşdırır;
- Tədris prosesinin hər bir iştirakçısını həvəsləndirir;
- Hər bir şagirdin psixikasına müsbət təsir göstərir;
- Tədris materialının səmərəli mənimsənilməsi üçün əlverişli şərait yaradır;
- Şagirdlərə çoxşaxəli təsir göstərir;
- Öyrənilən mövzular üzrə tələbələrin fikir və münasibətini stimullaşdırır;
- Şagirdlərin həyati bacarıqlarını inkişaf etdirir;
- Şagirdlərin davranışında müsbət dəyişiklikləri təmin edir.

Tədris proseslərinin mükəmməl elmi-metodiki təşkili uğurun açarıdır. Eyni zamanda, hər cür məşğələlər və müstəqil tapşırıqlar şagirdlərə yaradıcı işləməyə, hərtərəfli düşünməyə, öz həyat təcrübələrinə əsaslanaraq tapşırıqları həll etməyi öyrədir. Bu gün təhsilin məzmununun köklü şəkildə dəyişdirilməsi, müasir tələblər səviyyəsinə yüksəldilməsi həyatımızda ən mühüm məsələlərdən biridir.

Akademik A.N.Leontev: "Dünyanı dərk etməyin birinci şərti fəaliyyətdir, ikinci şərt təhsildir. Fəaliyyət prosesində insanların qabiliyyəti, bilik və bacarıqları formalaşır ki, bu da o deməkdir ki, fəaliyyət sosial hadisə və həyat mübarizəsinin əsas şərtidir" [3]. Bu gün pedaqogika sahəsində yeni elmi istiqamətin – pedaqoji innovasiya və tədris prosesinin yenilənməsi ideyasının meydana çıxması nəticəsində müəllimlərin pedaqoji fəaliyyətində yeni bir istiqamət – "innovativ fəaliyyət" konsepsiyası yaranmışdır. İnnovativ fəaliyyət müəllimin peşəkar inkişafının mövcud forma və vasitələrinə yiyələnməsinə yaradıcı yanaşmasını nəzərdə tutur. Onu da etiraf etmək lazımdır ki, təhsildə innovasiyalar və innovativ pedaqoji fəaliyyətlə bağlı sabit və hamı tərəfindən qəbul edilmiş elmi fikirlər və təsnifatlar hələ də formalaşmamışdır. Bunun əsas səbəblərindən biri təhsilyönümlü elmi bilik sistemləri arasında aradan qaldırılması çətin olan boşluqlardır. Daha böyük səbəb isə təhsil biliyi ilə praktiki pedaqoji fəaliyyət arasındakı boşluqdur. Müəllim bir subyekt və təşkilatçı kimi

innovativ fəaliyyət, innovasiyanın yaradılması, tətbiqi və yayılmasında iştirak edir. O, elmdə biliyin məzmun və mahiyyətini, ənənələrdə baş verən dəyişiklikləri təhlil etməyi bacarmalıdır. İnnovasiya praktika və nəzəriyyənin mühüm hissəsidir, sosial-mədəni obyektin keyfiyyətlərini təkmilləşdirməyə yönəlmiş sosial aktorların fəaliyyət sistemidir. Bu ideya nəzəriyyəsinin mahiyyətinin yaradılması ilə bağlı müxtəlif yanaşmalar, mülahizələr mövcuddur və onun mahiyyəti haqqında elmdə vahid fikir yoxdur.

İnnovasiyalar sistemdə formalaşan aktual, vacib, yeni yanaşmalardır. Onlar təşəbbüslər və innovasiyalar əsasında doğulur və təhsil məzmununun inkişafı üçün perspektivlidirlər, həmçinin bütövlükdə təhsil sisteminin inkişafına müsbət təsir göstərirlər. İnnovasiya müəyyən bir fəaliyyət və ya istehsal sahəsində texnologiya, forma və ya metodun son nəticəsi, problemin həllinə yeni yanaşma və ya hər zamankindən daha böyük uğurlara səbəb olduğu məlum olan yeni texnoloji prosesin tətbiqidir. Bu gün təhsil sistemində innovasiyaların təsnifatı aşağıdakı kimi təsdiq edilmişdir:

- Fəaliyyət istiqamətindən asılı olaraq (pedaqoji prosesdə, idarəetmədə).
- Edilmiş dəyişikliklərin təsvirinə görə (radikal, dəyişdirilmiş, birləşdirilmiş).
- Dəyişikliklərin miqyasına görə (yerli, modul, sistemli).
- Mənşə mənbəyinə görə (bu icma üçün daxildən və ya xaricdən götürülür).

İnnovasiyanın məqsədi xərclənən pul və ya səydən maksimum nəticə əldə etməkdir. Təhsil sistemində hər hansı yenilik yenilik ola bilməz. Buna görə də "innovasiya" və "yenilik" anlayışları arasındakı əsas fərqləri qeyd etmək lazımdır. İslahat fəaliyyətinin aydın forması, məzmunu və miqyası bunun əsasını təşkil edir. Əgər fəaliyyət qısamüddətlidirsə və inteqrasiya olunmuş sistem xarakteri daşımırsa, o, qarşısına konkret sistemin yalnız bəzi elementlərini dəyişdirmək vəzifəsini qoyubsa, deməli, biz innovasiya ilə əlaqə saxlayırıq. Biz o zaman yenilik deyə bilərik ki, fəaliyyət müəyyən konseptual yanaşma əsasında həyata keçirilsin və nəticə həmin sistemin inkişafına və ya onun əsaslı şəkildə dəyişməsinə səbəb olsun. Hər iki konsepsiyanın meyarları belədir: innovasiya mövcud nəzəriyyə çərçivəsində həyata keçirilir, əhatə dairəsi və vaxtı məhduddur, metodlar yenilənir və nəticədə əvvəlki sistemin təkmilləşdirilməsi baş verir. İnnovasiya isə sistemli, inteqrasiyalı və davamlı olacaq, konkret təcrübədə yeni fəaliyyət sistemini tərtib edəcək, təcrübə subyektlərinin mövqelərini tamamilə yeniləyəcək. Eyni zamanda, yeni fəaliyyət sahələri açılacaq, yeni texnologiyalar yaradılacaq, fəaliyyətin yeni keyfiyyət nəticələri əldə ediləcək və nəticədə təcrübənin özü yenilənəcəkdir. İnnovasiyanın həyata keçirilməsi innovativ proseslərdə baş verir. İnnovasiya prosesi innovativ dəyişikliyə hazırlaşmaq və həyata keçirmək prosesidir. Tədris prosesində innovativ dəyişikliklər, hər hansı yeniliyin təhsil sistemində tətbiqi bilavasitə müəllimlərin fəaliyyətinin yenilən-

məsi və dəyişdirilməsi yolu ilə həyata keçiriləcək. Təhsil sistemində innovasiyaların təhlili, onların həyata keçirilməsi, innovativ proseslərin idarə edilməsi yolu ilə innovativ fəaliyyət anlayışını müəyyən etmək imkanı yaranır.

İnnovativ fəaliyyət pedaqoji kollektivi həvəsləndirən, inkişaf etdirən hərəkətverici qüvvədir. V.İ. Slobadçikov demişdir: "İnnovativ fəaliyyət ənənəvi normaların yeni sosial tələblərə uyğun gəlməməsi və ya yeni formalaşmış təcrübə normasının mövcud norma ilə toqquşması nəticəsində yaranan mürəkkəb problemlərin həllinə yönəlmiş fəaliyyətdir". [4]İnnovativ fəaliyyət praktika və nəzəriyyənin mühüm hissəsidir, sosial-mədəni obyektin keyfiyyətlərini təkmilləşdirməyə yönəlmiş sosial subyektlərin fəaliyyət sistemidir ki, bu da təkcə müəyyən diapazonda problemləri həll etmək bacarığı deyil, həm də problemləri həll etməyə motivasiya hazırlığıdır. Müəllimin innovativ fəaliyyətinin əsas məsələsi tədris prosesinin səmərəli təşkilidir. İnnovativ fəaliyyət uzun müddət ərzində formalaşan və təkmilləşən yeniliklər əsasında davamlı işdir.

Müəllimin innovativ fəaliyyətinin xüsusiyyətlərini tədqiq etmiş pedaqoji alimlərin mülahizələrinə əsasən aşağıdakıları innovativ fəaliyyətin əsas xüsusiyyətləri hesab etmək olar:

- Yaradıcı fəaliyyət fəlsəfəsinə yiyələnməyə çalışmaq;
- Pedaqoji tədqiqat metodlarına yiyələnmək;
- Müəlliflik konsepsiyaları yaratmaq bacarığı;
- Eksperimental işləri planlaşdırmağı və həyata keçirməyi bacarmalı;
- Digər tədqiqatçı və müəllimlərin təcrübəsindən istifadə edə bilmək;
- Həmkarları ilə əməkdaşlıq;
- Fikir mübadiləsi və metodikiköməklik göstərməyi bacarmalı;
- Münaqişələrin qarşısının alınması və aradan qaldırılması;
- Xəbərləri tapın və onu vəziyyətinizə uyğunlaşdırın.

Müəllimlərin innovativ fəaliyyətə hazırlanması probleminə yanaşma cəmiyyətdə innovasiya proseslərinin artan dinamikasının dərk edilməsi nəticəsində yaranmışdır. Onun təhlili təkcə elm və texnikanın müasir nailiyyətlərindən istifadəni deyil, həm də əldə edilmiş nəticələrin axtarışı, yaradılması, uyğunlaşdırılması, tətbiqi və yenidən yoxlanılması kimi prosesləri əhatə edir. Ümumiyyətlə, innovativ fəaliyyətin strukturu - yaradıcı yanaşma, yaradıcı fəaliyyət, innovasiyanın tətbiqi üçün texnoloji və metodoloji hazırlıq, innovativ düşüncə, davranış mədəniyyəti. İnnovativ fəaliyyətin səviyyələri reproduktiv, evristik, yaradıcı ola bilər. İnnovativ fəaliyyət dövründə yeniliklər, innovasiyalar təhsil prosesinə daxil olur. Buna görə də təhsil sistemində innovasiyaların pedaqoji prosesə tətbiqi 4 mərhələdə həyata keçirilir:

1. Təhlil əsasında problemi müəyyənləşdirmək.
2. Planlaşdırılan təhsil sisteminin layihələndirilməsi.
3. Dəyişiklikləri və yenilikləri planlaşdırmaq.

4. Dəyişikliklər etmək.

İnnovativ fəaliyyətə hazırlığın məqsədi müəllimin yeniliyə həvəsini, işləmək bacarığı və bacarıqlarını inkişaf etdirməkdir. Pedaqoji yenilik tədris prosesində mühüm və mürəkkəb problemlərin həllinə yönəldiyi üçün müəllimdən yeni yanaşma tələb edir. Müəllimin innovativ fəaliyyətə hazırlanmasında bir sıra psixoloji maneələr mövcuddur. Bunlardan birincisi, müəllimin vərdiş etdiyi fəaliyyətin hüdudlarından kənara çıxmasının çox çətin olması, yəni müəllimlərdə yaradıcılıq qabiliyyətinin olmaması, digər səbəb isə yeni və bilinməyən şeylərin hər zaman qorxuya səbəb olmasıdır. Yuxarıdakı mülahizələrə əsasən belə bir nəticə çıxarmaq olar.

**Nəticə**: Bu gün fasiləsiz təhsil sistemində tədrisin səmərəliliyinin artırılmasının mühüm şərti təhsil prosesinə sistemli yanaşma və müxtəlif pedaqoji fəaliyyətlərdən ibarət xidmətlərin göstərilməsidir. Eyni zamanda, müasir pedaqoji texnologiya insan potensialının və onun nəticələrinə və obyektiv qiymətləndirilməsinə zəmanət verən sistemli yanaşmalar əsasında tədris formalarının sadələşdirilməsi üçün zəruri olan texniki vasitələrin qarşılıqlı əlaqəsini nümayiş etdirir. Tədris məqsədlərinin aydınlaşdırılması, tədris və təlim prosesində istifadə olunan metodların, üsulların və vasitələrin şaxələndirilməsi, tədris prosesinin məzmununun dərinləşdirilməsi - bütün bunlar təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi deməkdir.

İnnovativ fəaliyyət elmi tədqiqatlar, təcrübələr, təcrübələr və ya digər elmi-texniki nailiyyətlərdən istifadə etməklə yeni texnoloji prosesin və ya yeni təkmilləşdirilmiş məhsulun yaradılmasıdır ki, onun praqmatik xüsusiyyəti həm ideya sahəsində, həm də ayrıca olmasıdır. İnnovativ fəaliyyətin mahiyyəti praktikada yeni texnologiyanın formalaşmasıdır ki, bunun nəticəsi innovasiya kimi yaranmış ixtira layihəsinin, layihə-texnologiyanın transformasiyasına yönəlmiş fəaliyyətdir. İnnovativ fəaliyyətdə elmi baxışlar akademik elmin məntiqindən yaranmır, inkişaf prosesinin modifikasiyalarının dəstəklənməsi nəticəsində inkişaf edən təcrübənin əks olunmasından yaranır.

**Ədəbiyyat:**

*1. İntiqam Cəbrayılov. Təhsildə innovativ fəaliyyətin təkmilləşdirilməsi. "Azərbaycan məktəbi" jurnalı, 2015.*

*2. Larisa A. Kharisova. Analysis of the quality of innovative activity of the school by teaching staff.*

*3. Shoaxmedova N., & Mannanova Innovative technologies as an aspect of the development of modern higher education. S., 2020.*

*4. Ishmukhammedov R. Mirsolieva Innovative technologies in the educational process (methodical manual). M.,(2014, Tashkent.*

**M.İ.Verdiyeva, S.S.Rafiqova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***semaye.rafigova@gmail.com***

# VIII SİNİFLƏRDƏ EKOLOJİ BİLİK VƏ BACARIQLARIN ŞAGİRDLƏRƏ ÖYRƏDİLMƏ ÜSULLARI

***Xülasə***

*Elmi məqalədə VIII siniflərdə ekoloji təhsil araşdırılmış, bu sinifdə ekoloji təhsilin verilməsi prosesinə diqqət yetirilmişdir. Ekoloji təhsilin VIII siniflərdə hansı mövzularda verilməsi, məzmun xətləri üzrə əsas və altstandartlar təhlil olunmuşdur.*

# СПОСОБЫ ОБУЧЕНИЯ УЧЕНИКОВ 8 КЛАССОВ ЭКОЛОГИЧЕСКИМ ЗНАНИЯМ И НАВЫКАМ

**Резюме**

*В научной статье проведен анализ экологического образования в 8-х классах, уделено внимание процессу дачи экологического образования в этом классе. Были проанализированы темы экологического образования в 8 классе, основные стандарты и подстандарты по линии содержания.*

# METHODS OF TEACHING ENVIRONMENTAL KNOWLEDGE AND SKILLS TO THE STUDENTS IN VII GRADE

**Summary**

*In scientific article, environmental education was taught in the 8th grade, and attention was paid to the environmental education process in this class. The main and substandards and directions of the content of environmental education of the 8th grade were considered.*

***Açar sözlər:*** *ətraf mühit, müstəqil öyrənmə, ekoloji təhsil,*

***Ключевые слова:*** *окружающая среда, самостоятельное обучение, экологическое образование,*

***Key words:*** environment, independent learning, environmental education

**Giriş.** Azərbaycan Respublikası Konstitusiyasının II fəslinin 78-ci maddəsində ətraf mühiti qorumağın hər bir vətəndaşın borcu olduğu göstərilmişdir. [1] Sürətli inkişaf özü ilə, sürətli təlim, sürətli həyat gətirdiyi kimi sürətli çirklənmə və ekologiyanın sürətli pozulmasına da gətirib çıxarır. Cəmiyyətin ekoloji təhsilinin əsas məqsədi də məhz elə bu günün tələbləri ilə təbiəti qorumağı olmalıdır. Azərbaycan Respublikasının Təhsil Qanunu: 3.2.1. Ümumi təhsilin məzmununun fərdin, cəmiyyətin və dövlətin tələblərinə, elmi-texniki tərəqqi-

nin inkişafına çevik uyğunlaşdırılması [2] Təhsil Qanununun bu bəndindən də göründüyü kimi elm, texnika inkişaf etdikcə müasir təhsil sistemi də sürətli tendensiya ilə inkişaf edir. Bu tendensiya ilə ayaqlaşa bilmək üçün isə həm beynəlxalq dünyagörüşünə sahib olmalı, həm də bu günün tələblərinə cavab verə bilən yeni nəsil formalaşdırmağa ehtiyac vardır. Ekologiya müstəqil bir elm kimi orta məktəblərdə tədris olunmasa da, coğrafiya, bilogiya, həyat bilgisi kimi fənlərin daxilində müxtəlif bölmələrdə yer verilmişdir.

VIII sinfin sonunda şagird: Cəmiyyət məzmun xətti üzrə ekoloji problemlərin insan həyatına təsirini izah edir. [3] Bu standartda şagird fəaliyyətinin təşkilində mürəkkəb sxemlərdən istifadə etmək olar. Məsələn ekoloji cəhətdən çirklənmiş rayonlar arasında əhalinin ümumi rifah halının mənfi müsbət cəhətlərini Eyler Venn diaqramı vasitəsilə verilir. Bu zaman şagirdlərdə Ekoloji təmizliyin mühümlüyü barəsində müəyyən bir düşüncə formalaşacaq. VIII sinfin sonunda şagird: təsərrüfat sahələrinin yaratdığı ekoloji dəyişkənliyi müəyyən edir. [3] Dərs zamanı şagird fəaliyyətinin təşkili məqsədilə bu standartda əvvəlcə tədqiqat sualı olaraq aşağıdakı sual ünvanlandırılır:

Sizin fikrinizcə yaxınlıqda olan təsərrüfat sahələrinin mənfi xüsusiyyətləri hansılardır?

Şagirdlər müxtəlif fikirlər səsləndirir. Hər bir fikir müzakirə edilir. Daha sonra video vasitəsilə şagirdlərə təsərrüfat sahələrinin ekoloji mühitə vurduğu zərərlər göstərilir. Fəaliyyətin əsas məqsədi şagirdlərdə ekoloji çirklənmənin qarşısını almaq və onun qarşısını almağın mahiyyətinin nə olduğunu göstərməkdir. Təbiət məzmun xətti üzrə coğrafi təbəqədə baş verən hadisə və proseslərin ekocoğrafi nəticələrini mənimsədiyini nümayiş etdirir. Cəmiyyət məzmun xətti üzrə ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirir. [3]

Müasir şagird müxtəlif rayon və Respublika səviyyəsində təşkil edilən ekoloji tədbirlərdə iştirak etməlidir. VIII siniflərdə yaş xüsusiyyətlərinə uyğun olaraq müxtəlif tədbirlər keçirmək lazımdır. Məktəbin yalnız coğrafiya müəllimləri deyil, bütün fənləri tədris edən müəllimlər ekoloji tədbirlərin keçirilməsində maraqlı olmalıdırlar. Ekoloji tərbiyə hər bir sinfin yaş xüsusiyyətlərinə uyğun olaraq təşkil edilməlidir. Düşünürəm ki, orta məktəblərdə şagirdlərin ekoloji şüurunu yoxlamaq üçün müxtəlif anketlər tərtib edilməlidir. Anket sorğusunda verilən suallar da şagirdlərin yaş xüsusiyyətlərinə uyğun təşkil edilməlidir. Anketlərdə müxtəlif suallarla şagirdlərin təfəkkürlərində, düşüncələrində ekoloji tərbiyənin nə qədər doğru istiqamətdə aşılandığını ölçmək olar. Anketdə aşağıdakı suallar verilə bilər:

-Adınız, soyadınız, sinfiniz.

-Yaşadığınız ərazidə ekoloji cəhətdən çirklənən əraziləri tanıyırsınız?

-Sizin fikrinizcə, ekoloji qaydalara əməl edilməzsə təbiətdə hansı dəyişikliklər olar?

-Sinifdə gigiyena qaydalarına əməl edirsinizmi?

-Sinfin havasını vaxt-vaxtında dəyişirsinizmi?

-Ekologiya ilə əlaqədar müəssisələrdən birində çalışsa idiniz, yaşadığınız ərazidə hansı təsərrüfat sahələrini bağlayardınız?

-Sizcə təsərrüfat sahələri təbiətə ziyan verir, yoxsa xeyir?

-Ekologiya ilə əlaqədar müəssisələrdən birində çalışa idiniz, yaşadığınız ərazidə hansı ekoloji tədbirlər həyata keçirərdiniz?

-Ekoloji oyunlar keçirilməlidirmi? Nə üçün?

-Ekologiya ayrıca bir fənn kimi keçirilməlidir? Əgər müstəqil bir fənn kimi sizə tədris olunsa idi, bunu daha çox hansı formada keçmək istəyərdiniz: Çöl şəraitində praktiki olaraq, yoxsa sinif şəraitində?

-Ekoloji tərbiyə dedikdə nə başa düşürsünüz? Sizin fikrinizcə ekoloji tərbiyənizi formalaşdırmaq üçün hansı işləri görməlisiniz?

-Hansı müəlliminizlə ekoloji müzakirələr keçirirsiniz?

-Ekoloji təhlükəsizlik və ekoloji sistem kimi terminləri necə başa düşürsünüz?

Anket sorğusu siniflər üzrə keçirildikdən sonra ümumi qiymətləndirmə prosesi keçirilməlidir. Ümumi orta məktəb şagirdlərinin ekoloji şüuru qiymətləndirilməlidir. Neqativ və pozitiv nəticəyə gəlinməsi anketin cavablarından sonra müzakirə olunmalıdır. Anketdə neqativliyin çox olduğu siniflərlə müəyyən söhbətlər aparılmalıdır.

Ümumiyyətlə, ekologiyanın mahiyyəti, onun dünya üçün əhəmiyyəti şagirdlərin önündə açılmalıdır. Hər bir şagird sanki bir ekoloji monitorinq aparırmış kimi vəziyyəti qiymətləndirməyi, proqnoz verməyi bacarmalıdır. Bu isə onlara ötürülən biliklərdən qazandıqları bacarıqlardan, vərdişlərdən asılıdır. Ekoloji vəziyyəti qiymətləndirməyi bacaran şagird müəyyən işlər görməyi, tədbirlər planı hazırlamağı öyrənir.

Şagirdə ekoloji qaydalara əməl etmək yaşadığı mühitdən, ev və məktəbdən aşılanmalıdır. Məktəblərdə təhlükəsizlik qaydaları ilə yanaşı sinfin və məktəbin təmizliyi ilə bağlı müxtəlif plakatlar, stendlərdən istifadə etmək olar. Həmçinin hər il məktəblərdə təmizlik günləri təyin etmək olar. Şagirdlər həmin günlərdə dərsdən sonra sinfin, dəhlizin təmizliyində məktəb işçilərinə kömək edərlər. Bu həm şagirdlərdə biganəliyi aradan qaldırar, həm də ətraf mühitin təmizliyinin öz əllərində olmasını praktik görmüş olarlar. Şagirdlərlə birlikdə tullantılardan müxtəlif tablo və ya əşyalar hazırlamaq da onlarda motivasiyanın yaranmasına köməklik edər. Hətta ildə bir dəfə tullantılardan hazırlanmış müxtəlif əşyaların satışı üçün məktəb səviyyəsində kiçik yarmarkalar təşkil etmək olar. Əldə edilən gəlirlərlə şagirdlər üçün faydalı vasitələr təmin edilə bilər.

**Nəticə.** Məqalədə VIII siniflərdə ekoloji bilik və bacarıqlar sistemi araşdırılmış, VIII sinif şagirdləri arasında keçirilən anket sorğusu nəticəsində məlum olmuşdur ki, şagirdlər ekoloji bilik və bacarıqları ən yaxşı diyarşünaslıq prinsipinin tətbiq edilməsi zamanı öyrənirlər. Müxtəlif rayon məktəblərində

hava şəraiti və relyef, infrastruktur müəllimlərin diyarşünaslıq məsələlərinə istinad etmələrinə çətinlik yaradır. Əsasən müxtəlif bilik mənbələrindən istifadə edildikdə, innovasiyalar tətbiq olunduqda şagirdlər səbəb-nəticə əlaqələrini vizual görürlər. Və onlarda müəyyən bir dünyagörüşü formalaşmış olur. Ekoloji şüura malik olan bir şagird gələcəyin mühəndisi, mütəxəssisidir. Məsələnin hansı dərəcədə vacib olduğu dərk edilərsə, hər bir şagird gələcək fəaliyyətində ekoloji mühitlə əlaqədar müxtəlif layihələrin həyata keçirilməsinin birbaşa təşəbbüskarı olar.

**Ədəbiyyat:**

1. *Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995, 14 s.*
2. *Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2013 19 iyun.*
3. *Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı (kurikulum) (VI-XI siniflər) Bakı 2013, 15-17 s.*

**R.N.Hüseynova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ramziyya1997@gmail.com***

# YENİYETMƏLƏRDƏ ÖZÜNÜTƏRBİYƏ PROSESİNİ ÖYRƏNMƏNİN MAHİYYƏTİ

***Xülasə***

*Başqa yaş dövrlərinə nisbətən yeniyetmə əvvəlki kimi öz həyatına passiv münasibət bəsləmir. Kiçik məktəblidən fərqli olaraq, yeniyetmələrdə özünə, öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə maraq yaranır. Bu cür özünəyönəlmiş maraqların təsiri altında yeniyetmələrdə özünütərbiyə, özünüqiymətləndirmə tələbatı, özünü, öz imkan və bacarıqlarını başqaları ilə müqayisə etmə meyli əmələ gəlir. Çox zaman ilk vaxtlar yeniyetmənin özünüqiymətləndirməsi hazırki imkanlarına, kollektivdə tutduğu real mövqeyinə uyğun olmasa da bunun sayəsində o, bir növ öz daxili "mən"ini kəşf edir. Bu yenilik isə uşağın daha sonrakı həyat və fəaliyyəti üçün lazımlı əhəmiyyətə malikdir.*

# СУЩНОСТЬ ОБУЧЕНИЯ ПРОЦЕССУ САМОВОСПИТАНИЯ У ПОДРОСТКОВ

***Резюме***

*Подростки уже не так пассивны, как раньше. В отличие от маленького школьника, подростки интересуются собой, своей личной жизнью и чертами характера. Под влиянием таких эгоцентричных интересов у подростков формируются потребность в самообразовании, самооценка, склонность сравнивать себя, свои возможности и способности с другими. Часто самооценка подростка поначалу не соответствует его текущим возможностям, его реальному положению в коллективе, но в результате он обнаруживает некое внутреннее «Я». Это новшество важно для дальнейшей жизни и деятельности ребенка.*

# THE ESSENCE OF LEARNING THE PROCESS OF SELF-EDUCATION IN ADOLESCENTS

***Summary***

*Adolescents are not as passive as they used to be. Unlike a small schoolboy, teenagers are interested in themselves, their personal life and personality traits. Under the influence of such self-centered interests, adolescents develop a need for self-education, self-esteem, and a tendency to compare themselves, their opportunities, and abilities with others. Often, at first, a teenager's self-esteem does not correspond to his current capabilities, his real position in the team, but as a result, he discovers a kind of inner "I". This innovation is important for the child's later life and activities.*

***Açar sözlər:*** *yeniyetmə, keçid dövrü, tərbiyə, əxlaq, özünütərbiyənin mahiyyəti, özünütərbiyənin motivləri, müəllim*

***Ключевые слова:*** *подросток, переходный период, воспитание, нравственность, сущность самовоспитания, мотивы самовоспитания, педагог*

***Key words:*** *adolescent, transition period, upbringing, morality, the essence of self-education, motives of self-education, teacher*

Tərbiyə kor-koranə bir proses olmayıb, idarə olunan prosesdir. Tərbiyə prosesi ona görə idarə olunan prosesdir ki, onun məqsədi, motivləri, funksiyaları və gözlənilən nəticələri mövcuddur. Tərbiyə həm xarici, həm də daxili idarəetmə imkanlarına malikdir. *Xarici idarəetmə* tərbiyə olunanlardan deyil, tərbiyə edənlərdən asılıdır. Burada müəllim və tərbiyəçilərin fəaliyyəti diqqəti cəlb edir. Tərbiyənin idarə olunması təkcə xarici idarəetmə formasında gedə bilməz. Tərbiyə prosesində biz konkret canlı insanın, fərdin şəxsiyyətini formalaşdırırıq. Bu isə tərbiyədə daxili idarəetmənin zəruriliyini irəli sürür. *Daxili idarəetmə* isə özünütərbiyə prosesində həyata keçir və özünüidarə rolunu oynayır.

"*Özünütərbiyə insanın şüurlu olaraq qarşısına qoyduğu məqsədə, ideal və inamlarına müvafiq olaraq öz şəxsiyyətində dəyişikliklər etməyə yönəlmiş fəaliyyətindən ibarətdir. İnsanın arzu etdiyi keyfiyyətləri özündə inkişaf etdirməsi və ya malik olduğu şəxsi keyfiyyətləri dəyişdirməkdən ötrü özünə müntəzəm surətdə təsir etməsi, rəftar və davranışını təkmilləşdirmək qayğısına qalması özünütərbiyə adlanır.*"[1, səh 150]

Özünütərbiyənin həyata keçməsi üçün şəxsiyyətin müəyyən inkişaf səviyyəsinin, eləcə də özünü daim təkmilləşdirmək vərdişlərinin olması tələb edilir. İnsanın yaşadığı ictimai şərait, aldığı təlim və tərbiyə onun özünütərbiyəsində həlledici rol oynayır. Həyati faktlar özünütərbiyənin geniş imkanlara malik olduğunu bir daha təsdiq edir. Bir çox görkəmli adamlar uşaqlıqdan pis təlim-tərbiyə almalarına baxmayaraq gənclik və sonrakı dövrlərdə özünütərbiyənin köməyi ilə öz davranış və rəftarlarındakı qüsurları aradan qaldıra bilmişlər. Məsələn, görkəmli rus yazıçısı L.N.Tolstoyun özünün etirafına görə o, uşaqlıq və ilk gənclik dövründə öz xarakterində, davranışında olan qüsurları, o cümlədən tənbəllik, lovğalıq, şöhrətpərəstlik və s. kimi cəhətləri görə bilmiş və həmin qüsurlara qarşı ciddi döyüş elan etmişdir. Bütün həyatı boyu özündə əməksevərlik, humanizm, düzgünlük, cəsarətlilik kimi keyfiyyətləri tərbiyə etmişdir.

Özünütərbiyə bir növ özünüidarə deməkdir. Həm də özünütərbiyə özünüidarənin ən ali forması kimi özünü göstərir. Özünütərbiyə şəxsiyyətin müəyyən inkişaf mərhələsində meydana gəlir və onun inkişafına təsir göstərir. Deməli özünütərbiyə şəxsiyyətin əxlaqi-psixoloji yetkinliyinin müəyyən səviyyəsində özünü göstərir. Psixoloqların apardıqları tədqiqatlar göstərmişdir ki, özünütərbiyə tələbatı aydın şəkildə özünü yeniyetməlik dövründə göstərməyə başlayır. Yeniyetmələr birinci növbədə özlərində olan iradi nöqsanları aradan qaldırma-

ğa və özlərində möhkəm iradəli adamlara xas olan *cəsarət, mərdlik, dözümlülük, təkidlilik* kimi iradi keyfiyyətləri tərbiyə etməyə cəhd edirlər. İlk gənclik dövründə özünütərbiyə *fiziki, iradi və mənəvi özünütəkmilləşdirməyə* xidmət edir. Məktəblilər ən çox özlərində *düzlük, mehribanlıq, rəhmlilik, səxavətlilik, dosta, yoldaşa qarşı sadiqlik, daima ona kömək etməyə hazır olmaq* və s. kimi keyfiyyətləri tərbiyə etməyə can atırlar. Yaş artdıqca özünütərbiyənin məqsədi də dəyişir. Ümumiyyətlə, özünütərbiyə bir növ özünüinkişaf amili kimi qocalıq dövrünə qədər özünü göstərir. Aparılmış psixoloji tədqiqatlar özünütərbiyənin bir sıra motivlərini aşkara çıxarmışdır.

1. Cəmiyyətin əxlaqi tələbləri
2. Kollektivin hörmətini qazanmaq iddiası
3. Yarış
4. Tənqid və özünütənqid
5. İşdəki çətinliklər
6. Ətrafdakıların nümunəsi
7. Maddi həvəsləndirmə və s.

Özünütərbiyənin ən ali motivi *idealdır***.** İdeal həmişə insanı müəyyən sahədə özünütərbiyəyə cəhd göstərməyə yönəldir. Özünütərbiyənin motivlərini bilmək həm tərbiyəçilər, həm də özünütərbiyə ilə məşğul olan yeniyetmə və gənclər üçün çox əhəmiyyətlidir. Çünki həmin motivlərin bir qismi daha təsirli, davamlı olduğu halda, qalanları az təsirli, keçici ola bilər. Özünütərbiyə üçün daha təsirli və davamlı motivlərin olması böyük əhəmiyyətə malikdir.

Sosial psixologiyadan aydındır ki, insanların ümumi işdə təması və vəhdəti nə qədər güclü olarsa, onların ümumi işdə təması bir o qədər səmərəli xarakter daşıyar. Buradan aydın olur ki, kollektiv üzvlərinin rəğbətini qazanmış adamlar əgər özünütərbiyə ilə məşğul olarlarsa, bu hal kollektivin başqa üzvlərinə də mütləq sirayət edəcəkdir. Kollektiv vasitəsilə ayrı-atrı şagirdlərin qarşısına özünütərbiyə öhdəliyi qoyulması da bu işin səmərəli nəticə verməsinə səbəb olur. Kollektivdə müsbət ictimai rəyin yaranması da özünütərbiyənin müvəffəqiyyəti üçün faydalıdır. Ona görə də bu sahədə kollektivə köməklik göstərmək olduqca zəruridir.

Şagirdlərin özünütərbiyəsinə istiqamət verən müəllim özünün bu sahədə nümunə göstərməsi, daim özünün pedaqoji ustalığını təkmilləşdirməsi həmin işi müvəffəqiyyətlə yerinə yetirməsinə təkan verir. Bütün dediklərimizdən aydın olur ki, müəllim şagirdlərin özünütərbiyəsinə ciddi rəhbərlik etməlidir. Bu zaman o, dörd vəzifənin həyata keçməsinə fikir verməlidir.

1. Şagirdlərin müsbət keyfiyyətlərini inkişaf etdirmək, bu və ya digər nöqsanı aradan qaldırmalarına inam yaratmaq.
2. Şagirdlərin öz şəxsiyyətinə tənqidi yanaşmasına, öz qüsurlarını görməsi və dərk etməsinə köməklik göstərmək.

3. Müəllim, tərbiyəçi şagirdin özünütərbiyə proqramını tərtib etməsinə köməklik göstərməlidir.

4. Müəllim, tərbiyəçi şagirdləri özünütərbiyənin ən səmərəli, düşünülmüş yolları ilə silahlandırmalıdır [2, səh.104]

Bildiyimiz yaş və inkşaf psixologiyası özündə uşaq psixologiyası, şəxsi inkişaf psixologiyası və herento psixologiyani birləşdirir. Hər bir yaş dövru ozünün keçiçi böhran dövrləri ilə səciyyələnir. Böhran dövrlərindən ən uzun çəkən isə yeniyetməlik yaş dövrüdür. Bu yaş dövrünün psixoloji aspektləri ilə coxsaylı araşdırmalar aparılmış, demək olar bütun psixoloqlar bu yaş dövrünə xüsusi diqqət ayırmışdılar. Bu dövr insan həyatında ən uzun çəkən böhran yaş dövrüdur. Bu yaş dövrü 11-12 yaşdan 16-17 yaşa qədər olan dövrü əhatə edir. Bu yaş dövründə ortaya çıxan yeni xüsusiyyətlər bir çox psixoloji və fiziki hərəkətverici qüvvələrlə, dəyişikliklərlə bağlıdır. Bu dövr əqli inkşafın yeni mərhələyə kecməsi, insanın şəxsiyyət kimi fomalaşması bir növ yetkinliyə qədəmqoyma prosesi gerçəkləşir. Yeniyetməlik dövrü mexanizminin açılmasında görkəmli psixoloq A.N.Leontyevin uşağın psixi inkişafının hərəkətverici qüvvəsi onun ictimai münasibətlər sistemində tutduğu real yerin dəyişməsidir müddəası çox böyük əhəmiyyət kəsb edir. A.N.Leontyevin yazdığı kimi psixi inkişafın müxtəlif mərhələsində "onu əhatə edən insani münasibətlər aləmində uşağın əvvəllər tutduğu yer, onun tərəfindən öz imkanlarına müvafiq gəlməyən kimi dərk olunur və uşaq onu dəyişdirməyə səy göstərir. Yeniyetmənin imkanları artıq onun həyat tərzi ilə üst-üstə düşmür. Buna uygun olaraq öz fəaliyyətini yenidən qurmağa çalışır.

Bu yaş dövründə uşaq ilk növbədə məktəbdə yeni təlim və təhsil metodikası ilə qarşılaşır və bu metodika əvvəlkindən öz mürəkkəbliyi ilə seçilir. Bundan başqa yeniyetmənin həmyaşıdları ilə ünsiyyəti, yaşlılarla ünsiyyət tərzi dəyişir. İndi o özü yaşlı mövqeyindən çıxış etməyə çalışır, özünü sərbəst və müstəqil bir fərd kimi aparmağa can atır. Bu dövrdə yeniyetmənin tələbləri onun imkanlarından cox irəli getməyə başlayır, onun arzu və istəkləri onun müstəqil fəaliyyət imkanlarının xeyli önünə keçir. Buna görə də yaşlılar həm yeniyetmənin müstəqilliyə olan hədsiz meylini müəyyən qədər məhdudlaşdırmağı bacarmalı, həm də onlarda yaşlılığa olan tələbatı durmadan inkişaf etdirməli, yeniyetmələri daha da mürəkkəbləşən fəaliyyət növlərinə cəlb etməlidirlər ki, bu proses, onlarda çatışmayan müstəqillik, özünü idarəetmə və özünənəzarət vərdişlərini formalaşdıra bilsin. Yeniyetməlik dövründə insan şəxsiyyətinin inkişafında bir çox yetkinliklər, dəyişmələr, törəmələr baş verir. Onların sayəsində şagirdin təlim və tərbiyəsində, rəftar və davranışında müxtəlif tipli çətinliklər: inadkarlıq, kobudluq, tənbəllik, qapalılıq, şıltaqlıq, adamdan qaçma və bu kimi keyfiyyətlər meydana gəlir. Bu zaman uşağı cəzalandırmaq isə qətiyyən səmərə vermir, valideyn uşaqla "ümumi dil" tapmağa çətinlik çəkir lap pis halda mümkünsüz olur. Yeniyetmə getdikcə ailədən, valideynlərdən "uzaqlaşır", özünə-

məxsus qapalı, gizli şəxsi həyatını yaşamağa başlayır. Bu yaş dövrü ən böhranlı, ən tərəddüdlü və ən müvazinətsiz bir dövrdür. Bu dövrdə yeniyetmə başqalarının daha çox da ailəsinin təsirindən daim uzaqlaşmağa cəhd göstərir, qapalılığa daha çox meyl edir, canlı adamlarla ünsiyyətdə olmaqdansa kitablara, mütaliəyə, seriallara və indiki zamanda demək olar ki, telefon və kompüter oyunlarına, proqramlarına daha çox üstünlük verir. Və beləliklə yeniyetmə həm valideynlər, həm müəllimlər, həm də özü üçün ən çətin obyektə çevrilir.

Bu yaş dövründə yeniyetmənin anatomic fizioloji və psixi inkişafında, iradi emosional sferasında və əqli fəaliyyətində nəzərə çarpan ciddi dəyişikliklər baş verir. Bu zaman uşaqda yetkinliyin üç səviyyəsi özünü göstərir: cinsi, psixoloji və sosial yetkinlik. Yeniyetmənin şəxsiyyət mənasında formalaşması üçün yetkinliyin həm cinsi, həm psixoloji və sosial səviyyəsi vəhdətdə, bir birilə əlaqəli şəkildə birlikdə qurulub inkişaf etməlidir.

Görəsən bu keyfiyyətlərin səviyyəsinin təzahür və təşəkkülü hansı amillərlə, tərbiyə,fiziki inkşaf, yoxsa həyatda tutduğu ictimai, sosial mövqeyi ilə əlaqədardır?

Bu haqda yaş və inkşaf psixologiyasında inkişafın bioloji, sosioloji və psixoloji nəzəriyyələri arasında mübahisə bu günə qədər hələ də davam etməkdədir.

Yeniyetmənin fizioloji inkişaf xüsusiyyətini nəzərə almadan onun tərbiyəsini, böyüklərlə qarşılıqlı münasibətini və ünsiyyətini tənzim etmək və həyata keçirmək imkan daxilində deyil. Geniş düşünsək, bu fikri bütün yaş dövrlərinə şamil edə bilərik. Lakin onlar yeniyetməlik dövründə boyun sürətlə inkişafı, orqanizmdə gedən maddələr mübadiləsinin dəyişməsi, sürətlənməsi, daxili sekresiya vəzilərinin fəaliyyətinin kəskin surətdə yüklənməsi və cinsi yetişkənliyin baş verməsi ilə spesifikasiya olunur. Məhz bu səbəbdən də yeniyetmənin orqanizmində baş verən anatomik proseslərin mahiyyəti ilə yaxından tanış olduqdan sonra onun təlim və tərbiyəsini düzgün istiqamətdə qurmaq və idarə etmək mümkündür.

"Yeniyetməlik dövründə nəzərə çarpan ən önəmli xüsusiyyətlərdən biri fiziki inkişafla əlaqədar cinsi yetişkənliyin baş verməsidir. Yeniyetmənin orqanizmində bu dəyişikliklərin yaranması bir çox hallarda iqlim şəraitindən müəyyən milli etnoqrafik amillərdən, bəzən isə orqanizmin fərdi xüsusiyyətlərindən asılı olur. Cinsi yetişkənlik qızlarda əsasən 11-13 yaşda, oğlanlarda isə 13-15 yaşda daha gözəçarpan inkişafa başlayır. Cinsi yetişkənlik dövründə qız və oğlanlarda əsasən ikincili cinsi əlamətlər tədricən əmələ gəlir. Bu ilk növbədə uşaqların zahiri görünüşündə özünü göstərir. Qızlarda döş vəziləri inkişaf edir, oğlanların səsi kobudlaşır, tüklənmə prosesinin artdığı hiss edilir, əzələ qüvvəsi artır və s." [3, səh 40]

Müasir zamanda isə yeniyetmənin fiziki inkişafında akselerasiya hadisəsi də öz mühüm yerini alır. Son dövrlərdə aparılan tədqiqatlardan məlum olub ki,

son əlli ildə yeniyetmələrin boyu 10 sm, çəkisi 10 kq, döş qəfəsinin çevrəsi isə 5 sm artmışdır. Cinsi yetişkənliklə əlaqədar olaraq yeniyetmələrin bədən çəkisində də ciddi dəyişikliklər müşahidə olunur: 14-15 yaşda qızların çəkisi il ərzində 3-7, oğlanların isə 5-7 kq artır.

Bura qədər yazdıqlarımıza yekun vuraraq göstərməliyik ki, əvvəla, eyni bir xronoloji yaş dövründə olan yeniyetmə orqanizminin anatomik yetkinlik dərəcəsi tamamilə müxtəlif cür ola bilər. Bununla əlaqədar olaraq isə cinsi yetişkənlik həm ayrı-ayrı vaxtlarda başlaya, həm də sürətlə davam edə bilər. Yeniyetməlik yaşlı uşaqlarda cinsi yetişkənliyin müxtəlif əlamətləri də ayrı-ayrı yeniyetmələrdə müxtəlif cür olur. Məsələn, birində ilk növbədə bədənin sürətli inkişafı nəzərə çarpırsada, cinsi əlamətlər demək olar ki müşahidə olunmur.Və ya bəzən cinsi yetişkənliyin ayrı-ayrı əlamətlərinin çoxluğuna baxmayaraq, ayrıca götürülmüş bir əlamət tam cinsi yetişkənlik haqqında düzgün fikir söyləməyə imkan verməyə bilər.

Yeniyetməlik dövründə uşağın şəxsiyyət kollektivindəki mövqeyi, eyni zamanda ictimai münasibətlər sistemində tutduğu mövqe, əsaslı dəyişikliklərə uğrayır. Bildiyimiz kimi bu yaşda onlar "kiçik" uşaqdan yetkin "uşağa" çevrilir. Yeniyetməlik dövründə uşaqların davranış və rəftarlarında əvvəlki illərdə müşahidə edilməyən yeni xüsusiyyətlər, fəaliyyət və maraq dairəsi özünü göstərməyə başlayır. Yeniyetməlik dövründə şəxsiyyətin strukturunda nəzərə çarpan önəmli və vacib dəyişikliklərindən biri uşağın özünüdərketməsinin inkişafında keyfiyyətli və yüksək səviyyəli irəliləyiş baş verməsindən ibarətdir.Elə bu xüsusiyyətə görə də yeniyetmə özünü artıq heç də uşaq deyil, böyük hesab edir və onda belə bir tələbat yaranır ki, ətrafdakı adamlar ona balaca uşağa olduğu kimi deyil, böyük adama yanaşdıqları kimi münasibət göstərsinlər.

Psixoloji ədəbiyyatda yeniyetmənin özünütərbiyəsindən baş verən bu spesifik törəməni, adətən yaşlılıq hissi adlandırırlar. Uşaq şəxsiyyətində bu cür psixoloji struktura malik törəmənin əmələ gəlməsini, adətən, yeniyetməlik dövrü başlanğıcının psixoloji meyarı hesab edirlər. Yaşlılıq hissinin yaranmasında yeniyetmənin həmyaşıdlarından ibarət qeyri-formal qrupun da müəyyən rolu vardır. Belə qruplarda bu və ya digər münasibətlərin, yaxud məşğələlərin həyata keçirilməsində nisbətən böyük yaşlı uşaqlar aparıcı öncəliyə malik olur. Bu məqamda bir cəhəti də vurğulamaq lazım gəlir ki, uşaqlar yaş məsələsinə, daha aydın desək, hətta özlərindən bir yaş böyük olanlara da çox sensitiv yanaşırlar. Yəni, yeniyetmə özündən hətta bir-iki yaş böyük olan insanı da daha yetkin hesab edir. Yeniyetmə özündən böyüklərlə bir mühitdə olduğu zaman, onlarla birgə vaxt keçirərkən, söhbət etdikdə, yaxud hər hansı bir fəaliyyət icra etdikdə, xüsusilə özündən böyüklər onlarla hesablaşdıqda bu, onları xeyli rahatlaşdırır. Bu vaxt uşağın böyüməsi həm obyektiv həm də subyektiv planda həyata keçmiş olur. Böyüklərin uşağa özləri yəni bir şəxsiyyət kimi münasibət bəsləməsi yeniyetmə üçün hərəkət verici qüvvə kimi çıxış edir ki, o, yaşca böyük in-

sanların səviyyəsinə yüksəlsin və digər heç bir sahədə onlardan geri qalmasın. Yeniyetmədə əmələ gələn xüsusi böyüklər kimi davranma hissi şəxsiyyətin strukturunda nəzərə çarpan ən başlıca psixoloji faktor olub yeniyetmənin ətrafındakı insanlara, ətraf mühitə olan həyat mövqeyini ifadə edir; xüsusi sosial fəallığın, meyl və emosional təəssüratlar sisteminin istiqamət və xarakterini müəyyənləşdirir. Yeniyetmənin sosial aktivliyi böyüklər aləmi, onların ünsiyyət və münasibətlərində mövcud olan davranış tərzləri, tələbləri və normalarının mənimsənilməsini yüksək surətdə dərk etmək bacarığında özünü göstərir. Yeniyetmənin ətrafındakı böyüklərlə qarşılıqlı münasibətləri: Yeniyetmələrdə yetkinlik hissinin ortaya çıxması onun həmin böyüklərlə olan münasibətində də müəyyən dəyişikliklərin ön plana çıxmasına səbəb olur. Yeniyetmənin təsəvvür sferasında yaşlı adam elə birisidir ki, o, sərbəst düşünür, müstəqil hərəkət edir, müxtəlif qadağa və məhdudiyyətlərdən azaddır. Özünü artıq uşaq hesab etməyən yeniyetmə istəyir ki, ona da yaşlılara olduğu kimi münasibət bəslənsin, şəxsiyyət kimi yanaşılsın.Yeniyetmə nəinki bu və ya digər qadağalara öz etirazını bildirir, eyni zamanda o, müxtəlif məsələlərin həllində öz müstəqil fikirlərini yürutməyə can atır: nə qədər, nə vaxt, harada, kiminlə gəzmək, dərsləri nə vaxt hazırlamaq, nə oxumaq və s. kimi məsələlərin yalnız öz iradəsindən asılı olmasını istəyir. Yeniyetmə düşünür ki, yaşlılar onu başa düşəcək və ona qarşı əvvəlki münasibət formasını dəyişəcək, ona güvən göstərəcək, şəxsi hisslərinə çox böyük diqqətlə yanaşacaqlar. Bu vaxt yeniyetməlik yaş dövrü üçün səciyyəvi olan yeni bir problem-bərabərhüquqlular problemi, yaxud şəxsi münasibətlərdə yaşlı və yaxud yeniyetmənin hüquq problemi meydana çıxır. Təlim və tərbiyə prosesində lazımi müvəffəqiyyət qazanmaq bu işdən çox asılıdır. Yeni tipli qarşılıqlı münasibətlərlə əlaqədar olaraq onu qeyd etməliyik ki, bu cür davranış formasının ilk təşəbbüskarı böyüklər, daha dəqiq valideynlər olmalıdır. Əgər münasibətlər belə qurularsa, valideynlərlə müəllimlər həm yeniyetmələrlə yeni münasibətlərə, həm də onlarda yeni xüsusiyyətlərin müsbət yöndə inkişafına rəhbərlik və nəzarət etmək imkanına yiyələnirlər. Əgər böyüklər yeniyetmələrə olan köhnə münasibəti dəyişdirmirsə, hadisələrin sonrakı gedişində bilavasitə yeniyetmənin özü münasibətlərin yeni formada olmasına cəhd göstərir. Özünüqiymətləndirmənin, özünütərbiyənin formalaşması və mənlik şüurunun inkişafı: Kiçik məktəb yaş dövründən fərqli olaraq, yeniyetməlik dövründə yaşlılıq hissinin meydana gəlməsi uşaqların özünüqiymətləndirməsinə də əsaslı təsir göstərir.

**Məqalənin aktuallığı** yeniyetmədə özünüqiymətləndirmənin formalaşması ilk növbədə onun özünü dərk etməsi və qiymətləndirməsinin düzgün ifadə etməsinə köməklik göstərməsi ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi** yeniyetmədə özünüqiymətləndirmənin və mənlik şüurunun düzgün formalaşmasının bir məqsəd kimi qarşıya qoyulması amilinə xüsusi diqqət yetirilməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali və orta ixtisas məktəblərinin psixoloqları, pedaqoqları, valideynlər, tələbə və magistrləri istifadə edə bilər.

**Ədəbiyyat:**

1. *M.Ə. Həmzəyev. Pedaqoji psixologiya. Bakı-1991.*
2. *Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı, 2002, 386 s.*
3. *Ə.Ə.Əlizadə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı:Maarif. -1986*
4. *A.V.Petrovski. Ümumi psixologiya. Bakı:Maarif. -1982, 495 səh.*
5. *Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. Bakı:Çinar-çap.-2009.*

**H.N.Musayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***humaymusayeva1998@gmail.com***

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN TƏRBİYƏSİNDƏ QƏHRƏMANLIQ YÜKSƏK ƏXLAQİ HİSS KİMİ

***Xülasə***

*Məqalədə qəhrəmanlıq tərbiyəsinin kiçik yaşlı məktəblilərin tərbiyəsinə təsiri, qəhrəmanlıq tərbiyəsinin əsas mahiyyətindən bəhs edilir. Eyni zamanda məqalədə tarixi qəhrəmanlarımızın göstərmiş olduqları şücaətlər haqqında məlumat verilir ki,bu qəhrəmanlıqlar kiçik yaşlı məktəblilərin tərbiyəsində, qəhrəmanlıq tərbiyəsinin yüksək əxlaqi hiss kimi formalaşmasında mühüm rol oynayır. Məqalə tarixi qəhrəmanların göstərmiş olduqları şücaətlər, onlar haqqında yazılan kitablar əsasında tədqiq olunmuşdur.*

# ГЕРОИЗМ В ВОСПИТАНИИ МЛАДШИХ ШКОЛЬНИКОВ КАК ВЫСОКОГО НРАВСТВЕННОГО ЧУВСТВА

***Резюме***

*В статье рассматривается влияние героического воспитания на воспитание учащейся молодежи, основная сущность данного им героического воспитания.В то же время в статье приводятся сведения о героизме наших исторических героев, который играет важную роль в воспитании младших школьников, формировании героического воспитания как высокого нравственного чувства. История статьи основана на героизме героев и написанных о них книгах.*

# HEROISM IS IN THE EDUCATION OF PRIMARY SCHOOL STUDENTS AS A HIGH MORAL SENSE

***Summary***

*The article discusses the impact of heroic education on the education of primary school students, the main essence of heroic education given to them.At the same time, the article provides information about the heroism of our historical heroes, which plays an important role in the education of young schoolchildren, the formation of heroic education as a high moral sense.The history of the article is based on the heroism of the heroes and books written about them.*

***Açar sözlər:*** *qəhrəmanlıq, Vətən, kiçik yaşlı məktəblilər, qəhrəmanlıq tərbiyəsi, tərbiyə*

***Ключевые слова:*** *героизмство, родина, младшие школьники, героизмское воспитание, воспитание*

***Key words:*** *heroism, homeland, junior schoolchildren, upbringing, upbringing of heroism*

Qədim Şərqin ən böyük dini-fəlsəfi abidəsi hesab olunan "Avesta"da, əzəmətli Orxan-Yenisey daş kitabəsində, Şumer dövlətinin ən qiymətli incisi və yadigarı "Bilqamış dastanın"da, müsəlman dünyasının dini-fəlsəfi kitabı olan "Quran" da, Məhəmməd Peyğəmbərin kəlamlarında, xalqımızın tarixi qəhrəmanlıq keçmişini əks etdirən möhtəşəm sənət abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanında, folklor nümunələrində, poeziya səmasında günəş kimi işıq saçan, ölməzlik, gözəllik nişanəsinin özülünü qoyan dahi Nizaminin "Xəmsə"sində, qərb aləminin görkəmli filosoflarının əsərlərində igidlik, mərdlik və qəhrəmanlıq yüksək məhəbbətlə verilmiş, onlar haqqında çox maraqlı və qiymətli fikirlər söylənmişdir. Zərdüşt insanları xeyirxah işlərə dəvət edir, Bilqamış ölməzlik çiçəyinə sahib olmaq üçün sonsuz əzablara qatlanır, Bilgə Xaqan türk xalqını özünə qayıtmağa çağırır, doğma torpaqlarını yadellilərin basqınından qoruyur, Məhəmməd Peyğəmbər hər cür təqibə, çətinliyə dözərək İlahi dini yayır, Salur Qazan və dostları düşmənə qarşı qələbə çalır, Məlikməmməd əbədiyyət, həyat almasını qorumaq üçün barmağını kəsib yarasına duz tökür, ağır yollardan keçib qalib gəlir, Nizami qəhrəmanları məğlubiyyətin nə demək olduğunu bilmir, səfərdən qələbələrlə qayıdırlar. Bu möhtəşəm abidələrdə deyilən fikirlər onu göstərir ki, hər bir xalq, millət özünün bütün tarixi inkişaf mərhələlərində gənc nəslin mərdlik və qəhrəmanlıq ruhunda tərbiyə edilib yetişdirilməsində xüsusi əhəmiyyət vermişdir. Xalq çətin məqamlarda doğma yurdu, torpağı yadelli basqınlarına məruz qalanda özünün sərkərdələrindən, mərd və igid övladlarından ümid gözləmişdir. Bu "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanlarında da, Nizaminin "Xəmsə"sində də belədir.

Qəhrəmanlıq, mərdlik sözləri ilə yanaşı dilimizdə igidlik, cürətlilik, təkidlilik, rəşadət, dözüm, mətanət və s. kimi bir-birinə yaxın olan sözlər işlədilir. Həmin sözlər içərisində mərdlik,igidlik və qəhrəmanlıq daha işləkdir. İlk baxımdan görünür ki,bu ifadə eyni bir məna daşıyır. Bəlkə elə buna görədir ki, Azərbaycan Ensiklopediyasında yalnız qəhrəmanlıq sözünə yer verilmiş, mərdlik, igidlik haqqında heç nə deyilməmişdir. Əslində, yuxarıda qeyd etdiyimiz sözlər bir-birinə yaxın olsalar da, eyni məna ifadə etmirlər.

Təkidlilik – insanın çətinliklərlə mübarizədə qüvvəsini azaltmadan məqsədi üçün uzun müddət izləmək bacarığıdır. Təkidlilik məqsədəuyğun inadkarlıqdır.

Qəhrəmanlıq-mərdlik, mətanət və sarsılmazlığın təzahürüdür, insanın elə bir nəcib hərəkətidir ki, ancaq böyük ülvi xeyirxahlıq naminə Vətənin, xalqın azadlığı, hər cür zülm və təzyiqdən xilası, xoşbəxtlik uğrunda mübarizədə həyata keçirilir. Qəhrəmanlıq cürətliliklə əlaqədardır. Qəhrəman adam hər cür çətinlikdən, təhlükədən qorxmadan xalqın mənafeyi naminə mübarizəyə girişir. Qəh-

rəmanlılıqda və cürətlilikdə qorxuya nifrət, təhlükələrə hazır olmaq əlamətləri vardır. Qəhrəmanlıq ümidsizlik aktı deyildir, əksinə, qəhrəman adam inam və əqidəsi naminə hər cür çətinliyə dözür, maneələr, düşmənin say üstünlüyü onu təşvişə salmır. Çətinliklərlə qeyri-bərabər mübarizədə ölüm labüd olarsa, onda ölüm aktının özü qəhrəman adamda mübarizə və qələbənin qüdrətli silahına çevrilir. Azərbaycan Respublikasının Milli Qəhrəmanı Bəxtiyar İsmayılovun hərəkəti buna parlaq nümunədir. O, erməni tanklarının hücumundan yoldaşlarını xilas etmək naminə düşmən hərb maşınını qumbara ilə yandırmış, ikincisini məhv etmək üçün partlayıcı maddə ilə birgə özünü tankın altına atmışdır.

Qəhrəmanlığın baş verməsi üçün bəzən bir an, saniyə kifayət edir. Milli qəhrəmanlarımızın, mərdliklə həlak olmuş şəhidlərimizin həyatı və mübarizəsi belə gərgin, qəhrəmanlıq anları ilə zəngindir. Qəhrəmanlıqla həlak olan şəxs əbədiyyətə qovuşur, şəhidlik zirvəsinə yüksəlir. Deməli, ölümü qorxmadan qarşılayan insan mərd və qəhrəmandır. Qəhrəmanlıqla ölmək insana əbədi həyat qazandırır. Çünki qəhrəmanlıq qəhrəmanla ölmür, onun ömrü uzun olur. Mərdlik, qəhrəmanlıq, igidlik,cəsarət iradədən doğur. Cəsarət qəhrəmanlığın anasıdır. Qəhrəman olan kəs özü üçün doğulur, özgələri üçün yaşayır. Qəhrəmanlıq qorxuya nifrətdir. O, insanları mübarizəyə çağırır. Həqiqi qəhrəmanlar üçün keçilməz yol yoxdur. Qələbənin ehtiyat mənbəyi igid adamın qalib gəlmək arzusudur. Qəhrəmanlığın psixoloji əsasını iradə təşkil edir. Qəhrəmanlıq adamın kiçik və böyük çətinliklərlə uzun müddətli mübarizədə yetişdirilmiş, formalaşdırılmış möhkəmliyidir. Çətin vəziyyətdə - düşmənlə qarşılaşma anında özünü itirmir. İstənilən şəraitdə müvəffəqiyyət qazanmaq ümidini itirməyib onu qələbəyə çevirir. Qəhrəmanlıq qarşıda qoyulmuş məqsəd naminə hər cür məhrumiyyətlərə getməyə, mübarizədə həlak olmağa, lakin həyatını ən baha qiymətə verməyə hazır olmaq deməkdir.

Bildiyimiz kimi bir sıra tarixi şəxsiyyətlərimiz olan Tomrisin, Cavanşirin, Babəkin, Mehdi Hüseynzadənin və yüzlərlə başqa adamların həyatı gənclərə örnək olmuşdur. Beləliklə, Tomrisdən, Cavanşirdən, Babəkdən, Koroğludan başlayaraq Qaçaq Nəbi, Çingiz Mustafayevə kimi tariximiz milli, ictimai azadlıq uğrunda ardı-arası kəsilməyən qəhrəmanlarla dolu mübarizə tarixidir. Bu tarixin hər bir sahifəsi çox böyük nümunə məktəbidir. Bütün böyük şəxsiyyətlər tarixi, əsrləri işıqlandırır. Cavanşir yurda məhəbbətin, əsil fitri qəhrəmanlığın, azadlıq çağırışlarının, fədakarlığın nümunəsidir. Tarixin ən unudulmaz səhifələrindən biri də Babəklə bağlıdır. Babək xalqımızın tarixində vətənpərvərlik, azadlıq uğrunda mübarizə rəmzidir. Babək deyərkən gözümüz önünə böyük tarixi şəxsiyyət olan, ərəb işğalçılarına qarşı 20 ildən artıq yorulmadan mübarizə aparan bir sərkərdə canlanır. Babək misilsiz qələbələri ilə, yenilməzlik nümunəsi olan əzablı qətli ilə qəhrəmanlıq nümunəsinə çevrilmişdir. Xalq şairi O.Sarıvəlli çox gözəl demişdir ki, "Babək adı xalqımızın fəxridir. Belə qəhrəmanların cəngavərlik, qəhrəmanlıq haraylarının ildırımlı şəfəqləri xalqımızın başı üstündən asılan

demokl-düşmən qılınclarını əridib fitnəkarların, bədxahların öz boğazlarına tökməkdə gənclərimizə yaxından kömək edəcəkdir".

Qəhrəmanlıq tərbiyəsinin ibtidai siniflərdə başlıca vəzifəsi məktəblilərin əxlaqi, siyasi, psixoloji, fiziki cəhətdən vətənin müdafiəçiləri kimi hazırlamaqdır. İbtidai sinif müəllimləri şagirdlərin qəhrəmanlıq tərbiyəsinin təşkili tərbiyəsinə yiyələnməlidirlər. İbtidai siniflərdə qəhrəmanlıq tərbiyəsini geniş,əhatəli və elmi-pedaqoji cəhətdən daha səmərəli qurmağın xüsusi əhəmiyyəti vardır. Həmin siniflərdə işləyən müəllim və tərbiyəçilərin bunları bilməsinin faydalılığını nəzərə alaraq, onların izahı üzərində dayanmağı lazım bilirik:

-İbtidai sinifdə qəhrəmanlıq tərbiyəsinin birinci mühüm faydası şagirdlərdə kiçik yaşlardan vətənə məhəbbət hissini gücləndirmək.Bu sevgi hissi ata-ana öyüdü ilə birlikdə məktəblilərin anlaq səviyyələrinə uyğun bədii əsərlər, dərsliklər vasitəsilə aşılanmalı və məktəbin ümumi tərbiyəvi işlərindən keçməlidir;

- İbtidai siniflərdə qəhrəmanlıq tərbiyəsinin təşkilinin ikinci mühüm faydası şagirdlərin bu əsasda vətənin dostunu və düşmənini tanımasını təmin etməkdir. Bu o deməkdir ki, hələ kiçik yaşlarından məktəblilərə xalqımızın düşmənlərini tanıtmalı və onlara qarşı mübariz olmaq hissi aşılanmalıdır. Qədim Sparta və Afina tərbiyə sistemində uşaqları düzgün olaraq kiçik yaşlarından Vətənin müdafiəsinin vacibliyi əqidəsinə qovuşdururdular. Bu səbəbdən də uşaqlar lazım gəldikdə yaşlılarla bir cərgədə düşmənə qarşı döyüşürdülər. Beləliklə də onlar balacalıqdan mərd, qəhrəman, döyüşkən ruhda tərbiyə keçməlidir;

- İbtidai siniflərdə qəhrəmanlıq tərbiyəsinin təşkilinin üçüncü faydası kiçik yaşlı məktəblilərin erkən yaşdan vətənin müdafiəsi üçün bilik, bacarıq və vərdişlərə yiyələndirilməsidir.

Məktəblilərin qəhrəmanlıq tərbiyəsini daha məqsədyönlü qurmaq üçün sinif müəllimləri aşağıdakı vəzifələri həyata keçirməyə çalışmalıdırlar:

- Fənlərin tədrisi prosesində ayrı-ayrı mövzuların qəhrəmanlıq tərbiyəsinin imkanlarını üzə çıxarmaq və bu prosesdə şagirdlərlə bir sıra zəruri anlayışları (müharibələrin xarakteri, vətənpərvərlik və s.) yaratmaq və inkişaf etdirmək;

-Azərbaycan milli qəhrəmanlarının həyat və döyüş yoluna dair maraqlı faktları xatırlatmaqla şagirdlərin qəhrəmanlıq tərbiyəsini gücləndirmək, milli qəhrəmanlara məhəbbət və rəğbət hissi oyatmaq;

-Təlim prosesində, eləcə də sinifdənxaric tədbirlərdə məktəblilərin Vətənə məhəbbət hissini qüvvətləndirmək və doğma torpaq üçün məsuliyyət daşımağın əhəmiyyətini, faydalılığını başa salmaq;

- Şagirdlərin qəhrəmanlıq tərbiyəsinə valideynləri də cəlb etmək,onları bu sahədə pedaqoji biliklərlə silahlandırmaq;

-Məktəbdə qəhrəmanlıq tərbiyəsinə aid vitrinlər yaratmaq, müharibəni səciyyələndirən və milli qəhrəmanların döyüş yolundan bəhs edən stendlər ha-

zırlamaq, sinif otaqlarında milli ordu və onun mübarizə yoluna aid müxtəlif əyani vəsaitlərə geniş yer vermək;

- 1-4-cü siniflərdən başlayaraq "Vətən", "doğma yurd", "qəhrəmanlıq", "mərdlik" və s. məfhumların mahiyyətini tədris prosesində və sinifdənxaric tədbirlər zamanı şagirdlərə çatdırmaq.

Qəhrəmanlıq tərbiyəsinin müvəffəqiyyəti birinci növbədə müəllimin özünün onun mahiyyətini, məqsəd və vəzifələrini, məzmununu dürüst və dəqiq bilməsindən, bu sahədə düzgün mövqe tutmasından, təsirli forma və metodlarını fəaliyyətə tətbiq etməsindən çox asılıdır. Məktəbdə qəhrəmanlıq tərbiyəsinin başqa bir əhəmiyyəti də şagirdləri nəinki mərd, möhkəm insan kimi yetişdirmək, həm də doğma yurdun əsl Vətənin igid övladları, müdafiəçiləri kimi yetişdirməkdən ibarətdir. Fənnlərin tədrisi prosesində aşağıdakı ideya aparıcı yerlərdən birini tutmalıdır:

- şagirdlərdə Vətən məhəbbətini gücləndirmək;
- onu dərin ehtirasla sevmək;
- torpağımıza hörmətlə yanaşmaq;
- düşmənlərə isə sonsuz nifrət hissi aşılamaq.

Məktəblərdə qəhrəmanlıq tərbiyəsi məqsədyönlü, müntəzəm və mütəşəkkil şəkildə həyata keçirilməlidir. Bunun üçün şagirdlər birinci sinifdən başlayaraq ata-babalarımızın qəhrəmanlığı, mərdliyi, düşmənə qəzəb, nifrət bəsləməsi nümunəsində tərbiyə olunmalıdır. Qəhrəmanlıq tərbiyəsinin mahiyyətində məhz bu ideya başlıca yerlərdən birini tutmalıdır. Xüsusilə qeyd etmək lazımdır ki, ibtidai sinif müəllimləri Babəkin, Cavanşirin, Koroğlunun, Mehdi Hüseynzadənin, Həzi Aslanovun və digər qəhrəmanların keçdiyi döyüş yolları haqqında geniş biliyə malik olmalı, yeri gəldikdə təlim prosesində və sinifdənxaric işlərdə onların həyatından maraqlı nümunələr gətirməlidirlər.

Nəticə olaraq qeyd etmək lazımdır ki, mərdlik, qəhrəmanlıq, Vətən qarşısında övlad borcunu yerinə yetirmək əzmi şagirdlərə bir çox halda birinci sinifdən aşılansa da, bu işə hələ məktəbəqədər dövrdən başlanılması daha çox məqsədəuyğundur. Aparılan məqsədyönlü və müntəzəm tədbirlər nəticəsində hər bir məktəbli dərk etməlidir ki, qəhrəmanlıq tərbiyəsi vətənin hər qarış torpağını qorumaqla və onu düşmən əlinə verməməklə bağlıdır. Bütün yuxarıda deyilənlərdən belə bir elmi-pedaqoji qənaətə gəlirik ki, şagirdlərin qəhrəmanlıq tərbiyəsi məktəbəqədər dövrdən başlayaraq ibtidai siniflərdə tədricən sistem şəklinə düşür, fənnlərin tədrisi sinifdənxaric tədbirlər bunun üçün geniş imkanlar açır. Məktəblilər tədricən başa düşürlər ki, Vətəni sevmək, ona fayda vermək zəruridir. Bu, şagirdlərdə əqidənin,inamın formalaşmasına kömək göstərir, onların Vətənin gələcək müdafiəçiləri kimi yetişməsində mühüm əhəmiyyət daşıyır. Qəhrəmanlıq tərbiyəsində ibtidai sinif şagirdlərinin yaş xüsusiyyətləri, idrak səviyyələri hər bir müəllimin pedaqoji fəaliyyətində mühüm yer tutmalı və diqqət mərkəzində durmalıdır.

**Ədəbiyyat:**

*1. Abdinova N. Pedaqogika fənni üzrə mühazirə mətnləri:dərs vəsaiti. Bakı:Vətən, 2019. 182 səh.*
*2. Ağayev M. Kiçik yaşlı məktəblilərin tərbiyəsi. Bakı, 2006, 211 səh.*
*3. Ağayev M. Gənclərin vətənpərvərlik və qəhrəmanlıq ruhunda tərbiyəsi. Bakı,1976 47 səh.*

**A.E.Haqverdiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***arzuhaqverdiyeva99@gmail.com***

# PEDAQOJİ MƏDƏNİYYƏT ANLAYIŞININ MAHİYYƏTİ

**Xülasə**

*XX əsrin sonlarında formalaşan pedaqoji mədəniyyət anlayışı müəllimin pedaqoji fəaliyyət mədəniyyətini, ünsiyyət mədəniyyətini, şəxsi mədəniyyəti, milli və ümumbəşəri mədəniyyəti özündə birləşdirir. Pedaqoji mədəniyyət* - aksioloji, texnoloji, evristik *və şəxsi komponentlər kimi vacib anlayışları əhatə edir. Aksioloji mədəniyyətə - pedaqoji təfəkkür, refleksiya, pedaqoji biliklər, pedaqoji etika və takt aiddir. Texnoloji komponentlərə isə pedaqoji bacarıqlar və texnika daxildir. Digər komponentlərin inkişafını təmin edən şəxsi mədəniyyət komponentinə müəllimin etik davranışları və xarici görünüşü daxil edilir. Beləliklə, pedaqoji mədəniyyət müəllimin peşəkarlığının və hazırlığının formalaşmasında xüsusi rol oynayır.*

# СУТЬ ПОНЯТИЯ ПЕДАГОГИЧЕСКОЙ КУЛЬТУРЫ

**Резюме**

*Педагогическая культура, сформированная в конце XX века, охватывает культуру педагогической деятельности учителя, культуру общения, культуру личности, культуру национальную и общечеловеческую. Педагогическая культура включает в себя такие важные понятия, как аксиологические, технологические, эвристические и личностные компоненты.Акселогическая культура включает в себя педагогическое мышление, рефлексию, педагогическое знание, педагогическую этику и такт. К технологическим компонентам относятся педагогические умения и приемы. Компонент культуры личности, обеспечивающий развитие других компонентов, включает в себя этическое поведение и внешний вид. Таким образом, педагогическая культура играет особую роль в формировании профессионализма и подготовке учителей.*

# THE ESSENCE OF THE CONCEPT OF PEDAGOGICAL CULTURE

**Summary**

*The pedagogical culture formed at the end of the XX century covers the culture of pedagogical activity of the teacher, the culture of communication, personal culture, national and universal culture. Pedagogical culture includes important concepts such as axiological, technological, heuristic and personal components. Axiological culture includes pedagogical thinking, reflection, pedagogical knowledge, pedagogical ethics and tact. Technological components include pedagogical thinking, pedagogical skills and techniques. The personal culture component that ensures the development of other components includes its ethical behavior and appearance. Thus, pedagogical culture plays a special role in the formation of professionalism and training of teachers.*

***Açar sözlər:*** *mədəniyyət, pedaqoji etika, pedaqoji təfəkkür, pedaqoji takt, pedaqoji ünsiyyət.*

***Ключевые слова:*** *культура, педагогическая этика, педагогическое мышление, педагогический такт, педагогическое общение.*

***Key words:*** *culture, pedagogical ethics, pedagogical thinking, pedagogical tact, pedagogical communication.*

"Pedaqoji mədəniyyət" anlayışı elmi ədəbiyyatda XX əsrin 50-ci illərinin sonlarında işlənilmiş və ilk dəfə olaraq, bu anlayışın mahiyyəti G.N. Volkov tərəfindən şərh edilmişdir. G.N.Volkov pedaqoji mədəniyyətin mahiyyətini bu cür şərh edir: "pedaqoji mədəniyyət – xalqın maddi və mənəvi mədəniyyətinin mühitidir, hansı ki, uşaqların tərbiyəsi ilə bilavasitə bağlıdır" [12, s.17]. Pedaqoji mədəniyyət anlayışını geniş şəkildə izah edən görkəmli pedaqoq V.A.Suxomlinski bu anlayışı müəllimin mənəvi obrazı və onun peşəkarlığı kimi təqdim etmişdir. Elm və texnologiyanın inkişafı nəticəsində pedaqoji mədəniyyət anlayışında da dəyişikliklər olmuşdur. Belə ki, müasir dövrdə istər xarici, istərsə də yerli tədqiqatçılar (V.L.Benin, K.M.Levitan, M.İlyasov, T.Əliyeva və b.) tərəfindən pedaqoji mədəniyyət anlayışına yeni yanaşmalar meydana çıxır. Onların fikrincə "pedaqoji mədəniyyət təbii və qazanılmış şəxsi keyfiyyətlərin sintezi olub, sözün geniş mənasında, müəllim olan hər kəsin yüksək fəaliyyət səviyyəsini təmin edir" [5, s.89].

Müəllimin peşəkarlığı və səriştəliliyinin başlıca göstəricisi olan pedaqoji mədəniyyətin formalaşması müəyyən zaman tələb edir.Yəni o, müəllimin bütün pedaqoji fəaliyyəti boyunca təlim prosesinin düzgün təşkili zamanı formalaşır. Elmi-pedaqoji ədəbiyyatlarda pedaqoji mədəniyyətin aspektləri müxtəlif olsa da, onun mahiyyətini ümumi şəkildə şərh etmək mümkündür: müəllimin pedaqoji fəaliyyət mədəniyyəti; ünsiyyət mədəniyyəti; şəxsi mədəniyyəti; asudə vaxt mədəniyyəti və müəllimin milli və ümumbəşəri dəyərlərlə bağlı olan mədəniyyəti. Qeyd olunan beş meyarın hər biri pedaqoji mədəniyyətin tərkib hissəsidir. Pedaqoji mədəniyyətin mahiyyətini əks etdirən bir sıra komponenləri vardır ki, bunlara: pedaqoji mədəniyyətin aksioloji komponenti; pedaqoji mədəniyyətin texnoloji komponenti; pedaqoji mədəniyyətin evristik komponenti; pedaqoji mədəniyyətin şəxsi komponenti aiddir. Bu komponentlərin hər biri ayrı-ayrılıqda fərqli xüsusiyyətlərə malik olsa da, hamısı eyni dərəcədə əhəmiyyətlidir.

Müəllimin pedaqoji əməyin dəyərini qavraması və düzgün mənimsəməsini özündə ehtiva edən pedaqoji mədəniyyətin aksioloji komponenti pedaqoji peşə təfəkkürü və refleksiya, peşə-pedaqoji biliklər, pedaqoji takt və etika anlayışlarını əhatə edir. Pedaqoji yaddaş və təhsil, yaradıcı təxəyyül, tənqidi təfəkkür qabiliyyətlərini əhatə edən **pedaqoji təfəkkür** pedaqoji mədəniyyətin əsasını təşkil edir. Yeni pedaqoji təfəkkür anlayışına elmi-pedaqoji ədəbiyyatlarda

müxtəlif yanaşmalar olmuşdur ki , bu yanaşmalardan birini Ə.Ə.Əlizadə və H.Ə.Əlizadə irəli sürmüşdür. Görkəmli psixoloqlar yeni pedaqoji təfəkkür haqqında fikirlərini bu cür ifadə edirlər: "Yeni pedaqoji təfəkkür klassik pedaqogikanın deyil, "köhnə" pedaqoji təfəkkürün – durğunluq illəri pedaqogikasının və ya ənənəvi didaktikanın alternativi kimi bərqərar olmuşdur. Klassik pedaqogika yeni pedaqoji təfəkkürün əsas qaynaqlarından birini təşkil edir" (1, s.24). Onların fikrincə, yeni pedaqoji təfəkkür təhsil və tərbiyə nəzəriyyəsində və təcrübəsində pedaqoji prosesin formalaşdırılma vasitəsidir. Təhsilin məzmununa yeni nəfəs verən yeni pedaqoji təfəkkür bu məsələləri əhatə edir: 1) ənənəvi təhsildə əhəmiyyətli olan formaları saxlamaqla pedaqoji prosesin təkmilləşdirilməsi; 2) təhsilin məzmununda olan köhnə qaydaların istifadəsinin məhdudlaşdırılması; 3) təhsil və tərbiyənin məzmununda varislik ənənələrinin yeniləşdirilməsi; 4) ölkələrarası inteqrasiya nəticəsində pedaqoji prosesin ən son üsul və formalarla qurulması və s. daxildir.

Aksioloji komponentin əsas göstəricilərindən biri **pedaqoji taktdır** ki, o, pedaqoji mədəniyyətə malik olmaq üçün əsas şərtlərdən hesab olunur. İtalyan sözü olan pedaqoji takt " toxunma", "qarşılıqlı münasibətlər" mənasında elmi-pedaqoji ədəbiyyatda istifadə olunmuşdur. K.D.Uşinski kimi bir sıra klassik pedaqoqlar pedaqoji taktı ünsiyyətdə "qızıl orta xətt" tapmaq kimi şərh etmişlər. K.D.Uşinski bu məsələ ilə bağlı fikrini bu cür qeyd edir:"Məktəbdə zarafata yol verən (lakin bütün işi zarafata çevirməyən), ciddilik, şitliyə çevrilməyən mülayimlik yersiz iradə və qərəzçiliyə çevrilməyən obyektivlik, həddini aşmayan xeyirxahlıq, xırdaçılığa keçməyən qayda-qanun və ən başlıcası isə müntəzəm ağıllı fəaliyyət hökm sürməlidir" [9, s. 47].

Pedaqoji fəaliyyətlə bağlı sanballı tədqiqatların müəllifi olan M.İlyasov pedaqoji takt anlayışından bəhs edərək yazır: "Pedaqoji takt – müəllimin şagirdlərlə, valideyn və öz həmkarları ilə məqsədyönlü pedaqoji təsir ölçüsü, ünsiyyətin məhsuldar stildə yaradılması bacarığıdır" [3, s56]. Pedaqoji takta malik olan müəllim dəqiq və optimal olmalıdır. Bu mənada pedaqoji takt həm davranışda ölçü hissini, müəyyən həddin gözlənilməsini, həm də şagird şəxsiyyətinə humanist yanaşmanı və zəruri olduqda bir pedaqoji təsir vasitəsinin digəri ilə əvəzedilməsini nəzərdə tutur. Pedaqoji takt özünü müəllimin şagirdlərlə qarşılıqlı təsirində; müəyyən səbəbdən yaranmış çətin situasiyalarda göstərir. Pedaqoji takta əməl edən müəllim sinifdə sağlam mənəvi-psixoloji mühit yaratmağı bacarır. Müəllimin özünütəhsil nəticəsində daim öz üzərində işləməsi, bilik və bacarıqlarını təkmilləşdirməklə yiyələndiyi pedaqoji taktı, pedaqoji ustalıqla birlikdə yaranır və tərbiyə edilir. Hər bir müəllim pedaqoji takta malik olmaq üçün ona yiyələnmənin xüsusi yollarını bilməlidir. Bu xüsusi yollara-perseptiv qabiliyyətə malik olmaq – yəni uşağın xarici emosional vəziyyətinə əsasən onun daxili aləmini, qəlbindən keçənləri, hiss və həyəcanlarını duymaq uşaqları sevmək; onların daxili davranış mexanizmini izləməyi bacarmaq; yara-

nan situasiyaya uyğun fəaliyyətini müəyyənləşdirmək; təlim prosesində və ya dərsdənkənar vaxtlarda təsir bacarığını inkişaf etdirmək, həmçinin kommunikativ qabiliyyətə malik olmaq, şagirdlər, onların valideynləri və müəllim həmkarları ilə düzgün qarşılıqlı münasibətlər qurmaq bacarığına yiyələnmək daxildir.

Müəllimin pedaqoji mədəniyyətinin əsas göstəricilərindən biri də pedaqoji etikaya sahib olmasıdır. Ərəb mənşəli olub, mərifət, ölçü mənasını verən **pedaqoji etika,** təlim tərbiyə prosesində yaranmış müəyyən situasiyalarda qısa vaxt ərzində ən düzgün yanaşma tərzi seçmək, mərhəmətli hərəkət etmək, şagirdə münasibətdə etik davranış nümayiş etdirməkdir.

Azərbaycan Respublikası Təhsil nazirinin 16 may 2014-cü il tarixli əmri ilə "Müəllimlərin etik davranış qaydaları" təsdiq edilmişdir. Həmin qaydalara görə hər bir müəllim dərs dediyi sinifdə sağlam, işgüzar durum yaratmağa nail olmalı, istər dərsdə, istərsə də dərs çərçivəsindən kənarda şagirdlərə münasibətdə etik qaydalara əməl etməli, onların heysiyyətinə toxunan heç bir ifadəyə, şəxsiyyətlərini alçaldan hərəkətlərə yol verməməlidir. Şagirdlərlə münaqişəyə girməməli, onlara qarşı ədalətsiz hərəkət etdikdə səhvlərini etiraf etməyi bacarmalıdır. Pedaqoji etikaya sahib olan müəllim təlim prosesində subyekt- subyekt münasibətləri qurmağı bacarır, şadirdləri pedaqoji prosesdə bərabərhüquqlu tərəfmüqabillər kimi qəbul edir.

Pedaqoji mədəniyyətin aksioloji komponenti olan pedaqoji etika, özü də bəzi struktur hissələrindən ibarətdir. Pedaqoji etikanın komponentləri dedikdə: mənəvi dəyərlər; əxlaqi prinsip və qaydaları səmərəli təşkil etmək bacarığı; müəllimin əxlaqi və şəxsi keyfiyyətləri; müəllimin mənəvi mədəniyyəti başa düşülür.

Pedaqoji mədəniyyətin texnoloji komponenti pedaqoji prosesdə olduqca əhəmiyyətlidir. Bu, müəllimin pedaqoji texnikaya, fəal təlim metodlarına, innovativ pedaqoji texnologiyalara kamil şəkildə yiyələnməsini nəzərdə tutur.

Y.Rzayevanın fikrincə, "Müəllimin mədəniyyətinin bu kimi xüsusi komponenti onun pedaqoji qabiliyyət sahəsinin zəruri inkişafının dərk edilməsi dərəcəsini xarakterizə edir ki, bu da müəllimin peşə fəaliyyətinin müvəffəqiyyətinin rəhni, ehtimal edilən pedaqoji səhvlərin qarşısının alınması, həmçinin pedaqoji qabiliyyətlərin inkişafının daha səmərəli üsullarının dərkidir" [7, s.104].

Pedaqoji fəaliyyət mədəniyyətinə - təlim-tərbiyə üzrə bilik və bacarıqlar; pedaqoji təfəkkür; pedaqoji bacarıqlar; pedaqoji texnika; pedaqoji özünütənzimləmə; pedaqoji ünsiyyət daxildir. Şagird şəxsiyyətinin formalaşmasında əsas yer tutan **pedaqoji ünsiyyət**, təlim və tərbiyə prosesinin təsirli vasitələrindən biri hesab olunur. Şagird şəxsiyyətinin formalaşmasında istənilən müəllim-şagird situasiyasının fərqliliyindən asılı olmayaraq pedaqoji ünsiyyət tərbiyəvi xarakter daşıyır. Pedaqoji ünsiyyət – sosial, psixoloji və qarşılıqlı təsir prosesi olmaqla, bu münasibətlərin səmimiliyini, dərinliyini emosionallığını əks etdirir. Məhz bu münasibətlərlə bağlı Ə.Əlizadə qeyd etmişdir: "Müəllim-şagird(lər)

münasibətlərinin əhəmiyyətinə kifayət qədər diqqət yetirilməmişdir. Ancaq tərbiyə işinin öz realizmi var: müasir məktəbin bir çox köklü məsələləri, ilk növbədə, önəmli tərbiyə effektləri məhz bu sahə ilə əsas məziyyətlərinə görə daha çox valideyn-övlad münasibətlərinə bənzəyən "müəllim-şagird münasibətləri ilə şərtlənir.[1, s.215].

Pedaqoji ünsiyyət, çətin və mürəkkəb quruluşa malikdir. Pedaqoji ünsiyyətin quruluşu haqqında müxtəlif tədqiqatçılar fikir söyləmişlər. Onlardan biri də V.A.Kan-Kalikdir. O pedaqoji ünsiyyətin quruluşunu – siniflə qarşılıqlı ünsiyyətin müəllim tərəfindən modelləşdirilməsi; ilkin qarşılıqlı təsir anında səmimi ünsiyyətin təşkili; pedaqoji prosesdə ünsiyyətin idarə edilməsi; qazanılmış ünsiyyət sisteminin təhlili və gələcək fəaliyyət üçün onun modelləşdirilməsi kimi şərh etmişdir.

Pedaqoji ünsiyyət prosesində həm də bir sıra vəzifələr və texnoloji əməliyyatlar yerinə yetirilir: uşağın ünsiyyət üçün "kəşf edilməsi"; şagirdin pedaqoji ünsiyyətə cəlb edilməsi və pedaqoji ünsiyyətdə yüksəldilməsi. Pedaqoji ünsiyyət üslubuna və münasibətlərin səmərəliliyinə görə müəllimləri şərti olaraq 4 qrupa bölmək olar. Daim şagirdləri ilə ünsiyyətdə olan müəllim, birinci qrupa daxildir. Demokratik rəhbərlik üslubuna malik olan müəllimlər şagirdlərlə hər zaman ünsiyyətdə olur, onların fikir və istəklərini hər zaman dinləyir, onların rəy və təkliflərini nəzərə alırlar. Bu qrupa daxil olan müəllimlər yalnız ünsiyyət saxlamalarına görə deyil, həmçinin ünsiyyətin səmərəliliyinə, mehriban münasibətinə görə də şagirdlər tərəfindən sevilir. II qrupa daxil olan müəllimlər həmişə şagirdlərinə hörmətlə yanaşır və onlara dərin inam bəsləyir, amma müəyyən proses müddətində, vaxt çatışmazlığına görə şagirdləri ilə istədikləri səviyyədə ünsiyyət qura bilmirlər. Lakin buna baxmayaraq belə müəllimlərin şagirdlərlə ünsiyyəti alınır və şagirdlər də onların şəxsiyyətinə hörmət edir. Daim şagirdlərlə nəsihətçilik mövqeyində ünsiyyət qurduğu üçün qarşılıqlı ünsiyyətə nail olmayan müəllimlər üçüncü qrupa daxildir. Müəllimlərin ünsiyyət prosesində quru öyüd və nəsihətlərə yol verməsi şagirdlərin ondan qaçması ilə nəticələnir. Şagirdlərlə arasında məsafə saxlayan, məhdud ünsiyyət quran müəllimlər isə dördüncü qrupa daxildir.

Evristik mədəniyyət müəllimin pedaqoji mədəniyyətinin əsas komponentləri sırasına daxildir. Evristik mədəniyyətə malik olan müəllim bir sıra keyfiyyətlərə malikdir. Bu keyfiyyətlərə - tədris etdiyi fənnin və pedaqoji fəaliyyətin əsas məqsədlərini dərk etmək; real təhsil mühitini, dövlət təhsil standartlarını, ümumməktəb qaydalarını, öz pedaqoji bacarıqlarını nəzərə alaraq tam təhsil proqramını tərtib etməyi bacarmaq; şagirdlərin fərdi qabiliyyətlərini görmək və hər kəsin fərdiliyinə uyğun onların təlimini qurmaq; interaktiv təlim metodlarına yiyələnmək və onları tətbiq etməyi bacarmaq və s. daxildir. Belə müəllimlər yaradıcı potensiala malikdir, özünün şəxsi təcrübəsi var, təlimə maraq oyada bilir, şagirdlərin motivlərindən istifadə etməklə dərslərini cəlb-

edici formalarda qura bilir, dəyişən şəraitə uyğun çevik qərarlar qəbul etməyi bacarır. Həmçinin şagirdlərin məntiqi və yaradıcı təfəkkürünün inkişafına şərait yaradır, uşaq "kəşflərini" görüb stimullaşdıra bilir. Eyni zamanda şagirdlərin fərdi inkişafına kömək etmək, onların yaradıcı işlərinin müxtəlif təşkili formalarını bilmək və bu formalardan şagirdlərin potensial imkanlarını üzə çıxarmaq məqsədi ilə məharətlə istifadə etmək; şagirdin təhsil dəyişikliklərinin keyfiyyətli xarakteristikasını hazırlaya bilmək, onun şəxsi keyfiyyətlərini və real imkanlarını, inkişafının müxtəlif tərəflərini qiymətləndirmək və s. keyfiyyətlər də müəllimin evristik mədəniyyətini özündə əks etdirir. Buradan belə nəticəyə gəlmək olar ki, müəllimin evristik mədəniyyəti onun peşə hazırlığı və peşə qabiliyyəti ilə bağlı olub, bunların düzgün formalaşmasını təmin edir.

Pedaqoji mədəniyyətin digər komponentlərinin reallaşmasında xüsusi rol oynayan və pedaqoji mədəniyyətin inkisafını təmin edən komponentlər sırasında pedaqoji mədəniyyətin şəxsi komponenti də xüsusi əhəmiyyət kəsb edir. Müəllimin şəxsi mədəniyyətinə istənilən situasiyada etiket qaydalarına əməl etməsi, təmkinliliyi, işgüzar söhbətlər və yazışmalar apara bilməsi, müasir məişət mədəniyyəti, nitq mədəniyyəti, etik davranışları, kulturoloji hazırlığı daxildir. Bu keyfiyyətlər arasında müəllimin nitq mədəniyyətinə malik olması xüsusilə vacibdir. Çünki hər bir müəllim öz şagirdlərinə ötürməli olduğu bütün elmi, həyati və etik biliklərin daşıyıcısıdır. Şagirdlərlə ünsiyyətdə müəllimin ən başlıca əmək silahı onun canlı sözüdür. Bu baxımdan verbal ünsiyyət bacarığına, mükəmməl nitq qabiliyyətinə malik olmaq müəllimin ən vacib peşə keyfiyyətlərindən biri hesab olunur. Pedaqoji mədəniyyətin şəxsi komponentində müəllimin xarici görünüş mədəniyyəti xüsusi yer tutur. Buraya ünsiyyətin plastik dili, geyim mədəniyyəti, özünün antropometrik xüsusiyyətlərini bilmək daxildir.

Pedaqoji mədəniyyətin formalaşması uzun və çoxcəhətli bir prosesdir. Bu mədəniyyət pedaqoji fəaliyyətin bütün aspektlərini özündə birləşdirir. Bu, müəllimin həm davranışının, həm nitqinin, həm ünsiyyətinin norma daxilində olmasını nəzərdə tutur. Pedaqoji mədəniyyətə yiyələnmiş təhsilverənlər gənc nəsli yalnız bilik, bacarıq və vərdişlərlə silahlandırmır, eyni zamanda onlara Vətən sevgisi, milli-mənəvi dəyərlərimizə hörmət hissi aşılayır, həmkarlarının qabaqcıl təcrübəsini öyrənib ondan yaradıcılıqla bəhrələnə bilir, peşəsinin şərəfini daim uca tutur.

Beləliklə, müəllimin pedaqoji mədəniyyəti onun peşəkarlığının və səriştəliliyinin ən mühüm göstəricisi olmaqla onun pedaqoji prosesdəki müvəffəqiyyətinin ən zəruru şərtidir.

**Ədəbiyyat:**

1. *Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. B.:Ozan, 1998, 368 s.*
2. *Əlizadə Ə., Əlizadə H. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. B.: ADSPU mətbəəsi, 2008, 479 s.*

3. *M.İlyasov. Müəllimin pedaqoji ustalığı. Bakı:Elm və təhsil, 2013, 207 s.*
4. *M.İlyasov. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. B.:Elm və təhsil, 2018, 208 s.*
5. *M.İlyasov. Müəllimin pedaqoji peşə mədəniyyəti. "Azərbaycan məktəbi" qəzeti, 2017, 7s1.*
6. *R.Məmmədzadə. Müəllimin peşə etikası. Bakı, 1992*
7. *Y.Rzayeva,İ.Məmmədova. Pedaqoji fəaliyyətə giriş (dərs vəsaiti). ADPU-nun nəşri. 2021,190 s.*
8. *L.N.Qasımova, R.M.Mahmudova. Pedaqogika. Ali məktəblər üçün dərslik. Bakı:Çaşıoğlu, 2012, 548 s.*
9. *S.M. Quliyev, M.A.İsmixanov. Müəllimlik ixtisasına giriş. B., 2015, 224 s.*
10. *V.Əliyev. Müəllim hazırlığı prosesində peşə keyfiyyətlərinin formalaşdırılması yolları. Bakı, 2010*
11. *Волков Г.Н. Чувашская народная педагогика. – Чебоксары: Чувашск. кн. Изд-во, 1958*

**İ.F.Bayramova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***nara.bayramova.98@mail.ru***

# KİV-in KİÇİKYAŞLI MƏKTƏBLİ ŞƏXSİYYƏTİNİN MƏNƏVİ DƏYƏRLƏRİNİN FORMALAŞMASINDA ROLU

***Xülasə***

*Kiçikyaşlı məktəbli şəxsiyyətinin mənəvi dəyərlərinin formalaşmasında KİV-in təsir dərəcəsi çox yüksəkdir. Uşaqlar televizora baxmağa, internetdə müxtəlif saytlarda vaxt keçirməyi virtual aləmdə yaşamağa üstünlük verirlər. Uşaqların çoxu kifayət qədər əxlaqi tərbiyə almır, çünki media onlara bu imkanı vermir. Bu da tez-tez onların hisslərinə, əhval-ruhiyyəsinə təsir edir və uşaqların tez-tez valideynlər, müəllimlər və həmyaşıdları ilə münaqişəsinə səbəb olur.*

# РОЛЬ СМИ В ФОРМИРОВАНИИ ДУХОВНЫХ ЦЕННОСТЕЙ ДЕТСКОЙ ШКОЛЬНОЙ ИДЕНТИЧНОСТИ

***Резюме***

*Влияние СМИ на формирование нравственных ценностей юного школьника очень велико.. Дети предпочитают смотреть телевизор, посещать различные сайты в Интернете, жить в виртуальном мире. Многие дети не получают достаточного нравственного воспитания из-за того, что средства массовой информации не дают им этой возможности, что зачастую влияет на их чувства и настроения, нередко приводит детей к конфликтам с родителями, учителями и сверстниками.*

# THE ROLE OF MEDIA IN THE FORMATION OF SPIRITUAL VALUES OF CHILDHOOD SCHOOL IDENTITY

***Summary***

*The influence of the media on the formation of the moral values of the young schoolboy is very high .Children prefer to watch TV, visit various sites on the Internet, live in a virtual world. Many children do not receive adequate moral education because the media do not give them this opportunity, which often affects their feelings and moods and often leads children to conflict with their parents, teachers and peers.*

***Açar sözlər***: KİV, şəxsiyyət, şagird, mənəvi dəyər ,məktəb, müəllim.
***Ключевые слова:*** СМИ, личность, моральная ценность,школа, учитель.
***Key words:*** Mass media, personality, pupil, moral value, school, teacher.

Ölkəmiz müstəqillik qazandıqdan sonra milli-mənəvi dirçəlişin və milli mənlik şüurunun yaranmasının doğru səmtə yönəldilməsi əsas məqsəd olaraq diqqət mərkəzində qalmışdır. Buna görə birinci növbədə şagirdlər mənəvi təşəkkülün qanunauyğunluqlarını bilməlidir. Kiçikyaşlı məktəblilərdə mənəvi dəyərlərin formalaşmasının ayrı-ayrı istiqamətlərinin tədqiq edilməsi bir çox cəhətdən əhəmiyyət daşımaqdadır:

- yeni və modern dünyada mənəvi dəyərlərin tələblərinin dəyişilib yeniləşməsi zəminində özünü göstərən mənfi halların aradan qaldırılması zəruridir;
- mənəvi dəyərlərin bir sıra təzahür edən xüsusiyyətlərini öyrənməklə, kiçikyaşlı məktəblilərdə daha köklü əsaslardan ibarət vətənpərvərlik, ləyaqət hissi, milli mənlik şüuru formalaşdıra bilmək mümkün olmuşdur;
- kiçikyaşlı məktəblilərdə mənəvi keyfiyyətlərin hansı yöndə getməsi və bunun cəmiyyətə hansı formada təsir etməsi problemləri müasir vəziyyətə görə tədqiq olunmamış qalır.

Kiçikyaşlı məktəbli şəxsiyyətinin mənəvi dəyərlərinin formalaşması müəllimin şagirdlərlə məqsədyönlü qarşılıqlı əlaqəsi ilə əlaqələndirilir; bu zaman şagirdlərin şüuruna, hisslərinə, davranışlarına təsir həyata keçirilir və onların mənəvi keyfiyyətləri formalaşır. Şəxsiyyətin mənəvi dəyərləri, cəmiyyətin əxlaqi anlayışların, əxlaqi hisslərin, dəyərlərin, qiymətləndirmələrin inkişaf səviyyəsində, aparıcı əxlaqi keyfiyyətlərin və davranış mədəniyyətinin formalaşmasında ifadə olunan əxlaqi təcrübədir. Şagirdin əxlaqi mədəniyyətinin formalaşması onun əxlaqi keyfiyyətlərinin əsasını təşkil edən şəxsiyyət münasibətlərinin məzmunu haqqında bilikləri nəzərdə tutur:

- vətənə, ölkəyə, dövlət siyasətinə, başqa ölkə və xalqlara münasibət (vətəndaşlıq, vətənpərvərlik, başqa xalqlara və ölkələrə hörmət);
- insanlara münasibət (demokratizm, kollektivizm, humanizm, ünsiyyət mədəniyyəti və s.).
- özünə münasibət (dürüstlük, təvazökarlıq, prinsiplərə sadiqlik və s.);
- işə münasibət (zəhmətkeşlik, vicdanlılıq, nizam-intizam və s.);
- təbiətə, maddi dəyərlərə, ictimai sahəyə münasibət (ekoloji mədəniyyət, əşyaların qorunması qayğısı).

Mənəvi mədəniyyətin formalaşmasında kütləvi informasiya vasitələrinin rolu böyükdür. Bunlar dövri mətbuat, televiziya və internetdir. Kütləvi informasiya vasitələri, xüsusən də televiziya son dərəcə mühüm mənəviyyat mənbəyidir. Uşaqların yaşadıqları mədəniyyətin reallıqlarını dərk etməsi qismən medianın işidir. Hər doğulan insan istər-istəməz cəmiyyətə daxil olur və əxlaqi prosesə cəlb olunur. Əxlaqi davranış nümunələrinin, şəxsi idealların formalaşması mürəkkəb sosial-mədəni məkanda baş verir ki, burada məktəb və ailə kimi institutlarla yanaşı mühüm, bəzən isə aparıcı rol mediaya məxsusdur. Hazırda mənəvi əhəmiyyət kəsb edən informasiyaların səthi qavranılması

səbəbindən medianın əyləncə-kompensator və fon funksiyaları artıb ki, bu da müəllimlər qarşısında cəmiyyətimizdə gedən kütləvi informasiya proseslərinə tənqidi münasibətin formalaşdırılması problemini qoyur. Yəni media əsasən əyləncə funksiyasını yerinə yetirir - bu, əksər hallarda əsl mədəniyyət daşımır.

Geniş tamaşaçı kütləsi üçün, xüsusən də uşaqlar üçün televiziya normaların, dəyərlərin, zövqlərin, o cümlədən mədəniyyət sahəsinin yayılması üçün ilk vasitədir. Televiziya mədəni həyatın kütləvi, populyar ensiklopediyasıdır. Kütləvi kommunikasiya – ayrı-ayrı insan qruplarının qavrayışına yönəldilmiş xüsusi informasiya kommunikasiya vasitələri sistemindən istifadə etməklə informasiyanın yayılmasıdır .Uşaqlar populyar estrada müğənnisini özünə ideal seçərək, kiçik tələbə nəinki mahnılarını oxuyacaq, həm də onun ünsiyyət və davranış tərzini öyrənəcək

Televiziyaya baxmaq sosial olaraq arzu olunan fəaliyyətləri (oxumaq, ev tapşırığı etmək və ya idman oynamaq) əvəz edir. Sübut olunub ki, uşaq televizora baxmağa nə qədər çox vaxt ayırırsa, kitab oxumağa bir o qədər az vaxt ayırır. Başqa bir fikir də var: az oxuyan uşaqlar daha çox televizora baxırlar. Çox oxumayan uşaqlar üçün televizora baxmağa sərf olunan bir saat təbii olaraq hansısa fəaliyyəti əvəz edir, lakin uşaqlar yenə də bu saatı oxumağa sərf etməzdilər. Fiziki inkişaf baxımından televizora baxmaq da idmana ayrılan vaxtın azalmasına səbəb olur. Uzun müddət televizor qarşısında oturan uşaqlar oturaq həyat tərzi keçirir, çox vaxt televizora baxarkən yemək yeyirlər. Televiziyaya məruz qalmanın nəticələri təkcə televizor və ya kompüter qarşısında keçirdiyi vaxtdan deyil, həm də uşaqların hansı proqramlara baxmasından asılıdır. Valideynləri ən çox stereotipləşdirmə, aqressiv davranış və reklamlara həddindən artıq məruz qalma narahat edir

Müasir medianın əsas vəzifəsi əyləncədir ki, bu da həmişə müsbət nəticə vermir. Bunun gənc nəslə təsiri xüsusi narahatlıq doğurur. Ümumiyyətlə, bu təsir mənfidir. Bunu həm mövcud araşdırmalar, həm də cəmiyyətdəki ümumi vəziyyət təsdiq edir. Cəmiyyəti bürümüş zorakılıq dalğası, motivsiz aqressiyanın artması, ənənəvi ümumbəşəri dəyərlərin məhv edilməsi, gənclər arasında əxlaqi təlimatların və mənəvi liderlərin olmaması, həssaslıq həddinin aşağı salınması - bütün bunlar heç də az deyil. Müəllimlər bütün bu faktlara xüsusi diqqət yetirməli və bu neqativ məlumatlarla mübarizə aparmağı bacarmalı, medianın hər bir istiqamətindən bacarıqla istifadə edərək uşaqların diqqətini cəlb etməyi öyrənməlidirlər [3, s. 54].

KİV-in məktəblilərin mənəvi tərbiyəsinə təsiri problemi ilə bağlı araşdırma göstərdi ki, media hər bir şagirdin və bütövlükdə cəmiyyətin həyatında böyük yer tutur. Televiziya, radio, mətbuat, internet uşaqların daxili dünyasını formalaşdıran əsas informasiya mənbəyinə çevrilib. Bir əsr əvvəl insanların daxili dünyası onların şəxsi ünsiyyəti, peşə fəaliyyəti, səyahətləri əsasında formalaşırdı. İndiki dövrdə isə insanlarla ünsiyyət qurmaq üçün evdən çıxmağa

da ehtiyac yoxdur. Bu gün hər bir məktəbli hər gün müxtəlif növ mediadan istifadə edir, lakin əksər hallarda internet və televiziya üstünlük təşkil edir.

Kütləvi informasiya vasitələrinin kiçik şagirdin şəxsiyyətinin mənəvi mədəniyyətinin formalaşmasına mənfi təsirinin qarşısını almaq üçün müxtəlif tədbirlərdən istifadə etmək lazımdır: uşaqları müxtəlif sənət növlərinin, xalq mədəniyyətinin, xalqın əsərlərinin öyrənilməsinə cəlb etmək. bayramlarda və əsas iş forması kimi şagirdlərlə əxlaqi mövzularda söhbətlər aparmaq, beləliklə, şagirdlərin əxlaqi ideya və biliklərini sinifdən-sinfə genişləndirmək lazımdır

**Ədəbiyyat:**

1. *Bespalko V.P. Pedaqoji texnologiyanın komponentləri. M., 1989.-192s*
2. *Bozhovich L.I. Uşaqların mənəvi inkişafı və tərbiyəsi haqqında // Psixologiya sualları. - M.: Maarifçilik, 2001.-208s*
3. *Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusisiyyətlərin nəzərə alınması. Bakı: Maarif, 1975.- 307s*
4. *Vəliyeva Z. Məktəbəqədər uşaqların əxlaq tərbiyəsi. Bakı: Maarif, 1993.-136s*
5. *Voloviç M.B. Pedaqoji psixologiyanın faydaları haqqında. M., 1992. – 254s*

**F.V.Xəlilova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***fatimaxalil0@gmail.com***

# MÜSTƏQİL İŞİN TƏŞKİLİNİN ƏHƏMİYYƏTİ

***Xülasə***

*Pedaqoji fikir tarixində şagirdlərin müstəqil işinə xüsusi diqqət yetirilmiş, təlim zamanı şagirdlərdə müstəqilliyi inkişaf etdirmək məsələlərinə xeyli tədqiqat əsərləri həsr olunmuşdur. Lakin təlim zamanı şagirdlərdə müstəqilliyin inkişafını təmin edən bir sıra şərtlər kifayət qədər tədqiq edilməmişdir; xüsusən aşağı siniflərdə mövcud bacarıq və vərdişlərin xarakterini nəzərə almağın zəruriliyi, tapşırığın icrası üçün verilən təlimatın xarakteri, tapşırığın çətinlik dərəcəsi, məqsədinin aydınlığı, mənimsənilmiş biliklərin təlimati-göstərişdə nəzərə alınması və s. məsələlər xüsusi tədqiqat obyekti olmamışdır.*

## ЗНАЧЕНИЕ ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ

***Резюме***

*В истории педагогической мысли особое внимание уделялось самостоятельной работе учащихся, развитию самостоятельности учащихся в процессе обучения было посвящено множество исследовательских работ. Однако ряд условий, обеспечивающих развитие самостоятельности у учащихся в процессе обучения, изучен недостаточно; необходимость учета характера имеющихся умений и навыков, особенно в младших классах, характера указаний, данных для задания, степени трудности задания, ясности цели, учета моих знаний в инструкциях, и т.п. вопросы не были предметом специального исследования.*

## THE IMPORTANCE OF THE ORGANIZATION OF INDEPENDENT WORK

***Summary***

*In the history of pedagogical thought, special attention was paid to the independent work of students, and many research works were devoted to the development of students' independence during training. However, a number of conditions that ensure the development of independence in students during training have not been sufficiently studied; the need to take into account the nature of existing skills and habits, especially in the lower grades, the nature of the instructions given for the task, the degree of difficulty of the task, clarity of purpose, consideration of my knowledge in the instructions, etc. issues have not been the subject of special research.*

***Açar sözlər:*** *müstəqil iş, xüsusiyyət, aşılamaq, şagird, pedaqoji fəaliyyət*

***Ключевые слова:*** *самостоятельная работа, особенность, привитие, студент, педагогическая деятельность.*
***Key words:*** *independent work, feature, inculcation, student, pedagogical activity*

Şagirdlərə müstəqil işləməyi, müstəqil düşünməyi öyrətmək məsələsi, bu işə pedaqoji rəhbərlik hələ çoxdan bəri pedaqoqların diqqətini cəlb etməlidir. Böyük çex pedaqoqu Y.A.Komenski təlimdə nəyi və necə öyrətmək məsələlərinə də xüsusi diqqət vermişdir. Təlimdə şagirdlərin idrak qabiliyyətlərinin inkişafına ciddi əhəmiyyət verən böyük pedaqoq istər müşahidə prosesində, istərsə də biliyin tətbiqində şagirdlərin müstəqilliyini hər vasitə ilə genişləndirməyi vacib sayırdı. O, müstəqil işləməyi öyrətmək məsələsində təmrinlərin rolunu yüksək qiymətləndirmişdir. Onun fikrincə, bütün icra olunmalı işləri fəaliyyətdə öyrətmək lazımdır: «qoy məktəbdə yazını-yazıda təmrin olunmaqla, danışıq-nitq təmrinlərilə mühakiməli-mühakimə yürütmək təmrinlərlə və s. öyrənsinlər».

Uşaqlara müstəqil işləmək, düşünmək vərdişləri aşılamağa görkəmli fransız pedaqoqu J.J.Russo da böyük əhəmiyyət vermişdir. O, dövrünün sxemastik məktəb təliminə qarşı kəskin etiraz edərək, bunun özünəməxsus metodikasını irəli sürmüşdür. Həmin metodika uşağın müstəqil müşahidələrinə, mülahizə və tədqiqatlarına əsaslanır. Russo şagirdlərin bilik almaq qabiliyyətlərini, müstəqil düşünmək və işləmək bacarıqlarını inkişaf etdirməyi yüksək qiymətləndirirdi. O biliyi dərslikdən və müəllimin sözündən almağa qarşı çıxaraq göstərirdi ki, müəllimin vəzifəsi müstəqil öyrənməsini təşkil etmək və ona rəhbərlik etməkdən ibarətdir. Russoya görə, təlimdə əsl məsələ uşağa elmləri öyrətmək yox, onda həmin elmləri öyrənməyə meyl aşılamaq və onu öyrənmə üsulları ilə silahlandırmaq, təlim almaq, müstəqil düşünmək və işləmək məsələsi böyük rus pedaqoqu və psixoloqu K.D.Uşinskinin didaktik sistemində xüsusi yer tutur. O, göstərirdi ki, təlimdə uşaqlar müəllimin rəhbərliyi altında öyrənməyi öyrənirlər, bu isə ilkin təlimdə mənimsəmənin özündən də vacibdir. Uşinskiyə görə təlim ciddi əməkdir, müəllim şagirdləri bu əməyə öyrətməli və alışdırmalıdır. [3, s.65]

Böyük pedaqoq şagirdlərə xüsusilə şagirdlərin müstəqil işləməyin yollarını öyrətmədən onlara ev tapşırıqları verməyin əleyhinə çıxırdı. Onun fikrincə, əvvəlcə «uşağa öyrənməyi öyrətmək, sonra isə bu işi onun özünə tapşırmaq lazımdır».

Biliklərə müstəqil yiyələnmək, müstəqil düşünmək məsələsi görkəmli rus yazıçısı və pedaqoqu L.N.Tolstoyun pedaqoji fəaliyyətində də mühüm yer tutmuşdur. O, təlimdə şagirdlərin müstəqil fikrini, yaradıcılığını, müşahidəçiliyini inkişaf etdirməyi mühüm vəzifə kimi irəli sürmüş, öz pedaqoji fəaliyyətində bunun gözəl nümunəsini vermişdir.

Şagirdlərə müstəqil işləməyi, düşünməyi öyrətmək məsələsi Azərbaycan məktəbinin fəaliyyət göstərdiyi ilk vaxtdan mühüm vəzifə kimi qarşıda durmuşdur.

Şagirdləri müstəqil işə alışdırmaq, öyrənməyi öyrətmək məsələsi pedaqoq S.M.Şatskinin də diqqətini cəlb etmişdir. «Biz necə öyrənirik» adlı məqaləsində göstərir ki, öyrənmənin məhsuldarlığı üçün təlimdə izahdan fəaliyyətə keçmək, işin hər iki tərəfini həm icra prosesini, həm də nəticəsini nəzərə almaq və yoxlamaq lazımdır. Əks halda biz şagirdlərə öyrənməyi öyrədə bilmərik.

Təcrübə və müşahidələr göstərir ki, müstəqil iş vərdişlərinə yaxşı yiyələnən şagirdlər yaxşı da oxuyur, öz təlim vəzifələrini asanlıqla yerinə yetirirlər. Əksinə, belə vərdişlərə yiyələnməyən uşaqlar təlimdə böyük çətinliklərlə qarşılaşır, bir çoxları isə geridə qalırlar. Öyrənilmişdir ki, (J.K.Babanski, A.D.Dementsev) şagirdlərin müstəqil iş bacarıqlarına yaxşı yiyələnməməsi onların təlimdə geri qalması səbəbləri içərisində aparıcı yer tutur. Belə ki, təlimdə yetirməyən şagirdlərin 28,3 faizi təfəkkür müstəqilliyinin kifayət qədər inkişaf etməməsi; 26,9 faizi təlim əməyi vərdişlərinə lazımi səviyyədə yiyələnməmələri üzündən geri qalırlar. Bu çətinliyi nə ilə izah etmək olar?

Əvvəla, müstəqil işləməyi bacarmamaq geriliyin başqa səbəbləri ilə (birlikdə kəsirlər, təlimdə səyin olmaması və s.) sıx bağlıdır və çox vaxt onlarla qarışdırılır. Müəllim və valideynlər şagirdin geri qalmasını, adətən onun qabiliyyətsizliyi, tənbəlliyi ilə izah edirlər. Doğrudur, şagirdlər içərisində tənbəllər vardır, lakin çox vaxt bunların arxasında onların müstəqil işləməyi, öyrənməyi bacarmaması faktı durur.

Digər tərəfdən, şagirdlərin öyrənməyi bacarmaması faktını vaxtında aşkara çıxarmaq o qədər də asan deyildir. Çünki öyrənməyi bacarmamaq heç də həmişə geriləməyə səbəb olmur. Şagirdlərin bir qismi böyük səy, qüvvə və vaxt sərf etməklə təlim tapşırıqlarını yerinə yetirir, bəzən də yaxşı qiymət alırlar. Şagirdlərin yaxşı qiymətlər alması heç də onun öyrənmək, müstəqil işləmək bacarığına yiyələndiyinə dəlalət etmir. Yaxşı qiymətlərin arxasında çox vaxt istirahətsiz günlər, yuxusuz gecələr, səmərəsiz iş priyomları durur. [2, s.9]

Təlim əməyinin səmərəli priyomlarına yaxşı yiyələnməyən kiçik məktəblilər, adətən tapşırıqları mexaniki icra edirlər: verilmiş mətni öyrənmək üçün onu kitabdan dəfələrlə oxuyub dərslikdə olduğu kimi yadda saxlamağa, yəni əzbərləməyə çalışırlar. Lakin nə müəllim, nə də valideynlər şagirdin qüsurlu təlim üsulu üçün o qədər də narahat olmurlar, axı şagird dərslərə hazırlıqlı gəlir, verilən tapşırıqları yerinə yetirir, hətta yaxşı qiymətlər də alır. [4, s. 27]

Müəllim də razıdır, valideynlər də sakitdirlər: görürlər ki, uşaq səy göstərir, günün çoxunu ev tapşırıqları üzərində keçirir. Amma heç kəs hiss etmir ki, şagirdin təlim müvəffəqiyyəti qeyri-səmərəli iş priyomları hesabına, çoxlu vaxt və qüvvə hesabına əldə edilir. Belə yanlış iş üsulu gec-tez öz mənfi nəticəsini büruzə verir. Məktəb şagirdlərə çoxlu bilik, bacarıq və vərdişlər verdiyi halda,

başlıca məsələ necə oxumaq, necə öyrənmək məsələsi bəzən kifayət qədər öyrənilmir. Nəticədə şagirdlərin bir çoxu təlimdə xroniki çətinliklərlə qarşılaşır, bunların öhdəsindən müstəqil gəlməyi bacarmırlar. Müşahidə göstərir ki, onların müəyyən qismi yuxarı siniflərə qədər, hətta məktəbi bitirənə kimi təlim əməyinin səmərəli priyomlarına yiyələnə bilmirlər. Təcrübə və müşahidələr göstərir ki, şagirdlərin böyük bir qismi, adətən öz təlim fəaliyyətinin üsul və priyomları ilə maraqlanmırlar və ya az maraqlanırlar. Bu və ya digər tapşırığı nə üçün və necə icra etmək barədə kifayət qədər düşünmürlər və öz təlim əməklərini şüurlu təşkil edə bilmirlər. Çox zaman şagirdlərdən belə sözlər eşitmək olur: «Mən dərsi öyrənmişdim, qabağa çıxan kimi yadımdan çıxdı», «Mən dərsi bilirəm, amma danışa bilmirəm».

Deməli, şagirdlərə öz təlim əməklərini şüurlu təşkil etməyi, oxuyub öyrənməyi, öyrəndiklərini düzgün yazmağı və danışmağı öyrətmək lazımdır. Kiçik məktəblilər tapşırıqları müstəqil icra etməyi, kitabdan sərbəst istifadə etməyi, biliyi qismən müstəqil öyrənməyi, proqram dairəsində məsələ və misalları müstəqil həll etməyi bacarmalıdır.

**Ədəbiyyat:**

*1. Ə.Bayramov. Şagirdlərdə təfəkkür müstəqilliyinin inkişafı və tərbiyəsi. Bakı: Maarif, 1966.*

*2. Javadov R.Ə. Tələbələrin qrup şəraitində məsələ həlli prosesində təfəkkür müstəqilliyinin təzahür xüsusiyyətləri və səmərəli təşkili yolları. Ped.elm.nam.... dis. Bakı, 1990.*

*3. M.A.İsmixanov. İbtidai təlimdə şagirdlərə müstəqil iş bacarıqlarının aşılanması. Bakı, 1995.*

*4. S.Nəbiyev. Ev tapşırıqları müstəqil iş formalarından biri kimi. «Azərbaycan məktəbi» jurnalı, 1984, №7.*

**M.E.Zamanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***mahnurzamanova5@gmail.com***

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA MƏDƏNİ DAVRANIŞIN FORMALAŞDIRILMASI YOLLARI VƏ VASİTƏLƏRİ

***Xülasə***

*Məqalədə uşaqlarda mədəni davranışın formalaşdırılmasının yol və vasitələrindən, onların intizam qaydalarına riayət etməsi üçün seçilən üsullarından və eyni zamanda bu yolda valideynin diqqət və məhəbbətindən danışılır. Göstərilir ki, mədəni davranış və intizam – uşağın sərbəst olması, özünü idarə edə bilməsi, cəmiyyətin lazımlı üzvü olması üçün ağlının və xarakterinin məşqidir.Mədəni davranışın formalaşdırılmasının yolları və qaydalarının mövcudluğu vurğulanır.*

# ПУТИ И СРЕДСТВА ФОРМИРОВАНИЯ КУЛЬТУРНОГО ПОВЕДЕНИЯ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Резюме***

*В статье рассматриваются пути и средства формирования у детей культурного поведения, избранные методы соблюдения ими правил дисциплины, а также родительского внимания и любви таким образом. Показано, что культурное поведение и дисциплина есть воспитание ума и характера ребенка быть свободным, самостоятельным, необходимым членом общества Подчеркнуто существование путей и правил формирования культурного поведения.*

# WAYS AND MEANS OF FORMİNG CULTURAL BEHAVİOR IN PRESCHOOL CHİLDREN

***Summary***

The article discusses the ways and means of forming cultural behavior in children, the methods chosen for them to follow the rules of discipline, as well as parental attention and love in this way. It is shown that cultural behavior and discipline is the training of the mind and character of the child to be free, self-governing, a necessary member of society. The existence of ways and rules of formation of cultural behavior is emphasized.

***Açar sözlər:*** *məktəbəqədər, uşaq, valideyn, mədəni*
***Ключевые слова:*** *дошкольное, ребенок, родитель, культурный*
***Key words:*** *preschool, child, parent, cultural*

Adətən valideynlər belə düşünür ki, intizam tərbiyəsi ilə uşaqlara göstərilən məhəbbət bir-birindən fərqlənən hadisələrdir. Bəzən belə hesab edirlər ki, intizama dəvət uşaq üçün cəza tədbirlərindəndir. Lakin bu belə deyildir. Valideyn ilk olaraq uşağı intizama dəvət etməlidir və bu prosesdə bunu elə məhəbbətlə, elə bir üsulla etməlidir ki, uşaq özünün necə çox sevildiyini hiss etsin, anlasın. İntizamın ən başlıca şərtlərindən biri də elə budur. Uşaq əgər valideynlərinin onun arxasında dağ kimi dayandığını hiss etməzsə, onda onun intizamında naqislik olacaqdır. Əgər valideynlərlə möhkəm, sağlam ünsiyyət yoxdursa, o zaman uşaq valideynin diqtəsinə, tapşırığına həqarətlə və incimiş reaksiya verəcəkdir. O, valideynin hər bir xahişinə və tələbinə məcburi təsir kimi baxacaq, eyni zamanda inadkarlıq göstərəcək, onun hər bir sözünü rədd edəcəkdir. Əksər hallarda uşaq bu tələb və tapşırıqları çox narazı qarşılayacaq, tapşırıqların icrasını qəsdən əksini edəcəkdir. Lakin valideynin sağlam, əsaslandırılmış, sözsüz hiss edilən məhəbbəti nəticəsində uşaqlarda olan bu halları aradan qaldırmaq mümkündür. Uşağa onu sevdiyini bildirməyin ən vacib amillərindən biri də budur ki, uşağı çox diqqətlə dinləməyi bacarasan. Uşaq valideynin onu nə qədər diqqətlə dinlədiyini, nə dərəcədə onun mövqeyi ilə razı olduğunu və onu nə dərəcədə düzgün başa düşdüyünü hiss etsə, onun intizama çağıran bütün tələb və tapşırıqlarını böyük həvəslə yerinə yetirəcəkdir. Bu elə başa düşülməməlidir ki, bu anda valideyn uşağın şıltaqlıqlarına tabe olmalıdır. Bu o deməkdir ki, siz həmin anda uşaqla ünsiyyətə girmək üçün diqqətinizi cəmləyirsiniz. Bu da ona görədir ki, uşaq hiss etsin, başa düşsün ki, siz sadəcə avtoritetinizdən istifadə edərək öz fikirlərinizi ona təlqin etmək istəmirsiniz.

Uşaq başa düşməlidir ki, onun hiss və düşüncələri valideyn üçün çox maraqlı və önəmlidir. Bəs belə olduqda intizam nədir?

İntizam – uşağın sərbəst olması, özünü idarə edə bilməsi, cəmiyyətin lazımlı üzvü olması üçün ağlının və xarakterinin məşqidir.

Buraya da daxildir: böyüklərin nümunəsi, şifahi və yazılı təlimatlar, təlim, xahişlər, uşağın müxtəlif təcrübə toplaması üçün onun təlim və istirahət imkanının təmin edilməsi. İntizamın bir çox vasitələrindən biri kimi bu siyahıda cəzalandırma da vardır. Lakin bu çox primitiv və mənfi üsuldur.

Konfliktsiz intizam yaratmanın yolları və qaydaları da mövcuddur.

Bir sıra valideynlər üçün bu “sirri” açmaq gözlənilməzdir. Valideynlər bunu bilməlidir ki, uşaqlar çox vaxt valideynlərinin müəyyən hərəkət, davranış qaydaları yaradacağını gözləyir. Doğrudur, bu, uşaq həyatını mənalı və təhlükəsiz edir. Uşaqlar intensiv olaraq hiss edirlər ki, valideyn onlar üçün həmişə narahatdır və onların qayğısına qalır. Bəs onda uşaqlar niyə intizam qaydalarını pozur? Psixoloqlar bunun bir neçə səbəbinin izahını verirlər:

1. Məhdudiyyət, tələb, qadağa və s. Bunlar hər bir uşağın həyatında vacibdir.

Bu məsləhət əsasən uşaqları əsəbləşmə və konfliktdən uzaqlaşdırmaq istəyən valideynlərə aiddir. Nəticədə onlar öz uşaqlarının fikri ilə hərəkət edirlər. Bu, tərbiyənin səhlənkarlıq növüdür.

2. Məhdudiyyət, tələb, qadağa çox böyükdür.

Bu qaydada tərbiyə başqa tərbiyələrdən fərqlənir. Bu, avtoritar ünsiyyət üsuludur.

3. Valideynlər uşaqların hər fikri ilə razılaşmalı deyillər.

Çox vaxt valideynləri uşaqların yüksək fəallığı bezara gətirir: nəyə görə bunlar bu qədər çox qaçmaq, tullanmaq, hər şeyi tutmaq, sökmək istəyirlər? Cavab birdir. Bütün bunlar və digər hallar uşağın böyüməsində, inkişafında və özünü tanımasında xüsusi yer tutur. Uşağa nəyi isə qadağa buyurmaq çayın qabağını kəsmək kimi bir şeydir. Yaxşısı budur ki, onu təhlükəsiz və rahat istiqamətə yönəldəsən. Palçıqda oynamaq olar, lakin uzunboğaz çəkmələrlə, topla oynamaq olar. Bunların hamısını elə təşkil etmək lazımdır ki, heç kəs bundan ziyan çəkməsin. Məktəb yaşlı uşaqlara başqa bir misal çəkmək olar. 10-11 yaşında olan uşaqlar əsasən öz yaşıdları ilə ünsiyyət saxlamalıdır, onlar böyüklərdən çox öz yaşıdlarının fikrinə üstünlük verirlər. Çox vaxt uşaqlar öz valideynlərinin sözündən çıxır. Bu da pis nəticəyə gətirib çıxarır. Bu çətinlikləri aradan qaldırmaq üçün valideynlər qadağaların qoyuluşunda xüsusilə ehtiyatlı olmalıdır. Kiminləsə dostluq etməmək, harasa getməmək, haradasa iştirak etməmək və s. Bütün deyilənləri nəzərə alaraq əmin olmaq lazımdır ki, uşaq həmyaşıdlarının içində bu sözləri özünə təzyiq kimi qəbul etməsin, çünki uşaqla valideyn arasında konflikt yaranarsa valideyn heç bir şey əldə etməz. Uşaqla valideyn arasında inam itər. Bu vəziyyətdə valideyn nə etməlidir? Ən əsası valideyn uşağı bu yolda istiqamətləndirməlidir: düzgün olmaq, əməksevər olmaq, başqasının şəxsiyyətinə hörmətlə yanaşmaq kimi keyfiyyətləri valideyn uşaqla müzakirə etsə, onun tərbiyəvi təsiri daha güclü olar.

4. Valideynlərin öz aralarında qərara gəldikləri qayda, qadağa, tələb.

Elə olur ki, valideynlərin yürütdüyü fikirlər bir-birindən fərqlənir. Valideynlərinin bu cür münasibətini görən uşaq öz fikrini yürütmək istəyir. Böyüklərin bir-birinə olan bu cür münasibəti uşaqlara çox pis təsir edir. Valideynlər çalışmalıdır ki, aralarında olan fikir ayrılığını uşaqlar hiss etməsin. Yadda saxlamaq lazımdır ki, uşaqlar çox həssas olur.

5. Deyilişin yaxşı və pis tonu və qadağa. Uşaq üçün qoyulan hər bir qadağa çətindir. “Niyə olmaz?” sualına qısaca olaraq “Mən belə dedim” cavabını vermək düzgün deyildir. Bu təhlükəlidir. Dediyimiz cümlələrdə hansı qaydalardan söhbət getdiyi aydın bilinməlidir. Məsələn, belə demək olar, “Pişiyin quyruğu ilə oynamaq olmaz. Pişiyin quyruğu dartmaq üçün deyil, pişiyə əziyyət vermə”.

6. Cəzalar haqqında.

Anlaşılmazlıq üzündən heç kim sığortalanmayıb və vaxt gələcək ki, siz uşağın pis davranışına reaksiya vermək məcburiyyətində qalacaqsınız. Uşağı cəzalandırarkən onu yaxşı şeylərdən məhrum etmək ona pislik etməkdən daha doğru olar. Misal: ailədə hər bazar günü ananın piroq bişirməsi və ya birlikdə gəzməyə, kinoya getmələri qəbul olunub. Uşaqlar bu cür ənənəni qiymətləndirirlər. Valideyn uşağa lazımi diqqət ayırdıqda və onunla maraqlı vaxt keçirdikdə, bu, uşaq üçün əsl bayram olur. Lakin əgər uşaq yaramazlıq edibsə, sözə qulaq asmayıbsa, o zaman bu "bayram" təxirə salına bilər. Bu, təhqir yox, hissi cəzadır. Bəs valideynin uşağa ayıracağı vaxtı olmadıqda nə baş verir? Bütün tərbiyə tələb, irad və cəzalardan ibarət olur. O zaman nizam-intizama nail olmaq çox çətin olur. Ən əsası, uşaqla əlaqəni itirmək çox təhlükəlidir: qarşılıqlı anlaşılmazlıq üst-üstə yığılaraq valideyn və uşaq arasında olan məsafəni artırır. Bu səbəbdən böyük və kiçik bayramlara ayıracaq zaman tapmaq lazımdır. Mütəmadi olaraq bunları həyata keçirmək lazımdır. Uşaq bilməlidir ki, əgər özünü yaxşı aparsa, pis bir şey etməsə bunlar həyata keçəcək. Yalnız uşaqları hər xırdalıqlara görə hədələmək düzgün deyildir.

**Ədəbiyyat:**

*1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş) Təhsil Nazirliyinin 10 iyul 2012-ci il .*

*2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin Dövlət standartı və proqramı.Bakı, 2010.*

*3. Əliyeva Ş.Məktəbəqədər pedaqogika. Bakı, ADPU, 2010.*

*4. Солодянкина О.В. Социальное развитие ребенка дошкольного возраста: Методическое пособие. Издательство: "АРКТИ", 2006*

**M.E.Xəlilova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***xelilova99@gmail.com***

# TƏHSİLİN MODERNLƏŞDİRİLMƏSİ ŞƏRAİTİNDƏ İDARƏETMƏDƏ KEYFİYYƏT TƏMİNATI

***Xülasə***

*Məktəb elmi idarəetmənin obyekti və pedaqoji bir sistemdir. Bu, idarəçilərin, müəllimlərin və şagirdlərin məqsədlərini müəyyənləşdirmək, bu məqsədlərə çatmaq üçün şərait yaratmaq və bu proses ərzində bir çox forma, metod və vasitələrdən istifadə etmək deməkdir. Təhsilin modernləşməsi onun idarəetmə sisteminin də dərinləşməsini tələb edir. Təlim-tərbiyə işinin nəıticəsini əvvəlcədən bilmək, işləri vaxtında görmək, pedaqoji vəziyyəti elmi cəhətdən qiymətləndirmək, proses zamanı əsas məsələləri düzgün seçmək hal-hazırda əsas məsələ kimi təhsilin qarşısında durur. Göstərilən bu problemlərin həlli dövlət təhsil standartlarının, təhsil sistemindəki mövcud qanunvericilik və normativ aktların lazımi səviyyədə həyata keçirilməsindən və təhsildə idarəetmənin düzgün və keyfiyyətli aparılmasından asılıdır.*

# ОБЕСПЕЧЕНИЕ КАЧЕСТВА УПРАВЛЕНИЯ В УСЛОВИЯХ МОДЕРНИЗАЦИИ ОБРАЗОВАНИЯ

***Резюме***

*Школа является объектом научного управления и педагогической системы. Это означает определение целей администраторов, преподавателей и студентов, создание условий для достижения этих целей и использование в процессе множества форм, методов и инструментов. Модернизация образования также требует углубления системы его управления. Заблаговременное знание результатов воспитательной работы, своевременное выполнение работы, научная оценка педагогической ситуации, выбор правильных вопросов в процессе - вот основные задачи, стоящие перед образованием. Решение этих проблем зависит от надлежащего внедрения государственных стандартов образования, действующего законодательства и нормативных актов в системе образования и надлежащего и качественного управления образованием.*

# QUALITY ASSURANCE IN MANAGEMENT IN THE CONDITIONS OF MODERNIZATION OF EDUCATION

***Summary***

*The school is an object of scientific management and a pedagogical system. This means defining the goals of administrators, teachers and students, creating the conditions to achieve these goals, and using many forms, methods and tools in the process. Modernization of education also requires deepening its management system.*

*Knowing the results of educational work in advance, doing the work on time, scientifically assessing the pedagogical situation, choosing the right issues during the process are now the main issues facing education. The solution of these problems depends on the proper implementation of state education standards, existing legislation and regulations in the education system and the proper and quality management of education.*

***Açar sözlər:*** *məktəb, təhsil, idarəetmə, keyfiyyət, təhsil sistemi, təlim, menecer.*
***Ключевые слова:*** *школа, образование, управление, качество, система образования, подготовка, менеджер.*
***Key words:*** *school, education, management, quality, education system, training, manager*

Təhsil müəyyən biliklərin böyük kütlələrə çatdırılması üçün yaradılmış irimiqyaslı bir prosesdir. Təhsilin əsas məqsədi geniş düşüncəli, çevik təfəkkürlü gələcək nəsil formalaşdırmaqdır. "Təhsil ictimai praktikanın bütün sosial təbəqələrlə əlaqəsi olan, geniş əhatəli bir formasıdır, idarəetmə və fəaliyyət mexanizminə, təşkilati struktura malik mürəkkəb bir sistemdir" [1.səh.156].

İdarəetmə insanları və onların potensialını məqsədyönlü formada səfərbər etməklə qarşıya qoyulan məqsədə nail olunmasından ibarətdir. Sosial həyatın bütün sahələrində olduğu kimi, təhsil sahəsində də idarəetmənin rolu böyükdür və birbaşa cəmiyyətin gələcəyi ilə əlaqəlidir. İdarəetmə praktikasının nəzəri əsasını elmi biliklər təşkil edir. Təhsil prosesinin idarəsi, müəssisələrdə prosesin təşkili, işin təhlili və yekunlaşdırılmasına nəzarət etmək təhsil menecerinin başlıca vəzifəsi olaraq başa düşülür.

Təhsil ocaqlarında təlim-tərbiyə proseslərinin hər birində psixoloji və pedaqoji nüanslar nəzərə alındığından təhsil sahəsində idarəetmə digər idarəetmə sahələrindən olduqca fərqlənir. Pedaqoji yanaşma təhsil müəssisələrinin idarəedilməsinin vacib amilidir.

Ali təhsil müəssisələrinin qarşısında duran əsas məqsədlərdən biri məsuliyyətli, mədəni, yüksək bilik və bacarıqlara malik müəllim kadrları hazırlamaqdır. Bu məqsədin əsas şərtlərindən biri də, idarəetmənin nəzəriyyə və təcrübəsinə, üsul və metodlarına dərindən yiyələnmiş, peşəkar və səriştəli idarəçilər yetişdirməkdir.

Təhsil müəssisələrinin idarəedilməsinin əsas qanunauyğunluqları aşağıdakılardır:

- idarəetmə sisteminin səmərəliliyinin idarəetmənin subyekti və obyekti arasında struktur-funksional əlaqələrin səviyyəsindən asılılığı;
- təhsil-tərbiyə işini idarəetmənin məzmun və metodlarının təhsil müəssisəsində pedaqoji prosesin təşkilinin metodları və məzmunun xarakterindən asılılığı;

- idarəetmənin məqsədəmüvafiq, humanist, analitik və demokratik xarakterdə olmasının müəssisə rəhbərlərinin müxtəlif növ idarəetmə fəaliyyətinə hazırlığından asılılığı [3.səh.243].

Ölkənin gələcəyinin və ümumtəhsil məktəblərinin idarəolunması bir-biri ilə sıx bağlıdır. Bu səbəbdən təhsildə keyfiyyətin idarəolunması məsələləri çox zaman ictimaiyyətdə fikir ayrılığı yaradır. Son zamanlarda təhsilin keyfiyyəti anlayışı daha da aktuallaşıb. Bir çox mütəxəssislər hesab edirlər ki, məktəblərin vacib bildiyi təhsil nəticələri təkcə məktəbin sosial sifarişçiləri sayılan istehsalat rəhbərləri, valideynlər və ali təhsil müəssisələri üçün lazımdır. Lakin son dövrlərin təcrübələri bu düşüncənin yanlış olduğunu göstərir. Qeyd etmək lazımdır ki, həyat özü elə ilk sosial sifarişçidir. Heç bir sosial sifarişçilərin maraqları üst-üstə düşmədiyindən məktəblər hamının tələblərini tam yerinə yetirə bilməz. İndiki dövrdə məktəblərin əsas vəzifəsi şagirdləri gələcək həyata hazırlamaq olmalıdır. “Fikrimizcə, bunun üçün, ilk növbədə məktəb öz vəzifələrini dəqiq müəyyən etməli, sosial sifarişçilərin, şagird və valideynlərin tələblərini təmin etməyə imkan verən fəaliyyət programı çərçivəsində öz işini qurmalıdır” [4.səh.101].

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət planınında təhsil müəssisələrində nəticəyönümlü və şəffaf idarəetmə modelinin yaradılması, ümumi təhsilin idarə edilməsinin beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, həmçinin, təhsilin keyfiyyətinin təminatı üzrə yeni sistemin yaradılması strateji hədəf olaraq nəzərdə tutulmuşdur. Təhsildə demokratik idarəetmə sistemli xarakter daşıyır və ümumi prinsiplər əsasında idarə olunur.

Məktəbdə təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi təhsilin modernləşdirilməsinin aparıcı istiqamətlərindəndir. Bu məqsədə nail olmağın əsas yollarından biri məktəbdə qiymətləndirmə və monitorinq prosesinin müntəzəm olaraq aparılmasıdır. Pedaqoji prosesin idarəedilməsi və təhsildə keyfiyyət problemi bir-biriləri ilə sıx bağlıdır. Amma pedaqoji prosesin idarəedilməsi məktəb təhsilinin keyfiyyətinin yüksəldilməsinə zəmanət vermədiyindən təhsilin keyfiyyətinin idarə olunması təhsil sisteminin qarşısında duran əsas məsələlərdəndir.

Təhsil sistemində keyfiyyətin əldə olunması üçün bütün təhsil pillələrində keyfiyyəti təmin edən təhsil siteminin yaradılması, təhsil prosesinin fərdiləşdirilməsi, şəxsiyyətin qabiliyyət və maraqlarının nəzərə alınması, təhsil xidmətlərinin keyfiyyətinə və təhsil proqramlarının məzmununa görə rəqabətədavamlı təhsil səviyyəsinin formalaşdırılması vacib hesab olunur. Həmçinin, məktəblərdə keyfiyyətin təmin olunması üçün şəxsiyyətin inkişafına yönəlmiş fərdiləşmə prinsipinə əsaslanan müxtəlif variantlı təhsil programları hazırlanmalı və yuxarı siniflərdə təhsil sahələri üzrə təlim təşkil olunmalıdır.

Buradan aydın olur ki, təhsildə qiymətləndirmə və monitorinqin keçirilməsinin effektli olması üçün informasiyalar ardıcıl şəkildə verilməlidir. Yəni ki, pedaqoji proses haqqında qərar qəbul edilməsi üçün qərar qəbul edən şəxsə düzgün informasiya verilməlidir.

Təhsilin keyfiyyətinin qiymətləndirilməsində nəzərə alınmalı olan başlıca amillər aşağıdakılardır:

- təklif olunan xidmətlər, onların müxtəlifliyi və insanların tələblərinə uyğunluğu;
- xidmətin, yəni, dərsliklərin, tədris proqramlarının keyfiyyəti;
- xidmətdən istifadə səviyyəsi və onun əlverişliliyi;
- əsas keyfiyyət göstəricilərindən - yəni, şagird və müəllimin təhsilin keyfiyyətinə qarşılıqlı təsiri, əlverişli şərait, münasibət və ünsiyyətin xarakterindən istifadənin səviyyəsi.

Təhsildə idarəedilmənin düzgün təşkili üçün əsas meyar təhsilin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsinin aparılmasıdır. Müəssisələrin fəaliyyətini istiqamətləndirmək üçün hər dərs ilinin sonunda müəyyən göstəricilər əsasında qiymətləndirmə və monitorinq həyata keçirilməlidir. Bununla da bəzi məsələlərin həlli təmin olunmaqla - keyfiyyətin idarəedilməsinin sistemi qurulur və aşağıdakı bir çox problemlərin həll olunması nəzərdə tutulur:

1. Təhsilin keyfiyyətini müəyyən etməyə imkan verən dövlət təhsil standartları hazırlanmalıdır;
2. Məktəblərdə şagird hazırlığının keyfiyyəti haqda müntəzəm məlumat toplanılmalıdır;
3. Keyfiyyətin ictimai monitorinqi üçün şərait yaradılmalıdır;
4. Keyfiyyətin qiymətləndirilməsi və monitorinqi üçün yeni metodlar hazırlanmalıdır;
5. Təhsilin keyfiyyətinə dair qiymətləndirmə və monitorinqin nəticələri vaxtında bildirilməlidir;
6. Qiymətləndirmə və monitorinq haqda qərarların qəbulu zamanı subyektivliyə yol verilməməlidir;
7. Məlumatların toplanılması dəqiq, şəffaf və etibarlı olmalıdır.

Bütün bunlar təhsil sistemi və onun idarəedilməsi, təhsilin keyfiyyəti haqda düzgün qərarların qəbul edilməsində vacib rol oynayır.

Məktəblərdə şagirdlərin yiyələndiyi biliklərin monitorinqi müasir dövrdə əsaslı əhəmiyyət daşıyır. Keyfiyyətin idarəolunmasında monitorinqin aşağıdakı bir çox aspektləri vardır: məktəbin maddi-texniki bazasının; tədris prosesinin; şagirdlərin hazırlıq səviyyəsinin; pedaqoji kadrların hazırlanmasının və təhsilin keyfiyyətinin monitorinqi.

Təhsili idarəetmənin səmərəliliyinin yüksəldilməsinin, tədris prosesinin təkmilləşdirilməsinin mühüm şərtlərindən biri təhsil keyfiyyətinin monitorin-

qidir. Məktəblərdə bu problemlərin həll edilməsi həm idarəetmənin effektivliyinin artırılmasına, həm də cəmiyyətin artan tələblərinin ödənilməsinə kömək edir. Məktəblərdə təhsilin keyfiyyətinin qiymətləndirilməsi və monitorinqi təhsil sahəsində yeni qərarların alınmasına və təhsilin inkişafı üçün yeniliklər etməyə şərait yaradır.

Təhsilin keyfiyyətinin və şagirdlərin təlim nəticələrinin vaxtaşırı monitorinqi, təhsil standartlarının tətbiqi, təhsilin məzmununun müasirləşdirilməsi, dərs yükünün tənzimlənməsi, sağlamlığın qorunması vacib əhəmiyyət kəsb edir. Hal-hazırda məktəbin qarşısında duran vacib tələblərdən biri də, pedaqoji monitorinq sisteminin yaradılmasıdır. Məktəblərdə monitorinq sistemi daim mövcud olmuşdur. Amma təcrübə göstərir ki, ənənəvi monitorinq formaları kifayət qədər effektiv deyildir. Onların aşağıdakı kimi bəzi çatışmazlıqları vardır:

1. Tədrisin gedişatına nəzarət mütəmadi yox, epizodik olduğundan tədris prosesindəki dəyişiklikləri müşahidə etmək mümkün olmur;
2. Əsasən prosesin nəticəsi öyrənilir, prosesin özü nəzarətçilərin diqqətindən kənarda qalır;
3. Bu yoxlamalar qeyri-şəffaf aparılır, subyektivliyə yol verilir.

Yuxarıda qeyd edilənlər müəllimlərin işində olan çatışmazlıqları, şagirdlərin biliklərindəki bir çox boşluqları, onların yaranma səbəblərini, təlim-tərbiyəyə mənfi təsir göstərən amilləri müəyyən etməyə imkan vermədiyindən idarəetmədə diaqnoz qoyulmasında problem yaranır. Bu zaman təhsil prosesi diqqətdən kənarda qalır. Nəticələrin yoxlanılması zamanı baş verən subyektivlik və qeyri-şəffaflıq heç bir real nəticə çıxarmağa imkan vermir, yəni şagirdlərin bilikləri nə dərəcədə qavradığı aydın olmur. Bu səbəbdən də, təlim prosesinin nəticələrinin öyrənilməsi üçün yeni sistemin yaradılması təhsilin qarşısında duran əsas məqsədlərdən biridir. Məktəblərdə tətbiq olunan monitorinq və qiymətləndirmə şagirdlərin təlim-tərbiyəsinə təsir edən mənfi amillərin aşkar olunmasına, onların aradan qaldırılmasına, yeni metodların səmərəliliyinin yoxlanılması ilə yanaşı, idarəetmənin keyfiyyətinin yüksəldilməsinə kömək edir.

Buradan belə bir nəticəyə gəlirik ki, məktəblərdə baş verən təlim-tərbiyə prosesinin səmərəliliyi yalnız diaqnostik tədqiqatların köməyi ilə müəyyən edilə bilər.

Müasir dövrdə təhsilin keyfiyyəti probleminin xüsusi əhəmiyyət daşıdığını nəzərə alsaq, bunun idarəetmədə keyfiyyət təminatı problemi ilə nə dərəcədə uzlaşdığı dərhal aşkara çıxır. Təhsil sahəsindəki bir çox yeniliklər, tədris müəssisələrinin infrastrukturunun yeniləşdirilməsinə, proqramların, təlim-tərbiyə metodlarının təkmilləşdirilməsinə, yeni idarəetmə modellərinin tətbiq olunmasına birbaşa təsir edir.

**Ədəbiyyat:**

1. *Xalıqov A. Ümumtəhsil məktəblərinin idarəolunmasının təkmilləşdirilməsi, //Azərbaycan məktəbi, 2018, №1*
2. *Qədimova L. Təhsil sisteminin idarəedilməsinin modernləşdirilməsi, /Azərbaycan təhsilində strateji hədəflər və pedaqoji elmlərin qarşısında duran vəzifələr, Bakı, 2015*
3. *Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri, Bakı, 2007*
4. *Mehrabov A., Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə, Bakı, 2007*
5. *Məmmədzadə R., Abdullayev Ə., Kərimova F., Cabbarov R., Rəsulov S., Quliyev Ə. Təhsilin idarəedilməsinin bəzi problemləri. Bakı, 2008*
6. *Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri. Bakı, 2011*

**V.N.Ağayarlı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***vafaagayarli@gmail.com***

# PSİXOLOJİ MÜDAFİƏ MEXANİZMLƏRİNİN TƏDQİQİNİN NƏZƏRİ ƏSASLARI

***Xülasə***

*Müdafiə mexanizmləri ətraf mühitə uyğunlaşma hallarında, uyğunlaşmanın pozulması vəziyyətində hərəkətə gəlir. Onlar qeyd edirlər ki, müəyyən səviyyəyə qədər müdafiə mexanizmləri faydalı və zəruri olurlar, onlarsız bizim varlığımız mürəkkəb və çətin olardı. O zaman ki, müdafiə mexanizmləri çoxalmağa və daha güclü olmağa başladı, bu da funksional pozuntuya gətirib çıxartdı, nəticədə insan orqanizminin müdafiə mexanizmi zəiflədi. Alimlər qeyd edirlər ki, müxtəlif müdafiə mexanizmlərindən istifadə psixi və fiziki nasazlıqlarla müşayiət oluna bilər. Nəhayət, onlar qeyd edirlər ki, çoxlu sayda müdafiə mexanizmlərinin olması bizim psixi müvazinətimizi müdafiə edir.*

# ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ИССЛЕДОВАНИЯ МЕХАНИЗМОВ ПСИХОЛОГИЧЕСКОЙ ЗАЩИТЫ

***Резюме***

*Защитные механизмы действуют в случаях адаптации к окружающей среде, при нарушении адаптации. Они указывают, что в определенной степени полезны и необходимы защитные механизмы, без которых наше существование было бы сложным и трудным. Так как защитные механизмы стали размножаться и укрепляться, что привело к функциональному нарушению, в результате чего ослабли защитные механизмы организма человека. Ученые отмечают, что использование различных защитных механизмов может сопровождаться психическими и физическими нарушениями. Наконец, они отмечают, что наличие большого количества защитных механизмов защищает наш психический баланс.*

# THEORETICAL BASIS OF STUDYING PSYCHOLOGICAL DEFENSE MECHANISMS

***Summary***

*Protection mechanisms act in cases of adaptation to the environment, in case of violation of adaptation. They point out that, to a certain extent, defense mechanisms are useful and necessary, without which our existence would be complex and difficult. As the defense mechanisms began to proliferate and become stronger, which led to a functional impairment, as a result of which the defense mechanism of the human body was weakened. Scientists note that the use of various defense mechanisms can be*

*accompanied by mental and physical disorders. Finally, they note that the presence of a large number of defense mechanisms protects our mental balance.*

***Açar sözlər:*** *pedaqoji, müdafiə mexanizmləri, metodika, nəzəri*
***Ключевые слова:*** *педагогический, защитные механизмы, методика, теоретическая*
***Key words:*** *pedagogical, defense mechanisms, methodology, theoretical*

Müdafiə mexanizmlərinin məqsədi təhlükəni aradan qaldırmaqdır. Onu da qeyd etmək lazımdır ki, insanın öz "Mən" inin inkişafı prosesində bu mexanizmlərdən imtina etməsi qeyri-mümkündür, çünki vaxt keçdikcə onlar özləri də təhlükəli ola bilərlər. Əgər insan müvafiq müdafiə mexanizmlərdən istifadə etməyi planlaşdırırsa, o zaman həmin mexanizmlər həm onun ətraf aləmlə qarşılıqlı fəaliyyətinin vasitəsinə, həm də onun xarakterik xüsusiyyətinə çevrilir.

Müdafiə mexanizmləri avtomatlaşdırılsa belə şüurun müdaxiləsi olmadan onlar öz-özünə hərəkət edəcəkdir. Nəticələr isə onları izləyən müşahidəçi tərəfindən aşkar olunacaqdır. Hər bir şəxsiyyətin müdafiə mexanizminə malik olmaq imkanı vardır.

J.Laplanş və J.Pontalis "müdafiə" adı altında fərdi təqib edən istənilən dəyişiklikləri kənarlaşdırmağı və ya onları azaldan hərəkətlərin məcmusunu nəzərdə tuturlar. Onların fikrincə, müdafiə daxili həyəcan və meyllərin, yaxud da situasiyanın əksinə olaraq "Mən" üçün qəbul edilməyən müvafiq maraqların təsiri altında yaranır. Müdafiə prosesi "Mən"ə inteqrasiya olunmaqla müdafiə mexanizmlərində həyata keçir, şüursuz obrazda təzahür edir. Bütünlükdə demək olar ki, onların baxışları klassik psixoanalizlə razılaşdırılır. Müəlliflər tədqiqat işlərində kifayət qədər çoxlu sayda suallar qoyurlar ki, o da "Eqo"nun formalaşması, habelə müdafiə mexanizmlərinin dəstəyi ilə bağlıdır. Onlar belə hesab edirlər ki, müdafiə mexanizmləri "Eqo" nun formalaşmasına əsaslanır. Lakin bu həmişə belə olmur. Belə ki, bəzən elə hallar da olur ki, müdafiə mexanizmləri öz-özlüyündə hərəkət edirlər.(2)

V.Meninjer və M.Lif müdafiə mexanizmlərinə dair psixoanalitiklərin mövqeyini müdafiə edirlər. Onlar belə zənn edirlər ki, mexanizmlər avtomatik olaraq "Eqo"nun ardınca gedirlər. "Eqo" bu mexanizmləri üç səbəbdən yanına "buraxır":

1/ "O" "İd"in tələbatını təmin etməlidir, həm də onda həddindən artıq arzular toplanıb ki, bu da şəxsiyyətin funksionallaşmasına enerji verir;

2/ "Eqo" özünə obyektiv reallığı cəlb edir. Birincisi, o, məhəbbət və rəğbəti itirməkdən qorxur; ikincisi, o qorxur ki, obyektiv reallıq onu məhv edər;

3/ "Eqo" "Super Eqo"nun tərifini və vicdanını itirmək təhlükəsi ilə özünü müdafiə etməyə çalışır.(1)

E.Fromm özünün "Azadlıqdan qaçış" adlı əsərində psixoloji mexanizmlərin cərgəsini müəyyənləşdirmişdir. Alimin fikrincə, onlar insana ətraf aləmə sahib olmağa imkan yaradır. İnsan özünü təcrid edilmiş və inamsız hiss edir. Bu hiss baş verən zaman insan bu və ya digər yolla ondan qurtarmağa çalışır. Digər tərəfdən o, özü sosiumda məhəbbət və əməklə bağlıdır, digər yol isə "qaçış" yoludur. Belə vəziyyətdə insan artıq özünü ətraf aləmlə əlaqələndirə bilmir. E.Fromm növbəti "qaçış" yollarını aşağıdakı şəkildə fərqləndirir:

1/ Sadomazoxizm. Bu meyllilik şəxsiyyətin öz müstəqilliyindən imtina etmək, kimlə və ya nə ilə öz "Mən"ini birləşdirməkdir. Buna insanın öz Allahına tərəf meylliliyi, digər tərəfdən isə köməksizliyi və natamamlığı misal ola bilər.

2/ Dağıdıcılıq. Sadomazoxizmdən fərqli olaraq onun məqsədi qeyri-aktiv və ya passiv simboz olub ya obyekti qurmaq, ya da dağıtmaqdır. Əgər insan ətraf mühitdə öz vəziyyətinə sahib ola bilmirsə, o, çalışır ki, hər şeyi dağıtsın.

3/ Avtomatlaşdırılmış konformizm. Belə vəziyyətdə fərd özü olmaqdan əl çəkir və ona şablon olaraq ümumqəbil edilmiş şəxsiyyət tipinə adət edir. Beləliklə də, o, ətrafdakıların görmək istədikləri kimi olmağa başlayır.

Q.Tart öz tədqiqatlarında qeyd edir ki, insan bütünlükdə ziddiyyətli olan hisslərlə doludur və o bunlardan əziyyət çəkir. Lakin bu ziddiyyətdən qurtarmaq üçün bir çox üsullar da mövcuddur O, qeyd edir ki, şəxsiyyətin müxtəlif ziddiyyətləri arasında buferlər də mövcuddur ki, insan onu dərk etmir. Nəticə etibari ilə bu buferlər elə müdafiə mexanizmləridir.

Müdafiə mexanizmlərinə psixodiaqnostik yanaşmadan danışarkən müəllif onu "instinktiv meyl" adlandırmağı qəbul etmir. Alimin fikrincə, insan eyni vaxtda həm instinktiv, həm də sosial meylli ola bilər ki, bunlar da müdafiə tələb edir. Klassik müdafiə mexanizmlərində Q.Tart yalanı, eyniləşdirməni, imtinanı, huşsuzlaşmanı fərqləndirir.

İ.M.Nikolski və P.M.Qranovskinin fikrincə, qeyri-ardıcıl olan müdafiə mexanizmləri də formalaşır ki, onların reallaşmasında psixi funksiyalar qavrayışdan, emosiyadan hafizə və təfəkkürə qədər iştirak edir. Bu mexanizmlərə aiddir: susdurma, təcridetmə, proyeksiya, identifikasiya, əvəzetmə, sublimasiya, uzaqlaşma. E.S.Romanova və L.P.Qrebennikov müdafiə mexanizmlərini adaptasiya vasitəsi kimi nəzərdən keçirirlər. Onlar fərdin həyat fəaliyyətinin interpersonal sferasında konkret olaraq onları fərqləndirirlər. Müəlliflər qeyd edirlər ki, problemə sistemli yanaşma bütün elementlər arasındakı səbəbli və müddətli əlaqələrə baxmağı nəzərdə tutur. Buraya əsas müdafiə mexanizmlərinin genezisi və funksiyaları, həmin elementlərin təhlili də daxil edilir. Müəlliflər onu da nəzərə çatdırırlar ki, məhz erkən uşaqlıq yaş dövründə yaşlılar uşağın hiss və fikirlərini, arzularını intensiv şəkildə məhdudlaşdırırlar.

Cəmiyyətdə istənilən təsiri həyata keçirən psixososial vasitə kimi rol oynayan ailədə real ictimai münasibətlər həyata keçirilir. Uşağın ətrafdakılarla

növbəti münasibəti ailə münasibətlərində də davam etdirilir. Uşağın xarici təsirlərə qarşı adaptasiyası müdafiə mexanizmlərindən intensiv istifadə etməklə davranışın devia- siyasına, digərlərinin təzahürü isə sosial-psixoloji dezadaptasiyaya gətirib çıxarır.

Z.Freyd 1894-cü ildə "Müdafiə mexanizmləri" adlı əsərini yazmışdır. Onun ilkin təsəvvürlərinə görə, psixoloji müdafiə müxanizmləri anadangəlmədir. Onlar ekstremal situasiyada "daxili konflikt"i aradan qaldırmaq funksiyalarını yerinə yetirir, bununla da şüurlu və şüursuzluq arasındakı konfliktlərin həlli vasitəsi kimi çıxış edirlər. Müdafiənin fundamental qaydalarında Z.Freyd nevroz xəstəliyinin müalicəsi prosesində psixotravmatik faktorların təsirini də formulə etmişdir. Bu xəstəliklərin əsasında insanın daxili konfliktlərdə həyəcanları dayanır. Bu konfliktin həll edilməsi mümkün olmadıqda, insanda daxili gərginlik və diskomfortluq yaranır. İnsanda subyektiv yüngüllük duyğusu, gərginliyin aradan qaldırılması, psixoloji müdafiə mexanizmləri müşayiət olunur. (3)

Z.Freydin qızı Anna Freyd özünün "Mən"in psixologiyası və müdafiə mexanizmləri" adlı monoqrafiyasında 1940-cı illərdə psixoloji müdafiə mexanizmlərinə dair toplanmış bilikləri ümumiləşdirməyə və sistemləşdirməyə cəhd göstərmişdir. Atasından fərqli olaraq o, xaricən müdafiə mexanizmlərinin, sosiogen konfliktlərin həlli yollarını xüsusi olaraq qeyd etmişdir. Amma bu mexanizmlər şəxsi inkişafda, öyrənmə prosesində artıq formalaşır.

Psixoloji müdafiə mexanizmlərini öyrənərkən Z.Freyd üçün ən əsas uşağın affekt keçirməsinə dair transformasiya analizi idi. Onun fikrincə, uşağın emosional həyatı böyüklərə nisbətən daha mürəkkəbdir. Odur ki, onu müşahidə etmək lazımdır. Böyüklər belə zənn edə bilərlər ki, uşaq konkret hadisələrə reaksiya verə bilər. Belə gözləmənin əksinə olaraq bəzən müşahidə başqa bir mənzərəni aşkara çıxarmış olur. Məsələn, uşaq hirslənmək əvəzinə düşdüyü vəziyyətdə şənlənir. Bu da istənilən vəziyyətdə normal prosesin pozulmasıdır. Özünün müdafiə funksiyalarını həyata keçirməklə "Mən" işə qarışır, affektin transformasiyasına xidmət edir.

A.Freyd müdafiə mexanizmlərini iki qrupa ayırmış, perseptiv, intellektual və hərəki avtomatizmi müəyyən etmişdir ki, onlar insanda emosional gərginliyin azalması məqsədini təmin edir.

İ.M.Nikolski və P.M.Qranovski qeyd edirlər ki, müdafiə mexanizmləri müxtəlif psixoloji strukturların yaranması qanunauyğunluqlarının əhəmiyyətini başa düşməyə və uşağın mənəvi müdafiəsi üzrə işə hazırlığa yönəlmişdir. Onlar həmçinin psixoloji müdafiə mexanizmlərini şəxsiyyətin intrapsixi adaptasiya prosesi qismində informasiyaların şüuraltı işlənilməsi kimi nəzərdən keçirirlər. Bu prosesdə bütün psixi funksiyalar: qavrayış, hafizə, diqqət, təsəvvürlər, təfəkkür, emosiya iştirak edir. Lakin hər dəfə neqativ həyəcanların aradan qaldırılması üzrə işin əsas hissəsini onlardan biri öz üzərinə götürür.

Psixotravmatik situasiyaları buraya daxil etməklə müdafiə mexanizmləri informasiyaların qəbulundakı özünəməxsus maneələr rolunu oynayır. Nəticədə dərketmənin spesifik vəziyyəti formalaşır ki, bu da insana harmoniyanı qoruyub saxlamağa və öz şəxsiyyətinin strukturunda onu tarazlaşdırmaya kömək edir. Belə daxili dəyişikliklərin müdafiəsi insanın ətraf aləmə uyğunlaşmasının xüsusi forması kimi nəzərdən keçirilir.

Deyilənləri ümumiləşdirsək belə nəticəyə gələ bilərik ki, psixoloji müdafiə mexanizmləri spesifik xüsusiyyətlərə malikdir:

- Adaptasiyaya xidmət edirlər; şüursuz işləyirlər; İstəklərin, arzuların istiqamətini dəyişirlər; Arzu olunmayan istək, hiss və fikirlərlə bağlı olan təhlükəni aradan qaldırırlar; Şəxsi yetkinlik müxtəlif səviyyələrdə özünü təzahür etdirir.
- Müdafiə mexanizmlərinin qoyuluşunda uşaqlarla valideynlər arasındakı birgə fəaliyyətdə səhv seçimlər, ailədə münasibətlərin pozulması, qeyri-adekvat müdafiə üsullarının müəyyən edilməsi mühüm rol oynayır.
- Emosional münasibətlərdə valideynlər tərəfindən uşaqlara qarşı gərginlik, təcavüz, cəzalandırma uşaqlarda qorxu və təhlükə hissinin artmasına səbəb ola bilər. Psixikanın şüursuz mexanizmlərindən danışarkən psixoloqlar təhlükə situasiyasında şüurlu mexanizmlərin həyata keçirilməsini göstərirlər.

D.Q.Koqan müxtəlif psixoanalitik prosesləri, o cümlədən müxtəlif psixoloji proseslərdə bir qadının kliniki vəziyyəti misalında psixoloji müdafiə mexanizmlərini öyrənmişdir. T.İ.Semenova intellektin əlaqəsi və psixoloji müdafiə mexanizmlərinin uşaqda subyektiv həyəcanları ilə bağlı tədqiqatını genişləndirmişdir.

Beləliklə, psixoloji müdafiə mexanizmlərinə dair aparılan elmi tədqiqatlar müəyyən psixi və ya psixoloji problemləri olan insanlar, habelə sosial qrupların üzvləri arasında müdafiə mexanizmlərinin öyrənilməsinə həsr edilmişdir.

**Ədəbiyyat:**

1. *Фрейд А. Психология Я и защитные механизмы. - М.:Педагогическая пресса, 2013 г.*
2. *Басин Ф.В., Бурлакова М.К., Волков В.Н. Проблема психологической защиты. Журнал психологии. 2008 № 3*
3. *Психологическая диагностика индекса образа жизни (учебник для врачей и психологов). Под редакцией Л.И.Вассермана - СПб., ПНИ, 2001.*

**Z.Q.Hümbətova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***zehra.humbetova@gmail.com***

# I SİNİFDƏ İNFORMATİKA DƏRSİNDƏ TƏLİMİN TƏŞKİLİ

***Xülasə***

*İbtidai siniflərdə cəmiyyətin informasiyalaşdırılması məzmun xəttinin öyrənilməsində müasir texnologiyalardan istifadənin nəticələrinin analizi deməyə imkan verir ki, şagirdlər təhsil prosesinə daha ciddi yanaşır, onların intellektual və məntiqi səviyyəsi yüksəlir, təhsil prosesinə şagirdlərin yanaşması daha da yaradıcı olur. Şagirdlərin fəallığı stimullaşır, prosesin fərdiliyi aydın görünür, dərs prosesinin bütün mərhələlərində nəzarəti sistemləşdirmək imkanı yaranır, tədris vaxtına qənaət hesabına tədrisin informasiya həcmini artırmaq imkanı yaranır. Məqalədə birinci sinifdə informatikanın tədrisi məsələlərindən bəhs edilmişdir.*

# ОРГАНИЗАЦИЯ ОБУЧЕНИЯ ИНФОРМАТИКЕ В I КЛАССЕ

***Резюме***

*Анализ результатов использования современных технологий при изучении содержательной линии информатизации общества в начальных классах позволяет говорить о том, что учащиеся более серьезно относятся к образовательному процессу, повышается их интеллектуальный и логический уровень, подход учащихся к учебному процессу. процесс становится более творческим. Активность учащихся стимулируется, проявляется индивидуальность процесса, есть возможность систематизировать контроль на всех этапах учебного процесса, увеличить объем информации в обучении за счет экономии времени.В статье рассматриваются вопросы преподавания информатики в первый класс.*

# ORGANIZATION OF TRAINING IN COMPUTER SCIENCE IN I GRADE

***Summary***

*Analysis of the results of the use of modern technologies in the study of the content line of informatization of society in primary school allows us to say that students take the educational process more seriously, their intellectual and logical level increases, students' approach to the educational process becomes more creative. Students' activity is stimulated, the individuality of the process is clear, it is possible to systematize control at all stages of the teaching process, to increase the amount of information in teaching by saving time. The article discusses the issues of teaching computer science in the first grade.*

***Açar sözlər:*** *informatika, təlim, informasiya, texnologiya, tədris*
***Ключевые слова:*** *информатика, обучение, информация, технология, обучение.*
***Key words:*** *informatics, training, information, technology, teaching*

Bu günə qədər məktəb informatika kursunun inkişafında nəzərə çarpan ən vacib məqamlardan biri onun məzmununda informasiya texnologiyaları (İT) həcminin artmasıdır. Məktəbdə İT mövzusunun tədrisinə müxtəlif yanaşmalar mövcuddur. Kurikuluma əsasən hazırlanmış dərsliklərdə əsasən İT xətti şagirdlərin tətbiqi proqramlarla tanış edilməsi və bu proqramlarda praktik işlərin aparılması ilə tədris edilir. Belə proqramlara Word Pad mətn redaktoru, Paint Brush qrafik redaktoru, Excel cədvəl redaktoru və s. aiddir. Son vaxtlar tədrisdə texnologiya əvəzinə informasiya texnologiyaları sözü işlədilir. Texnologiyanın tədrisi İT tədrisindən nə ilə fərqlənir? Texnologiyaya aid hər bir mövzu keçilərkən aşağıdakıların öyrədilməsi vacibdir: İnformasiya və informasiya texnologiyalarının təsviri, bu sahəyə aid olan məsələlərin qoyuluşu və texnoloji üsullarla həlli [1, s.89].

İnformatika kursunda əsas diqqəti İT vasitələrinin deyil, insanın informasiya fəaliyyətinin müxtəlif sahələrinin öyrədilməsinə yönəltmək lazımdır. Tədrisdə informasiya texnologiyalarından istifadənin texnoloji və nəzəri aspektləri. İT xəttinin hər bir mövzusunun öyrədilməsi həmin texnologiyaların tətbiq sahələri ilə tanışlıqla başlamalıdır. Məsələn, qrafik redaktorlardan hansı məsələlərin həlli üçün istifadə edilir, onlardan gələcəkdə kimlər istifadə edə bilər və s. kimi məsələlər şagirdlərə izah edilməlidir [3, s.89].

I siniflər üçün informatika dərsliyində tədris materialları idrak taksonomiyasının mərhələləri üzrə qruplaşdırılıb.

• Qruplaşdırılmış təlim materialları fəal təlim mərhələlərində təşkil edilir və tələbələrin müstəqil işləməsinə şərait yaradır.

• Tədris sənədində informasiya elmi məzmun standartlarının həyata keçirilməsini təmin etməklə, fəaliyyət istiqamətlərinə uyğun olaraq tədris materialları hazırlanır.

Dərslikdə hər bir mövzu üzrə tədris materialları aşağıdakı ardıcıllığa və prinsipə görə qruplaşdırılıb:

- Mövzunun əvvəlində şagirdlərdə maraq oyatmaq üçün gündəlik həyatda rastlaşdığımız situasiya və hadisələr şəkillərin köməyi ilə təsvir edilir, motivasiya yaradılır, onlara sual və tapşırıqlar verilir;

- Dərslikdə "Fəaliyyət" blokunda maraq obyektlərinin öyrənilməsi, habelə bu hadisələrin səbəb-nəticə əlaqəsinin qurulması üçün praktiki fəaliyyət tələb edən tapşırıqlar tələb olunur. Tapşırıqlar fərdi, cüt, qrup və ya komanda şəklində yerinə yetirilə bilər. Kiçik yaşlı şagirdlərdə psixomotor bacarıqların inkişafına töhfə verən bu məşqlər fənn üzrə müəyyən biliklərin "kəşf edilməsinə" xidmət edir. Bu tapşırıqların əsas məqsədi təxmin etmək və çatmaq kimi

bacarıqları inkişaf etdirməkdir. Praktik məşğələlərdə müvafiq blokda tapşırıqlar alqoritmlər şəklində verilir [2, s.87].

- Fəaliyyət zamanı aşkar edilmiş faktlar "Bilik qutuları"nda ümumiləşdirilmiş bilik və məlumat şəklində verilir. O, həmçinin mövzu ilə bağlı yeni anlayışları və onların izahını təqdim edir;
- mövzu ilə bağlı bilik və bacarıqların tətbiqi zamanı bəzi tapşırıqların yerinə yetirilməsinə dair nümunələr verilir;
- əldə edilmiş biliklərin dərinləşdirilməsi və onların yaradıcı tətbiqi üçün müxtəlif mürəkkəblikdə tapşırıqlar verilir;
- Qazanılmış bacarıqlar didaktik oyunların köməyi ilə təkmilləşdirilir. Oyun forması ibtidai sinif şagirdləri üçün çox maraqlı olduğundan müəllim üçün dərslikdə əlavə oyun nümunələri verilmişdir;
- Dərslik komplektinə pulsuz daxil olan və Təhsil Nazirliyinin rəsmi möhürü ilə təsdiq edilmiş İNFO-KO elektron dərsliyi sinifdə və evdə müvafiq tapşırıqların yerinə yetirilməsi üçün nəzərdə tutulub.

• Dərsliyin sonunda bəzi sözlərin izahı verilir.
• Dərslikdəki tapşırıqlar differensial təlim prinsipinə uyğun olaraq mürəkkəbliyi ilə fərqlənir.

Məsələn, asan səviyyəli tapşırıqlar yaşıl, orta səviyyəli tapşırıqlar sarı, mürəkkəb səviyyəli tapşırıqlar isə qırmızı rənglə qeyd olunur. Hər blokun sonunda ümumiləşdirici suallar və tapşırıqlar var.

Differensial təlim müxtəlif öyrənmə və düşüncə tərzinə malik olan öyrənənlər üçün vacib olan məzmunu öyrətmək və mənimsəmək üçün istifadə edilən tədris metodudur. Diferensial öyrənmə bir proses kimi başa düşülməlidir. Yəni müəllim şagirdlərə ən səmərəli şərait yaratmaq üçün təlimin diferensiallaşdırılması üzərində işləməlidir. Bildiyiniz kimi, təlim bir-biri ilə sıx bağlı olan 4 əsas aspektdən ibarətdir:

1) fənlərin məzmunu və gözlənilən nəticələr (standartlar);
2) tələbələrin əsas bilik və bacarıqları, inkişaf və təlim səviyyələri, onların xüsusi ehtiyacları;
3) tədris metodları, tapşırıqlar, əlavə materiallar, əyani vəsaitlər və biliklərin möhkəmləndirilməsi üçün ev tapşırıqları və məşqlər;
4) tətbiq olunan qiymətləndirmənin üsulları və növləri. Öyrənmənin differensiallaşdırılması haqqında düşünərkən təlim prosesinin bütün aspektlərinin diferensiallaşdırılması nəzərə alınmalıdır [4,s.90].

Tədrisi fərqləndirmək üçün müəllim aşağıdakı üsullardan istifadə edə bilər:

1) yeni mövzunu təqdim edərkən həm şifahi, həm də əyani vasitələrdən istifadə edir (eyni zamanda deyir və nümayiş etdirir);

2) kiçik qruplarda şagirdlərlə görüşür və onlara yenidən izahat verir (bu metodun tətbiqinə güclü sinif şagirdləri də cəlb oluna bilər);

3) oxu materialını bir mətn şəklində deyil, bir neçə mətn şəklində hazırlayır ki, müxtəlif oxu qabiliyyəti olan şagirdlər oxu fəaliyyətinə cəlb olunsunlar;

4) tələbələrə ehtiyaclarından asılı olaraq manipulyasiya vasitələri verir;

5) öyrəndiklərini nümayiş etdirmək üçün müxtəlif üsullar təklif edir: məsələn, rol oyunları inkişaf etdirməyə imkan verir, şifahi cavab əvəzinə məktub yazmağı təklif edir, tələbələrin qrup və ya fərdi şəkildə işləməsinə şərait yaradır;

6) müxtəlif təlim üslublarını nəzərə alaraq tələbələr üçün fərdi şərait yaratmağa çalışır: tək oturmağı sevir, qrupda işləyir və qrupda işləməyi sevir, həmişə bu qrupun üzvü olur və s.

Differensial təlim texnologiyaları həm tipik, həm də xüsusi təhsil ehtiyacı olan tələbələrin fəaliyyətini yaxşılaşdırmaq üçün dövrümüzün ən mütərəqqi və effektiv yanaşmalarından biri hesab olunur. Fərqli təhsilin alt komponenti olan inklüziv təhsilin mərkəzində hər bir şagirdə fərdi yanaşma ideyası dayanır. İnklüzivlik əlilliyi olan uşaqlarda özlərinə inam yaratmaqla yanaşı, həmyaşıdları ilə eyni məktəbdə oxumaq imkanı yaratmaqdan ibarətdir. Bu baxımdan təhsilin diferensiallaşdırılması zamanı xüsusi qayğıya ehtiyacı olan şagirdlərlə iş texnologiyasının nəzərə alınması vacibdir.

Tədqiqatlar göstərir ki, "açıq-aşkar" tədris metodları xüsusi ehtiyacı olan bir çox tələbələr üçün çox vacibdir. Aydın təlim üç mərhələdən ibarətdir: - dərsin mövzusunun təqdimatı; - materialın birbaşa öyrədilməsi və kursun məzmununun modelləşdirilməsi; - tələbələrin təcrübə qazanması üçün imkanların yaradılması (məqsədli praktiki iş).

Başlamaq üçün müəllim şagirdlərin diqqətini dərslikdəki şəklə cəlb edə və aşağıdakı sualları verə bilər.

Aydınlıq üçün müəllim istənilən obyekti (qələm, oyuncaq və s.) göstərərək sinfə müraciət edə bilər:

- Əlimdə qələmin hansı hissələri var?

Tələbələrə hissələri göstərmək üçün qələmi ayırmaq daha məqsədəuyğun olardı. Sonra müəllim sinifə sual verir:

- Eyni cisimlərin müxtəlif hissələri və hərəkətləri ola bilərmi?
- Fərqli əşyaların eyni hissələri və hərəkətləri ola bilərmi?

Şagirdlərin fikirləri dinlənilir. Tədqiqat sualı lövhədə yazılır və müəllim tərəfindən izah edilir. Tələbələrin fərziyyələri qeyd olunur.

Tədqiqat sualı: Cisimləri hissələri və hərəkətləri ilə necə müəyyən etmək olar?

Tədqiqat işində dərsliyin "Fəaliyyət" blokundakı tapşırıq yerinə yetirilir. Müəllim sinfi dörd qrupa bölür. Şagirdləri qruplara bölmək üçün müəllim hər birində 4 müxtəlif şəkli əvvəlcədən rəngləyir [14,s.89].

4-5 hissəyə bölün (qrupdakı uşaqların sayına görə) və uşaqlara paylayın. Bir şəklin hissələri tələbələri qrupda birləşdirir. Qruplar şəkildə göstərildiyi kimi adlandırıla bilər. Məsələn, "Tülkülər", "Dovşanlar" və s.

Hər qrupa 1 vərəq və tanqramın hissələri verilir. Müəllim şagirdlərə tapşırıqlar verir.

1-ci qrup: Verilmiş hissələrdən pişik şəklini toplayın və onun hərəkətlərindən danışın.

2-ci qrup: Verilmiş hissələrdən toyuq şəklini toplayın və onun hərəkətlərini danışın.

3-cü qrup: Verilmiş hissələrdən dovşan şəklini toplayın və onun hərəkətlərindən danışın.

4-cü qrup: Verilmiş hissələrdən quş şəklini toplayın və onun hərəkətlərini söyləyin [5, s.78].

DT. Təlim nəticələri yüksək olan tələbələr də dərsliyə daxil olan e-Learning alətindən istifadə edərək bu fəaliyyəti tamamlaya bilərlər.

Müəllim dərslikdən və dərslik komplektinə əlavə olunmuş təqdimatdan istifadə edərək şagirdlərin cavablarını ümumiləşdirir, onlarla nəticə çıxarır: - Adətən obyektlərin müxtəlif hissələri və öz hərəkətləri (hərəkətləri) olur. Obyektin hissələrini adlandırmaqla onu tanımaq həmişə mümkün olmur. Çünki eyni hissələri olan şeylər var. Məsələn, stollar və stullar, velosipedlər və motosikletlər və s.. Amma obyektin hissələri ilə yanaşı, bir obyekti onun hərəkətlərindən və əməllərindən tanıya bilərsiniz. Məsələn, xoruzun bütün quşlar kimi qanadları, dimdiyi, quyruğu və tükləri var. Amma xoruz qarğası onu digər quşlardan fərqləndirir. Dəvəquşunun iki praktik xüsusiyyəti onu bütün digər quşlardan fərqləndirir: Afrikada yaşayır və quş olmasına baxmayaraq uça bilmir. Beləliklə, eyni hissələrin hərəkətləri haqqında danışarkən, onları bir-birindən fərqləndirə bilərsiniz. Müəllim dərsin əvvəlində irəli sürdüyü fərziyyələri şagirdlərə xatırladır və onları şagirdlərin fəal iştirakı ilə əldə etdikləri biliklərlə müqayisə edir.

Dərsliyə daxil edilmiş təqdimatdakı tapşırıqlar müəllimin izahı ilə tamamlanır. Əldə edilmiş bacarıqları möhkəmləndirmək üçün dərslikdə və ya aşağıda verilmiş oyunları oynaya bilərsiniz.

**Ədəbiyyat:**

1. *İnformatika və onun tədrisi metodikası. BSU, Riyaziyyat və informatika kafedrası, bakalavr bölməsi. İSM ixtisası üzrə proqram. Abulova S. və b. ADPU, 2017.*
2. *Qasımova L.N. Mahmudova R.M. Pedaqogika. Bakı:Çaşıoğlu. 2003. 278s.*
3. *Mazanova S., İsgəndərov O. İnformatika və İTM fənni üzrə laboratoriya işlərinin təşkili metodikası. Bakı, 2019*
4. *Musayeva. İnformatikanın tədrisinin müasir problemləri. Bakı, 2018*
5. *Mahmudzadə R. və b. İnformatika 2. Dərslik, Bakı, 2011*

**M.Ə.Axundova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***miradeaxundova@gmail.com***

# MİKAYIL MÜŞFİQİN POEZİYASINDA HECA VƏZNİ VƏ ONUN TƏDRİSİ YOLLARI

***Xülasə***

*Məqalədə ümumtəhsil məktəblərində heca vəzninin tədrisi məsələlərinə toxunulub. Heca vəzninin tələbləri, şərtləri, musiqiliyi, ahəngi Mikayıl Müşfiq yaradıcılığı əsasında tədqiq edilib. Məlum olur ki, heca vəznində müxtəlif hecalı, mövzulu, ideyalı təsirli poeziya nümunələri göstərmək olar. Məqalədə heca vəznində daxili bölgü, ritm, ahəng məsələlərinin tədrisi araşdırılıb.*

# ВЕС СЛОГА В ПОЕЗИИ МИКАИЛА МУШФИГА И СПОСОБЫ ЕГО ОБУЧЕНИЯ

***Резюме***

*В статье затронуты вопросы преподавания веса слогов в общеобразовательных школах. Требования, условия, музыкальность и гармония веса слогов были изучены в произведении Микаила Мушфига. Было обнаружено, что примеры стихов с разными слогами, темами и идеалами могут быть показаны по весу слогов. Кроме того, изучалось обучение внутреннему делению, ритму и гармонии по весу слогов.*

# SYLLABLE WEIGHT POETRY OF MİKAİL MUSHFİG AND WAYS OF İTS TEACHİNG

***Summary***

*The article touches on the teaching of syllable weight in secondary schools. The requirements, conditions, musicality and harmony of syllable weight have been studied on the work of Mikail Mushfig. It has been found that various syllable, thematic, ideologically influential examples of poetry can be shown in syllable weight. In addition, the teaching of internal division, rhythm and harmony in syllable weight was studied.*

***Açar sözlər:*** *Mikayıl Müşfiq, heca vəzni, daxili bölgü, metodik üsullar, lirik şeirlər, tədris, fasilə, ritmik*

***Ключевые слова:*** *Микаил Мушфиг, словосложение, внутреннее деление, лирические стихотворения, обучение, методика, перерыв, ритмичный*

***Key words:*** *Mikail Mushfig, poetry, creativity, teaching, school, verse break, rhythmic*

Azərbaycan poeziyasında heca vəzni müstəsna əhəmiyyətə malikdir, ən çox istifadə olunan vəzndir. Onun orta məktəbdə tədrisi nəticəsində şagirdlər heca vəznli şeirləri məzmununa uyğun ifadəli oxumağı bacarır, poetik nümunələrdə bədii təsvir vasitələrini müəyyənləşdirir, tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır və s.

Mikayıl Müşfiq poetik nümunələrinin böyük əksəriyyətini heca vəznində yazmışdır. Onun poetik irsində demək olar ki, heca vəzninin bütün növlərinə rast gəlinir. Şairin şeirlərinin içərisində hətta, hecanın iki, üç, dörd, beş və altı təqtili ("Xəzan içində bahar", "Yeni il", "Üç sağlıq", "Teleqraf telləri", "Küləklər", "Tar" və s.) misralarına da təsadüf olunur.

Müşfiqin yeddi hecalı ("Mingəçevir həsrəti"), səkkiz hecalı ("Tərtərhes nəğmələri"), doqquz hecalı ("Zəfər səsləri"), on hecalı ("Güzgü qayıtdı"), on bir hecalı ("Şairin ölümünə" və "And olsun"), on iki hecalı ("Küləklər" və "Teleqraf telləri"), on üç hecalı ("Ustamıza"), on dörd hecalı ("Bir lövhə" və "Düdük sədaları"), on beş hecalı ("Gülüşlər" və "Düşüncə), on altı hecalı ("Sabir üçün") şeirləri, habelə iyirmiliklə tərcümə olunan əsərləri var.

Müşfiq çeşidli metrik silahlardan virtuozcasına istifadə eləməklə, həqiqi, böyük söz ustadı idi. Görkəmli dilçi alim, akademik Ağamusa Axundov1970-ci ildə çap olunmuş "Dil və üslub məsələləri" kitabında belə deyirdi: "Tar" şeiri üç hecalı təqtili sxem əsasında yazılmışdır.

Misralardakı hecaların sayı bərabər olmasa da, təqtilərin sayı hər yerdə bərabərdir. Ümumiyyətlə, şeirdə yuxarıda verdiyimiz sxemdən kənara çıxan bir dənə də olsun təqti yoxdur". Fikrini davam etdirərək müəllif daha sonra yazır: " Bütün bunlar söz yox, doğrudur. Ancaq bununla belə yenə də "Tar"ı və eləcə də "Zəfər səsləri", "Gecə çeşməsi" şeirlərini tam heca vəznində yazılmış şeirlər kimi götürmək olmur. Bu şeirlər "heca vəzninin hər ritm vahidi üç təqtidən ibarət formasında" olsalar da, tam heca deyillər. Zahiri görünüşünə, misralarda hecaların qeyri-bərabərliyinə görə bu şeirlər sərbəstə oxşasalar da, sərbəst də deyillər. Bəs, onda bu şeirlər hansı vəzndədirlər? Bu Müşfiq icadıdır, heca ilə sərbəsti yaxınlaşdıran bir vəzndir, ona qədər belə nümunələrə təsadüf olunmayıb..." (4)

Bəzi ədəbiyyatşünasların qeyd etdiyi kimi Müşfiqin əksər şeirləri, eləcə də "Yenə o bağ olaydı"nın da strukturu qədimlərə, "poeziyanın intizamlı" dövrlərinə gedib çıxır. Arxitektonikası baxımından, yəni bəndlərdə misra saylarının qeyri-bərabərliyinə görə çoxlarının sərbəst qəbul elədiyi (bu həm də ona görə baş verir ki, hazırlıqsız oxucuların əksəriyyəti hecanın bu nümunəsi ilə ilk dəfə üzləşirlər) "Yenə o bağ olaydı" şeirində gizli bir "müstəzad" görünüşü var. Bundan əlavə, 8 bəndli şeirin uzun misralarını hesablasaq bəndlərə görə nəticə belə olar: I- 5; II- 5; III-5; IV- 7; V-10; VI-7;VII-6 və VIII- 5. Halbuki, bu şeirə hər bəndi 5 uzun misradan ibarət 10 bəndlik şeir kimi də

baxmaq və onun intizamlı strukturunun daha bir tərəfini də aşkarlamaq olar. Fikrimizcə, bu dəyişiklik şeirdə heç bir "fəsad" yaratmazdı.

Tədqiqatçılar "Tar"ın bəzi hissələrinin əruzda, əruzun mütəqarib bəhrində, "müsəmmənate (dörd rüknlü)-salem (bütöv), əl-ərkan" sistemi əsas götürülərək sərbəst vəznin tələblərinə calaq edilərək yazıldığını bildirirdilər. "Oxu tar/ oxu tar/ səni kim/unudar// Ey geniş/ kütlənin/ şirini/ şərbəti// Alovlu/ sənəti/ zilin var/ vəsətin// Bəmin var/ Sənin də / quşların/ dəmindən// Ayrılan /bir özgə //dəmin var..." (fəUlən, fəUlən, fəUlən/ fəUlən)..." Müşfiqşünas alim Gülhüseyn Hüseynoğlu da deyilənlərə haqq qazandıraraq yazırdı: "Bu Müşfiq icadıdır, heca ilə sərbəsti yaxınlaşdıran bir vəzndir". (1)

Mikayıl Müşfiq orta ümumtəhsil məktəblərinin 7-ci sinfində "Təbiətə vurğun, təbiətə qayğı" göstərən şair kimi təqdim olunub. Burada şairin "Yağış yağarkən" şeiri verilib. "Yağış yağarkən" şeiri Müşfiq poeziyasının musiqili, ahəngdar, emosional nümunələrindən biridir:

Yağış yağır, rəqs eyləyir gur damlalar,
Sıra-sıra, inci-inci nur damlalar.
Göydə ıкi qara bulud çatılaraq,
Ildırımlar şaqqıldayır şaraq-şaraq,
Quşlar uçur yuvasına fırıl-fırıl,
Şırıldayır navalçalar şırıl-şırıl. (2, 140)

Əslində dərsin məqsədi şeirin təhlili, ideyanın müəyyən edilməsi, bədii təsvir və ifadə vasitələrinin rolunu şərh etməkdir. Motivasiya edici şəkillərin, məlumatların lövhədə göstərilməsi şagirdlərin dərsə və mövzuya olan həvəsini daha da artırır. Lakin bütün bunlarla yanaşı bu şeirin tədrisi zamanı şagirdlərə məntiqi və emosional vurğu anlayışları tətbiq etmə metodu ilə aşılanır. Uşaqlar şeirin hecalarını düzgün bölərək tələffüz etməyə, lazımi yerdə fasilə edib, lazımi yerdə yüksək və ya alçaq, sadalayıcı tonlardan istifadə etməyə öyrənirlər.

Orta məktəbin 9-cu siniflərində Mikayıl Müşfiqin "Həyat sevgisi" şeiri tədris olunur. Bildiyimiz kimi Mikayıl Müşfiqin həyatının son illərində gərginliklər, təqiblər, haqsızlıqlarla qarşılaşırdı. Bu şeirin əsas qayəsini Mikayıl Müşfiqin həyatı, dostları, təbiəti, yaşayıb yaratmağı sevməsi təşkil edir:

Ah, mən gündən-günə bu gözəlləşən
İşıqlı dünyadan necə əl çəkim?
Bu yerlə çarpışan, göylə əlləşən
Dostdan, aşinadan necə əl çəkim? (3, 35)

11 hecalıq bu şeir nümunəsi 6-5 bölgüsü əsasında yaradılmışdır. Əlbəttə bu da şeirin ahəngini ordakı bədii ifadə vasitələrlə vəhdətdə təsvir edilməsinə səbəb olmuşdur: Bu da təsadüfi deyil. Belə ki, bu şeir ölçüsü həddən artıq diləyatımlı, xüsusi, gözəl avaza malikdir. Eyni zamanda, bu şeir ölçüsündə misranın və bölgülərin uzunluğu fikri ifadə etməyə, müxtəlif uzunluqlu sözlərdən istifadə etməyə imkan verir. 6-5 bölgülü variantda sözlər bölgülərdə

parçalandığı halda deyiliş xeyli çətinləşdiyindən və avaz pozulduğundan buna yol verilmir. 6-5 bölgülü şeirdə 5-lik bölgü 5-hecalı şeirin xüsusiyyətlərini daşıyır. 6-lıq bölgünün isə öz daxilində bölgülən-mə xüsusiyyəti belədir: bu bölgü 2-hecalı (və ya iki dənə birhecalı) sözlə başlayanda və ondan sonra 1-hecalı söz gəlməyəndə 2-2-2 (və ya 2-4) bölgüsü hiss olunur. Bu bölgü 4-hecalı sözlə başlayanda da 2-2-2 (və ya 4-2) bölgüsü hiss olunur. Qalan bütün hallarda (3- hecalı sözlə başlayanda; 1-hecalı sözlə başlayanda və ondan sonra 1-hecalı söz gəlməyəndə; 6-hecalı bütöv sözdən ibarət olduqda və s.) 3-3 bölgülənməsi hiss olunur. Bu hallarda sözlər 3-lüklər arasında parçalana bilər.

Ümumiyyətlə, Mikayıl Müşfiqin şeirlərinin tədrisi şagirdlərdə həyatla bağlı fəlsəfi fikirlərin formalaşması ilə yanaşı, təhsilalanlar emosional vurğu bacarıqlarının dərk edilməsinə, sintaqm və fasilələrin doğru yerdə qoymalarını da dərk edirlər.

Eləcə də şagirdlər bu şeirlərlə tanış olarkən heca vəzni, onun bölgü məsələlərinə diqqət yetirməyi öyrənirlər. Heca vəzninin uzun və qısa hecalar baxımından ritmik xüsusiyyəti haqqında da konkret məlumatlara sahib olurlar və sillabik vəzn, tonik vəzn, metrik vəzn anlayışlarını dərk edirlər.

Aşağıda M.Müşfiqin "Yağış yağarkən" şeirinin məzmun üzrə iş əsasında qurduğumuz dərs nümunəsi veririk.

**Standart:**

1.1.1 Heca vəznli şeirlərdə və süjetli bədii nümunələrdə (dastan, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.

1.1.5 Heca vəznli şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.

2.1.2 Bədii nümunələrlə bağlı fikrini mətndən nümunələr gətirməklə şərh edir.

**Təlim nəticələri.**

1.Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərin köməyi ilə aydınlaşdırır.

2.Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.

3.Fikrini şeirdən nümunələr gətirməklə şərh edir.

**İş forması**: kiçik qruplarla iş

**Dərsin tipi**: induktiv, bədii əsərin öyrədilməsi

**Təchizat**: dərslik, proyektor, is vərəqləri, lüğətlər

**Metod və priyomlar**: müsahibə, iki hissəli gündəlik

**Motivasiya**: təbiətə həsr olunmuş mahnıdan bir parça səsləndirilir. İnternetdən M.Müşfiqin yaradıcılığı ilə bağlı materiallar proyektor vasitəsilə nümayiş etdirilir. Şagirdlərə sual veririk. Bütün bunlar sizdə hansı təəssüratları yaratdı? Şagirdlər öz düşüncələrini sərbəst şəkildə ifadə edirlər.

**Tədqiqat sualı**: M.Müşfiqin "Yağış yağarkən" şeirinin indiki dövrdə də aktual olmasının səbəbi nədir? Fərziyyələr dinlənilir və qeydlər aparılır.

**Tədqiqatın aparılması**: bu mərhələdə şagirdləri kiçik qruplarda birləşdiririk. Hazırladığımız sualları şagirdlərə iş vərəqlərində təqdim edirik.

**I qrup**

a) şeirdəki hansı söz və ifadələr yağışın yağmasının doğurduğu hiss və düşüncələri daha dolğun əks etdirir;

b) şeir təbiət hadisəsi haqqında sizdə hansı təəssüratları yaratdı.

**II qrup**

İkihissəli gündəlikdən istifadə edərək fikirlərinizi əsaslandırın.

**III qrup**

Şeirdə hansı təsvir və ifadə vasitələrindən istifadə olunmuşdur?

**Məlumatın mübadiləsi**: qruplar apardıqları tədqiqatın nəticələrini təqdim edirlər. Müzakirə zamanı müəllim dialoji nitq bacarığı nümayişinə, fikirlərin sərbəst söyləməsinə diqqət yetirir.

**Məlumatın müzakirəsi**: bu zaman şagirdlərin fəallığına səy göstərilməlidir. Hər bir qrup digər qrupların cavablarına münasibət bildirir, əlavələr edir, mövqelərini misallarla əsaslandırmağa çalışır.

**Nəticənin çıxarılması, ümumiləşdirilmənin aparılması**: şagirdlər şeirlə bağlı fikirlərini, şairin hisslərinin şeirdə öz əksini necə tapması barədəki mülahizələrini ümumiləşdirir, nəticə çıxarırlar. Daha səmərəli olması üçün bu mərhələdə əvvəlcədən hazırladığımız suallardan istifadə edirik:

1. Şeirdə hansı bədii xüsusiyyətlər diqqətinizi daha çox çəkdi?
2. Şeirin ideyasını yığcam şəkildə necə ifadə edərsiniz?

**Qiymətləndirmə.**

Qiymətləndirmə meyarları:
Aydınlaşdırır
Müəyyənləşdirir
Şərh edir

| 1-ci səviyyə | 2-ci səviyyə | 3-cü səviyyə | 4-cü səviyyə |
|---|---|---|---|
| Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən müəllimin köməyi ilə aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mətnə uyğun mənasını lüğətlərdən aydınlaşdırmaqda bəzən çətinlik çəkir. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə dəqiq aydınlaşdırır. |
| Bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirməkdə | Bədii təsvir və ifadə vasitələrini | Bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirməkdə | Bədii təsvir və ifadə vasitələrini tam əhatə |

| | | | |
|---|---|---|---|
| çətinlik çəkir. | suallar verməklə müəyyənləşdirir. | bəzən çətinlik çəkir. | etməklə müəyyənləşdirir. |
| Yeni sözlərdən müzakirə və müsahibədə istifadə etməkdə çətinlik çəkir. | Müzakirə və müsahibədə yeni sözlərin bir qismindən istifadə edir. | Müzakirə və müsahibədə yeni sözlərdən əsasən istifadə edir. | Müzakirə və müsahibədə yeni sözlərdən məqamında, dolğun istifadə edir. |
| Şeirlə bağlı fikirlərini mətndən nümunələr gətirməklə şərh etməkdə çətinlik çəkir. | Şeirlə bağlı fikirlərini müəllimin köməyi ilə mətndən nümunələr gətirməklə şərh edir. | Şeirlə bağlı fikirlərini mətndən bəzi məqamlarda müvafiq nümunələr gətirməklə şərh edir. | Şeirlə bağlı fikirlərini mətndən ardıcıl olaraq müvafiq nümunələr gətirməklə şərh edir. |

**Ev tapşırığı:** M.Müşfiqin təbiət mövzusunda yazdığı əsərlər barəsində məlumat toplayın.

**Ədəbiyyat:**

1. *Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi: (Dərslik). Bakı:Proqres, 2012, 434 s.*
2. *Həsənli B., Hüseynoğlu S., Məmmədova S., Mustafayeva A. Ədəbiyyat. VII sinif. Müəllim üçün metodik vəsait. Bakı:Bakı, 2018, 211 s.*
3. *Həsənli B., Hüseynoğlu S., Verdiyeva N., Mustafayeva A. Ədəbiyyat. IX sinif. Müəllim üçün metodik vəsait. Bakı:Bakı, 2020, 226 s.*
4. *Mikayıl Müşfiq. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, 352 səh.*

**D.M.Musayev, R.A.Bayramova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***reyhanbayramova9@gmail.com***

# AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN TARİXİ ŞƏXSİYYƏTLƏRİN QƏHRƏMANLIQ NÜMUNƏSİNDƏ TƏRBİYƏSİNİN ƏSASLARI

***Xülasə***

*Məqalədə şagirdlərin tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyə edilməsinin önəmindən bəhs edilmiş, bunun üsul, vasitə və yolları haqqında məlumatlar verilmişdir. Tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyə edilən şagirdlərdə vətənpərvərlik, millətinə sevgi, dünyagörüş, mərdlik və s. hislər formalaşdırılır.*

# ГЕРОИЗМ ИСТОРИЧЕСКИХ ЛИЧНОСТЕЙ СТУДЕНТОВ НА УРОКАХ ИСТОРИИ АЗЕРБАЙДЖАНА ОСНОВЫ ОБРАЗОВАНИЯ НА ПРИМЕРЕ

***Резюме***

*В данной статье, ученикам была представлена информация о важности воспитания, об их способах, путях и правилах на примере исторических личностей. Воспитывание учеников на примере исторических личностей,формирует у них любовь к Родине,к своему народу,кругозор,честь и другие чувства.*

# HEROISM OF HISTORICAL PERSONALITIES OF STUDENTS IN AZERBAIJAN HISTORY LESSONS FUNDAMENTALS OF EDUCATION IN AN EXAMPLE

***Summary***

*In the article, the importance of bringing up pupils on the example of historical figures was discussed, information on methods, means and ways of this was given. Patriotism, love for the nation, worldview, courage, and etc. feelings are formed in pupils brought up on the example of historical figures.*

***Açar sözlər:*** *tarix, şəxsiyyət, tərbiyə, metod, üsul, texniki vasitələr, müəllim, şagird*

***Ключевые слова:*** *история, личность, воспитание, метод, прием, технческие средства, учитель, ученик*

***Key words:*** *history, personality, upbringing, method, mode, technical means, teacher, student*

Ümumtəhsil məktəblərinin əsas məqsədi şagirdlərə təkcə müxtəlif kurslarla bağlı məlumatlar vermək deyil. Burada şagirdlər həm tərbiyə edilir

həm də onlarda müxtəlif bacarıq və vərdişlər formalaşdırılır. Bütün bunların həyata keçirilməsində tədris edilən hər bir fənnin özünə məxsus rolu vardır. Lakin tarix kursu və tarix müəllimi şagirdlərin tərbiyəsində digərləri ilə müqayisədə önəmli rola malikdir. Çünki şagirdləri tarixi hadisə, proses və tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə etmək daha asandır.

Azərbaycan tarixi fənni üzrə məzmun standartları siniflər üzrə sistemləşdirilmiş və tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət, mədəniyyət olmaqla beş məzmun xətti üzrə qruplaşdırılmışdır. Onların hər birinə nəzər yetirək:

**Tarixi zaman.** Hadisə və təzahürlərin müəyyən zaman daxilində baş verməsinin və inkişafının ardıcıllığı, onlar arasında qarşılıqlı əlaqə və təsirləri müəyyənləşdirməyə imkan yaradır.

**Tarixi məkan.** İnsanların və cəmiyyətin həyatı, onların inkişafı və dəyişməsi müəyyən tarixi məkan çərçivəsində baş verir. Həmin məkanın təbii-coğrafi şəraiti insanların həyat tərzlərinə, məşğuliyyətlərinə, təsərrüfat həyatlarına, ictimai münasibətlərinə, mədəni inkişaf xüsusiyyətlərinə böyük təsir göstərir.

**Dövlət**. Müxtəlif dövlət quruluşu formaları, qanunlar və onlara əməl olunması, dövlətlər arasında və dövlətlə vətəndaşlar arasında olan münasibətlər insanların həyatına və tarixin gedişinə güclü təsir göstərmişdir.

**Mədəniyyət**. Mədəniyyət insanların maddi və mənəvi fəaliyyətinin bütün nəticələrini əhatə edir. Tarixin gedişi ilə sıx bağlı olaraq yaranır və inkişaf edir. Bu fəaliyyət öz növbəsində milli və bəşər mədəniyyətlərini zənginləşdirir. (7)

**Şəxsiyyət**. Ayrı-ayrı şəxsiyyətlərin fəaliyyəti bu və ya digər dərəcədə tarixin gedişinə təsir göstərir. Tarix şəxsiyyətlərin fəaliyyətindən xeyli dərəcədə asılı olur. Onların fəaliyyətlərinin əsasının başa düşülməsi və nəticələrinin düzgün qiymətləndirilməsi, eyni zamanda bir sıra tarixi hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirməyə və gələcəkdə baş verə biləcək digər hadisə və təzahürləri proqnozlaşdırmağa imkan yaradır. Buna görə də şagirdlərin keçmişdə və həmçinin müasir zamanda insan cəmiyyətinin inkişafında ayrı-ayrı şəxsiyyətlərin rolunu düzgün başa düşməsi və dəyərləndirilməsi üçün onlara Azərbaycan tarixi ilə bağlı şəxsiyyətlərin fəaliyyəti barədə araşdırmalar aparmaq, müqayisələr və təhlillər əsasında fikir söyləmək imkanı verən bacarıqların aşılanması zəruri hesab edilir. (2, səh. 3)

Pedaqoji-psixoloji ədəbiyyatın problem baxımından təhlili zamanı görürük ki, müxtəlif müəlliflər şagirdlərin tarixi şəxsiyyətlər nümunəsində tərbiyə edilməsi məsələsinə fərqli şəkildə yanaşmışdır.

D.M.Çağlayan şagirdlərin tərbiyə olunmasını və tərbiyə metodlarını tətbiq edərkən aşağıdakı cəhətlərin nəzərə alınmasının vacib olduğunu vurğulayır:

*Birincisi* tərbiyə olunan şagird və ya şagirdlərin yaş və fərdi xüsusiyyətləri;

*İkincisi* şagirdlərin daxil olduğu uşaq, yeniyetmə və gənclik kollektivinin xüsusiyyətləri;

*Üçüncüsü* tərbiyəvi tədbirin həyata keçirildiyi konkret şərait:

Bu cəhətlər nəzərə alınmaqla seçilən və tətbiq edilən tərbiyəvi tədbir öz bəhrəsini verir. (6, səh.25)

Həmzəyev şagirdlərin tərbiyə olunmasında əxlaqi söhbətlərin mühüm önəmə malik olduğunu bildirir. Bu cür söhbətlər istər fərdi, istərsə də kollektiv şəkildə aparıla bilər. Bunun üçün müəllim aşağıdakılara əməl etməlidir:

1. Əxlaqi söhbətin məzmunu şagirdlərin yaş səviyyəsinə uyğun olmalıdır;
2. Söhbətə aydın, konkret misallarla başlamaq daha münasibdir;
3. Söhbət zamanı şagirdlər üçün yeni, inandırıcı faktlardan istifadə olunmalıdır;
4. Tarixi şəxsiyyətlər barədə söhbətləri kitablarla, kinofilmlərlə əlaqələndirmək lazımdır;
5. Əxlaqi söhbətlər zamanı şagirdlərdə dərin və aydın emosiyaların yaradılmasına nail olmaq lazımdır: (5, səh.504)

L.S.Vıqotski bildirir ki, tərbiyə işini düzgün təşkil etmək üçün inkişafın sosial şəraitinin nəzərə alınması zəruridir. Bunun üçün tərbiyəçi, yəni müəllim birinci növbədə öz şagirdlərinin inkişafının sosial şəraitini aşkara çıxarmalı, tərbiyə işini ona uyğunlaşdırmalıdır.

Y.A.Komenski, K.A.Helvetsi tərbiyənin roluna böyük qiymət vermişlər. Komenskiyə görə, insan tərbiyə sayəsində insan olur. O, "hamıya hər şeyi öyrətməyin mümkünlüyünü" qeyd edirdi. Fransız materialisti Helvetsi də tərbiyənin rolunu şişirdirdi. O deyirdi ki, "tərbiyə hər şeyə qadirdir". Helvetsiyə etiraz edən D.Didro bildirirdi ki, "tərbiyə hər şeyə deyil, çox şeyə qadirdir". Fransız pedaqoqu və filosofu M.Lepeletye bildirir ki, təhsil və tərbiyə vasitəsi ilə yeni insanlar hazırlamaq və cəmiyyəti təzələmək olar. (2, səh.104)

Problem baxımından ədəbiyyatın araşdırılması zamanı görürük ki, şagirdlərin tarixi şəxsiyyətlər nümunəsində tərbiyə edilməsinə bir çox pedoqoqlar, metodistlər, eləcə də psixoloqlar bir-birindən dəyərli fikirlər söyləmiş və onun önəmini vurğulamışlar.

Şagirdləri tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyə etmək üçün ilk öncə onlarda tarixi şəxsiyyətlər haqqında təsəvvürlərin formalaşdırılması lazımdır. Tarixi şəxsiyyətlər haqqında təsəvvürlərin formalaşdırılması və şagirdlərin bu tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsi üçün fəal təlimin üsul və vasitələrindən istifadə olunmalı, eləcə də dərs prosesində əyani və texniki vasitələrdən, tarixi belatristikalardan, bədii ədəbiyyatlardan, müəllimin şifahi şərhindən, eləcə də sinifdənxaric işlərdən istifadə etmək mümkündür.

Şagirdlərin tarixi şəxsiyyətlər nümunəsində tərbiyə edilməsi prosesinə bir dərs misalında diqqət yetirək. Bu dərs nümunəsi V sinifdə tədris edilən "Qırx il kölə kimi yaşamaqdansa" mövzusu olsun:

Dərsin təlim məqsədində müəllim şagirdlərə Babək haqqında, onun vətəninin azadlığı uğrunda gördüyü işlər barədə məlumatlar verir. Bu zaman təd-

ris prosesində əyani və texniki vasitələrdən istifadə etmək olar. Məsələn, müəllim Babək haqqında çəkilən filmdən fraqment göstərə və Ənvər Məmmədxanlının "Babək" kitabından öz şərhinə əlavələr edə bilər. Bütün bunlar şagirdlərdə tarixi şəxsiyyət Babək haqqında dolğun təsəvvürlərin formalaşmasına gətirib çıxaracaqdır.

Dərsin tərbiyəvi məqsədində müəllim Babəkin vətənini, millətini sevən, azadlığa düşgün, mərd, cəsur, ölkəsinin və xalqının azadlığı uğrunda mübarizə aparmaqdan çəkinməyən və bacarıqlarını əsirgəməyən tarixi şəxsiyyət kimi dəyərləndirir və onun nümunəsində şagirdləri tərbiyə edir.

Dərsin inkişafetdirici məqsədində müəllim şagirdlərə Babək haqqında mənbələrə əsaslanmaqla təqdimat hazırlamaq bacarıqlarını aşılayır. (3, səh.44)

Müəllim mövzu ilə bağlı şagirdlərdə motivasiya yaratmaq üçün müəyyən suallardan istifadə edir:

1. Xürrəmilər nəyə qarşı mübarizə aparırdı? Şagirdlər sualla bağlı öz fikirlərini söyləyir, həm də onlarda Babəkin mübarizəsi haqqında təsəvvür formalaşır.

2. Babəkin tarixi şəxsiyyət kimi tarixdə gördüyü işlər və fəaliyyəti nədən ibarətdir? Bu sual şagirdlərdə Babək haqqında ümumi təsəvvür formalaşdırır, onların təsəvvürünü və təfəkkürünü inkişaf etdirir.

Dərsin tədqiqatı fərdi, cüt və qruplarla həyata keçirilə bilər. Bu müəllimin istəyindən asılıdır. Daha sonra müəllim Auksion üsulundan istifadə etməklə öyrənilən tarixi şəxsiyyət haqqında biliklərin daha dərin qavranmasına nail ola bilər. Şagirdlər Babək haqqında müxtəlif fikirlər, məlumatlar irəli sürür, verilən hər məlumatdan sonra müəllim sayır: "bir, iki". Sonuncu təklif verən qrup (cüt və fərd) auksionun qalibi hesab edilir. (4, səh.25)

Tədqiqat prosesi zamanı əldə edilən yeni faktlar və məlumatlar qarşılıqlı şəkildə dinlənilir və mübadilə edilir.

Müəllim tarixi şəxsiyyət Babək haqqında məlumat verdikdən sonra, şagirdlərin onun nümunəsində tərbiyə edilməsi üçün şagirdlərə tapşırıqlar verir və onlardan müstəqil iş yazmasını təklif edir:

1. Babəki xalqının və vətəninin xilaskarı kimi dəyərləndirin.
2. Babək haqqında suallar tərtib edin və həmin sualları cavablandırın.
3. Babəki bir sərkərdə kimi dəyərləndirin. Və s.

Verilən dərs nümunəsindən də göründüyü kimi, müəllim şagirdləri tarixi şəxsiyyətlər nümunəsində tərbiyə etmək üçün ilk öncə onlarda tarixi şəxsiyyətlər haqqında təsəvvürlər yaratmalıdır. Tədris prosesində müxtəlif üsullardan, əyani və texniki vasitələrdən, bədii ədəbiyyatlardan istifadə etməklə öz nitqini genişləndirə və şagirdlərin tarixi şəxsiyyətlərin nümunəsində tərbiyəsinə rahat şəkildə nail ola bilər.

Son olaraq ümumi şəkildə demək olar ki, tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində şagirdlərin tərbiyə edilməsi məsələsi mühüm xarakter daşıyır.

Ümumtəhsil məktəblərində bu məsələyə xüsusi ilə diqqət yetirmək, onları tarixi şəxsiyyətlərin timsalında tərbiyə edərək gələcək həyatlarına vətənə, xalqa, millətə layiq vətəndaş kimi böyüdüb ərsəyə gətirmək hər bir tarix müəlliminin borcudur.

**Ədəbiyyat:**

4. *Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün V-XI siniflər üçün Azərbaycan tarixi fənni kurikulumu proqramı. Bakı, 2013.*
5. *F.N.İbrahimov, R.L.Hüseynzadə. Pedaqogika. Bakı, 2012.*
6. *Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün "Azərbaycan tarixi" fənni üzrə dərslik. Bakı: Təhsil, 2016.*
7. *Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün "Azərbaycan tarixi" fənni üzrə müəllimlər üçün metodik vəsait. Bakı: Təhsil, 2016.*
8. *S.İ.Seyidov, M.Ə.Həmzəyev. Psixologiya. Bakı, 2007.*
9. *D.M.Çağlayan. İlköğretim II kademe sosyal bilgiler ders kitaplarında tarihi şahsiyyetlere yaklaşım tarzı, Konya: Danışman, 2011.*

**İ.Z.Orucova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ceferov.shakir@yandex.ru***

# BƏDİİ ƏSƏRLƏRİN MƏKTƏBDƏ TƏHLİLİ

***Xülasə***

*Məktəbdə ədəbiyyat fənninin tədrisi prosesində bədii əsərlərin öyrədilməsi diqqət mərkəzində saxlanılır. "Bədii əsərlərin öyrədilməsi" geniş anlayış olub, bir neçə mərhələni özünə daxil edir. Bu mərhələlər metodik ədəbiyyatda fərqli şəkildə adlandırılır. Daha geniş yayılmış mərhələlər aşağıdakılardır:*

- *əsərin oxusu;*
- *əsərin məzmunu üzrə iş;*
- *əsərin təhlili.*

*Sonuncu – əsərin təhlili mərhələsi məzmununa və quruluşuna görə daha mürəkkəb olub, həm müəllimdən, həm də şagirddən böyük zəhmət və gərgin fikri fəallıq tələb edir. Şagirdlərdə təhlil bacarığının formalaşdırılması ardıcıl, sistemli işin aparılması sayəsində mümkün olur. Məqalədə bədii əsərlərin təhlili prosesində istifadə edilməsi məqsədəuyğun sayılan tapşırıqların mahiyyəti, əhəmiyyəti və tətbiqi yolları şərh edilmişdir.*

# АНАЛИЗ ХУДОЖЕСТВЕННЫХ ПРОИЗВЕДЕНИЙ В ШКОЛЕ

***Резюме***

*В процессе преподавания предмета литературы в школе в центре внимания находится преподавание художественных произведений. Существует понятие «обучение художественным произведениям», которое охватывает несколько этапов. В методической литературе эти результаты называются по-разному. Подробнее о том, что произошло:*

- *чтение произведения;*
- *работа над кейсом;*
- *анализ произведения.*

*Анализ последней работы более сложен по процессу и структуре и требует больших усилий и напряженной интеллектуальной деятельности как со стороны учителя, так и со стороны урока. Можно формировать у студентов анализы, проводить систематическую работу.*

# ANALYSIS OF WORKS OF ART AT SCHOOL

***Summary***

*In the process of teaching the subject of literature at school, the teaching of works of art is kept in the center of attention. There is a concept of "teaching works of*

*art", which covers several stages. These conclusions are called differently in the methodological literature. What happened in more detail:*

- *reading of the work;*
- *research of the contentol work;*
- *Analysis of the work.*

*The latter is more complex in terms of the process and structure of the analysis of the work and requires great effort and intense intellectual activity from both the teacher and the lesson. It is possible to form analysis in students, to carry out systematic work.*

***Açar sözlər**: bədii əsər, əsərin öyrədilməsi, oxu, məzmun, təhlil, müstəqillik, fəallıq, təfəkkür, təfəkkürün növləri*

***Ключевые слова:** художественное произведение, обучение работе, чтение, анализ, самостоятельность, активность, мышление, ускорение мышления*

***Key words:** artwork, teaching the work, reading, analysis, independence, activity, thinking, accelerating thinking*

Məktəb ədəbiyyat kursunun əsasında bədii əsərlərin öyrədilməsi dayanır. Söz sənəti nümunələrinin öyrədilməsi isə asan deyildir, qarşılıqlı əlaqədə olan mərhələlərin təşkili sayəsində gerçəkləşdirilən mürəkkəb prosesdir. Bu mərhələlər, əsasən, aşağıdakılardır:

– əsərin oxusu; əsərin məzmunu üzrə iş; əsərin təhlili.

Sonuncu – əsərin təhlili mərhələsi məzmununa və quruluşuna görə daha mürəkkəb olub, həm müəllimdən, həm də şagirddən böyük zəhmət və gərgin əqli fəallıq tələb edir. Şagirdlərdə təhlil bacarığının formalaşdırılması ardıcıl, sistemli işin aparılması sayəsində mümkün olur. Ədəbiyyatın bir fənn kimi tədris olunduğu V sinifdən başlayaraq sonuncu – XI sinif də daxil olmaqla bütün siniflərdə bədii əsərlərin təhlili ardıcıl, sistemli şəkildə həyata keçirilir. Bu, təbiidir, bunu hazırkı təhsil proqramı və çoxillik təcrübə diqtə edir. Bu da təbiidir ki, bədii əsərlərin V-VII, VIII-IX və X-XI siniflərdə təhlili müəyyən özəllikləri ilə fərqlənir. Hər mərhələnin özünəməxsusluğu var. Bu özünəməxsusluğu şərtləndirən bir neçə cəhəti yada salaq: şagirdlərin yaş və bilik səviyyəsi; qüvvədə olan təhsil proqramı; uzun illər ərzində toplanmış zəngin təcrübə... Lakin bədii əsərin təhlilinin elə ümumi qayda və prinsipləri var ki, bu, bütövlükdə məktəb ədəbiyyat kursunu əhatə edir. Bu ilk növbədə ədəbi əsərin təhlilinin əhəmiyyəti ilə bağlı olan məsələdir. Doğrudan da, sual yaranır: Bədii əsərin öyrədilməsi mərhələlərindən biri olan təhlilə bu qədər önəm verilməsinə səbəb nədir? Bu mərhələnin əhəmiyyəti, üstünlükləri nədən ibarətdir?

Təhlilin əhəmiyyətini aşağıdakı istiqamətlərdən çıxış edərək işıqlandırmaq doğru olardı:

– bədii əsərin təhlilinin təlimi əhəmiyyəti; təhlilin tərbiyəvi əhəmiyyəti; təhlilin inkişafetdirici əhəmiyyəti.

Elmi-metodik ədəbiyyatda bədii əsərlərin təhlilinin təlimi əhəmiyyətinə önəm verilməsinə təbii baxmaq lazımdır. Doğrudan da, təhlildə ilk növbədə öyrətmə və öyrənmə ilə bağlı məsələlər diqqət mərkəzinə çəkilir. Lakin bu, qazanılmış biliklərin tətbiqi, bacarıqlara çevrilməsi istiqamətində fəaliyyəti kölgədə qoymur. Təhlil prosesində bədii əsərin hər hansı komponenti üzrə araşdırma aparan – mənbələri öyrənən, material seçən, onları müqayisə edən, əldə olunanlardan istifadə etməklə tapşırıqları yerinə yetirən şagird obyekti – əsərin komponentini dərindən dərk edir. Deməli, bu məqamda təhlil əsərin dərindən öyrənilməsi vasitəsi kimi dəyərləndirilməlidir. Nümunələrə nəzər salaq. Doqquzuncu sinfin dərsliyində şagirdlərə İ.Hüseynovun "Zəhər" hekayəsinin təhlili ilə bağlı tapşırıq təklif edilmişdir:

1. "Əsərdə bir neçə problem qaldırılmışdır" fikrini doğru sayırsınızsa, onlardan hansının daha mühüm olduğunu əsaslandırın. 2. Əsərdə konflikt nə üzərində qurulmuşdur? O, gerçəkliyə nə dərəcədə uyğundur?" **[2, s 96-97].**

Şagirdlər bu suallarla bağlı tədqiqat apararkən dərsliklə kifayətlənmir, müxtəlif mənbələrə, o cümlədən internet resurslarına müraciət edirlər. Mənbələrdən əldə olunmuş məlumatların müzakirəsi, müqayisə edilməsi şagirdlərin əsaslandırılmış nəticə çıxarmalarına şərait yaradır. Təhlilin bu istiqamətdə aparılması, göründüyü kimi, obyektin (nümunədə "Zəhər" hekayəsinin) dərindən qavranılmasına, şagirdlərdə ona aydın münasibətin formalaşmasına səbəb olur. Ədəbiyyat dərsliklərində bədii əsərlərin təhlili ilə bağlı təklif edilmiş sual-tapşırıqların əksəriyyəti mətni ətraflı araşdırmaq, əlavə mənbələrə müraciət etmək, dəyərləndirmək istiqamətində qurulmuşdur. Səkkizinci sinfin dərsliyindən bir nümunəyə baxaq. S.Ə.Şirvaninin "Qafqaz müsəlmanlarına xitab" şeirinin təhlili üzrə təklif edilmiş sual və tapşırıqlar aşağıdakı məzmundadır.

1. "Əsərin mövzusunu və onda qaldırılmış başlıca problemi müəyyənləşdirin. 2. Sizcə, əsər nə üçün məktub – müzakirə şəklində yazılmışdır? 3. Mədəni geriliyin, tərəqqi inkişaf yolunda ləngimənin səbəbləri barədə əsərdə deyilənlərə necə münasibət bəsləyirsiniz? Fikrinizi əsaslandırın. 4. Dini təhsil alan və dindar mühitdə yaşayan şairin bu məzmunda əsər yazmasının səbəbini necə izah edərsiniz? 5. Nöqsanların aradan qaldırılması üçün şairin vacib saydıqlarına münasibət bildirin. Fikrinizi əsaslandırın. 6. Əsərdəki başlıca fikri – ideyanı aydınlaşdırın. Fikrinizi əsərdən nümunələr gətirməklə əsaslandırın" **[5, s. 88].**

Tapşırıqdakı bütün tələblər əsəri müxtəlif baxımdan araşdırmaq, təhlil etmək məqsədinə xidmət edir. Düşündürücü, tədqiqata yönəldici sual və tapşırıqlar şagirdləri həm bədii mətnə, həm dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə, həm də əlavə mənbələrə müraciət etməyə istiqamətləndirir. Beləliklə, aydınlaşır ki, bədii əsərin təhlilində başlıca vəzifə əsərin dərindən öyrənilməsi, qazanılmış biliklərin bacarıqlara çevrilməsi istiqamətində işin aparılmasıdır.

Artıq qeyd edildiyi kimi, təhlilin əhəmiyyəti bununla məhdudlaşmır. Bu prosesin tərbiyəvi əhəmiyyətindən ayrıca danışmaq vacibdir. Bədii ədəbiyyatı

“insanşünaslıq” adlandıranlar yanılmırlar. Söz sənətinin daha çox diqqət yetirdiyi insan, onun taleyi, həyatıdır. Əsərdə əhatə olunan bütün digər məsələlər məhz insanla bağlı olur. Təhlil prosesində insan obrazına xüsusi diqqət yetirilməsinin əsas səbəbi də elə budur. Şagirdlər müxtəlif xarakterli, fərqli davranış, əməl sahibi olan surətlərlə tanış olurlar. Təhlil prosesində bütün bu cəhətlərin aydınlaşdırılmasına, yəni surətlərin ətraflı səciyyələndirilməsinə geniş yer verilir. Həmin prosesdə diqqət yetirilməli olan başlıca məsələlərdən biri də ədəbi qəhrəmanlara şagirdlərin münasibətinin müəyyənləşdirilməsinə çalışmaqdır. Münasibət dəyərləndirmə ilə bağlıdır. Buna nail olan şagird özünə, öz həyat fəaliyyətinə gərəkli olan nəticə çıxara bilər. Tədqiqatlar təsdiq edir ki, şagirdlər müxtəlif yaş səviyyələrində bədii əsərə fərqli münasibət bəsləyirlər. Məsələn, 11-12 yaşlarında olan məktəblilər bədii əsərdə təsvir olunanlara gerçək hadisələr kimi baxır və qiymət verirlər. Bu cür sadəlövh yanaşma həmin yaş dövrü üçün təbiidir və bundan narahat olmağa dəyməz. Əksinə, bu cür yanaşmadan istifadə edən müəllim şagirdlərində mütaliəyə maraq tərbiyə edə bilər. Həmin yaş dövründə bədii əsərin tərbiyəvi təsiri daha güclü olur. Ədəbi qəhrəmanın humanist, xeyirxah, vətənpərvər əməlləri şagirdləri məmnun edir.

On üç-on dörd yaşlarında olan şagirdlərə bədii əsərin tərbiyəvi təsiri çox güclü olur. Bu yaş dövründə məktəblilərdə ədəbi qəhrəmanları təqlid etmək meyli qüvvətlənir. Onlar əməl və davranışlarını bəyənmədikləri obrazlara mənfi münasibətlərini qabarıq ifadə edirlər. Qəhrəmanlıq, igidlik göstərmiş ədəbi qəhrəmanlara heyranlıqlarını açıq şəkildə bildirir, uzun müddət onların əməllərinin təsiri altında olurlar. Bütün bunlar təhlil prosesində diqqət mərkəzində saxlanmalı, şagirdlərdə yaranmış müsbət hisslərin dərinləşməsinə, davamlı olmasına səy göstərilməlidir. Bunun üçün ardıcıl olaraq yaradıcı xarakterli müstəqil işlərin, xüsusən inşa və essenin tətbiqi faydalıdır. Bədii əsərlərin təhlilində tərbiyəvi istiqamətin reallaşdırılması üçün imkan çox genişdir. Mənəvi dəyərlərimizin öyrənilməsi və yaşadılması, vətənə məhəbbət tərbiyəsi, təbiəti sevmək və ona qayğı və s. ədəbiyyat dərsliklərində diqqət mərkəzində saxlanılan məsələlərdir. Təsadüfi deyildir ki, V və VII siniflərin dərsliklərinə daxil edilmiş əsərlər məhz bu mövzular əsas götürülməklə seçilmişdir. Bu, təhlil prosesində bədii əsərlərin tərbiyəvi imkanlarının gerçəkləşdirilməsinə əlverişli imkan yaradır. Məsələn, VII sinfin dərsliyindəki ümumi mövzular aşağıdakı şəkildə müəyyənləşdirilmişdir.

“1. Şifahi xalq ədəbiyyatından seçmələr. 2. Vətən sevgisi, qəhrəmanlıq səhifələri. 3. Mənəvi dəyərlər, həmişəyaşar hikmətlər. 4. Uşaq aləmi, uşaq taleyi. 5. Təbiətə vurğunluq, təbiətə qayğı” **[3. s. 5].**

Əslində, bütün bölmələrə daxil edilmiş əsərlərdə müxtəlif istiqamətlərdə tərbiyəvi işlərin aparılmasına imkan verir. İkinci, üçüncü və dördüncü bölmələr isə bu istiqamətdə birbaşa iş aparılması baxımından diqqəti cəlb edir. Həmin bölmələrə daxil edilmiş əsərlərin təhlili ilə bağlı sual və tapşırıqlarda şagirdlə-

rin məsələyə daha əhatəli yanaşmaları ön plana çəkilmişdir. Məsələn, S. Vurğunun "Azərbaycan" şeirinin təhlili ilə bağlı suallardan biri vətən mövzusunda yazılmış digər əsərlərə müraciət olunmasına imkan yaradır. Sual belədir: " Şeir doğma yurdumuza həsr olunmuş digər əsərlərdən hansı cəhətlərinə görə fərqlənir? " **[3. s. 50].**

Dərsliklərdəki suallardan bir qismi isə əsərin ideya-məzmunundan çıxış etməklə şagirdlərdə vətənə məhəbbət hissinin gücləndirilməsi məqsədini güdür. Məsələn, M.Hüseynin "Odlu qılınc" hekayəsinin təhlili ilə bağlı sualda deyilir: "Girdman cəngavərlərinə xas olan hansı xüsusiyyətlər güclü düşmən üzərində qələbə çalmağa imkan verir?" [3. s. 59]. Bu tipli suallar bir deyil, bir neçə obrazın davranış və əməllərini təhlil etməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı bir vəzifə kimi qarşıya qoyur. Bunun əhəmiyyəti isə böyükdür. Göstərilən bölməyə daxil olan əsərlərdəki obrazların təhlilində müxtəlif metodların, iş növlərinin tətbiqi ilə tərbiyəvi istiqamətdə işlərin təşkili mümkündür. Yeddinci sinif şagirdləri M.İbrahimovun "Azad" hekayəsinin oxusunda və təhlilndə həvəslə iştirak edirlər. Bundan istifadə edərək Azad və Fərda obrazlarının vətən sevgisinin böyüklüyü, vətənin onlar üçün müqəddəs olması barədə təsəvvür yaratmaq və şagirdlərin doğma yurda məhəbbətlərinin güclənməsinə nail olmaq mümkündür. Bunun bir variantı təhlil dərsində şagirdlərə müvafiq sual və tapşırıqlara şifahi cavab vermələrini təklif etmək ola bilər. Bu baxımdan eksperimentin gedişində təşkil edilmiş işdən bir nümunəyə nəzər salaq. Şagirdlər aşağıdakı sual və tapşırıqla tanış oldular, fərdi olaraq suallara cavab verdilər. Bu prosesdə müəllim onların cavablarını istiqamətləndirici suallarla nəzərdə tutulmuş məqsədə yönləndirdi: 1. Fərdanın narazılığına səbəb nə idi? 2. Onu aşağıdakı sözləri deməyə məcbur edən səbəb nədir: " – Azad, – dedim, – dərd ürəyimi dağıdır. Ağlamaq istəyirəm. Gözlərimdən yaş gəlmir. Bu nə güzəran, bu nə dirilikdir? Azad! İşləməyə yer yox, danişgahda oxumağa imkan yox, oğurluqmu edim, qardaş?" **[3, s. 61**]. 3. Azadın "Mən düşünürdüm ki, həyatımızın mənası vətənimizin səadəti üçün çalışmaqdadır" sözlərini **[3, s. 64]** necə başa düşdüyünüzü izah edin. Şagirdlər çətinlik çəkmədən Fərdanın narazılığının səbəbini izah edirlər. Onların fikrincə, vətənini dərin məhəbbətlə sevən Fərda üçün doğma vətənində yaşamaq çox çətindir. İşləməyə yer tapmayan, təhsilini davam etdirə bilməyən Fərda çıxış yolu görmür. Canından əziz bildiyi doğma yurdunda elə bir vəziyyət yaradılıb ki, onun kimi minlərlə gənc nə edəcəklərini bilmirlər. Onu düşündürən, narahat edən suallara Azad uzun illər sonra cavab verir. Bu cavabdan məlum olur ki, vətən səadətə qovuşdurulmalıdır. Bunu Fərda, Azad kimi gənclər etməlidirlər. Yəni vətəni dərin məhəbbətlə sevən gənclər vətənin azadlığı, səadəti üçün canlarından keçməlidirlər. Başqa bir variant bu məzmunda hazırlanmış sual və tapşırıqlara yazılı cavabların hazırlanmasıdır. M.Hüseynin "Odlu qılınc" hekayəsinin təhlilinə həsr olunmuş dərsdə şagirdlərə aşağıdakı tapşırığa yazılı cavab hazırlamaq təklif olundu: 1. Hökmdar Varazın

həyəcanına səbəb nə idi? 2. Onun həyəcanlanmasına güclü əsas var idimi? 3. Cavanşirin qətiyyətli olmasının səbəbini necə izah edərsiniz.

Yazılı cavabların təhlilindən aydın oldu ki, şagirdlərin əksəriyyəti əsərdə vətənə sonsuz məhəbbətin ifadə olunduğunu başa düşmüş və izah etməyə çalışmışlar. Cavablarda qeyd olunur ki, yaşlı, dünyagörmüş Varazın həyəcanlanmasına ciddi səbəb var. Çox güclü düşmən vətənə hücum etmişdir. Təhlükənin böyük olduğunu təcrübəli hökmdar dərhal başa düşür. Vətənin toxunulmazlığı bu böyük hökmdar üçün hər şey deməkdir. Cavanşir cəsarətli, qorxmaz bir şahzadədir. Vətənə dərin məhəbbəti onu qətiyyətli edir. Vətənin təhlükəsizliyini təmin etməyi özünün əsas vəzifəsi hesab edən Cavanşir tərəddüd etmədən ölümün üstünə gedir. Bədii əsərlərin təhlilində əməyə, təbiətə məhəbbət tərbiyə etmək baxımından kifayət qədər təlim materialı vardır. V sinifdə S.Rəhimovun "Qara torpaq və sarı qızıl" hekayəsinin təhlilində əməyə, zəhmətə məhəbbət hissinin artırılması məqsədilə aşağıdakı məzmunda sual-tapşırıqlardan istifadə məqsədəuyğundur. 1. Əsərin mövzusunun əməklə bağlı olduğunu necə izah edərsiniz? 2. Qardaşların boş-bekar gəzmələri sizi düşündürdümü? Bu sizə necə təsir edir? 3. Qardaşların tənbəlliyinin səbəbini nədə görürsünüz? 4. Onların əməyə, zəhmətə üz çevirmələri sizdə hansı hiss, düşüncə yaratdı?

Deyilənlərdən aydınlaşır ki, istənilən mövzuda yazılmış bədii əsərin təhlilində tərbiyəvi məzmunda işin təşkili mümkün və faydalıdır. Bədii əsərlərin təhlilinin bir əhəmiyyəti də şagirdlərin idraki inkişafına geniş imkan yaratmasıdır. Bunun uğurla həyata keçirilməsi həm dərslikdən, həm də müəllimin pedaqoji fəaliyyətindən çox asılıdır.

## Ədəbiyyat:

1. *Həsənov B. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2016.*
2. *Həsənov B., Mustafayeva A., Əliyev S., Verdiyeva N. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı:Bakı, 2020.*
3. *Hüseynoğlu S. Ədəbiyyatın məktəbdə öyrədilməsi. Bakı, 2019.*
4. *Hüseynoğlu S., Həsənli B., Mustafayeva A., Məmmədova S. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı: Bakı, 2014.*
5. *Hüseynoğlu S., Həsənli B., Mustafayeva A., Məmmədova S., Verdiyeva N. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı: Bakı, 2019.*
6. *Veysova Z.A. Ümumi orta təhsil səviyyəsi üzrə yeni fənn kurikulumlarının tətbiqi. Ana dili və ədəbiyyat, Azərbaycan dili fənni üzrə təlimçilər üçün vəsait. "İnkişaf" elm mərkəzi. Bakı, 2014.*

**A.Z.Fətullayev**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aykanf9@gmail.com***

# ALİ MƏKTƏBLƏRDƏ QAFQAZ XALQLARI TARİXİ KURSU ÜZRƏ SEMİNAR MƏŞĞƏLƏLƏRİNDƏ BEYİN HƏMLƏSİ METODUNDAN İSTİFADƏ

***Xülasə***

*Məqalədə problemin aktuallığı əsaslandırılıb. Ali məktəblərdə Qafqaz xalqları tarixi kursunun tədrisində beyin həmləsi üsulundan istifadənin tədqiqi məsələləri şərh edilib. Beyin həmləsi üsulu texnikaları və onların təlim prosesinə daxil edilməsinin nümunələri verilmişdir. Beyin həmləsi üsuluna Qafqaz xalqları tarixi kursu seminar məşğələlərinin səmərəli təşkilinə aydınlıq gətirilib.*

# ИСПОЛЬЗОВАНИЕ МЕТОДА МОЗГОВОЙ АТАКИ НА ЗАНЯТИЯХ-СЕМИНАРАХ ПО КУРСУ ИСТОРИИ НАРОДОВ КАВКАЗА В ВУЗАХ

***Резюме***

*В статье обоснована актуальность проблемы. Прокомментировано исследование использования метода мозгового штурма при преподавании курса истории народов Кавказа в вузах. Приведены методики мозгового штурма и примеры их включения в учебный процесс. Уточнены методика мозгового штурма и эффективная организация семинаров по истории народов Кавказа.*

# USE OF BRAIN ATTACK METHOD IN SEMINAR CLASSES ON THE HISTORY OF CAUCASIAN PEOPLES IN HIGHER EDUCATION INSTITUTIONS

***Summary***

*The article substantiates the urgency of the problem. The study of the use of the method of brainstorming in the teaching of the course of the history of the Caucasian peoples in universities was commented. Brainstorming techniques and examples of their inclusion in the learning process are given. The method of brainstorming and the effective organization of seminars on the history of the peoples of the Caucasus have been clarified.*

***Açar sözlər:*** *seminar məşğələsi, beyin həmləsi, anlayışın çıxarılması, təlimin keyfiyyəti, şüurlu mənimsəmə.*

***Ключевые слова:*** *семинар, мозговой штурм, извлечение понимание, сознательное познание, сознательный присвоение.*

***Keywords:*** *workshop session, brain storming, extraction of the understanding, quality of training, conscious cognition.*

Ali məktəblərdə Qafqaz xalqları tarixi kursu üzrə seminar məşğələlərində beyin həmləsi metodundan istifadə tələbələrdə analitik təhliletmə qabiliyyətinin, eləcə də təlimdə şüurlu mənimsəmənin yüksəlməsinə motiv yaradır. Araşdırmalardan aydın olur ki, bu problem ilə bağlı Azərbaycanda müəyyən tətqiqatlar aparılmışdır. Həmin tətqiqatlardan professor M.Əmirov (1, s.409), professor A.Abbasov (2, s.42), professor İ.Cəbrayılov (3, s.98) və b. göstərmək olar. M.Əmirov interaktiv təlim metodlarının ümumi təsnifatını vermişdir. A.Abbasov interaktiv təlim məsələlərinə ümumpedaqoji aspektdə baxmış, İ. Cəbrayılov isə bu problemə Azərbaycan tarixinin tədrisi təcrübəsi baxımından yanaşmışdır. Sadalanan faktlardan belə nəticə çıxarmaq olar ki, Qafqaz xalqları tarixi kursu üzrə seminar məşğələlərində beyin həmləsi metodundan istifadə edərək həmin problemin həllinə sistemli yanaşılmamışdır.

Tədqiq etdiyimiz problem xarici ölkə alimlərinin də diqqətini cəlb etmişdir. Bunlardan M.T.Studenikin (4, s.75), A.B.Draxler (5, s.81), H.H.Lazukova (6, s.75) və b. adlarını sadaladığımız həmin alimlər interaktiv təlimin ümumi məsələlərinə toxunmuşlar. Qafqaz xalqları tarixi kursunun tədrisi üzrə seminar məşğələlərində beyin həmləsi metodundan, eləcə də onun texnikalarından istifadə məsələləri tədqiqat obyekti kimi seçilməmişdir.

Beləliklə ali məktəblərdə Qafqaz xalqları tarixi kursu üzrə seminar məşğələlərində beyin həmləsi metodundan səmərəli istifadə etməklə təlimin keyfiyyətinin yüksəldilməsi üçün aşağıdakı amillərə xüsusi diqqət yetirdik:

1) Problemlə bağlı mövcud pedoqoji ədəbiyyatı analitik təhlil etdik;

2) Ali məktəblərə Qafqaz xalqları tarixi kursu üzrə seminar məşğələlərində beyin həmləsi metodundan istifadəyə dair qabaqcıl müəllimlərin, dosentlərin və professorların təcrübələrini müşahidə etdik və ümumiləşdirdik.

Araşdırmalardan aydın olur ki, interaktiv təlim metodları arasında özünün didaktik dəyərinə görə xüsusi əhəmiyyəti olan beyin həmləsində daha çox istifadə olunur. Beyin həmləsi (ingiliscə brain storming) elmə ilk dəfə 1953-cü ildə amerikalı alim, psixoloq və iş adamı A.Osborn tərəfindən gətirilmişdir. Qrup formasında aparılan diskussiyanın bu növü təlim prosesində yeni orjinal ideyaların yaranması, toplanması, cəmlənməsi ilə müşayiət olunan təlim metodudur.

Beyin həmləsindən böyük və ya kiçik qruplarla işdə istifadə edilir. Fikirlərin, ağıla gələr gəlməz ortaya qoyulması tələb olunur. Burada fikirlər deyilərkən mühakimə olunmaz və tənqid edilməz, heç bir fikir mənfi dəyərləndirilməz, beləcə şəxslərin bütün fikirlərini çəkinmədən, ağlına gəldiyi kimi ortaya qoyması təşkil edilməyə çalışılır. Mühakimə və tənqid olmadığı üçün fikirlərin bir-birindən əlaqəli şəkildə yaranacağı və inkişaf edəcəyi güman edilir və həmçinin o mövzuya həll gətirmək, qərar vermək, fikir yaratmaq üçün istifadə edilən yaradıcı bir üsuldur.

İşləndiyi sahələr:

- Yeni istehsal olunan məhsullar üçün və ya var olan məhsulun inkişaf etdirilməsi üçün: zavod, fabrik və s.
- Reklamçılıq: məhsul kampaniyası, satışı artırmaq üçün yollar və s.
- Problem həlli üçün: həllər, alternativ çıxış yolu, analiz və sintez.
- Layihə idarəsi: Müştəri istəklərinin müəyyən edilməsi, risklərin tapılması, problem mənbələrinin tapılması, vəzifələrin, məsuliyyətlərin, problemlərin müəyyən edilməsi.
- Kollektiv yaratma: iştirakçıları düşünməyə təşviq edərək fikirlərin paylaşılması və müzakirəsi.

Hazırda ən çox istifadə olunduğu sahələrdən biri də təhsil sahəsidir ki, burada beyin həmləsinin mahiyyəti stereotiplərin dağıdılması, tamamilə yeni ideya və yanaşmaların yaradılmasıdır. Beyin həmləsinin tətbiqi 2-3 mərhələdən ibarət olur:

- İdeyanın təklif olunması - İstənilən fikir və ideyalar deyilməlidir. (Bu hətta fantastik də ola bilər). Fikirlərə qarşı tənqid qadağandır;
- Təklif olunan ideyaların müzakirə olunması;
- Ən yaxşı və uyğun ideyaların seçilməsi.

Düşünülənin əksinə beyin həmləsi absurd fikirlər üzərində qurulmuşdur. Zəka altındakı saf fikirlərin düzəldilmədən, üzərində işlənilmədən ortaya atılması və beləcə problemlərə çarə tapılması nəzərdə tutulmuşdur. Düşüncələr ağıla gələr-gəlməz söylənər. Mühakimə və ya tənqid edilməz.

**Tətbiq etmə qaydası:**

- "Əqli hücum"un hansı problem üzrə aparılacağını qərarlaşdırın. Onu müxtəlif cavabları ola biləcək sual şəklində formalaşdırın.
- Tələbələrdən öz ideyalarını bildirməyi xahiş edin.
- Bütün ideyaları elə yazın ki, hamı görə bilsin. Bunlar ayrı-ayrı sözlərdən, yaxud qısa ifadələrdən ibarət ola bilər.
- Tələbələrə izah edin ki, onlar bir-birinin ideyalarını şərh edə, ya da artıq səslənmiş ideyaları təkrarlaya bilməzlər.
- Tələbələri fəallığa həvəsləndirin, lakin onları ideyalarını bildirməyə məcbur etməyin.
- İdeyaları yazarkən onları qiymətləndirməkdən çəkinin.
- Öz ideyalarınızı yalnız sinifin fəallığını yüksəltmək zərurəti meydana çıxdıqda bildirin.
- Əgər hər hansı cümlə aydın deyilsə, müəllifindən onu izah etməyi xahiş edin, ya da öz izahınızı verin və şagirdlərin onunla razı olub-olmadığını yoxlayın.
- Hər yeni təklifi yazın. Çox vaxt bunların ən qeyri-adi, gözlənilməzi ən faydalı və maraqlı olur.

➢ İdeyalar tükənəndə "əqli hücum"u dayandırın, bütün təklifləri nəzərdən keçirin və tələbələrdən xahiş edin ki, onların şərhini versinlər.

➢ Bütün ideyaları şərh etdikdən sonra müəllim şagirdlərin iştirakı ilə bunları mühümlüyünə görə sıralayır ki, qoyulmuş sualın, yaxud problemin həllinə kömək edən ideyaları seçmək mümkün olsun.

**Məqalənin elmi yeniliyi.** Təlimin səmərəliliyi onun təşkil olunma formasının ən yeni texnologiya və metodlardan istifadənin düzgün seçilməsindən əhəmiyyətli dərəcədə asılıdır.

**Məqalənin nəticəsi.** yuxarıda göstərdiyimiz üsulun düzgün keçirilməsi, bu üsulun vəzifəsinə uyğun olaraq tələbələrdə idraki fəallığı artırır, müqayisəli təhlil və tətqiqat bacarığı formalaşdırır. Buna görə də məqalədə toxunduğumuz nüansların diqqətlə nəzərə alınması məqsədəmüvafiqdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə ali məktəblərdə Qafqaz xalqları tarixi kursunun tədrisində beyin həmləsi metodunun istifadəsi təlim işinə öz müsbət təsirini göstərəcək.

**Ədəbiyyat:**

1. *Əmirov M.M. Ümumtəhsil məktəblərində tarixin fəal interaktiv təlimi metodikası. Ali məktəblərin tarix fakultəsi tələbələri üçün dərs vəsaiti. Bakı, ADPU-nun mətbəəsi, səh. 668.*
2. *Abbasov A.N. Pedaqogika (müxtəsər konspekt və sxemlər), Bakı: Mütərcim, 2007, səh. 80.*
3. *Cəbrayılov İ.H. Azərbaycan tarixinin tədrisi metodikası. Bakı, 2006, səh. 235*
4. *Студеникин М.Т. Методика преподавание история в школе. Москва, 2002, стр.395*
5. *Драхлер А.Б. Преподавание история в школе. Москва, 2004, Н. 5 стр. 15-25.*
6. *Лазукова Н.Н. использование технологического подхода в обучении истории в школе, 2019 N10 стр. 35-40.*

**A.Ə.Kazımova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ayshekazimzade2021@gmail.com***

# ALİ TƏHSİL SİSTEMİNİN SOSİALLAŞDIRMA FUNKSİYALARI

***Xülasə***

*Dünyanın hər yerində, ictimai inkişafın bütün mərhələlərində cəmiyyətin irəliləməsinin təhsillə birbaşa əlaqəsi olub. Gənc nəsillərin təhsili, tədrisi, maarifləndirilməsi ən qədim dövrlərdən bəri cəmiyyətin aktual fəaliyyətlərindəndir. Düzdür, bütün cəmiyyətlərin resurs bazası eyni olmadığından təhsil qurumları və təhsil fəaliyyəti fərqlidir, amma ictimai həyatda hər kəs təhsilin önəmini qeyd-şərtsiz qəbul edir. Aydın məsələdir ki, həyata ilk addımlarını atan uşaq yazı, oxu, hesab kimi fəaliyyətlərdən xəbərsiz olurlar. Onlar yaşadıqları cəmiyyətdən asılı olaraq toplumun mədəni-əxlaq normalarına və mədəni nailiyyətlərə yiyələnirlər. Peşəkar müəllimlərin müəyyən səyləri ilə yanaşı, ailədəki təlim-tərbiyə, hazırki dövrün müasir kütləvi informasiya vasitələri və internetdən irəli gələn imkanlar sayəsində yetişən gənc nəsil yazıb-oxumağı, hesablamağı, təhlil etməyi, bununla bərabər ətraf mühit və onun etik davranış normalarını mənimsəyir. Bu mənimsəmə prosesi özü fərdlərdən asılı olaraq fərqli şəkildə özünü göstərir. Kimi bu biliklərə az, kimi isə dərindən yiyələnir və beləcə, təhsil prosesi özü ictimai çeşidləmə funksiyasını yerinə yetirir. Bu cəmiyyətin hər bir fərdinin özünün qavrama xüsusiyyətindən asılı olaraq insanların gələcək şəxsi həyatına təsir edir.*

# ФУНКЦИИ СОЦИАЛИЗАЦИИ СИСТЕМЫ ВЫСШЕГО ОБРАЗОВАНИЯ

***Резюме***

*Повсюду в мире, на всех этапах общественного развития общество было органически связано с образованием. Обучение и воспитание подрастающего поколения, Осведомленность - одно из старейших занятий. Может быть, некоторые общества невозможность мобилизовать достаточные ресурсы для образовательной деятельности и учебных заведений, но все безоговорочно признают центральную роль образования в общественной жизни. Важность образования зависит от многих факторов. Например, ясно, что дети они не умеют читать, писать и считать, когда делают первые шаги в жизни, они не осведомлены о моральных нормах и культурных достижениях сообщества, в котором они живут. Усилия профессиональных учителей и семейное воспитание, а также возможности, возникающие в современных СМИ и Интернете. Благодаря этому молодое поколение учится читать, писать, считать, свое окружение, моральные нормы всего за несколько лет. Некоторые способны усвоить эти навыки глубже, чем другие, и, таким образом, система образования*

*фактически, выполняя функцию социальной сортировки, он оказывает большое влияние на будущую экономическую судьбу людей.*

# SOCIALIZATION FUNCTIONS OF HIGHER EDUCATION SYSTEM

***Summary***

*Everywhere in the world, at every stage of social development society had an organic connection with education. Teaching and educating the younger generation, awareness is one of the oldest activities. Maybe some societiesinability to mobilize sufficient resources for educational activities and institutions,but everyone unconditionally accepts the central role of education in public life. The importance of education depends on many factors. For example, it is clear that children they do not know how to read, write and count when they take their first steps in life, they are unaware of the moral norms and cultural achievements of the community in which they live, they happen. The efforts of professional teachers and family education, as well as the opportunities arising from modern media and the Internet Thanks to this, the young generation learns to read, write, calculate, their environment, moral norms in just a few years. Some are able to grasp these skills more deeply than others, and thus the education system in fact, by performing the function of social sorting, it has a great influence on the future economic destiny of individuals.*

**Açar sözlər:** təhsilin əhəmiyyəti, ali təhsil, ali təsilin sosial əhəmiyyəti, ictimai inkişaf

**Ключевые слова:** важность образования, высшее образование, социальная значимость высшего образования, социальное развитие.

**Key words**: importance of education, higher education, social significance of higher education, social development

İndiki dövrdə təhsilin rolu və əhəmiyyəti barəsində müxtəlif yanaşmalar mövcuddur.

21-ci əsrin tarixi tərəqqisi haqqında mülahizələr irəli sürərkən deyə bilərik ki, müasir həyatın panoramında əsas dominantlıq təşkil edən dinamika müşahidə olunur: əvvəla, bunlardan birincisi informasiya texnologiyalarının həyatımıza diffuziyası, digər ikinci dinamika isə kapital diffuziyası ilə özünü göstərən iqtisadi qloballaşmadır. Hazırki informasiya dövründə yeni fakt və məlumatlar ani bir sürətlə həyatımıza daxil olur. Bir neçə il əvvəl öyrəndiyimiz neçə-neçə bilgilər öz əhəmiyyətini itirir. Hətta bu yaxınlara kimi doğruluğuna əmin olduğumuz nə qədər məlumatın əslində yanlış olması faktlarla sübut edilir. Elə bilgilər meydana gəlir ki, insanların dünyagörüşünə köklü şəkildə təsir edir. Günü-gündən yeni məlumatlara çıxış tapan insanların sayı artır. Beləcə, deyə bilərik ki, 21-ci əsrdə kimsə hansısa bir mövzuda hər şeyi bildiyinə əmin ola bilməz.

Təhsil insanın tərəqqisinin ən əsas üç komponentindən biridir və onun inkişafında mühüm əhəmiyyətə malikdir. İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyasında, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda təhsil hüququ insanların ən vacib hüquqları arasında yer alır. Təhsilin bütün mərhələləri insanın bacarıq və biliyini təkmilləşdirir. Onun səriştələr əldə etməsi imkanlarını genişləndirərək, insan kapitalını formalaşdırır. Bunlar isə öz növbəsində həyat keyfiyyətinə birbaşa təsir edir və iqtisadi dinamikaya təkan verir [1, səh. 132].

İnsan inkişafı anlamında təhsil prosesi fərdlərin sosial imkanlarına əhəmiyyətli dərəcədə təsir edir. Belə ki, təhsilin səviyyəsi cəmiyyətdə insanların həyat fəaliyyətinin bir çox istiqamətlərinə, məsələn, siyasi fəaliyyətə, mədəni aləmlərinə, sağlamlığa, insanların sosial bağlılıqlarına təsir edir. Təhsilli insanların iş məsələlərində də qarşılarında geniş imkanlar açılır.

Təhsil müəssisələrinin ən başlıca vəzifələrindən biri, ələlxüsus, universitet və institutların – digər bir funksiyası yeni biliklərin yaradılması, həm də sosial-mədəni həyatın bütün sahələrində inkişaf əldə etmək üçün tətbiq edilməsidir. Elm və texniki kəşflərin bu dərəcədə sürətlə artması və texnika, həmçinin, təhsil (səhiyyə) xidmətləri sahəsində yeni innovativ sistemlərin geniş istifadəsi onu göstərir ki, elmi biliklərin inkişafı həyatın hər sferasında əhəmiyyət kəsb edir. Ali təhsilin insanlar önündə açdığı qapılar sayəsində ixtira və innovasiyaların yaşamın bütün sahələrinə tətbiqini reallaşdırmışdır. Təhsil sosial sistemin ən vacib elementi olmaqla yanaşı, insan kapitalını inkişaf etdirir. Yüksək təhsilli insanlar öz biliklərini hər zaman paylaşmağa açıq olurlar. Beləcə, təhsil gənclərə sadəcə bilik və bacarıqları ötürmür, həm də təhsil sayəsində müxtəlif sosial qaydalar formalaşır. İnsan inkişafını səciyyələndirən bir sıra mühüm aspektlər formalaşır. İnsanlar arasında əməkdaşlıq, səlahiyyətlənmə, gələcək nəsillərin həyatını nəzərə alaraq by günün insanlarının tələbatlarının ödənməsi, hər bir insana qarşı ədalətlilik kimi müxtəlif aspektlər meydana çıxır. Bunların hər biri birbaşa təhsillə bağlıdır. Öz növbəsində sosial sistemin davamlı inkişafı məsələləri də təhsillə əlaqəlidir [2, səh. 78].

Ali təhsil sisteminin sosiallaşdırma funksiyalarından danışarkən qeyd etmək istərdim ki, sosial biliklərin bu sahəsi kifayət qədər genişdir və bir sıra digər sosial biliklərlə vəhdətdə öyrənilir. Min illərdən bəri bəşəriyyəti inkişafa aparan ən əsas amil məhz təhsildir. Cəmiyyətdə baş verən müxtəlif böhranlar ilk olaraq özünü məhz təhsildə göstərir. Bu onun sosial əhəmiyyətini qabardan daha bir nüansdır [1, səh. 123].

Təhsilin insan inkişafına yönələn rolundan danışarkən iki istiqaməti diqqətdə saxlamaq lazımdır. Bu zaman burada iki faktor meydana çıxır və bunlardan sadəcə birinə diqqət yönəlir. Belə ki, ya təhsilin insan potensialının artırılmasına təsiri araşdırılır və yaxud da təhsilin insan kapitalının yaradılmasında

olan rolu müzakirə edilir. İnsan inkişafı nəzəriyyəsinin tərəfdarlarının fikrincə, iqtisadi inkişafda nəzərdə tutulan əsas məqsəd elə insanın özüdür. Bundan əlavə təhsil əhalinin yeni sosial-(iqtisadi) mədəni mühitə uyğunlaşmasını təmin edir və bir növ sosiallaşmanın ən təsirli institutuna çevrilir. Bunu belə izah edərdim ki, əgər kütləvi informasiya vasitələri ilkin psixoloji hazırlığı, baş verən yeniliklərə doğru istiqamətləri və həmçinin, davranışın əsas nümunələrinin təqdimatını həyata keçirirsə, təhsil sistemi yeni mühitdə bilik və ilkin davranış bacarıqları sistemini təmin edir. Ali təhsil elmi işin və onun nəticələrinin qiymətləndirilməsinin dəqiq metodlarının işlənib hazırlanmasını, son nəticədə ona hərtərəfli və adekvat qiymət verməyə, elmi və innovativ fəaliyyətin idarəetmə sistemini təkmilləşdirməyə imkan verir. Ali təhsil sisteminin sosiallaşdırma funksiyası müxtəlif sahələrdə elmi biliklərə yiyələnən tələbələrin münasibətlərinə, ünsiyyətlərinə və bununla da biliklərin birindən digərinə ötürülməsində böyük əhəmiyyət kəsb edir. Çünki, ünsiyyət ən böyük sosiallaşma amillərindən biridir. Yüksək ixtisaslı mütəxəssislər hazırlayan ali təhsil müəssisələrinin-institutların, kolleclərin, universitetlərin şəbəkələri böyüdükcə, gənclərin bir-biri ilə ünsiyyət, müxtəlif qurum və təşkilatlarda birlikləri də artır. Ünsiyyət müasir cəmiyyətin mühüm sosial və siyasi institutudur. Gənclərin isə məhz ali təhsil müəssisələrində müxtəlif sosial birliklər daxilində ünsiyyətdə olması ideoloji, siyasi təsir funksiyasını yerinə yetirir, sosial birliyi qoruyur. Məlumat və biliklərin birbaşa ötürücüdən alınması və həmçinin informasiyanın tələbələrin bir-biri ilə ünsiyyəti zamanı çatdırılması kimi məsələlər təhsilin sosiallaşdırma funksiyalarının bir hissəsidir. Gənclərin ali təhsil müəssisələrində təhsil almalarının yuxarıda sadaladığımız bir sıra faktorlarla yanaşı özünəməxsus digər sosial faktorları da vardır. Bunlardan ən əsas olanlar, məlumatların öyrənilməsi, cəmiyətin eyni qrupa xas üzvlərinin sosial fəaliyyətlərinin təşkili, insanların müxtəlif emosional-psixoloji çalarlar əsnasında davranışlarının nəzarətdə saxlanılması, sosial idarəetmə, əyləncə və mədəni dəyərlər, həmçinin ideoloji-tərbiyəvi funksiyası aiddir.

Ümumiyyətlə təhsil sistemi ayrıca bir sosioloji qurum hesab olunmaqla yanaşı, hətta ayrıca siyasətə malikdir. Təhsil sistemi gələcəyə kapital qoyuluşunu özündə ehtiva edir. Xüsusən də ali təhsil sistemi insanlara sadəcə biliklərin verilməsini həyata keçirmir, həmçinin dünyanın qloballaşmasında mühüm rol oynayır. Bu baxımdan ali təhsilin sosiallaşdırma funksiyaları ictimaiyyətin inkişafına da gətirib çıxarmış olur. Çünki ünsiyyət cəmiyyətin həyatında ən vacib amildir və ali təhsil cəmiyyətin ünsiyyət ehtiyacını qarşılamaqda əsas faktordur. Sosiallaşma zamanı cəmiyyətin müxtəlif təbəqələrindən olan üzvlər bir araya gələrək, fikir mübadiləsinə qoşulur. Bu zaman insanlar yeni məlumatlara sahib olur və müxtəlif hadisələrə qarşı müəyyən fikirlərə yiyələnirlər. Sosiallaşma nəticəsində insanlar öz düşüncə tərzlərini formalaşdırırlar və öz ətraflarına həmfikirlərini toplayaraq kiçik qruplar yaradırlar. Beləliklə, ali təhsil

insanlara yalnız biliklərin verilməsi ilə kifayətlənmir və onların cəmiyyətdə müəyyən mövqe tutmalarında bir vasitə rolunu oynamış olur. Məhz bu səbəblərə görə qeyd edirik ki, təhsil insan cəmiyyətinin inkişafı üçün olduqca mühüm faktordur.

Müasir dövrdə iqtisadi inkişafın əsas göstəriciləri arasında təhsil səviyyəsi də mühüm yer tutur. Lakin bu o demək deyildir ki, iqtisadi cəhətdən inkişaf etmiş dövlətdə təhsil də yüksək səviyyədədir. Doğrudur, təhsil iqtisadi inkişaf üçün təkanverici qüvvə rolunu oynaya bilər, ancaq bəzən iqtisadi cəhətdən yaxşı vəziyyətdə olan ölkələrin təhsil səviyyəsi heç də yüksək səviyyədə olmur. Bu bir çox amillərlə bağlı ola bilir. Lakin ümumilikdə iqtisadi inkişafla təhsil paralellik təşkil edir. Ona görə də bir çox dövlətlər yüksək inkişafa nail olmaq üçün təhsilin yaxşılaşdırılmasına diqqət ayırır.

Azərbaycanda da təhsilə dövlətin xüsusi nəzarəti mövcuddur. Xüsusilə də ali təhsilin inkişaf etdirilməsi üçün xeyli tədbirlər həyata keçirilməkdədir. Beləliklə, ali təhsilin sosiallaşdırma funksiyası sayəsində insanlar həyatın bir çox sahələrində yüksək nailiyyətlərə imza atırlar. Ölkəmizdə təhsilin müasir zamanla ayaqlaşa bilməsi üçün texniki tərəqqinin nailiyyətlərinin təhsilə inteqrasiyası da həyata keçirilir. Texnoloji vasitələrlə təhsilin asanlaşdırılması və hamı üçün əlçatan olması üçün tədbirlər həyata keçirilir. Bütün bu faktorlar ölkəmizdə təhsil sisteminin dövlətin inkişafına yönəldildiyini göstərir. O da sevindirici haldır ki, Azərbaycanda insanların təhsilə olan marağı gün-gündən artmaqdadır. Xüsusilə ali təhsilin insan həyatındakı rolunu nəzərə alaraq onu deyə bilərik ki, ölkəmizdə ali təhsillilərin sayı kifayət qədərdir və ali təhsilin sosiallaşma funksiyası sayəsində insanlar həm ölkəmizdə, həm də xarici ölkələrdə bir çox təşkilatlarda iştirak edir, fikir mübadiləsi aparır və qloballaşan dünyanın hadisələrinə qarşı məsuliyyətlərini dərk edirlər.

**Ədəbiyyat:**

1. *Abdullayev Ə. Dil, siyasət, sosial tərəqqi, Bakı, 1985, 193 səh.*
2. *Vahidov F.Q., Ağayev T.B. Sosiologiya, Ali məktəblər üçün dərs vəsaiti, Bakı, 2008, 334 səh.*
3. *Məmmədov H. Azərbaycanda bilik iqtisadiyyatının formalaşdırılması istiqamətində dövlət səviyyəsində ciddi tədbirlər həyata keçirilir. Müsahibə. Yeni Azərbaycan qəzeti, 13 yanvar 2011-c il, onlayn: http://www.yeniazerbaycan.com/Musahibe_e7357_az.html*
4. *John Dewey. Democracy and Education. Introduction to the Philosophy of Education. Free Press: NY, 1997*
5. *Walter W. Powell & Kaisa Snellman. The Knowledge Economy. Annual Review of Sociology, Vol. 30, 2004, p. 201.*

**A.Ə. Hüseynova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ayanhuseynova046@gmail.com***

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA SOSİAL İNKİŞAFIN BAŞLICA XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

*Məktəbəqədər yaşlı uşaqların sosial inkişafının xüsusiyyətlərinin öyrənilməsi belə nəticəyə gəlməyə imkan verir ki, sosial inkişaf uşağın sosial reallığa (insanlar dünyasına) uyğunlaşması, onun bəşəriyyət tərəfindən toplanmış sosial-mədəni təcrübəni daha da inkişaf etdirməsi prosesidir. Məktəbəqədər yaşlı uşaqların sosial inkişafının komponentləri sosial bacarıqların, sosial biliklərin (ənənələr, mərasimlər və qaydalarla tanışlıq), bir insanın digər insanların cəmiyyətində rahat və səmərəli yaşamasına imkan verən sosial bacarıqların formalaşdırılmasıdır.*

# ОСНОВНЫЕ ОСОБЕННОСТИ СОЦИАЛЬНОГО РАЗВИТИЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

**Резюме**

*Изучение особенностей социального развития дошкольников позволяет сделать вывод, что социальное развитие - это процесс адаптации ребенка к социальной реальности (человеческому миру), его дальнейшее развитие социо-культурного опыта, накопленного человечеством. Составляющими социального развития дошкольников являются формирование социальных навыков, социальных знаний (знакомство с традициями, обрядами и правилами), социальных навыков, позволяющих одному человеку комфортно и эффективно жить в чужом обществе.*

# MAIN FEATURES OF SOCIAL DEVELOPMENT IN PRESCHOOL CHILDREN

**Summary**

*The study of the features of social development of preschool children allows us to conclude that social development is the process of adaptation of the child to social reality (human world), his further development of socio-cultural experience accumulated by mankind. The components of the social development of preschool children are the formation of social skills, social knowledge (acquaintance with traditions, ceremonies and rules), social skills that allow one person to live comfortably and effectively in the society of other people.*

***Açar sözlər:*** *sosial inkişaf, bacarıq, sosial subyekt, məktəbəqədər yaşlı uşaqlar, ünsiyyət.*

***Ключевые слова:*** *социальное развитие, навыки, социальный предмет, дошкольники, общение.*
***Key words:*** *social development, skills, social subject, preschool children, communication.*

Məktəbəqədər təhsilin standartları aşağıda qeyd edilən bir sıra bəndləri özündə ehtiva edir. Məktəbəqədər uşaqların sosial inkişafı üçün sadalanan şərtləri yaratmaq lazımdır:

1. hər bir uşaqla birbaşa ünsiyyət üçün şərait: hər uşağa, onun hisslərinə və ehtiyaclarına hörmət (emosional inkişafı təmin etmək);
2. uşaqların – birgə fəaliyyətin iştirakçılarının sərbəst fəaliyyət seçmələri üçün şərtlər:

- qərar qəbul etmək,
- öz hiss və düşüncələrini ifadə etmək,
- uşaqların təşəbbüsü və müstəqilliyinə dəstək (fərdilik və təşəbbüsün dəstəklənməsi).

3. uşaqlar arasında müsbət, xeyirxah münasibətlər üçün şərait, həmyaşıdları ilə münaqişə vəziyyətlərini həll etməyə imkan verən ünsiyyət bacarıqlarının inkişafı (müxtəlif vəziyyətlərdə qarşılıqlı əlaqə qaydalarının yaradılması) [4, s. 89].

Uşağın sosial inkişafı bilavasitə sosial mühitlə müxtəlif qarşılıqlı əlaqələrdə və həmyaşıdları və böyüklərlə sosial ünsiyyətdə baş verir. Müasir psixoloji və pedaqoji ədəbiyyatda "sosial inkişaf" anlayışından geniş istifadə olunur. Bununla belə, konsepsiyanın məzmunu birmənalı deyil. Gələcək tədqiqatlar üçün "sosial inkişafın" əsas ümumi tərifini vurğulamaq üçün müxtəlif müəlliflər tərəfindən təklif olunan onun əsas anlayışlarına elmi yanaşmanı nəzərdən keçirmək vacibdir.

Beləliklə, məsələn, A.V.Mudrik hesab edir ki, sosial inkişaf cəmiyyətin mədəniyyətinin mənimsənilməsi və təkrar istehsalı prosesində insanın inkişafı və özünütərbiyəsidir [33, s. 29]. Müəllif sosial inkişafı həm də mürəkkəb bir fenomenə aid edir, onun gedişində uşaq insan ünsiyyətinin obyektiv müəyyən edilmiş normalarını və daimi kəşfini, özünü sosial subyekt kimi təsdiqləyir [3, s. 56]. T.N.Malkovskaya, V.Lomov, V.T.Kudryavtsev sadalananları ümumiləşdirir: sosial inkişaf sosial məzmunun mənimsənilməsi və həyata keçirilməsi prosesidir, burada fərdilikdə əhəmiyyətli olan aktiv yaradıcı sosial fəaliyyətin formalaşması həyata keçirilir [32, s. 19]. L.P.Bueva, E.A.,Saar, M.H.Titma sosial inkişafı insanın həyatı boyu sosial təcrübənin, normaların, sosial rolların və cəmiyyətin mədəni dəyərlərinin mənimsənilməsi prosesi kimi başa düşür [9, s. 29]. L.S.Rubana görə sosial inkişafı sosial varlıq kimi şəxsiyyətə çevrilmə prosesidir, o cümlədən sosial idrak, yəni fərdin öz "mən" ini və digər insanlarla münasibətlərini dərk etməsi və praktiki bacarıqların inkişafı və onların konkret

fəaliyyətlərdə həyata keçirilməsini özündə ehtiva edir [1, s. 85]. V.V.Moskalenok sosial inkişafı bütün sosial proseslərin məcmusu kimi müəyyən etdi, bunun sayəsində fərd ona cəmiyyətin tamhüquqlu üzvü kimi fəaliyyət göstərməyə imkan verən müəyyən biliklər, normalar və dəyərlər sistemini öyrənir və çoxaldır [2, s. 122]. Bu mövzuda xarici alimlərin elmi fikirləri də az deyil. Məsələn, D.İ.Feldşteinə görə məktəbəqədər uşaqların sosial inkişafı xüsusi sosial əlaqələrin dünyasına daxil olması və bəşəriyyətin universal xarakteristikası kimi sosial təcrübənin inkişafıdır [1, s. 34]. F.G.Giddings qeyd edir ki, məktəbəqədər uşaqların sosial inkişaf konsepsiyası fərdin sosial təbiətinin və xarakterinin inkişafıdır [3, s. 18]. G.M.Krodvel sosial inkişafı insanın sosial təcrübə əldə etdiyi, cəmiyyətlə sosial əlaqələri və münasibətləri formalaşdırdığı bir proses kimi başa düşür [1, s. 23]. Müəlliflərin təqdim olunan fikirlərini təhlil edərək, sonrakı tədqiqatlar üçün əsas tərif kimi vurğulayırıq: Sosial inkişaf uşağın sosial reallığa (insanların dünyasına) uyğunlaşması, sosial-mədəni təcrübənin ötürülməsi və daha da inkişafı prosesidir.

Ya.L.Kolominskinin fikrincə, uşağın universal insan təcrübəsini mənimsəməsi yalnız birgə fəaliyyətdə və digər insanlarla ünsiyyətdə baş verir. Beləliklə, uşaq nitqi mənimsəyir, yeni bilik və bacarıqlar, öz inancları, mənəvi dəyərləri və ehtiyacları, xarakteri formalaşır [4]. T.A.Repina görə, məktəbəqədər uşaqların sosial inkişafı üçün uğurlu şərtlərdən biri, məktəbəqədər uşaqların öz mülahizələrinin mövcudluğunu nəzərə alaraq, uşaqların müəllimlə sıx qarşılıqlı əlaqəsini təmin edən şəxsiyyətyönümlü bir model əsasında təhsil prosesinin təşkilidir. Bu cür ünsiyyət dialoq, birgə müzakirə, etimad münasibətləri xarakteri alır [4]. Həyatın üçüncü ilində F.A.Mustafayevə görə, uşaq ətrafındakı dünyanı mənimsəməyə davam edir. Körpənin əşyalarla hərəkətləri daha müxtəlif və çevik olur. O, artıq özü çox şeyi necə edəcəyini bilir, məişət əşyalarının adlarını və təyinatını bilir, böyüklərə kömək etməyə çalışır: qabları yumağa, masanı silməyə, döşəməni tozsoranlamağa, çiçəkləri sulamağa və s. O, getdikcə daha çox şüurlu şəkildə böyüklər kimi davranmaq istəyir, onu təkcə hərəkətin həyata keçirilməsi prosesi deyil, həm də nəticəsi cəlb etməyə başlayır. Uşaq böyüklər kimi eyni nəticəni almağa çalışır [3].

Beləliklə, uşağın öz fəaliyyətinə münasibəti tədricən dəyişir: nəticə onun tənzimləyicisinə çevrilir. Ş.G.Əliyeva hesab edir ki, obyektiv fəaliyyətin mənimsənilməsi uşaqlarda təşəbbüskarlıq, müstəqillik, məqsədyönlülük kimi şəxsi keyfiyyətlərin inkişafına təkan verir. Uşaq qarşıya qoyulan məqsədə çatmaq üçün getdikcə daha israrlı olur. Böyüklərlə münasibətlər yeni səviyyəyə keçir. İndi bir yetkin insan cisimlərlə bilik və hərəkət modellərinin daşıyıcısı kimi çıxış edir, onun köməyi ilə uşaq mövzu mühitini öyrənir [2, s. 42].

Qeyd etmək lazımdır ki, böyüklər uşaqların təşəbbüsünü həvəsləndirir və dəstəkləyirlərsə, sonradan belə uşaq ilk addımı atmaq və mühüm sosial hərəkətlərə başlamaq üçün məsuliyyət daşımaq üçün müəyyən səy göstərməyi

öyrədir. T.A.Danilina, T.S.Laqoda, M.B.Zuikova qeyd edir ki, məktəbəqədər yaşdan etibarən uşaqlarda tolerantlığın, yəni başqa insanı başa düşmək, öz fikrinə bənzəməyən fərqli fikri qəbul etmək bacarığının formalaşması üçün şərait yaratmaq çox vacibdir. Kiçik məktəbəqədər yaşlı uşaqların əksəriyyəti üçün ünsiyyətin inkişafının bu səviyyəsinə yalnız təhsil prosesində nail olmaq olar [5]. A.A.Bodalev qeyd etmişdir ki, məktəbəqədər təhsil təşkilatında davranış mədəniyyəti və həmyaşıdları və böyüklər ilə müsbət münasibətlər bacarıqlarının formalaşmasına xüsusi diqqət yetirilir: artıq bu dövrdən başlayaraq pedaqoq uşaqlara müəllimləri salamlamağı və vidalaşmağı, böyüklərə və ya yaşıdlarına təşəkkür etməyi öyrədir. [5, s. 68]. Uşaqların kömək göstərmək, diqqət göstərmək, təşəbbüs göstərmək və oyuncaqları bəyənən sözlərlə bölüşmək cəhdlərini dəstəkləmək vacibdir. Qeyd etmək lazımdır ki, uşaqların sosial inkişafı təkcə ünsiyyət yolu ilə deyil, həm də obyektiv dünyanı mənimsəmək üçün digər insanlarla birgə fəaliyyətdə baş verir. Bütün sosial inkişaf prosesi boyunca uşaq yeni fəaliyyət növlərini öyrənir. T.G.İlyuxinin fikrincə, uşaqların sosial inkişafı ilk növbədə onun üçün biliyin, dəyərlərin, münasibətlərin, rolların əsas dirijoru olan ailədə baş verir. Uşağın sosial inkişafına təsir edən mühüm amillər ailədəki ab-hava, uşaqla valideynlər arasında sıx emosional təmasların olması, uşağın ailədəki mövqeyi, tərbiyə tərzidir. Valideynlərin uşaqları ilə necə ünsiyyət qurması, öz növbəsində, ailədə qəbul edilən dəyərlərlə müəyyən edilən və valideynlərin övladlarına ötürməyə çalışdığı tərbiyə tərzindən asılıdır [6, s. 12].

Məktəbəqədər uşaqlıq dövründə uşaq vaxtının çox hissəsini uşaq bağçasında keçirir, tərbiyəçilər və məktəbəqədər təhsil təşkilatının digər işçiləri onun sosial inkişafı prosesinə daxil edilir. Bəzi hallarda böyüklərin nitqi, digərlərində - onların nümunəsi uşağın şəxsiyyətinin formalaşmasına, onun düşüncə tərzinə və davranışına böyük təsir göstərir ki, bu da uşaq sərbəst fəaliyyətdə valideynlərindən öyrənə bilər. Beləliklə, uşaq cəmiyyətdəki həyata uyğunlaşır, digər insanlarla qarşılıqlı əlaqə və ünsiyyət bacarıqlarını öyrənir. Bu proses, bir tərəfdən, böyüklərin uşaqlara verdiyi birbaşa göstərişlər şəklində, digər tərəfdən, böyüklərin əsasən qadağalar və ya cəzalar vasitəsilə həyata keçirdikləri davranışa nəzarət formasında baş verir.

Məktəbəqədər yaşda uşaqlarda özünə nəzarət hələ kifayət qədər inkişaf etməmişdir, buna görə də sosial inkişaf üçün böyüklərin uşaqların davranışlarına nəzarət etmək üçün hansı vasitə və üsullardan istifadə etmələri böyük əhəmiyyət kəsb edir. Bu anı hiss etmək və uşağa bütün lazımi kömək və dəstəyi göstərmək çox vacibdir, xüsusən də o anlarda nəyəsə şübhə edirsə və ya hər hansı səbəbdən narahatlıq hiss edirlərsə [4].

Məktəbəqədər yaşda uşaq ətrafındakı böyüklərin davranışı ilə bənzətmə ilə olsa da, öz davranış tərzini inkişaf etdirir. Buna görə də, bu anda uşaq o, həddindən artıq təsirləndiyinə görə yanında kimin olması çox vacibdir. Kiçik

məktəbəqədər yaşda həmyaşıdları ilə ünsiyyət vacibdir, bu halda uşağın sosial inkişafı daha ahəngdar və bərabər şəkildə davam edir [3]. T.P.Eliseeva hesab edir ki, uşaqların sosial inkişafı prosesi ən ağrısız olmalıdır və bu proses üçün əlverişli atmosfer böyüklər tərəfindən yaradılmalıdır. Beləliklə, müəllimin fəaliyyəti nəticəsində, komandadakı hər bir uşaq özünü vahid bir bütövün bir hissəsi kimi hiss edəcək və eyni zamanda fərdiliyini qoruya biləcəkdir [4, s. 52]. Qeyd etmək lazımdır ki, E.V.Ryleeva görə, uşağın bir şəxsiyyət kimi formalaşması ətraf aləmin təsiri altında baş verir və bunda məktəbəqədər təhsil müəssisəsi və ailə xüsusilə mühüm rol oynayır. Müəllimlər və valideynlər birlikdə sosial inkişafın kifayət qədər mühüm yer tutduğu uşağın şəxsiyyətinin hərtərəfli inkişafına töhfə verirlər [6, s. 38]. Uşağın yaşadığı ailənin strukturu kifayət qədər mürəkkəb və iyerarxik olsa belə, uşağa sosial münasibətlərin fərqli, daha geniş dairəsinə daxil olmaq üçün zəruri olan sosial davranış təcrübəsini tam mənimsəmək imkanı verə bilməz. Uşaq nə qədər böyük olarsa, onun sosial inkişafının cəmiyyətin və münasibətlərin norma və qaydalarını mənimsəmək kimi bir aspektini oynamağa bir o qədər böyük rol başlayır [2].

Bütün bu münasibətlər uşaqlar tərəfindən kəskin şəkildə yaşanır. Bəzən anlaşılmazlıq tez-tez münaqişələrin səbəbinə çevrilir, bu, belə tez-tez mübahisələri izah edir. Bu və ya digər yaşda müəyyən fəaliyyət növünə üstünlük verilir: erkən yaşda - obyektiv fəaliyyət, məktəbəqədər yaşda - oyun, məktəbdə - təhsil. Sosial inkişaf, uşaq bağçası üçün təhsil sahəsinin yaradılması ilə məqsədyönlü təsir sayəsində baş verir: oyun, iş, yaradıcılıq, təhsil və məktəbdənkənar uşaqların fəaliyyəti. Fəaliyyətlərin həyata keçirilməsi zamanı yeni rolların inkişafı və onların əhəmiyyətinin dərk edilməsi baş verir. Uşağın diqqətini özünə cəlb etmək olduqca vacibdir: mən kiməm, nəyəm, mənim imkanlarım, hisslərim, düşüncələrim və hərəkətlərim. Uşaqlara öz hərəkətlərini, təcrübələrini təhlil etməyi öyrətmək sosial bacarıqların inkişafında mühüm rol oynayır [9]. Məktəbəqədər yaş dövründə uşağın şəxsiyyətində mühüm dəyişikliklər baş verir. Bu dəyişikliklər, V.S.Muxinaya görə, ilk növbədə, obyektiv fəaliyyətin inkişafı ilə əlaqələndirilir [3, s. 75]. F.A.Mustaevaya görə, qrafik fəaliyyət həm də sosial inkişaf vasitələrindən biri kimi çıxış edə bilər. Yaradıcı fəaliyyət zamanı uşaqların sosial mühitə uyğunlaşması daha asan olur. Yaradıcı fəaliyyət növlərindən biri də vizual fəaliyyətdir. Onun rolu əvəzsizdir, çünki rəsm prosesində uşaq müxtəlif vəziyyətlərdən, o cümlədən ziddiyyət və ya münaqişəyə əsaslanan vəziyyətlərdən çıxış yolu tapmağı öyrənir [4, s. 84].

Bu komponentlərin inkişaf etdirilə biləcəyi fəaliyyət növlərindən biri də vizual fəaliyyətdir ki, burada uşaqlar öz əhval-ruhiyyəsini ətrafdakı dünyaya, reallığa çatdıra bilirlər. O, həmçinin məktəbəqədər təhsil təşkilatının proqram sənədlərində göstərilən sosial inkişafın komponentlərini də özündə əks etdirir.

**Ədəbiyyat:**

1. *Алиева Ш.Г. Социальное развитие дошкольников / Ш. Г. Алиева // Молодой ученый. — 2014. — №2. – С. 42.*
2. *Буре Р.С. Социально-нравственное воспитание дошкольников: методическое пособие [Текст] / Р.С. Буре. - М.: Мозайка-синтез, 2012. - 241 с.*
3. *Божович Л.И. Личность и ее формирование в детском возрасте [Текст] / Л.И.Божович// Психологическое исследование. - М.: Просвещение, 1998.*
4. *Гольдштейн А.П. Модель социального поведения / А.П.Гольдштейн // Практическая психология и социальная работа. – 2003. – №4. – С.61-68.*
5. *Детский сад и семья: современные формы взаимодействия: пособие для педагогов учреждений, обеспечивающих получение дошкольного образования / Т.П.Елисеева; М.М.Ермолинская. - Мн.: Лексис, 2004. – 248 с.*
6. *Детство: программа развития и воспитания детей в детском саду / под. ред. Т.И.Бабаевой, З.А.Михайловой, Л.М.Гурович. - СПб.: Акцидент, 1996. – 247 с.*

**G.Ə.Şirinova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gulusirinova1096@gmail.com***

# ŞİFAHİ XALQ ƏDƏBİYYATININ TƏDRİSİ PROSESİNDƏ FOLKLOR NÜMUNƏLƏRİNDƏN İSTİFADƏNİN İMKANLARI

***Xülasə***

*Məqalədə şifahi xalq ədəbiyyatının tədrisi prosesində etnopedaqoji nümunələrdən istifadə etməklə şagirdlərin mənəviyyat bütövlüyünü təmin etməyə imkan verən iş üsullarının düzgünlüyünə dair məlumatlar verilmişdir.*

*Azərbaycan şifahi xalq ədəbiyyatında məktəblilərin mənəviyyatının saflaşmasına kömək edən çoxlu ibrətamiz fikirlər, nəsihətlər, hikmətli kəlamlar vardır. Belə fikirlərə xalq ədəbiyyatının istənilən janrında rast gəlmək olar.*

*Məktəblilərin mənəvi tərbiyəsində Novruzun ritual mahnı və adətlərinin rolu əvəzsizdir.*

*Məktəblilər ibtidai siniflərdə bəzi folklor nümunələri - atalar sözləri və məsəllər, tapmacalar, həqiqətlər, tapmacalar və kiçik nağıllarla da tanış olublar. Ona görə də 5-ci sinifdə bu istiqamətdə işlər səmərəli aparılmalıdır.*

*Bu qədim folklor janrı beşinci sinifdə tədris olunur. Atalar sözü və məsəllər haqqında nəzəri məlumatlarla yanaşı, müxtəlif məzmunlu nümunələr öyrədilir.*

*Nümunələrin adlarından da göründüyü kimi, şagirdlərə səciyyəvi olan mərdlik, qorxmazlıq, dürüstlük, Vətənə məhəbbət, xalqın mənəvi dəyərlərinə hörmət, təbiəti sevmək və qorumaq kimi nəcib hisslər aşılamaq mümkündür. Bunun üçün əsas şərtlərdən biri müəllimin pedaqoji ustalığıdır.*

# ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ФОЛЬКЛОРНЫХ ОБРАЗЦОВ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ УСТНОЙ НАРОДНОЙ ЛИТЕРАТУРЕ

***Резюме***

*В статье приводится информация о правильности методов работы, позволяющих учащимся обеспечить целостность нравственности, на этнопедагогических примерах в процессе обучения устной народной литературе.*

*В азербайджанской устной народной литературе много поучительных мыслей, советов и мудрых изречений, помогающих очистить нравы школьников. Такие идеи можно найти в любом жанре народной литературы.*

*Роль обрядовых песен и обычаев Новруза в духовном воспитании школьников незаменима.*

*С некоторыми образцами фольклора - пословицами и притчами, загадками, правдами, загадками и небольшими сказками школьники также познако-*

*мились в начальной школе. Поэтому работу в этом направлении в 5 классе необходимо проводить эффективно.*

*Этот древний жанр фольклора преподается в пятом классе. Наряду с теоретическими сведениями о пословицах и притчах преподаются примеры различного содержания.*

*Как показывают названия примеров, можно привить учащимся такие благородные чувства, как мужество, бесстрашие, честность, любовь к Родине, уважение к нравственным ценностям народа, любовь и защита природы, которые характерны реального человека, настоящего гражданина. Одним из главных условий для этого является педагогическое мастерство учителя.*

# POSSIBILITIES OF USING FOLKLORE SAMPLES IN THE PROCESS OF TEACHING ORAL FOLK LITERATURE

***Summary***

*The article provides information on the correctness of working methods that allow students to ensure the integrity of morality, using ethnopedagogical examples in the process of teaching oral folk literature.*

*Azerbaijani oral folk literature contains many instructive thoughts, advice and wise sayings that help to purify the morals of schoolchildren. Such ideas can be found in any genre of folk literature.*

*The role of ritual songs and customs of Nowruz in the spiritual education of schoolchildren is indispensable.*

*Schoolchildren also got acquainted with some samples of folklore - proverbs and parables, riddles, truths, riddles and small fairy tales in elementary school. Therefore, work in this direction in the 5th grade must be carried out effectively.*

*This ancient genre of folklore is taught in the fifth grade. Along with theoretical information about proverbs and parables, examples of various content are taught.*

*As the names of the examples show, it is possible to instill in students such noble feelings as courage, fearlessness, honesty, love for the Motherland, respect for the moral values of the people, love and protection of nature, which are characteristic of a real person, a real citizen. One of the main conditions for this is the pedagogical skill of the teacher.*

***Açar sözlər:*** *folklor, mədəniyyət, şəxsiyyət, ədəbiyyat, ümumtəhsil*

***Ключевые слова:*** *фольклор, культура, личность, литература, общее образование.*

***Key words:*** *folklore, culture, personality, literature, general education*

Şifahi xalq yaradıcılığı qədimlikdən, tarixdən xəbər verməklə yanaşı xalqın ruhundan süzülən mədəniyyətdir. Mədəniyyət isə bir mənəvi normaları özündə təcəssüm etdirən həyat tərzidir. Deməli, şəxsiyyətin formalaşdırılması prosesi mədəniyyətlə-həyat tərzi ilə və mənəvi normalarda səsləşməlidir. Məhz ona görə də bütün bunlar tədris proqramlarında da nəzərə alınır və müəllimin yaradıcılığında böyük yer tutur. Müəllim isə dərs dediyi şagirdlərin mühütini,

dünyagörüşünü nəzərə almalı və predmeti onların mühiti ilə səsləşdirməlidir. Şifahi xalq ədəbiyyatının tədrisi zamanı bu imkanlar daha çox olur və müəllimin borcudur ki, yerli əsatirlər, nağıllar, əfsanələr, bayatılar, atalar sözü və məsələlər barədə məlumat versin (2).

Hazırda istifadə də olan "Orta ümumtəhsil məktəblilərinin V-XI sinifləri üçün ədəbiyyat proqramı"nda deyilir ki, "Gənclərimizin mənsub olduqları xalqın ədəbi-mədəni irsinin mənimsəməsi, başa düşüb qiymətləndirməsi, milli psixologiya zəminində tərbiyə alması, xalq işinə, Vətənə sədaqət ruhunda formalaşması həyata keçirilməlidir".

Qarşıda duran bu təxirəsalınmaz vəzifələri yerinə yetirmək üçün V-XI siniflərdə şifahi xalq ədəbiyyatı nümunələrinin tədrisinə 114 saat vaxt ayrılmışdır. Bu, məktəbli oğlan və qızların folklora bələd olma imkanlarını artırır. Məlum olduğu kimi orta ümumtəhsil məktəblərində tədris olunan ədəbiyyat fənninin çox böyük təhsilləndirici, tərbiyələndirici, inkişafetdirici funksiyaları vardır (5).

Böyük rus tənqidçisi V.B.Belinski ədəbiyyatla tərbiyəni vəhdətdə götürərək yazırdı ki, "Ədəbiyyat və tərbiyə-bu iki məfhum günəş və işıq, həyat və fəaliyyət məfhumları kimi bir-birindən ayrı təsəvvür etmək mümükün deyildir".

Məktəblilərin folklorun bəzi nümunələri-atalar sözləri və məsəllər, yanıltmac, düzgü, tapmaca və bəzi kiçik nağıllarla ibtidai siniflərdə də tanış olmuşlar. Odur ki, V sinifdə bu istiqamətdə iş səmərəli şəkildə həyata keçirilməlidir. Onlar el ədəbiyyatına aid nəzəri məlumatları almaq imkanı da qazanırlar. Lakin müəllim folklor nümunələrini şagirdlərə təkcə əzbərlətmək və öyrətməklə kifayətlənməməlidir. V sinif üzrə ilk məşğələdə "Giriş" müəllif şifahi ədəbiyyat-folklor haqqında məktəblilərə onların yaş səviyyələrinə uyğun şəkildə məlumat verdikdən sonra el ədəbiyyatına maraq oyatmalıdır. Təcrübə apardığımız, əlaqə saxladığımız bir çox məktəblilərin ədəbiyyat müəllimlərinin iş təcrübələri bu baxımdan səciyyəvidir. İşin belə təşkili bir tərəfdən şagirdlərdə şifahi xalq xalq yaradıcılığına maraq və məhəbbət hissləri oyadır, digər tərəfdən onlarda ilk araşdırıcıları yeni tədqiqatçılıq qabiliyyətinin təməlini qoyur, başqa bir tərəfdən isə məktəblilər həqiqi vətəndaşlar kimi tərbiyə olunmağa başlayırlar (1).

Nəzəri mənbələrdən məlumdur ki, əmək nəğmələri, sayaçı sözlər el ədəbiyyatı ən qədim incilərindəndir. Prof. V.Vəliyev bu barədə yazır ki, "Bu nəğmələrdə xalqın "uşaqlıq" dövründə yaratdığı əsərlərin yalnız izləri qalmışdır. Bu izləri şifahi poeziyanın bütün janrlarına səpələnmiş, ilk formasını saxlamasa da, məzmununu nisbətən qoruyub mühafizə edə bilmişdir" (4).

Şagirdlərdə el ədəbiyyatına maraq oyatmaqla yanaşı, onlarda vətənpərvərlik, əməksevərlik, yurda məhəbbət, təbiətə qayğı, böyüklərə hörmət və s. hisslərini inkişaf etdirməkdən ötrü M.Maqsudov adları çəkilən qədim janrların

tədrisi zamanı şagirdlərlə aşağıdakı istiqamətdə iş aparır. Müəllim hər şeydən əvvəl məktəblilərə “folklor dəftəri” tutmağı tapşırır. Sonra şagirdlərə el ədəbiyyatı nümunələrini necə toplamaqla əlaqədar məlumat verir. Folklor nümunələrini öyrəndikcə, müəllimin tapşırığına əsasən, hər bir şagird kəndin yaşlı sakinləri ilə görüşüb söhbət edir, onların söylədikləri nümunələri toplayıb həmin dəftərə yazırdılar. Dərslikdə öz əksini tapmış nümunələrlə yanaşı əldə edilmiş folklor materialları da dərsdə oxunurdu. Bununla bərabər, holavarlar, sayçı sözləri, mərasim nəğmələri və s. mövzuların tədrisi zamanı uzun illər Şirvan regionundan toplanmış folklor örnəklərinə də müraciət edilir, müqayisələr aparılırdı. Bütün bunlar şagirdləri müstəqil fəaliyyətə alışdırırdı. Müəllimin belə iş metodikasının müsbət nəticəsi olaraq Şirvan regionu üzrə əldə olunmuş və məktəblilərin mənəvi tərbiyəsinə müsbət təsir göstərən bəzi xarakterik nümunələr onların dəftərlərində özünəməxsus yer tuturdu. Tərəkəmə elatlarının qoyun, keçi, quzunun tərifi ilə bağlı səciyyəvi və orjinal sayaçı sözlərinə aşağıdakı nümunələri göstərmək mümkündür.

*Nənəm, ay ağ baş qoyun,*
*Dağlara dırmaş qoyun.*
*Yağından dəyməc olar,*
*Quyruğundan aş, qoyun.*

Göründüyü kimi, örnəklərdə tərəkəmə həyatı sürən Şirvan elatı üçün səciyyəvi olan heyvandarlığın tərənnümü öz bədii ifadəsini tapmışdır. Həyatını qoyunçuluğa sərf edən tərəkəmə arzusunu, istəyini, varını-dövlətini də onda axtarır. Əgər o, qoyun-quzusunu yaza salamat çıxarsa, bütün arzularına çatacaqdır. Şagirdlərə bu səpkidə izahat verilməklə yanaşı, həm də aydınlıq yaradılır ki, xalqın bir çox gündəlik tələbatlarının ödənilməsində qoyun-quzu, keçidən əldə edilən məhsullar - ət, süd, yağ, pendir, yun əsas məişətdə rol oynayır (6).

Məktəblilərin mənəvi tərbiyəsində mərasim nəğmələrinin, novruz adətlərinin rolu əvəzsizdir. Beşinci sinifdə qədim insanların təbiətə münasibəti, qışın getməsi və yazın gəlməsi ilə bağlı nəğmələrin öyrədilməsi bir neçə cəhətdən əhəmiyyətlidir. Beşinci sinfin dərsliyində “Novruz adətləri” adlı mövzu var.

Mövzunun tədrisi zamanı şagirlərə çatdırılmalıdır ki, Novruz bayramıı islamiyyətdən çox-çox əvvəl, qədim azərbaycanlıların həyat və məişətində mövcud olmuşdur. O bizim üçün əsl milli bayramıdır. Bayramın bu cəhətləri şagirdləri yadlarına belə bir tərzdə çatdırılması, onların mənəvi, əxlaqi paklığa səsləyir. Mövzunun tədrisi zamanı Şirvan regionundan yaşıllıq rəmzi olan səməni haqqında əldə etdiyim nəğmələrlə məktəbliləri tanış edirəm. Hazırda islam dəyərlərinin necə mühüm, qiymətli tərbiyə vasitəsi olduğunu hamının etiraf etdiyi bir zamanda belə nümunələrin məktəblilərə çatdırılması vacibdir. Ata-babalarının inam, güman yerlərinə sitayiş edən gənc nəslin mənəvi tərbiyəsində belə andların rolu əvəzsizdir. Azərbaycan şifahi xalq ədəbiyyatında ibrətamiz fikirlər, məktəblilərin əxlaqının saflaşmasına kömək göstərən nəsihətlər,

müdrik kəlamlar çoxdur. El ədəbiyyatının hər hansı bir janrında belə fikirlərə rast gəlmək mümkündür. Özündə xalqın öyüd-nəsihətini yaşadan atalar sözləri və məsəllər belə janrlardandır. Bir-iki cümlədən ibarət olan atalar sözlərində dərin hikmət və məna, vətənpərvərliyə, mərdlik və qoçaqlığa, doğruluq və düzlüyə çağırışıq, eyni zmanda şər qüvvələrə qarşı nifrət öz ifadəsini tapa bilmişdir. Folklorun bu qədim janrıda beşinci sinifdə tədris olunur. Atalar sözləri və məsəllər haqqında nəzəri məlumatla yanaşı müxtəlif məzmunlu nümunələr öyrədilir.

Örnəklərin adından göründüyü kimi, bu nümunələr vasitəsi ilə şagirdlərdə əsil insana, həqiqi vətəndaşa xas olan mərdlik, qorxmazlıq, düzlük, yurda məhəbbət, xalqın mənəvi dəyərlərinə hörmət, təbiəti sevmək, qorumaq kimi nəcib hissləri aşılamaq mümkündür. Bunun üçün müəllimin pedaqoji ustalığı əsas şərtlərdən biridir. Eksperimentə cəlb olunmuş müəllimlər beşinci sinifdə islam dünyasında xüsusi yeri, zəhməti, hörməti və dəyəri olan "Əli haqqında olan əfsanə" ilə məktəbliləri tanış edərək onlarda insanpərvərlik, xeyirxahlıq, humanizm, qayğıkeşlik və saflıq kimi nəcib keyfiyyətlərin inkişafına nail olurdular. Bundan başqa, digər dini əfsanələrin bir neçəsinin məzmunu da şagirdlərə çatdırılırdı.

**Ədəbiyyat:**

*1. Asif Hacılı. Mifopoetik təfəkkür fəlsəfəsi. B., 2002*
*2. Asif Hacılı. Axısqa türk folkloru. B., 1998*
*3. Asif Hacılı.Bayatı poetikası. B., 2000*
*4. https://www.azleks.az/online-dictionary/x%C9%99lqiyyat?s=my XƏLQİYYAT xalq yaradıcılığı; folklor*
*5. R.Axundov. Rusca-türkcə lüğət, Cild II, Azərnəşr, Bakı, 1929-cu il, s.587*
*6. Seyfəddin Rzasoy. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. Bakı: Nurlan, 2008, səh.188*

**B.Ə.Əlibabaoğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***elibabaoglu@mail.ru***

# BƏDİİ ƏSƏRLƏRİN MƏZMUNUNUN ÖYRƏDİLMƏSİ MƏSƏLƏSİNİN PROQRAM, DƏRSLİK VƏ METODİK VƏSAİTLƏRDƏ QOYULUŞU

***Xülasə***

*Bütün fənlərin tədrisi zamanı olduğu kimi ədəbiyyat fənninin tədrisi zamanı da proqram, dərslik və dərs vəsaitləri müəllim üçün istiqamətverici, kompas rolunu oynayır. Belə ki, istənilən bir metodik məsələnin həlli ilə bağlı tədqiqat apararkən, qarşıya çıxan problemləri həll etməyə çalışarkən, xüsusilə də təklif ediləcək olan yollardan, üsullardan, o cümlədən onların tətbiqi imkanlarından bəhs edərkən mütləq haqqında danışılan məsələnin proqram, dərslik və dərs vəsaitində qoyuluşu nəzərdən keçirilməli və fikirlər, təkliflər ona əsaslanaraq səsləndirilməlidir. Orta məktəblərdə (5-9-cu siniflər) bədii əsərlərin məzmununun öyrədilməsindən bir metodik məsələ olaraq bəhs edərkən də düzgün istiqamətdə getmək üçün bu məsələnin proqram, dərslik və dərs vəsaitlərində qoyuluşunu nəzərdən keçirmək çox zəruridir.*

# ПРОБЛЕМА ОБУЧЕНИЯ СОДЕРЖАНИЮ ХУДОЖЕСТВЕННЫХ ПРОИЗВЕДЕНИЙ В ПРОГРАММАХ, УЧЕБНИКАХ И МЕТОДИЧЕСКИХ МАТЕРИАЛАХ

***Резюме***

*Как и в преподавании всех предметов, в преподавании литературы ориентиром и компасом для учителя выступают программы, учебники и учебные пособия. Таким образом, при проведении исследований по решению какой-либо методологической задачи, попытке решения поставленных задач, особенно при обсуждении предлагаемых путей, методов, в том числе их применения, необходимо учитывать включение вопроса в программу, учебник и учебное пособие, и мнения и предложения должны быть основаны на нем. При обсуждении преподавания содержания художественных произведений в общеобразовательных школах (5-9 классы) как методического вопроса очень важно учитывать размещение этого вопроса в учебных программах, учебниках и методических пособиях для того, чтобы идти в правильное направление.*

# PROBLEM OF TEACHING THE CONTENT OF ART WORKS IN PROGRAMS, TEXTBOOKS AND METHODICAL MATERIALS

***Summary***

*As in the teaching of all subjects, in the teaching of literature, the program, textbooks and teaching aids play the role of a guide, a compass for the teacher. Thus, when conducting research on the solution of any methodological problem, trying to solve the problems, especially when discussing the proposed ways, methods, including their application, it is necessary to consider the inclusion of the issue in the program, textbook and manuals, and opinions and suggestions should be based on it. When discussing the teaching of the content of works of art in secondary schools (grades 5-9) as a methodological issue, it is very important to consider the placement of this issue in the curriculum, textbooks and teaching aids in order to go in the right direction.*

***Açar sözlər:*** *proqram, fənn kurikulumu, dərslik, metodik vəsait, məzmun.*
***Ключевые слова:*** *программа, учебный план, учебник, методические пособия, содержание.*
***Key words:*** *program, subject curriculum, textbook, methodical aids, content*

**Giriş.** Ümumtəhsil məktəblərində tədris olunan ədəbiyyat fənninin məzmunundan, strukturundan danışarkən təbii olaraq ilk yada düşən məsələlərdən biri bədii əsərin məzmununun öyrədilməsi dərsləridir. Bədii əsərin məzmununun öyrədilməsi dərslərinin ədəbiyyat fənnin tərkibindən ən əsas yerlərdən birini, bəlkə də birincisini tutması məhz istər fənn kurikulumunda, istər dərsliklərdə, istərsə də metodik vəsaitdə bu məsələyə ciddi yanaşmağı zəruri edir.

Məhz buna görə də məsələnin mahiyyətini dərindən öyrənmək üçün fənn kurikulumu, dərslik və metodik vəsaitdə məsələnin qoyuluşunu dərindən nəzərdən keçirmək vacibdir. Bədii əsərin öyrədildiyi dərslərin ədəbiyyat proqramındakı mühüm rolunu qeyd edən alim Fəxrəddin Yusifov bu barədə yazır: "Orta məktəb ədəbiyyat kursunun (proqramının) əsas hissəsini ədəbi əsərlər təşkil edir". [13, s.230] Daha sonra isə müəllif qeyd edir: "Ədəbi əsərlər bir təsadüf olaraq dərsliklərə gətirilmir. Onların hər birinin seçilib dərsliklərə yerləşdirilməsində bir qanunauyğunluq, bir zərurət vardır. Dərslik müəllifləri dövlətin nə istədiyini yaxşı bilir və həmin tələbələri ödəyə biləcək bədii nümunələri dərsliyə daxil edirlər. [13. s.230]

Məlum məsələdir ki, bədii əsərin öyrədilməsinin özü də iki mərhələdən ibarətdir: bədii əsərin məzmununun öyrədilməsi və bədii əsərin təhlili. Bununla bağlı S. Hüseynoğlu qeyd edir ki: "Bədii əsərin orta məktəbdə öyrədilməsi ədəbiyyat proqramının başlıca tələbidir. Bu təsadüfi deyildir; bir fənn kimi ədəbiyyatın qarşısında duran vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi bədii əsərlərin mükəmməl öyrədilməsindən çox aslıdır.

Bədii əsərin öyrədilməsi anlayışı, əsasən, iki məsələni əhatə edir: sənət nümunələrinin məzmununun mənimsədilməsi və əsərin təhlili". [5, s. 69-70]

İstər müxtəlif metodist alimlərin fikirləri, istərsə də apardığımız müşahidələr məhz bu məsələnin dərindən təhlil edilməsinin mümkünlüyü üçün proqram, dərslik və metodik vəsaitdə məsələnin qoyuluşunun dərindən öyrənmənin nə qədər faydalı və zəruri olduğunu göstərir.

Əsas hissə. Məlum olduğu kimi fənn kurikulumları özünəməxsus məzmun və struktura sahibdir. Ümumi sxematik quruluş bütün fənn kurikulumları üçün eyni olsa da, ancaq hər fənnin özünəməxsus məzmun xətləri, standartları və s. vardır. Ədəbiyyat fənni də məhz bu cür özünəməxsus məzmuna malikdir, onun da özünəməxsus məzmun xətləri, əsas və alt standartları vardır. Ədəbiyyat fənn kurikulumun bu cür özünəməxsus məzmuna sahib olması ədəbiyyat fənninin özünəməxsus məzmuna malik olmasından irəli gəlir.

Ədəbiyyat fənn kurikulumunun ilk məzmun xəttinin (ədəbiyyat və həyat həqiqətlərinin) məhz bədii əsərin məzmununun öyrədilməsi dərsləri ilə əlaqədar seçilməsinin özü belə fənn kurikulumunda bu məsələyə nə qədər ciddi yanaşıldığını göstərir.

Ədəbiyyat fənn kurikulumunda bədii əsərin məzmununun öyrədilməsi ilə bağlı seçilmiş standartlar aşağıdakı məsələləri əhatə edir:

– Əsərin məzmunundakı tanış olmayan sözlərin mənasını müxtəlif vasitələrdən istifadə etməklə aydınlaşdırılması,.
– Əsərin məzmununa uyğun şəkildə ifadəli oxunması,
– Əsərin hissələrə ayrılması, əsərlə bağlı planın tərtib edilməsi və məzmununun müxtəlif formalarda nağıl edilməsi,
– Əsərin janr xüsusiyyətlərinin müəyyən edilməsi,
– Əsərdəki bədii təsvir və ifadə vasitələrinin müəyyən edilməsi.

Bu standartlar hər sinif üzrə fənnin məzmuna dərinləşdikcə inkişaf edir. Bunun üçün 1.1.5. nömrəli alt standartın beşinci sinifdən 11-ci sinfə qədər olan inkişafını izləyə bilərik:

5-ci sinif: "Müxtəlif vəznli şeirlərdə, sadə süjetli ədəbi nümunələrdə (nağıl, təmsil, hekayə) bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir". [1, s.15]

6-cı sinif: "Müxtəlif vəznli şeirlərdə, süjetli ədəbi nümunələrdə (nağıl, təmsil, hekayə, əfsanə, rəvayət, dastan) bədii təsvir və ifadə vasitələrini (epitet, təşbeh, mübaliğə, bədii sual) müəyyənləşdirir". [1, s.16]

7-ci sinif: "Müxtəlif vəznli şeirlərdə və süjetli ədəbi nümunələrdə (hekayə, mənzum hekayə, dastan) bədii təsvir və ifadə vasitələrini (epitet, təşbeh, bədii sual, təkrir, mübaliğə, litota) müəyyənləşdirir". [1, s.18]

8-ci sinif: "Müxtəlif vəznli şeirlərdə və süjetli ədəbi nümunələrdə (novella, poema, hekayə, mənzum hekayə) bədii təsvir və ifadə vasitələrini (metafora, bədii təzad, kinayə, litota) müəyyənləşdirir".[1, s.20]

9-cu sinif: "Müxtəlif vəznli şeirlərdə, süjetli ədəbi nümunələrdə (novella, poema, hekayə, mənzum hekayə, povest, dram, mənzum dram) bədii təsvir və ifadə vasitələrini (metonimiya, simvol, inversiya) müəyyənləşdirir". [1, s.22]

10-cu sinif: "Ədəbi nümunələrdə (dastan, poema, komediya, dram, povest, faciə) obrazların xüsusiyyətlərini (tip, xarakter, tipiklik, fərdiləşdirmə, ümumiləşdirmə) müəyyənləşdirir və təqdim edir". [1, s.24]

11-ci sinif: "Ədəbi nümunələrin (poema, mənzum dram, povest, roman) dil və üslub xüsusiyyətlərini (fərdi üslub, müəllifin dili, surətin dili) müəyyənləşdirir və təqdim edir". [1, s.25]

Göründüyü kimi hər yeni sinifdə yeni janrlar əlavə olunur və onun üzərində işin aparılması (bədii təsvir və ifadə vasitələrinin müəyyən edilməsi) bir tələb kimi qarşıya qoyulur.

Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün nəzərdə tutulmuş ədəbiyyat dərslikləri də məhz ədəbiyyat fənn kurikulumu əsasında hazırlanmışdır. Bu dərsliklərin hazırlanmasında fərqli prinsiplər özünü göstərməkdədir. Belə ki, beşinci və yeddinci siniflər üçün nəzərdə tutulmuş "Ədəbiyyat" dərslikləri tematik plan əsasında, yəni bədii əsərlərin mövzusuna uyğun olaraq hazırlanmışdır. Altıncı siniflər üçün nəzərdə tutulmuş "Ədəbiyyat" dərsliyində isə oxu və yazı prosesi üçün nəzərdə tutulumuş bir neçə mövzu verildikdən sonra mövzular aşağıda verdiyimiz bölgüyə əsasən qruplaşdırılmışdır:

- Bədii əsərlərdə təsvir,
- Bədii əsərlərdə nəqletmə,
- Bədii əsərlərdə təsvir-nəqletmə.

Sonda isə sinifdən xaric oxu üçün nəzərdə tutulumuş bədii nümunələr verilmişdir. Onu qeyd etmək lazımdır ki, mövzular bu cür qruplaşdırılması altıncı sinif şagirdlərinin əksəriyyətinin anlaq səviyyəsi üçün bir qədər uyğun deyil. Çünki aşağı siniflərdə bədii əsərlərin yazıldığı mövzulara əsas tematik prinsiplə bölgüsü daha məqsədəuyğundur.

Səkkizinci və doqquzuncu siniflərdə isə mövzular tarixi prinsipə əsasən qruplaşdırılmışdır. Onuncu və on birinci siniflərdə isə bu prinsipə əsaslanan bölgü daha da dərinləşdirilmiş və ciddi elmi xarakter almışdır.

Hər bir fənn üçün nəzərdə tutulmuş metodik vəsait kimi ədəbiyyat fənni üçün nəzərdə tutulmuş metodik vəsaitlər də müəllimə dərsliklə işləmək üçün yardımçı vasitə kimi mühüm əhəmiyyətə malik olan bir rol oynayır və eyni zamanda müəllimə müasir fənn kurikulumunun tələblərinə uyğun dərs keçə bilməsi üçün istiqamət verir..

Ədəbiyyat dərslərinin digər növlərində olduğu kimi bədii əsərin məzmununun öyrədilməsi dərsləri üçün də dərs nümunələri təqdim edilmişdir. Burada bədii əsərin məzmunun öyrədilməsi üçün yalnız bədii əsərin məzmununun öyrədilməsi ilə deyil, digər məzmun xətləri və əsas standartlarına daxil olan alt standartlardan da istifadə edilmişdir. Məsələn beşinci siniflərdə ədəbiyyat fənni

üçün nəzərdə tutulumuş metodik vəsaitdə H.Arifin "Analar" şeirinin məzmunu üzərində işlə bağlı təqdim edilən dərs nümunəsində adı çəkilən mövzu üçün aşağıdakı alt standartların reallaşdırılması tövsiyə edilmişdir:

"1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır.

1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir.

2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir".[7, s. 89]

Ancaq bir məsələni də qeyd etmək lazımdır ki, müəllim metodik vəsaitə konkret göstərişlər, əmrlər kimi yanaşmamalıdır. O, metodik vəsaitə yaradıcı yanaşmalı və özü müstəqil dərs modelləri hazırlamalıdır.

Nəticə. Göründüyü kimi müasir ədəbiyyat fənn kurikulumunda, "Ədəbiyyat" dərslikləri və müəllimlərin bu dərsliklərdən istifadəsi üçün nəzərdə tutulmuş metodik vəsaitlərdə bədii əsərlərin öyrədiləməsi, xüsusilə də, bədii əsərlərin məzmununun öyrədilməsi məsələsinə ciddi yanaşlımış və bunun üçün xüsusi standartların tətbiqi bir məqsəd kimi qarşıya qoyulmuşdur. Bütün bunlar bədii əsərin məzmunun öyrədilməsinin ədəbiyyat fənninin əsasını təşkil etdiyinin əsas göstəricisidir.

Buna görə də bədii əsərlərin məzmununun öyrədilməsi məsələsui ədəbiyyat müəllimindən çox ciddi məsuliyyət tələb edir. Çünki bədii əsərlərin məzmununun öyrədilməsi təlimi, tərbiyəvi və inkişafetdirici əhəmiyyətə malikdir.

Məhz bu da şagirdin gələcək həyatda düzgün yetişdirilmiş bir şəxsiyyət olaraq yetişməsində ədəbiyyat fənninin və ədəbiyyat müəlliminin mühüm rol oynadığını göstərir.

**Ədəbiyyat:**

1. *Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə fənn proqramı. (Kurikulum). Bakı, 2012.*
2. *Həbibbəyli İ., Hüseynoğlu S., Həsənli B., Mustafayeva A. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik. Bakı:Bakı nəşr. 2017.*
3. *Həsənli B., Mustafayeva A., Hüseynoğlu S., Verdiyeva N. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. Bakı:Bakı nəşriyyatı. Bakı, 2020.*
4. *Həsənli B., Mustafayeva A., Hüseynoğlu S., Verdiyeva N. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün metodik vəsait. Bakı:Bakı nəşr. 2020.*
5. *Hüseynoğlu S. Ədəbiyyatın məktəbdə öyrədilməsi. Bakı, 2019.*
6. *Hüseynoğlu S., Həsənli B., Səfərova Ə., Quluyev Ə. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik. Bakı:Şərq-qərb. 2020.*
7. *Hüseynoğlu S., Həsənli B., Səfərova Ə., Quluyev Ə. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün metodik vəsait. Bakı:Bakı nəşr. 2020.*

8. *Hüseynoğlu S., Həsənli B., Mustafayeva A., Məmmədova S. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı:Bakı. 2018.*
9. *Hüseynoğlu S., Həsənli B., Mustafayeva A., Verdiyeva N., Məmmədova S. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. Bakı:Bakı. 2018.*
10. *Hüseynoğlu S., Həsənli B., Mustafayeva A. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. Bakı:Bakı nəşriyyatı. 2017.*
11. *Süleymanova A., Bağırova T. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı:Təhsil Nəşriyyatı – Poliqrafiya. 2021.*
12. *Süleymanova A., Bağırova T. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün metodik vəsait. Bakı:Təhsil Nəşriyyatı – Poliqrafiya, 2020.*
13. *Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2017.*

**S.S.Balaşov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sameddinbalasov@gmail.com***

# QƏHRƏMANLIQ DASTANLARININ FƏNDAXİLİ İNTEQRASİYASI, 8-Cİ SİNİF MATERİALI ÜZRƏ

***Xülasə***

*Şifahi xalq ədəbiyyatı nümunələri orta məktəb şagirdlərinin formalaşma mərhələsində onlara yön verəcək ən doğru istinadlardandır. Səkkizinci sinif ədəbiyyat dərsliyində verilən dastan nümunələrinin inteqrasiyası şagird təfəkkürünün inkişafına istiqamət verən fəaliyyət növüdür. Şagird ədəbiyyatın inteqrasiya imkanlarından məharətlə faydalanaraq sinif daxili və ya fərqli siniflərdə ədəbiyyat dərslərində tədris olunan, öz mövzusuna uyğun digər mövzularla da tanış olub, əlaqələndirmələr aparır. Bu əlaqələndirmələr ona keçdiyi mövzunu xatırlatmaqla yanaşı, gələcəkdə öyrənəcəyi mövzuya dair də möhkəm zəmin hazırlayır. İnteqrasiyanın düzgün qurulması şagirdin artıq vaxt sərfiyyatını aradan qaldırır, ev tapşırıqlarının ağırlığından qurtarır. Təbii ki, bütün bu müsbətliklər üçün bəzi tələblər reallaşdırılmalıdır. Bunlara Müəllimin elmi-metodik cəhətdən hazırlığı, informasiyanın dəqiqliyi və yeniliyi, həmçinin lazımlığı və s. demək olar. Tədqiqat materialımız əsasında orta məktəb ədəbiyyat dərsliklərində informasiya yaxınlığı olan mövzulara toxunmağa çalışmaqla yanaşı, onların tədrisdə oynadığı rolu da qismən şərh etməyə səy göstərdik.*

# МЕЖДИСЦИПЛИНАРНАЯ ИНТЕГРАЦИЯ ГЕРОИЧЕСКОГО ЭПОСА НА МАТЕРИАЛЕ 8-ГО КЛАССА

***Резюме***

*Образцы устной народной литературы являются одним из наиболее точных ориентиров, которыми могут руководствоваться старшеклассники в годы их становления. Интеграция эпоса, данного в учебнике литературы для восьмого класса, является видом деятельности, направляющей развитие мышления учащихся. Используя возможности интеграции литературы, учащийся умело знакомится с другими темами, изучаемыми на уроках литературы в классе или на разных занятиях, устанавливает связи. Эти связи не только напоминают ему об изученном им предмете, но и обеспечивают прочную основу для того, что он будет изучать в будущем. Надлежащая интеграция устраняет необходимость в студенческом времени и избавляет от бремени домашней работы. Конечно, для получения всех этих преимуществ должны быть соблюдены некоторые требования. К ним относятся научно-методическая подготовка преподавателя, достоверность и новизна информации, а также необходимость и т. Д. Можно сказать. На основе нашего исследовательского материала, помимо*

*попытки затронуть информационные темы в школьных учебниках по литературе, мы также попытались частично прокомментировать их роль в обучении.*

## INTERDISCIPLINARY INTEGRATION OF HEROIC EPICS, ON 8TH GRADE MATERIAL

**Summary**

*Examples of oral folk literature are one of the most accurate references to guide high school students in their formative years. The integration of epos given in the eighth grade literature textbook is a type of activity that directs the development of students' thinking. Using the opportunities of literature integration, the student skillfully gets acquainted with other topics taught in literature classes in the classroom or in different classes, and makes connections. These connections not only remind him of the subject he has studied, but also provide a solid foundation for what he will learn in the future. Proper integration eliminates the need for student time and eliminates the burden of homework. Of course, some requirements must be met for all these benefits. These include the teacher's scientific and methodological training, the accuracy and novelty of the information, as well as the need, etc. İt can be said. On the basis of our research material, in addition to trying to touch on information-related topics in high school literature textbooks, we also tried to partially comment on their role in teaching.*

***Açar sözlər:*** *Kitabi Dədə Qorqud, Koroğlu, Ədəbiyyat, inteqrasiya, fəndaxili, fənlərarası.*

***Ключевые слова:*** *Китаби-Деде Горгуд, Кероглу, Литература, интеграция, междисциплинарный, междисциплинарная*

***Key words:*** *Kitabi Dada Gorgud, Koroglu, Literature, integration, interdisciplinary, interdisciplinary.*

Tədqiqata cəlb olunan "Qazan xan oğlu Uruz bəyin dustaq olduğu boy"la "Korogluynan Bolu bəy" qolu quruluş, mövzu, ideya və istiqamətcə oxşarlıq təşkil edən dastanlardır. Bu oxşarlıq tədrisdə əlaqə zamanı ilk olaraq dastanların birinin digərinə yaxınlaşmasına səbəb olur və yüksək şəkildə tədrisinə xidmət göstərir. Necə ki, Dədə Qorqud dastanı ilə bağlı olan boyun tədrisi Koroğlu dastanı ilə bağlı qolun tədrisinə möhkəm zəmin hazırlayırsa, əksi olduqda da qol varisliliyə əsaslanaraq boyla bağlı məlumatların yenidən xatırlanması nə şərait yaradır. Xalqa, millətə sevgi, düşmənə qarşı birləşmək, xalqı müdafiə etmək və s. kimi hallar hər iki dastan nümunəsi üçün xarakterik xüsusiyyətlərdir. Müəllim Eyvazın qəhrəmanlıqlarından bəhs edərkən Uruzu da xatırlamalı, onun atası üçün canından keçməyə hazır olduğunu şagirdlərin yadına salmalıdır. Bunun kimi halların dastanda çox olduğunu nəzərə alaraq müəllim şagirdləri tədqiqata cəlb etməli və həmin materialların tapılmasında şagirdlərə yön verməlidir. Bu şagirdləri həvəsləndirməklə yanaşı, onların dastana baxis aspektini dəyişir, tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir. Şagirdlər bu işin sonunda

əvvəl öyrəndiyi biliyi xatırlaya və ya yeni bilik üçün zəmin hazırla bilər. Hər iki hal şahidləri inkişafa sövq edir. Bildiyimiz kimi inteqrasiya geniş anlayışdır. Fəndaxili inteqrasiyanı da tədqiqat apardığımız siniflə məhdudlaşdırə bilmərik. Dastanların mövzu və ideyası istiqamətində geniş ədəbiyyat yazıldığını nəzərə alaraq tədqiqatımızın xeyli rəngarəng olacağı qənaətindəyik. Hamıya məlum olduğu kimi təbliğ olunan ideologiya istiqamətində hələ aşağı siniflərdə tədrisə xeyli əsərlər gətirilmişdir. Bu şagirdləri vətənə məhəbbət ruhunda yetişdirməklə yanaşı, həm də tarixə yön verən igidlərimizin tərbiyəsində işıqlı yollar açır. Danışılan məsələ haqqında nümunə kimi beşinci sinifdə tədris olunan "İgid Mübariz" əsərini göstərə bilərik. Biz "Dədə Qorqud" və "Koroğlu" eposundakı igidlərin qəhrəmanlıqlarından ağız dolusu, qürur hissi ilə danışarkən igidliyi ilə tək başına dastan yazan Mübarizi və onun timsalında xalqın el, torpaq qədri bilən oğullarının da adını çəkməli, onları unutdurmamalıyıq. Şagirdlər romanlarda tanış olduqları, filmlərdə işlədikləri səhnələri Mübarizin canlı, qanlı etdiyini deməliyik, və bunu deməkdən heç bir zaman əl çəkməməkiyik.

Səkkizinci sinifdə tədris olunan incilərdən biri də Məhəmməd Hadinin "Türkün nəğməsi" şeiridir. Bu şeir "Qazan xan oğlu Uruz bəyin dustaq olduğu boy" və "Koroğluynan Bolu bəy" qolu ilə səsləşir. Mövzu, ideya yaxınlığından istifadə edərək hər üç əsərin tədrisində digərlərinə müraciət edə bilərik. Bu dərsin aktuallığını artırmaqla yanaşı, həm də şagirdin məsələyə daha ciddi baxmasına və dərindən dərkinə köməklik göstərir. Şair şeir boyunca türkün mərdliyindən, çıxdığı yoldan geri dönməzliyindən danışır. Həmçinin tarix boyu bir çox haqsızlığa düçar olduğumuzu, lakin həmişə düşmənə diz çökdürdüyümüzü deməkdən də çəkinmir. Bu yolda çoxlu itkilər verdiyimizi və onların həmişə bizlə olacağını da ürək yanğısı ilə qeyd edir.

*"Türkün tökülən qanları bihudə gedərmi?*
*Diqqətlə düşün, yoxsa bu qan hepsi hədərmi?*
*Qan ilə qazandıq zəfəri, verməriz əldən,*
*Xof eyləmədik ataşi-dəhhaşe-düvəldən".* [3;124]

Şair bu misralara türkün heç vaxt qanını yerdə qoymadığını, zəfərin bizim alnımıza yazıldığını və bu yolda heç nədən, heç kimdən qorxmadığımızı qeyd edir. Səsləndirilən fikirlər bizə heç də yad deyil, çünki araşdırılan dastanlarda bu fikirlər çoxluq təşkil edir. Müəllim tədris zamanı oxşarlığı toxunmalı, geniş şəkildə əlaqələndirmə aparmalıdır.

Səkkizinci sinif "Ədəbiyyat" dərsliyinə salınan Məhmət Akif Ərsoyun "İstiqlal marşı" şeiri də yuxarıdakı abzasda qeyd olunan oxşarlığı ehtiva edir. Şairin bütün şeir boyunca insanı mübarizəyə səsləyən misraları ilk bənddən oxucunu özünə cəlb edir. Şair türklərin tarix səhifələrinə gəldikləri ilk gündən hür yaşamağa öyrəşdiklərini, əsarətə məruz qaldıqlarında azadlığa can atdıqlarını və bu yolda hər cür əzaba qatlaşdıqlarını qeyd edir. Tarixə baxdığımız zaman bizə qarşı çoxlu hücumların olduğunun şahidi oluruq, lakin bu hücumlar

bizim mübarizə əzmimizi qıra bilməmişdir. Əsarətə boyun əyməyən qövm olan türklər düşmənə həmişə layiq olduqları yeri göstərmişdir.

*"Mən əzəldən hür yaşadım, hür yaşarım,*
*Hansı çılğın mənə zəncir vuracaqmış? Şaşarım.*
*Kükrəmiş sel kimiyəm, bəndimi çeynər, aşşaram,*
*Yırtaram dağları, ənginlərə sığmam, daşaram".* [3;154]

Dastanların tədrisində müəllim Koroğlunun dəliliyindən, 7777 dəlilərindən, Oğuz elinin birliyindən, düşmənə qarşı mübarizə əzmindən, onları daim təşviş içərisində saxlamaqlarından danışarkən həm də yuxarıdakı misralar üçün möhkəm zəmin hazırlayır. Şeirin uğurlu tədrisi üçün təməl qurur. Səkkizinci sinif şagirdi şeiri oxuduğu zaman dərhal sıldırım qayada Qıratın belində şux oturan Koroğlunu, Oğuz igidlərinin ağası xan Qazanı canlandırır gözlərinin qarşısında və həmin nümunələri xatırlayır. Bu yaddaş tarixçəsinə baxış aktı şagird təfəkkürünü inkişaf etdirir. Öyrəndiyi köhnə biliyi xatırladır. Həmçinin yeni biliyi möhkəm mənimsəməyə ruhlandırır.

Tədrisi altıncı sinif "Ədəbiyyat" dərsliyinə salınan "Düratın itməyi" qolu və "Basatın Təpəgözü öldürdüyü boy" sonrakı mərhələdə tədris olunacaq daha mürəkkəb yaradıcılıq nümunələri üçün başlanğıc rolunu oynayır, şagirdə ilkin informasiyanın verilməsi ilə sonrakı mərhələyə zəmin hazırlanır. Məsələnin bu yerində orta məktəb dərsliklərində son dərəcə dəqiqliklə gözlənilən yaş psixologiyası məsələsini qeyd etmək yerinə düşərdi. Belə ki, aşağı siniflərdə daha çox öyüd, nəsihət, məsləhət xarakterli dastanlar, yuxarı siniflərdə isə daha primitiv məsələlərə toxunan dastanlar verilir. Səkkizinci sinifdə tədris olunan dastan nümunələrini aşağı siniflərə gətirsək, bu, şagird qavrayışını çətinləşdirə bilər, çünki o yaş dövrü daha çox gözəlliyə, məhəbbətə köklənmişdir. Ona görə də vətəni müdafiəyə qalxmaq, bu yolda ölmək onlara qismən yad hisdir. Daha geniş aspektdən baxsaq bu yaş dövrü üçün ölümün nağılvari xarakter daşıdığını görərik. Lakin mütləq keçilməli olan bu yolun mahiyyətə giriş xarakterli bu materialların verilməsi çox vacib və əhəmiyyətlidir. Aşağı yaş qrupu şagird asan məsələləri mənimsəyərək daha mürəkkəb material üçün baza formalaşdırır. Səkkizinci sinifdə haqqında danışılan dastan nümunələrinin tədrisi zamanı şagirdlərə haqqında danışdığımız məsələni və yuxarıda adı çəkilən boyları xatırlatmalı və onların tərbiyəsində oynadığı rolu qeyd etməliyik.

Yeddinci sinif ədəbiyyat dərslərində tədrisi təşkil olunan "Durna teli", "Odlu qılınc", "Babəkin andı" kimi dərs nümunələrinin tədqiqata cəlb olunan mövzularla inteqrasiyası mümkündür, bu inteqrasiya diqqət mərkəzində saxlanılmalıdır. "Babəkin andı" əsərində biz xalq rifahını öz mənafeyindən üstün tutan bir gənclə tanış oluruq. Bu obrazın azadlıq hərəkatına başçılıq etməsi, yadellilərə qarşı apardığı mübarizə bizə qoç Koroğlunu xatırladır. O da xalq rifahını üstün tutmuş, bu yolda bir çox əziyyətlərə qatlaşmışdır.

"Yox, anacan, yaxşı oğul gərək təkcə özünü, öz komasını düşünməsin... Bizim elimiz, yurdumuz, var, anacan! Sənin də, mənim də böyük bir anamız var—Vətən"! [2;76]

Şagirdlərin səkkizinci sinif tədris materialına salınan dastanları yaxşı mənimsəmələri xeyli əhəmiyyətlidir. Çünki bu əhəmiyyət özünü onuncu sinifdə aydın şəkildə göstərir. Aşağı sinif, xüsusilə səkkizinci sinif materialları onuncu sinif tədris materialı ilə sıx əlaqəlidir və bu əlaqəyə tədris prosesi boyunca tez-tez müraciət olunur.

Y.A.Komenski yazır: "Bütün məşğələlər elə təşkil olunmalıdır ki, sonra öyrədilənlər həmişə ondan qabaqkılara əsaslansın, ondan sonrakılar isə qabaqkılarla möhkmələdilsin". [4;149]

Ədəbiyyat kurikulumu inteqrativ səciyyə daşıyır. Təlimdə məzmun xətləri və standartlar arasında sıx bağlılıq və uzlaşma vardır. İnteqrativlik özünü eyni məzmun xətti daxilindəki standartların əlaqəli olması ilə yanaşı, ayrı-ayrı məzmun xətləri arasında da özünü göstərir. Məsələn, əsərin məzmununun dərki ilə bağlı standartlar üzrə iş daha sonrakı mərhələ olan təhlillə bağlı standartların reallaşdırılmasına zəmin yaradır.

Bu əlaqəni nəzərə alaraq deməliyik ki, aşağı siniflərdə tədris olunan, eyni ideologiyanın daşıyıcısı olan materiallar, xüsusilə bizim tədqiqat materiallarımız "Salur Qazanın evinin yağmalandığı boy" və "Keçəl Həmzənin Qıratı qaçırması" qolu üçün zəmin hazırlayır. İnteqrasiyanın əvvəlki biliyə istinad etdiyini nəzərə alaraq bu boyda ordunun başına Uruzun niyə qoyulduğunu, Uruzun əsir düşdüyü boyda özünün sübutu ilə izzah edə bilərik.

Müəllim dərs prosesi zamanı inteqrasiyanı uğurlu şəkildə qurduqda əlaqə qeyri-ixtiyarı olaraq şagird təfəkkürünün məhsulu kimi ortaya çıxır. Çünki qəribə quruluşa malik olan şüur öz dərin qatlarında gizlətmiş olduğu bilgiləri ona yaxın informasiya ilə tanış olduqda dərhal irəli sürür. Bu proses zamanı əsas iş müəllimə və onun elmi-metodik hazırlığının üzərinə düşür. Bu məsələyə toxunan Həsən Bakiyev yazır ki: "Hər hansı elmi məlumatı dinlədikdə ilk qazandığımız bilik və vərdişlərə müraciət edir, özü də bunlar istəyimizdən, arzumuzdan asılı olmayaraq xatırlayırıq. "İnsan hər hansı yeni elmi anlayışı araşdırmağa başladıqda, birinci növbədə, ondan əvvəl əldə etdiyi bilik və vərdişlərə istinad edir". [1;24]

**Nəticə:** Səkkizinci sinif ədəbiyyat dərsliyində tədris olunan "Qazan xan oğlu Uruz bəyin dustaq olduğu boy" və "Koroğlu və Bolu bəy" qolunun fəndaxili inteqrasiyası zamanı diqqətimizi çəkən əsas məqamlardan biri də demək olar ki, geniş əlaqə imkanlarına sahib olmaları oldu. Bu dastan nümunələri şagirdlərimizi müsbət istiqamətdə inkişaf etdirməklə yanaşı, həm də bu ideologiyanın təbliğ edən digər nümunələrə də yaxınlaşdırır. Şagirdlər vətənpərvərlik ruhunun təcəssümünü bir dərsdə bir neçə nümunədə görə bilirlər. Bu da onların təfəkkür qabiliyyətini inkişaf etdirib, şəxsiyyətini formalaşdırır. Keçmiş bilik-

ləri yaddaşında axtarıb tapmaqla yanaşı, qazanacağı yeni bilik üçün də möhkəm təməl qurur.

**Ədəbiyyat:**

1. *Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 1996, 2003.*
2. *Əliyev S., Həsənov B., Mustafayeva A., Məmmədova S. Ümumitəhsil məktəblərində 7-ci sinif üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı, 2018.*
3. *Əliyev S., Həsənov B., Mustafayeva A., Verdiyeva N., Məmmədova S. Təhsil məktəblərində 8-ci sinif üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı, 2019.*
4. *Komenski Y.A. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1961, 340 s.*

**F.A.Ağayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***fdnaghayeva99@gmail.com***

# ELMİ-PEDAQOJİ TƏCRÜBƏNİN MAGİSTR HAZIRLIĞINDA YERİ VƏ ROLU

***Xülasə***

*Məqalədə magistrantların elmi-pedaqoji təcrübəsinin magistr hazırlığında yerini və rolunu göstərməkdən ötrü əvvəl təcrübənin elmi-tədqiqat, sonra isə elmi-pedaqoji istiqamətləri araşdırılmışdır. Bu zaman elmi-tədqiqat təcrübəsinin gedişi müddətində elmi rəhbərlərin vəzifələri, təcrübənin təşkili, həcmi, məqsədi və keçirilmə müddəti ortaya çıxarılaraq hesabatın məzmunu öyrənilmişdir. Elmi-pedaqoji təcrübənin məzmununa və fəaliyyətinə daxil olan layihələndirmə, təşkilatçılıq, kommunikativlik, diaqnostiklik, analitik-qiymətləndirmə, refleksivlik növlərinə diqqət yetirilmişdir.*

*Göstərilmişdir ki, magistrantların elmi-pedaqoji təcrübəsi yalnız pedaqoji fəaliyyətlə məhdudlaşmır. Buraya müstəqil laboratoriya və praktiki məşğələlərin, seminarların, kurs işlərinin layihələşdirilməsi, təqdim olunmuş mövzular üzrə sınaq mühazirələrinin oxunuşu da daxildir.*

# МЕСТО И РОЛЬ НАУЧНО-ПЕДАГОГИЧЕСКОГО ОПЫТА В МАГИСТЕРСКОЙ ПОДГОТОВКЕ

***Резюме***

*Для того чтобы показать место и роль научно-педагогической практики магистрантов исследуется научно-исследовательские, а затем научно-педагогические направления практики. При этом в ходе проведения исследовательского эксперимента были определены обязанности научных руководителей, организация, объем, цель и продолжительность эксперимента. Показано, что научно-педагогическая практика включает в себя такие виды, как проектирование, организация, общение, диагностика, рефлексивность, исследовательско-творческая деятельность.*

*Показано, что научно-педагогический опыт магистрантов не ограничивается педагогической деятельностью. Сюда входит разработка лабораторных дел практикумов, семинаров, курсовых и пилотных лекций по представленным темам.*

# PLACE AND ROLE OF SCIENTIFIC-PEDAGOGICAL EXPERIENCE IN MASTER'S PREPARATION

***Summary***

*In order to show the place and role of scientific-pedagogical practice of masters scientific-research, and then scientific-pedagogical directions of practice are studied. In this case, during the research experiment, the responsibilities of supervisors, the organization, scope, purpose and duration of the experiment were identified, the content of the report was studied. It has been proved that scientific-pedagogical practice includes such types as design, organization, communication, diagnostics, reflexivity, research-creativity, which are included in the content and activity.*

*Also states that the scientific and pedagogical experience of masters is not limited to pedagogical activities. This includes the design of independent laboratories and workshops, seminars, and pilot lectures on the topics presented.*

**Açar sözlər:** təhsil, magistr, təcrübə, pedaqoji, məqsəd, vəzifə

**Ключевые слова:** образование, магистр, практика, педагогическая, цель, должность

**Key words:** education, master, practice, pedagogical, purpose, position

Magistrantların elmi-pedaqoji təcrübəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 18 sentyabr tarixli “Ali (orta ixtisas) təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında əsasnamə” yə uyğun olaraq keçirilir. Bu Əsasnamə Azərbaycan Respublikasının Təhsil Qanununa, ali (orta ixtisas) təhsil müəssisələri haqqında Əsasnaməyə, Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasına, müxtəlif istiqamətlər (ixtisaslar) üzrə dövlət təhsil standartlarına, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin müvafiq müddəalarına və digər normativ hüquqi sənədlərə uyğun hazırlanmışdır.

”Magistrantların elmi-pedaqoji təcrübəsinin başlıca məqsədi müvafiq ixtisas üzrə əldə olunmuş bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi, magistrantların pedaqoji və metodiki iş vərdişləri aşılamaq, ali məktəb müəlliminə xas olan peşə bacarıqları formalaşdırıb inkişaf etdirməkdən ibarətdir.” [3, s.7]

Elmi-pedaqoji təcrübə magistr proqramının mühüm tərkib hissəsi olaraq gələcək magistrlərin ixtisas yönümlü fənlərin tədrisi üzrə elmi-pedaqoji fəaliyyətlərinin zəruri elmi-praktiki bilgi, müvafiq səriştə və bacarıq aşılama ilə zənginləşdirilməsini təmin edən təhsil prosesinin məcburi formalarından biridir. Təcrübənin təşkili, həcmi, məqsədi və keçirilmə müddəti mütəxəssis hazırlığı aparılan müvafiq istiqamətlər (ixtisaslar) üzrə dövlət təhsil standartları ilə müəyyənləşdirilir.

Magistrantlar elmi-tədqiqat və elmi-pedaqoji təcrübə keçməlidirlər:

M.İ.Verdiyeva və Ə.İ.İsmayılxanova təcrübənin gedişi müddətində elmi rəhbərlərin vəzifələrinə aşağıdakıları daxil etmişlər:

-Məsləhət saatlarının cədvəlini tərtib edir, tapşırığı icra etməsi üçün magistrantlara kömək edir, tapşırıqların icrası zamanı qarşıya çıxan problemlərin aradan qaldırılmasına yardım edir;

-Magistrantın sənədlərini toplayır, təcrübənin yekunu üçün hesabat hazırlayır;

-Nəticələrin toplanmasını və sistemləşdirilməsini təşkil edir;

-Magistrantın iş planını, təqvim-tematik, təhsil intizamını və onların müzakirəsini aparmaq üçün məşğələlər təşkil edir;

-Məşğələlərin mövzusunu təsvir edir və magistrantlar arasında yayır;

-Məşğələlərin aparılmasına hazırlaşmaları üçün magistrantlara məsləhətlər verir, məşğələ üçün hazırladıqları qeydləri yoxlayır və təsdiq edir;

-Təcrübəçinin ümumtəhsil orta məktəblərində müşahidələri zamanı lazım gələrsə iştirak edir və fənn müəllimləri ilə müsahibələr aparır. .” [4, s.6]

Elmi-tədqiqat təcrübəsinin məqsədi–tələbələrin elmi-tədqiqat fəaliyyəti üçün hazırlanmasını, peşə biliklərinin artırılmasını, sistemləşdirilməsini, elmi-tədqiqat işlərinin sərbəst şəkildə yerinə yetirilmə vərdişlərinin formalaşdırılmasını və buraxılış işinin (magistrlik dissertasiyasının) yerinə yetirilməsini təmin etməkdir.

Elmi-tədqiqat təcrübəsinin vəzifələrinə tələbələri ixtisasın profilindən və xüsusiyyətindən asılı olaraq yeni texnologiyalarla, mütərəqqi iş üsulları ilə, müasir elmi-tədqiqatlarla və digər məsələlərlə tanış etmək, elmi-biblioqrafik axtarışın təşkilində istifadə olunan üsullar və formalarla tanış olunması (o cümlədən elektron kataloqlarla və internet vasitəsi ilə axtarışlar həyata keçirilməsi), tələbələrdə işgüzarlıq, təşkilatçılıq və birgə çalışmaq vərdişlərini yaratmaq və eləcə də aktual elmi problemlərin müəyyən edilməsi və onların tədqiq edilməsində təcrübə toplanması aiddir.

Elmi-tədqiqat təcrübəsində magistrantlar müəyyən tapşırıqlar verilməlidir ki, bu tapşırıqlara isə kafedranın elmi işləri ilə tanış olmaq, metodikaya aid tədqiqatın mövzusuna uyğun biblioqrafiya tərtib etmək, mənbələrin xarakteristikası və təsnifatını, mənbələrlə işləmə metodikasının öyrənilməsini həyata keçirmək, magistr dissertasiya işinin ilkin variantının giriş hissəsini yazmaq aiddir.

Təcrübə müddətində magistrantlar müşahidələrin aparılması və anket sorğusunun keçirilməsi, problemlərin müəyyən edilməsi üçün ümumtəhsil orta məktəblərində, elmi-metodiki ədəbiyyatı araşdırmaq üçün isə kitabxananın oxu zalında və arxivlərdə işləyirlər. Elmi-tədqiqat təcrübəsinə cəlb edilmiş magistrantlar peşə ixtisasının təcrübi tərəflərinin tədqiq edilməsini və verilmiş dissertasiya mövzusunun yazılmasını təmin etmək üçün lazım gələn məqsədə müvafiq bir sıra vəzifələri icra etməlidirlər. Hər bir magistrant ona verilmiş və

müvafiq kafedrada təsdiq olunmuş metodiki mövzu üzrə tədiqat aparmaq üçün ilk öncə yazılacaq dissertasiya işinin müasir təhsil üçün aktuallığını aydınlaşdırmalıdır. Bunun üçün ilkin olaraq təhsilə aid sənədlərlə tanış olmalıdır. Bu tanışlıq imkan verir ki, magistrant mövzunun tədqiq edilməsinin təhsil üçün əhəmiyyətli olmasını dərk etsin. Eyni zamanda magistrant özü üçün müəyyən etməlidir ki, onun tədqiqatı Azərbaycan Respublikasının təhsil sahəsində dəyərə malik olacaqdır, təlim və təcrübə zamanı müəyyən etdiyi mövcud problemlərin aradan qaldırılmasına xidmət edəcəkdir. Təcrübənin ilk birinci həftəsi təhsil müəssisələrində təlim və tərbiyə prosesinin müşahidəsinə həsr olunur. Təcrübənin idarə edilməsi birbaşa magistrantların elmi rəhbərləri tərəfindən həyata keçirilir. Elmi rəhbər magistrantların elmi-tədqiqat tapşırıqlarını fərdi olaraq hazırlayır. Tapşırığın vaxtında və keyfiyyətli yerinə yetirməsi üçün magistrə elmi-metodiki kömək göstərir. Təcrübə zamanı verilmiş tapşırığın magistrant tərəfindən necə icra edilməsini nəzarətə götürür, növbəti mərhələ üçün yeni tapşırıqlar hazırlayır. Elmi-tədqiqat təcrübəsi üzrə hesabatın əsas hissəsində isə elmi-tədqiqat təcrübəsi üçün müəyyən edilmiş (yerinə yetirilməsi lazım olan) tapşırıqlar , elmi-tədqiqat işinin məqsədi aydınlaşdırılır. Mövzunun elmi və təcrübi əhəmiyyətinin dəyərləndirilməsi göstərilir. Əldə olunan materialların analizi verilir. Magistr dissertasiyasında qoyulan məsələnin həlli üçün seçilmiş tədqiqat üsulu əsaslandırılır. Müasir elmi və təcrübi nailiyyətlərdə tədqiq olunan məsələnin yeri, gələcək tədqiqatların istiqamətləri müəyyənləşdirilir. Nəticə və təkliflər göstərilir. Təcrübədə əldə olunan nəticə olaraq elmi-pedaqoji və ya elmi-tədqiqat təcrübəsində qarşıya qoyulan məsələlərin yerinə yetirilməsi dəyərləndirilir, təcrübə zamanı ortaya çıxan problemlərin aradan qaldırılması yolları və s. göstərilir. Ədəbiyyat siyahısına yalnız hesabatın tərtib olunmasında istifadə olunan kitablar, məqalələr, internet mənbələri və s. daxil edilir.

Hesabatın müdafiəsi: Hesabat yoxlama üçün təcrübə rəhbərinə təqdim edilir. Təcrübə rəhbəri tərəfindən magistrin təcrübə proqramının necə yerinə yetirilməsi araşdırılır. Hesabatın nəticələri kafedra iclasında magistrantın iştirakı ilə müzakirə edilir və yekun qiymət verilir.

Göründüyü kimi, hesabatın məzmunu təcrübə müddətində görülən işləri özündə əks etdirməlidir. Hesabatda təcrübənin gedişi, müşahidələrin nəticələri, magistr dissertasiyasının girişi və biblioqrafik siyahının ilkin variantının mətni magistrant tərəfindən hesabata əlavə edilir.

Elmi rəhbərlərdən və fakültə üzrə təcrübə rəhbərindən ibarət elmi komissiya təşkil edillir və magistrant onların qarşısında hazırladığı hesabatı müdafiə edir. Fakültə üzrə təcrübə rəhbəri tərəfindən yekunlaşdırıcı akt tərtib edilir.Yekun nəticə barədə təcrübə rəhbəri Universitetin Elmi İşlər üzrə prorektoruna hesabat verir. Ə.Ə. Nəbiyev, E.Ə.Bayramova görə, "magistrlərin elmi-pedaqoji təcrübəsi yalnız pedaqoji fəaliyyətlə məhdudlaşmır. Buraya müstəqil laboratoriya və praktiki məşğələlərin, seminarların, kurs işlərinin

layihələşdirilməsi, təqdim olunmuş mövzular üzrə sınaq mühazirələrinin oxunuşu daxildir.” [2, s.3] Elmi-tədqiqat təcrübəsi haqqında hesabatda magistr dissertasiyasının mövzusu ilə əlaqədar və ya yerinə yetirilmiş digər elmi-tədqiqat işinin məqsədi izah edilir, toplanmış materialların analizi verilir, nəticələr və təkliflər şərh edilir.

Elmi-pedaqoji təcrübənin məzmununu aşağıdakı fəaliyyət növləri və istiqamətləri əhatə edir:

- ✓ layihələndirmə;
- ✓ təşkilatçılıq;
- ✓ kommunikativlik;
- ✓ diaqnostiklik;
- ✓ analitik-qiymətləndirmə;
- ✓ refleksivlik;
- ✓ tədqiqat-yaradıcılığı.

Elmi-pedaqoji təcrübənin məqsədi–pedaqogikanın təcrübi əsaslarının mənimsənilməsi və vərdişlərin əldə edilməsi, elmi metodik materialların (işçi tədris planının, fənlərin proqramının, tədris-metodiki vəsaitlərin və tövsiyələrin) tərtib olunma metodikasının mənimsənilməsi, təcrübəli müəllimlərin apardığı mühazirələrdə və seminarlarda iştirak olunması, bakalavr tələbələri üçün sınaq dərslərinin keçirilməsidir. Magistr hazırlığında elmi-pedaqoji təcrübənin digər bir vacib xüsusiyyəti ondadır ki, magistratura məzunlarının gələcək fəaliyyəti əksər hallarda rəhbər vəzifələrdə çalışması, yəni işçi personalın təlimi (tədris materiallarının hazırlanması üçün bacarıq və vərdişlərin əldə edilməsi, təlim proqramlarının planlaşdırılması, seminarların keçirilməsi) ilə əlaqədardır. Elmi-pedaqoji təcrübənin vəzifələri:

-Ali təhsil müəssisəsinin idarəetmə sistemi haqqında təsəvvürün formalaşdırılması

-Tələbənin ali məktəbdə aldığı nəzəri bilikləri möhkəmləndirmək, dərinləşdirmək və sonrakı əmək fəaliyyətində istifadəsini təmin etmək;

-Pedaqoji ixtisaslar üzrə təhsil alan tələbələrdə pedaqoji peşəyə olan marağı möhkəmləndirmək və təlim-tərbiyə işlərini yaradıcılıqla həyata keçirmək bacarığını inkişaf etdirmək.

-Tədris işinin təşkilinin, məzmununun və planlaşdırılmasının əsas formaları ilə tanış olmaq;

-Ali təhsil sahəsində çalışan müəllim üçün peşə vərdişlərinin formalaşdırılması və inkişaf etdirilməsi;

-Ali məktəb pedaqogikası üzrə əsas biliklərin, tədris, metodiki və tərbiyə işlərinin sərbəst olaraq yerinə yetirilməsində bacarıq və vərdişlərin əldə edilməsi.

Məlum məsələdir ki, elmi-pedaqoji təcrübə müddətində magistrantlar təhkim olunduğu ixtisas kafedrasının pedaqoji kollektivinin üzvü hesab olunur və kafedranın bütün işlərində iştirak edir. Onlar təhsil müəssisəsinin pedaqoji kollektivi ilə əməkdaşlıq edir, təlim-tərbiyə prosesinin təşkilini, qabaqcıl müəllimlərin iş təcrübəsini öyrənir. Müasir metod, texnologiya və priyomlardan istifadə etməklə təcrübə rəhbərinin müəyyənləşdirdiyi mövzu üzrə praktiki məşğələlərə hazırlaşır və onu keçirir, laboratoriya və təqdimatlar hazırlayır və mövzular üzrə məruzələr tərtib edir, işgüzar oyunların keçirilməsində iştirak edirlər.

Elmi-pedaqoji təcrübə imkan verir ki, magistrantlar ali məktəb müəllimlərinin elmi-tədqiqatçılıq fəaliyyəti ilə də yaxından tanış olsunlar. Elmi-pedaqoji təcrübənin vacibliyini şərtləndirən bir çox amillər vardır. Bu amillərə: ali təhsil müəssisəsində tədqiqatçılıq bacarığının əldə edilməsi, bu bacarıqlardan magistr dissertasiya işinin yazılmasında və praktik pedaqoji fəaliyyətdə istifadə imkanlarının üzə çıxarılması, tədris prosesində əldə olunan nəzəri hazırlıq praktik fəaliyyətlə əlaqələndirərək elmi-pedaqoji təcrübənin gedişatında nəzəri biliklərdən konkret təcrübi tapşırıqların həllində istifadə etmək.

Magistrantlar ali məktəb müəllimlərinin tələbələrlə mühazirə, seminar, laborator məşğələlər aparmaları ilə əyani tanış olsalar da, elmi-tədqiqat işinin təşkili və aparılması kifayət qədər "tanış olmayan" sahədir. Məhz elmi-pedaqoji təcrübə imkan verir ki, magistrlər ali məktəbdə çalışan pedaqoji heyətin fəaliyyəti ilə yaxından tanış olsunlar.

"Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında əsasnamə"də gösərilir ki, "Magistr pilləsində təhsil alanlar isə pedaqoji və elmi-tədqiqat təcrübələrini təhsil aldıqları ali məktəblərdə və respublikada fəaliyyət göstərən elmi-tədqiqat qurumlarında keçirlər." [1]

Elmi-pedaqoji təcrübənin gedişi prosesində magistrlər elmi-pedaqoji əməyin spesifik xüsusiyyətləri ilə tanış edilərək, pedaqoji funksiyaları layiqincə yerinə yetirmə bacarıq və vərdişləri onlarda inkişaf etdirilir. Onlarda eləcə də elmi-pedaqoji problemlərin həllinə yaradıcı yanaşma tərzi, ali təhsil müəssisələrində pedaqoji prosesin təşkili formaları, metod və prinsipləri, müəllimə verilən başlıca tələblərin praktik olaraq icra mexanizmini, tədris məşğələlərinin layihələndirilməsi və təşkili, auditoriya qarşısında çıxış etmə, məşğələnin gedişatı prosesində fəal, yaradıcı, işgüzar təlim mühitinə şəraitin yaradılması, pedaqoji fəaliyyətin nəticələrinin dəyərləndirilməsi kimi keyfiyyətlər inkişaf etdirilir. Yaranan və ya yarana biləcək çətinlikləri təhlil etmə və onarın həll variantlarının tapılması, elmi-tədqiqat işlərinin aparılması metodikası ilə birbaşa məşğul olmaları üçün şərait yaradılır.

Təcrübənin yekununda magistrant elmi rəhbəri ilə birlikdə yazılı hesabat hazırlayır və fakültə üzrə təcrübə rəhbərinə təqdim edir. Təcrübə haqqında hesabat magistrantın təcrübə zamanı fəaliyyətini xarakterizə edən əsas sənəddir.

Elmi-pedaqoji təcrübə haqqında hesabata keçirilmiş dərslərin metodik təminatı (dərsin qısa məzmunu, yoxlama sualları, məsələlər, testlər və ədəbiyyat siyahısı) daxil edilməlidir. Elmi-pedaqoji təcrübənin hesabatı (titul vərəqi, giriş, əsas hissə, təcrübədə əldə olunan nəticə, ədəbiyyat siyahısı). Həcmi ən az 5 səhifə olmalıdır (istifadə olunan ədəbiyyat siyahısı və əlavələr istisna olmaqla). Titul vərəqi istehsalat təcrübəsi üzrə tərtib olunan hesabatın birinci səhifəsidir. Elmi-pedaqoji və elmi-tədqiqat təcrübələri müxtəlif vaxtlarda keçirildiyindən hər bir təcrübə üçün ayrı hesabat yazılmalıdır. Elmi-pedaqoji təcrübə üzrə hesabatın əsas hissəsində:

-Magistrantların elmi-pedaqoji təcrübəsi üçün müəyyən edilmiş (yerinə yetirilməsi lazım olan) tapşırıqlar, magistrantın müəyyən edilmiş dərsi tədris etməsi üçün tanış olduğu metodika təsvir edilir. Magistrantın dinləyici olaraq iştirak etdiyi mühazirələr və seminar məşğələləri haqqında rəyi (dərsin tədrisində istifadə olunan metodikanın təsviri) izah edilir. Görülən işlərin qısa təsviri və yerinə yetirilmə tarixləri göstərilir.

**Ədəbiyyat:**

1. *Ali( orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında əsasnamə. http: //www.e-qanun.az/framework/15508*
2. *Nəbiyev Ə.Ə., Bayramova E.Ə. Magistrantların elmi-pedaqoji təcrübəsinin keçirilməsinə dair metodik göstəriş. Gəncə, STAP çap evi, 2019, 24 səh.*
3. *Orucova S. Magistr hazırlığı sistemində elmi-pedaqoji təcrübənin yeri və rolu. //Azərbaycan ali təhsilinə beynəlxalq prizmadan baxış: problemlər və perspektivlər, 23 may 2019, Azərbaycan Universiteti, s.71-77*
4. *Verdiyeva M.İ., İsmayılxanova Ə.İ. Magistrantların elmi-tədqiqat təcrübəsi. Bakı, 2018, 9 səh.*

**T.Ə.Mirzəyev**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***taleh.mirzeyev.cog2003m@adpu.edu.az***
***mirzayev.taleh@gmail.com***

# COĞRAFİYA DƏRSLƏRİNDƏ DİSTANT TƏDRİS TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN PERSPEKTİVLƏRİ

***Xülasə***

*Məqalədə coğrafiya fənninin tədrisində distant tədris texnologiyaları – müxtəlif proqram təminatları, web-2 alətlərindən istifadənin imkanları və üstünlükləri, o cümlədən bu sahədə ölkəmizdə mövcud vəziyyət, problemlər və həlli yolları araşdırılır. Xüsusən koronavirus pandemiyası fonunda onlayn tədris vasitələrinin aktuallığı və yaranan vəziyyətdə ölkə təhsil sisteminin cavab reaksiyaları təhlil olunur. Coğrafiya fənninin tədrisində Microsoft Teams platformasının imkanları nəzərdən keçirilir. Aparılan təhlillər əsasında ortaya çıxan əsas problemlər bəndlər üzrə təqdim olunur. Aşkarlanan problemlərin həlli üçün konkret təkliflər irəli sürülür.*

# ПЕРСПЕКТИВЫ ИСПОЛЬЗОВАНИЯ ТЕХНОЛОГИЙ ДИСТАНЦИОННОГО ОБУЧЕНИЯ НА УРОКАХ ГЕОГРАФИИ

***Резюме***

*В статье рассматриваются дистанционные образовательные технологии в обучении географии - различное программное обеспечение, возможности и преимущества использования инструментов веб-2, а также текущая ситуация, проблемы и решения в этой области в нашей стране. Особенно на фоне пандемии коронавируса анализируется актуальность онлайн-учебных пособий и реакция системы образования страны на сложившуюся ситуацию. Рассмотрены возможности платформы Microsoft Teams в обучении географии. На основе анализа основные возникающие проблемы представлены в пп. Выдвигаются конкретные предложения по решению выявленных проблем.*

# PERSPECTIVES ON THE USE OF DISTANCE LEARNING TECHNOLOGIES IN GEOGRAPHY LESSONS

***Summary***

*The article examines distance learning technologies in the teaching of geography - various software, opportunities and benefits of using web-2 tools, as well as the current situation, problems and solutions in this area in our country. Especially against the background of the coronavirus pandemic, the relevance of online teaching aids and the response of the country's education system to the current situation are analyzed. The possibilities of the Microsoft Teams platform in teaching geography are*

*considered. Based on the analysis, the main problems that arise are presented in paragraphs. Specific proposals are put forward to solve the identified problems.*

***Açar sözlər:*** *distant dərs, coğrafiya, Microsoft Teams, web-2 alətləri*
***Ключевые слова:*** *дистанционное обучение, география, Microsoft Teams, инструменты web-2*
***Keywords:*** *distance learning, geography, Microsoft Teams, web-2 tools*

**Giriş. Problemin aktuallığı.** Pandemiya şəraitində distant tədris texnologiyalarından istifadənin perspektivləri aktuallıq kəsb etməyə başladı. Belə ki, 2020-ci ilin ilin mart ayından etibarən Azərbaycanda da tədrisin bütün səviyyə və pillələrdə onlayn müstəviyə daşınması məcburiyyəti yeni bir təfəkkürün və təlim şəraitinin yaranması demək idi. Burada ən önəmli məsələ ölkənin güclü texniki və elmi-texniki potensialı, müəllimlərin texnoloji savadı və ən mühümü çevik reaksiya bacarıqlarıdır. Hələ əvvəlcədən mövcud olan bir çox onlayn görüş, telekonfrans, videokonfrans, mesajlaşma və ani ünsiyyət platformaları bu vəziyyətdə üstünlüyü ələ aldılar. Lakin bu böyük və dövlət təhsil siyasəti əhəmiyyətli bir məsələ olduğundan əksər dövlətlərdə, o cümlədən Azərbaycanda qısa zamanda dünyanın aparıcı onlayn distant tədris platformaları ilə sazişlərin imzalanmasına, təcrübə mübadiləsinə başlanıldı. Bu baxımdan distant təhsil texnologiyalarının ən praktik və əyani ümumhəyati fənlərdən biri olan coğrafiyanın tədrisində açdığı imkanlar və perspektivlərin təhlili olduqca vacibdir [1].

**Covid-19 pandemiyası fonunda coğrafiyadan distant dərslərin ilkin vəziyyəti.** Ölkəmizdə bu sahədə coğrafiya müəllimləri ilk olaraq Votsap, ardınca, feysbuk, daha sonra nisbətən onlayn dərslər üçün daha funksional olan teleqram şəbəkələrindən istifadə olunmağa başladılar. Bir qədər sonra isə professional videogörüş xidmətləri təklif edən Skype və Zoom platformalarının imkanlarından istifadə olunmağa başlanıldı [3].




***Şəkil 1. Microsoft Teams platformasında komandalar pəncərəsinin veb rejimdə görünüşü***

Nəhayət, bu məsələdə Təhsil Nazirliyi dünyanın onlayn təhsil üzrə iki nəhəng şəbəkəsi olan Moodle və Microsoft Teams proqramları üzərində dayandı. Azərbaycasn hökuməti ali və orta məktəblərdə tədrisin onlayn təşkili üçün Microsoft firması ilə müqavilə bağladı və nazirlik orta məktəblərdə onlayn təhsil portalı – www.virtual.edu.az-ı yaradaraq "Microsoft Teams"-lə inteqrasiya etdi. Proqramın telefon, kompüter tətbiqləri və sayt variantları var. Bu proqram sırf tədris və professional görüşlər üçün nəzərdə tutulub və bunun üçün bir çox funksiyalara və xeyli veb alətlərlə inteqrasiya imkanlarına malikdir. Hər şeydən öncə proqram korparativ Microsoft elektron poçtu ilə bütün Office 365 proqramları ilə onlayn əlaqədədir və müəllim və şagirdlər istənilın növ (mətn, cədvəl, kviz, audiovizual və s.) fayllar üzərində əməkdaşlıq rejimində birgə çalışa bilərlər [6].



***Şəkil 2. Coğrafiyadan distant dərs görüntüsü (Yardımlı rayonu Ə.Ş.Nəsirov adına Honuba-Şıxlar kənd tam orta məktəbi)***

**Coğrafiya fənninin tədrisində Microsoft Teams platformasının imkanlarından istifadə.** Sistemə inteqrasiya olunan web-2 alətlərinin sayı gündən-günə artmaqda davam edir. "Microsoft Teams"-də elektron təqvim, jurnal, davamiyyət statistikası (İnsignt), şagirdlərlə canlı videoünsiyyət, sıralama üçün əlqaldırma funksiyası, dərsi əyaniləşdirmək üçün ekran paylaşımı imkanları, o cümlədən onlayn Microsoft Whiteboard (Microsoft Bəyaz lövhə), tapşırıqlar əlavə etmək, onları onlayn rejimdə avtoqiymətləndirmək və s. kimi xeyli imkan vardır. Bəyaz lövhə ilə biz şagirdlə əməkdaşlıq şəraitində lövhədə müəyyən coğrafi hadisəni, hesablamanı təsvir edir, sonra isə, məsələnin davamını şagirdin etməsini istəyirik, şagird isə öz kompüterindən (yaxud smartfon) löhvədə bizim yazdıqlarımızı davam etdirir. Sanki canlı löhvə effekti yaranır. Dəyişikliklər bütün şagirdlərin monitorunda əks olunur. İstənilən şəxsin icra etdiyi əməliyyata düzəliş etmək, əlavələr etmək, eyni zamanda bir neçə nəfərin eyni vaxta işləməsi də mümkündür. Biz lövhədə əməkdaşlıq rejimində qələm və kompüterdə yazma, rəsm çəkmə, sxem, foto, video, səs faylı əlavə etmə kimi funksiyalardan istifadə edə bilərik [5].




***Şəkil 3. Microsoft Whiteboard (Microsoft Bəyaz lövhə) proqramının iş masası.***

Digər önəmli bir funksiya "Microsoft Teams"-ə inteqrasiya olunmuş və onlayn qiymətləndirmə vasitələrini hazırlamağa və şagirdlərə seçdiyimiz zaman aralığında təqdim olunub avtoqiymətləndirməyə imkan verən "Microsoft Forms" proqramıdır. Bu proqramla hazırlanan tapşırıqlar istənilən tipdə tərtib edilə bilər (açıq və qapalı testlər, situsasiya, reytinq, tarix, fayl yükləmə). Burada suallara video, foto, hiperlink əlavə etmək imkanları, hər bir sualda şagirdlə əks-əlaqə mesajı qoymaq və s. mümkündür [2].




***Şəkil 4. "Microsoft Forms" proqramının tapşırıqlar pəncərəsi***

Onlayn dərslərdə istifadə oluna bilən, "Teams"-ə inteqrasiya oluna bilən digər əyləncəli öyrədici proqramlardan Lirininq [4], vordval, flipgrid və s-ni misal göstərmək olar.




***Şəkil 5. "LearningApps.org" platformasında öyrədici coğrafi oyun***

Bunlardan əlavə 3D virtual reallıq texnologiyaları və yaxşı işlənmiş coğrafi tədris və sənədli film və animasiyaları ilə distsant şəraitdə internet imkanları ilə şagirdlərin fəza təsəvvürləri və yaradıcı təfəkkürlərini yüksək səviyyədə inkişaf etdirmək mümkündür. Lakin təəssüf ki, bu sahədə zəngin informasiya bankımız hələ ki yoxdur. Müəyyən dövlət qurumlarının və fərdi müəllimlərin hazırlayıb internet resurslarda yerləşdirdiyi videodərslərlə kifayətlənir. Bu sahədə bir təqdirəlayiq və olduqca əhatəli telekommunikasiya vasitəsi kimi 2020-ci ilin martın ayından tətbiq olunan Təhsil Nazirliyinin "Mədəniyyət TV" və "ARB Günəş TV"-də yayımlanan "Dərs vaxtı" teledərslər proqramını misal göstərmək olar.

**Nəticə.** Müxtəlif texniki və proqram İKT vasitələri istər əyani, istərsə də, onlayn tədrisdə coğrafiyanın tədrisinə xeyli imkanlar açır. Lakin hər sahədə olduğu kimi burada da müəyyən problemlər özünü göstərir. Coğrafiya fənninin tədrisində İKT-nin tətbiqinin problemləri iki tərəflidir:

1. *fənnin olduqca əyani təbiətini mənimsətmək üçün olduqca böyük əmək tələb edən müxtəlif çeşidli və proqram təminatlı nəhəng coğrafi databazanın yaradılması problemi;*
2. *müəllimlərin texniki, dil və proqramlarda işləmə bacarıqları problemi.*

***Təhlillərin nəticələrinə əsasən ortaya çıxan problemlər:***

- müəllimlərin texniki və proqram savadının çatışmazlığı;
- texniki vasitələrlə təminat;
- şagirdlərin kompüter və internet məhsullarından məqsədli istifadəsi problemi;
- onlayn tədris platformalarının imkanlarının əlaxsus əyaniliyi təmin edən ekran paylaşımı, modelləşdirilmiş təsvirlərlə iş və s. baxımından müəllimlər tərəfindən kütləvi mənimsənilməməsi;
- onlayn şəraitdə əksər rayon və kəndlrdə internet və avadanlıq problemi;
- onlayn platformaların beynəlxalq transmilli korporasiyalara aid olması baxımından ölkənin təhsil infrastrukturunun məlumat bazasının və

təhsilverən və təhsilalanların şəxsi informasiya təhlükəsizliklərinin şübhə altnda qalmaları və s.

***Bu problemləri həll etmək üçün əsas təkliflər:***

- müəllimlər üçün kurslar (artıq müəyyən işlər görülür);
- texniki təminatı yaxşılaşdırmaq üçün layihələrin icrası, xüsusın dəqiq cihazqayırmanın inkişafı;
- Şagird cihazlarında onları zərərli informasiyalardan qoruyan filtrlərin quraşdırılması və xüsusi proqramların istifadəsi (məsələn, Youtube kids);
- Virtual reallıq əsasında fəza təsəvvürləri yaradan tədris elektron muzey, ekskursiya portallarının yaradılması;
- Telekommunikasiya infrastrukturunun gücləndirilməsi;
- Milli tədris platformalarının, güclü və etibarlı serverlərin yaradılması;
- Valideynlər arasında maarifləndirmə.

**Ədəbiyyat:**

1. *https://dommaster18.ru/az/how-to-fix/pro-ikt-sredstva-ikt-i-ih-klassifikaciya-sredstva-informacionno-kommunikativnyh-tehnologii-ikt/*
2. *https://forms.office.com/*
3. *https://ikisahil.az/post/244664-koronavirus-ve-mektebler-azerbaycan-ve-dunya-olkelerinde-dersler-nece-bashlayir*
4. *https://learningapps.org/*
5. *https://www.microsoft.com/en-ww/microsoft-365/microsoft-whiteboard/digital-whiteboard-app*
6. *www.virtual.edu.az*

**“Magistrant” dövri elmi jurnalında nəşr olunmaq məqsədi ilə təqdim edilən məqalələr üçün**

# TƏLƏBLƏR

- “MAGİSTRANT” dövri elmi jurnalında magistraturada təhsil alan magistrantların nəşr olunmamış elmi məqalələri qəbul edilir. Məqalə **Azərbaycan, ingilis, türk və ya rus** dilində jurnalın elektron ünvanına – **j.magistrant@adpu.edu.az**, **a_zamanov@mail.ru (müvafiq kafedra iclasının qərarı və elmi rəhbərin müsbət rəyi ilə)** göndərilir.
- Məqalə **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (70-100 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalədə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- Məqalənin həcmi **4-7 səhifə (15000-18000 işarə)** həcmində qəbul edilir.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba sırası ilə nömrələnməlidir. Məsələn: [5, s.152].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstərilməlidir.
- Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə verilən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalə geri qaytarılmır.

*Çapa imzalanmış 30.03.2022*
*Kağız formatı 60x84 1/16, çap vərəqi 33*
*Sifariş 452, sayı 100*

*ADPU-nun mətbəəsi*
*Bakı, Ü.Hacıbəyli küçəsi, 68*
*Tel: (+912)493-74-10*
*E-mail: poliqrafiya@mail.ru*